AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 15

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2019

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Əsgər Rəsulov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Həbib Zərbəliyev, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., prof. Tofiq Hacıyev, f.ü.e.d., prof. Sevil Mehdiyeva, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, f.ü.f.d., dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2019, № 15

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2019

www. filologiyameseleleri.net

DİLÇİLİK

МАФКЮРА ГУСЕЙНОВА
АМУ, доктор философии по филологии, доцент
С.Вургун, 167
huseynova.10@mail.ru

КАТЕГОРИЯ СКАЗУЕМОСТИ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Резюме

Обшая характеристика категории сказуемости - дается краткий обзор трудов, в которых затрагиваются различные аспекты категории сказуемости. В Азербайджанском языкознании вплоть до 50-х гг. отсутствовало представление о сказуемости как отдельной грамматической категории. Впервые особый раздел "Категория сказуемости" появился в монографии М.Ш.Ширалиева "Бакинский диалект". Этот раздел включался и во многие последующие научные труды и учебники Азербайджанского языка. Как известно, реально существующее в языке единство грамматического значения и средства его формально-грамматического выражения есть один из важнейших объектов грамматического изучения. Как известно, в Азербайджанском языке категория сказуемости является одной из общих грамматических категорий. А.М.Пешковский, который впервые ввел термин "сказуемость" в русское языкознание, пишет, что "категория сказуемости образуется как совокупность свойствразличных форм сказуемого". Другими словами, сказуемость является морфологическим признаком различных частей речи, выступающих вфункции сказуемого, тем самым отграничивается от смежного понятия - предикативности. Как указывает В.З.Панфилов, сказуемость и предикативность - это "явления двух различных уровней предложения, именно соответственно синтаксического и логико-грамматического". План выражения категории сказуемости составляют аффиксы сказуемости, инвентарь и употребление которых в сферах имени и глагола обнаруживают определенные различия.

Средствами выражения именной сказуемости в Азербайджанском языке являются: в I лице единственного числа аффикс -am/-əm, -yam/yəm, в I лице множественного числа -ıq/-ik, -uq, -ük/, -yıq/, -yik, -yuq, -yük, во II лице единственного числа -san, -sən, во II лице множественного числа -sınız, -siniz, -sunuz, -sünüz, в III лице единственного числа -dır, -dir, -dur, -dür, в III лице множественного числа -dırlar, -dirlər, -durlar, -dürlər.В I лице единственного числа после основ, оканчивающихся на согласный, употребляется аффикс -ам/-әм, а после основ на гласный -jам/jəм. Именная сказуемость I лице множественного числа обозначается аффиксами -ıq, -ik, -uq, -ük, -yıq, -yik, -yuq, -yük. В фонетическом облике аффикса именной сказуемости II лица единственного числа особенно ярко проявляется эго местоименное происхождение. В процессе превращения в показатель сказуемости местоименное второго лица -sən подверглось аффиксализации, о чем свидетельствует существование двух сингармоничных вариантов аффикса сказуемости -san/-sən. К указанному обстоятельству привлекает внимание Н.К.Дмитриев, рассматривая происхождение аффиксов сказуемости. В формах II лица множественного числа аффиксов сказуемости -sınız, -siniz, -sunuz, -sünüz представлены реликты личных местоимений, использовавшихся в качестве показателей сказуемости.Аффикс именной сказуемости III лица единственного числа -dır, -dir, -dur, -dür, в отличие от аффиксов других лиц, не связаны с личным местоимениями. Как в огузской, так и

кыпчакской группе тюркских языков эти аффиксы обнаруживают генетическую близость и типологическое сходство. Вместе с тем в употреблении их наблюдается и определенные различия.

Ключевые слова: Азербайджанская лингвистика, категории сказуемости, грамматика, значение, предикативность, суффикс, лицо

Общая характеристика категории сказуемости - дается краткий обзор трудов, в которых затрагиваются различные аспекты категории сказуемости, причем привлекаются работы не только по Аазербайджанскому, но и другим тюркским языкам, а также по общему языкознанию. В Азербайджанском языкознании вплоть до 50-х гг. отсутствовало представление о сказуемости как отдельной грамматической категории. Морфологические средства образование именного сказуемого назывались аффиксами сказуемого /xəbər şəkilçiləri/или личным окончаниями. Для показателей же глагольной сказуемости использовался термин "личные аффиксы" /оканчания/. Впервые особый раздел "Категория сказуемости" /"Xəbərlik kateqoriyası"/ появился в монографии М.Ш.Ширалиева "Бакинский диалект", зданной в 1949 г. Этот раздел включался и во многие последующие научные труды и учебники Азербайджанского языка. Однако даже в специальных работах по грамматике Азербайджанского и других тюркских языков характеристика категории сказуемости отличается схематичностью, неполнотой, а зачастую непоследовательностью и противоречивостью, и, будучи ограниченной рамками именного сказуемого, не раскрывает сущности названной категории. Поэтому проблема категории сказуемости в тюркологии требует дальнейшей разработки, причем существенные результаты при исследовании сказуемости как самостоятельной грамматической категории могут быть получены лишь на основе ее системного анализа в связи с другими грамматическими явлениями. Как известно, "реально существующее в языке единство грамматического значения и средства его формально-грамматического выражения есть один из важнейших объектов грамматического изучения. Это единство и называется грамматической категорией". На основе данного определения в единую самостоятельную грамматическую категорию в тюркских языках могут быть объединены морфологические средства, маркирующие сказуемое, независимо от того, какой частью речи оно выражается. Как указывает Г.И.Мирзазаде, "в Азербайджанском языке категория сказуемости является одной из общих грамматических категорий. Любая часть речи, выступающая в предложении в роли сказуемого, должна принимать определенный морфологический показатель". Тем не менее в большинстве тюркологических трудов прослеживается разграничение "аффиксов сказуемости" как показателей именного сказуемого, с одной стороны, и "личных аффиксов" как показателей глагольного сказуемого, с другой. Иногда отмечается , что для оформления именного сказуемого, используются восходящие к личным местоимениям личные аффиксы, с помощью которых происходит спряжение глаголов, либо говорится о формальном совпадении категории лица с категорией сказуемости. В парадигму категории сказуемости следует включить также формы именных и глагольных сказуемых, образуемые с помощью связок прошедшего времени idi/-di/ и imiş/-mış/ usta idi "он был мастером, usta imiş" "он, оказывается, был мастером": alırdı "он брал", alırmış "он, оказывается, брал" и т.д./. А.М.Пешковский, который впервые ввел термин "сказуемость" в русское языкознание, пишет, что "категория сказуемости образуется как совокупность свойств /функций/ различных форм сказуемого". Другими словами, сказуемость является морфологическим признаком различных частей речи, выступающих в функции сказуемого, тем самым отграничивается от смежного понятия - предикативности. Предикативность представляет собой основное свойство предложения, в состав которых входит сказуемость

и предикативности. Как указывает В.З.Панфилов, сказуемость и предикативность - это "явления двух различных уровней предложения, именно соответственно синтаксического и логика - грамматического". Вместе с тем, выполняя чисто синтаксическую функцию, категория сказуемости в тюркских языках, как и "всякая грамматическая категория , оформляемая посредством аффиксов, есть прежде всего категория морфологическая". План выражения категории сказуемости составляют аффиксы сказуемости, инвентарь и употребление которых в сферах имени и глагола обнаруживают определенные различия.

Средствами выражения именной сказуемости в Азербайджанском языке являются: в I лице единственного числа аффикс -am/-əm, -yam/yəm, в I лице множественного числа -ıq/-ik, -uq, -ük/, -yıq/, -yik, -yuq, -yük, во II лице единственного числа -san, -sən, во II лице множественного числа -sınız, -siniz, -sunuz, -sünüz, в III лице единственного числа -dır, -dir, -dur, -dür, в III лице множественного числа -dırlar, -dirlər, -durlar, -dürlər. Одна из характерных особенностей именной сказуемости заключается в том, что в каждом из трех лиц обязательно присутствует конкретный показатель сказуемости. В I лице единственного числа после основ, оканчивающихся на согласный, употребляется аффикс -ам/-əм, а после основ на гласный -jам/jəм. В тюркских языкознании сказуемости непосредственно возводятся к личным местоимениям. Особенно ярко генетическая связь между аффиксом сказуемости I лица единственного числа и соответствующим личным местоимением обнаруживается в языках кыпчакской, уйгурской групп. Ср. : тув. Мен башкы мен "я учитель /я/ ": башк. Мин инжинермен "я инжинер /я/".Аффикс сказуемости I лица присоединяются главным образом к словам, которые выступают в качестве обозначения одушевленного лица, человека. Возможно также использование этих аффиксов в рамках стилистического примера олицетворения. Что же касается существительных абстрактной семантики типа ağıl "ум", diqqət "внимание", sevgi "любовь", gülüş "смех", sakitlik "тишина", bərklik "твердость" и т. д. то они практически не принимают аффиксов сказуемости ни I, ни II лица. Так, формы ağılam, ağılsan, diqqətəm, diqqət-sən, sevgiyəm, sevgisən являются в значительной мере искусственными. Однако после некоторых словоизменительных аффиксов /чаще всего пространственных падежей/ показатели сказуемости могут присоединяться и к словам, не обозначающим одушевленное лицо. Вообще можно указать следующие случаи употребления аффикса именной сказуемости I лица единственного числа:

I. Непосредственное присоединение к основе:

- Təksən?

-Təkəm, - dedi. / S.Əhmədov/.

2. Употребление после падежных аффиксов:

а/ аффикс родительного падежа:

Bilqeyis...Camala söz verdi ki, ali təhsil alsan da, almasan da mən sənінəm (C.azəri).

б/ аффикс местного падежа:

Mən də o fikirdəyəm, bacıoğlu, di gəl, nə sirdirsə, camaatın gözündə yaman adiləşdi (C.Azəri).

в/ аффикс исходного падежа:

- Mən də bu kənddənəm, - dedi, burada doğulmuşam (Mir Cəlal).

Употребление рассматриемого аффикса характеризуется исключительной устойчивостью. В отличие от некоторых других тюркских языков, сокращение аффиксов сказуемости I лица азербайджанском языке наблюдается очень редко. Данное явление иногда можно встретить в разговорной речи:

Sən ağa, mən ağa, inəkləri kim sağa? (Atalar sözü)

Параллелизм компонентов высказывания, повтор отдельных элементов в сочетании с сокращением показателя лица сообщает фразе дополнительный экспрессивно - эмоциональный заряд. Именная сказуемость I лице множественного числа

обозначается аффиксами -ıq, -ik, -uq, -ük, -yıq, -yik, -yuq, -yük. Эти показатели отличают Азербайджанский язык от тюркских языков других групп, где в той или иной степени сохранились реликты первичной местоименной формы аффиксов сказуемости I лица множественного числа. Ср.: Biz tayqada biz "Мы в тайге /мы/". Некоторые следы употребления личных местоимений I лица множественного числа наблюдаются и в таких близких азербайджанскому огузских языках, как гагаузский и турецкий. Ср.: гаг. Biz ustayız "Мы мастера"; тур. Biz çoçuğuz "Мы дети" и т. д.

Встречаются следующие случаи употребления аффикса именной сказуемости I лица множественного числа:

1. Непосредственное присоединение к основе:

- Öz aramızda, söz burda qalsın, o Kazımdan iraq olsun, yenə deyirəm, biz bir adamıq (B.Bayramov).

2. Употребление после падежных аффиксов:

а/ аффикс родительного падежа:

Heç nə, haman pəncərəsiz, qapısız damdayıq (S. Əhmədov).

б/ аффикс местного падежа:

Bəs siz hansı tərəfdənsiniz, - dediniz? (İ. Əfəndiyev)

Данный аффикс довольно редко встречается после показателя родительного падежа и практически не употребляется, как и аффиксы сказуемости других лиц, после показателей дательного и винительного падежей.

M. Hüseynova

Müasir Azərbaycan dilində xəbərlik kateqoriyası

Xülasə

Xəbərlik kateqoriyasının ümumi xarakteristikasında bu kateqoriyanın müxtəlif cəhətlərinə toxunan əsərlərin qısa icmalı verilir. 1950-ci illərə qədər Azərbaycan dilçiliyində ayrıca qrammatik kateqoriya kimi predikativlik barədə heç bir fikir yox idi. İlk dəfə M.Ş.Şirəliyevin "Bakı dialekti" monoqrafiyasında "Xəbərlik kateqoriyası" adlı xüsusi bölmə çıxdı. Bu bölmə sonrakı bir çox elmi əsərlərə və Azərbaycan dilinin dərsliklərinə də daxil edilmişdir. Bildiyiniz kimi, əslində bir dildə mövcud olan qrammatik mənanın və onun rəsmi qrammatik ifadəsi vasitələrinin birliyi qrammatik tədqiqatın ən vacib obyektlərindən biridir. Bəllidir ki, Azərbaycan dilində predikativlik kateqoriyası ümumi qrammatik kateqoriyalardan biridir. Rus dilçiliyində ilk dəfə "predikat" terminini işlədən A.M.Peşkovski yazır ki, predikat kateqoriyası predikatın müxtəlif formalarının xassələri məcmusu kimi formalaşır. Başqa sözlə, bir predikat, predikat kimi çıxış edən müxtəlif nitq hissələrinin morfoloji əlamətidir və bununla da bitişik bir anlayışdan - predikativlikdən ayrılır. V.Z Panfilovun qeyd etdiyi kimi, xəbərlik və predikativlik iki fərqli səviyyədəki hadisələrdir, müvafiq olaraq sintaktik və məntiqi-qrammatikdir. Predikatın affiksləri ad və fel sferalarında müəyyən fərqlər göstərən inventar və istifadə predikat kateqoriyasını ifadə etmək planıdır. Azərbaycan dilində nominal predikativləri ifadə edən vasitələr bunlardır: I şəxsin təkində şəkilçi -am / -əm, -yam / -yəm, I şəxsin cəmində -ıq / -ik, -uq, -ük /, -yıq /, -yik, -yuq, -yük, II şəxsin təkində -san, -sən, II şəxsin cəmi olaraq -siniz, -siniz, -sunuz, -süz, III şəxsin təkində -dır, -dir, -dur, -dür, III şəxsin cəmində -dırlar, -dirlər, -durlar, -dürlər. I şəxsin təkində, samitlə bitən işarələrdən sonra affiks -am / -əm, sait səslərindən sonra -yam / -yəm istifadə olunur. Məhz I şəxsin cəmində xəbərlik kateqoriyası aşağıdakı şəkilçiləri qəbul edir: -ıq, -ik, -uq, -ük, -yıq, -yik, -yuq, -yük. II şəxsin nominal predikat affiksinin fonetik görünüşündə təkmənalı ego pronominal mənşəyi xüsusilə tələffüz olunur. Proqnozlaşdırma göstəricisinə çevrilmək zamanı ikinci şəxsin sən əvəzliyi "-san / -sən" predikativ affiksinin iki sinharmonik variantının mövcudluğu ilə təsdiqlənir. N.K. Dmitriev, predikativ affikslərin mənşəyini nəzərə alaraq bu hala

diqqət çəkir. İkinci şəxsdə predikativ affikslərin çoxluq formaları -siniz, -siniz, -sunuz, -süz, proqnozlaşdırma göstəricisi kimi istifadə olunan fərdi əvəzliklərin nisbətləri təqdim olunur. Üçüncü şəxsin nominal predikativ şəkilçisi tək -dir, -dir, -dur, -dür, digər şəxslərin affikslərindən fərqli olaraq fərdi əvəzliklə əlaqələndirilmir. Türk mənşəli dillərin həm Oğuz, həm də Qıpçaq qruplarında bu affikslər genetik yaxınlıq və tipoloji oxşarlıq göstərir. Eyni zamanda, onların istifadəsində müəyyən fərqlər müşahidə olunur.

Açar sözlər: Azərbaycan dilçiliyi, xəbərlik kateqoriyası, qrammatika, məna, predikativlik, şəkilçi, şəxs

M.Hyseynova

The category of prediction in the Azerbaijani language

Summary

The general characteristic of the predicative category is a brief overview of the works that touch upon various aspects of this category. Until 1950s, Azerbaijani linguistics had no idea of prediction as a separate grammatical category. For the first time in the monograph "Baku Dialogue" by M. Shiraliyev published a special section "Predicative category". This section is included in many subsequent scientific works and textbooks in Azerbaijani language. As you know, the combination of grammatical meaning and its formal grammatical expressions, in fact in one language, is one of the most important objects of grammar research. It is well known that the category of prediction in the Azerbaijani language is one of the common grammatical categories. Using the term "predicate" for the first time in Russian linguistics, AM Peskovski writes that the predicate category is formed as a combination of properties of different forms of predicate. In other words, a predicate is a morphological sign of the various parts of speech that act as a predicate, thereby separating from a common conception - predicativity. According to V.Z. Panfilov, predictive and predicativeness are events of two different levels, respectively, syntactic and logical-grammatical. Predictive affinities are a plan to refer to the category of inventory and usage that make certain differences in names and verbs.These are the means by which predicates are expressed in the Azerbaijani language:First person - singular-am / -əm, -yam / -yəm, first person plural -ıq / -ik, -uq, -ük /, -yıq /, -yik, -yuq, -yük, second person – singular -san, -sən, second person – plural -siniz, -siniz, -sunuz, -süz, third person - singular-dır, -dir, -dur, -dür, third person – plural -dırlar, -dirlər, -durlar, -dürlər.

In the first person - singular followed by a consonant -am / -əm, followed by vowels yam/-yəm are used. In the first person – plural predicative category accepts these affixes: -ıq, -ik, -uq, -ük, -yıq, -yik, -yuq, -yük.

In the phonetic view of the second person – plural affixes univocal ego pronominal is especially pronounced. When it becomes a predictor second persons pronoun of “sən” is approved with the availability of two synchronic option of “san/sən”. N.K. Dmitriev draws attention to this by taking into account the origin of predicative affixes.

Predicative affix of third person – singular “-dir, -dir, -dur, -dür”, unlike the affiliates of other persons, it is not associated with personal pronoun. In the Oguz and Kipchak groups of Turkish languages, these affixes show genetic affinity and typological similarity. At the same time, there are some differences in their use.

Key words: Azerbaijani linguistiks, predicative category, grammar, meaning, prediction, affiix, person

Məqalənin redaksiyaya daxil olma tarixi:04.08.2019

Çapa hazırlnma tarixi: :09.08.2019

Məqaləni filologiya üzrə fəlsəfə doktoru,dosent Zərifə Məmmədova tövsiyə etmişdir.

ZƏRİFƏ AVİLOVA,
Filologiya üzrə fəlsəfə doktoru, dosent
ZƏRİFƏ MƏMMƏDOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Tibb Universiteti
Səməd Vurğun
zarifa @mail.ru

TİBB TƏMAYÜLLÜ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ AZƏRBAYCAN DİLİNDƏ BƏZİ FONETİK HADİSƏLƏRİN TƏDRİSİ PROSESİNDƏ QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

Xülasə

Məqalə məqsəd və intonasiyaya görə cümlə növlərinin öyrənilməsinə həsr edilmişdir. Cümlə bitmiş bir fikir ifadə edir. Cümlənin yaranmasında əsas şərtlərdən biri də intonasiyanın olmasıdır. Şifahi nitqdə intonasiyanın rolu böyükdür. Eyni cümlə məhz intonasiyadan asılı olaraq həm nəqli, həm sual, həm də nida cümləsi kimi tələffüz edilə bilər. Sual cümlələri intonasiya ilə bərabər, sual əvəzlikləri və sual ədatları vasitəsilə də düzəlir. Əmr cümlələri isə əmrdən əlavə xahiş, arzu, nəsihət çalarlarına da malikdir. Bəzi nida cümlələri xitabların iştirakı ilə yaranır. Qrammatikanın bir hissəsi olan sintaksis bölməsinin maraqlı mövzularından biri də məqsəd və intonasiyaya cümlənin növləridir. Cümlənin öyrədilməsində bu mövzunun yaxşı mənimsənilməsi əsas şərtdir.

Məlumdur ki, cümlə bitmiş fikir ifadə edən nitq vahididir və cümlə üçün 3 əsas əlamətin olması vacibdir: a) qrammatik cəhətdən formalaşmış xəbərə malik olmaq (predikativlik) b) cümlə intonasiyasının olması c) modallığın olması.

Fikrimizcə, cümlənin məqsəd və intonasiyaya görə növləri mövzusunun tədrisinə də müəllim bu izahdan sonra başlamalıdır. Şagirdlərin nəzərinə çatdırılmalıdır ki, nitqimizi təşkil edən hər bir cümlə müəyyən məqsəd üçün işlədilir. İntonasiya şifahi nitqdə cümlələri bir-birindən fərqləndirən başlıca vasitədir. Müəllim Azərbaycan dilində cümlələrin məqsəd və intonasiyaya görə dörd növünün olduğunu söyləyir: nəqli cümlə, sual cümləsi, əmr cümləsi və nida cümləsi. Hər bir kəs məqsədindən asılı olaraq cümlənin bu növlərindən istifadə edir. Nəqli cümlənin izahı zamanı müəllim bu cümlələrdə müəyyən bir hadisə, əşya, əlamət haqqında məlumat verildiyini göstərir və qeyd edir ki, nəqli cümlədəki fikir həm təsdiq, həm də inkar formada ola bilər. Nəqli cümlələr dilimizdə dilimizdə ən çox yayılmış cümlə növüdür.

Açar sözlər: sual cümləsi, əmr cümləsi, intonasiya, sual əvəzlikləri, sual ədatları.

Qrammatikanın bir hissəsi olan sintaksis bölməsinin maraqlı mövzularından biri də «Məqsəd və intonasiyaya cümlənin növləri»dir. Cümlənin öyrədilməsində bu mövzunun yaxşı mənimsənilməsi əsas şərtdir.

Məlumdur ki, cümlə bitmiş fikir ifadə edən nitq vahididir və cümlə üçün 3 əsas əlamətin olması vacibdir: a) qrammatik cəhətdən formalaşmış xəbərə malik olmaq (predikativlik) b) cümlə intonasiyasının olması c) modallığın olması. Cümlənin yaranmasında və ümumən ünsiyyət prosesində intonasiyanın rolu əvəzsizdir. İntonasiyanın rolu o qədər böyükdür ki, hətta cümlədə xəbər iştirak etməsə belə, intonasiyanın köməyi ilə fikir oxucuya, dinləyənə aydın olur:

1) Hücum! Ancaq irəli!

2) Gözəl bir yaz səhəri, quşların cəh-cəhi, yarpaqların pıçıltısı

Birinci cümlədə xəbər olmasa da, bir şəxsin yoldaşlarını hücuma, irəliyə, qələbəyə səsləməsi məlum olur. (1, 128)

İkinci cümlədə də eynilə yenə xəbər olmadan təbiət təsviri, gözəl bir mənzərə haqqında məlumat verilir.

Fikrimizcə, «Cümlənin məqsəd və intonasiyaya görə növləri» mövzusunun tədrisinə də müəllim bu izahdan sonra başlamalıdır.

Şagirdlərin nəzərinə çatdırılmalıdır ki, nitqimizi təşkil edən hər bir cümlə müəyyən məqsəd üçün işlədilir. İntonasiya şifahi nitqdə cümlələri bir-birindən fərqləndirən başlıca vasitədir.

Müəllim Azərbaycan dilində cümlələrin məqsəd və intonasiyaya görə dörd növünün olduğunu söyləyir: nəqli cümlə, sual cümləsi, əmr cümləsi və nida cümləsi.

Hər bir kəs məqsədindən asılı olaraq cümlənin bu növlərindən istifadə edir.

Nəqli cümlənin izahı zamanı müəllim bu cümlələrdə müəyyən bir hadisə, əşya, əlamət haqqında məlumat verildiyini göstərir və qeyd edir ki, nəqli cümlədəki fikir həm təsdiq, həm də inkar formada ola bilər.

Nəqli cümlələr dilimizdə dilimizdə ən çox yayılmış cümlə növüdür. Bu cümlələrdə söz sırası gözlənilir (bəzi şeir parçaları istisna olmaqla).

Verilən məlumatdan sonra şagirdlərin iştirakı ilə bir neçə nümunə gətirilir.

1. Hər yerdə baharın ilıq nəfəsi duyulurdu.
2. Biz Novruz bayramını çox sevirik.
3. Ucalır bağçadan bülbülün səsi (N.X.)

Yuxarıdakı misallarda nəqli cümlələrin xəbəri feillə ifadə olunmuşdur. Müəllim qeyd etməlidir ki, nəqli cümlələrdə feili xəbərlər ən çox feilin xəbər forması ilə ifadə olunur.

Şagirdlər nəqli cümləyə aid misallar söylədikdən sonra onların nəzərinə çatdırılır ki, yazıda nəqli cümlələrin sonunda nöqtə işarəsi qoyulur.nəqli cümlə mənimsədildikdən sonra müəllim sual cümləsinin izahına keçə bilər:

Sual cümlələri dilimizdə sual məqsədilə işlədilir. Gündəlik həyatımızda sual cümlələrindən çox istifadə edirik. Bəlkə də kimsə kimə isə sualla müraciət edir, ancaq bu sual cümlələrinin hansı yolla yarandığının fərqinə varmır.

Müəllim şagirdlərə müxtəlif sual cümlələri deməyi tapşıra bilən və sonra elə deyilən misallar üzərində sual cümlələrinin hansı üsullarla yarandıqlarının izahını verər.

Nəhayət, bəzi sual cümlələrinin yaranmasında sual ədatları iştirak edir. Şagirdlərin iştirakı ilə onlara nitq hissələrinin tədrisindən tanış olan sual ədatları söylənilir: bəs, məgər, mı. Əmr cümləsi öyrədilərkən müəllimin əsas vəzifəsi şagirdlərin feil haqqında bildiklərini onlara xatırlatmaqdır. Belə ki, əmr cümlələrinin xəbəri feilin əmr forması ilə ifadə olunur. Feilin əmr formasının xüsusiyyətləri əmr cümlələrində də özünü göstərir:

1.Oxuyun. 2. Dərsini danış. №. Məktəbə gec gəlmə.

Müəllim izah edir ki, əmr müxtəlif şəxslərə yönəldilə bilər. Ancaq əmr ən çox qarşısında duran II şəxsə edilir. Bu səbəbdən də əmr cümləsinin xəbərləri əsasən II şəxsə aid olur. Buna parlaq misal olaraq M.Ə.Sabirin şeirlərindən müəyyən parçaları tələbələrin nəzərinə çatdırmaq olar.

Şagirdlər bu tipdə misalların sayını artıra bilərlər. Nümunələri deyildikcə onlara aydın olur ki, əmr cümləsi əsasən niqli və nida intonasiyaları ilə tələffüz edilir. Bu intonasiyadan da asılı olaraq əmr cümlələrinin sonunda nöqtə və ya nida işarəsi qoyulmalıdır (2 sə46).

Bir məsələni də vurğulamaq vacibdir. Əmr cümlələrində heç də həmişə əmr edilmir. Bu ad altında xahiş, nəsihət də ola bilir. Məsələn:

Oxu tar! Və yaxud oğlum, dərslərini yaxşı oxu, dostlarından geridə qalma.

Şagirdlərə aydınlaşdırılır ki, birinci misalda bir xahiş, rica, ikincidə isə nəsihət çalarlığı özünü göstərir (78 səh).

Nəhayət, nida cümlələri tədris olunarkən onların hiss, həyəcan bildirmələri qeyd olunmalıdır. Nəzərə çatdırılmalıdır ki, nida cümlələri bundan əvvəl keçilən nəqli, sual və əmr cümlələrinin əsasında formalaşır. Bu cümlələr ancaq uyğun birşəraitdə, vəziyyətdə yeni xüsusiyyətlər əldə edib nida cümləsinə keçə bilər.

1. Bir insan oğlunun taleyinə bax! (S.Vurğun)
2.Vah!.. Bu imiş dərsi-üsuli-cədil?! (M.Ə.Sabir)
3. Kainat olduqca şeir olacaq! (M.Müşfiq)

Misallardan hiss olunur ki, nida cümlələri danışanın hiss və həyacanını, daxili duyğularını əks etdirir. Müəllim qeyd edə bilər ki, bəzi nida cümlələri elə nidaların iştirakı ilə yaranır.

Cümlə bitmiş bir fikir ifadə edir. Cümlənin yaranmasında əsas şərtlərdən biri də intonasiyanın olmasıdır. Şifahi nitqdə intonasiyanın rolu böyükdür. Eyni cümlə məhz intonasiyadan asılı olaraq həm nəqli, həm sual, həm də nida cümləsi kimi tələffüz edilə bilər. Sual cümlələri intonasiya ilə bərabər, sual əvəzlikləri və sual ədatları vasitəsilə də düzəlir. Əmr cümlələri isə əmrdən əlavə xahiş, arzu, nəsihət çalarlarına da malikdir. Bəzi nida cümlələri xitabların iştirakı ilə yaranır.

Azərbaycan dilinin lüğət tərkibindən götürülmüş bəzi sözlər (açar, verilən, yazı, söz) kommunikativ vəzifəsinə görə məna yükünü informatikada dəyişmişdir. Daha doğrusu, mənanın funksional köçürülməsi əsasında qeyd edilən terminoloji vahidlər formalaşmış və əlavə ünsiyyət mənaları qazanmışdır. Məsələn:

"Açar" – Yazını adlandırmaq və ona müraciəti tezləşdirmək üçün istifadə olunan işarələr yığımı; (4,59)

"Verilənlər" – insanın iştirakının mümkünlüyünü nəzərə alaraq avtomatik vasitələrlə emal olunmaq üçün yararlı şəkildə olan informasiya;

"Yazı" – tətbiqi proqram vasitəsilə tam hesab edilən, verilənlər sahəsinin qarşılıqlı əlaqələndirilmiş qrupu; bir neçə fiziki sahənin yığımı;

"Söz" – təbii dilin leksik vahidi; işarə kimi istifadə edilən liter zənciri; törəyən qrammatikanın əsas əlifbasının simvol zənciri və s.

Qeydetmə – müəyyən maşın informasiya daşıyıcısının xüsusi informasiyaların qeyd etmək üçün hazırlanması, yəni həmin informasiyaları yazmaq üçün asintrop və ünvan cığırlarının və sahə ayırıcılarının müəyyən edilməsi.(5, 408 səh)

Tədqiqat göstərir ki, ümumişlək sözlərin terminləşməsi prosesi 3 istiqamətdə özünü göstərir:

1) transterminləşmə istiqaməti;
2) reterminləşmə istiqaməti;
3) determinləşmə istiqaməti.

İnformatika üzrə transterminləşmə istiqaməti əsas sayılır. Transterminləşmə terminyaradıcı üsullardan biridir. Bu üsulla yaranan terminlər forma cəhətdən olduğu kimi qalır. Belə ki, əvvəlki dövrlərdə elmin bir sahəsində istifadə olunan termin yeni yaranmış elmin anlayış və məfhumlarını bildirməyə istiqamətləndirilir. Beləliklə, omonim termin elmin bir sıra sahələrində müxtəlif mənalarda işlənməyə başlayır. Daha doğrusu, bir termin bir çox elm sahələrinə mübadilə edilir. Buna sahələrarası omonimləşmə konversiyası hadisəsi də deyilir. İnformatikada transterminləşmə istiqamətini daha aydın dərk etmək üçün misallara müraciət edək:

"Əmsal" – (fizika-riyaziyyat) – əmsal informatikada koeffisient.

Ədəbiyyat

1. Abdullayev S. Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası. Bakı: Maarif, 1998. (128 səh)
2. Azərbaycan dialektoloji lüğəti. I cild. A-L, 1999. (46 səh)
3. Azərbaycan dialektoloji lüğəti. Bakı, 1964. (78 səh)
4. Azərbaycan dialektoloji lüğəti. IV cild. Bakı, 1987.(59)
5. Azərbaycan dialektoloji lüğəti. II cild. Bakı, 1980. .(408 səh)

А.Юсифова

В медицинских ВУЗ-ах некоторые фонетические события на Азербайджанском языке в трудности возникающие в процессе обучения и способы их преоделения

Резюме

Статья посвящена изучению видов предложений, выделенных по цели высказывания и интонации. Предложение выражает мысль. Одним из основных условий формирования предложения является интонация. Интонация играет важную роль в устной речи. В зависимости от интонации одно и то же предложение может быть интерпретировано как предложение, вопросительное предложение или восклицательное предложение. Вопросительные предложения, наряду с интонацией, также создаются с помощью вопросительных местоимений и вопросительных частиц. Восклицательные предложения также имеет вид запроса, пожелания и совета. Некоторые восклицательные предложения создаются при помощи обращения.

Предложения по цели высказывания и интонации являются серьезной частью синтаксиса. Для обучения видов предложения изучение данной темы очень важно.

По нашему мнению, к изучению предложений по цели высказывания и интонации педагог должен начать с объяснения и разъяснения. Надо довести до учащихся, что любое предложение используется с определенной целью. Интонация есть основное средство различающее друг от друга предложения в устной речи. Автор указывает на четыре вида предложений по цели высказывания и интонации: повествовательное предложение, вопросительное предложение, повелительное предложение и восклицательное предложение. В зависимости от цели каждый пользуется этими видами предложения. При разъяснении повествовательного предложения учащимся дается информация.

Ключевые слова: вопросительное предложение, восклицательное предложение интонация, вопросительные местоимения, вопросительные частицы.

A.Yussifova

In medical institutions of gigher education some phonetic in Azerbaijani difficulties encountered in the teaching process and ways to overcome them.

Summary

The article is devoted to the study of sentence types for purpose and intonation. The sentence expresses a thought. One of the main conditions for the formation of a sentence is intonation. Intonation plays an important role in oral speech. Depending on intonation, the same sentence can be interpreted as a sentence, an interrogative sentence, or an exclamation sentence. Interrogative sentences, along with intonation, are also created using interrogative pronouns and interrogative particles. Exclamation proposals also have the form of a request, wishes and advice. Some exclamation sentences are created using conversion.

One of the interesting topics of the syntax section, which is part of the grammar, is the types of sentences for purpose and intonation. Good knowledge of the subject is essential in the teaching of the sentence. It is well-known that the sentence is a speech unit that expresses an idea, and it is important that there are 3 main features for the sentence: a) grammatically formed message (predicate) b) sentence intonation c) modality. In our opinion, the teacher should begin following the explanation of the types of sentences in terms of purpose and intonation. Students should be reminded that every sentence that forms our speech is used for a specific purpose. Intonation is the main means of distinguishing sentences in verbal speech.

Key words: interrogative sentence, exclamatory sentence intonation, interrogative pronouns, interrogative particles.

Redaksiyaya daxil olma tarixi: 21.08.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiyaüzrə dəlsəfə doktoru, dosent Rəfiq Cəfərov tərəfindən çapa tövsiyə olunmuşdur

VÜSALƏ AĞABƏYLİ
Azərbaycan Dillər Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
vusale.agabeyli@gmail.com

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ƏDƏB-NƏZAKƏT KATEQORİYA VƏ ANLAYIŞININ LEKSİK VAHİDLƏRLƏ İFADƏ İMKANLARI

Xülasə

Ədəb-nəzakət kateqoriya və anlayışı daha çox nitq mədəniyyəti ilə bağlıdır. Ədəb-nəzakət kateqoriyasından danışarkən nitq etiketlərini də mütləq qeyd etmək lazımdır. Nitq etiketi hər şeydən öncə nəzakət funksiyasını həyata keçirir. Nitq etiketləri istər Azərbaycan dilində, istərsə də ingilis dilində ədəb-nəzakət kateqoriyasını ifadə edir. Nəzakət kateqoriyası dedikdə, ədəb və ya etiketin praktik müraciət forması nəzərdə tutulur. Ədəb-nəzakət kateqoriyasına linqvistik nəzər salsaq görərik ki, dildə ədəb-nəzakət kateqoriyası 2 əsas istiqamətdə öz əksini tapır:

1. Həmin dilin leksikasında, lüğət tərkibində, söz ehtiyatında.
2. Həmin dilin morfologiyasında, məsələn, xüsusi fel formalarını nəzakət kateqoriyasında işlətməklə.

Ədəb-nəzakət kateqoriya və anlayışını isim, sifət, əvəzlik, feil, evfemizmlər ilə daha çox ifadə etmək olar.

Məqalənin mövzusu Azərbaycan və ingilis dilllərində ədəb-nəzakət kateqoriyasının tədqiqi ilə bağlı olsada, bu məsələni öyrənmək üçün hər iki dili eyniləşdirmək mümkün deyil. Tədqiqatlar zamanı xüsusi fərqlərə isimlərdə, əvəzliklərdə rast gəldik. Ümumi oxşar xüsusiyyətlər isə sifətlərdə, feillərdə özünü göstərir. Ədəb-nəzakət kateqoriyasının ifadəsində evfemizlərin də rolu böyükdür. Evfemizlərin dildə əsas funksional fəaliyyətlərindən biri, bəlkə də əsası, onların birbaşa ədəb-nəzakət anlayış və kateqoriyası ilə semantik cəhətdən bağlı olmalarıdır.

Açar sözlər: *ədəb, nəzakət, etiket, dil, kateqoriya, nitq mədəniyyəti, evfemizm*

Ədəb-nəzakət dedikdə, ilk növbədə, davranış, rəftar, stol arxasında oturmaq qaydaları, böyüklərlə və kiçiklərlə düzgün rəftar bacarığı, ətraf mühitdə, cəmiyyətdə və ailədə özünü aparmaq mədəniyyəti və s. nəzərə gəlir. Bundan başqa, ədəb-nəzakət dillə, ünsiyyət mədəniyyəti ilə də sıx bağlıdır ki, bu da özünü ilk növbədə salamlaşma, sağollaşma, məktubyazma, nitq söyləmə və s.də göstərir.

Ədəb-nəzakət kateqoriya və anlayışı daha çox nitq mədəniyyəti ilə bağlıdır. Əsl natiqin nitqi aydın, səlis, ədəbli, məzmunlu və nəzakətli olmalıdır və o öz müddəalarını dinləyicilərə aşılamaq üçün natiqlik məharətinin priyomlarından istifadə etməyi bacarmalıdır. [1, s.9]

Ədəbi dil ümumxalq danışıq dilindən insani ünsiyyətlər üçün elm və incəsənətin inkişafı üçün ən çox imkanlar yaradan bütün qiymətli. Dəqiq, ədəbli, nəzakətli söz və ifadələri seçib ayırır. Ona görə də, hər bir natiq auditoriya önündə çıxış edərkən və ya müəyyən bir mövzu ətrafında məqalə yazmaq istəyərkən dinləyici və oxucuların səviyyəsini mütləq nəzərə almalıdır. Nitqdə leksik vasitələr düzgün seçilməli, sözlər üslubi cəhətdən bir-birnə uyğun gəlməlidir. Məsələn, "minnətdar" sözü, bəziləri bu sözün mahiyyətini düşünmədən, onu münasib yerdə işlətməyi bacarmırlar. Əgər biri qəzetdə çap olunan məqalə üçün onun müəllifinə "Mən sizin məqalənizə minnətdaram" deyirsə, demək burada "minnətdar" sözü yerində işlədilməmişdir. Yaxud "Ölülər" əsəri dövrümüzdə belə əhəmiyyətini itirməmiş və öz müəllifinə ölməz yer qazandır-

mışdır" cümləsində "yer" deyil "ad" qazandırmışdır deyilməlidir. Düzdür, bu cür söylənilən fikirlər, nitqlər ədəbsiz, nəzakətsiz nitq hesab edilməsə də, qaba səslənir və düzgün nitq də hesab oluna bilməz. Deməli, nitq mədəniyyəti aydın, ədəbli, nəzakətli, dəqiq və düzgün nitqi əhatə edir. [2, s.16]

Ədəb-nəzakət kateqoriyasından danışarkən nitq etiketlərini də mütləq qeyd etmək lazımdır. Nitq etiketi hər şeydən öncə nəzakət funksiyasını həyata keçirir. Nəzakətlə bağlı olan nitq etiketinin vahidlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Müraciət və diqqət cəlbetmə (Modes of Address)
2. Salamlaşma və sağollaşma (Greetings and Words of Parting)
3. Tanışlıq, təqdimetmə (İntroducing People)
4. Dəvət (İnvitations)
5. Xahiş, məsləhət, təklif (Requests, Advice, Offers)
6. Razılıq və narazılıq (Agreement and Disagreement)
7. Üzrxahlıq (Apologies)
8. Təsəlli, halına acıma (Consolation, Sympathy)
9. Kompliment, bəyənmə (Encouragement, Approval)
10. Təbriklər, arzular (Congratulations and Wishes)
11. Təşəkkür (Thanks) [3, s.27]

Bu nitq etiketləri istər Azərbaycan dilində, istərsə də ingilis dilində ədəb-nəzakət kateqoriyasını ifadə edir.

Bəzi mənbələrdə nəzakət kateqoriyasına başqa cür açıqlamalar gətirilir. Nəzakət kateqoriyası dedikdə, ədəb və ya etiketin praktik müraciət forması nəzərdə tutulur.

Sosioloq Brown və Levinson Erving Goffmanın "üz (sifət)" konsepsiyasına əsaslanaraq nəzakət kateqoriyasının iki növünü müəyyənləşdiriblər: Neqativ nəzakət və pozitiv nəzakət.

Neqativ nəzakət – nisbətən, xahiş çərçivəsindən çıxaraq edilən nəzakət növüdür, məsələn, "əgər etiraz etmirsənsə, If you don't mind……, or If it isn't much trouble.....;" Yəni nəzakət kateqoriyası inkarlıq bildirən sözlərlə işlənir və bir şəxsin azad rəftar hüququndan kənara çıxan müraciətdir. Nəzakət kateqoriyasının bu növündə vasitəli nitq daha çox işlənir.

Pozitiv nəzakət – insanlar arasında pozitiv əlaqə yaratmağa çalışır, bir şəxsin digər şəxs tərəfindən bəyənilməsini və başa düşülməsini dəstəkləyir. Vasitəsiz nitq, andlar pozitiv nəzakəti ifadə edən vasitələr kimi başa düşülə bilər.

Brown və Levinson izah edir ki, gündəlik ünsiyyətdə biz nəzakət kateqoriyasından dəfələrlə istifadə edirik. Əgər hərəkətlərimizə, davranışlarımıza və müxtəlif şəraitdə işlətdiyimiz sözlərə fikir versək özümüz də bunun şahidi olarıq. Məsələn, biz öz dostlarımızın, yaxınlarımızın əhatəsində "Go, get me that plate!" və ya "Shut up!" deyə bilərik, ancaq nisbətən özümüzdən böyüklərlə, valideynlərlə ünsiyyətdə məntiqcə cümlələrimizin nəticəsi eyni mənalara gəlsə belə, ifadə tərzimiz fərqli olacaqdır: "Could you please pass me that plate, if you donət mind?" və ya "I'm sorry? I don't mean to interrupt, but I am not able to hear the speaker in the front of the room". [4]

Ədəb-nəzakət kateqoriyasına linqvistik nəzər

Ədəb-nəzakət kateqoriyasına linqvistik nəzər salsaq görərik ki, dildə ədəb-nəzakət kateqoriyası 2 əsas istiqamətdə öz əksini tapır:

1. Həmin dilin leksikasında, lüğət tərkibində, söz ehtiyatında. Məsələn, Müəyyən sözləri rəsmi görüşlərdə işlətməklə danışıq formasını qeyri-formal kontekstə gətirmək.

2. Həmin dilin morfologiyasında, məsələn, xüsusi fel formalarını nəzakət kateqoriyasında işlətməklə.

Ədəb-nəzakət kateqoriya və anlayışını aşağıdakı dil vahidləri ilə daha çox ifadə etmək olar: isim, sifət, əvəzlik, feil, evfemizmlər.

İngilis və Azərbaycan dillərinin hər ikisində ədəb-nəzakət kateqoriya və anlayışının ifadə olunmasında isimlərin iştirakı üstünlük təşkil edir və elə ona görə də, həmin isimlərin özlərini də ayrı-ayrı qruplara bölüb tədqiq etmək olar. Deməli, ədəb-nəzakət kateqoriya və anlayışının leksik vahidlərlə ifadəsini aşağıdakı qruplar üzrə açmaq mümkündür:

a) Rütbə-dərəcə bildirən isimlər ədəb-nəzakət mənasında
b) Əsil-kök bildirən isimlər ədəb-nəzakət mənasında
c) Təxəllüs bildirən isimlər ədəb-nəzakət mənasında
d) Titul və vəzifə bildirən isimlər ədəb-nəzakət mənasında
e) Qohumluq bildirən isimlər ədəb-nəzakət mənasında
f) Dostluq-yoldaşlıq bildirən isimlər ədəb-nəzakət mənasında
g) Yaşla bağlı, yaş anlamlı isimlər ədəb-nəzakət mənasında
h) Sifət ədəb-nəzakət mənasında
i) Əvəzlik ədəb-nəzakət mənasında
j) Feil ədəb-nəzakət mənasında
k) Evfemizmlər ədəb-nəzakət mənasında

Rütbə, dərəcə, əsil-kök, titul və vəzifə bildirən isimlər. Xarici ölkəyə səfər zamanı nəzərə almaq lazımdır ki, bir çox yerlərdə titullara böyük fikir verilir. Düzdür, bu sahədə də beynəlxalq etket tədricən sadələşir. Titulların çoxu şəxsi ünsiyyət zamanı istifadə olunmur, rəsmi görüşlərdə də az işlədirlir. Yalnız protokol xarakterli mərasimlərdə iştirakçılara təqdim edilərkən tam titul bildirilir. [5, s.32]

Lord Henry was surprised. (O. Wilde) [6]

Your name, little girl? – Jane Eyre, *sir*. (Ch. Bronte) [7]

Say, what do you want, *Master* Reed? (Ch. Bronte) [7]

Rəsmi xarakterli akademik görüşlərdə ingilislər çox vaxt bir-birini elmi dərəcə və elmi ad ilə çağırırlar. Həm də, Azərbaycan dilində müraciət formasından fərqli olaraq, "doktor" və ya "profesor" kimi müraciətlər insanların şəxsi yaradıcılıq peşəsinə mənsub olduğunu göstərir. Məsələn, Avstriyada həkimlərə, elmlər doktorlarına, aktyorlara, musiqiçilərə "cənab doktor" deyərək müraciət edirlər. ABŞ-da və İngiltərədə hər hansı müəllimi "professor" deyə çağıra bilərlər. Qadınları həyat yoldaşlarının adları ilə də çağırmaq mümkündür. Avstriyada "frau professor" ifadəsinin mənası odur ki, bu qadının əri universitet müəllimidir.

Necə ki, ingilislər bəzən professor olmayan adama "professor" deyərək müraciət edirlər, bizdə də bu hala daha çox "müəllim" sözünün işlənməsində rast gəlmək mümkündür. Lakin ingilislər tanıdıqları, elm sahəsi ilə məşğul olan, professor olmasa da ziyalı olan, elmi dünyagörüşə malik olan adama "professor" deyə müraciət edirlər. Bizdə isə daha fərqli olaraq, yerli-yersiz, tanış olan və ya olmayan, bu sözün etimoloji mənası ilə heç əlaqəsi olmayan şəxslərə "müəllim" deyərək çox vaxt müraciət olunur. "Müəllim" sözü dərs verən, öyrədən deməkdir, ona görə də, bu sözlə elmlə bağlılığı olan şəxslərə müraciət etmək lazımdır.

Dosent Aslanov partiyanın siyasi şurasına üzv seçildi.

Akademik Rzayev öz kəşfləri ilə bütün dünyada tanınır.

Yoldaş, cənab, bəy, xanım, əfəndim sözləri də Azərbaycan dilində ədəb-nəzakət kateqoriyasında işlənir.

Təxəllüs bildirən isimlər. Ədəb-nəzakət kateqoriyasından danışarkən təxəllüs bildirən isimlərə də rast gəlmək mümkündür.Bunlar öz əksini yazıçıların, şairlərin, ədiblərin imzasında tapır. Təxəsllüs əslində elə-belə, necə gəldi götülmür, bir növ həmin yazıçının yaradıcılıq yolunu, üslubunu, xarakterini ifadə edir. [8, s.47]

Nizami – sözləri nizamla düzmək, nizamla yazmaq, incə xətt, *Səbuhi* – Sübh Allahı, *Vurğun* – aşıq, vurğun olmaq.

Bəzən yazıçıların həqiqi adları heç bilinmədən onları bir yazıçı kimi təsdiqləyən təxəllüsləri ilə müraciət olunur.

Qohumluq bildirən isimlər. Azərbaycan dilindən fərqli olaraq, ingilis dilində qohumluq bildirən isimlər daha dar çərçivədədir. Aunt – xala, bibi, uncle – dayı, əmi, cousion isə demək olar ki, bütün xala uşaqları, əmiuşalqrı, dayıuşaqları, bibiuşaqları sözünü əvəz edir. Azərbaycan dilində yaşca böyük qadına "xala" deyərək müraciət olunur, bəzən bu müraciət xoş qarşılanmadığı üçün "bibi" sözü ilə də əvəzlənir. Bəzən daha səmimi münasibət yaratmaq məqsədi ilə kişilərə "xalaoğlu" deyərək də müraciət edilir. Bu sözlər öz ilkin qohumluq mənalarında işlənməklə yanaşı, daha çox müraciət xarakterli cümlələrdə ədəb-nəzakət kateqoriyasında işlənir.

Dostluq, yoldaşlıq, sevgi-məhəbbət bildirən isimlər. İngilis dilində belə sözlərə misal olaraq, buddy, honey, darling, baby və s.sözlərə rast gəlmək mümkündür.

But, my dear Basil, why not? (O. Wilde) [6]

Yaş, cins mənalı isimlər. İngilislərdə həmişə, yaşca kiçiklər özlərini böyüklərə təqdim edirlər, lakin, yaşından asılı olmayaraq, qadın əvvəlcə özünü küşiyə təqdim etmir, o zaman istisna ola bilər ki, qadın tələbə, kişi isə yaşlı professordur.

Məsələn, son söz *ağsaqqalımızındır*.

Sifətlər. Azərbaycan dilində ədəb-nəzakət kateqoriyasında əsasən, "gözəl, qəşəng, əziz, mehriban, sevimli, böyük, əzəmətli, alicənab, şirin, dahi, əntiqə, yaraşıqlı, füsunkar, möhtəşəm, pakizə, hörmətli, möhtərəm" və s. sifətlərdən istifadə olunur.

Ata məclisə balaca, *şirin* qızını da gətirmişdi.

She is a *lovely* woman. (O. Wilde) [6]

Əvəzliklər. Ədəb-nəzakət kateqoriyasının əvəzliklərlə ifadə imkanları da maraqlıdır. Belə ki, çox vaxt ədəb-nəzakət naminə yaşca böyük, nüfuzlu, hörmət bəslənilən şəxslərə "sən" deyil, "siz" deyə müraciət olunur. Eyni məqsədlə də, yəni sırf ədəb-nəzakət kateqoriyasından çıxış edərək, bir sıra ədəbiyyatlarda, dərsliklərdə, dissertasiya işlərində, monoqrafiyalarda da "mən" əvəzliyinin yerinə "biz" əvəzliyinə rast gəlmək mümkündür. Müəllif tək şəxs olmasına baxmayaraq yazır: "Biz belə bir qənaətə gəldik ki, ...", "Bizim fikrimizcə...", "Biz bu məsələyə başqa nöqteyi-nəzərdən yanaşmışıq" və s. [9, s.21, 27]

İngilislər isə fərq qoymadan, yaşca böyük və kiçik olmalarına baxmayaraq, sırf ədəb-nəzakət prizmasından yanaşmaqla, hamıya "you" (siz) deyə müraciət edirlər. Yalnız kontekstdən anlamaq mümkündür ki, müraciət olunan şəxs təkdir, yoxsa cüt.

Without your art, *you* are nothing. (O. Wilde) [6]

Feillər. Azərbaycan və ingilis dilində bəzi feillər vardır ki, sırf ədəb-nəzakət anlamını daşıyır. Məsələn, *izin verin, buyurun, əziyyət deyilsə, narahat olmayın, zəhmət deyilsə, məmnun etmək – to please, to satisfy, to let, to allow, to apologize* və s.

Let me go into the nursery. (Ch. Bronte) [7]

Evfemizlər. Ədəb-nəzakət kateqoriyasının ifadəsində evfemizlərin də rolu böyükdür. Evfemizlərin dildə əsas funksional fəaliyyətlərindən biri, bəlkə də əsası, onların birbaşa ədəb-nəzakət anlayış və kateqoriyası ilə semantik cəhətdən bağlı olmalarıdır. Belə ki, evfemizm sözünün mənsub olduğu yunan dilində əsas mənası, yaxşı, yumşaq, ədəbli danışmaqdır.

Ədəb-nəzakət anlayış və kateqoriyasına münasibətə görə evfemizmləri iki qrupa ayırmaq olar:

1. Tabulaşmış qorxu və qadağaları əvəz edən evhemizlərş
2. Kobud, söyüş, ədəbsiz və mərifətsiz mənalarda işlənən evfemizlər.

Bölgüdən aydındır ki, ədəb-nəzakət kateqoriya və anlayışı ikinci bölgüyə daxil olan evfemizmlərlə semantik cəhətdən daha çox əlaqədardır. Məsələn:

Ölüm və xəstəliklə bağlı olan evfemizlər - to pass away (rəhmətə getmək), to go to one's long home (son mənzilə köçmək), to go to glory (o dünyaya köçmək) [10, s.135-146]

Bu iş çətindir. O *boyludur*, Fərman ağa! (Ə.Abbasov) (Hamiləliklə bağlı olan evfemizm)

…evimizdə qalan qaçqın arvadın *namusuna əl atdı*. (Ə. Abbasov) (Cinsi münasibətlərlə bağlı evfemizm)

Street walker – gəzəyən, house of ill fame – pozğunxana

...dad gözüdağınığın əlindən. (Ə. Abbasov)

Onun ayağı yaman sürüşkəndir. (Ə. Abbasov) [11, s.27, 34, 58, 73]

Nəticə.

Məqalənin mövzusu Azərbaycan və ingilis dilllərində ədəb-nəzakət kateqoriyasının tədqiqi ilə bağlı olsada, bu məsələni öyrənmək üçün hər iki dili eyniləşdirmək mümkün deyil. Tədqiqatlar zamanı xüsusi fərqlərə isimlərdə, əvəzliklərdə rast gəldik. Ümumi oxşar xüsusiyyətlər isə sifətlərdə, feillərdə özünü göstərir. Ədəb-nəzakət kateqoriya və anlayışının ifadəsində evfemizlərin rolu böyük olsa da, bu ifadə vasitələrin ədəb-nəzakət-ehtiram-mərifət mənalarının ifadəsindəki potensial imkanlarının açıqlanmasına aid ayrıca və geniş tədqiqata rast gəlmək çətindir. Bu kateqoriyanın ifadəsində evfemizmlərin rolu müstəsnadır. Məqalədə də qeyd etdiyimiz kimi, evfemizm sözünün öz mənası yaxşı, yumşaq, ədəbli danışmaqdır.

Ədəbiyyat siyahısı

1. Sadıqov Q. Etika, Bakı, 1971, 52 s.
2. Matveyev V. Panov A. Nəzakət aləmində, Bakı 1985, 68 s.
3. İvanov A.O., Povey J. English Conversational Formulas, Moskva, 1989, 162 s.
4. Brown P. Levinson S. Politeness Some Universal in language, Cambridge University Press, 1987
5. Mehdiyev T. Xalqların qarşılıqlı əlaqəsi və şəxs adları məsələləri, Azərbaycan Onomastikası problemləri Nəsrəddin Tusi adına universitet, Bakı 1988
6. O. Wilde, The picture of Dorian Gray, Progress, 1979, 178 p.
7. Ch. Bronte, Jane Eyre, Moscow, 1960, 72 p.
8. Adilov M., Paşayev A. Titul və ləqəb, Azərbaycan müəllimi, 14 fevral, Bakı, 1984
9. Musayev O. İngilis dilinin qrammatikası, Bakı, 1986, 320 s.
10. Kərimov Y. Ədəb-nəzakət leksikasında evfemizmlərin yeri, I Türkoloji Qurultayın 80 illiyinə həsr olunmuş Respublika elmi-nəzəri konfransının materialları, Bakı, 24-25 mart 2026-cı il, s.135-146
11. Hacızadə Ə. Vəfalım mənim, Bakı 1989, 202 s.
12. Abdullayev A. Nitq mədəniyyəti və natiqlik məharəti haqqında, Bakı, 1968
13. Arnold I.V. The English word, Moskva, Leninqrad, 1966, 150 s.
14. Greenal S. People like us, Oxford University Press, 2003, 120 s.
15. Алпатов В.М. Категория вежливости в японском языке, Москва, Наука, 1973, 140 стр.

V.E.Aghabayli

The Expression of the Category and Concept of Politeness with the Lexical Units in English and Azerbaijani Languages.

Summary

The category of politeness of is more closely related to the speech culture. It is worth mentioning speech etiquettes while analysing the category of politeness. Speech etiquettes, first of all, act as a courtesy. Speech etiquettes refer to the category of politeness in both Azerbaijani and English languages. The category of politeness refers to a practical form of decency or etiqu-

ette. When we look at the linguistic category of politeness, we can see that the category of politeness in the language reflects two main areas:

1. The vocabulary, the word stock of the target language.

2. In the morphology of that language, for example, by using special verb forms in the category of politeness.

The category and concept of politeness can be more expressed by nouns, adjectives, substitutes, verbs, euphemisms.

Although the subject of the article is related to the study of the category of politeness in the Azerbaijani and English languages, it is not possible to make common both languages for studying this issue. We can find the specific differences in the nouns and substitutions, and similar general characteristics can be noticed in adjectives and verbs. The euphemisms play an important role in the expression of the category of politeness. One of the main functions of the euphemisms in language are, perhaps, their semantic relation with the concept and category of politeness.

Keywords: courtesy, politeness, etiquette, language, category, speech culture, euphemism

В.Э.Агабейли

Выражение категории и понятие вежливости с лексическими единицами на английском и азербайджанском языках.

Резюме

Категория вежливости более близко связана с речевой культурой. Стоит упомянуть речевой этикет при анализе категории вежливости. Речевой этикет, прежде всего, выступает вежливостью. Речевые этикетки относятся к категории вежливости как на азербайджанском, так и на английском языках. Категория вежливости относится к практической форме приличия или этикета. Когда мы смотрим на лингвистическую категорию вежливости, мы видим, что категория вежливости в языке отражает две основные области:

1. Словарь, словарный запас целевого языка.

2. В морфологии этого языка, например, с помощью специальных форм глагола в категории вежливости.

Категория и понятие вежливости могут быть более выражены с помощью существительных, прилагательных, заменителей, глаголов, эвфемизмов.

Хотя предмет статьи связан с изучением категории вежливости на азербайджанском и английском языках, невозможно сделать общий язык для изучения этого вопроса. Мы можем найти конкретные различия в существительных и подстановках, и аналогичные общие характеристики можно заметить в прилагательных и глаголах. Эвфемизмы играют важную роль в выражении категории вежливости. Одной из основных функций эвфемизмов в языке является, пожалуй, их семантическая связь с понятием и категорией вежливости.

Ключевые слова: порядочность, вежливость, этикет, язык, категория, речевая культура, эвфемизм

Redaksiyaya daxil olma tarixi: 21.02.2019

Çapa qəbul olunma tarixi: 11.09.2019

Filologiya üzrə dəlsəfə doktoru Mahirə Hacıyeva tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDALƏT ABBASOV
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Üzeyir Hacıbəyov
abbasov-edalet@mail.ru

SİNTAKTİK SEMANTİKA BAXIMINDAN ADLIQ CÜMLƏLƏRİN DİGƏR SADƏ CÜMLƏ NÖVLƏRİ İLƏ MÜQAYISƏSİNƏ DAİR

Xülasə

Belə bir fikrin dilçilikdə mövcud olduğu öz təsdiqini artıq çoxdan tapılmışdır ki, hər bir cümlə struktur-semantik xüsusiyyətinə görə iki əsas qütbə-mübtəda və xəbər qütbünə bölünür. Cüttərkibli cümlələrin mübtədası ya ayrıca leksik vahidlə ifadə edilir, yaxud da xəbərdəki şəxs sonluğuna görə zehində konkret təsəvvür edilir. Ümumi və qeyri-müəyyən şəxsli cümlələrdə isə adlarının leksik semantikasına uyğun canlandırılır. Adlıq və şəxssiz cümlələrdə isə sintaktik şərait fərqli təzahür edir.

Adlıq cümlələrin yaranmasında heç bir morfoloji əlamət iştirak etmədiyi halda, şəxssisz cümlələrin xəbəri üçüncü şəxs təki ilə ifadə edilir.

Adlıq cümlələrdə bəhs edilən hadisə, adətən, indiki zamana aid olur. Şəxssiz cümlələr isə müxtəlif zamanlara aid morfoloji əlamətlərlə işlənə bilir və məzmunca həm təsdiq, həm də inkar ola bilir.

Predikativliyin intonasiya vasitəsilə ifadəsinə və struktur xüsusiyyətinə görə, nominativ quruluşçu cümlələr elliptik tipli yarımçıq cümlələrə bənzəyir. Lakin yarımçıq cümlələrin xüsusi növü hesab edilən elliptik cümlələrdə buraxılan qrammatik əsas, yəni xəbər qənaət xatirinə üslubi məqsədlə işlədilmirsə, adlıq cümlələrdə bu cür struktur mövcudluq cümlənin quruluş əlaməti hesab edilir. Hər iki cümlədə sintaktik-semantik çalar məhz həmin cümlələrin qrammatik struktur modelindən törəyən xüsusiyyətdir.

Adlıq cümlələrdə hökmün üzvləri ikisi bir sözdə vəhdət təşkil edir. Belə cümlələrdə subyekt və predikati təklikdə, bir-birindən təcrid edilmiş şəkildə təsəvvür etmək imkansızdır. Adlıq cümlələrdə haqqında əlavə məlumat verilməyən, yalnız adları çəkilən əşya, hadisə və s. cümlələrin subyekti, onların müəyyən intonasiya ilə ifadə edilməsi isə onun predikativliyi hesab edilir.

Açar sözlər: subyekt, predikat, predikativlik, hökm, qeyri-müəyyən, ümumi, şəxssiz, struktur, quruluş xüsusiyyəti, nominativ xarakter, leksik vahid.

"Adlıq cümlənin dil sferasında nə vaxt meydana çıxmasına aid fikirlər müəyyən mənada bir-birinə uyğun gəlir. M.P.Cahangirov göstərir ki, "Zənnimizcə, adlıq cümlə geniş ölçüdə əsasən son dövrlərdən işlənməyə başlamışdır. Deməli o, ədəbi dilimizin inkişafında sonrakı sintaktik hadisələrdəndir." [139, s.218]

Azərbaycan dili materiallarına əsasən demək mümkündür ki, adlıq cümlə strukturlarına XIX əsrə qədərki, abidələrimizin dilində ara-sıra rast gəlinsə də, sistematik formada və ardıcıl şəkildə XIX əsrə aid materiallar belə cümlə tiplərinin məhz XIX əsrdən formalaşması qənaətini əsaslandırır.

XIX əsr nəinki ədəbiyyat tariximizdə onun yeni janrlarla və ümumən yeni forma, məzmun cəhətdən zənginləşməsində, eləcə də ədəbi dilimizin (istər yazılı, istərsə də şifahi) inkişafında xüsusi dövr hesab edilir. Milli dramaturgiyamızın əsasının qoyulması ilə yeni dramatik janrların meydana çıxması nəticəsində dilimizin bütün sahələrində təkmilləşmə, canlanma müşahidə edilir.

Dilin sintaktik qatında da dinamik inkişaf meyli hiss olunurdu. Dramatik janrların yaranması ilə səhnə əsərlərinin sayı xeyli dərəcədə artmağa başladı. Bu isə dilçiliyin tədqiqat obyektinin genişlənməsinə səbəb oldu və beləliklə, sadə cümlənin mübtəda əsasında formalaşan adlıq cümlə növü də təkamül mərhələsinə qədəm qoydu. Durğu işarələrinin yazılı ədəbi dildə möhkəmlənməsi, qrammatik funksiyasının çoxşaxəli xarakter alması və s. kimi amillər adlıq cümlələrin işlənmə statusunu zəruri etdi.

Göründüyü kimi, adlıq cümlə məsələsi maraqlı və əhəmiyyətlidir. Buna baxmayaraq onun müstəqil bir problem kimi araşdırmaya cəlb edilməsi və ayrıca bir tədqiqat obyektinə çevrilməsi tarixi o qədər də böyük deyil. "Dilçilik ədəbiyyatında bu və ya digər aspektdə, bilavasitə və dolayı yolla bu problemə nəzər salınmış, müəyyən işlər görülmüşsə də, onun əsil tədqiqinə isə son illərdə başlanmışdır" [205, s. 39]. Odur ki, bu məsələyə həsr edilmiş əsərlər diqqəti cəlb edir və ilk iş kimi yüksək dəyərləndirilir.

İndiyə qədər dilçilik ədəbiyyatımızın uyğun əsərlərində müxtəlif problemlərlə əlaqədar adlıq cümlə məsələsinə toxunulsa da, həmin əsərlərdə bu məsələ bir problem olaraq geniş araşdırılmamış, ümumi kurslara aid proqramlarda isə ona vaxt ayrılmamışdır. Odur ki, bu sətirlərin müəllifi bütün deyilənləri, o cümlədən problemin zəruriliyini nəzərə alaraq, adlıq cümlənin sintaktik semantikasını "Sadə cümlənin sintaktik semantikası" adlı doktorluq dissertasiyasının xüsusi bir tərkib hissəsi olaraq təfsilatı şəkildə tədqiqata cəlb etmişdir.

Adlıq cümlələrin əsasında adlıq halda olan sözlər və birləşmələr durur.

Məsələn:

1) Hacı Həsənin evi, İsgəndərin otağı. Hacı Həsən və Kərbəlayı Fatma xanım fikirli oturublar. [260, s. 48]

2) ... Onun sağında arvadı rusdilli Zivər xanım, solunda cəmiyyətin dəftərdarı (katibi) Teymur bəy... Otağın küncündə, pərdə dalında Zəhrabəyimlə, Gülbahar oturub tamaşa edirlər. [260, s. 72**].**

Adlıq cümlələrdə qrammatik şəxs olmur. Adlıq cümlələrə məxsus səciyyəvi əlamətlərdən biri budur ki, belə cümlələrdə danışan özü də dinləyən barəsində informasiya vermək imkanından məhrumdur. O (danışan) dinləyənə konkret əşya və hadisə haqqında məlumat verir. Bu baxımdan da adlıq cümlələrə aid bilgi verilən qrammatik şəxs üçüncü şəxsdir. Bu fikri söyləməyə əsas verən faktor adlıq cümlənin struktur dəyişikliyi zamanı müşahidə edilən sintaktik inversiya nəticəsində cüttərkibli cümləyə çevrildikdə baş üzvün üçüncü şəxs mövqeyində təzahür etməsidir.

Məsələn, Kəndin kənarı. Sərhəd. adlıq cümlələrinə xəbər əlavə etsək, qrammatik şəxsin üçüncü şəxs mövqeyində çıxış etməsi açıq bəlli olacaqdır.

Kəndin kənarı meşəlikdir. Sərhəd uzaqdan görünürdü. Bu cümlələrdə qrammatik şəxsə sual qoyulsa, üçüncü şəxs olduğunu onun qrammatik intonasiyası və sintaktik-morfoloji strukturundan görmək asandır.

"Adlıq cümlə semantik məzmunu baxımdan mətndəki cümlələrlə yaxından səsləşir. Hansısa bir mətndə iş və prosesin baş vermə şəraitindən, onun mövcud vəziyyətindən asılı olaraq adlıq cümlələr kəmiyyətcə birdən çox ola bilər" [220, s. 47].

Mətndə ifadə edilən fikir baxımdan adlıq cümlə subyekt, fikrin məzmunu cəhətdən isə obyekt qismində çıxış edir. Hadisələr bu obyektlə əlaqəli olduğu üçün onun ətrafında cərəyan edir.

Tək şəkildə işlənən adlıq cümlə məzmunca onunla bağlı olan hadisə, iş və hərəkətin baş vermə zamanını, yerini və şəraitini göstərir.

Məsələn:

Qafqaz canişinin malikanəsi. Pərdə açılanda geniş otaqda Xurşidbanu ilə Mirzə Ruhullah sükut içində dayanıb zala baxırlar. Knyaz Xasay iti addımlarla gəlib Xurşudbanunun qarşısında dayanır. **(Əfəndiyev İ. "Xurşudbanu Natəvandan")**

Adlıq cümlələr əşya, hadisə haqqında informasiya verilməsi baxımından kəmiyyətcə çox ola bilir. Həmin iş və hadisələrin ifadə edildiyi cümlələr məzmunca bir-biri ilə sıx surətdə bağlı olur, biri digərini tamamlayır.

Məsələn:

Xəstəxana. Birmərtəbəli, iki palata, solda Xanlar. Sağda palatanın orta qapısı kiçik bir bağçaya açılır. Bahardır. Ağaclar yaşıl, güllər rəngarəng. Doktor sağ palatada.. .Şəfqət bacısı Züleyxa xəstənin alnına kompres qoyur [272, s.350].

Sadə cümlənin digər növləri ilə müqayisəsində adlıq cümələlərdə subyekt-predikat münasibətlərinin də xüsusi mövqeyi vardır.

Sadə cümlələrin digər struktur tiplərində olduğu kimi adlıq cümlələrin sintaktik semantikasının formalaşmasında onun digər əlamətləri ilə yanaşı, subyekt-predikat əlaqələrinin də rolu olduqca böyükdür. Cüttərkibli cümlələrdə hökmün bu üzvlərinin bir-biri ilə münasibəti daha aktiv görünür. Bu, onların qrammatik təmsilçilərinin (mübtəda və xəbərin) ayrıca leksik vahid əsasında ifadə edilməsidir. Qeyri-müəyyən şəxsli və ümumi şəxsli cümlələrdə isə hökmün iki üzvünün qrammatik təmsilçisindən biri (xəbər) iştirak etsə də, digər üzvün təmsilçisi isə (mübtəda) açıqda görünmür, zehində mücərrədliyin dərəcəsinə görə təsəvvür olunur.

Məsələn:

I.Yeməkdən sonra axşama qədər uzanıb yatdılar.

II. Yaxşı demişlər: "Əyyaşlığın sonu yorğunluq və səfalət, səfalətin sonu isə heçlik və fəlakətdir." [240, s.199]

Şəxssiz cümlələrdə subyekt-predikat əlaqələrinə gəlincə, deyə bilərik ki, bu cümlə strukturları mübtəda ilə xəbərin sintezindən əmələ gəldiyi üçün hökmün üzvləri də vəhdətdə canlandırılır.

Adlıq cümlələrdə hökmün üzvləri ikisi bir sözdə birləşir. Belə cümlələrdə subyekt və predikatı təklikdə, bir-birindən təcrid edilmiş şəkildə canlandırmaq mümkün deyil. Yuxarıda qeyd etdiyimiz ki, adlıq cümlələrdə müəyyən əşya, hadisə haqqında bilgi söylənilir. Lakin əşya və hadisə haqqında tək-tək sözlərlə fikir yürütmək mümkün deyil. Sözləri ünsiyyət səviyyəsinə çatdırmaq üçün mütləq cümlə şəklinə salmaq və beləliklə, mətn düzəltmək vacib şərtlərdəndir. Mətndəki hər bir cümlə bir-biri ilə qrammatik və məna cəhətdən bağlı olmalıdır. Eyni zamanda, intonasiya əsas qrammatik vasitə kimi mühüm rol oynayır. Adlıq cümlələrdə predikativliyin, əslində implisit xəbərliyin (təsəvvür edilən predikativliyin) ifadəçisi intonasiyadır.

Adlıq cümlələrdə haqqında əlavə məlumat verilməyən, yalnız adları çəkilən əşya, hadisə və s. cümlənin subyekti, onların müəyyən intonasiya ilə söylənilməsi isə onun predikativliyi hesab edilir.

Məsələn:

Kiyev Elmlər Akademiyasının gözəl tarixi abidələr, heykəllər, bədii təsvir əsərləri ilə bəzənmiş salonu. Alman ordu komandanlığının qərargahı. Amaliya ayna qabağında özünə bəzək verir, o alman üslubunda geyinir. Qoca Mariya təmizlik və səliqə aparır. [272, s.276]

"...Adlıq cümlənin subyekti danışan şəxs olmadığı kimi, dinləyən şəxs də ola bilməz. Bunu nəzərə alaraq, demək olar ki, adlıq cümlədə danışan dinləyənə müəyyən bir əşya, hadisə haqqında məlumat verir." [158, s.164]

Adlıq cümlələrdə predikativliyin morfoloji göstəricisi olmur. Əvvəldə göstərdiyimiz kimi, predikativlik ən çox mübtəda və xəbərin cümlədəki münasibətlərini aydınlaşdırır. Burada modallıq, şəxs, zaman kateqoriyası əsas rol oynayır.

"Deməli, predikativliyin əsas təzahürü intonasiya vasitəsilə mümkündür. Beləliklə, deyə bilərik ki, sadə cümlənin başqa növlərindən fərqli olaraq, adlıq cümlələrdə subyekt-predikat münasibətləri adları sadalanan əşya, hadisə ilə intonasiya əlaqələri üzərindən müəyyən edilir".

Belə bir fikrin dilçilikdə mövcud olduğu öz təsdiqini artıq çoxdan tapmışdır ki, hər bir cümlə struktur-semantik xüsusiyyətinə görə iki əsas qütbə-mübtəda və xəbər qütbünə bölünür.

Cüttərkibli cümlələrin mübtədası ya ayrıca leksik vahidlə ifadə edilir, yaxud da xəbərdəki şəxs sonluğu nöqteyi-nəzərdən zehində konkret təsəvvür edilir. Ümumi və qeyri-müəyyən şəxsli cümlələrdə isə adlarına müvafiq məzmunda canlandırılır. Adlıq və şəxssiz cümlələrə bu aspektdən yanaşdıqda sintaktik durumun fərqli olduğunu görürük. Dilçilik ədəbiyyatında qəbul olunmuş sabit fikrə görə, bu iki müxtəlif struktura malik cümlələr qrammatik əsasa görə biri-digərinin əksini təşkil edir. Belə ki, adlıq cümlələr mübtəda, şəxssiz cümlələr isə xəbər əsasında formalaşır.

Məsələn:

I. Bulaq və qayalıqlar. Pambıq təhvil alınan yer. Kolxozçular pambıq təhvil verirlər. Pambıq tarlaları.

II. Regionda sakitlikdir.

Belə kəskin fərqli əlamətlərin olmasına baxmayaraq, bu ayrı-ayrı quruluşa məxsus cümlələr bir-birinə yaxındır:

1) Hər ikisi yalnız bir baş üzv əsasında formalaşan təktərkibli cümlədir.
2) İkinci dərəcəli üzvlərin iştirakı baxımdan müxtəsər və geniş ola bilir.
3) Hər iki cümlə tipində mübtəda və xəbər bir qrammatik əsasda birləşir.
4) Bu cümlə strukturlarında subyekt-predikat əlaqələri tək-tək leksik vahidlər əsasında deyil, qrammatik əsasın vəhdəti ilə müəyyən edilir.

Fərqli struktur-semantik xüsusiyyətləri:

1) Adlıq cümlə mübtəda, şəxssiz cümlə xəbər əsasında formalaşır.
2) Adlıq cümlənin yaranmasında heç bir morfoloji əlamət iştirak etmədiyi halda, şəxssiz cümlənin xəbəri üçüncü şəxs təki ilə ifadə edilir.
3) Şəxssiz cümlələrdə predikativlik xəbərlik şəkilçisi olan –dır[4] morfemi ilə təzahür edirsə, adlıq cümlələrdə predikativliyin yeganə qrammatik ifadə vasitəsi intonasiyadır.
4) Adlıq cümlələrdə mövcud olan hadisə indiki zamana aid olur və belə cümlələr məzmunca ancaq təsdiq cümlələr xarakteri daşıyır.

Şəxssiz cümlələr isə müxtəlif zamanlara aid morfoloji əlamətlərlə işlənə bilir və məzmunca həm təsdiq, həm də inkar ola bilir.

Predikativliyin intonasiya vasitəsilə ifadəsinə və struktur xüsusiyyətinə görə, nominativ quruluşlu cümlələr elliptik tipli yarımçıq cümlələrə bənzəyir. Çünki hər ikisi üzvün zahirdə olmaması baxımından, yəni struktur əlamət cəhətdən natamam (yarımçıq) görünür.

Məsələn:

1. Uca bir təpə. Təpənin başında şah Qacarın çadırı.. [272, s.356]

2. Əvvəl evin içi, sonra çölü.

Nümunələrin zahiri quruluşuna nəzər saldıqda görürük ki, birincidə struktur- sintaktik-morfoloji; ikinci cümlədə isə - sintaktik-leksik əskiklik açıq şəkildə görünür.

Lakin belə zahiri struktur görkəmi cəhətdən bir-birinə oxşasalar da, bunların arasında bərabərlik və eynilik işarəsi qoymaq olmaz. Yarımçıq cümlələrin xüsusi növü hesab edilən elliptik cümlələrdə buraxılan qrammatik əsas (xəbər) qənaət xatirinə, üslubi məqsədlə işlədilmirsə, adlıq cümlələrdə bu cür struktur mövcudluq cümlənin quruluş əlaməti sayılan səciyyəvilikdir. Hər iki cümlədə sintaktik-semantik çalar məhz həmin cümlələrin qrammatik struktur modelindən törəyən xüsusiyyətdir.

İstifadə edilən ədəbiyyat

1. Kononov A.N. Qrammatika yazıka tyurkskix runiçeskix pamyatnikov/VII-IX vv/ - L.: “Nauka”, 1980-256 s.
2. Məhərrəmova R., Cahangirov M. Azərbaycan dilinin tarixi sintaksisinə dair tədqiqlər (sadə cümlə) “AEA”, Bakı – 1962, 200 s.
3. Məmmədquluzadə C. Molla Nəsrəddin 27 noyabr, 1917, № 24 “ADU” Bakı – 1961, 1016 s.
4. Vurğun S. əsərləri (yeddi cilddə) IV cild, “Elm”, Bakı – 1987, 764 s.
5. Abdulla Ş. Seçilmiş əsərləri (üç cilddə, I cild), “AVRASİYAPRESS”, Bakı – 2005, 364 s.
6. Müasir Azərbaycan dili. Sintaksis (II hisə) , “Azərtədrisnəşr”, Bakı – 1962, 271 s.
7. Obşestvennıye nauki zarubejom, seriya 6, № 5, Rİ referatnıy jurnal yazıkoznaniye, Moskva – 1978, 200 s.

А.Аббасов

С точки зрения синтаксической семантики, речь идет о сравнении местоимений с другими простыми типами предложений

Резюме

Давно подтверждается, что такая идея существует в лингвистике, и что каждое предложение делится на две основные полярности и полюс в соответствии со своей структурной и семантической природой. Краткое содержание предложения выражается в отдельной лексической единице, или у человека в рассказе есть четкое представление о конце. В общих и неспецифических предложениях их имена анимированы в соответствии с лексической семантикой. Синтаксические условия появляются по-разному как в обычных, так и в посторонних предложениях.

Несмотря на то, что в создании наречных предложений не участвуют морфологические признаки, сообщение отдельных предложений выражается третьей стороной.

Событие, упомянутое в нареченных предложениях, обычно относится к настоящему времени. Неприемлемые предложения могут обрабатываться с различными морфологическими признаками разного времени и могут быть либо подтверждены, либо опровергнуты в их содержании.

По интонации и структурному характеру предикативности номинативные конструкторские предложения напоминают эллиптические неполные предложения. Однако, если грамматическое основание эллиптического предложения, которое является определенным типом неполных предложений, не используется для стилей сохранения новостей, такое структурное существование в предложениях предложения считается признаком структуры предложения. Синтаксически-семантические тоны в обоих предложениях являются особенностями, которые вытекают из грамматической структурной модели этих предложений.

В обычных предложениях два члена приговора объединены в одно слово. В таких предложениях невозможно представить субъект и предикат в одиночку, изолированно друг от друга. Только предметы, события и т. Д. Не упоминаются в обычных предложениях. предмет предложений и их выражение с определенной интонацией считается его предикатом.

Ключевые слова: субъект, предикат, предикат, суждение, неопределенный, общий, безличный, структурный, характеристика структуры, номинативный характер, лексическая единица.

A. Abbasov

In terms of syntactic semantics, it is about comparing
pronouns with other simple sentence types

Summary

It has long been confirmed that such an idea exists in linguistics, and that each sentence is divided into two main polarities and the pole according to its structural and semantic nature. The summary of the sentence is expressed in a separate lexical unit, or the person in the story has a clear idea of the end. In general and non-specific sentences, their names are animated according to the lexical semantics. Syntactic conditions appear differently in both ordinary and extraneous sentences.

While no morphological traits are involved in the creation of adverbial sentences, the message of the individual sentences is expressed by a third party.

The event referred to in the adverbial sentences usually refers to the present time. Unacceptable sentences can be processed with different morphological signs of different times, and can be either confirmed or denied in their content.

By the intonation and the structural character of the predicativity, the nominative constructor sentences resemble elliptical incomplete sentences. However, unless the grammatical basis of the elliptic sentence, which is a particular type of incomplete sentences, is used for styles of news-saving, such structural existence in the sentence sentences is considered to be a sign of the structure of the sentence. The syntactic-semantic tones in both sentences are the features that derive from the grammatical structural model of those sentences.

İn the ordinary sentences, two members of the verdict are united in one word. In such sentences it is impossible to imagine the subject and the predicate alone, in isolation from each other. Only items, events, and so on are not mentioned in the usual sentences. the subject of sentences, and their expression with certain intonation is considered to be its predicate.

Key words: subject, predicate, predicate, verdict, indefinite, general, impersonal, structure, structure, nominative character, lexical unit.

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya elmləri doktoru professor Buludxan Xəlilov tərəfindən
çapa tövsiyə olunmuşdur

ŞƏLALƏ ƏLİYEVA
Azərbaycan Dillər Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
İngilis dilinin qrammatikası kafedrası
shalalahaliyevah@gmail.com
Azərbaycan, Bakı, Təbriz küç. 81

FRANSIZ DİLİNDƏ ARTİKL NİTQ HİSSƏSİNƏ DAİR MƏNTİQ VƏ YA REFERENSİYA NƏZƏRİYYƏSİ

Xülasə

Determinasiya kateqoriyası müxtəlif dillərdə müxtəlif vasitələrlə ifadə edilir: artikl, morfoloji (hallanma xüsusiyyəti), sintaktik (xüsusi konstruksiyalar, sözlər – işarə əvəzlikləri, qeyri-müəyyən əvəzliklər, söz sırası və s.) vasitələr. Dildə müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası dil universalisidir, çünki o, istənilən dildə bu və ya başqa şəkildə mövcuddur. Onun verbal (artikl, əvəzlik, söz sırası, sifət) və qeyri-verbal (jest, mimika) ifadə vasitələri vardır.

Müəyyənlik/qeyri-müəyyənlik bəzi dillərdə determinativlər, əsasən də artikl adlanan köməkçi nitq hissəsi vasitəsilə aktuallaşır.Müasir fransız dilində ən əsas determiantiv artikl hesab edilir. Bu dilində artikl nitq hissəsi ilə bağlı ən geniş nəzəriyyə "Artikl nitq hissəsinə dair Məntiq və ya referensiya nəzəriyyəsi"dir.

Determinativlərin işlənməsi məntiq və ya referensiya nəzəriyyəsində də təd-qiq edilir. Kommunikasiya prosesində dil işarəsinin qeyri-dil gerçəkliyindəki ob-yektlərlə əlaqələndirilməsi referensiya adlanır. Cümlədə eyni bir determinativ olduğu halda, ismi qrupun referent əlaqəsi (və ya denotativ status) fərqli ola bilər. Fransız dilində referent əlaqəsinin ifadə vasitəsi kimi determinativlər və əvəzliklər çıxış edir.

Açar sözlər: determinativ, müəyyənlik, qeyri-müəyyənlik, referensiya nəzəriyyəsi, identifikasiya, predikat

Determinativ sözü latın dilində '*determinare'*sözündən götürülüb, mənası "təyin etmək" deməkdir. Determinativ ismin qarşısında işlənərək ona müəyyənlik və yaxud qeyri-müəyyənlik kimi qrammatik məna verən əsas göstəricidir [6].

Determinasiya kateqoriyası müxtəlif dillərdə müxtəlif vasitələrlə ifadə edilir. Bu həm qrammatik elementlərdən biri olan artikl, həm də morfoloji (hallanma xüsusiyyəti), sintaktik (xüsusi konstruksiyalar, sözlər –işarə əvəzlikləri, qeyri-müəyyən əvəzlik-lər, söz sırası və s.) vasitələrlə ifadə edilə bilər.

Dilçilikdə determinasiyanın bir sıra bir-birinə oppozisiya təşkil edən kateqoriyaları fərqləndirilir: müəyyənlik – qeyri-müəyyənlik; məlum –naməlum; ümumi – xüsusi;spesifik – qeyri-spesifiklik;

Müəyyənlik/qeyri-müəyyənlik kateqoriyası 19-cu əsrin ortalarından tədqiq edilməyə başlansa da, indiyə qədər müəyyənlik/qeyri-müəyyənlik anlayışı barədə istər dilçilər, istərsə də digər elm sahəsində çalışan alimlər (filosoflar, psixoloqlar) arasında fikir birliynə rast gəlinmir[4, 59-62].

Fəlsəfədə müəyyənlik/qeyri-müəyyənlik kateqoriyası ümumilik-xüsusilik, konkretlik-mücərrədlik kateqoriyalarıyla sıx bağlıdır. Qeyri-müəyyənliklə bağlı nisbətən aydın təsəvvür yunan filosofu Anaksimandrın təlimlərində öz əksini tapmışdır [1, s. 110]. Qeyri-müəyyənliklə

bağlı təsəvvür yunan filosofu Platonun fəlsəfəsində xüsusi yer tutur. Onun fikrincə, qeyri-müəyyənlik material dünyanın dəyişikliyini, qeyri-kamilliyini, xaotikliyini tərənnüm edir [1. s. 109].

Digər yunan filosofu Aristotelin fəlsəfəsində qeyri-müəyyənlik daha dolğun şəkil almışdır. Bu filosofun fəlsəfəsində qeyri-müəyyənlik müəyyən məişət, keyfiyyət, say, əlamət, yer və zamanın obyektiv çatışmazlığı kimi dərk edilir. Alman filosofu Hegel hesab edirdi ki, qeyri-müəyyənlik həyatın bölünməzliyi, sərhədlərin və fərqliliyin olmaması ilə xarakterizə olunur. Müəyyənlik qeyri-müəyyənliyin bazası əsasında mövcuddur, ondan yaranmışdır və onun bir hissəsini təşkil edir [2, s. 102].

Dəqiq elmlərdə müəyyənlik/qeyri-müəyyənlik anlayışlarının xarakteristika- sına əsaslanaraq P.İ.Vizir və A.D.Ursul belə nəticəyə gəlmişlər ki, qeyri-müəyyən-lik anlayışına xüsusiyyət və vəziyyətlər arasında kəskin sərhədlərin olmaması, onların bir-birindən qismən asılılığı aiddir [2, s. 102].

Geniş mənada qeyri-müəyyənlik, nitq situasiyası iştirakçılarının haqqında danışılan predmet, hadisə barədə məlumatının olmamasını, habelə danışan tərəfin- dən ötürülən informasiyaya inamsızlıq, şübhə bilirir. Dar mənada onun funksiyası ismin təsvir edilən situasiyada yeganə olmasını nümayiş etdirərək aktualizasiya və determinasiya edilməsidir.

Müəyyənlik/qeyri-müəyyənlik kateqoriyası dil universalisidir, çünki o, istə- nilən dildə bu və ya başqa şəkildə mövcuddur. Tədqiqatçılar onun verbal (artikl, əvəzlik, söz sırası, sifət) və qeyri-verbal (jest, mimika) ifadə vasitələrini fərqlən-dirirlər.Müəyyənlik/qeyri-müəyyənlik bəzi dillərdə determinativlər, əsasən də artikl adlanan köməkçi nitq hissəsi vasitəsilə aktuallaşır.Determinativlər cümlənin semantik strukturunun formalaşdırılmasında vacib rol oynayır. Onların təbiətini işıqlandırmaq üçün dilçiliyin hüdudlarından kənara çıxmaq və məntiq ilə psixologiyaya müraciət etmək lazımdır [7, s. 104].

Müasir fransız dilində ən əsas determiantiv artikl hesab edilir [3, s. 87-89]. Bu baxımdan əsas diqqət artikl nəzəriyyəsinə yönəldiləcəkdir.

Artikl nitq hissəsi fransız dilinin qrammatikasında xüsusi bir çətinliyi olan nitq hissəsi kimi yadda qalmışdır və o, dolayısı yolla digər determinativlərlə də əla-qədardır. Onun funksiya göstərməsi ilə bağlı xeyli sayda nəzəriyyələr irəli sürül-müşdür və onlardan ən samballısı Qiyom nəzəriyyəsidir. Bu nəzəriyyələr bir-biri-nə zidd deyildir, lakin bu nəzəriyyələr, haqqında söhbət gedən obyektin funksiya göstərməsinin müxtəlif tərəflərini vurğulayaraq, bir-birini tamamlayır. Müasir fran-sız dilində artikl nitq hissəsi ilə bağlı ən geniş nəzəriyyə "Artikl nitq hissəsinə dair Məntiqvə yareferensiya nəzəriyyəsi"dir.

Hər bir anlayış məzmun və həcm baxımından xarakterizə edilir ki, onlar da müvafiq olaraq, anlayışın "intensionalı" və "ekstensionalı" adlanır. Misal üçün, "təhsil alan" anlayışına iki oxşar anlayış daxildir – "tələbə" və "şagird". Onların hər ikisi bir sıra əlamətlərə görə fərqlənir ki, onlar da bu anlayışların formalaşma-sının özəyində durur [9; 11]. Əlamətlərin bu cəmiintensional anlayışları yaradır. Lakin anlayış özü özlüyündə müxtəlif həcmdə aktuallaşa bilər ki, bu da onun ekstensionalını təşkil edir (misal üçün, bütün tələbələrdən, onların qrupundan və ya onlardan biri haqda söhbət gedə bilər). Beləliklə, anlayışın məzmunu elə əlamətlərə işarə edir ki, onların əsasında həmin məzmun formalaşmış olur, bu halda isə həcm anlayış ilə əhatə edilən elementlərin kəmiyyətinə əsasən formalaşmış olur. Artikldan danışdıqda isə bu məsələni belə izah edə bilərik. Artiklın funksiyası intensional ilə ekstensional arasında münasibəti qurmaq üçün, elementin hansı hissəsinin nəzərdə tutulmasından ibarətdir. Artiklın məntiq nəzəriyyəsi onun rolunun anlayışın həcmi və məzmunda əks olunmasını vurğulayır. Müəyyənlik artillı vurğunu anlayışın həcminə keçirir və bu halda totallıq (mütləqlik) və ya vahidlik ifadə edir. Aşağıda verilmiş misalları müqasyisə edək:

Le *chien est un animal – İt heyvandır (İt birheyvannövüdür);*

Je vois ***le*** *chien du voisin – Mənqonşununitinigörürəm.*

Qeyri-müəyyənlikartiklıisə, əksinə, anlayışınməzmuntərəfinivurğulayır.

*C'est **un** chien (Bu itdir); Je vois **un** chien (Mənbiritgörürəm);**Un** chien court dans la cour (Həyətdəbiritqaçır)* cümlələrində it cinsinə adi olan heyvanın əlamətlərinə malik olan obyekt ifadə edilmişdir. Buna görə də, qeyri-müəyyənlik artiklı, obyektin spesifik əlamətlərini ayırmaq üçün istifadə edilir [5, s. 178]. Əgər müəyyən-lik artiklı konkret obyekt və ya obyektlər qrupuna işarə edərək, denotativ funksiya daşıyırsa, qeyri-müəyyənlik artiklı siqnifikativ funksiya daşıyır və anlayış həmin obyektlə əsaslandırılır (həmin obyektə daxil edilir). Məsələn,

*Retourne à ton échoppe: **un** savetier critiquer mes tableaux!* cümləsində **unsavetier** bu mənada işlənir: "çəkməçi kimi bir insan" (çəkməçi işləyən bir insan) (halbuki, bu müəyyən çəkməçiyə deyilmişdir).

Determinativlərin işlənməsi məntiq və ya referensiya nəzəriyyəsində də təd-qiq edilir. Kommunikasiya prosesində dil işarəsinin qeyri-dil gerçəkliyindəki ob-yektlərlə əlaqələndirilməsi referensiya adlanır. Referensiya anlayışı özü elmdə müxtəlif cür izah edilir. Əgər danışanların şüurunda təcəssüm edilən obyekt və təəssüratlar sinfindən seçilmiş obyekt və obyektlər qrupuna uyğun gələrsə, isim və ya ismi qrup referent olur; əgər onlar hansısa bir fərdiləşdirilmiş obyekt ilə əlaqələndirilmirsə, lakin ümumilikdə bu obyektlərin əlamətlərinə malikdirlərsə, onda onlar qeyri-referent hesab olunur [2, s. 120].Misal üçün,

*Pierre veut lire **un roman** de Mauriac.* Bu cümləni iki cür başa düşmək olar:

(1) Pyer bu müəllifin romanlarından birini seçmişdir və onu oxumağa hazırlaşır.

(2) Pyer bu yazıçının kitabları haqda eşidib və onun əsərlərindən hansısa birini oxumaq istəyir.

Birinci misalda ismi qrup referentdir, belə ki, roman sözü hansısa bir sözünə, "Moriakın romanları" sinfindən (çoxluq) götürülmüş bir-ə aiddir, halbuki, danışana bu seçim məlum deyildir; ikinci halda isə ismi qrup qeyri-referentdir, belə ki, seçim edilməmişdir və o, bu sinfin istənilən vahidinə aid ola bilər.

Bu fərq fransız dilində əyani şəkildə ifadə edilən deyildir (hər iki halda artikl **un** işlədilir), lakin rus dilində isə *какой-то (birisi)* və *какой-нибудь (hansısa bir)* formalarının qarşıqarşıya qoyulması aydın şəkildə ifadə edilir.

O, həm də mətnin davamında aşağıdakı əvəzlik əvəzlənmələrində də təzahür edə bilər.

*l) ... et il **le** prendra (a pris) à un de ses amis (O, onu dostlarından birinə aparacaq (aaprdı));*

*2)... et il **en** lira **un** le mois prochain (O, ondan birini gələn ay oxuyacaq).*

İsmi qrupda haqqında söhbət gedən sinif (intensional) leksik baxımdan işarələnmişdir, halbuki artikllər (və ya digər determinativlər) bu sinif daxilində danışan tərəfindən edilmiş (ekstensional) seçimi göstərir. Başqa bir misala baxaq:

L'auteur de ce livre est un homme de génie – Bu kitabınmüəllifi dahibirinsandır.

Buradaismiqrupikicürbaşadüşüləbilər. Əgərmüəllifdanışanaməlumdur- sa, onda insanınadınıəvəzedənseçilmişismiqrupperifrazakimiçıxışedir (məsələn, *bu həkimdir, mühəndisdir*) vəbizmüəyyənbirspesifik (konkret) referensiyaya malik oluruq. Həttaəgərmüəllifməlumdeyilsə, faktikiolaraq, biz, beləbirfikirdənçıxışedərək (*beləbirkitabıyazmaqdahi insanolmaqlazımdır*) insanıntərifiniveririk; bu haldaismiqrupheçbirşəxsiləəlaqələnmir, vəbizburadaatributiv, qeyri-referentismiqrupistifadəsiəldəedirikki, bu da obyektəişarəetmir,lakinkeyfiyyətbildiri (hansısabirkitabınmüəllifiolmğıgöstərir).

Beləliklə, eyni bir determinativin olduğu halda, ismi qrupun referent əlaqəsi (və ya denotativ status) fərqli ola bilər. Fransız dilində referent əlaqəsinin ifadə vasitəsi kimi determinativlər və əvəzliklər çıxış edir [10; 12].

Dilçilikdə forma aspektində ismi qrupların 4 növü fərqləndirirl:

1. Xüsusi adlar və ya isimlər (bir qayda olaqaq) referentin müəyyənliyinə işarə edir,

2. Müəyyənləşdirici və ya təyini təsvirlər (müəyyən bir detarminativli ad),
3. Qeyri-müəyyən təsvir (qeyri-müəyyən determinativli),
4. Qeyri-determiantivləşmiş ad və ya isim (determnativsiz).

Məzmun planına gəldikdə isə, ismi qrupun 4 növü qeyd edilir:

1.Əşyavi, referent (müəyyən və ya qeyri-müəyyən):2. Əşyavi, qeyri-referent:3. Predikat qeyri-obyekt və ya atributiv:4. Avtonom (müstəqil).

Dilçilikdə referentlərin bölgüsünə gəldikdə isə aşağıdakıları göstərmək vacibdir:

1) spesifikləşdirilmiş müəyyənlik:

le, ce, mon, les (Le film que j'ai vu hier – Mənim dünən baxdığım film);

2) spesifikləşdirilmiş qeyri-müəyyənlik:

un, des (Hier, j'ai vu un film français- Dünən mən bir fransız filminə baxdım).

İsmi qrupların qeyri-referent işlənməsinə isə aşağıdakılar aiddir:

1) qeyri-spesifik qeyri-müəyyənlik, burada sinif daxilindən hər hansı bir obyekt seçilmir:

*un, des (Elle voudrait voir **un** film de R.Clair – O, R.Klerin filminə baxmaq istərdi);*

2) universal və ya hal işlənməsi, bu halda ismi qrup bütün obyektlər sinfinə istinad edir:

*le, les, un, des (**Le** lion est carnivore- Şir vəhşidir;**Un** sportif doit être courageux - İdmançı cəsur olmalıdır)* və bir sıra digərləri.

İsmi qrupların qeyri-predmet işlənməsi predikativdə (predikativin tərkibin-də) təqdim edilmişdir:

*Sa mère **est médecin** – Onun anası həkimdir**;***

*Il est **un bon sportif** – O, çox yaxşı bir idmançıdır;*

İsmi qrupların atributiv işlənməsi təyinlərdə (təyini ifadələrin tərkibində) təqdim edilmişdir:

*une table **de bois** – taxdan düzəldilmiş bir stol*

İsmi qrupların avtonom işlənməsi adlandırma və ya sözün mənasının izahı zamanı təqdim edilir.

*Il s'appelle **Jacques** – Onun adı Jakdır.*

***Table** est un substantif - Stol əşyadır.*

İsmin və ona uyğun tipik artiklın sxematik işlənməsini aşağıdakı formada təqdim etmək olar [12]:



Referensiyanın tipləri ismin aktuallaşması dərəcəsini göstərir: ən çox aktual-laşan isim referent əşya işlənməsində rast gəlinir, nisbətən az rast gəlinən qeyri-referent əşya işlənməsi, ondan da az rast gəlinən isə predikat işlənməsidir ki, burada o, obyekt deyil, onun əlamətlərini ifadə edir. Nəhəyət, ən az rast gəlinən isə avtonom işlənmədir ki, burada isim öz adından başqa heç nə ifadə etmir.

Qeyd edək ki, artikl nitq hissəsinə dair məntiq (və ya referensiya) nəzəriy-yəsi V.Q.Qakın adı ilə bağlıdır. Bu nəzəriyyəsinin bir çox problemləri hələ də müzakirə olunmaqdadır.Belə ki, ismin hal mənasında (***L'homme est mortel***) və ya identifikləşdirici predikatda (*Elle est **la** directrice de cette école*) işlənməsinin referent olub və yaxud da olmaması barədə yekdil fikir

yoxdur. Lakin bunda asılı olmayaraq, nəzəriyyənin müsbət tərəfi ondan ibarətdir ki, o, diqqəti ismi qrupların müxtəlif işlənməsində mənaların dərin interpretasiyasına yönəldir.

Gördyümüz kimi, istənilən determinativ müəyyən məna diapazonuna malik-dir. Bununla yanaşı, xalis referent yanaşması artiklın seçimi qaydasını tətbiq etmə- yə icazə vermir. Belə ki, ismi qrupun denotativ statusu ilə aktualalşma növləri arasında (determiantivlər) tam simmetriklik yoxdur. Bu növ məsələləri həll etmək isə müəyyənlik/qeyri-müəyyənlik nəzəriyyəsinin öhdəsinə düşür.

Artıq yuxarıda qeyd etdiyimiz kimi, bir sıra dillərdə, o cümlədən də, fransız dilində də müəyyənlik/qeyri-müəyyənlik artikl nitq hissəsi vasitəsilə ifadə edilir. Fransız dilndə artiklların bölgüsü isə digər dillərdən fərqlənir. Belə ki, bu dildə artikllar üç yerə bölünür: müəyyənlik artiklı, qeyri-müəyyənlik artiklı və artikl partitiv [8, s. 182].

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Алексеева М.Е. О проблеме детерминативов в контексте совре-менных синтаксической теорий, Вестник Санкт-Петербургского Универ-ситета, сер. 13, вып. 1, 2009. С. 107-113.
2. Берри Р. Детерминативы и квантификаторы. М.:АСТ-Астрель, 2004. 139 р.
3. Гак В.Г. Теоретическая грамматика французского языка. Ч. 1. 2-е изд. М., 1986, стр. 87-89.
4.Кацитадзе И.М. К вопросу об имплицитных и эксплицитных способах выражения категории определенности / неопределенности в русском , Гуманитарные и социальные науки, 2007, №5, стр. 59-62
5. Костецкая Е.О., Кардашевский В.И. Грамматика Французского Языка. Москва. Высщая школа. 1979. 279 с.
6. Шмелев А.Д.Определенность/неопределенность в аспекте теории референции//Теория функциональной грамматики: Субъектность. Объект-ность. Коммуникативная перспектива высказывания. Определенность/не-определенность / Отв. ред. А.В. Бондарко. — СПб., 1992.
7. Hawkins J.A. Definiteness and Indefiniteness. Atlantic Highlands, NJ: Humanities Press. London, Croom Helm. 1998. 129 p.
8. Nikolskaia E.K., Gldenberg T.Y. Grammairefrançaise 2014. 364 c.
9. http://elar.usfeu.ru/bitstream/123456789/6314/1/inyaz-2014 _11.pdf
10.https://francaisonline.com/grammatika/mestoimeniya/neopredelenye-mestoimenia
11.http://la-conjugaison.nouvelobs.com/fle/les-adjectifs-et-pronoms-indefinis-.php
12.https://www.francaisfacile.com/exercices/exercice-francais-2/exer cice-francais-33701.php

Sha. AnvarAliyeva

Logical theory or reference theory on the part of speech of article in french

Summary

Determination categorya can be expressed by different means in different languages: article, morphological (case features), syntactical (special constructions, words –demonstrative pronouns, indefinite pronouns, word order, etc.) means. The category of definiteness and indefiniteness in a language is a language universaly, since it exists in any language in this or another form. It has verbal (article, pronoun, word order, adjective) and non-verbal (gestures, mimes) means of expression.

Definiteness and indefiniteness in some languages is realised by means of determiners, basicly, by the part of speech called “article”. In modern French article is considered to be a main determiner. In this language, the gratest theory relating to this part of speech is “Logıcal theory or reference theory on the part of speech of article”.

The usage of determiners is investigated in logical theory or reference theory. The relation of language (linguistic) signs in non-linguistic reality in communication process is called reference. If the same determiner is used in a sentence, the reference connection (or a denotative status) of a noun group can be different. In French, determiners and pronouns serveas means of reference connection.

Key words: determiner, definiteness, indefiniteness, referencial theory, identification, predicate

Ш. Алиева

Логическая теория или теория референцииартикля
на французском языке

Резюме

Категория детерминации может быть выражено различными способами на разных языках: артикль, морфологические способы(особенности падежа), синтаксические способы (специальные конструкции, слова – указательные местоимения, неопределенные местоимения, порядок слов и т. д.). Категория определенности и неопределенности в языке является языковой универсальностью, поскольку она существует в любом языке в той или иной форме. Она имеет вербальные (артикль, местоимение, порядок слов, прилагательное) и невербальные (жесты, пантомимы) средства выражения.

Определенность и неопределенность в некоторых языках реализуются посредством определителей (детерминативов, в основном, частью речи, называемой «артикль». В современном французском языке артикль считается основным определяющим фактором. На этом языке самая лучшая теория, относящаяся к этой части речи, это - «логическая теория или теория референции артикля».

Использование детерминативов исследуется в логической теории или в теории референции. Соотношение языковых знаков в неязыковой реальности в процессе общения называется референция. Если в предложении используется один и тот же определитель, референционное соединение (или денотативный статус) группы существительных может быть другим. Во французском языке определители и местоимения служат средством референции.

Ключевые слова: летерминатив, определённость, неопределённость, теория референции, идентификация, предикат

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 24.10.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Gunay Şirəliyeva tərəfindən
çapa tövsiyə olunmuşdur

RAMİLƏ NƏSİROVA
Filologiya üzrə fəlsəfə doktoru
ADPU
Üzeyir Hacıbəyli 68

MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ CİNS VƏ HAL KATEQORİYASI İLƏ BAĞLI ANOMALİYALAR

Məqalədə Azərbaycan, ingilis və rus dillərində morfoloji səviyyədə cins və hal kateqoriyasının anomaliyalarından bəhs olunur. Məqalədə göstərilir ki, Azərbaycan dilində anomaliyalar morfoloji səviyyədə çox az olur. Bu dəyişikliklər əsasən fonetik və leksik səviyyələrə aiddir. Rus dilində anomaliyalar isimlər arasında, isimlərlə sifətlər, isimlərlə saylar, əvəzliklər arasında ziddiyyətlərlə səciyyələnir. Hal kateqoriyası isə sistemsizliyi ilə fərqlənir. İngilis dilində isə anomaliyalar morfoloji səviyyədə özünü göstərir. İsimlərin cəm halının düzəlməsində, sözdüzəltmə və sözdəyişdirmədə, hal kateqoriyasında müşahidə olunur.

Ana dili Azərbaycan, yaxud rus dili olanlar, rus təhsilli azərbaycanlılar ingilis dili öyrənərkən, hər şeydən əvvəl nəzərə almalıdırlar ki, ingilis və rus dilinin sistemləri arasında böyük fərq vardır, ingilis və Azərbaycan dili isə müxtəlifsistemlidir. Baxmayaraq ki, struktur planda ingilis və rus dili arasında oxşar cəhətləri (Məsələn, eyni nitq hissələrinin olması, bir çox qrammatik kateqoriyaların üst-üstə düşməsi, struktur-semantik paralellərin mövcud olması və s.) də qeyd etmək olar. Lakin bu iki dildə eyni bir fikrin ifadə vasitələri zamanı ingilis nitqinin başa düşülməsində diqqəti cəlb edən çətinliklər üzə çıxır. Qrammatik anomaliyalardan söhbət getdikdə vəziyyət dəfələrlə dərinləşir, baxmayaraq ki, ingilis və rus dili qohum dillərdir – hind-Avropa dil ailəsinə daxildir. Ural-Altay makro dil ailəsinə daxil olan Altay ailəsinə və Altay dilləri ailəsinə daxil olan türk dillərindən biri – Azərbaycan türkcəsinə gəlincə isə, bu dili ingilis dili ilə müqayisə edərkən cüzi oxşarlıqlar müşahidə etmək olur. Bu oxşarlıqlar dil universaliləri olub linqvistik-tipoloji mahiyyət daşıyır.

Məlumdur ki, bir dildən digərinə tərcümə zamanı, xarici dilin öyrənilməsi prosesində dil öyrənən müəyyən mərhələdə daşıyıcısı olduğu dilin quruluşunun təsiri altında olur, yəni həmişə öyrənənin ana dilinin sistemi həmişə ona təsir göstərir. Söhbət öyrənənin şüurunda üç dilin quruluş və sisteminin təmasından gedirsə, psixoloji olaraq, bu dillərin müxtəlif səviyyələrində müqayisəsi baş verir. Öyrənən, şüuraltı olaraq, özü üçün qrammatik səviyyədə uyğunluqlar sistemini tutmaq istəyir.

Açar sözlər: cins, hal, kateqoriyalar, Azərbaycan, rus, ingilis, zaman, anomaliyalar

Rus dilində ad bildirən sözlərin qrammatik əsası isim kateqoriyasıdır. Bu kateqoriyaya əşyavilik bildirən və əşyaviliyi, anlayışı cins, kəmiyyət və hallarla təsvir edən sözlər daxildir. İsim kateqoriyasına aid edilən söz adətən müəyyən cinsə görə hallanmanı həyata keçirən, təkdə və cəmdə hallanma formaları sistemini özündə əks etdirən dil vahididir. Əşyaviliyin mənası semantik vasitə kimi xidmət edir. Bu vasitənin köməyi ilə vahid bir şeydən, əşyadan, anlayışdan eynicinsli əşyaların bütöv bir sinfinin adlandırılması ortaya çıxır, yaxud mücərrəd bir anlayış əks olunur.

Rus dilində, yalnız cəm halda işlənən isimlər (*люди* "adamlar, insanlar", *брюки* "şalvar", *ножницы* "qayçı" və b.) istisna olmaqla, bütün isimlər **kişi, qadın** və **orta** adlanan üç formal qrammatik cinsə ayrılır. Bu siniflərin normativ formada (adlıq hal) mənaları və ifadələri vardır. Bundan başqa, onların hər biri üçün müəyyən sayda şəkilçi vasitəsilə sözdüzəltmə formalarında xüsusi hal sonluqları mövcuddur.

Rus dilində cins əsasən sonluqlarla müəyyənləşdirilir. Belə ki, qalın samitlə bitən, sıfır sonluğu, tək sayda və adlıq halda olan isimlər kişi cinsində olan sözlər sinfinə aiddir. Məsələn: *стол "masa", самолёт "təyyarə", пол "döşəmə", топор "balta", чай, телевизор, телефон* və s.

-ш, -ж sonluqlu, eləcə də incə sonluqlu isimlər (*нож "bıçaq", шалаш "koma, daxma, çadır (ağacdan, küləşdən, şaxdan)", зверь "vəhşi heyvan, yırtıcı heyvan", кость "sümük", чушь "cəfəngiyat, mənasız söz"* və b.) istisna təşkil edir. Bu qəbildən olan isimlərin cinsi (kəmiyyətinə görə fərqlənən – insanlarda: *qadın, kişi, oğlan qız, əmi, xala* və s.), heyvanlarda – *beçə, fərə, xoruz, toyuq* və s. tək sayda olan ismin hallanma sistemi ilə müəyyənləşdirilir. Məsələn, **стол** sözü kimi hallanan və müvafiq hal şəkilçiləri qəbul edən sözlər:

именительный	*(adlıq)*	*стол*	*топор*
родительный	*(yiyəlik)*	*стол-а*	*топор-а*
дательный	*(yönlük)*	*стол-у*	*топор-у*
винительный	*(təsirlik)*	*стол*	*топор*
творительный	*(birgəlik)*	*стол-ом*	*топор-ом*
предложный	*(barəlik)*	*стол-е*	*топор-е*

Üç vasitəli hal şəkilçisi **-и** və birgəlik hal şəkilçisi **-ью** sonluğu ilə bitən sözlər isə qadın cinsinə aid edilir. Lakin son onilliklərdə yaranmış, **-ж, -ш** ilə bitən sözlər (*сельмаш < сельская машина "kənd maşını", бомж <без определённого места жительства "müəyyən yaşayış yeri olmayan - səfil"* və s.) kişi cinsinə aid edilir.

Əlbəttə, müasir rus dilinin və müasir təfəkkür tərzinin əsasında, nə üçün *потолок "tavan", сор "zir-zibil", мор "qırğın, azar", сыр "pendir", жир "piy", хлеб "çörək", гроб "tabut", город "şəhər", год "il"* və s. sözlərin kişi cinsinə, *стена "divar", весна "yaz, bahar", осень "payız", зима "qış", плесть "kif", плешь "daz, çılpaq yer", дверь "qapı", страна "ölkə", луна "ay", власть "hakimiyyət"* və s. sözlərin qadın cinsinə, *поле "tarla, zəmi", море "dəniz", солнце "günəş", время "vaxt, zaman", небо "göy, səma", лето "yay", окно "pəncərə", масло "yağ", молоко "süd"* və s. sözlərin isə orta cinsə aid olduğunu başa düşmək olmur. Eyni anlayış dairəsinə aid olan sözlərin müxtəlif cinslərə aid olması anlaşılmazdır. Məsələn, *море "dəniz", озеро "göl"* – orta cinsdə, *река "çay"* – qadın cinsində, *ручей "kiçik çay"* sözünün kişi cinsində, yaxud *солнце "günəş", небо "göy, səma" sözlərinin – orta cinsdə, луна "ay"* sözünün qadın cinsində, ərzaq məhsullarından *масло "yağ", молоко "süd"* – orta cinsdə, *жир "piy", хлеб "çörək"* – kişi cinsində, *otağın tavanının (потолок), döşəməsinin (пол) – kişi cinsində, pəncərəsinin (окно)* – orta cinsdə, *qapısının (дверь)* isə qadın cinsində olması qətiyyən anlaşılan deyil və heç bir məntiqə uyğun deyil. İnsanın eyni bədən üzvünün dörd sözlə və üç cinslə ifadə olunmasına (*живот, брюхо, пузо, утроба –)* heç bir dildə təsadüf olunmur. Rus dilində danışanların heç biri nə üçün *вяз "qarağac", клен "ağcaqayın", ясен "göyrüş, vən", дуб "palıd" kimi ağac adları kişi cinsinə, липа "cökə", осина "ağcaqovaq", берёза "tozağacı", сосна "şam", ива "söyüd", ветла "ağ söyüd", черемуха " meşə gilası"* ağac adlarının isə qadın cinsinə aid edildiyini anlaya bilməz. Məsələn, nə üçün rus dilində *ağac / bitki* anlayışı bildirən və orta cinsə aid olan yalnız bircə söz var – *дерево*. Bu özü də anlaşılmazdır [1,s.181].

Müasir rus dilində isimlərin kateqoriyası kişi və qadın cinsinə aid şəxs adlarının qrammatik qarşılaşdırılması zamanı özünü daha aydın göstərir. Qadın cinsi qadın cinsini göstərən formantla, şəkilçi ilə müəyyənləşdirilir: *раб "qul"* kişi cinsi – *рабыня, "qul, qadın", супруг "ər" – супруга "arvad", колдун "cadugər kişi" – колдуня "cadugər qadın", граф-графиня, господин "cənab" – госпожа "xanım", герой "qəhrəman kişi", героиня "qəhrəman qadın", свёкр "qayınata (ərin atası)" – свекровь "qayınana (ərin anası)", тесть "qayınata (arvadın atası)" –тёща "qayınana (arvadın anası)", старик "qoca kişi" – старуха "qoca qadın",*

внук "oğlan nəvə" – внучка "qız nəvə", студент "tələbə oğlan", студентка "tələbə qız", школьник "məktəbli oğlan", школьница "məktəbli qız", учитель "müəllim" – учительница "müəllimə", портной "kişi dərzi", портниха "qadın dərzi" və b.

Lakin kişi və qadın şəxslərə aid adlardan fərqli olaraq, canlılar aləminə aid olan heyvanların adlarında cins kateqoriyasındakı uyğunluqlarda ardıcıllıq daha çox pozulur. Məsələn, *волк "canavar" – волчица "dişi canavar", тигр "pələng", тигрица "dişi pələng", лев "aslan, şir" – львица "dişi aslan", заяц "dovşan", зайчиха "dişi dovşan", кот "pişik" – кошка "dişi pişik", индюк "hind toyuğu" – индюшка "dişi hind toyuğu"* və s. kimi heyvan adlarında cinsiyyət anlayışı olduğu halda, *крыса "siçan", собака "it", жук "böcək", лягушка "qurbağa", жаба "quru qurbağası", муха "milçək", щука "durnabalığı", окунь "xanı balığı", карась "dabanbalığı"* kimi adlarda cinsiyyət anlayışı yoxdur.

Ümumi mənada işlədilən, alınma, hallanmayan isimlərdə də cinsə görə bölünmədə qrammatik anomaliyalar diqqətdən yayınmır. Rus dilində elə alınmalar var ki, hallanmır və cansız əşyalara aid olan isimlər orta cinsə aid edilir. Məsələn: *манто, кино, пальто, коммюнике, амплуа, жури, бра, какао və s.* Bu sahədə də anomaliya vardır: nədənsə, *кофе* kişi cinsinə aid edilir: *крепкий кофе "tünd qəhvə".*

Alınma sözlər arasında qadın cinsində olan şəxslərə aid olan sözlər qadın cinsinə aid edilir: *леди, мисс, миссиз, мадам, сеньора, сеньорита, фрейлен, ханум* və b., lakin alınma və hallanmayan heyvan adları qadın cinsində o halda işlədilir ki, onun dişi cinsdən olduğu qeyd olunur. Məsələn: *корьмящая шимпанзе "əmizdirən şimpanze".* Ümumiyyətlə isə canlı varlıqları bildirən və hallanmayan isimlər rus dilində, cinsiyyətindən asılı olmayaraq, kişi cinsinə aid edilir (*шимпанзе, кенгуру, какаду* və s.).

Müasir rus dilində şəxslərin müəyyənləşdirilməsində qrammatik cins kateqoriyası, əsasən, canlı məxluqların təbii cinsi haqqında real təsəvvür bazasından çıxış edir. Lakin burada da çox ciddi məhdudiyyətlər vardır. Belə ki, şəxslərin rütbəsini, vəzifəsini, məşğuliyyətini, peşəsini, sənətini, işini bildirən bir sıra sözlər, hətta qadınlara aid olduqda belə, kişi cinsi formasını saxlayır. Müq. et.: *продавец "kişi satıcı" – продавщица "qadın satıcı", заведующий "müdir" – заведующая "müdirə", машинист"kişi maşinist" – машинистка "maşinist qadın", лифтёр "liftçi kişi" – лифтёрша "liftçi qadın", крановщик "krançı kişi" – крановщица "krançı qadın", водитель "sürücü kişi" – водительница "sürücü qadın" və s.,* lakin *доцент, доктор, депутат, профессор, инженер, архитектор, математик, директор,*

педагог, председатель, министр, президент, конгрессмен, врач və s.

dəsini üstün tutur, (məsələn: mimikanın köməyi ilə, səslər,əşyalar şəkillər) bundan əlavə özündə rol oyununuu əks etdirən bir neçə simulyasiya da təqdim edilir.Təcrübə göstərir ki, suallar üzərində iş ünsiyyət qurmaq üçün şagirdlərə çox vacibdir.Sual verməyi bacarmaq, onu başa düşmək və ona düzgün cavab vermək ünsiyyətin əsasını təşkil edir.Əvvəlcə lentə yazılmış suallara qulaq asdırmaq və hər sualı xor şəkildə təkrar etdirmək lazımdır.Əgər kasset yoxdursa onda müəllim öz intonasiyasına fikir verməklə sualları aydın və səlist formada tələffüz etməlidir: işlər yaxşıdır? Sənin adın nədir? Sən fransızsan? Bu kimdir?

Şagirdlər yadda saxlamaq üçün təkrar edirlər.Sonra onlara kiçik dialoqlar hazırlamağı tapşırmaq olar.Şagirdlər 2 nəfərlik qrup şəklində sual verir və ona cavab verməyə çalışırlar.

-Yaxşısan? – Sağ ol yaxşıyam, bəs sən ?
-Sənin adın nədir ?- Ayşən
-Bəs sənin ?-Yaqut

Suallar üzərində yaxşı çalışdıqdan sonra 1-ci fəaliyyətə keçmək olar.

V sinifdə tədris ilinin əvvəlində şərti ana dilində izah etmək olar.Şagirdlərə təklif etmək olar ki, bu qonşusuna sual verir, o da öz növbəsində karandaşla sualı və cavabı birləşdirərək suala düzgün cavab axtarır və cavab verir.Sonra hamı birlikdə düzgün cavabları yoxlayırlar

Onun adı nədir ? Onun adı Anridir.
Sənin adın nədir ? Mənim adım Jakdır
Nadin fransızdırmı ? Bəli o fransızdır
Sən azərbaycanlısan ? Bəli mən azərbaycanlıyam
Bu kimdir ? Bu Zidandır
İşlər necədir ? Sağol yaxşıyam .Bəs sən?

Tapşırıq 2 –Düzəlt .Sual tap

Bu tapşırıq suallar üzərində işi başa çatdırır.Əgər şagirdlər cavablardan çıxış edərək sualları həmin anda tapırlarsa, bu o demekdir ki, suallar yaxşı işlənilib və digər bir öyrənməyə keçmək olar.Əgər onlar sualları tapa bilmirlərsə, onda onları yenidən işləmək lazımdır.

1.İşlər yaxşıdır? Sağ ol , yaxşıdır
2. Sənin adın nədir? Mənim adım Anar Zamanlıdır
3.Bu kimdir? Bu Fidan Qasımovadır
4. O rusdur? Bəli rusdur
5.Onun adı nədir ? Onun adı Pyer Bessondur.

Ədəbiyyat

1.Christine Tagliante : « La classe de langue »p.102-110
2 Y. S. Andréévskaia-Levenstern : « Méthodologie de l'enseignement du Français ». Moscou. 1973.p.240-241
3Béra M .Le magnétophone en classe de 5e –« Education nationale » ,no 3,P.,19614G a u t h i e r A.Quelques possibilités d'utilisation du magnétophone en classe. – « Le français dans le monde », no 19, 1963
4.G u é n o t J. L'utilisation du magnétophone. – « Langues modernes », no 6,P.,
5.M.Orucov. Fransız dilinin tədrisi metodikası 2019
6.İnternet resursları

M.Orudjov

The importance of exercise and games in teaching of the french language

Summary

Today the teaching of exercises and games keeps its topicality. One of the most important methods at the lesson are games. Because it is always accepted with joy and interest . The games are organized according to the purpose of the lesson . The games form the aim of independent thought at students it is noted in this article. That it is impossible to allow chaos at the classroom. Il the article there is enough information about the games and exercises.
In the article the special role of game for the creativity of students is noted. In this article it is noted that all types of games motivate the students to gain knowledge.The article deals with animante and inanimente games. Thase games are explained separately. Here is shavan that role to prepare the cope vith many exercises.They help to prepare the students for other activities.Itis voted that sometimes these games don't give.The expeeted results.All those problems are investigated in the research work.The importance of spontaneous games are mentiones too.The research worl proposes to preserve balance in the application of games.The games organized in groups are more productive.The methods of adaptation of students who are nor used to work in groups are noted.Here is also advised to present small games in the teaching process.

Key words :game, method, assistance, play, performance, didactics, to play,

М.Оруджов

Значение упражнений и игр в обучении французскому языку

Резюме

Сегодня обучение упражнениям и играм сохраняет свою актуальность. Одним из самых важных методов на уроке являются игры. Потому что это всегда принимается с радостью и интересом. Игры организованы в соответствии с целью урока. Игры формируют цель самостоятельного мышления у студентов, отмечается в этой статье. Что нельзя допустить хаоса в классе. В статье достаточно информации об играх и упражнениях. В статье отмечена особая роль игры для творчества студентов. В этой статье отмечается, что все виды игр мотивируют учащихся на получение знаний.

В статье рассматриваются игры animante и inanimente. Эти игры объясняются отдельно. Вот роль Шавана в подготовке справки со многими упражнениями. Они помогают подготовить учеников к другим занятиям. Было решено, что иногда эти игры не дают результатов. Ожидаемые результаты. Все эти проблемы исследуются в исследовательской работе. Важность спонтанной Игры также являются упоминаниями. Исследовательский центр предлагает сохранить баланс в применении игр. Игры, организованные в группах, более продуктивны. Отмечены методы адаптации студентов, которые не привыкли работать в группах. Также рекомендуется представить маленькие игры в учебном процессе.

Ключевые слова: гейм, метод, игра, игра, перформанс, дидактика, игра,

Redaksiyaya daxil olma tarixi: 21.08.2019
Çapa qəbul olunma tarixi: 25.10.2019
Filologiya üzrə fəlsəfə doktoru, Aygün Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

KÖÇƏRLİ GÜLŞƏN
Bakı Avrasiya Universiteti
Həsən Əliyev küçəsi, Bakı 1073
kocharli81@gmail.com

ONOMASTİK VAHİDLƏRİN DİLÇİLİKDƏ YERİ

Xülasə

Məqalə dilçilik tarixində onomastik vahidlərin dilçilikdə tutduğu mövqeyə həsr edilmişdir. Əvvəlcə burada onomastikanın növləri haqqında məlumat verilir. Bu haqda onomalogiyaya dair mövcud fikirlərə istinad edilir. Onomastikanın xüsusi mövqeyindən danışılır. Dilimizin onomastikasını tədqiq edən tarixçi və dilçi alimlər haqqında məlumat verilir. Bəzi alimlərin əsərləri nümunə kimi göstərilir. Bu sahədə ən çox araşdırmalar aparan Afad Qurbanovun adı xüsusi qeyd olunur.

Qeyd edilir ki, onomastik vahidlərin işıqlandırılması üçün müəyyən işlər görülsə də, onların frazeologiyaya cəlb edilməsi ilk dəfədir ki, qarşıda bir məqsəd kimi durur. Burada ən çox onomastik vahidlərin frazeologiyaya münasibəti diqqət mərkəzində olmalıdır. Çünki dilçilik tarixində onomalogiya ilə məşğul olan tədqiqatçılar onomastik frazeologizmlərə heç də toxunmamışlar. Onomastikaya dair yazılan ayrı-ayrı əsərlərdə yalnız adı çəkilmişdir.
Ancaq bununla belə, bir çox dilçi alimlərin monoqrafiya, lüğət və kitablarında onomastik adlardan əmələ gələn frazeoloji vahidlərə rast gəlirik.

Hər bir xalqın özünəməxsus adqoyma ənənəsi vardır. Bu prinsip əsasında antroponimlər yaranmışdır. Burada antroponimik kateqoriyanın iki forması - əsas və köməkçi adlar bir-birindən fərqləndirilir.

Bundan başqa frazeologizmin yaranmasında iştirak edən real və bədii antroponimlər izah olunur.

Onomastik vahidlərə bir sıra folklor nümunələrində də rast gəlinir. Bütün bunlar Azərbaycan dilinin onomastik frazeologizmlərlə çox zəngin olduğunu sübut edir.

Açar sözlər: Onomalogiya, onomastika, frazeologizm, antroponimiya, toponimika, lüğət

Dilçilik termini kimi "onomastika" yunan dilindən götürülmüşdür və iki mənada işlənir: 1. Xüsusi adları öyrənən elm sahəsi; 2. Onomastik vahidlərin (onimlərin) cəmi, toplusu (1, 289). Afad Qurbanov onomastikanın dar və geniş mənada işləndiyini göstərir və izah edir ki, onomastika geniş mənada qitələrin onomastikası, ölkələrin onomastikası, müəyyən ölkə sahəsinin onomastikası və s. kimi işlənir. Geniş mənada nəzərdə tutulan onomastik sistem makroonomastika adlanır. Dar mənada bu və ya digər rayonda, kənddə işlənən xüsusi adların cəmi kimi təsəvvür olunur. Bu həcmdə götürülən onomastik sistemə mikroonomastika da demək olar (2, 11).

Azərbaycan onomastikasının ümumi dilçilikdə, xüsusilə də ümumtürkoloji dilçilikdə öyrənilməsi qədim dövrlərdən başlasa da, onun tədqiqi indiki səviyyədə öyrənilməmişdir. Əlbəttə, bu sahədə xarici dilçi alimlərdən V.V.Radlovun, V.V.Bartoldun, V.A.Qordlevskinin, A.N.Samoyloviçin, A.Superenskayanın və başqalarının xidmətlərini qeyd etmək lazımdır.

Doğrudur, Azərbaycan dilçiliyində onomastik vahidlər də qədim dövrdən diqqəti cəlb etmiş, bir çox araşdırmalar aparılmışdır. Buna misal olaraq Əl-Bakuvinin, Hacı Zeynalabdin Şirvaninin, Abbasqulu ağa Bakıxanovun, sonralar K.F.Qanın, M.H.Vəliyevin (Baharlının) və başqalarının adlarını çəkmək olar.

Azərbaycan onomastikasının ətraflı surətdə tədqiqinə, əsasən, keçən əsrin 50-60-cı illərindən başlanmışdır. Bu sahə ilə məşğul olan coğrafiyaşünaslardan R.M.Yüzbaşov, B.Ə.Buda-

qov, tarixçilərdən Z.M.Bünyadov, S.B.Aşurbəyli, K.Q.Əliyev, Y.B.Yusifov, Q.Ə.Qeybullayev, S.M.Kərimov, N.G.Məmmədov, E.B.Nuriyev, M.Ə.Abbasov, A.Paşayev və başqalarının adlarını çəkmək olar. Dilçi alimlərdən Ə.M.Dəmirçizadə, A.Qurbanov, A.A.Axundov, Ş.M.Sədiyev, T.İ.Hacıyev, S.M.Mollazadə, M.İ.Çobanov, H.Həsənov, K.T.Ramazanov, A.Paşayev, Q.İ.Məşədiyev, M.L.Məmmədov, F.R.Xalıqov, A.Bayramov, F.Qurbanova, Ə.Mikayılova və başqaları da onomastika ilə məşğul olmuş və bir çox monoqrafiyalar çap etdirmişlər. Beləliklə, onomalogiya dilçiliyin tam olaraq, müstəqil şöbəsi kimi formalaşmışdır.

Ə.Dəmirçizadə öz tədqiqatını "50 söz" kitabında araşdırmışdır. Sonrakı tədqiqatçılar üçün kitab çox əhəmiyyətlidir.

A.Axundovun tədqiqatı "Torpağın köksündə tarixin izləri" kitabında cəmləşdirilmişdir.

Ş.M.Sədiyevin toponim tədqiqatları "Dil haqqında hekayələr" adlı kitabında və bir çox hekayələrində şərh edilir.

Azərbaycan dilçiliyi tarixində M.İ.Adilovun də əvəzsiz xidmətləri olmuşdur. O, onomastika sahəsindən bəhs edən həm antroponim, həm də toponim haqqında dəyərli araşdırmalar aparmışdır. Onun A.Paşayevlə birlikdə yazdığı "Azərbaycan onomastikası" əsərinin "Toponimika" hissəsi maraq doğurur. O bu sahədən bəhs edən bir neçə kitabın da müəllifidir. Hər iki müəllifin tərtibatçılığı ilə çap olunan izahlı "Onomastika lüğəti" və A.Paşayevin "Azərbaycan antroponimiyasının leksik problemləri", "Azərbaycan təxəllüslərinin izahlı lüğəti" kitabları, Ə.Mikayılovanın "Onomastik vahidlərin üslubi imkanları" onomalogiya sahəsində böyük uğurdur.Göründüyü kimi, adları çəkilən tədqiqatçılardan fərqli olaraq, Ə.Mikayılovanın araşdırması sırf onomastika ilə bağlıdır. Müəllif burada antroponimiyanın, toponimiyanın və s. sahələrin üslubi xüsusiyyətləri və onların leksik-semantik, qrammatik quruluşlarını tədqiqata cəlb etmişdir.

Azərbaycan dilçiliyi tarixində onomalogiya sahəsi ilə professor Afad Qurbanov daha ətraflı surətdə məşğul olmuş, bu sahədə ciddi araşdırmalar aparmışdır. O, Azərbaycanda onomastika məktəbini yaratmış, onomaloqların yetişməsində xüsusi rolu olmuşdur. Hətta onun təşəbbüsü və rəhbərliyi ilə respublikada on dörd elmi-nəzəri onomastik konfrans keçirilmişdir.

A.Qurbanov onomalogiya sahəsinə aid onlarca məqalə, dərslik, dərs vəsaiti, elmi-metodik göstərişlər və proqramlar nəşr etdirmişdir. Bunlarla yanaşı, onun "Azərbaycan onomalogiyası", (1986), "Azərbaycan dilinin onomalogiyası" (1988), ikicildlik "Azərbaycan onomalogiyasının əsasları" (2004) kitabları çap olunmuşdur.

Hələ türkologiyada onomastik materialların rüşeymləri məşhur türkoloq Mahmud Qaşqarlının "Divani-lüğəti-it-türk" əsərində öz əksini tapmış, bir çox onomastik adların təhlili aparılmışdır. Azərbaycan ədəbi dili lüğət tərkibinin zənginləşməsində onomastik vahidlərin də xüsusi rolu vardır. Həmin vahidlər dili zənginləşdirməklə yanaşı, bədii yaradıcılıqda məzmuna, ideyaya xidmət edir.

Onomalogiya bir elm sahəsi kimi həm dünya, həm də Azərbaycan dilçiliyində müəyyən qədər işlənsə də, bu sahəyə aid adlardan yaranan leksik vahidlər, frazeologizmlər tədqiqatdan kənarda qalmışdır. Doğrudur, bir neçə tədqiqat işlərində, monoqrafiyalarda və elmi məqalələrdə bu haqda qısa şəkildə tədqiqat işləri aparılsa da, ətraflı şəkildə araşdırılmamışdır. Bu sahədə aparılan tədqiqat işinin aktuallığını şərtləndirən cəhətlər məhz bundan ibarətdir.

Məlum olduğu kimi, onomastika xüsusi adlar məcmusudur və onlar öz funksiyaya, mənalarına və s. görə ümumi adlardan fərqlənir. Xüsusi adların öyrənilməsi üçün ona müxtəlif istiqamətlərdən yanaşılmışdır. Aparılan araşdırmalar da onu göstərir ki, adların tarixi çox qədimdir və xüsusi adlar da ümumi adlardan yaranmışdır. Lakin ümumi adlardan fərqli olaraq xüsusi adlar hər hansı bir xalqın tarixini, milli adət-ənənəsini, həyat tərzini, psixologiyasını və s. aydınlığa gətirir. A.Qurbanov yazır: "Dildə hər bir xüsusi ad – onomastik vahid ictimai-tarixi inkişafın məhsuludur. Xüsusi adlar keçmişin izlərini özündə mühafizə edib müasir zamana kimi gətirən real faktlardır, tarixin canlı şahidləridir" (2, 3).

Qeyd edək ki, ümumi isimlər onomalogiyada apelyativ leksikadır. Xüsusi isimlər isə onomastik leksikadır. Məhz bunun özü sübut edir ki, onomastika da dilçiliyin bir sahəsidir. Buna görə də A.Qurbanov da göstərir ki, dilin lüğət tərkibində xüsusi yeri olan onomastik leksikanın dərindən araşdırılması, diqqətlə təhlili, elmi şəkildə ümumiləşdirilməsi xalqımızın dilinin və tarixinin bir çox mürəkkəb və zəruri məsələlərinin açılmasına kömək edir (2, 3-4).

Ə.Mikayılova da alimin bu fikrini təsdiq edərək yazır: "Dilimizin onomastikası çox mürəkkəb sistemə malikdir. Bir sıra problemlərin açılması və mükəmməl onomastik nəzəriyyə yaradılması dilçiliyin mühüm vəzifələrindən biridir" (3,4).

Xüsusi isimlərə aiddir: antroponimlər (şəxs adları, soyadlar ləqəblər, təxəllüslər, titullar), toponimlər (coğrafi adlar), etnonimlər (tayfa, qəbilə, millət və s. adlar), zoonimlər (heyvan və quş adları), hidronimlər (dəniz, çay, göl və s. adlar), kosmonimlər (Günəş, Ay, Yer, ulduzlar, bürclər, kraterlər və s.), ktematonimlər (xrematonimlər, xronimlər, ideonimlər, erqonimlər) və s.

Onomalogiyanın qeyd edilən həmin sahələrinin bəzilərində frazeologizmlər çox, bəzi sahələrində isə az miqdarda özünü göstərir.

Onomastik vahidlərin işıqlandırılması üçün müəyyən işlər görülsə də, onların frazeologiyaya cəlb edilməsi ilk dəfədir ki, qarşıda bir məqsəd kimi durur. Burada ən çox onomastik vahidlərin frazeologiyaya münasibəti diqqət mərkəzində olmalıdır. Tədqiqat işində frazeoloji vahidlərin dil sistemində maraqlı faktlar əsasında sistemləşdirilməsi, təsnifat problemlərinin bilavasitə həlli çox maraq doğura bilər.

Qeyd edək ki, dilçilik tarixində onomalogiya ilə məşğul olan tədqiqatçılar onomastik frazeologizmlərə heç də toxunmamışlar. Yalnız tanınmış dilçi alim N.Seyidəliyevin "Azərbaycan dastan və nağıl dilinin frazeologiyası" adlı sanballı monoqrafiyasında "Dastan və nağıllarda işlədilmiş frazeoloji birləşmələrin üslubi xüsusiyyətləri" fəslində on səhifəlik "Onomastik adların iştirakı ilə yaranan frazeoloji birləşmələr" paraqrafında rast gəlirik (4, 229-238).

Müəllif burada onomastik adlarla bağlı yaranan frazeologizmlərin tarixi şəxsiyyətlərin adları ilə bağlı, coğrafi adlar əsasında və s. yollarla yarandığını vurğulayır ki, onların müəyyən bir qismi müəllifin 2004-cü ildə "Çıraq" nəşriyyatı tərəfindən nəşr olunan "Frazeologiya lüğəti" kitabında öz əksini tapmışdır (5).

Yeri gəlmişkən onu da qeyd edək ki, F.H.Hüseynov və B.B.Əhmədovun "Məktəblinin frazeoloji lüğəti" (6), Q.Məhərrəmlinin və R.İsmayılovun "Azərbaycan dilinin frazeologiya lüğəti" (7) kitablarında da, az da olsa, onomastik adlardan əmələ gələn frazeoloji vahidlərə rast gəlirik.Bundan əlavə, G.Sadıxovanın fransız, Azərbaycan və rus dillərinin müqayisəsi fonunda Bibliyada, Quranda işlənmiş və rus dilində çap olunmuş "Фразеология, восходящая к Библии и Корану (на материале французского, азербайджанского и русского языков") monoqrafiyasında və "Библейская фразеология во французском, азербайджанском и русском языках" kitablarında da bəzi onomastik frazeologizmlərə rast gəlirik (8, 9).

Həmin kitablarda bəzi onomastik frazeoloji birləşmələrə, xüsusilə də Allahla bağlı ifadələr qeydə alınmışdır.

Qeyd edək ki, istər canlı olsun, istərsə də cansız, dildə hər bir canlının, hər bir materiyanın müəyyən bir adı vardır. Adsız heç nə yoxdur. Adsız heç bir canlı varlıq, heç bir əşya təsəvvür edilə bilməz.

Bütün əşyalar ümumi və xüsusi olur. Onomastik vahidlərdə də xüsusi adlar nəzərdə tutulur. Məsələn, şəxs adları, yer adları, dağ obyektlərinin adları, quş adları, heyvan adları, göy (səma) cisimlərin adları və s.

Onu da vurğulayaq ki, hər bir xalqın da özünəməxsus adqoyma ənənəsi vardır. Bu prinsip əsasında adqoyma, adın mənası, ad sistemi, alınma ad, şəxs adları və yaxud antroponimlər və s. meydana gəlir. Bunlar da antroponimik kateqoriya adlanır.

Antroponimik kateqoriyalar iki formada özünü göstərir: əsas adlar və köməkçi adlar. Əsas adlar rəsmi olaraq qeydiyyata alınır. Köməkçi adlar kateqoriyasına isə ləqəb, təxəllüs və s. aiddir.

Adıçəkilən yarımbölmədən bəhs edərkən antroponimlərin növlərini də qeyd etmək vacibdir. Antroponimlər həm bədii ədəbiyyatda, həm də başqa üsullarla işlənir. Bu zaman onlar iki növdə, – real və bədii, – özünü büruzə verir. Onlar da öz növbəsində dildə frazeologizmin yaranmasında iştirak edir.

Real adlar həqiqi olduğu halda, bədii antroponimlərə uydurma və əfsanəvi adlar daxildir. Uydurma adlar, əsasən, bədii əsərlərdə işlədilir. Əfsanəvi adlar isə folklorda, o cümlədən nağıl və dastanlarda, əfsanələrdə və s. olur.

Deməli, hər iki sahənin fərqli cəhətləri odur ki, adından da məlum olduğu kimi, bədii adlar bədii ədəbiyyatla bağlılıq, real adların mənbəyini isə ümumxalq dil təşkil edir. Bədii adlar obrazlı olur, real adlar poetikləşir, bədii adlar reallaşa bilmir və s.

Şifahi xalq ədəbiyyatının bir qolunu təşkil edən atalar sözü və zərbi-məsəllərdə, nağıllarda, dastanlarda və digər sahələrdə də onomastik frazeologizmlərə tez-tez rast gəlmək olur. Bunların bütünlükdə tədqiqata cəlb olunması vacib məsələlərdəndir. Bütün bunlar da sübut edir ki, Azərbaycan dili həm də onomastik frazeologizmlərlə çox zəngindir.

Ədəbiyyat

1. Əhmədov T. “Azərbaycan toponimiyasının əsasları”. Bakı, “Bakı Universitetinin Nəşriyyatı”, 1961).
2. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. I cild, Bakı, 2004.
3. Mikayılova Ə. Onomastik vahidlərin üslubi imkanları (XIX əsrin ikinci yarısında yaranmış nəsr əsərlərinin materialları əsasında linqvistik tədqiqat). Bakı, 2008.
4. Seyidəliyev N. Azərbaycan dastan və nağıl dilinin frazeologiyası. Bakı, “Araz”, 2006.
5. Seyidəliyev N. Frazeologiya lüğəti. Bakı, “Çıraq”, 2004.
6. Hüseynov F.H., Əhmədov B.B. Məktəblinin frazeoloji lüğəti. Bakı, “Elm və təhsil” 2011.
7. Məhərrəmli Q., İsmayılov R. Azərbaycan dilinin frazeologiya lüğəti. Bakı, “Altun kitab”, 2015.
8. Садыхова Г. Фразеология, восходящая к Библии и Корану (на материале французского, азербайджанского и русского языков), Bakı, “Elm və təhsil”, 2004.
9. Садыхова Г. Библейская фразеология во французском, азербайджанском и русском языках. Bakı, “Elm və təhsil”, 2012.

G.Kocharli

Place of Onomastic Units in Linguistics

Summary

The article is concerned with the place occupied by onomastic units in linguistics throughout the history of linguistics. At first, information on the onomastics types is given here. In this regard, the existing ideas in the field of onomatology have been taken as a basis. The special position of onomastics is indicated. Information is given on historians and linguists who have studied the onomastics of our language. The works by some scientists are given as examples. The name of Afad Gurbanov who has performed most of the research in this area is particularly mentioned.

It is noted that despite some works, which shed light on onomastic units, the objective of studying their participation in phraseology is set for the first time. Here, the focus should ma-

inly be on the relationship between onomastic units and phraseology. Because in the history of linguistics, researchers involved in onomatology have never touched onomastic phraseology. This concept was only mentioned in some works devoted to onomastics.

However, at the same time, we find phraseological units derived from onomastic names in monographs, dictionaries, and books by many linguists.

Each nation has its own unique tradition of naming. Based on this principle, anthroponyms had been created. Here, two forms of the anthroponymic category - basic and auxiliary names are distinguished.

In addition, realistic and literary anthroponyms participating in the formation of phraseological units are described.

Onomastic units are also found in some folklore patterns. All this proves that the Azerbaijani language is very rich in onomastic phraseological units.

Key words: Onomalogy, onomastics, phraseology, antroponymy, toponymics, dictionary.

Г.Кочарли

Место ономастических единиц в лингвистике

Резюме

Статья посвящена месту, занимаемому ономастическими единицами в лингвистике в истории языковедения. Вначале здесь приводится информация о видах ономастики. При этом за основу взяты существующие представления в области ономатологии. Говорится об особой позиции ономастики. Приводится информация об историках и лингвистах, изучавших ономастику нашего языка. В качестве примеров приведены труды некоторых ученых. Особо упоминается имя Афада Гурбанова, который провел большую часть исследований в этой области. Отмечается, что, несмотря на ряд проведенных работ, проливающих свет на ономастические единицы, цель изучения их участия во фразеологии ставится впервые. Здесь в центре внимания главным образом должна стоять взаимосвязь ономастических единиц и фразеологии. Поскольку в истории лингвистики исследователи, занимавшиеся ономатологией, никогда не касались ономастической фразеологии. Это понятие упоминалось лишь в некоторых произведениях, посвященных ономастике Однако наряду с этим у многих лингвистов в монографиях, словарях и книгах мы находим фразеологические единицы, образованные от ономастических имен. У каждого народа есть своя уникальная традиция наименований. По этому принципу создавались антропонимы. Здесь различаются две формы антропонимической категории - основные и вспомогательные имена.

Помимо этого, описываются реальные и художественные антропонимы, участвующие в формировании фразеологизмов.

Ономастические единицы также встречаются в ряде образцов фольклора. Все это доказывает, что азербайджанский язык очень богат ономастическими фразеологизмами.

Ключевые слова: Ономалогия, ономастика, фразеологизм, антропонимия, топонимика, словарь

Redaksiyaya daxil olma tarixi: 25.104.2019
Çapa qəbul olunma tarixi: 25.10.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Kamalə Əhmədova tərəfindən çapa tövsiyə olunmuşdur.

NAİZƏ SALMANOVA,
MEHRİBAN ƏLİYEVA
H.ƏLİYEV ad.AAHM
Admiral Naximov 18.Bakı.
naizə-mahriban.@.com.ru.

MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SADƏ CÜMLƏ TƏRKİBİNDƏ FİTURE PERFESCT CONCİNİOUNS ZAMANININ MÜQAYİSƏLİ XARAKTERİSTİKASI VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Dünyanın bir çox dillərində olduğu kimi İngilis dilində modallıq kateqoriyası müxtəlif vasitələrlə ifadə olunur ki, bunlardan biri də modal fellərdir. Müasir İngilis dilində modal fellər vasitəsi ilə gələcək hərəkətləri ifadə etmək olur.

Müasir İngilis dilində gələcək zaman formaları (1) shall (should), will (would)+ to ədatsız məsdər; (2) shall (should) be, will (would) be + P I; (3) shall (should) have, will (would) have + P II, (4) shall (should) have been, will (would) have been + P I vasitəsi ilə düzəldilir.

Müasir Azərbaycan dilində isə gələcək zaman formaları fel kökünə "-acaq, -əcək, yacaq-yəcək", və "-ar, ər (-yar, yər)" şəkilçilərini əlavə etməklə düzəldilir.

Lakin gələcəkdə icra olunacaq hərəkətləri ifadəe tmək üçün, hər iki dildə yuxarıda göstərdiyimiz vasitələrdən başqa, bu dillərin bir çox başqa ifadə vasitələrindən də istifadə edilir.

Müasir ingilis dilində gələcəkdə icra ediləcək hərəkətləri bildirmək üçün "to be + going+ məsdər, to be about + məsdər" və "to be on the point + gerund" birləşmələrindən birini də işlətmək mümkündür.(1-s.76-78)

I am going to read this novel- Mən bu romanı oxumağa hazırlaşıram.

The train is about the start- Qatar yola düşmək üzərədir.

"The water is on the point of boiling, Mummy" said the girl. – "Ana, su qaynamaq üzərədir" qız dedi.

Misallardan göründüyü kimi müasir Azərbaycan dilində də hər cür cümlə də hərəkət gələcəyə aiddir və bu məna "məsdər+hazırlaşıram;" "məsdər+üzrədir;" birləşmələri vasitəsi ilə ifadə edilmişdir.

Müasir ingilis dilində "till, untill, when, before, after, as soon as, as long as, if unless" bağlayıcılarından sonra işlənən, zaman və şərt budaq cümlələrində gələcək hərəkətlər indiki qeyri müəyyən zaman forması ilə ifadə olunmur.

I shall go to the cinema if he comes in time- Əgər o vaxtında gəlsə mən kinoya gedəcəyəm.

We shall tell her everything when she returns- O qayıdanda biz hər şeyi ona deyəcəyik.

Açar sözlər: shall (should), will (would)+ to shall (should) be, + P I; (3) shall (should) have, will (would) have + P II, (4) shall (should) have been, will (would) have been + P I

Burda, birinci misaldakı şərt budaq cümləsi Azərbaycan dilinə felin şərt şəkli ilə, ikinci misaldakı zaman budaq cümləsi isə feli bağlama vasitəsi ilə tərcümə olunur.

Müasir ingilis dilində yaxın gələcəkdə hökmən icra olunacaq hərəkətləri bildirmək üçün də indiki zamanın qeyri müəyyən zaman forması işlədilir.

The plain leaves in ahour- Təyyarə bir saatdan sonra yola düşür (düşəcək)

Misalın tərcüməsindən göründüyü kimi, Azərbaycan dilində də gələcəkdə icrasına əmin olduğumuz hərəkətləri ifadə etmək üçün gələcək zaman əvəzinə indiki zaman forması işlənir. Bunu da

qeyd etmək lazımdır ki, müəyyən qrafik və ya cədvəl üzrə başlanan işlər gələcəyə aid edilərkən də hər iki dildə indiki zaman forması işlədilir.
Don`t be late! The lecture begins at ten- Gecikməyin! Mühazirə saat onda başlanır.
Müasir ingilis dilində "to come, to go, to leave, " və s. hərəkət bildirən fellərlə gələcəyə aid hərəkətləri bildirmək üçün "The present Continuous" zaman forması işlədilir.
I am leaving tonight- Mən bu axşam yola düşürəm.
Gördüyümüz kimi indiki zamanın davamedici forması ilə ifadə olunan gələcək hərəkətlər də dilimizə indiki zaman forması vasitəsilə tərcümə edilir.
Həm müasir ingilis həm müasir Azərbaycan dilində felin əmr şəklinin, stiuasiyadan asılı olaraq, məsdərlə birləşib gələcək hərəkətləri ifadə etməsi mümkündür.
"Try to come early? So that I may have time to see you alone"- Çalış tez gəl ki, sənlə təklikdə görüşməyə vaxtım olsun.
"Don't forget to ring me up when you get home"- Evə çatan kimi mənə zəng vurmağı unutma.
Müasir ingilis dilində gələcəkdə baş verəcək hərəkətlərin ifadə vasitələrindən biri də felin vasitəli şəkilləridir.
Felin vasitəli şəkilləri müasir ingilis dilində modallıq kateqoriyasının əsas ifadə vasitələrindən olub, (1) arzu, (2) istək, (3) şübhə, (4) şərt, (6) güman, (7) əmr və s. kimi mənalar ifadə edir.
1. Long live our motherland!
2. I wish I had a lot of money.
3. It is impossible that he should be late.
4. If I were you, I'd go to might Scholl.
5. "Alice would bring a dead man to life, I said."
6. Somebody come to the board.
Birinci cümlə arzu ifadə edir və Azərbaycan dilində "Yaşasın ana vətənimiz" kimi tərcümə olunur. İkinci cümlə istək bildirir və "Kaş çoxlu pulum olaydı" kimi tərcümə olunur. Üçüncü cümlə şübhə bildirir və "Mümkün deyil ki o geciksin" kimi tırcümə olunur. Dördüncü cümlə şərt bildirir və "Sənin yerinə olsam axşam məktəbinə gedərdim" kimi tərcümə olunur. Beşinci cümlə güman bildirir və "Alisa ölünü dirildər" kimi tərcümə edilir və nəhayət altıncı cümlə əmr ifadə edir və dilimizə "Bir nəfər lövhəyə gəlsin" kimi tərcümə olunur. Tərcümələrə diqqət yetirdikdə aydın olur ki, misallardakı hərəkətlərin hamısı az və ya çox mənada gələcək zamanla bağlıdır və azərbaycan dilinə ya qeyri qəti gələcək zaman forması ya da felin əmr şəkli vasitəs ilə tərcümə olunurlar. (2-ctp.219)
Müasir ingilis dilindəki vasitəli fel şəkillərinin birincisi Subjunctive I adlanır və indiki zamandan başqa gələcək zamana aid əmr, xahiş, arzu, istək, şərt və s. modal mənalar işlədilir.
If he be in the city tomorrow, I shall vizit him- Əgər o sabah şəhərdə olsa, mən ona baş çəkəcəyəm.
Felin Subjunctive II şəklinin indiki zaman forması da hərəkət indiki və ya gələcək zamana aid olanda işlənir.
If I were her I shouldn't look at him- Qızın yerinə olsam onun üzünə baxmazdım. Bu cümlələrdəki gələcək hərəkətlər Azərbaycan dilinə şüudi keçmiş vasitəsilə tərcümə edilir.
Müasir ingilis dilində felin sapozişinal şəklinin indiki zaman forması da gələcək hərəkətləri ifadə edə bilər.
It is possible that he should reach there in time- Mümkündür ki, o ora vaxtında çatsın.
İngilis dilində felin kandişinal şəklinin indiki zaman forması da gələcək hərəkətləri ifadə edə bilir.
I wish I was an apple a hanging on a tree/ Every time that Cindy passed? She would take a bite of me- hər dəfə yanımdan keçəndə Sindi məndən bir dişdək alaydı.
Müasir ingilis dilində modall fellər də gələcək hərəkətlərin ifadə vasitəsi kimi çıxış edə bilər.

"Can" modal feli (1) şəraitindən, asılı olan qabiliyyət, icazə, xahiş, mənalarında hərəkəti gələcəyə yönəldə bilər.
She can't come tomorrow because they are going out to visit Florence- O sabah gələ bilməz, çünki Florensə baş çəkməyə gedəcəklər.
Can I do the exercises at home? – Çalışmanı evdə edə bilərəmmi?
"May" modal feli də güman mənasında gələcək hərəkət bildirir.
Ernest, we may never be married- Ernest, bəlkə biz heç vaxt evlənə bilmədik.
"Must" (to have to, to be to) da gələcək hərəkət ifadə edə bilir.
Mind, you mustnot spend it all at once- bax, hamsını (pulun) birdən xərcləməyəsən haa.
Yuxarıda demişdik ki, müasir ingilis dilindəki "shall, will" köməkçi felləri tarixən "shall, will" modal fellərdən törəmişlər və onlar bu gün də hərəkəti gələcəyə istiqamətləndirən vasitələrdən biridir.
You shall be sorry- Bax ha peşiman olarsan.
I won't do it- Mən bunu etməyəcəm.
"Ought to" modal feli də hərəkəti gələcəyə istiqamətləndirə bilir.
İt ought to rain a little in the day- Bəlkə axşama yaxın yağış yağdı.
You ought to see my Cindy- siz gərək mənim Sindimi görəydiniz.
Gördüyünüz kimi, deyilənlərə əlavə olaraq Azərbaycan dilində felin arzu şəklinin də hərəkəti gələcəyə yönəltməsi mümkündür. **(görəydiniz)**
Müasir ingilis və azərbaycan dilində gələcək zamanın ifadə vasitələri modal fellər vasitəsilə də ifadə olunur və Azərbaycan dilinə arzu, güman icazə, əmr və s. məzmunlu fellərlə tərcümə olunurlar.(3-s.56)
Modal fellərin ekvivalenti kimi işlənən, to be to; to have to; to be able to; haqqında
Bildiyimiz kimi modallıq cümlənin ən əsas əlamətlərindən biri kimi fikrin real gerçəkliyə münasibətini bildirən kateqoriyadır. Bütün dillərdə olduğu kimi müasir ingilis dilində də bir sıra fellər vardır ki, leksik məna baxımından hərəkət bildirmirlər, yalnız hərəkətə doğru münasibət bildirirlər. Yəni imkan, mümkünlük, ehtiyat, zərurət bildirən hərəkətləri tamamlayırlar. Belə fellərə modal fellər deyilir. Bu qrupdan olan fellər aşağıdakı xüsusiyyətlərinə görə birləşirlər.
1. Onların məsdər və felinin sifət forması yoxdur.
2. Onlar şəxsə və hala görə dəyişmirlər.
3. Onlarla felin məsdərlik tərkibi olan to hissəciyi işlənmir. (ekvivalentləri müstəsnalıq təşkil edir)
4. Modal fellərin sual və inkar forması to do köməkçi feli olmadan düzəlir.
Müasir ingilis dilində olan modal fellər bunlardır:
Can – bacarıq, qabiliyyət bildirir.
Must – vaciblik, məcburiyyət, qətilik, zərurət, güman və ehtimal bildirir.
May – icazə, mümkünlük, məsləhət, göstəriş bildirir.
Shall – məcburiyyət və ya əmr, hədə və xəbərdarlıq mənasını ifadə edir.
Will –(would)- arzu, istək, adət, təkid, qətilik, xahiş və nəzakətli olmaq ifadə edir.
Should – məcburiyyət, məsləhət, arzu və güman bildirir.
Ouqlit – borc, məcburiyyət və məsləhət bildirir.
Dare – həm modal, həm də əsas fel kimi işlənir.
Neede – həm modal, həm də əsas fel kimi işlənir. Modal kimi lazımlıq, gərəklik mənasını ifadə edir.(4-c.46-48)
Bütün bunlarla yanaşı olaraq modal fellərin ekvivalentləri adlanan bir qrup fellər də vardır. Bunlar aşağıdakılardır: to have to, to le to, to be able to.

Bildiyimiz kimi modal fellər və onların ekvivalentləri morfoloji cəhətdən fərqli olsalar da, leksik mənasına və funksiyasına görə oxşar cəhətlərə malikdirlər. Indi biz burada modal fellərin ekvivalentləri kimi işlənən to have to, to le to, to be able to ifadələrinin işlənmə xüsusiyyətlərini nümunələrlə izah etməyə çalışaq.
Most – modal feli ancaq indiki zamanda işlənir. Qalan zamanlarda onun əvəzinə təxminən onunla eyni mənaya malik olan to have to və to le to ekvivalentləri işlənir.
To have to – modal felləri indiki, keçmiş və gələcək formalarında işlənə bilir.
Məsələn:
1. We have to ge to the university everyday – Biz hər gün universitetə getməli oluruq.
2. Jle had to attend the sahod everyday - O hər gün məktəbə getməli oldu.
3. They vill have to lean the next week – onlar gələn həftə çıxıb getməli olacaqlar.
To have to - modal feli Azərbaycan dilinə etməli oluram, etməli oldum, etməli olacağam kimi tərcümə edilir. To have to - əsasən şəraitlə bağlı olaraq hərəkətin qeyri şərtsiz yerinə yetirilməsini bildirir.(5-cmp.250)
Məsələn:
Il have to do my homuverb – Mən indi sənlə şahmat oynaya bilmərəm. Mənə dərslərimi hazırlamaq lazımdır.
Modal fellər hərəkət ifadə etmir, onların məsdər və analitik formaları yoxdur.
I can do this work. Mən bu işi etməyi bacarıram.
I most do this work. Mən bu işi etməliyəm.
Modal fell'rd'n sonra <<to>> məsdər hissəciyi işlənmir (ought modal felindən başqa)
He must come to take a book. O gəlib bu kitabı götürməlidir.
III şəxs təkdə modal Present indefinite-ge (indiki qeyri-müəyyən zaman)-s sonluğu qəbul etmir. Sual və inkar formaları <<to do>> köməkçi felsiz düzəldilir.
May I ask you a qyestion? Sizdən sual soruşa bilərəmmi?
You must not be late. Gecikməməlisiniz.
Bütün modal fellərinin gələcək zaman forması yoxdur.
<<Must>> modal felinin keçmiş zaman forması yoxdur.
Zaman formalarını düzəltmək üçün hansı ki, modal felləri özləri düzəldə bilmirlər, onların ekvivalentləri vasitəsilə düzəldilir.

Modal fellərə aid ədəbiyyat

1. M.Məmmədov. «Azərbaycan dilçiliyinin nəzəri əsasları». «Maarif» nəşr, Bakı, 1971.
2. Т.В.Фралова: «Грамматика английского языка: Москва, 1961, Изд.»Наука», стр. 219.
3. İ.Rəhimov., T.Hidayətzadə. «İngilis dilinin praktik qrammatikası ». Bakı, 1966. «Maarif» nəşriyyatı.s.56.
4. И.П.Иванова и Бурлакова : «Модальные слова современного английского языка» . Москва, 1961, Изд. « Высщая школа».стр.46-48
5. F.A.Cəlilov: «Modallıq, zaman və şəxs kateqoriyası ». «Azərbaycan dilinin morfologiyası». Maarif nəşriyyatı. Bakı, 1988. Səh. 250.

Н.Салманова,МАлиева

Модальные глаголы для выражения будущего
в современном английском и азербайджанском языках

Резюме

В этой статье были исследованы средства выражения будущего времени в современных английском и азербайджанском языках. Была изучена литература на эту теме на обоих

языках, было рассмотрено мнение разных авторов. Как в английском, так и в азербайджанском языке имеются исторически сформированные специальные средства выражения будущего времени. В статье этому было уделено место. На английском языке, как и во многих языках мира, категория модальности выражается различными средствами, к числу которых относятся модальные глаголы.
В современном английском языке модальными глаголами можно выражать будущие действия. Но для выражения действий совершаемых в будущем в обоих языках кроме этих средств используются и другие средства.
В современном английском и азербайджанском языках модальными глаголами может выражаться не только будущее время, но и желание, надежда, разрешение, приказ и др. Конечно, была рассмотрена только мизерная часть возможных мыслей, в будущем будут изучены и другие принципы.

В статье также рассматриваются модяльпные глаголы в современном английском языке, их месторасположение в простых и сложных предложениях, функции и рол модальных глаголов в значении английского предложения.

Ключевые слова: shall (should), will (would)+ to shall (should) be, + P I$ (3) shall (should) have, will (would) have + P II, (4) shall (should) have been, will (would) have been

N.Salmanova,
M.Alieva

Other ways of expressing the future tenses in modern
english and azerbaijan languages
Summary

The article explores the means of Future Tenses expression in modern English and Azerbaijani languages. Existing resources on the subject in both languages have been studied$ opinions of various authors were considered.

The article discusses historically established special means of Future Tense expression that are presented both in English and Azerbaijani language she category of Modality in English language as in many other ones is expressed by various means with modal verbs reckon in. Modern English allows expressing Future by means of modal verbs.

However, both languages provide more tools expression of actions referring to the Future.
At the same time, modern English an Azerbaijani languages use modal verbs to express not Future Tense only, but wishes, hopes, permissions, orders and the article covers only few aspects of the topic; further studies will be devoted to exploring more approaches and arguments.

The article is devoted to the modal verbs in contemporary English, their places in simple and compound setences, their functions and rolec in modal verbs in English sentences.

Key words: shall (should), will (would)+ to shall (should) be, + P I$ (3) shall (should) have, will (would) have + P II, (4) shall (should) have been, will (would) have been + P I

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Kəmalə Mehdixanlı tərəfindən çapa tövsiyə olunmuşdur

AYNUR MİRİYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
müəllim
aynur.miriyeva@mail.ru
Azərbaycan, Bakı, Üzeyir Hacıbəyov küç. 68

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ AUTENTİK MATERİALLARDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

Xülasə

İşgüzar ingilis dilində olduğu kimi ingilis dilinin tədrisində də aşağıdakılar nəzərə alınmalıdır:

- tələbələrin xüsusi tələbləri (ehtiyacları); xüsusi fənnlərin, işlərin və fəaliyyət növlərinin məzmunu.

Dillərin tədrisində autentik materiallardan istifadənin bəzi faydaları vardır:

Birinci fayda ondan ibarətdir ki, autentik materialalr dil öyrənənlərin real dillə əlaqəsinə və hədəf dilə daha yaxın olmasına istiqamətləndirir.

Digər fayda ondan ibarətdir ki, autentik materiallar ingilis dili öyrənənlərini dil öyrəməyə motivasiya edir.

Daha bir fayda ondan ibarətdir ki autentik materiallar dil öyrənənlərin ünsiyyət rəqabətini artırır.

4cü fayda isə, Rocer və medlenin qeyd etdiyi kimi, autentik materiallar hədəf dilin mədəniyyətinin öyrənilməsi üçün mənbə rolunu oynayır.

Sonuncu fayda isə ondan ibarətdir ki, autentik materiallar təkcə tələbələr üçün deyil, habelə müəllimlər üçün də faydalıdır, çünki müəllimlər tədrsi prosesində autentik materialların üstünlük-lərindən istifadə edirlər.

Autentik materialların nəinki pozitiv təsirləri, həm də neqativ təsirləri vardır. Autentik materiallar ilə bağlı ən çox qarşıya çıxan problem onların çətinlik dərəcəsidir. Bir çox müəllimlər iddia edirlər ki, bu tip materiallar yalnız müəyyən səviyyəli şagirdlər üçün nəzərdə tutulmalıdır, dil öyrənməyə yenicə başlayan şagirdlər xüsusilə bu qrupa daxil olunmamalıdır. Lakin biz bu çətinliyi autentik materialların əsas çatışmazlığı hesab etməliyik, çünki bu tip problemlər biraz təxəyyül gücü ilə həll oluna bilər.

Açar sözlər:*ümumi ingilis dili, işgüzar ingilis dili, dil tədrisi, autentic material, fayda*

İngilis dili dünyanın və eləcə də işgüzardünyanın beynəlxalq dilidir və sonuncu onilliklərdə ingilis dili kütləvi şəkildə dünyanın hər bir yerində tədris olunur. Birləşmiş ştatlarda təhsil alan tələbələr üçün hətta İşgüzar İngilis dilini tədris edən 100-dən çox təhsil mərkəzləri fəaliyyət göstərir. Tələbələri müvəffəqiyyətli işgüzar ünsiyyətə hazırlamaq üçün müəllimlər və tədris sahələri İngilis dilinin səmərəli tədrisi yollarını axtarırlar (8, 276). Ingilis dilini tədris edərkən əsasən aşağıdakılar nəzərə alınmalıdır:

- tələbələrin xüsusi ehtiyyacları;
- müəyyən fənlərin, peşələrin və fəaliyyətlərin məzmunu;

Həm ingilis, həm də işgüzar ingilis dilinin tədrisində son on illiklər ərzində çox sayda dəyişikliklər omuşdur. İşgüzar ingilis dili 60-70-ci illərdə lügətin tədrisi nöqteyi nəzərindən və məzmun baxımından ümumişlək ingilis dili ilə bir neçə xüsusiyyəti bölüşə bilər. İşgüzar İngilis

dili, ingilis dilinin xüsusi çərçivədə tədris olunmasıdır. Bu sahədə müəyyən metodoloji xüsusiyyətlər mövcud idi. İlk əvvələr İngilis dilinin və həm də İşgüzar İngilis dilinin tədrisi işgüzar situasiyalara marağın azlığından maliyyə mətnlərinin oxunması, lüğətlərin əzbərlənməsi və tapşırıqların təkrarından ibarət idi. 70-80-ci illərdə maraq artıq formulalı ifadələrin tədrisinə, işgüzar məqsədlərə, işgüzar situasiyalara uyğun görüşlərin təşkil olunması, işgüzar yeməklər, təlimatların tətbiq olunması kimi rollu oyunların təşkilinə yönəldi. İngilis dilindən fərqli olaraq, İşgüzar İngilis dilinin tədris olunmasının əsas məqsədi danışıq bacarıqlarının, tələbələrin işgüzar danışıq qabiliyətinin inkişaf etdirilməsi və dildən səmərəli üsul, vasitə kimi istifadə olunmasıdır.

İstər işgüzar ingilis dili olsun, istərsə də ingilis dilinin, onların hər ikisinin tədrisində autentik materiallardanistifadə məsələsi aktual məsələlərdən biridir. Autentik materiallar ilk dəfə keçən əsrin 70-ci illərində didaktikada istifadə olunmuşdur və daha sonra ünsiyyət yanaşmasının ən əsas nöqtəsinə çevrilmişdir. (3, 127). Xarici dillərin öyrədilməsi metodikasında autentik materiallar bir və ya bir neçə şəxs tərəfindən bir anda hazırlanan mətnlər kimi nəzərdə tutulur. Bəzi tətqiqatçılar bil-dirirlər ki, hər hansı bir bir material öz mədəni məzmununa görə autentik material hesab oluna bilər. Onlar iddia edirlər ki, xarici dil siniflərində autentik materialların təqdimatı bizə öyrəndiyimiz dilin mədəni irsini nümayiş etdirir.Autentik materiallardan istifadə edən xarici dil müəllimi öyrənənə dildə olan mədəni marağı ötürür. Hətta müqayisə olunan iki eyni mədəni elementlər şagirdin bu muqayisəni edə bilməsində, oxşar situasiyalarda necə hərəkət etməsini bilməsində razılıq yaradır.

Bu sahədə olan tətqiqatlar təsdiq edir ki, şagirdlər yeni bir ölkənin dilini, adət-ənənəsini, tarixini, mədəniyyətini öyrənəndə onlarda öz ölkələrinin dil, mədəniyyət və tarixini müqayisə etmək həvəsi yaranır.

Biz digər əsas faktoru nəzərə almalıyıq ki, autentik materiallardan xarici dilin mədəniyyəti, tarixi, davranış normalarının "şahid"i kimi istifadə etmək,şagird üçün xarici ölkənin mədəniyyətini, dilini, davranış normalarını hətta onun özünü bilmək daha da asan olur.Biz inanırıq ki, autentik materiallardan o halda istifadə etmək la-zımdır ki, ya istifadə olunan materiallar biraz köhnə olsun, ya da kifayət qədər vacib informasiyanı özündə əks etdirməsin. Hətta Common European Framework of Language Reference (CEFLR) xarici dillərin tədrisində vizual və kommunikativ ma-teriallardan istifadə edilməsində bəzi aspektlərdən bəhs edib (4, 97). Buradan belə nəticə çıxır ki, dildə autentik materiallardan istifadə edilməsi vacibdir, çünki öz orijinal məzmununda əks etdirir (7).

Autentik olmayan materiallar öyrənənlər üçün daha uyğun hesab olunur. Əvvəldə qeyd olunduğu kimi autentik materiallar həm mürəkkəb, həm başa düşülməsi çətin olan materiallar sayılır. Digər tərəfdən, sinif kitabları kimi materiallar müəllimlər tərəfindən uşaqların səviyyə və bacarıqlarına əsasən hazırlanır. Buna görə də, dərsdə özünü idarə etmək şagirdlər üçün daha asan olur. Əlavə olaraq, real materialların mövzu bəzən bəzi ölkələrdə uyğun olmur.Belə hesab olunur ki, istifadə olunan materialların mövzusu yerli mövzuya uyğun gəlməlidir. Buna görə də, müəl-limlərin özləri tərəfindən hazırlanan materiallardan istifadə etməsi daha uyğundur. Lakin belə fərziyyə olunur ki, ingilis dilinin beynəlxalq və qlobal dil olduğu andan dil tədrisində autentik materiallardan istifadə edilməsi vacib amil deyil. Nəticə olaraq, hədəf dilin mədəniyyətini öyrənmək artıq o qədər də vacib deyil. İngilis dili bir dil kimi öz mədəniyyətini dilin daxili hissəsinə çevirməyi tələb etmir.

Autentik materialların faydaları çoxdur.

İlk olaraq, orijinal materiallar şagirdlərin real dil ilə əlaqədə olmasına və hədəf dilə daha yaxın olmasına gətirib çıxarır. Klikaya qeyd edir ki, autentik materiallar şagirdlərə hədəf dilin modelini göstərir. Autentik materiallardan istifadə edərək, şagirdlər dildən real situasiyalarda necə istifadə etməli olduqlarını öyrənirlər. Bundan əlavə, onlar real dünyada real dünyada mövcud olan faktorlar-dan istifadə etməklə özlərini həmin dilə daha yaxın hiss edirlər. Bu öyrənən-

lərə sinifdən kənar ingi-lis dilini daha yaxşı istifadə etməyə və daha yaxşı kommunikasiya yaratmağa imkan verir. Bir dəfə dərs prosesində dil ilə tanış olan şagirdlər üçün onu real situasiyada tətbiq etmək daha asan olur ().

İkincisi, autentik materiallardan istifadə öyrənənləri ingilis dilini öyrənməyə motivasiya edir. Ona görə də görə onların həvəs və motivasiyasını qaldırmaq müəllimlər üçün çətin tapşırıqlardan biridir (5). Nəticədə, metodist və pedaqoqlar autentik materiallardan istifadənin öyrənənlərin motivasi-yasına müsbət təsiri olduğunu söyləyirlər. Bu ideyanı dəstəkləyən alimlərdən biri Pekokdur.Pekok 1997-ci ildə Cənubi Koreyada universitet tələbələrini xarici dil öyrənməyə dəstəkləyən konfrans təş-kil etmişdir (10). Bu konfransın əsas məqsədi autentik materialların istifadəsini və onların şagirdlərin mo-tivasiyasında rolunu təhlil etmək olmuşdur. Bu konfrans iki təcrübi qrupa ayrılan 31 universitet tələ-bəsini cəlb etdi. O həm autentik, həm qeyri-autentik materialları hər iki qrupa tətbiq etdi. Nəticədə, autentik materialların öyrənənlərin həvəs və motivasiyasına müsbət təsiri olduğu qeyd olundu.

Həmçinin Pekokun təcrübəsi real materialların interaktiv öyrətməni dəstəklədiyini təstiqləyən Hongun təcrübəsi ilə oxşarlıq təşkil edir. Bu ona görədir ki, autentik materiallar müxtəlif növ və formalarda olur. Jurnal, mahni kimi materiallar öyrənənlər üçün sinif kitablarından daha maraqlıdır. Məsələn, müəllimlər autentik material kimi şərq mahnılarından istifadə etsələr, bu şagirdlər üçün daha maraqlı olar və onlara həm yeni lügət tərkibi, həm də dil qaydaları öyrədər.Hong həmçinin əlavə edir ki, şagird-lərin dil öyrənmədən məmnunluq duyduğu şəraitdə, interaktiv öyrətmə daha yaxşı ingilis dili mühitinin yaranması ilə nəticələnir (2, 57).

Üçüncüsü, autentik materiallar öyrənənlərin ünsiyyət rəqabətini artırır. 2001-ci ildə Qlimor autentik materialların tətbiqinin təsirini ortaya çıxarmış və onun ünsiyyət rəqabəti ilə əlaqəsini izah etmişdir (6, 54). Pekok kimi onun da təcrübəsində universitet tələbələri iştirak etmişdi.Pekokun təcrübəsi Koreyada, Qilmorunki isə Yaponiyada həyata keçirilmişdi.İştirakçılar Yaponiyadanın 62 universitet tələbəsi idi (9). Bu, sinif kitablarından və autentik materiallardan istifadə edən iki qrupu müqayisə etdi. Ünsiyyət rəqabəti səkkiz test vasitəsilə təhlil olundu: dinləmə testi, tələffüz testi, C-test, qrammatika testi, lügət testi, mühazirəni tamamlama testi, şifahi müsahibə və rol oyunları. Nəticə bunu göstərdi ki, autentik materiallardan istifadə edən tələbələr rəqabət testini digərlərindən daha yaxşı tamamladı.

Digər tətqiqat 2002-ci ildə Qeyts, Degener, Cekbson və Soler tərəfindən aparılmışdır. Düzdür, tətqiqatın məzmunu bir çox ölkələrə aid deyil, lakin tətqiqat autentikmaterialların müsbət təsirlərini göstərir. Tətqiqatın iştirakçıları Amerikanın 159 şagirdi idi. Tətqiqat autentik materialların şagirdlə-rin ədəbi inkişafının artırdığını göstərdi. Bu mübahisəli məsələ oldu ki, müəllimlər şagirdlər autentik materiallarla tanış etdikdən sonra şagirdlər daha çətin oxu və dinləmə vasitələrinə öyrəşirlər.

Dördüncüsü, Rogers və Medley əlavə edir ki,autentik materiallar həmin dilin mədəniyyətini öyrənmək üçün faydalı mənbədir (9). Onlar şagirdlərin mədəni biliklərini artırmağa kömək edən informasiyalardan ibarətdir. Televiziya verilişləri və ya jurnal-lar vasitəsilə şagirdlər onların maraqlarını təmin edən biliklərə yiyələnirlər. Klikaya da həmin ideyanı paylaşır. O bildirir ki, dili öyrənmək təkcə onun strukturunu, xüsusiyyətlərini öyrənməklə deyil, həm də onun mədəniyyəti ilə bağlı informasiyalara yiyələnməkdir. O inanır ki, müəllimlərin verdiyi autentik materialların məzmunu faydalı bir öyrətmə strategiyası ola bilər.

Sonuncu fayda olaraq, qeyd edək ki, işgüzar ingilis dilinin tədrisində autentik materiallar təkcə tələbələr üçün faydalı deyil. Müəllimlər də həmçinin autentik materialların üstünlüklərindən istifadə edirlər.Belə təklif olunur ki, real materiallar müəllimlərə təhsil kurrikulumunun tərtib və dizayn olunmasında kömək edir. Bu materiallar faydalı hesab olunur, çünki müəllimlərə şagirdlərin ehtiyacları nəzərə alınarq təhsil kurikulumunu yaratma imkan verir (10).

Çinli alim Lee bildirir ki, Çində hələ də autentik materialların bu faydalarından müəllimlərin xəbəri yoxdur. O təklif edir ki, müəllimlərin bu faydalardan xəbərdar olması üçün təhsil təlimləri keçirilməlidir.

Autentik materiallar müəllimlər üçün ingilis, alman, fransız kimi müasir dillərin mənbələrini təmin edir və şagirdləri real, sinifdənkənar həyatla bağlı olan həyatla tanış etmək şəraiti yaradır. Autentik materiallar vasitəsilə biz real həyatda dilöyrənənlərin real dinləyicilər üçün ötürdüyü dili başa düşürük. Əgər müəllimlər autentik materiallardan düzgün şəkildə istifadə etsələr, onlar təlim iştirakçılarını real dünyanın möhkəm körpüsü ilə təmin edə bilərlər. Bu kommunikativ məqsədlərə çatmağın əsas yolu sinif oyunlarını mümkün qədər autentik materiallara əsaslandırmaqdır (1, 223).

Yekun olaraq qeyd edək ki, autentik materialların üstünlükləri saysız-hesabsızdır. Birinci və ən önəmlisi autentik materiallardan istifadə öyrənənlərin özünə inamını artırır, çünki onlar real həyat situasiyalarında bunun öhdəsindən gələ bildiklərini görürlər. Onlar real dili kəşf etmə şansı əldə etdikdə, danışıq bacarıqları daha təbii hala düşür.Sinif kitabları və ya digər vasitələr xarici dilin öyrədilməsi üçün əsas vasitələrdən biri kimi istifadə olunsa da, bu tip materiallar axtarışındadırlar.

Autentik materialların üstünlüklərini müzakirə edərkən qarşıya çıxan üçüncü əsas məsələ onların mədəni oyanıqlıq yaratmasıdır. Bir daha qeyd etməliyik ki, şagirdlər müasir dilin bütün reallıqları ilə əlaqədə olurlar və nəticədə anlamada olan bütün suallara qarşı çıxa bilirlər (9).

Autentik materialların nəinki pozitiv təsirləri, həm də neqativ təsirləri vardır.Autentik materiallar ilə bağlı ən çox qarşıya çıxan problem onların çətinlik dərəcəsidir. Bir çox müəllimlər iddia edirlər ki, bu tip materiallar yalnız müəyyən səviyyəli şagirdlər üçün nəzərdə tutulmalıdır, dil öyrənməyə yenicə başlayan şagirdlər xüsusilə bu qrupa daxil olunmamalıdır. Lakin biz bu çətinliyi autentik materialların əsas çatışmazlığı hesab etməliyik, çünki bu tip problemlər biraz təxəyyül gücü ilə həll oluna bilər.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Hüseynzadə G. Xarici dillərin tədrisində islahatların tətbiqi: Müəllimyönümlü tədrisdən tələbəyönümlü tədrisə keçid / “Elm ili”nə həsr olunmuş xarici dillərin tədrisinin aktual problemləri II Respublika elmi konfransının materialları. Bakı: ADU Nəşriyyatl, 2009, s. 220-226
2. Chambers A., Davies G. ICT and Language Learning: a European Perspective. Lisse: Swets-Zeitlinger, 2001, p. 53-66
3. David Heitler Teaching with authentic materials.Pearson education. 2005. 178 p.
4. Erben T., Ban, R., & Castañeda, M. Teaching English language learners through technology. New York: Routledge . 2009. 193 p.
5. Hardisty D., Windeatt S., Eastment D. The Internet (Resource Books for Teachers). Oxford: Oxford University Press, 1989, 347 p.
6. Higgins J., John T. Computer in Language Learning/CALICO Journal,Glasgow, 1984, 74 p.
7. Hubbard P. Computer-assisted language learning / Volumes I-IV, London and New York: Routledge, 2009, p. 43-54
8. Jokes C., Fortescue S. Using computers in the language classroom. Harlow: Longman, 1987, 353 p.
9. https://pdfs.semanticscholar.org/7ee6/6cc84e72ab5468b973c2fce267ec3b8410e1.pdf
10. http://eprints.walisongo.ac.id/6033/1/103411066.pdf
11.https://www.academia.edu/30230108/An_investigation_into_whether_authentic_materials-re_truly_beneficial_to_student_motivation_in_the_EFL_classroom_Undergraduate_Dissertation

A.Miriyeva

The importance of using authentic materials in teaching the english language

Summary

The English language as well as Business English should take into consideration the follwings:

- special needs of students;the content of specific subjects, occupations and activities.

In teaching languages the use of authentic materials have some benefits:

The 1st one is that use of authentic materials lead to the learners' contact with real language and to be closer to the target language.

The next benefit is that the use of authentic materials motivates the english language learners to learn the language.

One more benefit of it is that authentic materials increases the communication competition of learners.

The 4th benefit is that as Rogers & Medley mentioned, authentic materials play the role of the source for learning the culture of that language.

The last benefit is that authentic materialsare beneficial not only for students, but also for teachers, as they also use authentic materials' privileages in teaching process.

Authentic materials have not only got positive effects, but also negative outcomes. The most evident problem releated to authentic materials is their level of difficulty. Many teachers claim that such kind of materials should be considered just for a certain level learners, the beginner learners shouldn't be included in this list. However, we should consider this difficulty as a main shortage of authentic materials, since such kind of problems might be solved by the help of, somehow, imagination.

Key words: General English, Business English, language teaching, authentic material, benefit

А.Мириева

Важность использования аутентичного материала
в преподавание английского языка

Резюме

Английский язык, так же как и бизнес английский должен принимать во внимание следующее:

- особые требования студентов, содержание специальных предметов, занятость и длительность. Аутентичный материал имеет некоторые преимущества в процессе обучения языкам.

Во первых это то, что аутентичный материал ведет обучающихся к большему контакту с реальным языком. Следующее преимущества это то, что использование аутентичных материалов порождает мотивацию у студентов, изучающих иностранный язык. Еще одним преимуществом является увеличение конкурирующего общения у обучаемых. Четвертое преимущество, упомянутое Роджерс и Медли, аутентичный материал является источником, из которого обучаемые черпают информацию о культуре.

Последнее преимущество это то, что аутентичной материал является полезным не только для обучаемых, но и для учителей, использующих его в процессе работы.

Аутентичный материал имеет не только положительный эффект но также и отрицательный. Самая очевидная проблема относительно аутентичного материала – это уровень его сложности. Многие учителя заявляют о том, что такого рода материал должен быть рассчитан на определенный уровень учащихся, начинающий уровень не должен быть включен в этот лист. Однако мы должны оценивать эту трудность, как основной недостаток аутентичного материла. Такого вида проблемы могут быть решены с помощью своего рода воображения.

Ключевые слова: Общий Английский, Деловой Английский, обучение языку, аутентичный материал, выгода

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Şəlalə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

AYNURƏ HÜMBƏTOVA
aynurahumbatova@yahoo.com
Bakı Avrasiya Universiteti
135 A Ak. Həsən Əliyev küçəsi, Bakı
1073

İNGİLİS DİLİNDƏ TƏRKİBİ FEİLLƏRİN SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Müasir ingilis dili dövrünün erkən dövrlərində tərkibi feillərin ingilis dilində kəmiyyətcə xeyli artmışdı.Bu da tərkibi feillərin sintaktik baxımdan da tədqiq olunmasına zəmin yaradır. Tərkibi feilləri sintaktik cəhətdən tədqiq edərkən ilk olaraq onların təsirli və təsirsiz formalarını nəzərdən keçirtmək lazım gəlir. Tərkibi feillərin təsirli və təsirsiz formaları onların cümlədə yerinə və onlardan sonra işlənən sözlərin təyin olunmasında bilavasitə iştirak edir. İngilis dilində hərəkət feillərinin ən qədim formaları və ilkin kökləri təsirsiz formada olublar. Onlardan isə təsirli feillər yaranmışdır. Sadəcə onlar feili söz birləşmələrinin komponentləri arasında qrammatik əlaqələrin yaranması zamanı meydana çıxır. Bu da öz növbəsində həmin dillərin qrammatik-tipoloji xüsusiyyətləri ilə bağlıdır. Belə ki, ingilis dilində feili birləşmələrin yaranması zamanı birləşmənin tərkibinə daxil olan ayrı-ayrı sözlər arasında qrammatik əlaqələr daha çox müxtəlif səciyyəli sözönüləri vasitəsilə reallaşır. Habelə, bu tərkibi feillərin təsirli və təsirsiz formaları və bu feillərin iki və ya üçkomponentli olması ilə də bilavasitə bağlıdır. Hətta bəzən bir tərkibi feil həm təsirli və həm də təsirsiz ola bilir. İkikomponentli tərkibi feillərin xüsusiyyətlərini təyin etmək üçkomponentli tərkibi feillərə nisbətən daha çetin olur. Bu isə öz növbəsində tərkibi feillərin komponentlərinin daşıdıqları xüsusiyyətlərdən asılı olduğu kimi təhlil edilir. Üçkomponentli tərkibi feillər ən son yaranan tərkibi feil formaları olduqları üçün kəmiyyətcə sayları da ikikomponentlilərə nisbətən azdır. Bu da tədqiqat zamanı daha çox ikikomponentli tərkibi feillərə istinad etməmizə səbəb olur. Bundan başqa xülasə olaraq onu da qeyd edək ki, tərkibi feiller cümlədə mübtəda, tamamlıq, təyin, məqsəd və nəticə zərfliyi ve xəbər funksiyalarını daşıyırlar. Bu məqalədə tərkibi feillərin cümlədə daşıdığı hər bir funksiyası müxtəlif misallarla şərh edilmişdir.

Açar sözlər: morfoloji quruluş, tərkibi feillər, təsirli feillər, təsirsiz feillər, sintaktik xüsusiyyətlər

Tərkibi feillər sintaktik xüsusiyyətlərinə görə də xarakterizə olunarkən onların cümlədə yeri, başqa cümlə üzvləri ilə əlaqəsi və ümumiyyətlə söz sırası və s. əsas tutulur.

İngilis dilində tərkibi feillərin sintaktik xüsusiyyətlərindən danışarkən, ilk olaraq, tərkibi feillərin komponentlərinin cümlədə tutduğu mövqeyə nəzər yetirmək doğru olar. İki komponentli tərkibi feillərin feildən ibarət olan birinci komponenti əsasən mübtədadan sonra işlənsə də, ikinci komponentin yeri dəyişkən ola bilər. Bu ikinci komponentin ya sözönü, ya da zərf olması ilə əlaqələndirilir. Misal olaraq onu qeyd etmək olar ki, tərkibi feillərin təsirli formaları tərkibində işlənən zərflər ondan sonra işlənən vasitəsiz tamamlıqlardan həm əvvəl, həm də sonra işlənə bilər. Məsələn: *He gave up the plans* və ya *He gave the plans up.*

Habelə, təsirli feillərdən sonra işlənən tamamlıq bir neçə nitq hissəsindən ibarətdirsə və ya tərkibdirsə, onda zərf komponenti əsasən tamamlıq tərkibindən əvvəl işlənir. Məsələn: *I clean up the mass in my room every day.* Amma bu cümləni *"I clean the mass in my room up*

every day" şəklində işlətmək də yalnış sayılmır. Sadəcə olaraq, birinci hal dildə daha çox işlənən sıralanmadır.

Onu da qeyd etməliyik ki, bu zaman bəzi istisna hallarla da qarşılaşmaq olar. Əgər tərkibi feillərdən sonra işlənən cerund və ya cerund tərkibidirsə, onda komponentlər ayrılmaz olaraq qalır. Məsələn: *"He gave up smoking."* deyə bildiyimiz halda, həmin cümləni *"He gave smoking up"* şəklində deyə bilmirik. Həmin xüsusiyyət əvəzliklərə də (xüsusən də şəxs və yiyəlik əvəzliklərinə) aid olur və tərkibi feillərin komponentləri arasında işlənərək, onları iki yerə bölür. Məsələn: *"She helped me out."* cümləsini də *"She helped out me*" kimi işlətmək dildə düzgün sayılmır. Bu hal yalnız tərkibi feillərin ikinci komponenti zərfdən ibarət olduqda mümkün olmur.

İngilis dilində tərkibi feillər həm təsirli və həm də təsirsiz formalarda işlənə bilir, bu isə onun çoxmənalılığı ilə izah olunur. Məsələn: *The engine cut out. She cut out some coloured photographs from a magazine* [2, s.259].

Təsirli tərkibi feillər ya birləşmədən sonra, ya da feillə sözönü arasında isim və ya ismi birləşmə qəbul edir. Məsələn: *call Tom up* və *fall off a truck* Bu birləşmələrin təsirli formalarının bir çoxunda isim həm sözönündən əvvəl, həm də sonra işlənə bilir. Məsələn: *Call Tom up* və ya *Call up Tom*. Hətta bu birləşmələrin təsirsiz formalarında da zərf feillə sözönü arasında işlənə bilir. Məsələn: *fight bravely on* Hətta bunu da qeyd etmək olar ki, bəzi sinonimlik təşkil edən feillər eyni qoşmalarla işlədilir. Məsələn: *call/ ring/ phone + up*

Bununla yanaşı, ingilis dilində üç komponentli tərkibi feillərin əksəriyyəti təsirsizdir. Məsələn: *go off with, read up, cut back on, burst in on, go over to, put up with* və s. Amma onların arasında təsirli formalarına da rast gəlmək olur. Məsələn: *let in for, take out on, talk down to, put up to, do out of* və s. *He suddenly burst in on my room one morning.* [2, s.263]. *Try not to talk down to your employees.* [4, s.1527].

Bununla yanaşı, tərkibi feillərin təsirsiz formalarından sonra isim və ya ismi birləşmələr işləndiyindən, onların komponentlərinin yerləri dəyişməz olaraq qalır. Amma ikinci komponent sözönüdürsə, onda o əsasən feillə yanaşı işlənilir, yəni onların arasında heç bir cümlə üzvü işlənə bilmir. Məsələn*:"He walked up the ladder"* cümləsini *"He walked the ladder up"* şəklində işlətmək düzgün sayılmır.

Üç komponentli tərkibi feillərdə isə bu xüsusiyyətlər qismən də olsa fərqlidir. Belə ki, üç komponentli tərkibi feillərin təsirli formalarının əsasən ikinci komponenti olan zərflərdən sonra vasitəsiz tamamlıq işlənmədiyi üçün və üçüncü komponent əsasən sözönü olub ondan sonra vasitəsiz tamamlıq gəlsə də, sözönü işləndiyində yerdəyişmə olmadığı üçün üç tərkibdən ibarət olan tərkibi feillərin komponentləri ayrılmaz olaraq işlədilir. Məsələn: *do away with somebody (to murder someone) There were rumours that Doug had done away with his wife* [4, s.432].

Bu cümləni tərcümə edərkən belə, *"away"* zərfini və *"with"* sözönünü ayrılıqda tərcümə edə bilmədiyimiz üçün *"do away with"* birləşməsini leksik birləşmə hesab etmək olar və onu leksik məna daşıyan *"murder"* təsirli feili ilə əvəz etmək olar. Məsələn: *There were rumours that Doug had murdered his wife.*

Amma iki vasitəsiz tamamlıqla işlənən üç komponentli tərkibi feillər də vardır ki, onlarda zərf komponenti iki komponentli tərkibi feillərdə olduğu kimi vasitəsiz tamamlıqdan həm əvvəl, həm də sonra işlənə bilir. Məsələn: She can *fix up* your sister with a new job. She can *fix* your sister *up* with a new job.

Hətta üç komponentli təsirli tərkibi feillərin zərf komponenti əvəzliklə işlənərsə (iki komponentli tərkibi feillərdə olduğu kimi), əvəzlik birinci komponent olan feillə ikinci komponent zərfin arasında işlənir. Məsələn: *I can fix you up with a place to live.* [4, s.563].

Ayrı-ayrı zərflər tərkibi feillərlə işləndikdə də onları yerləri sabit olmur. Onların yeri həm də tərkibi feillərin komponentlərinin zərf və ya sözönü olmasından asılıdır. Belə ki, tərkibi feillərin ikinci komponenti sözönü olarsa, onda zərf onların arasında işlənə bilsə də, ikinci komponent zərf olduqda bu mümkün olmur. Məsələn:"*She came quickly into the kitchen*" qrammatik cəhətdən düzgün, *"She helps usually out Sylvia"* cümləsi isə qrammatik cəhətdən yalnış hesab olunur.

Bundan əlavə, *"usually"* zərfini tərkibi feillə vasitəsiz tamamlıq (*She helps out usually Sylvia*) və əvəzlik vasitəsiz tamamlıq kimi işlənərsə, onların arasında gələ bilməz (*She helps usually her out*). Amma *"usually"* zərfi cümlənin sonunda və tərkibi feildən əvvəl işlənə bilər. Məsələn: *She helps out Sylvia usually/ She helps Sylvia out usually/ She usually helps out Sylvia*

Habelə, iki komponentli tərkibi feillərin təsirli formalarına sözönülü birləşmələrlə (xüsusən də sözönülü zərfliklərlə) birgə işlənən formalarına da rast gəlmək olar. Bu zaman iki komponentli tərkibi feillə sözönülü birləşmələr üç komponentli tərkibi feillərə bənzəsə də, onları eyniləşdirmək olmaz. Məsələn: *We are moving out (of this house) in two days. Turn left at the traffic lights and carry on (up the high street).* [4, s.219].

Beləliklə, *"move out"* iki komponentli tərkibi feilinin cümlədə *"of"* sözönü ilə işlənməsilə, onu üç komponentli *"run out of"* tərkibi feili ilə qarışıq salmaq olmaz. Belə ki, *"move out of"* birləşməsi heç bir leksik məna daşımadığı halda, *"run out of*" tərkibi feili *"bitmək, qurtarmaq"* mənasını ifadə edir. Məsələn: *Many hospitals in this city run out of money after the World War in Europe*.

İngilis dilində tərkibi feillərin təsirsiz formalarının sintaktik xüsusiyyətlərinə nəzər yetirərkən, onların həmin feillərin təsirli formaları ilə üç yolla əlaqəli olduğunu görmək olar:

1. Bəzi tərkibi feillərin təsirsiz və təsirli formaları eynilik təşkil edir, yəni bir tərkibi feil cümlədə yerindən asılı olaraq həm təsirli, həm də təsirsiz ola bilir. Təsirli tərkibi feillərdən fərqli olaraq təsirsiz tərkibi feillər əsasən cümlənin sonunda işlənir (tamamlıq istisnadır). Tərkibi feillərin təsirsiz formalarında tamamlıq cümlədə ya "silinir", ya da "başa düşülür". Məsələn: *"do without (to succeed in living or working without someone or something)"* tərkibi feili cümlədə həm təsirli, həm də təsirsiz ola bilər. *There's no more milk, so I guess we'll just have to do without (Intransitive)*

Now that they have a regular income, they should be able to do without any help from us (transitive). [4, s.433].

2. Onlardan bəziləri sadə feillərdə olduğu kimi, daşıdığı mənalarından asılı olaraq, təsirli formalarla əlaqəli olur. Misal olaraq, sadə "burn" (yanmaq, yandırmaq) feilini götürsək, cümlədə bu feilin hansı formada işlənməsindən onların təsirli və ya təsirsiz formalar olduğu anlaşılır: "I burn it."(Mən onu yandırdım); *"It burnt."* Tərkibi feillərin də sadə feillər kimi cümlədə təsirli formaları semantik cəhətdən məlum, təsirsiz formaları isə məchul məna daşıyır. Məsələn: *Terrorists had threatened to blow up the embassy. The boiler blew up, wrecking the whole house*. [4, s.148].

3.Tərkibi feillərin təsirli və təsirsiz formaları bəzən eyni semantik və sintaktik əlaqədə olan müxtəlif leksik vahidlərdən ibarət olan əks əlaqəni göstərir. Məsələn: *She brought in her classmate (transitive)*; *Her classmate came in (intransitive).*

İngilis dilində tərkibi feillərin təsirli və təsirsiz formalarının qeyd olunan əlaqələrindən savayı, eyni zamanda həm təsirli, həm də təsirsiz tərkibi feil olub, ya eyni, ya da müxtəlif məna daşıyan formaları da mövcuddur. Məsələn: ingilis dilində işlənən *"eat up"* tərkibi feili təsirli və ya təsirsiz tərkibi feil olmasından asılı olmayaraq, cümlədə mənasını dəyişmir: *Come on? Eat up your broccoli (transitive)*; *Eat up and we'll go for a walk (intransitive).* [4, s.469].

Amma *"give out"* tərkibi feli cümlədə təsirli və təsirsiz forma olmasından asılı olaraq, mənasını dəyişən tərkibi feillər sırasındadır: *The office gives out financial advice to students*

(inform; transitive); The quietest devices give out only a low, almost inaudible hum (emit; transitive); His heart finally gave out under the strain (fail; intransitive); Their water gave out two days ago (run out; intransitive). [4, s.635].

Yuxarıda göstərilən misallardan gördüyümüz kimi, *"give out"* tərkibi feili çoxmənalı tərkibi feil olub, müxtəlif mənalarda işləndiyi cümlədən asılı olaraq təsirli və ya təsirsiz tərkibi feilə çevrilir.

Bundan başqa, ingilis dilində tərkibi feillərin adətən əmr cümlələrində işlənən təsirli və təsirsiz formalarına da rast gəlmək olar. Məsələn: *Get off – you are hurting my back! (intransitive); Get off the grass right now! (transitive).* [4, s.630].

Tərkibi feillərin məchul növdə işlənməsinə gəldikdə isə, ilk olaraq, onların bilavasitə təsirli və ya təsirsiz tərkibi feil forması olub-olmamasını təyin etmək vacibdir. Bildiyimiz kimi, tərkibi feillərin təsirli formaları məchul forma qəbul edir və bu zaman onların ikinci və üçüncü komponentləri cümlənin sonunda işlədilir. Məsələn: *The car was checked up. The girl was put up with.*

Habelə, ikinci komponenti zərflərdən ibarət olan tərkibi feillərin məchul formalarda işlənməsinə komponenti sözönündən ibarət olan tərkibi feillərə nisbətən daha çox rast gəlmək olardı. Amma müasir ingilis dilində bu tendensiya özünü daha çox sözönü komponentli tərkibi feillərdə göstərir [7, s.77]. Məsələn: *First she wasn't noticed by the guests, then everybody saw her beauty.*

Tərkibi feillərin komponentlərində bütün qeyd olunan xüsusiyyətlərlə yanaşı, sözönülü komponentli tərkibi feillərin cümlədə yerini dəyişərək, aid olduğu feildən əvvəldə işlənməsinə də rast gəlmək olar. Bu hala əsasən nisbi əvəzliklərlə düzələn təyin budaq cümlələrində təsadüf olunur. Məsələn: *The gloves on which she puts.*

Yuxarıda qeyd olunan xüsusiyyətlərlə yanaşı, tərkibi feillərin əsas tərəflərinin xarakterinə uyğun olaraq yerinə yetirdiyi cümlədə daşıdıqları sintaktik vəzifələri ayrı-ayrılıqda nəzərdən keçirdib təhlil etmək daha məqbul hesab oluna bilər, çünki məhz bu yolla onların sintaktik funksiyaları haqqında daha tam təsəvvür əldə etmək mümkün ola bilər. Tərkibi feilləri sintaktik cəhətdən təhlil edərkən onların cümlədə xəbərdən savayı daşıdıqları funksiyaların məsdər formalı olduğunu müşahidə etmiş oluruq. Belə ki, məsdər formasında olan tərkibi feillər aşağıdakı funksiyalarda işlədilir:

a) mübtəda funksiyasında çıxış edir:

To give up smoking is the easiest thing nowadays. To get along with him was very difficult.

Mübtəda funksiyasında işlənən məsdər formalı tərkibi feillər cümlədə əsasən xəbərdən sonra gəlir və bu halda cümləni "it" formal mübtəda ilə başlamaq lazım gəlir.

It is the easiest thing to give up smoking nowadays. It was very difficult to get along with him.

b) tamamlıq funksiyasında çıxış edir:

Today the teacher taught us to look up the words in the dictionary.

Habelə, mürəkkəb tamamlığın tərkib hissəsi funksiyasında çıxış edir:

She wants you to put aside all the things and go with you.

c) təyin funksiyasında çıxış edir:

He is a man to put off everything when you need his help.

d) məqsəd və nəticə zərfliyi funksiyasında çıxış edir:

We went to the station to see him off. I'll get the chemist to make this prescription up for you. [4, s.912]. *She is not smart enough to set up shop herself.*

Amma bildiyimiz kimi, tərkibi feillərin cümlədə daşıdığı əsas funksiya, bütün feillərdə olduğu kimi, xəbər funksiyasıdır: *The kids made off (ran away) when they heard us coming.* [4, s.912].

Buradan da belə nəticəyə gəlirik ki, ingilis dilində tərkibi feillərin cümlədə əsas sintaktik funksiyası onların bütün feillər kimi xəbər funksiyasında çıxış etməsidir və bu feillər komponentlərinin sayından və daşıdıqları xüsusiyyətlərdən asılı olaraq, onların ikinci və üçüncü komponentlərinin bəzilərinin yeri sabit deyildir, bu isə onların təsirli və təsirsiz formalar olmasından bilavasitə asılıdır.

Ədəbiyyat

1. Capelle B. Particle patterns in English. A comprehensive coverage. Kortrijk: Katholieke Universiteit Leuven dissertation, 2005, 524 p.
2. Cobuild C. English Grammar. Moscow: Astrel, 2008, 703 p.
3. Dikken M. Particles: on the syntax of verb-particle, triadic and causative constructions. New York: Oxford University Press, 1995, 288 p.
4. Macmillan English dictionary for advanced learners. Second edition. Oxford, 2007, 1748 p.
5. Mirzəyev H.İ. Azərbaycan dilində feil. Bakı: Maarif, 1986, 320 s.
6. Mürsəlova M.M. Müasir İngilis və Azərbaycan dillərində hərəkətin icra istiqamətini bildirən feili birləşmələrin semantik-qrammatik xüsusiyyətləri. Filol. elm. nam. ... dis. Bakı, 2010, 151 s.
7. Quirk R., Greenbaum S., Leech G., Svartvik J. A grammar of contemporary English. Longman Group Limited London, 1972, 1120 p.

A.A.Humbatova

Syntactic functions of the composite verbs in English

Summary

The quantity of the composite verbs are getting increased in modern English. It causes to the their syntactical investigation. When we investigate composite verbs, we, first of all, have to divide them into transitive and intransitive forms. These forms help us to determine their place in the sentence and to find out the parts of speech used after them. The initial forms of the English verbs were intransitive ones and transitive verbs are formed from them. They just appear with the help of grammatical relations between their parts. It is related to the grammatical and typological characteristics of the language. In English the grammatical relation of words are mainly realized with the help of the prepositions. However, it is also related to their transitive and intransitive forms of the composite verbs and their being consisted of two or three components. Sometimes the same composite verb can be both transitive and intransitive. It is more difficult to determine the characteristic features of two-component transitive verbs because these verbs have more functions and more replaceable. As three-component transitive verbs are newly created ones in the language and they are fewer than the others. All the reasons cause to the investigation of two-component composite verbs more than them. To sum up, the composite verbs can be used as a subject, object, attribute, adverb and predicate in the sentence. In this article the composite verbs being used as the above mentioned parts of speech are analyzed within different examples.

Key words: morphological structure, composite verbs, transitive verbs, intransitive verbs, syntactic features

А.А.Гумбатова

Синтаксические особенности составных глаголов на английском языке

Резюме

Количество составных глаголов увеличивается в современном английском языке. Это вызывает их синтаксическое исследование. Когда мы исследуем составные глаголы, мы, прежде всего, должны разделить их на переходные и непереходные формы. Эти формы помогают нам определить их место в предложении и выяснить, какие части речи используются после них. Первоначальные формы английских глаголов были непереходными, и из них образуются переходные глаголы. Они просто появляются с помощью грамматических отношений между их частями. Это связано с грамматическими и типологическими характеристиками языка. В английском языке грамматическое отношение слов в основном осуществляется с помощью предлогов. Однако это также связано с их переходными и непереходными формами составных глаголов и их состоянием из двух или трех компонентов. Иногда один и тот же составной глагол может быть как переходным, так и непереходным. Труднее определить характерные признаки двухкомпонентных переходных глаголов, потому что эти глаголы имеют больше функций и более заменяемы. Поскольку трехкомпонентные переходные глаголы являются вновь созданными в языке, и их меньше, чем других. Все причины вызывают к расследованию двухкомпонентных составных глаголов больше, чем их. Подводя итог, составные глаголы могут использоваться как субъект, объект, атрибут, наречие и предикат в предложении. В этой статье составные глаголы, используемые в качестве вышеупомянутых частей речи, анализируются в различных примерах.

Ключевые слова: морфологическая структура, составные глаголы, переходные глаголы, непереходные глаголы, синтаксические особенности

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Sevda Rzayeva tərəfindən
çapa tövsiyə olunmuşdur

AYTƏN KAZIMOVA
Azərbaycan Dillər Universiteti
Xarici dillərin tədrisi metodikası
kafedrasının baş müəllimi
Azərbaycan, Bakı, Təbriz küç. 81
aytan.kazimova@mail.ru

QEYRI-İXTİSAS FAKÜLTƏLƏRİNDƏ İŞGÜZAR İNGİLİS DİLİNİN TƏDRİSİNİN SƏMƏRƏLİLİYİNİ ŞƏRTLƏNDİRƏN DAXILİ VƏ XARICİ AMİLLƏR

Məqalə "İşgüzar ingilis dilinin" Azərbaycan Universitetlərinin qeyri-ixtisas fakültələrində tədrisinin faydasına təsir edən amillərdən bəhs edir.

Faydalılığa təsir edən amillər iki yerə ayrılır: daxili amillər və xarici amillər.

Daxili amillər aşağıdakıları özündə birləşdirir: diqqət və ustanovka.

Diqqət şüurun elə bir yeganə qapısıdır ki, şüurda olan hər şey mütləq buradan keçir. Ustanovka dedikdə müəyyən bir fəaliyyətə şəxsiyyət tərəfindən dərk edilməyən hazırlıq halıdır.

Xarici amillər isə aşağıdakılardan ibarət olur: faydalılıq, məzmun, çətinlik dərəcəsi, emosionallıq, quruluş və s.

Əgər "İşgüzar ingilis dilinin" həm qeyri-ixtisas fakültələrində, həm də ixtisas fakültələrində tədrisində müəllimlər yuxarıda qeyd edilən amilləri nəzərə alsalar, tədris dil öyrənənlər üçün daha faydalı olacaq.

"İşgüzar ingilis dili" dərslərində müəllim üçün çox vacib olan bir məqam tələblərlə "göz kontaktının" olmasıdır. Bu qeyd edilən keyfiyyət təkcə müəllim-tələbə üçün deyil, həm də gələcəkdə real işgüzar danışıqlar aparacaq şəxslər üçün də çox vacibdir.

"İşgüzar ingilis dili" dərsinin tədrisində müəllim elə şərait yaratmalıdır ki, tələbə özünü adi bir dərsdə deyil, sanki "hansısa bir işgüzar görüşdə" və ya "hansısa bir iş partnyoru ilə" danışıqlarda və ya müqavilə bağlamaqda iştirak edirmiş kimi hiss etsin.

Açar sözlər: *işgüzar ingilis dili, tədris, daxili faktor, xarici faktor, məzmun, quruluş, emosionallıq*

"İşgüzar ingilis dili"nin öyrədilməsinin vacibliyini şərtləndirən xarici amillərdən danışmazdan əvvəl, təlimin nə olduğuna nəzər salaq. Təlim dil öyrənənlərin (şagirdlərin, tələbələrin) biliklər sistemini mənimsəmələrinə və həmin bilikləri təcrübəyə tətbiq etmək üçün lazım olan vərdiş və bacarıqlara yiyələnmələrinə yönəlmiş məqsədyönlü idrak fəaliyyətidir.

Bəşəriyyətin daima diqqət mərkəzində olan bir məsələ kimi, təlim pedaqoji psixologiyanın qarşısında həm nəzəri, həm də tətbiqi problem kimi durur(3, 210). Məlum olduğu kimi, pedaqoji psixologiyada aşağıdakı təlim nəzəriyyələri diqqəti cəlb edir:

- fikri işlərin və anlayışların mərhələlər üzrə təşəkkülü nəzəriyyəsi;
- təlim nəzəri təfəkkürün inkişafı kimi;
- izahlı illüstrativ (ənənəvi) təlim;
- proqramlaşdırılmış təlim;
- tərbiyəedici təlim;
- problemli təlim.

Təlim prosesində öyrədən müəllim və öyrənən tələbə və ya şagird mövcuddur. Onların qarşılıqlı təsiri şəraitində, həm müəllim həm də şagirdin fəallığının təsiri altında tələbə (şagird) bilik və vərdişlər əldə edir. Müəllim isə həmin prosesi idarə edir (4, 310).

Artıq bu bir aksiomadır ki, "təlimin müvəffəqiyyəti psixoloji cəhətdən bir-biri ilə bağlı 3 amildən ibarətdir: **Nə** öyrədilir, **kim** öyrədir və **necə** öyrədir".

Təlimin müvəffəqiyyəti və ya uğurlu olması mənimsəniləcək material, onun məzmunu və sistemliliyindən (sistematikliyindən) asılıdır. Məzmun düzgün seçil-mədikdə, sistemsiz və pərakəndə olduqda mənimsəmənin səmərəliliyi azalır. Bu baxımdan tədris ediləcək materialın həcminin müəyyənləşdirilməsi, dərs proqra-mının effektiv tərtib edilməsi, ikinci dərəcəli materialın saf-çürük edilməsi, fənn haqda əsas anlayışların aydın verilməsi, elm və təcürbənin yeni-yeni nailiy-yətlərindən yerli-yerində istifadə etmək əsas məsələlərdir (6, 218).

Təlimin müvəffəqiyyətli olmasını şərtləndirən digər amil kimi təlim keçən şəxs və ya müəllimi göstərmək olar. Müəllimlər öz şəxsi keyfiyyətləri ilə tələbələrə nümunə olmalı, yüksək pedaqoji bacarıq və qabiliyyətlərə malik olmalıdır (1; 5). Müəllim təlim materialını didaktik yolla işləyərək tələbələrə zəruri məlumatı verməyi, onların fəaliyyətini səfərbər edə bilməyi, tələbələrin əqli inkişafına təkan verməyi bacarmalıdır.

Təlimin uğurlu olması həm də tələbənin xüsusiyytələrindən, onun fərdi psixi inkişaf xüsusiyyətlərindən (əqli, iradi, emosional), onda təlimə qarşı münasibətin yaranmasından, onun meyl və maraqlarından, tələbat və öyrənməyə qabillik imkanlarından da çox asılıdır.

Qeyri-ixtisas fakültələrində təhsil alan tələbələrə "işgüzar ingilis dili"nin öyrədilməsinin strukturunda təlim məqsədləri və vəzifələri də yer alır. "İşgüzar ingilis dili"ni öyrətməkdə məqsəd bilik, bacarıq və vərdişlərin tələbələrə aşılanmasıdır. Təlimdə məqsəd və vəzifələri həyata keçirmək üçün tədris işləri də vacibdir. Tədris işləri icraedici olur və onlardan istifadə etmədən müvafiq bilik və bacarıqlara yiyələnmək qeyri-mümkündür (7, 189).

ADİU-nun "Biznes menecment" fakültəsində "İşgüzar ingilis dili"nin tədrisi zamanı təlimin strukturuna daxil olan nəzarət-tənzimedici tədris işlərinin də rolu böyükdür. Bu işlər əsasən qiymətləndirici, yoxlayıcı və təshihedici xarakter daşıyır və onları birbaşa "İşgüzar ingilis dili"ni tədris edən müəllimlər və ya təlimçilər həyata keçirir. Qeyd edilənlərin köməyilə tələbələrin təlim fəaliyyətini idarə etmək mümkün olur. Burada xüsusilə özününəzarətə keçən nəzarətin və özünüqiymət-ləndirməyə keçən qiymətləndir-mənin rolu böyükdür (2, 267).

Alman psixoloqu V.Şternin müddəasına görə "təlim inkişafın arxasınca gedir və ona uyğunlaşır."

Rus psixoloqu L.S.Vıqotski isə təlim və tərbiyənin fərdin (tələbə və şagirdin) psixi inkişafnda həlledici rolunu göstərmişdir. Onun fikrincə təlim inkişafdan irəli gedir və onu öz arxasınca aparır. O, bilik, bacarıq və vərdişlərə yiyələnmək və ümumi keyfiyyətlərə, qabiliyyətlərə (mücərrədləşdirmə, ümumiləşdirmə, ixtiya-rilik) yiyələnməyin mümükün oldu-ğunu aşkara çıxartmışdır (4).

Öyrənməyə qabilliyin iki – ümumi və xüsusi növləri vardır.

1. Öyrənməyə ümumiqabillik dedikdə hər cür materialın, tədris fənnlərinin mənimsənilməsinə qabillik başa düşülür.

2. Öyrənməyə xüsusiqabillik dedikdə isə hər hansı bir fənni və ya praktik fəaliyyətin bir növünü mənimsəmək başa düşülür. Misal üçün bura "işgüzar ingilis dili"ni və ya XMİD-i (xüsusi məqsədlər üçün olan ingilis dili) aid etmək olar.

"İişgüzar ingilis dili"nin tədrisinin (öyrədilməsinin) uğurlu olması üçün iki amil əsasdır: daxili amil və xarici amil.

1. **Daxili amil.** Daxili amil kimi diqqət və ustanovkaya xüsusi yer verilir. Tələbəyə öyrədilən materialnın lazımlı olub olmamasını bilmək, material qarşısında seçim etmək, onu öyrənib mənimsəmək üçün diqqət əsasdır. Bu barədə K.D.Uşinski yazmışdır:

"Diqqət şüurumuzun elə bir yeganə qapısıdır ki, şüurumuzda olan hər şey mütləq buradan keçir. Ona görə də təlim prosesində tələbələrə həmin qapını açıq saxlamaq lazımdır".

Təcrübələr göstərir ki, müəllim dərsdə tələbə-şagirdlərin diqqətini cəlb etməyi bacarmasa heç bir informasiyanı mənimsədə bilməz. "İşgüzar ingilis dili"nin tədrisində də bu amil əsas şərtlərdəndir. İşgüzar danışıqların aparılması, o sahədə yazışamların aparılması, bu sahə ilə bağlı leksikanın öyrənilməsi, danışıqların nəticəsinin uğurlu olması üçün diqqət vacib amildir.

Digər daxili amil ustanovkadır. Ustanovka dedikdə müəyyən bir fəaliyyətə şəxsiyyət tərəfindən dərk edilməyən hazırlıq halıdır. Tədqiqatlara görə, təlimdə ustanovka qarşıya qoyulan yaddasaxlamanın məqsədi, yaddasaxlamanın müddəti, möhkəmliyi və xarakterindən asılıdır. Qarşıya yaddasaxlama məqsədi qoyulduqda yaddasaxlama səmərəli olur.

2. **Xarici amil.** Öyrənmənin səmərəliliyini şərtləndirən xarici amillər sırasına öyrəniləcək materialın xüsusiyyətləri daxildir.

Burada əsas materialın **məzmunudu**r. Təlim materialının məzmununu əsas məlumatlar, anlayışlar, prinsiplər, qaydalar, bacarıq və vərdişlər təşkil edə bilir. "İşgüzar ingilis dili" ilə bağlı anlayışlar, danışıqlar və yazışmalar, onların qayda və prinsipləri tələbələrə düzgün izah edilməlidir və bununla bağlı məzmunun düzgün seçilməsi təlimin səmərəliliyi üçün zəruridir.

Təlim materiallarının məzmunu dolğun, anlayışlar dəqiq izah edilmiş, tələbələrin yaş və bilik səviyyəsinə uyğun olmalıdır. Bir qayda olaraq "işgüzar ingilis dili" qeyri-ixtisas fakültələrində 2-ci və 3-cü kurslarda tədris edilir. Həmin fakültələrin 1-ci kurslarında isə ümumi ingilis dili keçilir və bu, yuxarı kurslardakı "işgüzar ingilis dili"nin tədrisinə bir növ hazırlıq kimi aparılır və **"tramplin"** rolu oynayır (10). Burada materialın ağırlıq dərəcəsi və tələbənin həmin materialı qavraya bilməsi də nəzərə alınmalıdır.

Təlim materialının öyrənilməsinin ikinci mühüm xüsusiyyəti onun formasıdır. Bütün təlim materialları müəyyən formaya malik olur və onlar əşyavi, simvolik, sözlü və obrazlı ola bilər. Təlim materialının öz dil və üslubi xüsusiyyətləri də vardır. Bu iki xüsusiyyətdən asılı olaraq mənimsəmə də müxtəlif şəkildə gedir. Bir qayda olaraq "işgüzar ingilis dili"nin tədrisi ilə bağlı tərtib edilən materiallar sözlü materiallar olur. Onların da tərtibində tələbələri maraqlandıracaq cəhətləri nəzərə almaq mütləq lazımdır. Bu cür materiallara, müasir dövrümüzdə, şəkillər, audioyazılar, videoyazılar da əlavə etmək mümkündür (9).

Psixoloqlar materialın düzgün tərtib edilməsi üçün müəyyən tələblər müəyənləşdirmişlər. Bu tələblər arasına aşağıdakılar daxildir:

- fikri istinadlar;
- materialın qabarıq şəkildə verilməsi.

Material elə tərtib edilməlidir ki, oradakı əsas cəhətlər və ya müddəalar bir-birindən aşkar şəkildə fərqlənsin və dərhal nəzərə çarpsın. Materialda asanlıqla qruplaşdırmalar, ümumiləşdirmələr aparmaq mümükün olsun və asanlıqla müəyyən hissələri birləşdirmək mümükün olsun. "İşgüzar ingilis dili" ilə bağlı kitabların və ya materialların tərtibində mütləq şəkildə məntiqi ardıcıllığa riaət olunmalı, sadədən mürəkkəbə doğru prinsipi gözlənilməli və mövzular A-dan Z-ə qədər bir-biri ilə bağlı olmalı və bir-birini tamamalamalıdır (8).

Digər xarici amil təlim materialının çətinlik dərəcəsidir. Materialın ayrı-ayrı ünsürləri arasında əlaqənin zəif olması, onun bir tərkib hissəsinin özündən sonra gələn tərkib hissəsini ətraflı aydınlaşdıra bilməməsi, səbəb-nəticə əlaqsəinin pozulması, ardıcıllığın itməsi, mətn daxilində qayda və tərifləri üzə çıxartmaq imkanı verən ümumiləşdirmənin zəif olması materialın çətinlik dərəcəsini artırır. Bu səbəbdən də eyni bir material bütün tələbələr tərəfindən eyni cür mənimsənilmir.

Təlim materialının öyrənilməsinə təsir edən əsas xüsusiyyətlərdən biri də onun **əhəmiyyətidir.** Materialın əhəmiyyətlilik dərəcəsi müxtəlif sahələrlə bağlı ola bilər. Material faydalanmağa imkan vermirsə, onda onun öyrənilməsi də bir o qədər səmərəsiz olacaq. Öyrənmə o vaxt

müvəffəqiyyətlə gedə bilər ki, material tələbə üçün əhəmiyyət kəsb etsin, tələbənin maraq və tələbatlarına cavab versin.

"İşgüzar ingilis dili" fənni ilə bağlı, ADİU-da qeyri-ixtisas fakültəsində müxtəlif kitablardan istifadə edilir və həmin kitablardakı mövzuların heç də hamısından istifadə edilmir. Bəzi mövzular lazımlı hesab edilmir və yaxud da bəzi mövzular kitabda olmadığı halda çox lazımlı mövzu olduğundan həmin mövzu digər mənbələrdən əldə edilir və əlavə material kimi tələbəlrə tədris edilir (8; 9).

Təlim zamanı materialın anlaşıqlı olması onu uğurlu olmasına və öyrənilməsinə təsir edən əsas amillərdəndir. Materialın anlaşıqlı olması onun tez mənimsənilməsinə və qavranmasına səmərəli yol açır. Material ilə paralel olaraq tərtib olunan tapşırıqların da müvafiq olması önəm daşıyır.

Aydındır ki, hər bir tələbə materialı eyni cür qavramır və "işgüzar ingilis dili" ilə bağlı material da kifayət qədər "ciddi" və akademik material olduğundan onun qavranılması prosesi tələbələr tərəfindən eyni cür getmir. Misal üçün, şirkətlərarası müqavilələrin bağlanması ilə bağlı material müxtəlif kitablarda fərqli şəkildə verilə bilər. Bəzi müəlliflər sadə və nisbətən yüngül terminologiyadan istifadə edə bilər, digər müəllif isə daha qəliz leksikaya müraciət edə bilər. Burada "qızıl ortalıq" prinsipini gözləmək lazımdır və bu da müəllimin peşəkarlığı və tələbə auditoriyasını hiss etməsi ilə həyata keçə bilər.

Təlim zamanı materialın mənimsənilməsinə təsir edən vasitələrdən biri də onu **strukturu və ya quruluşudur**. Bu meyar materialın anlaşıqlı olması ilə sıx bağlıdır. Material nə qədər sistematik, plana uyğun tərtib edilrəsə, onu anlamaq və mənimsəmək bir o qədər asan olacaq. Misal üçün, "işgüzar ingilis dili"nin tədrisində alqı-satqı ilə bağlı yüklərin göndərilməsilə əlaqədar tərtib edilən mətnlərdə və ya şirkətlərarası müqavilələrdə müəyyən bir struktur olur ki, onu gözləmək lazımdır. Materiallarda müəyyən ardıcıllıqlara əməl etmək mütləqdir və bu da sistematik xarakter daşıyır (10).

Dərs zamanı tələbəyə verilən materialın **həcmi** də əsas məsələlərdən biridir. Material lazımlı və mənalı olduqda və tələbə o materialdan nəsə öyrənə biləcəyini yəqin etdikdə material öz əhəmiyyətini artırır.

"İş**güzar ingilis dili"** ilə bağlı maerialın daha maraqlı olması və tələbədə maraq yaratması üçün müxtəlif "online" verilişlərdən, bizines görüşlərindən və danışıqlarından istifadə etmək məqsədəuyğundur. Lakin bu halda materialın həcmi normanı ötməməli və tələbə üçün "söz" və ya "danışıq yığınağı" olmamalıdır. Əlbəttə ki, burada yeni anlayış və ya söz/terminlər də yer almalıdır ki, tələbə dərsin uğurlu alınmasından əmin olsun.

"İşgüzar danışıqda" hər bir mövzuya aid istənilən qədər material tapmaq mümkündür və tələbələrə bu materialın hamısını və ya limitsiz şəkildə vermək düzgün olmazdı. Çünki bu zaman tələbə yüklənmiş olur və bəzən də lazımsız "söz yığını"nı öyrənməyə məcbur olur. Bu fakt da müəllimin peşəkarlığından irəli gələrək diqqətdən kənarda qalmamalıdır.

Materialın tədrisində **emosionallıq** da vacib şərtlərdəndir. Dərs monoton hal-da, emosiyasız keçildikdə, yeni materialın faydalı və lazımlı olmasına baxmaya-raq, tələbədə maraq yaranmır və bu halda diqqətin yayınması baş verir. Müəllim öz emosianallığı ilə dərsə rəng qata və tələbəni dərsə cəlb edə bilər. Cansıxıcı material tələbənin dərsə olan marağını öldürə, maraqlı material isə yadda saxlamaya kömək edir (8).

"İş**güzar ingilis dili"** dərslərində müəllim üçün çox vacib olan bir məqam da "göz kontaktının" (eye contact) olmasıdır. Bu qeyd edilən keyfiyyət təkcə müəllim-tələbə üçün deyil, həm də gələcəkdə real işgüzar danışıqlar aparacaq şəxslər üçün də çox vacibdir. Belə ki, danışıqların uğurlu nəticələnməsi üçün xüsusi formatdan savayı, "göz kontaktının" (eye contact) olması da təsir edir.

"İşgüzar ingilis dili" dərsinin tədrisində müəllim elə şərait yaratmalıdır ki, tələbə özünü adi bir dərsdə deyil, sanki "hansısa bir işgüzar görüşdə" və ya "hansısa bir iş partnyoru ilə" danışıqlarda və ya müqavilə bağlamaqda iştirak edirmiş kimi hiss etsin.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 2007, 542 s.
2. Əliyev R.İ. Psixologiya: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Nurlan, 2008, 352 s.
3. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya: ali məktəblər üçün dərslik. 2 cilddə. 1-ci cild. Bakı: ADPU, 2010, 320 s.
4. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. Bakı: ADPU, 2008, 480 s. (Elmi redaktoru: prof. A.N. Abbasov).
5. Əzimli Q.E. Psixi proses və tərbiyənin müasir problemləri. Bakı: ADPU-nun nəşri, 2004, 338 s.
6. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika: Dərslik. İki cilddə. 1-ci cild. Bakı: Mütərcim, 2013, 708 s.
7. İsmayılov T., Qurbanov X.K. Ali məktəb psixologiyası: Dərslik. Bakı: ADBTİA-nın nəşri, 2011, 230 s.
8. International House World Organisation. BET 1 (Business English Teaching Level1).Available:http://ihworld.com/teachers/coursedetails/ih_certificate_business_english
9. Abrudan, Cristina Laura. New Trends in Teaching and Learning Business English: 2012.
10. Zhang, Z. C. Towards an Integrated Approach to Teaching Business English: A Chinese Experience. English for Specific Purposes 26: 399410. 2007.

A.Kazimova

Internal and external factors conditioning the usefulness of teaching
"Business English" in non-specialized faculties

Summary

The article deals with the matter of factors affecting the usefulness of the subject "Business English" innon-specialized faculties of Azerbaijan Universities.

The factors affecting usefulness are divided into two parts: internal factors and external factors.

The internal factors include attention and installation (ustanovka).

Attention is an only door of consciousness that everything in mind passes through it. When we say ustanovka, it is a preparation case to a definite activity by a personality/person.

The external factors are the followings: usefulness, content, form, level of difficulty, emosionality, structure, etc.

If in teaching "Business English" in non-specialized faculties, and also in teaching other subjects both inspecialized facultiesand in non-specialized faculties, teachers take into consideration the above-mentioned factors, the teaching will be much more beneficial for learners.

In teaching "Business English" one of the important moments for teachers is "eye-contact". The mentioned quality is important not only for teachers-students, but also for the people who will hold business negotiations in the future.

In teaching “Business English” teacher should create such a condition that the student could feel as if he/she were participating in “business meetings” or in negotiations with “a business partner”, or in signing contracts.

Key words: business English, teaching, internal factor, external factor, content, structure, emotionality

А.Кязимова

Внутренние и внешние факторы, влияющие на пользу предмета "Деловогоанглийского языка" неспециализированных факультетах

Резюме

Встатье раскрываются факторы воздействующие на пользу предмета "Деловой английский" на неспециализированных факультетах Азербайджанских университетов.

Факторы, влияющие на пользу, подразделяются на 2 части: внутренние и внешние.

Внутренние факторы включают внимание и установку.

Внимание это единственная дверь сознания, через которую проходит все в уме. Когда мы говорим «установка» это подготовительный момент к определенному действию со стороны личности.

Внешние факторы: польза, содержание, форма, уровень сложность, структура и т.д.

Если в обучение "Делового английского" на неспециализирован ных факультетах, а также в обучение других предметов как на специализированных так и неспециализированных факультетах учителя принимают во внимание вышеуказанные факты, обучение будет более полезным для обучающих.

В обучение бизнес английскому одним из важных моментов считается контакт глаз. Упомянутое качество важно не телько между педагогом и студентом а также для тех, кто в будущем будет вести бизнес переговоры.

При обучении бизнес английскому педагог должен создать условие при котором студент будет чувствоват себя на деловой встречеб, или при подписание контрактов.

Ключевые слова: деловой английский язык, преподавание, внутренний фактор, внешний фактор, содержание, структура, эмоциональность

Redaksiyaya daxil olma tarixi: 24.06.2019
Çapa qəbul olunma tarixi: 24.09.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Şəlalə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

MƏLAHƏT ƏHMƏDOVA
SDU
1 Bakl Sumqayit 5008
malahat@mail.ru

SÖZ YARADICILIĞINDA OMONİMLƏRİN YERİ

Xülasə

Omonimlər quruluşca düzəltmə də olur. Məsələn: *«oynaq»* (bədəndə sümük) ismi ilə *«oynaq* hava» birləşməsindəki *«oynaq»* sifəti düzəltmə omonimlərdir. *«Buruq»* ismi ilə *«buruq»* sifəti *(buruq saç)* və ya iki müxtəlif mənada işlənən «vergi» ismi (gəlir üçün dövlətə ödənilən məbləğ və *«istedad»* mənalarinda) düzəltmə omonimlərdir.

Səslənməsinə görə bir-birinə oxşar olan*mətn — mətin, əmr — əmir, atlaz — atlas, əsr — əsir, şahid — şəhid, xeyr — xeyir, həyat — həyət, ahəng — əhəng* və s. kimi sözlər omonim deyil. çünki yazılışları fərqlidir. Tərkibindəki bir hərfə görə fərqlənən belə sözlər paronim adlanır. Yazılışları eyni olan, lakin vurğunun yerinə görə fərqlənən sözlər də omonim deyil. Məsələn:*alma (isim) – alma (fel) — gəlin (isim), gəlin (fel), əkin (isim) — əkin (fel), səpi'n (isim) — sə'pin (fel), qovurma (isim) — qovu'rma (fel), dondurma' ('tsim) — dondu'rma (fel), süzmə' (isim) — sü'zmə (fel), dimdik ('ısim) — di'mdik (sifət -«dik» sifətinin çoxaltma dərəcəsi)* və s. Bu cür sözlərin yazılışları eynı olsa da, tənəffüzləri bir-birindən fərqlənir. Belə sözlər omoqraf adlanır.

Dilin semantik hadisələri lüğət işləri ilə əlaqədar da şərh edilmişdir. Bizim eranın II əsrində Çin alimi Lyu Si yaratdığı "Şi min" adlı lüğətində semasiologiya məsələrinə xüsusi yer vermişdir.

Açar sözlər: semosiologiya, omonimlər, omofonlar, omoqraflar və paronimlər

Omonimlər quruluşca düzəltmə də olur. Məsələn: *«oynaq»* (bədəndə sümük) ismi ilə *«oynaq* hava» birləşməsindəki *«oynaq»* sifəti düzəltmə omonimlərdir. *«Buruq»* ismi ilə *«buruq»* sifəti *(buruq saç)* və ya iki müxtəlif mənada işlənən «vergi» ismi (gəlir üçün dövlətə ödənilən məbləğ və *«istedad»* mənalarinda) düzəltmə omonimlərdir.

Səslənməsinə görə bir-birinə oxşar olan*mətn — mətin, əmr — əmir, atlaz — atlas, əsr — əsir, şahid — şəhid, xeyr — xeyir, həyat — həyət, ahəng — əhəng* və s. kimi sözlər omonim deyil. çünki yazılışları fərqlidir. Tərkibindəki bir hərfə görə fərqlənən belə sözlər paronim adlanır. (1,36). Yazılışları eyni olan, lakin vurğunun yerinə görə fərqlənən sözlər də omonim deyil. Məsələn:*alma (isim) – alma (fel) — gəlin (isim), gəlin (fel), əkin (isim) — əkin (fel), səpi'n (isim) — sə'pin (fel), qovurma (isim) — qovu'rma (fel), dondurma' ('tsim) — dondu'rma (fel), süzmə' (isim) — sü'zmə (fel), dimdik ('ısim) — di'mdik (sifət -«dik» sifətinin çoxaltma dərəcəsi)* və s. Bu cür sözlərin yazılışları eynı olsa da, tənəffüzləri bir-birindən fərqlənir. Belə sözlər omoqraf adlanır.

Dilin semantik hadisələri lüğət işləri ilə əlaqədar da şərh edilmişdir. Bizim eranın II əsrində Çin alimi Lyu Si yaratdığı "Şi min" adlı lüğətində semasiologiya məsələrinə xüsusi yer vermişdir.

Semantika məsələlərinə dair dərin tədqiqatlar aparmış alman alimi Karl Rayziq 1820-ci ildə semasiologiyanı dilçiliyin müstəqil şöbəsi kimi ayırmış və bu şöbənin məqsəd və vəzifələrini müəyyənləşdirməyə cəhd etmişdir. Semasiologiyanın bir şöbə kimi müstəqilləşməsində fıransız dilçisi Mişel Brealın xüsusi rolu olmuşdur.(2, 55) Onun bəzi alimlər tərəfindən linqvistik se-

mantikanın atası hesab edilməsi heç də təsadüfi deyil. Mişel Brealın "Essai de Semantigue" adlı əsəri semasiologiyanın tarixində əvəzsiz əhəmiyyət kəsb edir.

Dilin semantikası olduqca çoxcəhətli və mürəkkəbdir. Bu movzu ilə təkcə dilçilik deyil, məntiq və fəlsəfə də məşğul olur. Filosoflar tədqiq etdikləri bu sahəni fəlsəfi semantika, məntiqşünaslar isə məntiqi semantika adlandırırlar.

Dildə söz və ifadənin mənası, mənanın dəyişməsi- mənanın genişlənməsi, daralması, sözün məcazi məna bildirməsi, çoxmənalılıq, omonimlik, antonimlik, və sair kimi semasioloji məsələlərin tədqiqi semasiologiya şöbəsinin mövzusunu əhatə edir.

Semasiologiyanın tərkib hissəsi olan omonimlər dünya dillərində geniş yayılmışdır. Formaca eyni, mənaca müxtəlif olan leksik vahidlər omonim sözlər adlanır.(4, 263)

Məsələn:

Ingilis dilindəki "light" sözünün bir neçə mənası vardır.

This box is very light.

My room is very light.

Birinci cümlədəki "light" sözü "yüngül" mənasını ifadə edir. Ikinci cümlədəki "light" sözü isə "işıqlı" mənasını daşıyır. "Run fast (quickly) and stand fast (firmly) ifadələri arasındakı fərq onların mənalarındadır.

Omonimlik çoxlu dildə mövcuddur, ancaq ingilis dilində birhecalı sözlər arasında xüsusilə tez-tez rast gəlinir. "Oksford ingilis dili lüğəti"də omonim siyahısında verilən 2540 omonimlərdən 89%i birhecalı sözlərin payına düşür. və yalnız, 9.1% iki hecalı sözləridir. Onların morfoloji quruluşlarının nöqteyi-nəzərindən, onlar əsasən təkmorfem sözlərdir. Omonimliyi təşkil edən sözlər həm eyni bir nitq hissəsinə, həm də ayrı-ayrı nitq hissələrinə aid ola bilər. Məsələn: "If you dust the bedroom you have to remove the dust." Verilmiş cümlədə birinci halda "dust" feildir, "təmizləmək" mənasında

nəzərdə tutulub. Ikinci halda isə "dust" isimdir və "toz" mənasındadır. Omonimlər öz zahiri cəhətinə görə çoxmənalı sözlərə bənzəyir. Çünki çoxmənalı sözlər də formaca eyni, mənaca müxtəlifdir. Lakin, daşıdığı mənalarına görə omonimlər çoxmənalı sözlərdən fərqlənir. Çoxmənalı sözlərdə mənalardan biri əsas, digərləri isə ondan törəmə olur.(5) Yəni çoxmənalılıq sözün əsas mənasının məcazlaşması yolu ilə yaranır. Omonimlərdə isə sözün mənaları arasında heç bir bağlılıq yoxdur, onlar ayrıayrı leksik vahidlərdir. Məsələn:

board, n - a long and thin piece of timber

board, n - daily meals, esp. as provided for pay, e.g. room and board

board, n - an official group of persons who direct or supervise some activity,

e.g. a board of directors.

Omonimlərin çoxmənalı sözlərdən fərqini qısaca olaraq aşağıdakı kimi qeyd

etmək olar:

1. Çoxmənalı sözlərdən fərqli olaraq, omonimlər ayrı-ayrı mənaları ifadə edir.

2. Çoxmənalı sözlərdən fərqli olaraq, omonimlər yalnız həqiqi mənada olur.

3. Çoxmənalı sözlərdən fərqli olaraq, omonimlər həm eyni, həm də ayrı-ayrı nitq hissələrinə aid olur.

Söz yaradıcılığında omonimlər müxtəlif üsullarla əmələ gəlir. Bu üsullardan biri fonetik dəyişiklikdir. Söz tarixi inkişafda dəyişikliyə məruz qalır. Belə dəyişikliklərin nəticəsində, sözlər əvvəllər fərqli şəkildə tələffüz edilsələr də tarixi inkişaf prosesində sözlərin eyni səslənməsi formalaşır.

Məsələn, müasir ingilis dilində omonim cütlüyü olan "Night" and "knight" sözləri qədim ingilis dilində omonim deyildilər, çünki ikinci sözdəki "k" samiti tələffüz edilirdi. Başqa bir misalda "to write"feili ilə "right" sifəti omonimdir, amma "to write"feilinin qədim ingilis dilində olan variantı "to writan" ilə "right" sifətinin qədim variantı "reht" yaxud "riht" sözləri arasında

fərq böyükdür. Eləcə də, sea(dəniz) isimi qədim ingilis dilində sae kimi, to see(görmək) feili isə seon kimi yazılırdı. Belə fərqi work(iş) isimi ilə to work(işləmək) feili arasında da görmək olar; bu sözlərin qədim ingilis dilindəki qarşılıqları wyrkean və weork – dir. Omonimlərin yaranma üsullarından biri də alınma sözlərdir. Alınma sözlər fonetik uyğunlaşmanın son mərhələsində dildə olan doğma sözlərlə uyğunlaşır. "rite

- to write - right" omonimik qrupunda olan sözlərdən ikinci və üçüncü söz ingilis dilinin öz mənşəyinə aiddir, amma "rite" sözü Latın mənşəlidir (Latin "ritus"). İngilis dilində bir çox dillərdən alınmış sözlər vardır. Bu sözlər zaman keçdikcə dildə formalaşaraq dildə əvvəldən mövcud olmuş sözlərlə omonimlik əmələ gətirir.

Məsələn, fransız dilindən alınmış race[reis]-(running) və müasir ingilis dilində mövcud olan race[reis] (a distinct ethnical stock) sözləri tarixi dəyişikliklər nəticəsində omonim cütlüyünə çevrilmişdir. Söz yaradıcılığının bir növü olan çevrilmə (conversion) də omonimliyin inkişafına xeyli töhfə vermişdir.Buna misal olaraq "comb" n - "comb" v; "pale" adj. - "pale" v; "make" v - "make" n omonim cütlüklərini göstərə bilərik. bu tip omonimlər müxtəlif nitq hissələrinə aid olur və leksiko-qrammatik omonimlər adlanır. Söz yaradıcılığının başqa bir növü olan qısaltmalar(shortening) da ingilis dilində omonimlərin sayını artıran amillərdən biridir.Məsələn, "fan" sözü "fanatic" [fənætik] sözünün qısa formasıdır. bu sözün ontonim qarşılığı Latın dilindən alınmış "fan" (an element for waving and produce some cool wind) sözüdür. "rep" sözü 4 omonimə malikdir:

1) rep = repertory;
2) rep = representative;
3) rep = reputation;
4) rep = repetition (in school slang smth, need to know by hard)

Dildə omonimlərin yaranmasının digər bir növü də abbreviaturalardır. Müəssisə, təşkilat və ya ölkə adının baş hərflərlə qısaldılması ingilis dilinin lüğət tərkibində artıq mövcud olan hər hansısa bir sözə uyğun ola bilər. Misal: Amerika Birləşmiş Ştatları (United States of America) qısaca olaraq US yazılır. Bu da tələffüzü zamanı us əvəzliyinə uyğundur.

Səs yamsılama ilə düzələn sözlər həmçinin başqa sözlər ilə omonim cütlərini formalaşdıra bilər: bang(n, a loud, sudden, explosive noise) – bang (n, a fringe of hair combed over the forehead). Həmçinin, mew (n, the sound the cat makes) – mew (n, a sea gull) – mew (n, a pen in which poultry is fattened) - mews (small terraced houses in Central London). Məlumdur ki, dildə ayrı-ayrı kök sözlərin omonim olması ilə yanaşı, bəzən nitq prosesində müxtəlif mənalı sözlərin eyni şəkildə səslənməsi hadisəsi də baş verir. Bu da omonimlik hesab olunur. Dilçilikdə omonimlərin fonetik omonimləromofonlar və morfoloji omonimlər- omoqraflar tipi şərh olunur. Ingilis dilində fərqli qruluşa malik olan sözlərin eyni səslənməsinin şahidi oluruq. Məsələn:

1. sea [si:] – dəniz see [si:] – görmək;
2. buy[baı] – almaq by[baı] – yanında;
3. know[nau] – bilmək now[nau] - indi;
4. I [aı] – mən, eye[aı] – göz;
5. for[fo:] – üçün, four[fo:] – dörd;
6. knight[naıt] – cəngavər night[naıt] – gecə;
7. not[not] – xeyr knot[not] – düyün ;
8. or[o:] – yaxud oar[o:] – avar ;

Bu sozlərin hərf tərkibi fərqli olsa da səslənməsi eynidir. Belə sözlər omofonlar adlanır.

The play-wright on my right thinks it right that some conventional rite should symbolize the right of every man to write as he pleases – cümləsində istifadə olnan wright, right, rite, right və write sözləri fərqli hərf tərkibinə malik olsalar da səslənməsi eynidir. Verilmiş nümunədəki

omofonlar eyni zamanda, fərqli nitq hissələrinə də aiddir. Bu cümlədə [raıt] səs kompleksi həm isim, həm sifət, həm zərf, həm də feil kimi verilmişdir və dörd fərqli hərf tərkibinə, altı fərqli mənaya malikdir. Omofonlar, eyni zamanda böyük hərflərdən istifadə etməklə də yaranır. "How much is my milk bill?"

"Excuse me, Madam, but my name is John, not Bill." Nümunənin birinci cümləsində istifadə olunmuş bill sözü hesab mənasında, ikinci cümlədə işlədilmiş Bill sözü isə ad mənasında verilmişdir. Digər tərəfdən, bütöv cümlə omofonik ola bilər: The sons raise meat – The sun's rays meet. – cümlələrini təşkil edən sözlərin hərf tərkibi fərqlidir. Amma buna baxmayaraq, hər iki cümlə eyni səs tərkibi ilə tələffüz edilir. Omoqraflar isə yazılışı eyni, tələffüzü fərqli olan sözlərdir. Omoqraflar cümlədə iki grammatik funksiya nəticəsində yaranır. Məsələn, When I graduate ['grædjueit] the University, I'll become a graduate ['grædjuit]; Don't desert [di'zə:t] me here in the desert ['dezət].

Verilən misallardan göründüyü kimi, omoqraf cütlüklərindən biri isim, biri isə feil kimi işlənmişdir. Aşağıdakı omoqraf cütlüklərə nəzər salaq:

bow [bou] – bow [bau]; lead [li:d] – lead [led]; row [rou] – row [rau];

sewer ['soue] – sewer [sjue]; tear [tie] – tear [tɛ e]; wind [wind] – wind [waind] .

Verilmiş bu nümunələrdə tələffüz fərqi olduğu kimi, məna fərqi də vardır. Əksər hallarda omoqrafların tələffüzlərindəki fərq ya onların vurğularında, ya da xüsusi nəzərə carpdırılmalarında olur. Əslində, sözün hansı hecasının vurgulu olması əsas şərtdir. İki hecalı sözlərə nəzər salsaq, görərik ki, əsasən isimlərdə birinci heca vurğulu olur, fellərdə isə vurğu ikinci hecaya duşür. Məsələn, 'contest

(n) – con'test (v). Amma elə sözlər də vardır ki, onlarda vurğu olduğu kimi qalır. Məsələn, abuse və use sözləri. Burada səs əvəzlənməsi (sound interchange) baş verir. Feil formasında [z] cingiltili, isim formasında isə kar samit [s] olur. Lakin həmişə isim və fel dəyişmələri olmur.

İngilis dilində bir sıra sözlər vardır ki, onlar müxtəlif nitq hissələrinə mənsubdurlar və komponentlərdən biri cəm şəkilçisi qəbul etsə də cütlüklər eyni cür səslənir. Məsələn, asses– asses omoqrafik cütlüyündə birinci asses–ass sözünün cəm forması, ikinci asses sözü isə Latın mənşəli olub "qəpik" mənasındadır. Read sözü də omoqrafdır, çünki feilin indiki və keçmiş zaman formalarında eyni cür yazılır, lakin hər iki zamanda səslənməsi fərqlidir. Məsələn, I want to read the sequel (conclusion) today, because I read the first book yesterday. Bunlar qramatik funksiyalı omoqraflardır və əsl omoqraflardan fərqlənir, çünki əsl omoqraflar mənaca fərqli olur, yəni onlar nitq kateqoriyalarına görə fərqlənirlər, burda isə read[ri:d] və read [red] sözlərinin tələffüzləri müxtəlif olsa da, eyni nitq hissəsidir.

Leksikologiyanın önəmli bölməsi olan omonim mövzusu bir çox alimlərin tədqiqat obyekti olmuşdur. Bu alimlərdən biri dilçi alim professor A.İ.Smirnitski olmuşdur. O, öz tədqiqatlarında bu movzunu geniş şəkildə tədqiq etmiş və omonimlərin aşağıdakı təsnifatını vermişdir. Professor A.İ.Smirnitski omonimləri iki bölmə üzrə təsnifləşdirmişdir:

a) tam omonimlər;

b) qismən omonimlər.

Tam omonimlər nitq hissələrinin eyni kateqoriyasını təmsil edən və eyni hərf sisteminə malik olan sözlərdir.

Match (n) – a game, a contest

Match (n) – a short piece of wood used for producing fire

Wren (n) – a member of the Women's Royal Naval Service

Wren (n) – a bird

Qismən omonimlər üç yarımqrupa bölünür:

a) Sadə leksiko-qrammatik qismən omonimlər eyni nitqin hissələrinə mənsub olan sözlərdir. Bele sözlər tək bir formaya malikdir, ancaq bu forma həmin omonimlər üçün eyni məna daşımır.

(to) found v
found v (past indef., past part. of to find)
(to) lay v
lay v (past indef. of to lie)
(to) bound v
bound v (past indef., past part. of to bind

b) Mürəkkəb leksiko-qrammatik qismən omonimlər müxtəlif nitq hissələrinə aid olan sözlərdir.

Rose (n)
Rose (v) (past indef. of to rise)
Maid (n)
Made (v) (past indef., past part. of to make)
Left (adj)
Left (v) (past indef., past part. of to leave)
Bean (n)
Been (v) (past part. of to be)
One (num)
Won (v) (past indef., past part. of to win)

c) Qismən leksik omonimlər yalnız müvafiq formaları ilə nitq hissələrinin eyni kateqoriyasına aid olan sözləridir.

to lie (lay, lain) v
to lie (lied, lied) v
to hang (hung, hung) v
to hang (hanged, hanged) v
to can (canned, canned)
(I) can (could)

Səslənməsinə görə bir-birinə oxşar olan mətn - mətin, əmr - əmir, atlaz - atlas, əsr - əsir, şahid - şəhid, xeyr - xeyir, həyat - həyət, ahəng - əhəng və s. kimi sözlər omonim deyil, çünki yazılışları fərqlidir. Tərkibindəki bir hərfə görə fərqlənən belə sözlər paronim adlanır. Ingilis dilində də belə sözlərə rast gəlinir. Məsələn: air –hair; arms – alms;

İngilis dilində omonimliyin inkişafı tək bir faktorla deyil, bir neçə qarşılıqlı əlaqəli faktorlarla bağlıdır. İngilis dilində omonimlərin çoxluğu, həmçinin,sözlərin fonetik eyniliyi, başqa sözlə desək, köklər arasında sərbəst formaların üstünlük təşkil etməsi kimi dilin səciyyəvi xüsusiyyəti ilə yaxından bağlıdır.

Ədəbiyyat

1. Hacıyeva A.H. “English Lexicology”, Bakı, 2011. 36 səh
2. Hacıyeva A.H. “Contrastive Lexicology”, Baku, 2010, 55 səh.
3. Смирницкий А.И. “Лексикология английского языка”. – М. – 1956.
4. Ginzburg R.S. “A Course in Modern English Lexicology.” – M – 1979, 263 səh.
5. The Concise Oxford Dictionary of Current English. Oxford 1964.

M. Ahmadova

How to make a great deal

Summary

The article deals with homonyms and their classifications. In lexical system of the English language there are the words that sound the same, but have different meaning. These words called lexical homonyms. Homonyms are words identical in pronunciation and spelling. English vocabulary is rich with homonyms and word group. The most widely accepted classification is that recognizing homonyms, homophones and homographs. When different words are spelled the same way but pronounced differently, they belong to the category of homographs. By contrast, when different words are pronounced the same way but spelled differently, we may properly call them homophones.

The classification of omonyms of English language by A. I. Smirnitsky was presented in this work. Accordingly, Professor A. I. Smirnitsky classified homonyms into two large classes: full homonyms, partial homonyms.

Full lexical homonyms are words which represent the same category of parts of speech and have the same paradigm(match – match). Partial homonyms are subdivided into three subgroups:

a). Simple lexico-grammatical partial homonyms (words which belong to the same category of parts of speech).
to found – found;
b). Complex lexico-grammatical partial homonyms (words of different categories of parts of speech which have one identical form in their paradigms).
maid – made, bean – been;
c). Partial lexical homonyms (words of the same category of parts of speech which are identical only in their corresponding forms). to can – can.
All these categories are talked in this article and based on the examples.

Key words: semantical system of language, semasiology, omonyms, omophons, omographs and paronyms

М.Ахмедова

Как улучшить свою речь

Резюме

Статья посвящена омонимам и их классификации. В лексической системе английского языка есть слова, которые звучат одинаково, но имеют совершенно разные значения. Такие слова называют лексическими омонимами.

Омонимы- это слова одинаковые и в письме, и в произношении. Словарный состав английского языка богат с омонимам , а также группами слов. В статье так же рассмотрена классификация омонимов, омофонов и омографов.

Омографы- слова одинаковые в письме, но отличающиеся в произношении. В контрастном, омофоны – слова одинаковые в произношении, но отличающиеся в письме. В работе был представлен классификация омонимов английского языка А.И.Смирницкого. В

своем классификации он рассматривает собственно омонимы, омофоны и омографы, но для более полной классификации собственно омонимов предлагает деление их на 2 больших классов: полные омонимы и частичные омонимы. Полные лексические омонимы – это слова, принадлежащие к одной части речи и имеющие одинаковые парадигмы (match – match). Частичные омонимы по А.И. Смирницкому делятся на три подгруппы:

а) простые лексико-грамматические (одна часть речи, парадигмы которой имеют одну форму): to found – found;

б) сложные лексико-грамматические (единицы, принадлежащие к разным частям речи и имеющие одинаковую форму в своих парадигмах): maid – made, bean – been;

в) лексические (слова одной части речи и одинаковые только в начальной форме): to can – can.

Все эти категории анализированы в этой статье и основаны на примерах.

Ключевые слова: Семасиология, омонимы, омофоны, омографы и паронимы

Redaksiyaya daxil olma tarixi: 21.07.2019
Çapa qəbul olunma tarixi: 01.11.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Zenfira Şahbazova tərəfindən çapa tövsiyə olunmuşdur

KÖNÜL QOCAYEVA
ZENFİRA NİFTƏLİYEVA
ADİU
H.Əliyev küç.92.Bakı.
Könül.zema.@.com.ru.

AVSTRALİYA İNGİLİSCƏSİNİN FONOSİSTEMİNİN ÖYRƏNİLMƏSİ VƏ YARANMASI TARİXİ

Xülasə

Avstraliya Avropalilar tərəfindən kəşf edilmiş axırıncı böyük torpaq sahəsidir. XVII əsrdə Avstraliya qitəsində əhalinin məskunlaşması təsdiq edildikdən sonra ingilis hökuməti bu yeni ərazini mənimsəyərək onu mühacirat yeri kimi istifadə edirdi. Qitəyə ilk köçürülən əhali 1788-ci ildə Yeni Cənubi Uels sahəllərinində məskunlaşdırılırdı. Beləliklə, ilk dəfə ingilis dili Avstraliyaya XVII əsrin axırlarında, 1788-ci ildə Yeni Cənubi Uels adlanan ştata ilk əhalinin məskunlaşması ilə gəldi.

XIX əsrin ortalarında, Avstraliyada qızıl yataqları aşkar olunduqdan sonra buraya gələn sakinlərin sayı surətlə artmağa başladı. Qızılın aşkar edilməsi Avstriyanın həm ictimai, həm də iqtisadi quruluşunda mühüm dəyişikliklərin baş verməsinə səbəb oldu. Beləliklə, XIX əsrdə Avstraliyada qızılın tapılması bura olan marağı, miqrasiyanı gücləndirdi. Burada məskunlaşan əhalinin 99,5% ingilis, 0,5% italyan, yunan, çin və s. idi.

Avropanın bir çox hissələrindən gəlmiş yeni avstraliyalılar adlanan immiqrantların hesabına əhalinin sayı xeyli artdı. Avropalılar Avstraliya qitəsinə gələndə burada yaşayan əhali naməlum dildə danışırdı. Avstraliyada ingilis dili isə əsasən XIX əsrdə formalaşmağa başladı. Yerlilərlə ingilis mənşəli immiqrantların, habelə alman, italyan, skandinav və s. mənşəli adamların qarşılıqlı ünsiyyəti nəticəsində ölkədə danışılan ingilis dilində xeyli alınma sözlər meydana çıxırdı.(1-p.211-213)

Bununla da ədəbi dilin milli variantının ilk ünsürləri formalaşmağa başladı. Bu dövrdə Avstraliyada danışılan ingilis dilinin özünəməxsus olan xüsusiyyətləri meydana çıxdı və Britaniya adalarında danışılan ingilis dilindən fərqlənməyə başladı.

Açar sözlər: dil, söz, lüğət, dialekt, slenq, tələffüz, qitə, əhali, avstraliya variantı.

Avstraliya tələffüzü haqqında ilk məlumat isə artıq avstraliyalıların ilk nəslinin böyüdüyü illərə-XIX əsrin 30-cu illərinə təsadüf edir.Mak Berni adlı kollec direktoru Avstraliyada iki cür tələffüzün olduğunu yazmışdır: yaxşı tələffüz(good speech) və "kokni." Mak Berni Viktoriya,Tasmaniya,Yeni Cənubi Uels və Kuinslend ştatlarında avstraliyalıların tələffüzünü çox diqqətlə müşaidə edərək "kokni"yə bir sıra xüsusiyyətlər aid etmişdir.

Məsələn, sözün sonunda 'g' səsinin buraxılması, "a" hərfinin demək olar ki, bəzi sözlərdə [ai] kimi tələffüz edilməsi, "o" hərfinin [ow] kimi tələffüzü, saitlər arasında "r" səsinin meydana çıxması kimi xüsusiyyətlər. Artıq Avstraliyada bəzi ingilis sözlərinin tələffüzü müəyyən qədər "Standart British English " dən fərqlənirdi.Beləliklə, XIX əsrin sonunda ingilis dilinin Avstraliya variantında onu Britaniya ingiliscəsindən fərqləndirən müəyyən tələffüz fərqləri aydın görünürdü.(2)

XVIII əsrin axırlarında Avstraliyada dil ilə əlaqədar yaranmış mürəkkəb şəraiti səciyyələndirərək tədqiqatçılar dəfələrlə ingilis dilinin avstraliya variantının " Standart English "dən fərqli olduğunu bildirirdilər.(201) Avstraliya variantının "Standart English "dən fərqli olduğunu mü-

əyyən edən amillər içərisində ən mühümü əsas dilin, yəni qitəyə daxil olan dilin müxtəlif tərkibli olmasıdır.

Dilin bu müxtəlifliyi ingilis dilinin əsas daşıyıcıları üçün xarakterik olan yerli dialekt və slenqlərin mövcudluğundan asılıdır. Bundan başqa yeni həyat tərzi və ətraf mühitdə ictimai zəruriliyin meydana gəlməsi də ən mühüm amil hesab edilməlidir.

İngilis dilinin Avstraliya variantının fərqli istiqamətdə inkişafını şərtləndirən amillərdən biri ondan ibarətdir ki, burada milli dil daha çox Britanyadan gətirilmiş ayrı-ayrı dialektlərin əsasında formalaşan bir dil idi. Avstraliyaya sürgün olunanların əksəriyyəti İngiltərənin cənubundan və İrlandiyadan idi.

Qitədə məskunlaşan əhali əsasən aşağı təbəqədən ibarət olduğuna görə burada yayılan ingilis dili A.Mitçellin fikrincə fəhlə sinfinin, yəni kasıb, yoxsul və bisavadların dili olmuşdur.

(2.p- 34) Lakin bununla bərabər, qitədə məskunlaşan əhali arasında varlı siniflərin- məmurıarin,zabitlərin,ziyalıların və s. təbəqənin də nümayəndələri az deyildi. Avstraliyaya gətirilən "Standart English " məhz onlar tərəfindən istifadə olunurdu.

Koloniyalaşmanın ilk illərindı ölkədə orta əsr-həbsxana rejimi hökm sürürdü.Avstraliyanın həmin dövrünü " jail on a large scale"- böyük türmə dövrü adlandırmışdılar.Həmin dövrdə ölkənin maddi və mənəvi vəziyyəti çox aşağı idi, milli ədəbiyyat formalaşmamışdı, əhali təbii fəlakətlərə, vəhşi heyvan və ilanlara qarşı ağır mübarizə dövrünü yaşayırdı.Bu amillər xalqın mədəniyyət və dilinə təsir etməyə bilməzdi.

XIX əsrin30-cu illərinədək ölkədə danışılan ingilis dilindən demək olar ki, heç bir mənbə yox idi.Yalnız 1812-ci ildə nəşr edilmiş Avstraliya senqlərinin lüğəti idi.Həmin dövrdə Avstraliya ləhcəsi artıq xeyli slenq və ifadələrlə zənginləşmişdir.

XIX əsrin təhsil görmüş ingilisləri Avstraliya variantının tamamilə "vulqarlaşmış"ingilis dilinə bənzər bir dil hesab edirdilər.Onlar qitədə məskunlaşan əhalinin danışıq və tələffüzünə öz mənfi münasibətlərini bildirirdilər.Bu baxımından E.C.Ueykfildin münasibəti diqqəti cəlb edir. O, yazırdı ki, "aşağı siniflərdən olan adamlar Avstraliyaya özlərinəməxsus bir dil gətirmişlər və düzgün ingilis dili bu koloniyanın dili deyildir və çətin ki olsun."(214)

Lakin 11 ildən sonra E.C.Ueykfildin fikirləri bir qədər dəyişdi.1840-ciildə özünün "Sidneydən Məktublar" adlı əsərində yazdığına görə "türmədən tutmuş qubernatorun iqamətgahınadək hər yerdə slenqlərdən geniş istifadə olunur.Əgər ölkənin qanunverici parlamenti yaranarsa, onda belə leksikon tamamilə münasib və "qanuni" şəkil ala bilər." (52) Beləlikə, İngilis dilinin Avstraliya variantının meydana çıxmasında slenqlərin əhəmiyyəti böyük olmuşdur. D. Vonun tərtib etdiyi lüğət belə slenq və arqo layını geniş təmsil etmişdir. Lakin bu lüğət əslində AUE-nin həqiqi vəziyyətini əks etmirdi. Bu lüğətdə yerli əhalinin dilindən götürülmüş sözlərə demək olar ki, rast gəlinmirdi və həmçinin Avstraliyada artıq çox geniş şəkildə istifadə edilən bədii avstralizmlər yox idi. Lüğətdə verilən bəzi leksik vahidlər XIX əsrin ortalarına qədər çox tez0tez işlədilsə belə, onlar kolonistlərin gündəlik nitqinə daxil olmadi və arqotik ifadə kimi fəaliyyət göstərməklə davam edirdi. D.Vonun bu lüğəti Avstraliyada ingilis dilinə həsr edilmiş ilk leksikoqrafik lüğət idi. Həmin lüğətdə öz əksini tapmış avstralizmlərin bir hissəsi sonralar bədii ədəbiyyata da daxil olmağa başladı. Bir çox yazıçılar bu lüğətdə verilən sözlərdən istifadə edərək öz əsərlərində o dövrün vəziyyətini, koloniyalarin yaşayışını təsvir edirdilər.

XIX əsrin axırlarınadək slenq və arqoları əks etdirən daha bir neçə lüğət nəşr olunmuşdur. Bir çox lüğətçilərin fikrincə, Avstraliya slenqləri bilavasitə Avstraliya həyat tərzini əks etdirdiyindən onları slenq yox, söz hesab etmək daha dogru olardi.

XIX əsrin 30-cu illərindən başlayaraq Avstraliyada ədəbi dilin, xüsusilə də onun yazılı formasını təsir dairəsi genişlənməyə və ölkədə dövrü mətbuat nəşr olunmağa başlandı. "Waddy" (a club). " croppy" (consict) kimi sözlər artıq koloniyaların dilindən tədricən aradan çıxaraq ədəbi dilə məxsus sözlərlə əvəz olunmağa başladı.

İngilis dilinin Avstraliya variantının formalaşmasında aborigenlərin də dilinin müəyyən təsiri olmuşdur. Aborigenlərin dilindən alınmış sözlər əsasən flora və fauna ilə əlaqədardır. Yerlilərin bir sıra sözləri miissionerlərin hesabat və jurnalları hesabına dildə normalaşmaöğa başlamışdır. Bu proses 1836-1840-cı illərdə xeyli qüvvədə olmuşdur.

Qızılın tapılması, bununla əlaqədar iqtisadiyyatın inkişafı ölkənin içərilərinə miqrasiyanı gücləndirmiş, ictimai-iqtisadi əlaqələri möhkəmləndirmiş və bütün bu proseslər ingilis dilinin Avstraliya variantinda öz əksini tapmişdir. Ölkədə inkişaf etməkdə olan təhsil, əhalinin savadlı təbəqəsinin yüksəlməsi ədəbi dilin möhkəmlənməsində böyük rol oynamışdır. Lakin bu, artıq müstəmləkəçilər tərəfindən Avstraliyaya gətirilən ədəbi dil deyildi. Bu, qitədə özünəməxsus mühitdə inkişaf etmiş ədəbi dil idi. Bu ədəbi dilin inkişaf etməsində dialektlərin və müxtəlif leksik vahidlərin böyük rolu olmuşdur.(3.p.-46)

Leksikada baş verən dəyişikliklərin iki istiqamətdə gedirdi. Bir tərəfdən sözlərin mənaları və ya sözün özü tamamilə aradan çıxırdı. Məs: woods, fields, brook, stream, inn, village, vale, dale və s. kimi sözlər demək olar ki,tez bir zamanda İngilis dilinin Avstraliya variantında istifadə olunmurdu. Digər tərəfdən isə İngilis dilində az işlənən, ya da qeyri-məlum olan sözlər Avstraliyada xüsusi əhəmiyyət kəsb edirdi və məhsuldar şəkildə istifadəyə daxil olurdu. Məs: bush, scrub, creek, township, Billabong, outbark,gully və həmçinin Avstraliyanın flora və faunasına aid yüzlərlə yeni sözlər dilə daxil olurdu: koala, kangaroo, dingo, malee, goana, kookaburra və s .

İngilis dilinin Avstraliya variantında istifadə edilən bəzi leksik vahidlərdən bir çox sözlər yaranmişdır. Yəni bu leksik vahidlər sözdüzəltmə meyarı idi.Məs: "stock" sözündən çoxlu sayda sözlər əmələ gəlmişdir: stock- farm, stockrider,stockman,stockroute və s. Bu sözlərdən "stockroute" Avstraliya variantında qara malın kəsilmək üçün otlaq rayonlardan aparıldığı marşrutu bildirir.

Lakin belə şərait İngiltərə üçün yad olduğuna görə və İngiltərənin tamamilə başqa coğrafi və sosial şəraitə malik olmasına görə söz İngiltərədə öz ilkin mənasında işlədilirdi. Avstraliya variantının formalaşmasında bir sıra müxtəlif üsullar, məsələn yeni əşya və ya hadisəni ifadə edən mürəkkəb söz düzəltmək kimi üsullardan istifadə edilirdi. O dövrdə yaranmış leksik vahidlər əsasən kənd təsərrüfatı, coğrafi hadisə və obyeklərin adları ilə əlaqədardır. Bu sahələrdə istifadə olunan sözlərin əksəriyyəti Britaniya ingiliscəsində mövcud deyil, ya da çox nadir hallarda istifadə edilir. Məs: carcker, dee, pug, soak və s.

İngilis dilinin Avtraliya variantının inkişafının digər bir mənbəsi Amerika ingiliscəsindən alınmalar olmuşdur. Onlari əsasən 2 qrupa bölmək olar:

1)1850-ci ilədək alınma sözlər

2) Qızıl tapıldıqdan sonrakı dövrə aid alınma sözlər.

İngilis dilinin Amerika Variantından alinmış birinci qrup sözlər, əsasən. əhalinin seyrək yaşadığı məskənlərin quruluşuna aiddir.Məs: block, location, section və.s İkinci qrup qeyd etdiyimiz kimi qızıl tapıldıqdan sonrakı dövrə aid sözlərdir. Məs: "bushranger, landshark" və s. Bu qrupa daxil olan sözlərin əksəriyyıti mədən sənayesinə aiddir.(4.-p.315)

Avstraliya ingiliscəsinin inkişafında əlamətdar hadisələrdən biri kimi 1898-ci ildə nəşr olunmuş İngilis dilinin Avstraliya variantının leksikoqrafiyasını əks etdirən E.Morrisin və D.Leykanın lüğətləri olmuşdur. Öz zənginliyi ilə bu leksikoqrafik materiallar ingilis dilinin Avstraliya variantının inkişafında böyük rol oynamışdır.

Beləliklə, ingilis dilinin Avstraliya variantının inkişafında aşağıdakı cəhətləri aydın görmək olar:- Ingilis dilinin Britaniya variantı ilə XVIII əsrin sonunda Avstraliyaya gətirilən ingilis dili arasında fərqli xüsusiyyətlərin yaranması Avstraliyanın özünəməxsus etnoqrafik və ictimai şəraiti ilə, məskunlaşma dövrünün tarixi xüsusiyyətləri ilə sıx bağlı olmuşdur.p.41-43.

İlkin dövrdə Avstraliya variantının meydana çıxmasında linqvistik amillərlə sıx qarşılıqlı əlaqədə olmuş təbii amillərin böyük rolu olmuşdur. Avstraliya variantının formalaşmasında Böyük Britaniyadan gətirilmiş dialektlər, aborigenlərin dillərinin təsiri, həmçinin qeyri-ingilis immiqrantların dilləri böyük əhəmiyyət kəsb etmişdir.

Ədəbiyyat:

1.Ramson W. *Australian English.* Canberra: 1966.p.211-213.
2.Michel A, and Delbridge A. *The Pronunciation of English in Australia.*Sydney: 1965.p.34.
3.Turner G. *The English Language in Australia and New Zealand.* London: 1966.p.-46.
4. Morris E.E. *Australian English. A Dictionary of Australian Words, Phrases and Usages.* London: 1898.p.-315.
5. Lake D. *A Dictionary of Australian Words.* Springfield: 1898.p.41-43.

K.Godjaeva,
Z.Niftalieva

The history of the study and creation ofAustralian phonosysthems English

Summary

English language firstly arrived in Australia at the end of XVIII when the first English colonists settled in this continent. English language in Australia mainly started to develop in XIX century and differed from the English language spoken in British islands in specific features. Local dialects, slangs played an important role in the development of Australian variant of the English language. Settlers of Australia used many dialects and slangs in their speech. As the English language spoken in this continent was considered to be the language of poor and illiterate people, it considerably differed from " Standart English ". Aboriginal language, as well,as borrowings form American English had a deficite influence on the development of Australian English. Many factors such as geographical, social, economical, ect. had a great influence on the formation of Australian words in Australian English. The necessity of calling things and events that had not existed before in the initial stage of colonization in Australia led to the emergence of a lot of new lexemes.

Words in the lexicon of Australian English are mainly related to the names of cities,flora and fauna, agriculture,and the geographic environment of the country. The history study of Australian English shows that the main distinguishing aspect of this variant is in the field of lexicography.

Key words: language,word,dictionary, dialect,sleng, pronunciation,continent, population, Australian variant

К.Годжаева,
З.Нифталиева

История создания и изучение фоносистема австралийского варианта английского языка

Резюме

Впервые английский язык в Австралию прищел в конце восемнадцатого века с поселением первых английских колонистов. В основном английский язык в Австралии

начал формироватъся в девятнадцатом веке и отличался своей особенносотъю от английского языка Британских островов.

Сленги и местные диалекты имели важное значение в формировании австралийского варианта английского языка. Население нижнего уровня, которое поселилосъ в Австралии, использовало в своей речи много диалектов и жаргонов. В соответствии с этим, английский язык, распространенный на континенте, считался языком бедных и неграмотных и резко отличался от стардартного английского языка.

Язык аборигенов, слова, заимствованные из американского английского языка имели определенный эффект в формировании австралийского варианта. Географические, социалъные, экономические и другие факторы играли важную ролъ в появлении австралийских слов. Необходимостъ наименований предметов и собыеий, ранее не существовавших в первом периоде колониализма в Австралии, привело к появлению множества новых лексем. Слова, составляющие лексику авсралийского варианта английского языка, связаны с названиями городов,флоры и фауны, селъского хозяйства,а также географической среды. Историческое исследование австралийского английского показывает, что его основное различие проявляется в области дексики.

Ключеевые слова: язык, слово, словаръ, диалект,сленг,произношение, континент, население,австралийскии вариант.

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 25.10.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Adilə Zeynalova tərəfindən çapa tövsiyə olunmuşdur

MƏLAHƏT ABDULLAYEVA
ADİU
H.Əliyev 92.Bakı.
malahat@mail.ru

MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİİLLƏRİNDƏ ZAMAN KATEQORİYASININ MƏNASI İLƏ ƏLAQƏLI OLAN TEMPORAL LEKSİKA

X Ü L A S Ə

Felin zaman kateqoriyasının mənası ilə əlaqəli olan temporal leksika tərtib etibarilə qeyri-yekcinslik nümayiş etdirir. Bu, onların müxtəli zaman çalarları ilə müəyyənləşir. Burada üç sıranı fərqləndirmək olar:

l. Indiki zaman sferasına aid temporal leksika
2. Keçmiş zaman sferasına aid temporal leksika
3.Gələcək zaman sferasına aid temporal leksika

İndiki zaman sferasına aid temporal leksika

1.İndiki zaman sferasına aid temporal leksika üçün invariant əlamət hərəkətin nitq moment ilə eynizamanlılıq mənasıdır.Zaman kəsiyini əhatə etməyindən asılı olaraq bu leksik vahidlər müəyyən yarımqruplara bölünə bilər.Məsələn,

Azərbaycan dilində:**İndi** özün görürsən ki, necə ağ yalan olur. **Hazirda** Şirazda ailəsi ilə yaşayır. Həsən keçmişin əsgəri idisə, Sevindik **hazırda** ordudadır. **Hazırda** isə 60 ailə ilə birlikdə reabilitasiya kursu keçir.

İngilis dilində: So true are these avowals at the present day, that İ can now only take the reader into the confidence more. But I bear those monotonous walls no ill-will now. Just go on with what you are doing now. I leave your house today, I cease to be your ward today.

Açar sözlər:indi,indiki vaxtda,hazırda,hazırkı vaxtda, ,bu gün və s.

2.Indiki zaman sferasına aid sözlərin bəziləri keçmiş zaman kəsiyini əhatə etməklə nitq momentilə əlaqəlilik ifadə edə bilir. Müq. et-

Darkeş, uzun qapıdan indiyədək nə qədər adam girmiş, geri qayıtmamışdı. Özünü biləndən indiyədək, heç vaxt heç kəsə boyun əyməyən Zümrüd bu dəqiqələrdə bəzəkli gəlin otağında oturub, boynunu burub taleyinin əmrini gözləyir. Düz yüz manat indiyədək zərərim var. Axı hələ indiyə kimi onun bir sözünü iki eləyən olmayıb. Bütün bu səfərlər hələ ki, birinin- ruhların imkanları ilə baş tutur. Until now this personage had escaped the observation of the travelers. Always in sublime carelessness had he lived, till now, and now it seemed to him that they had always reahed out and dragged at him with vile hands.

Göründüyü kimi, bu temporal leksemlərin semantic strukturunda öncəgəlmə seması intişar tapır.

3. İndiki zaman sferasına aid sözlər nitq moment ilə əlaqəlilik nümayiş etdirməklə eyni zamanda gələcəyə yönümlük göstərir. Belə sözlər sonragəlmə məna çaları daşıyır.

Keçmiş zaman sferasına aid temperal leksika

Keçmiş zaman sferasına aid temporal leksikanı hərəkətin nitq momentindən öncəgəlmə kimi invariant məna əlaməti birləşdirir.

Azərbaycan dilində-keçmiş, dünən, srağagün, bir zamanlar, bir vaxtlar, bir gün, onda, qədimdə, qədim zamanlarda, Nuh əyyamında, dədə-babadan və s.

İngilis dilində- past, yester-morning, yester-evening, yestreen, yesterdat, yester-night, yester-year, the other day, in the day of old, the good old days, from time immemorial, since Adam was a boy, time out of mind.

Hər iki dildə keçmiş zaman sferasına aid olan temporal leksika keçmişdə qeyri-müəyyən zaman, ən yaxın keçmiş. yaxın keçmiş və s. məna çalarlarını ifadə etməyə xidmət edir.

Bu yaxında Bolqarıstandan qayıtmışıq. Yaxınlarda Bakıya getmişdi, evlərinə, ata-anasına baş çəkib gəlmişdi. Onda Sənubərin xırdası olmamışdı qutabsatana versin, qutabsatan da Sənubərin manatlığını xırdalamırdı, xırdası yox idi. Dünən səhər yeməkxanada oturub ertə çörəyini yeyəndə Güləndam nənə Cavanşirdən soruşdu. Səhəri gün məktəbdə uşaqlar ona dedi ki, İzrail Solomonoviç dünən birinci dərsdə size görübmüş- səni də, Vovanı dabildi ki, dərsdən qaçıbmışsınız. Bibim deyir ki, dünən səhərin ala- toranında gördüm ki, camış nəsə yeyir. Ay ruzigar bacı , vallah, qədimdə də qız seçənlər qəribə şeylərə fikir verərmişlər ey.

You heard me say yesterday that İ proposed to live by my wits. Time out of mind strength and courage have been the theme of bards. Politicians are promoting their interests and since time immemorial they have used onscience as a device.

Gələcək zaman sferasına aid temporal leksika.

Gələcək zaman sferasına aid temporal leksika nitq momentindən sonragəlmə semantic invariant əlaməti ilə fərqləndirilir.**Azərbaycan dilində**- sabah, səhər, fələcək. gələcəkdə, gec-tez, yaxında, yaxınlarda, onda, bir vaxt. bir gün, günlərin bir günü və s**. İngilis dilində**- tomorrow, morrow, future, hereafter, hereupon, next, oncoming, for the moment, one of these days, in the future, erly or late, soon or late

Qeyd etdiyimiz temporal leksika gələcək zaman sferasında hərəkəti müxtəlif müddətli zaman kəsikləri etibarilə səciyyələndirir. Məsələn, nitq momentinə və ya uzaq gələcək, ümumi gələcək bildirir. Nümunələr- O heç ağlına gətirə bilməzdi ki, bir vaxt gələcək və bu qutab alan qız onun ilk məhəbbəti olacaq. Bir zaman Tolikin oğlunun oğlu da heç avar çəkməyəcək və bəlkə o, heç mənim adımı da bilməyəcək. İşğal edilmiş rayonlarımız yaxın vaxtda azad ediləcək. Baləmi indi kəndə gedəcək, hər halda yaxın zamanda oğlunun itdiyindən duyuq düşəcək, axtarıb gec-tez meyidi tapacaqlar. Könlünün nəvazişini, istisini insanlarla bölüşəcək, mehribanlığıyla sevindirəcək, etinasızlığıyla qüssələndirəcəkdir və haçansa məclisin şirin yerində bir neçə dəqiqə qonaqlardan, rəqslərdən, tostlardan, komplimentlərdən ayrılacaq, televizora qapılacaq, verilişə baxacaqdır.

My poor friend, one of these days you will be so dreadfully sorry you said this to me. İt is bad enough going you rent, but İ will be paying, you will see, one of these fine days, just when you have given me up. You will have to tell him sooner or later.

Felin zaman katigoriyasının mənası ilə əlaqəli olmayan temporal leksika

Felin zaman formalarının mənası ilə əlaqəli olmayan temporal leksika felin zaman formalarına münasibətdə neytrallıq nübayiş etdirir və obyektivlik baxımından bir hərəkəti digər bir hərəkətlə əlaqələndirir. Temporal leksikaya belə yanaşma nəticəsində aşağıdakı yarımqruplar fərqləndirilir

1.Hərəkəti eynizamanlılığa görə əlaqələndirən leksik vahidlər
2. Hərəkəti ardıcıllığa görə əlaqələndirən leksik vahidlər
3.Müddət və təkrarlılıq mənalı leksik bahidlər

Hərəkəti eynizamanlılığa görə əlaqələndirən leksik vahidlər

Birinci yarımqrupa daxil olan temporal leksikanın semantic strukturunda hər hansı bir hərəkətlə eynizamanlılıq əlaməti seçilir. Azərbaycan dilində bu növ leksik vahidlərə *hərdən, dərhal, həmin vaxt* və s. daxildir.

Yaşmağını yuxarı qaldırdı, baş örtüsünü üst tərəfdən alnına çəkdi və həyətdəki balaca dükana bənzər bir şey var idi, qapısını açdı, **dərhal** geri qayıtdı. Abdulla **birdən** on beş qoyununu bazaar sürüb satıb, voyenkom Talıbovun köməyilə hərbi xəstəxanadan çıxarıb gətirmişdi. Sütül ləkəsini elə **həmin vaxt** sulanan qora ilə yumaq, təmizləmək olardı.

İngilis dilində isə bu yarımqrupa immediately, simultaneously, at the same time kimi sözləri daxil etmək olar. the men had been paid off in Australia, and Martin had immediately shipped on a deep water vessel for San Francisco. At the same time, however he caused a strict watch to be maintained on all their movements. İt was remarked that the clock began to strike, and İ began to cry simultaneously.

Hərəkəti eynizamanlılığa görə səciyyələndirən leksik vahidlər bir və ya bir neçə subyekt tərəfindən icra edilən hərəkətlərin eynizamanlılığını ifadə edə bilər. Məsələn

Ona görə belə köntöy-köntöy cavab verdi, **eyni zamanda** hioss etdi ki gicgahlarındakı damarlar şişməyə, əlləri əsməyə başlayır. Bu giziltidən qolları, qılçaları gərildi, **birdən** süstləşib boşaldı. Qabaq ayaqlarının üstündə, xəzəli xışıldada-xışıldada meyidin bərabərinə qədər süründü, onu imsilədi. birdən dik atılıb geri sıçradı. Salatın anasını öz günüsünün başını sinəsinə sıxıb hönkürtü ilə ağladığını gördü, yalnız **bu vaxt** Mələk bayaqdan güclə saxladığı göz yaşlarını axıtmağa başladı.

Hərəkəti ardıcıllığa görə əlaqələndirən leksik vahidlər

İkinci yarımqrupa daxil olan temporal leksikanın semantic strukturunda ardıcıllıq, sonragəlmə semantik əlaməti ilə seçilir. Azərbaycan dilində **birdən, onda, ardınca, sonra, sonralar** və s. sözlər bu qrupdan sayıla bilər. İnqilis dilində isə buraya *shortly,directly, straiqhtway, soon, subsequentiy,then tipli* sözlər daxildir. Bu növ leksik vahidlərin islədiyi kontekslərdə bir hərəkət ardıcıllığa görə a. dərhal,heç bir zaman müddəti,fasiləsi ol..madan və ya b.fasilə,ara,müddət ilə digərindən sonra baş verir.

Müq. et. **Birdən** *kimsə onun qolundan dartdı.S.Əhmədli.*

Söhbətin elə bir nöqtəsi yetişdi ki,Zəlimxan daha dözə bilməyib birdən ayağ saxladı.

zaman,hərvaxt,daim,daima,daimi,fasiləsiz,davamlı,əbədəlik,həmişəlik,birdən,gəfildən,gəfil,ani,

dərhal tipli sözlər bu yarimgurupa aiddir.

Hərəkətintəkrariılığını leksik vahidlər .Təkrarlığ özü iki formada baş verə bilir.

1.Ardıcıl,müntəzəm təkrarlılıg ifadə edən leksik vahidlər, ardıcıl,mütəmadi ,dövri,periodik,dəgigəbədəgigə saatbasaat,günbəgün,həftəbəhəftə,ilbəil,illik,adətən.

2. Qeyri ardıcıllığ ,qeyri –regulyar ,təkbir,ara –sıra təkrarlıg ifadə edən leksik vahidlər .**Azərbaycan dilində-***Təkbir halda,nadir halda ,ara –sıra,bəzən.***İngilis dilində**-sveldom,rear,rearely,sometimes.

Zaman və tərz mənalarina malik vahidlər əksər hallarda felin bütün zaman formaları ilə əlagəli işlənilirlər. Hərəkətin zaman

müddətinin uzunluğunu ifadə edən leksik vasitələr onu kəmiyyət tərəfindən səciyyələndirir.**Məsələn**,Hətta **günlərlə** zənənə üçün açılan hamamı da nəzarət altında saxladı.

Ardıcıllğ,müntəzəmlik ifadə edən temporal leksik vahidlər müxtəlif fel zamanları ilə işlənə bilmək imkanlarına malikdir.Qeyri-müntəzimlik ifadə edən temporal leksik vahidlərAzərbaycan dilində -di şəkilçisi keçmiş zaman formaları ilə birbaşa işlənmir.Əldə olan nümunələrin əksəriyyətində onların işlənməsi zaman və sıra kategoriyalarının təzahür etdiyi formalarda müşahidə olunur.Beləliklə,felin zaman formaları ilə əlagə yaratmag baxımından temporal leksikanın semantic təsnifatı dilin müxtəlif səviyyələrinə aid vahidlərin kommynikasiya prosesində garşılıglı münasibətlərini öyrənmək cəhətdən əhəmiyyət kəsb edir .

TEMPORAL LEKSİKANIN SEMANTİK FUNKSİYALARI:

Zaman dilin müxtəlif səviyyələrinə aid olan faktlarında əks olunur .Dilin her bir səviyyəsinə aid müxtəlif ifadə vasitələri pərakəndə,onlar qarşılıqlı əlaqəli və biri-birindən asılı vasitələrin sistemini təşkil edir.Temporallığın ifadə vasitələri arasında sistemli münasibətlərin mövcud olması ona dilin müxtəlif səviyyeli ifadə vasitələrinin sistemi olaraq funksional-semantik sahə kimi yanaşmağı mümkün edir və həmin ifadə vasitələri burada özlərinin semantik funksiyalarının ümumiliyi və qarşılıqlı əlaqəsi əsasında birləşir.Semantik funksiyaların ümumiliyi dedikdə, müxtəlif dil vasitələri ilə ifadə olunmuş semantik elemetlərin müəyyən semantik zonaya aidliyi başa düşülür.Ən ümumi semantik əlamət həmin zona üçün invariant adlanir.Buda semantik əlamətlərin əmələ qətirdiyi iyerarxiya pilləsinin zirvəsidə dayanır.

Ədəbiyyat

1 Qurbanov Afad "Ümumi dilçilik" Bakı,"Maarif nəşriyyatı,1977,294 s.

2.Rəcəbli Əbülfəz "Dilçilik tarixi" (ali məktəblərin filologiya fakültələri üçün dərslik) Bakı,"Maarif" nəşriyyatı, 1988,537 s. 3.Yusifov Mübariz "Tipologiya" Bakı, «Elm və təshil», 2017, 184 s. 5.Rəcəbli Əbülfəz "Sosiolinqvistika",Bakı,"Nurlan" 2004,52s.

M.Abdullaeva

Process of integration in the syntax of texts lexic temp of Azerbaijan
and english fiction

Summary

The article is devoted to the role of language functions in the integration and integrity of the text. The processes of integration in the syntax of the texts of Azerbaijani and English fiction are considered. This problem is relevant for linguistics, since the last decades have been marked by the rapid development of text linguistics, whose task is to examine the text from the point of view of its semantic and ideological and artistic unity, identify the principles of organization and use of text speech means, study the functional and stylistic originality of linguistic phenomena in various texts.

The study of this topic is relevant, since the problems of text integration are directly related to the organization of coherent speech, providing the communicative function of the language. Thus, the relevance of this study is due to the increasing interest of linguists in the study of the text and its categories; the theoretical and practical necessity of defining text-forming units; insufficient development of the problem of text integration tools. The analysis is made in line with the structural-semantic and functional areas of communicative linguistics and text linguistics.

Key words- present, now presently, current, currently, today,tonight.

М.Абдуллаева

Процессы интеграции в синтаксисе текстов темпоральной лексикой в категории времени глаголов художественной литературы

Резюме

Статья посвящена роли языковых функций в интервации и целостности текста. Рассматриваются процессы интеграции в синтаксисе текстов азербаиджанской и английской художественной литературы. Данная проблема актуальна для языкознания, поскольку последние десятилетия знаменуются стремительным развитием лингвистики текста, в задачу которой входит рассмотрение текста с точки зрения его смыслового и идейно-художественного единства, выявление принципов организации и использования речевых средств текста, изучение функцианально-стилистического своеобразия языковых явлений в различных текстах.

Исследование настоящей темы является актуальным, так как проблемы интеграции текста непосредственно связаны с вопросами организации связной речи, обеспечивающей коммуникативную функцию языка. Таким образом, актуальность настоящего исследования обусловлена возрастающим интересом лингвистов к изучению текста и его категорий; теоретической и практической необходимостью определения текстообразующих единиц; недостаточной разработкой проблемы средств интеграции текста. Анализ выполнен в русле структурно-семантического и функционального направлений коммуникативной лингвистики и лингвистики текста.

Ключевые слова: сейчас,ностояшее время, данное время,сегодня

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Adilə Zeynalova tərəfindən
çapa tövsiyə olunmuşdur

ESMİİRA MƏMMƏDOVA
ADİU
H.Əliyev 92.Bakı.
esmira.@.mail.ru.

İNGİLİS DİLİ FRAZEOLOGİZMLƏRİNİN BAŞQA NÖV SƏRBƏST SÖZ BİRLƏŞMƏLƏRİNDƏN FƏRQLİ VƏ OXŞAR CƏHƏTLƏRİ,DİLÇİ ALİM VƏ TƏDQİQATÇILARIN FİKİR VƏ MÜLAHİZƏLƏRİ

XÜLASƏ

Hər bir dil mürəkkəb frazeoloji sistemə malikdir. Frazeoloji vahidlərin komponentlərinin bir-birinə qovuşma dərəcəsi olduqca müxtəlifdir.Ona görə də dilçilikdə frazeolji vahidlərin təsnifi müxtəlif istiqamətlərdə aparılır. İlk öncə apardığımız araşdırmada qeyd edə bilərik ki, Isveçrə dilçisi, "Frazeologiya nəzəriyyəsi"nin banisi Şarl Ballinin frazeoloji vahidlərə verdiyi təsnifatfrazeologiyanın inkişafına böyük təsir göstərmişdir. O, söz birləşmələrinə dair ilk əsəri olan "Üslubiyyatın xülasəsi"kitabında söz birləşmələrinin ilk təsnifatını vermişdir. İkinci kitabı "Fransız üslubiyyatı" əsərində Ş.Balli fransız dilində frazeologiyanın ənənəyə görə işlədilməsini qeyd edərək yazır ki, dildə bir sıra sözlər başqa sözlərə nisbətən bir-biri ilə daha six bağlılığa meyl edir. O, söz birləşmələrini dörd qrupa bölmüşdür: 1)sərbəst söz birləşmələri, 2)adi birləşmələr, 3)frazeoloji qrup, 4)frazeoloji birləşmələr.(1-s.359)

1. Sərbəst söz birləşmələri – bu cür birləşmələrin hər bir üzvi ayrılıqda olduğu kimi birləşmə daxilində də öz müsətqilliyini saxlayır və parçalana bilir.

2. Adi birləşmələr - bu söz birləşmələrinin tərkibindəki sözlər qismən müstəqildir. Adi birləşmələrin tərkibində bəzi dəyişikliklər etmək mümkündür.

3. Frazeoloji qrup - bu söz birləşmələri nisbi müstəqilliyini saxlayan sözlərin köməyi ilə düzəlir. Frazeoloji qruplarda komponentlərin yenidən qruplaşdırılması mümkündür. Onun komponentlərinin qismən başqa sözlə əvəz edilməsinə yol verilir.

4. Frazeoloji birləşmələr - elementləri tamamilə bir-biri ilə six əlaqədə olan birləşmələrdir. Bu cür söz birləşmələrinin tərkibindəki sözlər öz mənalarını itirərək birlikdə ümumi bir məna ifadə edir.

Açar sözlər: komponent, frazeoloji birləşmə, təsnifat, məcazi məna, lüğəvi tərkib

Beləliklə, Ş. Balli söz birləşmələrini onların sabitlik dərəcəsinə görə müqayisə etmişdir. O, söz birləşmələrini sxematik olaraq bu qruplara bölmüş, lakin onların geniş şərhini verməmişdir. Ş.Balli özünün "Fransız dilinin üslubiyyatı" kitabında adi söz birləşmələrini və frazeoloji qrupu "ara tip" kimi adlandırmışdır. O, belə ifadələrə feli birləşmələri misal göstərmişdir. Sonradan o, söz birləşmələrinin yalnız iki qrupunu qeyd etmişdir: 1) sərbəst söz birləşmələri, 2) frazeoloji birləşmələr.

Qeyd etmək lazımdır ki, Ş.Balli "frazeoloji birləşmə" adı ilə nəzərdə tutuduğu semantik qrupdan olan frazeoloji vahidlərin xarici cəhətinin xüsusiyyətindən bəhs edərkən bunlarda üç əlamətin olduğunu göstərmişdir:

1. Onların tərkibindəki sözlər ayrı yazılılır.

2. Bu birləşmələrin tərkibindəki sözlər sabit sırada olur və onların komponentləri arasına başqa söz daxil etmək qeyri-mümkündür.

3. Bu tip birləşmələrin komponentlərindən heç birini başqa sözlə əvəz etmək mümkün deyil.

Akademik V. V. Vinogradov rus dilinin materialı əsasında frazeoloji vahidləri "frazeoloji birikmələr", "frazeoloji bitişmələr" və "frazeoloji birləşmələr" adı ilə üç semantik qrupa bölmüşdür. Bunların hər birinin özünəməxsus əlamətini göstərir. O, frazeoloji birikmələrdən bəhs edərkən yazırdı ki, bunların ümumi mənası ilə komponentlərinin mənası arasında heç bir yaxınlıq, əlaqə, hətta potensial əlaqə belə yoxdur. Bunların tərkib hissələri dildəki bir və ya digər sözlə eyni səs tərkibinə malik olsa da, bu cür qarşılıqlı əlaqə omonimlikdən başqa bir şey deyildir.(2-s.139-142)

Frazeoloji bitişmə sözün potensial ekvivalentidir. Bu cəhətdən bunlar frazeoloji birikməyə yaxınlaşır, lakin öz məna quruluşlarının mürəkkəbliyi, komponentlərinin məna əlaqəsinin potensial şəkildə mövcüd olması ilə frazeoloji birikmələrdən fərqlənir. Frazeoloji bitişmə xarici səs forması ilə sərbəst söz birləşməsinə uyğun gəir. Frazeoloji birləşmədə sərbəst mənada olmayan sözlərin sinonimlərlə əvəz edilməsi mümkündür.

V. V. Vinoqradov bu bölgüsündə "frazeoloji birləşmə" adlandırdığı qrup ilk baxışdan Ş. Ballinin təsnifatındakı "frazeoloji qrup" və ya "adi birləşmələr"ə oxşayır.Əslində isə bunlar birbirindən kəskin sürətdə fərqlənir. Belə ki, V. V. Vinoqradovun bölgüsündə frazeoloji birləşmədə komponentlərdən biri ancaq məhdud sözlərlə frazeoloji cəhətdən "bağlı məna" daşıyır. Ş. Ballinin təsnifatında isə, özünün qeyd etdiyi kimi "birləşmə parçalandıqdan sonra sözlər öz mənalarını saxlayır".

Qeyd etmək olar ki, İngilis dilinin frazeologizmləri aşağıdakı kimi təsnif olunmuşdur:

Tərkibindəki sözlərin müstəqil mənalarını tamamilə itirməsi nəticəsində əmələ gələn sabit söz birləşmələrinə frazeolji birikmələr deyilir. Dilçilikdə bu tip sabit söz birləşmələri idiomlar da adlandırılır. Bu söz birləşmələrin əsas əlaməti onların semantik cəhətdən bütövlüyüdür. Dildə xüsusi səciyyə daşıyan bu birləşmələr onun frazeologiyasının əsasını təşkil edir. Frzaeoloji birikmələrə aşağıdakı söz birləşmələrini misal göstərmək olar:

Kick the bucket "ölmək"; send smb. to conventry "bir kəsi baykot etmək", "bir kəslə əlaqəni kəsmək"; at bay "çıxılmaz vəziyyət"; be at somembody's beck and call "qulluğunda həmişə hazır olmaq" = "əmrə hazır olmaq"; to be all thumbs "yöndəmsiz", "yaraşıqsız"; to rain cats and dogs "şıdırığı-güclü yağış yağmaq"; kilkenny cats "qatı düşmənlər"və s.

Frazeoloji birikmələr onları təşkil edən komponentlərinin məcazi mənaları əsasında əmələ gəlir. Bu cür birləşmələrin bədiilik xüsusiyyətləri yalnız tarixi-nöqteyi nəzərdən açıqlanır. Məsələn: "bay" sözünün mənası "tupik" (şimal dəniz quşu), "beck" sözünün mənası isə "qollarını çırpmaq"-dır. Bu sözlər arxaizmlərdir və yalnız yuxarıda göstərdiyimiz frazeologizmin tərkibində işlənir. Və yaxud digər bir misala baxaq."to be all thumbs" frazeologizmi "one's fingers all thumbs" frazeologizminin əsasında əmələ gəlmişdir. "Kilkenny cats" frazeologizmi bir əfsanədən götürülmüşdür. Əfsanəyə görə Kilkenny və Irishtown arasında XVIII əsrdə müharibə olub və bumüharibə hər iki şəhərin dağılması ilə nəticələnib."Send smb. to Conventry" frazeologizmi Klarendonun "The history of the Great Rebellion and Civil Wars in England" kitabında götürülmüşdür. İngilis inqilabı dövründə Konventri şəhərində bir həbsxana yerləşirdi ki, orada yalnız güclü monarxlar saxlanılırdı. Göstərdiyimiz bu frazeologizm də bununla əlaqədar olaraq yaranmışdır.

Beləliklə frazeoloji birikmələrdə həqiqi məna ilə məcazi məna arasındakı əlaqə itir və məcazi məna onlar üçün ön plana keçir.

Frazeoloji birikmələrin aşağıdakı xüsusiyyətləri var:

1. Frazeoloji birikmələrin komponentləri sırasına arxaizmlər də daxil ola bilər.
2. Bu tip birləşmələri sintaktik cəhətdən parçalanmaq mümkün deyildir.
3. Onların komponentlərinin yerlərini dəyişdirmək əksər hallarda qeyri-mümkündür.
4. Bu birləşmələrin tərkibinə söz daxil ola bilmir.

5. Frazeoloji birikmələrin tərkibindəki sözlər öz leksik mənalarını itirərək onların komponentlərinə çevrilir və ümumi bir mənanı ifadə edir. Məsələn: "kick the bucket" – "to die"; "send smb to Conventry" – "to ignore".

Frazeoloji bitişmə.

To spill the beans "sirr vermək"; to burn bridges "körpüləri yandırmaq"; to throw dust into smb's eyes "bir kəsin başını aldatmaq"; to point the devil blacker than he is "şişirtmək"; to put a spoke in somebody'swhell "bir kəsə mane olmaq", "əngəl törətmək"; to hold one's cards close one's chest "bir şeyi sirr olaraq saxlamaq", "ağzını bərk tutmaq", "susmaq"; to be narrow in the shoulders "zarafatbaşadüşməyən"; to gild refined gold "boş yerə çalışmaq"; to stick like a leech "zəli kimi yapışmaq"; broad shoulders "enli kürək"; more or less "qismən", "müəyyən dərəcədə"; out of the frying pan into the fire "yağışdan çıxıb yağmura düşmək".(3-s.45-49)

Frazeoloji bitişmələr omonim ola bilər, yəni onlar həm həqiqi, həm də məcazi məna ifadə edə bilərlər. Məsələn: It was very tiresome as I had to swim against the currentcümləsinin tərcümsibeləolacaq:Axinin əksinə üzmək çox yorucu idi. Bu cümlədə"to swim against the current" birləşməsi "axinin əksinə üzmək" mənasını verir. Bu birləşmənin məcazi mənası isə "bir kəsə qarşı çıxmaq (getmək)", "bir kəsin əksinə

getmək"dir.

Frazeoloji bitişmələrin də özünəməxsus xüsusiyyətləri var. Bunlar aşağıdakılardır:

1. Bu birləşmələr yüksək bədiilik xüsusiyyətlərinə malikdir və onlar mövcud olan digər sabit söz birləşmələrinə mənaca uyğun gəlir. Məsələn: to throw dust into smb's eyes, to be narrow in the shoulders, to burn one's fingers, to burn bridges.

2. Frazeoloji bitişmələr komponentlərinin semantik xüsusiyyətlərini qoruyub saxlayır. Məsələn: to put a smoke in smb's wheel.

3. Onlarda emosionallıq və ifadəlilik həlledici rol oynayır. Məsələn: to throwdust into smb's eyes, to point the devil blacker than he is.

4. Bu tip birləşmələrin komponentlərinin yerini dəyişmək qeyrimümkündür. Məsələn: to hold one's cards close to one's chest.

5. Frazeoloji bitişmələr sözlərin və yaxud söz birləşmələrinin sinonimi ola bilir. Məsələn: to gild refined gold = to paint the lily.

Frazeoloji birləşmə.

Frazeoloji birləşmələrin aşağıdakı xüsusiyyətləri var☹4-s.2-9)

1. Frazeoloji birləşmələrin kompoentlərindən birini dəyişmək mümkündür. Məsələn: a bosom friend "ürək dostu", bosom buddy "yaxın yoldaş".

2. Bu birləşmələrin əsas tərəfini onun sinonimi ilə əvəz etmək olar. Məsələn: pitched battle "amansız döyüş", fierce battle "sərt döyüş", "qızğın döyüş".

3.Onların komponentlərinin yerini dəyişmək mümkündür. Məsələn: Sisyfean labour "sizif əməyi", a labour of Sisyphus.

4. Bu tip birləşmələrin komponentlərindən birinin müsətqil, digərinin isə asılı olması mütləqdir. Məsələn: a bosom friend "ürək dostu", yəni insana yaxın yalnız onun dostu ola bilər, düşməni yada bir başqası ola bilməz.

Ədəbiyyat

1. Qurbanov A. Müasir Azərbaycan dilinin frazeologiyası, Bakı,1963 səh 359.
2. Seyidov Y. Azərbaycan ədəbi dilində söz birləşmələri, Bakı, 1966 səh 139-142.
3. 8. Haciyeva Ə. H. İngiliscə-azərbaycanca frazeoloji lüğət B, 2006.səh:45-49
4. 9. Həsənəv H. Azərbaycan dilinin frazeologiyası. Bakı,1979 səh 2-9

E.Mammadova

Phrazelogisms in scientific context English and different approaches of linguists

Summary

This article deals with theanalysis of the phraseological units upon the different approaches of the distinguished linguistsin the scientific context.Linking to the modern approaches and views of either the Western or Russian linguists, the author hasinvestigated the different pecularities of the phraseological units in English language.So,in her articlethe author showed that the classification of phraseological units has beencarried out in different directions in linguistics. That is why in her first study, shecould say that the Swiss linguist, the founder of "The theory of Phraseology" Charles Balli's classification has greatly influenced the development of phraseology. Charles Balli gave the first classification of the word combinations in his first work, "Summary of Stylistics". In his second book, "French Stylistics" Charles Balli noted that the use of phraseology was a tradition, and a number of words tended to be closer to one another than the other words in French language. He divided the word combinations into four groups:

1) free word combinations,
2) ordinary combinations,
3) phrazeological group,
4) phrazeological associations.

On the basis of the Russian language material called "frazeological associations", "frazeological adjacencies" and "frazeological combinations'academician V.V.Vinogradov divided the frazeological units into three semantic groups. While speaking about frazeologicalcompounds, he wrote that there was no relationship, no connection, or even no potential relationship between the meaning of the components and their commonone. Although their constituent parts have the same sound content in one language or in another.

Key words: component,phraseological combination, classification, figurative meaning, vocabulary content

Е.Маммадова

Английские фразеологизмы в научном контексте в Английском языке и различные точки зрения лингвистов

Резюме

Данная статья анализирует фразеологические единицы с точки зрения различных подходов, предпринятых выдающимися лингвистами в научном контексте. Автор статьи провела исследование различных аспектов фразеологических единиц английского языка, увЯЗЫвая свои исследования с современными подходами и взглядами, существующими в западной и российской лингвистике. Исходя из этого, автор статьи отметила, что классификации фразеологических единиц были проведены по различным направлениям

лингвистики. Поэтому в своем первом исследовании она утверждает, что классификация Швейцарского лингВиста, основателя «теории фразеологии» Чарльза Балли оказала огромное влияние на развитие фразеологии. Чарльз Балли первым разработал классификацию словосочетаний в своей первой работе «Выводы о стилистике». В своей второй работе «Стилистика французского языка» Чарльз Балли отмечал, что использование фразеологии было традиционным, а ряд слов во французском языке имеет тенденцию сочетаться с одними словами, а с другими нет. Он разделил словосочетания на четыре группы:

1) свободные словосочетания,
2) обычные сочетания,
3)фразеологические группы,
4) фразеологические ассоциации.

Автор статьи также отметила, что академик В.В.Виноградов языка разделил фразеологические единицы на три семантические группы: «фразеологические ассоциации», «фразеологические сращения» и «фразеологические сочетания». Говоря о фразеологических единствах, он писал, что не существует связи, даже потенциальной связи, между значением составных частей фразеологизма и его общим значением. Несмотря на то, что составные компоненты имеют одинаковую звуковую оболочку в любом языке.

Ключевыеслова: компонент,фразеологическая комбинация, классификация, образное значение, словарный состав

Redaksiyaya daxil olma tarixi: 21.05,2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Nuriyyə Rzayeva tərəfindən
çapa tövsiyə olunmuşdur

RƏNA MUSTAFAYEVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Ünvan Azadiq, 20
rena2213m@gmail.com

УРОВНИ ВЛАДЕНИЯ РУССКИМ ЯЗЫКОМ КАК ИНОСТРАННЫМ В СИСТЕМЕ ВУЗОВСКОГО ОБРАЗОВАНИЯ

Резюме

В статье говорится о том, что дифференциация и описание уровней владения языком, а также создание соответствующих этим уровням обучающих лингвометодических моделей являются одной из наиболее актуальных проблем современной теории и практики преподавания русского языка как иностранного. Данная проблема приобрела особую актуальность в конце XX столетия в связи с унификацией европейских национальных образовательных систем, а также в связи с расширением международного сотрудничества. Особое внимание уделяется тому, что обычно под уровнями владения иностранным языком в научной литературе понимается степень сформированности речевой способности и компетентности на данном языке в различных видах коммуникативной деятельности и в пределах, лимитирующих сферу предполагаемого использования языка. В статье также рассматривается вопрос о том, что терминологически ни европейская, ни российская классификации не дают полного представления о содержании каждого конкретного уровня владения языком. Предложенные дифференциации весьма условны и не позволяют четко отделить один уровень от другого внутри каждой из систем. Подчеркивается, что в процессе обучения динамика развития речевой способности приобретает вид постоянно расширяющейся во все стороны окружности с размытыми, нечеткими границами. Чем более равномерное и динамичное расширение приобретают в рамках каждого конкретного уровня владения языком различные стороны речевой способности (окружности), тем более успешным является языковое развитие учащегося, а следовательно, и сама обучающая технология, предложенная преподавателем. Для характеристики каждого из представленных в классификации уровней владения языком была разработана система дескрипторов умений, достигаемых изучающими язык на каждом уровне, и их реализации для каждого вида речевой деятельности. Каждый из перечисленных уровней владения языком включает в себя определенный набор речевых готовностей, реализующих конкретные коммуникативные интенции и речевые программы.

Ключевые слова: уровни владения языком, речевая способность, процесс обучения, коммуникативная компетенция.

Дифференциация и описание уровней владения языком, а также создание соответствующих этим уровням обучающих лингвометодических моделей являются одной из наиболее актуальных проблем современной теории и практики преподавания русского языка как иностранного. Данная проблема приобрела особую актуальность в конце XX столетия в связи с унификацией европейских национальных образовательных систем, а также в связи с расширением международного сотрудничества и формированием концепции «Европа без границ», в рамках которой огромное внимание уделялось проблеме распространения и изучения иностранных языков в мире.

На европейском уровне впервые эта проблема была обозначена еще в середине 80-х годов, когда в Комитете по образованию и культурному сотрудничеству при Совете Европы началась интенсивная работа по обоснованию модели иноязычной коммуникативной компетенции и разработке на ее основе пороговых уровней владения иностранным языком. Эта работа завершилась в 1996 году в Страсбурге принятием итогового документа «Современные языки: изучение, преподавание, оценка. Общеевропейская компетенция», в котором были даны параметры и критерии оценки уровней владения языком и коммуникативной компетенции как конечной цели обучения, а также способы ее оценки с использованием тестовых технологий.

В процессе обучения динамика развития речевой способности приобретает вид постоянно расширяющейся во все стороны окружности с размытыми, нечеткими границами. Чем более равномерное и динамичное расширение приобретают в рамках каждого конкретного уровня владения языком различные стороны речевой способности (окружности), тем более успешным является языковое развитие учащегося, а следовательно, и сама обучающая технология, предложенная преподавателем.

Наконец, наступает такой момент в обучении, когда границы речевой способности учащегося совпадают с границами окружности, лимитирующей тот или иной уровень владения языком. Этот момент иллюстрирует факт достижения учащимся определенного уровня речевого развития. Разработанную нами классификацию уровней владения иностранным языком (или уровней развития речевой способности) можно представить следующим образом. Базовый уровень (соответствует окружности минимального диаметра) – уровень минимальной коммуникативной достаточности (УМКД) – предполагает пользование русским языком как средством коммуникации на минимально допустимом коммуникативном уровне в сфере повседневного общения в пределах определенного программой обучения круга ситуаций. Первый уровень – уровень пороговой коммуникативной достаточности (УПКД) – предполагает достаточно свободное нормативное пользование русским языком как средством коммуникации в сфере повседневного и профессионально ориентированного общения. Овладение этим уровнем по программе двух образовательных модулей – модуля «общее владение языком» и профессионально ориентированного модуля – свидетельствует о готовности иностранца продолжить обучение по избранной специальности на основных факультетах вузов. Второй уровень – уровень коммуникативной насыщенности и профессиональной достаточности (УКНПД) – предполагает свободное пользование русским языком как средством коммуникации в сфере повседневного, социально-культурного, официально-делового и профессионального общения в неограниченном круге ситуаций. Достижение этого уровня свидетельствует о достаточно грамотном и умелом пользовании русским языком, максимально приближающемся к уровню «среднего» носителя данного языка, использующего язык как в повседневной, так и в профессиональной сфере общения. В системе вузовского филологического образования этот уровень соответствует уровню, которым должны владеть студенты, окончившие третий курс высших учебных заведений, а в системе вузовского нефилологического образования – уровню бакалавра и специалиста.

Третий уровень – уровень полного, свободного и компетентного владения языком (УПСКВЯ) – предполагает свободное пользование русским языком как средством коммуникации во всех сферах общения и в неограниченном круге ситуаций. Достижение этого уровня свидетельствует о присвоении обучаемому статуса «опытного пользователя языком». В системе вузовского филологического образования этот уровень соответствует уровню бакалавра и специалиста, а в системе вузовского нефилологического образования – уровню магистра. Очевидно, что третьему уровню владения языком в системе «непрофессионального» общения (данный термин квалифицирует ситуации общения, в

которых коммуниканты общаются на темы, выходящие за пределы их профессиональной компетенции) или квазипрофессионального общения (ситуации, когда на профессиональные темы общаются опытный пользователь языком и коммуникант, имеющий профессиональную подготовку в иной сфере применения языка) будет соответствовать уровень коммуникативной насыщенности и социальной достаточности (УКНСД), который, по сути дела, является аналогом УКНПД за вычетом из его состава профессионально-коммуникативной составляющей, которой профессионально неопытный пользователь языком не владеет. (5, 128). Соотношение уровней владения иностранным языком по различным классификациям Level 1. Waystage User Базовый уровень Уровень минимальной коммуникативной достаточности (УМКД)

Level 2. Threshold Первый сертификационный уровень Уровень пороговой коммуникативной достаточности (УПКД)

Level 3. Independent Второй сертификационный уровень Уровень коммуникативной насыщенности и профессиональной достаточности (УКНПД)

Level 4. Competent Третий сертификационный уровень Уровень полного, свободного и компетентного владения языком (УПСКВЯ)

Level 5. Good User Четвертый сертификационный уровень Уровень профессионального владения языком (УПВЯ)

Очевидно, что грамотного специалиста-профессионала отличает от неспециалиста то, что в его когнитивной базе существуют «узловые точки», или «ключевые элементы», которые будучи особо чувствительными к определенным семантическим влияниям, могут инициировать оперативные изменения в индивидуальных семантических структурах, вследствие чего могут наблюдаться качественные изменения в характере понимания ситуаций, в том числе и проблемных. Особенности когнитивной базы знаний субъекта характеризуют его компетентность, т. е. психологическое качество, которое выступает в качестве критерия развития индивидуального интеллекта. Высокий уровень компетентности предполагает высокий уровень понимания проблемы в некоторой реальной предметной области, опытность при выполнении сложных действий, в том числе с научным текстом, эффективность суждений и оценок относительно происходящих в этой области оценок и т. д. Четвертый уровень владения языком в ситуациях «непрофессионального» или квазипрофессионального общения будет соответствовать уровню коммуникативной и социальной насыщенности (УКСН). Иерархически этот уровень является функциональным аналогом УПСКВЯ в системе профессионального общения.

Отметим, что различие двух последних уровней владения языком заключается в том, что носители языка, владеющие данными уровнями, отличаются друг от друга не столько общим владением языком, сколько тем его фрагментом, который отвечает за профессиональную составляющую коммуникативной компетенции, а соответственно эти различия затрагивают прежде всего сферу индивидуальных когнитивных баз коммуникантов. Соотношение уровней владения языком. Таким образом, уровневая классификация владения руским языком инофонами в ситуациях непрофессионального или квазипрофессионального общения приобретает следующий вид: первый уровень – уровень минимальной коммуникативной достаточности (УМКД) (или базовый уровень владения языком); второй уровень – уровень пороговой коммуникативной достаточности (УПКД) – свидетельствует о приемлемом владении русским языком и о наличии у инофона когнитивной базы в объеме выпускника средней школы; третьий уровень – уровень коммуникативной насыщенности и социальной достаточности (УКНСД) – помимо хорошего владения языком у инофона имеется достаточно развитая когнитивная база, позволяющая ему участвовать в общении, в том числе и на темы, выходящие за пределы его профессиональной компетенции; четвертый

уровень – уровень коммуникативной и социальной насыщенности (УКСН) – свидетельствует о полном и свободном владении русским языком в неограниченном круге ситуаций общения). (6, 81). Особо следует сказать и о различиях между русофонами, профессионально владеющими русским языком, и инофонами, достигшими высших уровней владения языком, в том числе и в профессиональной сфере. Очевидно, что даже в идеальных ситуациях общения уровень владения языком в русскоязычной аудитории неизмеримо выше уровня владения языком иностранными учащимися. Это проявляется в различных коммуникативных сбоях, языковых и понятийных неточностях, нарушениях темпоральных качеств речи, в трудностях реконструкции имплицитных (элиптических, тезаурусных и транзитивных) внутритекстовых связей при восприятии речи и т. д. Причем зачастую эти различия касаются не столько фонетического, грамматического или каких-либо других аспектов языка, сколько количественных и качественных параметров активного и пассивного словарей. Так, например, если для студентов-инофонов, владеющих русским языком на достаточно хорошем уровне, количественный предел пассивного словаря в лучшем случае составляет не более 30 тысяч слов, то для носителей языка он практически не имеет пределов, особенно, если речь идет о носителях языка, имеющих достаточно высокий общеобразовательный уровень, а также развитые механизмы языковой и смысловой догадки.

Литература

1. Акишина А. А., Каган О. Е. Учимся учить. Для преподавателя русского языка как иностранного. М., 2002. Стр. 98.
2. Вагнер В. Н. Методика преподавания русского языка англоговорящим и франкоговорящим. М., 2001. Стр. 73.
3. Верещагин Е. М., Костомаров В. Г. Язык и культура: лингвострановедение в преподавании русского языка как иностранного. М., 1990. Стр. 107.
4. Государственный образовательный стандарт высшего профессионального образования. Лингвистика и межкультурная коммуникация. Квалификация: лингвист, преподаватель. М., 2000. Стр. 52.
5. Государственный образовательный стандарт по русскому языку. Элементарный уровень. Базовый уровень. 1, 2, 3, 4 сертификационные уровни. М.: СПб., 1999– 2000. Стр. 128.
6. Гудков Д. Б. Межкультурная коммуникация: проблемы обучения: учеб. пособие. М., 2000. Стр. 81.

R. Mustafayeva

Ali təhsil sistemində rus dilinin xarici dil kimi tədrisində bilik səviyyəsi

Xülasə

Məqalədə deyilir ki, dil bilik səviyyələrinin fərqləndirilməsi və təsviri, habelə bu səviyyələrə uyğun təlim linqvistik metodoloji modellərinin yaradılması müasir xarici nəzəriyyə və rus dilinin xarici dil kimi tədrisinin ən aktual problemlərindən biridir. Bu problem 20-ci əsrin sonlarında Avropanın milli təhsil sistemlərinin birləşməsi ilə, habelə beynəlxalq əməkdaşlığın genişlənməsi ilə əlaqədar xüsusi aktuallıq qazandı. Elmi ədəbiyyatda xarici dilin bilik səviyyəsinin ümumiyyətlə müəyyən bir dildə müxtəlif ünsiyyət fəaliyyətlərində və dilin nəzərdə tutulan istifadəsi sahəsini məhdudlaşdıran danışıq qabiliyyəti və səriştəsinin formalaşma dərəcəsi kimi başa düşülməsinə xüsusi diqqət yetirilir. Məqalədə, nə rus, nə də Avropa təsnifatı, hər bir dil bilik səviyyəsinin məzmunu haqqında tam təsəvvür yaratmaması məsələsinə toxunulur. Təklif olunan fərqlər çox ixtiyardır və sistemlərin hər bi-

rinin içərisində bir səviyyəni digərindən dəqiq bir şəkildə ayırmağa imkan vermir. Öyrənmə prosesində nitq qabiliyyətinin inkişaf dinamikasının bulanıq, qeyri-səlis hüdudlarla bütün istiqamətlərdə daim genişlənən bir dairə forması aldığı vurğulanır. Danışıq qabiliyyətinin müxtəlif tərəflərini (dairə) nə qədər vahid və dinamik genişləndirmək, hər bir dil bilik səviyyəsində əldə etmək, tələbənin dil inkişafı və buna görə müəllimin təklif etdiyi tədris texnologiyasının özü daha uğurlu olur. Təsnifatda təqdim olunan dil bilik səviyyələrinin hər birini xarakterizə etmək üçün hər səviyyədə dil öyrənənlər tərəfindən əldə edilmiş bacarıq təsviri sistemi hazırlanmış və hər bir nitq fəaliyyətinin növü üçün tətbiq edilmişdir. Qeyd olunan dil bilik səviyyələrinin hər biri özünəməxsus kommunikativ niyyətləri və nitq proqramlarını həyata keçirən müəyyən bir nitq hazırlığını əhatə edir.

Açar sözlər: dil bilik səviyyələri, nitq qabiliyyəti, tədris prosesi, ünsiyyət bacarığı.

R. Mustafayeva

Levels of proficiency in Russian as a foreign language in the system of higher education

Summary

The article says that the differentiation and description of language proficiency levels, as well as the creation of training linguistic-methodological models corresponding to these levels are one of the most pressing problems of modern theory and practice of teaching Russian as a foreign language. This problem gained particular relevance at the end of the 20th century in connection with the unification of European national educational systems, as well as in connection with the expansion of international cooperation. Particular attention is paid to the fact that usually the level of knowledge of a foreign language in the scientific literature is understood as the degree of formation of speech ability and competence in a given language in various types of communicative activities and within the limits that limit the scope of the intended use of the language. The article also addresses the issue of the fact that, neither Russian nor European classifications give a complete picture of the content of each specific level of language proficiency. The proposed differentiations are very arbitrary and do not allow one to clearly separate one level from another inside each of the systems. It is emphasized that in the process of learning, the dynamics of the development of speech ability takes the form of a circle constantly expanding in all directions with blurry, fuzzy boundaries. The more uniform and dynamic expansion the various sides of speech ability (circle) acquire within each specific level of language proficiency, the more successful is the language development of the student, and therefore the teaching technology itself proposed by the teacher. To characterize each of the levels of language proficiency presented in the classification, a system of descriptors of skills achieved by language learners at each level and their implementation for each type of speech activity was developed. Each of the listed levels of language proficiency includes a certain set of speech readiness that implements specific communicative intentions and speech programs.

Keywords: levels of language proficiency, speech ability, learning process, communicative competence.

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Bəyimxanim Əliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

ZÜMRÜD QAFARLI,
AYNUR ƏSGƏRZADƏ
ADU
Rəşid Behbudov 134
e-mail: z_ qafarli@hotmail.com
aynurfahmin@gmail.com

ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN ROLU

(ingilis dili materialları əsasında)

Xülasə

Sözügedən məqalə KİV vasitəsilə şifahi nitqin inkişaf etdirilməsi məsələsinə həsr olunmuşdur. Kütləvi informasiya vasitələrində şifahi nitq mədəniyyətinin qorunması və KİV-in bu sahədə nümunə olması vacib məsələlərdəndir. Belə ki, hər gün eşitdiyimiz səslər özündə rəvan danışıq, savadlı nitq ehtiva etməldir. Qeyd etmək lazımdır ki, hal-hazırda klassik ədəbiyyat nümunələrinə təsadüfi hallarda müraciət olunur. Əksər hallarda insanlar ədəbiyyat nümunələri olan və dünya ədəbiyyatının xəzinəsinə daxil edilmiş əsərlərlə tanış deyillər. Bəzən onlar həmin əsərlər haqqında heç bir məlumata malik deyil. Onu da xüsusilə qeyd etmək lazımdır ki, klassik ədəbiyyat nümunələrində personajların istifadə etdiyi nitq modelləri, bu gün istifadə edilən dildən əhəmiyyətli dərəcədə fərqlənir. Buna görə də KİV materiallarına diqqət yetirmək lazımdır. Müasir insan həm də ünsiyyətə hazır olmalı və müxtəlif insanlarla ünsiyyət qurmaq, ətrafdakılara motivasiya verə bilmək kimi tamamilə yeni sosial bacarıqlara yiyələnməlidir.

Qloballaşma prosesinin labüdlüyünü və bu prosesə inteqrasiyanın qaçılmaz olduğunu nəzərə alaraq, elm və təhsil sahələrinin qloballaşma proseslərinə adaptasiyası dildə onun təmin olunmasını şərtləndirən amillər sırasına daxil olmuşdir. İlk öncə ona görə ki, məhz bu sahələrdə təkcə yeni bilik və texnologiyalar deyil, həm də insanın fikirlərinin ifadəsinin bu və ya digər formalarının yeni mexanizm və üsulları da gündəmi zəbt edir. Bu zaman KİV vasitəsilə nitq mədəniyyətinin təkmilləşdirilməsi vacib sayılır. Bu eyni zamanda günün tələbidir.

Açar sözlər: nitq, kontekst, KİV, ünsiyyət

Dil və onun daxili inkişaf qanunlarına cəmiyyətdə baş verən siyasi, ictimai dəyişiklik, elmi-texniki tərəqqi, iqtisadi-mədəni həyatda baş verən yeniləşmələr ciddi təsir göstərir. Xarici aləm daim ona təsir edir və onun müxtəlif sahələrində diqqəti cəlb edən izlər buraxır. Qeyd etmək lazımdır ki, dillərin qarşılıqlı əlaqə və münasibətləri hələ qədim zamanlardan mövcud olmuşdur. Dil əlaqələrini xalqlar və millətlər arasındakı digər əlaqələrdən ayırmaq mümkün deyil. Kütləvi informasiya vasitələri sahəsində çalışan insanlar, xüsusilə aparıcılar bu əlaqələrdən xəbərdar olmalı, alınma sözlərin düzgün tələffüzündə anlaşılmazlığa yol verməməlidirlər. Bu mənada KİV informasiyanın kütləyə çatdırılmasında müasir sivilizasiyanın ən geniş yayılmış vasitələrindən biridir. Nitq mədəniyyəti hər bir xalq üçün əsas amildir. Burada kütləvi informasiya vasitələrinin rolu vacib sayılır. Çünki hər gün müxtəlif saatlarda eşitdiyimiz səslər informasiyanın ötürülməsində düzgün səsləndirməyə malik olmalıdır. Belə ki, bəzən bu normalar pozulur. Qədim zamanlardan bu cür hadisələr eşidənin dilinin fonetik-akustik sistemi ilə danışanın dilinin fonetik-akustik sistemi arasındakı fərqdən və elementar transliterasiya anlayışlarının olmaması səbəblərindən irəli gəlirdi.

KİV sənayesinə səkkiz vasitə aid edilir. Onlara televiziya, radio, kitab, qəzet, jurnal, səs-yazmalar, kino, internet daxildir. Televiziya ilk növbədə informasiya mənbəyidir. TV dili məhz qaydaya salınmış, ədəbi dil normalarını özündə ehtiva edən şifahi dildir. Ekranda səslənən hər şey dilin təbliğinə istiqamətləndirilir. KİV içərisində dilin informasiya, estetik, ideoloji funksiyaları daha çox TV -də qabarıq şəkildə özünü göstərir. Bu zaman aparıcıların nitqi aydın və düzgün olması ilə seçilməlidir, çünki aparıcı TV dilini təmsil edən şəxsdir. Kamera və mikrofon qarşısında aparıcı böyük məsuliyyət hissinə malik olmalıdır. Bu mənada dinləyicilərin böyük həssaslıqla yanaşdıqları diktor və aparıcılardan səsləri, sözləri məharətlə, xüsusi vurğu və intonasiya ilə istifadə etmək tələb olunur. Dilin vəzifəsi ancaq informasiya vermək və ünsiyyət vasitəsi olmaqla bitmir. O, etik mədəniyyətin, milli şüur və təfəkkürün vahid göstəricisi kimi xarakterizə olunur. Dil bir sistem kimi öz ictimai funksiyasını nitqlə həyata keçirir. Kütləvi informasiya vasitələrində nitq yeni, mükəmməl keyfiyyət qazanır. Televiziyada nitq müəyyən olunmuş üç əsas funksiyanı yerinə yetirir:

1. ünsiyyət
2. məlumatlandırma
3. təsiretmə.

Burada nitq bir-birindən fərqlənən müxtəlif üslublarda - danışıq, publisistik, ədəbi-bədii üslubda özünü göstərir. Televiziyada musiqi, əyləncə, şou verilişlərində isə məişət üslubu üstünlük təşkil edir. Bu əsasən müsahibələr, iştirakçıların bir-biri ilə dialoqu formasında əks olunur. TV dilində bütün informasiyalar ədəbi dilin fonetik, leksik, qrammatik səviyyələrini əhatə edir. Bu zaman dil normalarına riayət etmək vacib şərtlərdəndir.

Fonetik norma səviyyəsində vurğu əsas amil hesab edilir. Bu zaman intonasiyanın xüsusi əhəmiyyətə malik olduğunu vurğulamaq olduqca vacibdir [1,s.84]. Leksik normada dilin ən çevik vahidi sözdür. Kütləvi informasiya vasitələrində təkrarlar da böyük rol oynayır. Qrammatik normaya gəlincə isə o dilin qrammatik quruluşunu nitq prosesində nizamlayır.

Qeyd edək ki, felin zaman formaları morfoloji əlamətləri ilə təkamül keçir.TV-nin sintaktik konstruksiyasında yığcam, bəzən də ona yardımçı cümlələr daha çox işlədilir. Kütləvi informasiya vasitələri üçün daha çox inversiya xarakterikdir. Sözlər hər bir dildə yeniliyə söykənməsi ilə seçilir. Hər gün yeni söz yaranır. Yeni sözlər sürətlə çoxalır. Buna görə də zaman-zaman dildə sözlərin meydana gəlməsi səbəblərinin təhlili vacib sayılır. Qəzetlər kütləvi informasiya vasitələrindən biridir və onların yeni söz və ifadələrin yaranmasında və yayılmasında böyük rolu vardır. Belə ki, qəzet və məqalələrdə yeni sözlərdən daha çox istifadə olunur. Belə sözlərin yaranma xüsusiyyətlərini öyrənmək vacibdir.

Sözügedən məsələlər bizi aşağıdakı fərziyyələri söyləməyə sövq edir:

-Kütləvi İnformasiya Vasitələri (KİV) sözlərin yaranmasında əsas vasitələrdən hesab olunur. Burada tez-tez yeni sözlərin struktur-semantik növlərindən istifadə edilir.

-Qəzetlərdə rast gəlinən sözlərin semantik-struktur növləri yeni formalı sözlərdir.

-Lüğətlərdə yeni söz və yaxud yeni yaradılmış sözün yeni mənası təqdim edilir.

Dünyada altyazı ilə yayın edən bir çox TV kanalları vardır. Bir çox insan bu televiziya kanallarını izləyərək düzgün nitq qabiliyyətini inkişaf etdirməyə çalışır.

Qeyd edək ki, bu şifahi nitqin inkişafını tam təmin etmək iqtidarında deyil. Bunun üçün sosial media vasitəsilə dostlar tapmaq, ingilis dilində yazışmaq, səsli ismarıclar göndərmək və s. məqsədəuyğundur. Bundan əlavə, "You Tube" kanallarına abunə olmaq da faydalı hesab edilir. Burada da müəyyən çətinliklər meydana çıxır. Belə ki, bu zaman materialların dialekt və şivələrdə səsləndirilməsi çətinliklər yaradır. Zaman keçdikcə, onları tədricən anlamaq mümkün olur. Sosial mediada paylaşım edən dostlar şifahi nitq mədəniyyətinin inkişaf etdirilməsində yardımçı ola bilər. Bu paylaşımlara xəbər, jurnal məqalələri, videolar, danışıqlar, bloq yazıları, mahnılar və s. aid ola bilər. Nitq vərdişlərini KİV ilə inkişaf etdirmək istərkən bloqlar, verbinar-

lar, veb səhifələr, forumlar yardımçı ola bilər. Klassik ədəbiyyat, kitablar, qəzet, internet saytları, e-maillər, ictimai mediadakı xəbər axışı şifahi nitqi inkişaf etdirən intensiv fəaliyyətlərə aid edilir. Multimedia vasitələri, həftəlik radio proqramları, ödənişsiz açıq "online" kurslar (MOOCs) da faydalı hesab olunur. "Online" dil mərkəzləri layihəsi KİV ilə öyrənmədə xüsusi əhəmiyyət kəsb edir. Pulsuz video epizodlar bu işdə yararlıdır. Video dərslər söz bazası yaratmaq üçün asan və sürətli yoldur. Bundan başqa, istifadəçilərin qısametrajlı video və filmlərin yüklənərək paylaşılmasını təmin edən saytlar vardır. Yaponiyada getdikcə daha çox Facebook, Twitter, Mixi və s. kimi sosial şəbəkə saytlarının artan məhşurluğu sayəsində nitq mədəniyyətini təkmilləşdirmək üçün belə şəbəkələrin istifadəsinin faydalarını təsdiq edən xeyli tədqiqatlar vardır. Müasir metodiki ədəbiyyatlarda sosial şəbəkə saytlarından istifadənin nitq mədəniyyətinin formalaşdırılmasında yüksək motivasiya yaratdığını israrla qeyd edilir[5,s.43]. Bundan əlavə, qeyd edilir ki, "Facebook" istifadəçilərinin şəkillərini, videolarını və dostları ilə paylaşdıqlarını müzakirə etmək üçün sosial şəbəkə saytları nəinki yararlı və rahatdır, hətta gərginlik və demotivasiyanın aradan qaldırılmasında əhəmiyyətli rola malikdir[4, s.56]. Beləliklə, aydın olur ki, kütləvi informasiya materialları vasitəsilə şifahi nitqin öyrədilməsində sosial şəbəkə saytlarının rolu əvəzsizdir. Kütləvi informasiya vasitələri şifahi nitqin formalaşdırılması üçün stimul xarakteri daşıyır. Buraya televiziya, radio və s. aid edilir. Televiziya səlis nitqin inkişafı, orfofonik normaların qorunması baxımından xüsusilə faydalıdr. Bu qurğu səs və görüntünün insanların evində mövcudluğunu reallaşdırır. Bu zaman müxtəlif dillərdə olan məlumatları evlərə daşımaq mümkün olur. Radio yığcamlılığı ilə diqqət çəkir. Belə ki, onu hər yerə rahat şəkildə daşımaq mümkündür. Burada musiqi, xəbərlər, radio-tamaşalar, radio- tədris kimi yayınlar şifahi nitqin inkişafında əlverişli sayılır. Ən ucuz kütləvi informasiya vasitələri jurnallar hesab olunur. Burada əsasən gündəlik baş verən və tez-tez dəyişən hadisələr işıqlandırılır. Jurnallar uzunmüddətli istifadəyə yararlı olduğu üçün əlçatan olur. Sənədli film müxtəlif yaş qruplarına uyğun geniş mövzu seçiminə imkan verir.

Onlar nitq mədəniyyətinin inkişafı üçün bu işləri aşağıdakı ardıcıllıqla həyata keçiə bilərlər:

1) oyun hazırlamaq;
2) müxtəlif komanda tərkibində rollar nümayiş etdirmək;
3) oyun qaydaları haqqında məlumat vermək;
4) oyunun qaydasını nümayiş etdirmək.

Bu məqsədlə onlar 4 hissədən ibarət videomaterial hazırlaya bilərlər. Belə ki, mətni yazaraq onu məşq etməli və sonda mobil telefonun video yaddaşına köçürməlidirlər. KİV ilə bağlı materiallar vəsaitlər toplusu olaraq ədəbiyyatda "Realia" adlandırılmış və onu aşağıdakı kimi təsnifləndirirlər:

1. Qəzet və ya jurnallar;
2. Televizor;
3. İnternet.

Qəzet nitq materialı kimi aşağıdakı ardıcıllıqla istifadə olunur:

- onlar qəzeti və onun bölmələrini nəzərdən keçirir;
- iştirakçılar qəzetin seçilmiş xüsusi bölməsindən iş elanı hazırlayır;
- dinləyənlər qəzetdəki xüsusi bölmələrdən istifadə edib, həftəlik əyləncə proqramı hazırlayır.

Nitq materialı kimi onlar televiziyadan da istifadə edə bilərlər:

- hava proqnozuna baxaraq, hava göstərən simvollardan istifadə edərək, bölgələrə uyğun xəritə qura bilərlər;
- dinləyənlər reklamları izləyərək, ifadələrdan siyahı hazırlaya, sözlərin mənalarını araşdırıb, bu ifadələrdən yazılı reklamlar tərtib edə bilərlər;

- dili televizor vasitəsilə mənimsəmək istəyən şəxs hər hansı filmin bir hissəsinə baxıb, lüğət ehtiyatlarını zənginləşdirə bilərlər [2, s.56]. Dram fəliyyəti, texnoloji nailiyyət və kommunikativ öyrənməni özündə ehtiva edən videotapşırıqlar da həvəs və marağın artmasına səbəb olur. Bu zaman onlar fəal əməkdaşlıq edir, bir-birlərini dəstəkləyirlər. Bu isə onların psixoloji inkişafında müsbət məcraya doğru mühüm əhəmiyyət kəsb edir. Kütləvi informasiya materialları vasitəsilə dinləmədən sonra tərtib edilmiş kartların təqdim edilməsi tövsiyə edilə bilər. Bu işin faydalılığını artırır. Şifahi nitqin kütləvi informasiya materialları vasitəsilə formalaşdırılmasından bəhs edərkən ilk növbədə kommunikativ səriştə məfhumunun müəyyənləşdirilməsi zərurəti meydana çıxır. Onu da nəzərə almaq lazımdır ki, şifahi nitqin kütləvi informasiya materialları vasitəsilə aşılanması istiqamətində iş məqsədyönlü, mərhələli xarakter daşımalı və ardıcıl şəkildə həyata keçirilməlidir. Şifahi nitqin kütləvi informasiya vasitələri ilə təkmilləşdirilməsinin əsasını təşkil edən amillərin müəyyənləşdirilməsi həmin prosesin daha səmərəli şəkildə təşkil edilməsini mümkün edir. Təbii situasiyalardan fərqli olaraq, spontan şəkildə əmələ gələn KİV fonunda təlim situasiyaları müəllim tərəfindən planlaşdırılır və təqdim edilir. Çox vaxt həmin situasiyaları təqdim edərkən mənimsənilməli olan konkret linqvistik materialların istifadə edilməsi tövsiyə edilir. Əsasən şərti-real situasiyalar əyani-nitq, oxunulan materiallar və audio-vizual vasitələrlə təşkil edilən situasiyalar təsviri-nitq situasiyalarına aid edilə bilər [4, s.45].

Onu da qeyd etmək lazımdır ki, kütləvi informasiya vasitələri ilə bağlı təlim situasiyaları real və qeyri-real komponentlərin nisbətindən asılı olaraq, səciyyələndirilir.

Beləliklə, KİV materiallarından geniş şəkildə istifadə etməklə şifahi nitqin inkişaf etdirilməsi prosesini daha səmərəli şəkildə təşkil etmək və bu istiqamətdə daha yüksək nailiyyətlər əldə etmək mümkündür.Kütləvi informasiya vasitəsilə təqdim olunan materiallar dilöyrənənləri maksimum dərəcədə fəallaşdıraraq, dildə düzgün şifahi nitq ünsiyyətinə qoşulmalarına həvəsləndirməlidir.

Ədəbiyyat

1. Ağayeva F.M. Azərbaycan dilinin intonasiyası. Bakı: Maarif, APİ-nin nəşri, 1978, 90 s.
2. Ağayeva F.M. Şifahi nitqin sintaksisi. Bakı: Maarif, 1975, 116 s.
3. Axundov A.A. Azərbaycan dilinin fonetikası. Bakı: Maarif, 1984, 390 s.
4. Babayev S.M. Nitq intonasiyasının fonetik və funksional təbiəti. // M.F.Axundov adına APXDİ-nin elmi əsərləri, 1976, seriya 12, Dil və ədəbiyyat, № 3, s. 82-87.
5. Babayev S.M., Məmmədova İ.S. Nitq prosesində struktur-semantik və fomoloji-semantik aspektlərin vəhdətinə dair // ADDİ-nin Məqalələr toplusu, 2000, № 5, s. 41-47.
6. Cahangirov F. Qeyri-verbal hərəkətlər və sükutun linqvokulturoloji təhlili.// Dil və ədəbiyyat, ADU. Bakı: 2014, s. 9-14.
7. Əliyev K., Zeynalov F. Nitq mədəniyyətinin prosodik aspektinə dair // BDU-nun əsərləri, Bakı: 1994, №1,s. 41 – 44

Z. Qafarlı,
A. Askarzadeh

The role of mass media in developing oral speech
(on the basis of English materials)

Summary

The article deals with the problem of working out effective ways of speaking skills.Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The whole process of teaching oral speech should be goal-oriented and systematic. It will make the process of teac-

hing oral speech more effective. The article is devoted to the mass media in modern methodology. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of errors. The author emphasizes its role in Linguistics. Since its emergence this notion caught the attention. New researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. Speech, defined as language use as social practice that is based on cognition, is recognized as a means to represent reality from a particular viewpoint and to negotiate relationships between text producers and recipients. The present article brings together these two functions of speech by looking at the role in constructing reality, a question that is further narrowed down by addressing how such constructions transport notions of gender identity that position discourse participants in particular relations to each other. The links are multifaceted, involving how speakers of different genders use sentences, how language is employed to describe, and how can serve to define a social domain in terms. Some theoretical and methodological issues that arise when one investigates in spoken or written speech.

Key words: speech, context, mass media, communication

З. Кафарлы,
А. Аскарзаде

Роль СМИ на формировании устной речи
(на основе материалов английского языка)
Резюме

В данной статье рассматриваются вопросы устной речи. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на языке. Процесс обучения речью в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. Статья посвящена k СМИ на современном лингвистике. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль СМИ. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. В контексте все используемые должны быть речевыми, коммуникативными точнее. Практически все используемые в процессе коммуникации должны быть реченаправленными, специально организованные таким образом, чтобы создавать необходимые условия для формирования соответствующих навыков и умений. Функциональность, ситуативность, личностная направленность, является основными свойствами речевой коммуникации. Одной из наиболее актуальных проблем языкам является обучение устном речевому общению на изучаемом языке. В психологии общение трактуется как совокупность социальных связей, средство динамического взаимодействия общества и личности.

Ключевые слова: речь, контекст, СМИ, коммуникация

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Gülər Həsənova tərəfindən çapa tövsiyə olunmuşdur

SEVİNC ƏLİYEVA
Azərbaycan Kooperasiya Universiteti
sevinc.aliyeva2211@mail.ru

İNGİLİS DİLİNDƏ FEİLİ İDİOMLAR

Xülasə

Məqalə ingilis dilində feili idiomların işlənmə xüsusiyyətlərinə həsr olunmuşdur. Müasir ingilis dili zəngin idiomatik sistemə malikdir. Zəngin üslubi çalarlara malik olan idiomlara bədii, ictimai-siyasi, danışıq üslubunda tez-tez rast gəlinir.

Bu dildə danışan və dinləyən hər bir şəxs idiomatik ifadələrlə qarşılaşır. İdiomlar danışıq zamanı nitqə xüsusi rəng qatsa da, onların mənasının dərk edilməsi çətinlik törədir. İdiomatik ifadələri təşkil edən sözlərin çox hissəsi məcazi məna daşıyır və bu fakt onu göstərir ki, ingilis dilində sözlərin həqiqi mənalarına nisbətən məcazi mənalarından daha çox istifadə olunur.

Feili idiomlar iş, hal-vəziyyət mənası ifadə edib, əsasən cümlənin xəbəri funksiyasında çıxış edir. Feili idiomlarda feil özək komponent rolunu oynadığı üçün onların iştirak etdiyi mətn emosionallığı ilə fərqlənir.

Idiomlar inkişafının təşəkkül dövründə söz birləşmələrinin, cümlələrin məcazlaşma prosesinə məruz qalaraq semantik bütövlük, işlənmə sabitliyi, yeniləşmə əldə edən ifadələrdir. Cümlə səviyyəli idiomlar da dildə çox işlənir və onlar əsasən tabeli mürəkkəb cümlələrin formalaşmasında fəal iştiral edir.

İngilis dilində feili idiomlar iki qrupa bölünür: tərkib hissələrinə ayrılmayan, tərkib hissələrə ayrıla bilən. Tərkib hissələrinə ayrılmayan idiomların başa düşülməsi çətinlik törədir, onları lüğətsiz anlamaq mümkün deyil.

Feili idiomlar və ya feili frazeoloji birləşmələr cümlədə feil funksiyasını daşıyır, başqa sözlə onlar feilin ekvivalenti hesab olunurlar.

Açar sözlər: feili idiomlar, həqiqi məna, məcazi məna, ekspressiv məna, idiomatiklik

Dilin lüğət tərkibini təşkil edən sözlər həqiqi mənalarla yanaşı, məcazi mənalara da malikdir. Hal-hazırda bir çox sözlər öz həqiqi mənalarını itirərək daha çox məcazi mənada işlənir. Məcazi mənada işlənən birləşmələr idiomatiklik ifadə edir. Çox zaman həmin birləşmələrin ifadə etdiyi mənaları anlamaq mümkün olmur. İstər bədii ədəbiyyatda, istərsə də gündəlik danışıq dilində idiomların istifadəsi zamanı müəyyən çətinliklər meydana çıxır. Bəzən idiomatik komponenti təşkil edən tərəflərdən birinin mənası başa düşülür, lakin həmin birləşmə daxilində onun ifadə etdiyi məna fərqli olur. Bir çox hallarda isə idiomatik ifadəni təşkil edən komponentlər ayrı-ayrılıqda anlaşılır, lakin dilimizə müxtəlif cür tərcümə edilir.

"İdiom" yunan dilində idioma sözündən götürülüb. İdiom sözbirləşməsi quruluşuna malik olan, komponentlərin leksik mənasından asılı olmayan, quruluş və mənaca parçalanmayan ifadələrdir. Dilçilkdə idiomların bir sıra əlamətləri əsas götürülür: sözlər arasında əlaqənin olması, onların tam məna ifadə etməsi, sintaktik və leksik cəhətdən parçalanmaması və hərfi tərcümə edilməməsi.

Dildə idiomların yaranması xalqın həyat və yaşayış tərzi, mənsub olduğu din, dünyagörüşü ilə sıx əlaqədardır.

İdiomların tədqiqi bir çox dilçilərin Ş.Balli, V.Vinoqradov, N.Amasova, A.Kunin, Azərbaycan dilçiliyində A.Axundov, N.Vəliyeva, Ə.Hacıyeva və başqalarının əsərlərində öz əksini tapmışdır.

Məs. eat like a sparrow - (have little appetite) - iştahasız olmaq

bide your time (to wait an opportunity until your chance comes)- səbr etmək, münasib vaxt/imkan gözləmək.

İngilis dili idiomatik birləşmələrlə zəngin dildir. Bu birləşmələr müasir ingilis dilində ünsiyyət prosesində daha çox istifadə olunan birləşmələrdir. İdiomlara məişət dilində, qəzetlərdə, bədii ədəbiyyatda rast gəlmək olur. İdiomlar söz birləşmələrinin tərkibində xüsusi yer tutur. İdiomları təşkil edən sözlər bir yerdə öz əvvəlki mənalarını itirir və birləşmə tərkibində yeni məna çalarları yaradır.

Məsələn, He could eat a horse. - O acından ölür.

We are all at sixes and sevens. - Biz tamamilə çaş-baş qalmışıq.

Nümunələrdə göründüyü kimi, (He could eat a horse) o, atı yeyə bilməz, və ya (We are all at sixes and sevens) biz hamımız altı və yeddi yaşlarında ola bilmərik. Şübhəsiz bu ifadələrin fnlaşılması üçün mütləq lüğətlərə müraciət etmək lazımdır.

İdiomatik ifadələri təşkil edən sözlərin çox hissəsi məcazi məna daşıyır və bu fakt onu göstərir ki, ingilis dilində sözlərin həqiqi mənalarına nisbətən məcazi mənalarından daha çox istifadə olunur.

Məsələn, "drive" feilini götürək. Həqiqi mənada o. "maşın sürmək" mənasını ifadə edir. İdiomatik birləşmə kimi isə "drive smb. round the bend" (make smb. very angry) - bir kəsi dəli etmək, əsəbiləşdirmək mənasını verir.

Dilin lüğət tərkibində elə sözlər var ki, bədii mənada deyil, məcazi mənada işlənirlər. Məsələn, "to plough" (əkmək, becərmək). Bu feil ingilis dilində demək olar ki, həqiqi mənada da işlənir.

Məsələn, /Great films can plough money into a business//. - /Böyük firmalar bu işə sərmayə yatıra bilər// (4, 15).

Verilmiş nümunələrin təhlili göstərir ki, hər bir sözün həqiqi mənası ilə yanaşı məcazi mənasını da bilməliyik. Əks təqdirdə həmin birləşmələrin tərcüməsi düzgün alınmayacaq.

İdiomatik birləşmələrin məna və quruluşca müxtəlifliyi, ekspressiv çalarlara malik olması onların üslubi imkanlarının zənginliyindən xəbər verir. Özlərinə məxsus quruluşa malik olan idiomatik birləşmələrin komponentlərini təşkil edən sözlər bəzən qrammatik cəhətdən səhv, mənaca qeyri-məntiqi səslənsə də, onları dəyişmək olmur. Məhz buna görə də onları mövcud olduqları kimi dəyişiklik etmədən öyrənmək lazımdır.

"İdiomlar sabit kontekstin daha mürəkkəb mənzərəsini təşkil edir. İdiomlar sabit kontekstin elə vahidlərinə deyilir ki, onlarda işarəedici və semantik cəhətdən reallaşan ünsür normal olaraq eyniyyət təşkil edir və onların ikisi də sözbirləşmələrinin ümumi leksik tərkibi ilə təmsil olunub bütöv məna ilə səciyyələnir (2, s.58).

Aşağıdakı idiomlara nəzər yetirək.

feel at home - rahat olmaq, özünü evdəki kimi hiss etmək

/He <u>feels</u> very much <u>at home</u> in Italy//. - /O özünü İtaliyada evdəki kimi hiss edir//.

be on your last legs - son günlərini yaşamaq

/My grandfather <u>is on his last legs//</u>. - /Babam son günlərini yaşayır//.

Get on smb's nerves - bir kəsin əsəblərilə oynamaq

/Stop talking! You <u>are getting on my nerves//</u>. - /Söhbəti kəs! Əsəblərimlə oynayırsan//.

shake a leg - cəld olmaq, tələsmək

/Come on, <u>shake a leg</u>!// - /Bura gəl! Cəld ol!//

stick your nose into smth. - burnunu hər yerə soxmaq, müdaxilə etmək

/Please, don't stick <u>your nose into my work//. - /Xahiş edirəm mənim işlərimə müdaxilə etmə//.</u>

turn a blind eye - göz yummaq, fikir verməmək

/I used to turn a blind eye to him. He is under a lot of pressure at work//. - /Əvvəllər ona fikir verməzdim, işi həddindən artiq çoxdur//.

get a long face - kədərli görünmək, burnunu sallamaq

/When something strange happens, she always gets a long face//. - /Nə isə qəribə bir şey baş verəndə, o həmişə burnunu sallayır//.

live from hand to mouth - büdcədən getmək, güclə dolanmaq

/Nowadays the majority of the people live from hand to mouth//. - /Müasir dövrümüzdə insanların çoxu güclə dolanır//.

Müasir ingilis dili zəngin idiomatik sistemə malikdir. Bu dildə danışan və dinləyən hər bir şəxs idiomatik ifadələrlə qarşılaşır. İdiomlar danışıq zamanı nitqə xüsusi rəng qatsa da, onların mənasının dərk edilməsi çətinlik törədir.

İdiomlarda məna bütövlüyü, semantik, leksik və sintaktik sabitlik əsas məsələlərdəndir. Leksik sabitlik komponentlərin daimiliyini, sintaktik sabitlik isə tərkib üzvlərinin sırasının dəyişilməz qalmasını göstərir. Əgər bu sabitlik pozularsa, söz idiom ifadə etmə xüsusiyyətindən çıxır. Məcazlaşma idiomların özəyidir. Bu xüsisiyyət söz birləşmələri səviyyəsində olan vahidlər üçün daha səciyyəvidir.

Dilşilikdə idiomlar, onları təşkil edən komponentlər haqqında fikir müxtəlifliyi mövcuddur. Belə ki, A.Makkay tək morfemli sözləri deyil, iki və daha artıq morfemdən ibarət vahidləri idiom hesab edir. O, idiomları "frazeoloji idiomlar" adlandırır (6, s. 24).

R.Gibz və başqaları idiomların "ölmüş metaforalardan" əmələ gəlməsini söyləyir və onların daşlaşaraq semantik vahidlər kimi işlənməsini göstərirlər" (5, s.111).

"İdiomlar mənanın qüvvətlənməsi üçün müəllifin istifadə etdiyi ən təsirli vasitələrdəndir. İdiomlar mətndə konkret mövzuya ifadəlilik verir. Onlar dilin leksik vahidlərindən fərqli olaraq daha mürəkkəb kommunikativ vahidlərdir. Semantik cəhətdən idiomlar öz bütövlüyü ilə səciyyələnir, sintaktik cəhətdən isə bir-birinə uyğun olmayan müxtəlif sözlərin qovuşmasına görə fərqlənir" (1, s.7).

İngilis dilində feili idiomlar işləklik dairəsinə görə digər idiomlardan seçilir. İngilis dili idiomlarının yaranmasında "to be" və "to have" feilləri mühüm rol oynayır. Məsələn, "be at one mind" - *eyni fikirdə olmaq*; "be in the vein" - *kefli olmaq, içkili olmaq*; have a finger in the pie - *hansı işdəsə əli olmaq* və s.

İngilis dilində feili idiomlar iki qrupa bölünür: daşlaşmış (tərkib hissələrinə ayrılmayan), sintaktik çevikliyə malik olan idiomlar (tərkib hissələrə ayrıla bilən). Birinci qrupa "kick the bucket", ikinci qrupa isə "spill the beans", "put on airs" kimi idiomları nümunə göstərə bilərik. Məhz tərkib hissələrinə ayrılmayan idiomların başa düşülməsi çətinlik törədir, onları lüğətsiz anlamaq mümkün deyil.

Feili idiomlar və ya feili frazeoloji birləşmələr cümlədə feil funksiyasını daşıyır, başqa sözlə onlar feilin ekvivalenti hesab olunurlar. Məsələn, to call smb. names - kiməsə and vermək, to pay nature's debt - ölmək, rəhmətə getmək və s. (3, s. 166).

Cümlə səviyyəli idiomlar tabeli mürəkkəb cümlələrin formalaşmasında fəal iştiral edir. Məsələn, I, for one, shall show suit. But you are so **quick in the uptake** you will get the hang of the game in no time by simply **putting two and two together** (3, s.123).

Cümlədə "quick in the uptake" - gec başa düşmək, "putting two and two together" - nəticəyə gəlmək mənalarını verir.

Deməli, semantik birləşmələr olan idiomlar daşlaşmış frazalar deyil, sabit frazeoloji ifadələrdir. Feili idiomlar iş, hal-vəziyyət mənasında olub, əsasən cümlənin xəbəri funksiyasında çıxış edir. Feili idiomlarda feil özək komponent rolunu oynadığı üçün onların iştirak etdiyi mətn emosionallığı ilə fərqlənir.

Ədəbiyyat:

1. Yusifova G.İ. İngilis dili idiomlarının sintaktik, semantik və koqnitiv xüsusiyyətləri. f.f.d. dissertasiyasının avtoreferatı. Bakı, 2015.
2. Амасова Н.Н.Основы английской фразеологии. Л., 1963.
3. Середина К.Г., Томлянович А.К., Краснянская И.А. Идиоматика а английской речи. Просвещение. Ленинград 1971.
3. Hajiyeva A., Najaflı E. Contrastive Lexicology. "Science and Education", Baku 2010.
4. Mustafayeva S. Everyday English idioms with Azerbaijani equivalents in Use. Bakı, Letterpress 2008.
5. Gibbs R., et al. Metaphor in Idiom Comprehension. Journal of memory and language 37, 1997.
6. Makkai A. Idiom Structure in English. Paris. The Hague, Mouton, 1972.

Aliyeva Sevindj Arif

Verbal idioms in english

Summary

The article is devoted to the peculiarities of the development of English idioms in English. Modern English has a rich idiomatic system. Rich idioms with rich styles are often encountered in artistic, socio-political, and conversational style.

Everyone who speaks and listens to this language encounters idiomatic expressions. Idioms give emotional colouring to the speech during the conversation, in this case to understand their meaning becomes difficult. Most words that make up idiomatic expressions are figurative, and this fact indicates that in English figurative meanings are used more than true words.

Verbal idioms express the meaning of circumstance, state and action and are used in the sentence in the function of a predicate. In verbal idioms, the verb plays a key component and differs with its expressiveness.

Idioms are the expressions that gained the semantic integrity, the stability of development. Sentence-level idioms are also often employed in the language and they are mostly active in the formation of complex sentences.

Idioms in English are two in number: the idioms which are divided into the constituent parts, the idioms which are not divided into the constituent parts. The idioms which cannot be divided into the constituent parts cause some difficulties in the comprehension of their meagning. To understand them without dictionaries is impossible. Idioms in the sentence level play a great role in the formation of the compound sentence.

Key words: verbal idioms, denotational meaning, referential meaning, expressive meaning, idiomaticity.

Алиева Севиндж Ариф кызы

Глагольные идиомы в английском языке

Резюме

Статья посвящена особенностям употребления идиом в английском языке. Современный английский язык имеет богатую идиоматическую систему. Чаще всего идиомы, которым присущи разнообразные стилистические оттенки, встречаются в художественном, общественно-политическом и разговорном стилях.

С идиоматическими выражениями сталкивается каждый, кто изучает или говорит на английском языке. Несмотря на то, что идиомы вносят в речь определённую эмоциональную окрашенность и различные смысловые оттенки, мы часто затрудняемся в определении их значения. Большинство слов, составляющих идиоматические выражения, употребляются в переносном значении.

Большей частью глагольные идиомы выражают действие, чувства, состояние, а в предложении выступают в качестве сказуемого.

В силу того, что основным компонентом в глагольных идиомах является глагол, речь с идиомами отличается своей эмоциональной окрашенностью.

В период развития и формирования идиом произошло преобразование значения словосочетаний и предложений, в процессе чего идиоматические выражения приобрели семантическую целостность, стабильность в развитии и способность к обновлению.

Так же в английском языке часто встречаются равнозначные предложению идиомы, принимающие активное участие в формировании сложно-подчиненных предложений.

Ключевые слова: глагольные идеомы, истинное значение, переносное значение, экспрессивное значение, идиоматичность

Redaksiyaya daxil olma tarixi: 01.03.2019
Çapa qəbul olunma tarixi: 12.07.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Leyla Xanbutayeva tərəfindən çapa tövsiyə olunmuşdur

-

SONAXANIM İMANOVA
AzTU
H.Cavid 25.Bkı.
sonaxanm@.mail.ru.

SƏFƏVİLƏR DÖVLƏTİNDƏ AZƏRBAYCAN DİLİ

Xülasə

Öncə qeyd etmək lazımdır ki, XVI-XVII əsrin əvvəllərinə aid tarixi mənbələrdə və həmçinin müasir dövr dünya tarixşünaslığında bizim bəhs edəcəyimiz dil daha çox "Türk dili" adlandırılsa da, hal-hazırda rəsmi şəkildə Azərbaycan dili adlandırılır . Buna görə də məqalənin adı "Səfəvilər dövründə Azərbaycan dili dövlətlərarası yazışmada" kimi qeyd edilmişdir.Bu yazıda Azərbaycan dilinin dövlətlərarası yazışma tarixindən (XVI-XVII əsrin əvvəlləri), dövlətlərarası yazışma nümunələrinin üzə çıxarılması və araşdırılması tarixindən bəhs ediləcəkdir. Qeyd etmək lazımdır ki, bu yazı Azərbaycan dilinin XVI-XVII əsrin əvvəllərində dövlətlərarası yazışmada istifadəsi tarixindən bəhs etdiyinə görə, hökmdarların bu qəbildən olmayan, lakin Azərbaycan dilində yazılmış fərmanları haqqında məlumat verilməyəcəkdir.Azərbaycan dilindən dövlətlərarası yazışmada istifadə olunmasının hələ ki, aşkar edilən ən qədim nümunəsi birinci Səfəvi hökmdarı Şah İsmayılın hakimiyyəti dövrünə aiddir .Səfəvilər dövlətindən əvvəl Ağqoyunlu və Qaraqoyunlu dövlətləri zamanı sarayda Azərbaycan dilindən istifadə olunsa da, bu dövrdə sarayda yaşamış şairlərin (belə şairlərə misal olaraq Qaraqoyunlu hökmdarı Cahanşahı, Kişvərini, Həbibini və s. göstərmək olar) bir çoxunun azərbaycanca şerlər yazmasına baxmayaraq, Azərbaycan dilinin diplomatik sahədə istifadə olunmasını göstərən faktlar yoxdur və yaxud hələ aşkar edilməmişdir .Ənənəyə əsasən bu dövrdə, dövlət dili fars dili idi . Dövlət fərmanları da məhz bu dildə elan edilirdi. Uzun Həsənin hazırladığı və uzun müddət Şərqi Anadoluda belə istifadə olunmuş "Qanunnamə" də fars dilində idi . O dövrdə məşhur olan Nəsriyyə və Məqsudiyyə mədrəsələrində tədris ərəb və fars dillərində aparılırdı .Azərbaycan dilinin əcnəbi dövlətlər ilə rəsmi yazışmada işləndiyini göstərən ilk iki qaynağın tapılması macar türkoloq Fakete Layoşun adı ilə bağlıdır. Buna görədə onun haqqında məlumat verməyi lazım bilirik.

Açar sözlər: səfəvilər dövləti,türk dili,azərbaycan dili, İran,dövlət

Fekete Layoş 1891-ci ildə Budapeştdə anadan olmuşdur. Birinci dünya müharibəsi başlayan zaman zabit kimi Avstriya-Macarıstan ordusunda xidmətə başlamış və bir müddət keçdikdən sonra rus ordusuna əsir düşmüşdür. 1915-ci ildə əsir düşən Fekete, ruslara əsir düşmüş Osmanlı

hərbçiləri ilə birlikdə 6 il Krasnoyarskda saxlanılmışdır. Bu müddət ərzində Fekete buradakı Osmanlı hərbçilərindən mükəmməl türkcə öyrənmişdir. (1-ст.141-144) Əsrlikdən azad edildikdən sonra (1921) Budapeşt, Vyana və Berlində türk filologiyası üzrə təhsil almışdır. Daha sonra ərəbcə və farsca öyrənərək, paleoqrafiya və Osmanlı-İran diplomatiyası sahəsi üzrə mütəxəsisləşmişdir.

İstanbuldakı Baş Nazirlik arxivindəki sənədlər onun layihəsi əsasında qruplaşdırılmışdır. Xüsusən, Osmanlı dövlətinin Macarıstandakı hakimiyyəti dövrünü araşdırmışdır (arxiv sənədləri əsasında).

Fakete Layoş Avropa şəhərlərinin arxivlərində (Vyana və Drezden arxivlərində) saxlanılan və Osmanlı dövlətinə aid olan arxiv sənədlərini araşdırarkən iki məktub tapmışdır. Bu məktubları tədqiq etdikdən sonra Osmanlı dövlətinə deyil, Səfəvi dövlətinə aid olduğunu aşkar etmişdir. Lakin özünün də bildirdiyi kimi, məktublar Azərbaycan dilində (müəllif özü "Türk dili"

deyir) olduğuna görə, bu iki məktubu daha da araşdıraraq, 1936-cı ildə bununla bağlı məqaləsini İstanbul Universiteti Ədəbiyyat fakültəsinin «Türkiyyət məcmuəsi»ndə çap etdirmişdir .

Onlardan biri VI Səfəvi hökmdarı I Şah Səfinin (1629-1642) Müqəddəs Roma imperatoru II Ferdinanda (1619-1637), ikincisi isə IX Səfəvi hökmdarı Şah Sultan Hüseynin (1694-1722) Sakson şahzadəsi və Polşa kralı Fridrix Avqusta (1694-1733) göndərdiyi məktubdur .(2-стр.59-65)

I Şah Səfinin məktubu onun taxta çıxması münasibətilə yazılsa da, Şah Sultan Hüseynin məktubu Fridrix Avqustun göndərdiyi elçiyə cavab məqsədi ilə qələmə alınmışdı. Belə ki, Varşavada Polşa kralı taxtına oturan Fridrix Avqust Osmanlı tərəfindən təzyiqlərə məruz qalırdı. Ehtimal olunan müharibəyə qarşı Səfəvilərlə ittifaq qurmaq ümidilə Yakob Norgiyus adlı elçisini Səfəvi sarayına göndərmişdir. Lakin, özünün vəziyyəti çox pis olan Şah Sultan Hüseyn, elçi vasitəsilə göndərdiyi cavab məktubunda salamından və məmnuniyyətindən sonra elçinin sağsalamat, fəqət boş əl ilə məmləkətinə doğru yola salındığını bildirirdi.

İlk sənədlərin aşkar edilməsindən keçən 30 illik fasilədən sonra Azərbaycan dilinin dövlətlərarası yazışmada işlədilməsinə dair növbəti sənəd 1964-cü ildə filologiya elmləri doktoru Əzizağa Məmmədov tərəfindən aşkar edilmişdir. Şah İsmayıl ədəbi irsinin araşdırmaçısı olan alim Ə.Məmmədov Bakı Dövlət Universitetinin "Elm xəbərləri"ndə nəşr *etdirdiyi "Şah Təhmasibin Azərbaycan dilində bir məktubu"* adlı məqaləsində Səfəvilərin ikinci hökmdarı Şah Təhmasibin Osmanlı hökmdarı Sultan Süleyman Qanuninin oğlu Şahzadə Səlimə (II Səlim (1566-1574)) yazdığı məktub haqqında məlumat vermişdir. Müəllif məktubu Əli Mustafa Çələbinin "Münşaat" əsərindən götürdüyünü bildirmişdir . Bu əsərin üzü 1666-cı ildə İbrahim adlı Osmanlı katibi tərəfindən köçürülmüşdür. Həmçinin Şah Təhmasibin bu məktubuna ixtisarla İbrahim Paşa Peçəvinin əsərində də rast gəlinir .

Məktub Şah Təhmasib tərəfindən Şahzadə Səlimin göndərdiyi məktuba cavab olaraq yazılmışdır (Şahzadə Səlimin məktubu da "Münşaat" əsərində verilmiş və Şah Təhmasibin məktubu "Şah tərəfindən gələn cavabdır" başlığı ilə yazılmışdır) və vəliəhdlik mübarizəsində Şahzadə Səlimə məğlub olaraq Səfəvilərə sığınan Şahzadə Bəyazidin təslim edilməsi məsələsinin müzakirəsindən ibarətdir.

Hal-hazırda bəhs edəcəyimiz sənəd yuxarıda danışdığımız sənədlərdən fərqli olaraq Səfəvi hökmdarlarına aid deyildir. Lakin Azərbaycan dövlətlərindən biri hesab edilən Qaraqoyunlu dövlətinin varislərindən birinə aid olduğu güman edildiyinə və siyasi motivli olduğuna görə bu məktubdan da bəhs etməyi lazım bilirik.

Bu sənəd Cahanşahın nəvəsi olduğunu iddia edən Sultan Hüseyn adlı şəxsin Osmanlı sultanı I Səlimə yazdığı məktubdur.

Bu məktubdan ilk dəfə Azərbaycan tarixşünaslığında 1977-ci ildə S.Onullahi və A. Həsənov bəhs etmişdirlər. Onlar Azərbaycan SSR Ali və Orta İxtisas Təhsil Nazirliyinin "Elmi əsərlər" jurnalında dərc etdirdikləri məqalədə Səfəvilər dövrünə aid 5 sənədi nəşr etdirmişdirlər . Bu sənədlərdən ikisinin (Cahanşahın nəvəsi Sultan Hüseynin I Səlimə məktubu və Şah İsmayılın Musa Turqut oğluna fərmanını) orijinalı hal-hazırda İstanbuldakı Topqapı sarayı muzeyinin arxivində saxlanılır (ərizənin əsli 9658 nömrə altında, fərmanın əsli 5460 nömrə altında). Bu iki sənədi ilk dəfə Şəhabəddin Təkindağ "Yeni kaynak ve vesikaların altında Sultan Selimin İran seferi" məqaləsində arxivdən aşkar edərək yayımlamışdır.

Sultan Hüseyn Baraniyə aid olan məktub Azərbaycanda ilk nəşr edildiyi zaman müəlliflər yazıda sadəcə məktubun surətini verməklə kifayətlənmişdilər. Ehtimal edilir ki, onlar Sultan Hüseynin kim olduğunu müəyyən edə bilməmişdilər. Lakin sonradan Zeynalabdin Əli Əbdi bəyin əsərinin araşdırılması nəticəsində bəlli olmuşdur ki, Şah İsmayıl 1500-cu ildə Anadoluya keçərkən Göyçə ətrafında dayanmış, bu zaman orada hakimiyyətdə olan və özünü Cahanşahın nəvəsi adlandırılan Sultan Hüseyn adlı şəxs tərəfindən "xain fikir ilə qarşılanmışdır" . Görünür

Şah İsmayıl Şah olduqdan sonra bunu unutmamışdır və Sultan Hüseyni 1501-ci ildə Şirvanşah Fərrux Yasarın oğlu Şeyxşahın sarayına sığınmağa məcbur etmişdir. Məktubda da qeyd edildiyi kimi, Şah İsmayıl Şirvanşahdan onun təhvil verilməsini tələb etsə də, müxtəlif bəhanələrlə şahın əmri yerinə yetirilməmişdir. I Səlimin yürüşü zamanı isə Sultan Hüseyn Barani bunu fürsət bilmiş və Sultanın qəbuluna düşməyə çalışmışdır. Əlavə olaraq qeyd edək ki, Sultan Hüseyn Baraninin sui-qəsdi haqqında materiallara Oqtay Əfəndiyevin "Azərbaycan Səfəvilər dövləti" və Faruk Sümerin "Səfəvilər dövlətinin quruluşu" əsərlərində də rast gəlinir və hal-hazırda bir çox tarixçi tərəfindən onun doğurdan da Cahanşahın nəvəsi olduğuna şübhə edilmir.(3-стр.133-148)

S. Onullahinin və A. Həsənovun məqaləsində qeyd edilən digər 4 sənəd aşağıdakılardır:

Şah İsmayılın Musa Turqut oğluna fərmanı;

Səfəvi hökmdarı Məhəmməd Xudabəndənin Osmanlı sərkərdəsi Fərhad paşaya məktubu;

Adını çəkdiyimiz sənədlərdən fərqli olaraq digər iki sənəd Azərbaycan ərazisində hökmdarlıq edən şəxslər tərəfindən qələmə alınmamışdır. Belə ki, bu iki sənəd Osmanlı sultanları Sultan Süleyman Qanuninin və Sultan III Muradın müvafiq olaraq Şah Təhmasibə və Şirvanşahlar sülaləsindən olan Əbubəkr Mirzəyə ünvanladığı məktublardır.

Şah İsmayılın fərmanı 23 iyun 1512-ci il tarixinə aiddir. Bu fərmanı Azərbaycan və Azərbaycan dili tarixində müstəsna edən odur ki, fərman ***Azərbaycan dilində verilmiş ilk dövlət fərmanıdır*** .

Fərman Musa Turqut oğlu adlı şəxsə yazılmışdır. Musa Turqut oğlunun Qaramanlı bəylərindən olması ehtimal edilir. Məktubda Əhməd ağa Qaramanlının Şah İsmayıl tərəfdən oraya hakim təyin edildiyindən bəhs edilir. Fərman bəhs edilən dövrdə Şah İsmayılın Şərqi Anadoluda böyük nüfuza sahib olmasını sübut edir.

Məhəmməd Xudabəndənin Fərhad paşaya məktubu və Osmanlı sultanlarının məktubları Qazi Əhməd Quminin "Xülasət ət-təvarix" adlı əsərinin Berlin nüsxəsindən götürülmüşdür.

1585-ci ildə Osmanlı ordusu İrəvanı tutmuş və Təbrizə gedən yol onlar üçün açılmışdı. Bu zaman Osmanlı ordusunun komandanı Fərhad paşa İsmayıl adlı qasidini Məhəmməd Xudabəndənin yanına göndərərək işğal etdiyi torpaqların əlində qalması şərtilə sülh təklif etmişdir . Xudabəndə isə Azərbaycan dilində yazıb göndərdiyi bu məktubda yalnız Amasiya sülhünün şərtlərini saxlamaqla sülhə razı olduğunu bildirmişdir.(4-стр.39-51)

Osmanlı sultanlarının məktubları o dövrki Səfəvi hökmdarlarının Azərbaycan dilində olan fərman və ya məktublarının dili ilə çox yaxındır. Buna görədir ki, S. Onullahi, A. Həsənov, Süleyman Əliyarlı kimi tarixçilər bu məktubların dilini Azərbaycan dili kimi göstərmişdir. Həmçinin o dövrdə, Anadoluda və Azərbaycan ərazisində danışılan dil bir-biri ilə çox yaxın idi və Fekete Layoşun da bildirdiyi kimi, Osmanlı dövlətində rəsmi sənədlərin yazılmasında istifadə olunan üslub o dövrdə Azərbaycanda istifadə olunan üslubdan xeyli təsirlənmişdir .

Ədəbiyyat:

1. Набиева К. «Методика работы» преподавания межъязыковой лексической интерференции при обучении письменному высказыванию в нац. группах яз. вуза. /Англ. яз./ М. 1976.
2. Волчков Э.Г. «Психологические особенности переноса вербальных и невербальных действий», М. 1979.
3. Рахманов И.В. Методика обучения немецкому языку 8-10 кл. 1950.
4. Беляев В.Б. «Психологические основы усвоения лексики русского языка», М. 1964.

S. İmanova

Azerbaijan language in safavid dynasty

Summary

Turkic languages and dialects played a much more important role in Safavid Iran than is generally thought, while Azerbaijani Turkish in particular was widely spoken and written in Safavid Iran. It was not only the language of the court and the army, but it was also used in poetry, even by renowned poets who usually wrote in Persian. The Safavid shahs, many of whom wrote poetry in Turkish themselves, promoted its literary use. Also, Turkish was used in the court'sofficial correspondence, for both internal and external affairs.During the Safavid period Azerbaijani Turkish, or, as it was also referred to at that time,Qizilbash Turkish, occupied an important place in society, and it was spoken both at court and by the common people. Although Turkish was widely spoken in Safavid Iran this fact is rarely mentioned. Usually neither Persian nor European authors mention in which language people communicated with each other. The Turkish spoken in Safavid Iran was mostly what nowadays is referred to as Azeri or Azerbaijani Turkish. However, at that time it was referred to by various other names. It would seem that the poet and miniaturist Sadeqi Afshar (1533–1610), whose mother tongue was not Azerbaijani Turkish, but Chaghatay (although he was born in Tabriz), was the first to refer to speakers of Qizilbashi (motakallemin-e Qizilbash), but he, and one century later 'Abdol-Jamil Nasiri, were the exception to this general rule of calling the language "Turki."The Portuguese called it Turquesco. Other Europeans and most Iranians called it Turkish or Turki. For the sake of simplicity and to avoid confusion we call the Turkic language used in Safavid Iran, Azerbaijani Turkish. Throughout the Safavid period there were two constants to Azerbaijani Turkish as a spoken language in Iran. First, it was and remained the official language of the royal court during the entire Safavid period. Second, the language remained the spoken language of the Turkic Qizilbash tribes and was also spoken in the army. Browne observed that the Safavid army's war cry "was not 'Long live Persia!'or the like, but, in the Turkish language, 'O my spiritual guide and master whose sacrifice I

Key words: dinasty Safavid,turkic language,Azerbaijani,Iran,stat.

С.Иманова

Азербфйджанский язык в эпохе Сафавидов

Резюме

С начала XIV века районом Ардебиля Иранской провинции Азербайджан, входившим в состав государства Ак-Коюнлу, с 1502 по 1722 гг. всем Ираном. Основателем династии был Исмаил I (1501—1524 гг.), потомок основателя суфийского ордена Сефевие, родом из Ардебиля в Иранском Азербайджане. После победы над Алвендом, правителем тюркского государства Ак-Коюнлу, под Шаруром (в Нахичевани), Исмаил победоносно вступил в Тебриз, где в июле 1501 года провозгласил себя шахом Азербайджана. Исмаил далее подчинил себе весь Иран и в мае 1502 года короновал себя шахом Ирана. Столицей Сефевидского государства стал город Тебриз; впоследствии столица была перенесена в Казвин, а оттуда — в Исфахан, В начале правления Сефевидов в Иране они опирались на тюркские племена кызылбашей и утвердили азербайджанский тюркский язык в качестве языка двора и армии, тогда как персидский

язык был языком гражданской администрации; по-персидски же писались надписи на монетах. С началом XVII, с переносом столицы в Исфахан, в государстве Сефевидов происходит усиление иранского влияния, и персидский язык вытесняет тюркский в официальных сферах, однако при Сефевидском дворе по прежнему говорили почти исключительно по-тюркски.Так, по сообщению Адама Олеария, посетившего Персию во времена правления шаха Сефи I, при дворе Сефевидов говорили на тюркском языке, а персидскую речь можно было услышать крайне редко, и поэтому большинство персов учили в дополнение к своему языку и тюркский.[18]Сефевиды называли себя сасанидским титулом «шаханшах» (царь царей), льстившим национальному самолюбию. На первый план они выдвинули, однако, не национальный принцип, а шиизм, объявив его государственной религией.Происхождение Сефевидов покрыто тайной. Первая генеалогия Сефевидов была написана ибн Баззазом в 1358 году в книге «Савфат аз-сафа», согласно ей род Сефевидов шёл от курда по имени Фируз Шах Зарин Колах.

Ключевые слова: Династия Сафавидов,турецкий язык, Азербайдж.язык,Иран,-гасударства.

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Yusif Süleymanov tərəfindən çapa tövsiyə olunmuşdur

ЛЕЙЛА ЭМИНОВА
АзТУ
Г.Джавид 25.г.Баку.
leylaeminova/@.com.ru.

ИЗУЧЕНИЯ СЕМАНТИКИ ПОСЛОВИЦ И ПОГОВОРОК В СОВРЕМЕННОЙ АНГЛИЙСКОМ И РУССКОМ ЯЗЫКАХ

Резюме

Человек способен понимать мир и самого себя благодаря языку, в котором закрепляется общественно – исторический опыт – как общечеловеческий, так и национальный. Интерес современного человека к своему прошлому, истокам своей культуры заставляет его внимательно всмотреться в язык. Отзвуки давно минувших лет сохраняются сегодня в пословицах, поговорках, фразеологизмах. Это – своеобразные микромиры, содержащие в себе «и нравственный закон и здравый смысл, выраженные в кратком изречении, которые завещали предки в руководство потомкам» (Ф.Буслаев). Именно поэтому пословицы и поговорки занимают особое положение в языке, а их изучение как объекта лингвистического исследования является актуальным.

Изучению пословиц и поговорок посвящено большое количество исследований таких ученых как А.Н.Афанасьев, А.А.Потебня, Ф.И.Буслаев, К.И.Григас, Г.Л.Пермяков, А.Дандис, Х.Касарес, В.В.Гвоздев, Ю.И.Левин, В.П.Жуклв и мн. др.

Пословицы и поговорки – достояние народа, «кладезь народной мудрости». Как полагает Т.Г.Бочина: «Не только по использованию, но и по своему возникновению пословица представляет собой диалогический процесс. За пословицей стоит Имноговековая история народа, она является «для прошлого результатом, а для будущего – возможным действием».(1-s.206)

Пословицы и поговорки существуют у каждого народа, при этом «пословичные когнитивные структуры разных, языков имеют черты сходства и различия, что делает возможным их сопоставительный анализ, а сопоставление пословичного фонда разных языков способно открыть широкие перспективы для межъязыковых (межэтнических, межкультурных) исследований ментальности разных этносов».

Ключевые слова: пословица, язык, народ, лингвистика, статья

Как известно, до настоящего времени однозначно не определено содержание терминов «пословица» и «поговорка». Ключевой вопрос о статусе паремий остается все еще дискуссионным и важным в плане культурологического изучения языка. Попытки определения статуса пословиц и поговорок предпринимаются с помощью из разграничения по данному вопросу.

Из пословиц и поговорок во многом складывается языковая картина мира, определяющая восприятие мира носителями языка. В лингвистике существуют разные определения языковой картины мира. В данной статье мы принимаем следующее определение: «Языковая картина мира – это выработанное многовековым опытом народа, осуществляемое средствами языковых номинаций изображение всего существующего как целостного и многоступенчатого мира в своем строении и в осмысляемых языком связях своих частей, представляющего, во-первых человека, его материальную и духовную жизнедеятельности и, во-вторых, все то, что его окружает:

пространство и время, живую и неживую природу, область созданных человеком мифов и социум».(2-s.201-208)Таким образом, можно сделать, вывод, что комплексное изучение пословиц и поговорок как объекта лингвистического исследования является актуальным. В языковом сознании носителей языка пословицы и поговорки играют большую роль, так как позволяют проникнуть в национально-культурные особенности языковой картины мира нации. Именно всестороннее изучение паремии дает возможность понимания специфики русской ментальности и культуры. Подводя итоги всему вышеизложенному, можно отметить, что богатство паремиологического фонда открывает широкое перспективы для дальнейшего изучения пословиц и поговорок. В заключении, хотелось бы привести высказывание Сабитовой З.К., которое, на наш взгляд, точно раскрывает широту и всеохватность пословиц и поговорок: «Мир слов – многообразен, интересен, увлекателен и еще до конца неразгадан: он так же неисчерпаем как космос, вселенная. Неоднократно подчеркивалось, глубина, всеохватность, емкость, объемность, максимальная наполненность смыслом, одухотворенность, насыщенность идеей, созидательная, животворящая сила, огромная сила его воздействия на человека».

Национальная культура через призму пословиц

Национальная культура наиболее полно и ярко проявляется в таких единицах языках, как слова, фразеологизмы и языковые афоризмы, включающие в себя пословицы, поговорки и крылатые выражения. Именно этот пласт языка непосредственно отражает внеязыковую действительность, называет предметы и явления окружающего нас мира фиксирует содержание, восходящее к условиям жизни народа – носителя того или иного языка, являясь зеркалом и хранителем национальной культуры.

Однако, обращаясь к пословицам и поговоркам, вряд ли можно обойтись без толкования данного языкового явления великим ценителем и собирателем русского слова В.И.Далем, определения которого являются наиболее полным, точным и выразительными. «При таком понятии о пословице мы должны согласиться, а вынуждается силою обстоятельств, как крик или возглас, невольно сорвавшийся с души; это целые изречения, сбитые в один ком, в одно междометье. Сборник же пословиц – свод народной опытной премудрости и суемудрия, это стоны и вздохи, плач и рыдания, радость т веселие, горе и утешение в лицах; это цвет народного ума, самобытной стати; это житейская народная правда, своего рода судебник, никем не судимый. «Что не болит, то и не плачет»; что не дошло до народа, не касалось житья-бытья его, то не шевелило ни ума, ни сердца его и того в пословицах нет; что впуталось, добром либо, лихом, в быт его, то найдете и в пословице … Кто ее сочинил – не ведомо никому; но все ее знают и ей покоряются. Это сочинение и достояние общее, как и самая радость и горе, как выстраданная целым поколением опытная мудрость, высказавшаяся таким приговором. Сочиненная же тогда только становится пословицею, когда пошла в ход, принята в усвоена всеми».Пословицы и поговорки – широко распространенный жанр устного народного творчества. Они сопровождают людей с давних времен. Такие выразительные средства, как точная рифма, простая форма, краткость, сделали пословиц и поговорки стойкими, запоминаемыми и необходимыми в речи.(3-s.23-26)Пословицы и поговорки – древний жанр народного творчества. Они возникли в далекое время, и уходят своими корнями вглубь веков. Многие их них появились еще тогда, когда не было письменности. Поэтому вопрос о первоисточниках стоит еще открытым. Можно выделить такие основные источники возникновения английских пословиц и поговорок: народное литературное, библейское происхождение, заимствование и использование цитат Шекспира в качестве пословицы и поговорок.

Пословицы следует отличать от поговорок. Главной особенностью пословицы является ее законченность и дидактическое содержание. Поговорка отличается незавершенностью умозаключение, отсутствием поучительного характера. Обычно в качестве поговорок приводятся такие выражения, как:

When pigs can fly (русское «когда рак на горе свиснет»).

When two Sunday come together («когда луна в солнцем встретится»).

Иногда очень трудно отличить пословицу от поговорки или провести четкую грань между этими жанрами. Поговорка граничит с пословицей, и в случае присоединения к ней одного слова или изменения порядка слов поговорки часто становится пословицами, а пословицы – поговорками.

Заслуживают внимания те выразительные средства, с помощью которых достигается стойкость или запоминаемость пословиц и поговорок. Одно из таких средств – это точная или ассонансная рифма:

Little strokes fell great oaks. A stitch in time saves nine.

Краткость является существенным аспектом запоминаемых высказываний. Лишь очень немногие пословицы и поговорки многословны, большинство из них содержит не более пяти слов:

Boys will be boys. Dead men tell no tales.

Источники возникновения пословиц и поговорок самые разнообразные. Чтобы стать пословицей, высказывание должно быть воспринято и усвоено простыми людьми. При этом первоисточник высказывания часто забывается.

Превратившись в пословицу, оно становится частью общественного сознания; произносящему пословицу неважно, кто ее придумал. Можно безошибочно предположить, что любая пословица была создана определенным человеком в определенных обстоятельствах, однако для очень многих старых пословиц источник их происхождения полностью утрачен. Поэтому правильнее будет сказать, что пословицы и поговорки имеют народное происхождение, что их первоисточник находится в коллективном разуме народа. Во множестве высказываний, суммирующих повседневный опыт, значение слов, по-видимому, перерастало в форму пословицы постепенно, без какого-либо явного объявления. Фраза “Make hay while the sun shines”, берущая свое происхождение из практики полевых работ, является примером такой пословицы. Любой фермер ощущает правоту этой мысли, не обязательно выражаемой именно этими словами. Но после того как многие сотни людей выражали эту мысль многими различными способами, после многих проб и ошибок эта мысль приобрела, наконец, свою запоминаемую форму и начала свою жизнь в качестве пословицы. Подобным образом, высказывание “Don′t put all your eggs in one basket” возникло в результате практического опыта торговых взаимоотношений.(4стр.110-115)

Другой важный источник английских пословиц – это пословицы и поговорки на других языках. Здесь опять же трудно быть уверенным в первоисточнике. Если пословица прежде, чем стать английской, существовала на латинской, французском или испанском языке, то нет уверенности, что она до этого не была заимствована из какого-либо другого языка. Вполне возможно, что она вначале была английской, но не была записана. Некоторые из наших заимствованных пословиц полностью ассимилировалась в Англии, но многие из них не сумели этого сделать. Нам не нужно много думать над тем, какая латинская пословица легла в основу нашей “He gives twice who gives quickly”, однако пословица “Through hardship to the stars” звучит как-то чужеродно и в меньшей степени похожа на пословицу, чем латинское “Per aspera ad astra”. Большое число заимствованных пословиц осталось в оригинале. Среди них:

Noblesse oblige. In vino veritas.

Пословицы и поговорки, являясь неотъемлемым атрибутом народного фольклора, и в свою очередь, атрибутом культуры данного народа, несут в себе отражение жизни той наци, к которой они принадлежат, это образ мыслей и характер народа.

Сравнение пословиц и поговорок разных народов показывает, как много общего имеют эти народы, что, в свою очередь, способствует их лучшему взаимопониманию и сближению. Необходимо отметить, что многие английские и русские пословицы и поговорки многозначны, что делает их трудными для толкования и сравнения. При отборе русских соответствий английской пословицы обязательным критерием было совпадение одного из значений (как правило, главного). Тем не менее, важно помнить, что, складываясь в различных исторических условиях, английские и русские поговорки и пословицы для выражения одной и той же или сходной мысли часто использовали различные образы, которые, в свою очередь, отражают различный социальный уклад и быт двух народов и часто не являются абсолютными эквивалентами. (5-стр.3-16)

Например, пословица: The glass is always greener on the other side of the fence. Дословный перевод этой пословицы звучит так: Трава всегда зеленее по ту сторону забора. Но в русском языке такой пословицы нет, зато есть другая пословица: Хорошо там, где нас нет.В принципе, эти две пословицы эквиваленты по смыслу. Но дословный перевод русской пословицы будет звучать так: Life is better, where we are not present.

Выявление таких особенностей национальной истории и быта, наблюдений и обобщений, сделанных разными народами и запечатленных в языке я форме пословиц и поговорок, и является предметом исследования, проводимого посредством сопоставительного анализа казахских, русских и английских пословиц и поговорок с применением лингвостранноведческого комментария.Лингвострановедческий комментарий раскрывает национальные особенности восприятия внеязыкового факта, восполнят недостающее фоновые знание, необходимые для понимания незнакомых реалий, а также выявляет специфически национальные, культурно-бытовые или иные коннотации.

Литературы:

1. Маслова В.А. Введение в лингвокультурологию. –М.: Наследие, 1997, s-206.
2. Маслова В.А. Лингвокультурология. –М.: Академия, s.-201, -208 с.
3. Мезенцева Е.С. Пословичный фонд языка как фрагмент языкового сознания этноса // Вестник КазНУ. №2, 2005, -. 23-26.
4. Снегирев И.М. Русские в своих пословицах. Новгород. 1997.стр.110-115
5. Шведова И.Ю. Теоретические результаты, полученные в работе над «Русским систематическим словарем» // Русский язык. №1, 1999, с. 3-16.

L.Eminova

Müasir ingilis və rus dillərində atalar sözü və məsələlərin mənalarinin öyrəniliməsi

Xülasə

Milli mədəniyyət söz, frazeolloji birləşmələr, aforizmlərlə yanaşı atalar sözü, məsəllər, qanadlı sözlər kimi dil səviyyələrini özündə əks etdirir. Məhz dilin bu səviyyəsi dil daxili əlaqələri birbaşa aydışlaşdırır, bizi əhatə edən aləmi və əşyaları adlanıdır, həyatda mövcud olan ifadələri möhkəmləndirir. Məhz bu dil daşıyıcılarla milli mədəniyyətinin güzgüsü və qoruyucusudur.

Atalar sözləri və deyimlər xalq yaradıcılığının qədim janrlarındandır. Onlardan bəziləri yazıdan əvvəl yaranıb. Ona görə də bir çox aforistik ifadələrdə mənbə bəlli deyil. İngilis atalar sözlərinin və deyimlərinin meydana gəlməsinin mənbələri isə bunlardır: floklornümunələri, ədəbi və dini mətnlər. Eyni zamanda görkəmli şəxsiyyətlərin əsərlərindəki ibrətamiz, lakonik, məntiqi ifadələr.

Frazeologiyada atalar sözlərinin işlənməsi mütləq deyil.Onlar nə sözlərin,nə də söz sırasının dəyişməsi mümkün olmayan sabit birləşmələr yardırlar.Sabit birləşmələr də sərbəst birləşmə modelləri əsasında qurulur.

Bir sıra sərbəst birləşmələr kimi, bunlar da cümlənin bir üzvü olur.Lakin sərbəst birləşmələrin komponentləri məna müstəqilliyinə malik olduğu , həqiqi mənada işləndiyi halda , sabit birləşmələrin komponentlərindən biri zəif , son dərəcə ümumi semantikası ilə, yaxud tərəflərdən birinin və ya hər ikisinin məcazi mənada işlənməsi ilə birləşmə komponentlərinin ayrılmazlığına səbəb olur.

Açar sözlər: atalar sözü, dil, millət, linqvistika, məqalə

l.Eminova

Proverbs and sayiings as object of studying in linguistics

summary

The national culture is most fully and brightly shown in such units of language as the words phraseological units and language aphorisms including proverbs, sayings and popular expressions. This layer of language directly reflects extra language reality, calls objects and the phenomena of the world surrounding us, fixes the sontenst which is going back to people living conditions – the native speaker of this or that language, being a mirror and the keeper of national culture.

Proverbs and sayings – an ancient genre of folk art. They have arisen in ancient times, and trace the roots back deep into of centuries. Many of them appeared when there was no writing. Therefore the question of primary sources are still open. It is possible to underline such main sources of emergence of the English proverbs and sayings: national, literary, bible origin, adoption and use of quotes of Shakespeare as proverbs and sayings.

The paremiological units – proverbs and sayings research have been discussed in the article . Semantic stuctural equivalence of the paremiological units in the Azerbaijani, English and Russian languages is considered. These are such proverbs and sayings which anyway correspond in both languages. The attention is concentrated on studying of equivalent paremias in a broad sense. The article says about studying aspects of paremiological units. By the level of phraseological degree paremiological structures are opposed not only to classic sentences , but also aphoristic expressions .Proverbial expressions are subject to the comprehensive analysis both from a semantic point of vieü , and from positions of a structural ratio of three language units.

Key words: proveb, language, people, lingvistics, article.

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Nuriyyə Rzayeva tərəfindən çapa tövsiyə olunmuşdur

VÜSALƏ HƏSƏNOVA
BDU
Zahid Xəlilov
hakse.hasanova@gmail.com

KOREYA VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN MÜQAYİSƏLİ TƏDQİQİ

Xülasə

Məqalədə Azərbaycan və Koreya dillərində başlanğıc səviyyəyə uyğun köməkçi nitq hissələrinin (bocosa) müayisəli tədqiqi aparılmış, hər iki dildə köməkçi nitq hissələrinin oxşar və fərqli cəhətləri araşdırılmışdır. Hər iki dil eyni kökdən törəsə də, Azərbaycan dili Türk dilləri ailəsinin Oğuz qrupuna aid olduğu halda Koreya dili ayrıca Koreya dili qrupuna daxildir. Buna görə bu dillərin quruluşunda oxşar cəhətlər olmaqla yanaşı fərqli cəhətlər də çoxdur. Xüsusilə morfologiya bölməsində nitq hissələrinin təsnifi və cümlədə rolu baxımından fərqli cəhətlər özünü daha çox biruzə verir. Beləki, Koreya dilindən fərqli olaraq Azərbaycan dilində "köməkçi cosa" adlı anlayış yoxdur və Koreya dilində "köməkçi cosa" termini adı altında birləşmiş nitq hissəsi Azərbaycan dilində ədat, bağlayıcı, qoşma, bəzi hal şəkilçiləri və.s müxtəlif qrammatik kateqoriyalara uyğun gəlir. Bu kimi, oxşar və fərqli cəhətlərin müqayisəsinə məqalədə aydınlıq gətrilimişdir. Hər iki dildə köməkçi nitq hissələri və "köməkçi cosa"-ların ortaq cəhətlərinə nəzər yetirsək aşağıdakı kimidir. Hər iki dildə köməkçi nitq hissələri və "köməkçi cosa"lar sözlər, ifadələr, cümlələr və bəzən də mətnin hissələri arasında müxtəlif əlaqələr yaradır və ya sözün, ifadə və cümlələrin mənasına müxtəlif çalarlar əlavə edir. Hər iki dildə köməkçi nitq hissələri və köməkçi cosalar sərbəst şəkildə cümlə üzvü olmaq imkanından məhrumdur. Köməkçi cosa və köməkçi nitq hissələrinin ortaq cəhətləri ilə yanaşı fərqli cəhətləri də vardır. Ən böyük fərq bu iki nitq hissəsinin təsnifi prinsipidir ki, Koreya dilində "köməkçi cosa" əsas nitq hissəsi olan "Cosa"-nın növüdür. Azərbaycan dilində isə "köməkçi cosa"nın əksəriyyəti ədat, qoşma, bağlayıcıya uyğun gəlir ki, bu sözlər Azərbaycan dilində əsas nitq hissəsi deyil, köməkçi nitq hissəsi olaraq təsnif edilir. Koreya dilində əksər "cosa"lar sözün birbaşa kökünə qoşulursa Azərbaycan dilində bu qoşmalar özündən əvvəl hal şəkilçiləri tələb edir. Köməkçi nitq hissələrinin yazılış formasına nəzər yetirdikdə Koreya dilində "köməkçi cosa"-lar sözə bitişik yazıldığı halda, Azərbaycan dilində əksəriyyəti ayrı yazılır. Koreya dilində cümləyə məna çaları əlavə edən "은/는" "köməkçi cosa"-sının Azərbaycan dilində qarşılığı yoxdur. Lakin Koreya dilində bir formada olan "köməkçi cosa" ların Azərbaycan dilində iki və ya daha çox qarşılığı ola bilir.

Açar sözlər: Koreya dilində köməkçi nitq hissələri, qoşma, bağlayıcı, ədat, Azərbaycan dili və Koreya dilinin müqayisəsi, ekvivalent

Azərbaycan dili və Koreya dili eyni dil ailəsinə, yəni Altay dil ailəsinə mənsubdur. Hər iki dil eyni kökdən törədiyinə görə qrammatik baxımdan bir çox ortaq cəhətləri vardır. Lakin Azərbaycan dili Türk dilləri ailəsinin Oğuz qrupuna aid olduğu halda Koreya dili ayrıca Koreya dili qrupuna daxildir. Buna görə bu dillərin quruluşunda oxşar cəhətlər olmaqla yanaşı fərqli cəhətlər də çoxdur. Xüsusilə morfologiya bölməsində nitq hissələrinin təsnifi və cümlədə rolu baxımından fərqli cəhətlər özünü daha çox biruzə verir. Nitq hissələrinin təsnifinə nəzər yetirdikdə Azərbaycan dilində əsasən köməkçi nitq hissələri və hal şəkilçilərinə uyğun olan Koreya di-

lində əsas nitq hissəsi hesab olunan "cosa"-nın tədrisi daha çox çətinlik törədir. Qeyd edək ki, Azərbaycan dilində "Cosa" terminin tam olaraq qarşılığı olmadığından və bu termin adı altında müxtəlif qrammatik komponentler birləşdiyindən bu məqalədə terminin adı olduğu kimi istifadə olunacaq. Xüsusilə də "cosa"-nın bir növü olan "köməkçi cosa" Azərbaycan dili ilə müqayisədə fərqləri çox olduğundan və bu mövzu üzrə heç bir araşdırma olmadığından bu mövzunu tədqiq etməyi qərara aldım. Bundan başqa "cosa"-nın yalnız təsnifi deyil, həmçinin işlənmə məqamları da fərqli olduğundan azərbaycanlı tələbələr bu qrammatikadan istifadə edərkən çətinlik çəkirlər. Məsələn: Azərbaycan dilində "은/는" kimi cümləyə müxtəlif məna çalarları qatan ədat olmadığından, azərbaycanlı tələbələr bu kimi cosaların istifadəsində çətinlik çəkirlər. Koreya dilini yeni öyrənməyə başlayan tələbələr "cosa"-nın təsnifini və köməkçi cosanın Azərbaycan dili ilə fərqli cəhətlərini dərk etsələr Koreya dilini dərindən öyrənməkdə köməyi dəyəcəyini düşünürəm. "Köməkçi cosa"nı araşdırmazdan əvvəl Koreya dilində və Azərbaycan dilində nitq hissələrinin təsnifinə nəzər yetirməyə ehtiyac vardır. Çünki hər iki dildə köməkçi nitq hissəsinin təsnifi və bölgü prinsipləri fərqlidir. Koreyanın dilçi alimlərinin araşdırmalarına əsaslansaq XX əsrin əvvəllərində "cosa" müxtəlif alimlərin təsnifatında əsas nitq hissəsi deyil hal şəkilçisi olaraq kateqoriyalaşdırılmış digər "bağlayıcı və köməkçi cosa"lar isə xüsusi nitq hissəsi adı altında birləşdirilmişdir. Kim Qyuşiqə əsaslansaq "cosa"nı ismin hal şəkilçisi olaraq təqdim etmiş, bundan əlavə Conq Ryolmu, Canq Hail kimi dilçi alimlər də cosa-nı əsas nitq hissəsinin növünə daxil etməmişdir [6, s.163]. Nam Qunqok da "hal kateqoriyası cosa" larını şəkilçi olaraq, yerdə qalan cosaları isə "qoşma"(후치사) olaraq təsnif etmişdir. "Cosa"-nın bu cür təsnifi Azərbaycan dilindəki nitq hissələrinin təsnifinə daha yaxın olduğunu demək olar. Lakin 1963-cü ildə çap olunmuş "Ümumi Orta Məktəb Qrammatikası" (학교문법통일안) dərsliyinə əsaslansaq əsas nitq hissələri 9 növə bölünmüş və "cosa" da əsas nitq hissəsi olaraq kateqoriyalaşdırılmışdır [5, s.78]. Azərbaycan dilində nitq hissələrinin təsnifinə nəzər yetirsək 1956-cı ilə qədər bütün məktəb dərsliklərində nitq hissələrinin 9 növü göstərilmiş əsas nitq hissələri 6 (isim, sifət, say, əvəzlik, feil, zərf) və köməkçi nitq hissələri 3 (qoşma, bağlayıcı, nida) növə bölünmüşdür. Hüseynzadə ilk dəfə olaraq köməkçi nitq hissələrinin növünə ədatı və modal sözləri əlavə etmişdir [2, s. 47]. Koreya dilində olan "Cosa"nın təsnifi ilə bağlı dilçi alimlər arasında müxtəlif fikir ayrılıqları olmuşdur. Bir çox dilçilər (İ İqsob. Çevan, İm Donqhun) "cosa"-nı iki hissəyə bölmüş, buraya hal kateqoriyası və xüsusi cosalar daxil edilmişdir. Digər bir qrup isə (Namqişim Koyonqın) "cosa"-nı üç yerə bölmüş, buraya "hal kateqoriyası", "bağlayıcı cosa" və "köməkçi cosa" daxil edilmişdir. Bu məqalədə orta məktəb dərsliyinin bölgüsü əsas götürülərək "cosa"-lar 3 qrupa bölünmüş və "cosa"-nın bir növü olan "köməkçi cosa" müqayisəli təhlil edilmişdir. Azərbaycan dilinin qrammatikasında cosa-nın yerinə baxsaq biraz daha qarışıq və mürəkkəbdir. Beləki, hal kateqoriyasına aid olan "cosa"-ların bir qismi Azərbaycan dilində ismin hal şəkilçilərinə, bir qismi ismin xəbər sonluğuna, bir qismi qoşmaya daxildir [6, s.201]. "Bağlayıcı cosa"-lar Azərbaycan dilində köməkçi nitq hissəsi olan bağlayıcılara uyğun gəlir. "Köməkçi cosa" isə Azərbaycan dilində qoşma, bağlayıcı, ədat, hal şəkilçiləri və.s qrammatik ünsürlərə uyğun gəlir. Koreya dilində "köməkçi cosa" cümlədə əlaqə yaradan və ya cümləyə məna çalarları əlavə edən sözlərdir. Beləki, bu nitq hissəsinin əsas xüsusiyyəti ondan ibarətdir ki, cümlədə ixtisarı mümkün deyil və adlıq hal, təsirlik hal və.s halların yerində çıxış edə bilir [5, s.138]. Başlanğıc səviyyədə tədris olunan "köməkçi cosa"-ların təhlilinə nəzər yetirək.

"까지" isimlərə artırılır Azərbaycan dilində "qədər, kimi, -dək, -can²" kimi tərcümə olunur. "Səhər saat 12-yə qədər, oktyabrın 30-a qədər" kimi zaman anlayışı bildirən isimlərlə, "evə qədər, kitabxanaya qədər" kimi məkan anlayışlı isimlərlə də istifadə olunur. Forma baxımından heç bir dəyişiklik olmadan birbaşa ismin sonuna qoşulur, məna baxımından sərhəd, bitiş nöqtə-

sini bildirir. Koreya dilindən fərqli olaraq Azərbaycan dilində bu qoşmalar yönlük hal ilə birlikdə işlənir.

"은/는" Azərbaycan dilində qarşılığı yoxdur. Cümləyə müxtəlif məna çalarları əlavə edən "cosa"dır. Əsasən isim, zərf bəzi mürəkkəb feillər və ya bağlayıcıların birinci hissəsinə artırılır. Forma baxımından sözün sait və ya samitlə bitməsindən asılı olaraq iki cür istifadə olunur. Cümlədə əsasən qoşulduğu sözlə birlikdə mübtəda rolunda çıxış edir. Cümlədə mövzunun hədəfini, qarşılaşdırma və ya vurğulama mənalarını ifadə etmək üçün istifadə olunur. Məsələn,

저는 미국에서 온 마이클입니다. (Mənø Amerikadan gəlmiş Mayklam)

철수는 수학을 잘 한다. (Çolsuø riyaziyyatı yaxşı bilir).(vurğulama)

"이나/나" cosası "seçim", "miqdar çoxluğu", "ikinci və ya üçüncü variant olan seçim" və s. kimi mənalarda istifadə olunur. Başlanğıc səviyyədə əsasən "seçim" mənasında tədris olunur və Azərbaycan dilinə "ya/ya da" kimi tərcümə olunur. Forma baxımından isimlərin sait və ya samitlə bitməsindən asılı olaraq iki cür istifadə olunur. Koreya dilindən fərqli olaraq sözə bitişik yazılır. Məsələn, 사과나 배를 먹습니다. (Alma ya da armud yeyirəm).

"도" isimlərə artırılır və hər hansı bir vəziyyət və ya hədəfə "əlavə edilmə" mənasını ifadə edir. Azərbaycan dilinə da/də kimi tərcümə olunur və Azərbaycan dilindən fərqli olaraq sözə bitişik yazılır. Məsələn, 연필도 있고 지우개도 있어요. (Qələm də var, pozan da var)

Bu "cosa" cümlədə adlıq hal və təsirlik hal şəkilçiləri ilə birlikdə istifadə olunmur. Lakin digər hal şəkilçiləri ilə birlikdə işlənir. Forma baxımından dəyişilmədən sözün kökünə birbaşa artırılır və sözə bitişik yazılır."마다" məna baxımından oxşar və ya təkrar olan vəziyyəti ifadə etmək üçün istifadə olunur. Azərbaycan dilinə "hər" kimi tərcümə olunur Azərbaycan dilindən fərqli olaraq isimlərin sonuna artırılır. Forma baxımından bir formada istifadə olunur və isimlərə bitişik yazılır."만" məna baxımından məhdudlaşdırıcı cosadır və Azərbaycan dilinə "ancaq, təkcə, yalnız" kimi tərcümə olunur. Forma baxımından bir formada istifadə olunur və Azərbaycan dilindən fərqli olaraq sözlərə bitişik yazılır sözün sonuna artırılır.

"밖에" həmçinin məhdudlaşdırıcı "cosa"-dır və Azərbaycan dilinə "başqa, özgə, savayı, qeyri" kimi tərcümə olunur. Bu hissəcikdən sonra adətən inkar forma işlənir. Forma baxımından bir formada istifadə olunur. Azərbaycan dilindən fərqli olaraq özündən əvvəl çıxışlıq hal şəkilçisi tələb etmir və sözlərə bitişik yazılır."부터" isimlərə qoşulur və hər hansı hərəkət və ya vəziyyətin başlanğıc nöqtəsini bildirir. Azərbaycan dilində qarşılığı çıxışlıq hal şəkilçisi -dan/dəndir. Forma baxımından bir formada istifadə olunur və sözlərə bitişik yazılır.

Koreya dilindən fərqli olaraq Azərbaycan dilində "köməkçi cosa" adlı anlayış yoxdur və Koreya dilində "köməkçi cosa" termini adı altında birləşmiş nitq hissəsi Azərbaycan dilində ədat, bağlayıcı, qoşma, bəzi hal şəkilçiləri və.s müxtəlif qrammatik kateqoriyalara uyğun gəlir. Hər iki dildə köməkçi nitq hissələri və "köməkçi cosa"-ların ortaq cəhətlərinə nəzər yetirsək aşağıdakı kimidir.Hər iki dildə köməkçi nitq hissələri və "köməkçi cosa"lar sözlər, ifadələr, cümlələr və bəzən də mətnin hissələri arasında müxtəlif əlaqələr yaradır və ya sözün, ifadə və cümlələrin mənasına müxtəlif çalarlar əlavə edir.

Hər iki dildə köməkçi nitq hissələri və köməkçi cosalar sərbəst şəkildə cümlə üzvü olmaq imkanından məhrumdur.

Köməkçi cosa və köməkçi nitq hissələrinin ortaq cəhətləri ilə yanaşı fərqli cəhətləri də vardır. Ən böyük fərq bu iki nitq hissəsinin təsnifi prinsipidir ki, Koreya dilində "köməkçi cosa" əsas nitq hissəsi olan "Cosa"-nın növüdür. Azərbaycan dilində isə "köməkçi cosa"nın əksəriyyəti ədat, qoşma, bağlayıcıya uyğun gəlir ki, bu sözlər Azərbaycan dilində əsas nitq hissəsi deyil, köməkçi nitq hissəsi olaraq təsnif edilir.

Koreya dilində "까지" (Qədər, -dək, -can/cən, kimi), "밖에" (başqa, savayı özgə, qeyri) kimi cosalar sözün birbaşa kökünə qoşulursa Azərbaycan dilində bu qoşmalar özündən əvvəl hal şəkilçiləri tələb edir və sözə ayrı yazılır.Koreya dilində "만" (ancaq, təkcə, yalnız), "마다"

(hər) cosaları sözün sonuna artırılırsa, Azərbaycan dilində bu ədat və əvəzlik sözün əvvəlinə artırılır və sözə ayrı yazılır.

Köməkçi nitq hissələrinin yazılış formasına nəzər yetirdikdə Koreya dilində "köməkçi cosa"-lar sözə bitişik yazıldığı halda, Azərbaycan dilində əksəriyyəti ayrı yazılır.

Koreya dilində cümləyə məna çaları əlavə edən "음/는" "köməkçi cosa"-sının Azərbaycan dilində qarşılığı yoxdur. Lakin Koreya dilində bir formada olan "köməkçi cosa"ların Azərbaycan dilində iki və ya daha çox qarşılığı ola bilir.

Ədəbiyyat

1. Cabbarzadə, İ.X.(1959), Müasir Azərbaycan Dilində İsmin Halları, S.M. Kirov adına Azərbaycan dövlət universiteti Filologiya elmlər namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya işi.
2. Hüseynzadə, M.(2007), Müasir Azərbaycan Dili III hissə, Morfologiya, Şərq-Qərb, Bakı.
3. Xəlilov, B. Müasir Azərbaycan Dilinin Morfologiyası I hissə, Elm, 2007
4. Seyidov, Y. Azərbaycan Dilinin Qrammatikası, Morfologiya, Bakı, 2011
5. 최현배(1961),『우리말본』, 연세대학교 출판문화원, 2012
6. 남기심.고영근(1985/1993),『표준국어문법론』, 탑출판사
7. 최형용(2013),『한국어 형태론의 유형론』, 박이정

Г. Вюсале

Спомогательные и соединительные частицы Корейского языка и их еквиваленты в Азербайджанском языке

Резюме

Языковая норма представляет собой совокупность конкретных, закреплѐнных форм означающего. Если ошибки в сфере системы могут привести к искажению смысла, то нарушения нормы, как правило, к изменению смысла не приводят, но создают представление о неправильности речи. К норме относится сочетаемость языковых элементов. Именно здесь нарушения нормы могут быть особенно многочисленными. Закономерности сочетаемости нередко оказываются «более национально специфичны», чем явления сами по себе. К аспекту нормы относится сочетаемость лексем и грамматических показателей. Знание закономерностей узуса и есть то, что обычно называется чувством языка. Узус отражается в функционировании языковых форм, в том числе падежных, и при сопоставительном рассмотрении языкового материала на их реализацию следует обращать особое внимание. Словоизменение и словообразование в корейском языке осуществляются путѐм присоединения аффиксов к основам. При этом аффиксы указывают на различные стили речи, выражают наклонения, залоги и функционируют в качестве частиц, суффиксов, окончаний и т.д. Помимо общих черт вспомогательного коса и вспомогательных речей, они также имеют свои отличия. Самым большим отличием является принцип классификации этих двух речей, который является типом Коза, которая является ключевой частью «вспомогательного Коза» на корейском языке. На азербайджанском языке большая часть вспомогательного коса дополняет

глагол, наречие и соединитель, которые классифицируются как вспомогательные речи, а не основная часть речи на азербайджанском языке. Вспомогательный косплей, который добавляет смысл к предложению на корейском языке, не имеет ничего общего с азербайджанским. Однако корейские вспомогательные «вспомогательные косы» могут иметь два или более взаимодействий на азербайджанском языке.

Ключевые слова: вспомогательная частица, соединительная частица, эквивалент, предлог

V. Hasanova

Contrastive study of auxiliary particles of Korean and Azerbaijani language

Summary

The purpose of this article is to clarify the corresponding relation between auxiliary particles in the Korean and Azerbaijani language. Both of this languages are historically included in Altaic family language and typologically, are agglutinative languages. That's why there are many similarity between these two languages. Although the Azerbaijan language belongs to the Oghuz group of the Turkic languages, the Korean language is a part of the Korean language. There are many differences between two languages. This study aims to identify its similarity and differences between these two languages and to develop both of learning and teaching methods of Korean. In Azerbaijan language Korean auxiliary particles are not a main part of speech, they classified as postpositions, conjunctions, particles or patterns of case markers and so on. In the beginning of learning Korean, the most language learners feel difficulty while learning auxiliary particles. This process can be eased by understanding the differences of auxiliary particles in Korean and the leaner's native language. By contrasting the differences and similarities with the learner's first language, teaching and learning language can be more affectively achieved. However, there is not literature and contrastive studies about the differences and similarities of the Korean and Azerbaijan language. This paper will help fill in the missing gap of information and add to the resources on this topic. In addition to the common features of the auxiliary cosa and the auxiliary speeches, they also have their differences. The biggest difference is the classification principle of these two speeches, which is the type of Cosa, which is a key part of the "auxiliary cosa" in Korean. In the Azerbaijani language, the majority of the auxiliary cosa is complementary to the verb, adverb, and connector, which are classified as auxiliary speeches and not the main part of the speech in Azerbaijani. The auxiliary cosplay, which adds meaning to the sentence in Korean, has nothing to do with Azerbaijani. However, Korean auxiliary "auxiliary cosas" may have two or more interactions in Azerbaijani.

Keywords: Auxiliary particles in Korean language, postpositions, conjunctions, particles, supporting particles, connective particles, equivalent preposition

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya elmləri doktoru, professor Anar Kərimov tərəfindən çapa tövsiyə olunmuşdur

ELDOST İBRAHİMOV
BDU
Zahid Xəlil küç
eibrahimov@bsu.edu.az

URDU DİLİNDƏ İŞLƏNƏN FARS MƏNŞƏLİ SÖZLƏRİN CİNSİ

Xülasə

Məqalədə urdu dilində işlənən fars mənşəli isimlərin cinsindən bəhs olunur. Bildiyimiz kimi, dilçilikdə olan qrammatik kateqoriyalardan biri də cins kateqoriyasıdır və bu kateqoriya hər bir dildə mövcud deyildir. Məsələn fars dilində cins kateqoriyası yoxdur, amma urdu dilində bu kateqoriya mövcuddur. Fars dilində cins kateqoriyası olmadığına görə də bir qayda olaraq fars dilinin qrammatika kitablarında isimlərin cinsindən bəhs olunmur. Urdu dilində isə canlı isimlərlə yanaşı, cansız isimlərin də hərəsinin öz cinsi vardır. Urdu dilində isimlərin iki cinsi vardır: kişi və qadın cinsləri. Fars mənşəli sözlər də urdu dilinin qrammatik qaydalarına tabe olaraq cins kateqoriyasını qəbul etmişdir. Belə ki, sonu ā (uzun a) səsini ifadə edən "ا" və "ہ" hərfləri ilə bitən isimlər əsasən kişi cinsində, ī (uzun i) səsini ifadə edən ی (çhoti ye) ilə bitən isimlər isə qadın cinsini qəbul etmişdir. Sonu samitlə bitən fars mənşəli alınma sözlərin isə hansı cinsə aid olması semantik uyğunluq prinsipinə əsaslanır. Tədqiqat zamanı məlum olmuşdur ki, urdu dilinə keçmiş sonu samitlə bitən hər bir fars mənşəli ismin bu dildə olan sanskrit mənşəli sinonimi hansı cinsdədirsə, o cinsə aid edilmişdir.

Fars dilindən fərqli olaraq, ərəb dilində cins kateqoriyası vardır və fars dili vasitəsilə urdu dilinə keçmiş ərəb mənşəli sözlər də urdu dilində fərqli cinslərdə olur. Ərəb dilində qadın cinsində olan söz urdu dilində kişi cinsindədir, yaxud da əksinə, ərəb dilində kişi cinsində olan söz urdu dilində qadın cinsindədir. Misal üçün deyə bilərik ki, ərəb dilində olan "şəms" (günəş) sözü qadın cinsindədir, urdu dilinə daxil olan bu söz kişi cinsindədir. Urdu dilində "şəms" sözünün sinonimi olan "surac" sözü kişi cinsində olduğu üçün, "şəms" sözü də kişi cinsini qəbul etmişdir. Bununla yanaşı, onu da qeyd edək ki, sonu "ت" (te) hərfi ilə bitən və qadın cinsində olan bütün ərəb mənşəli sözlər urdu dilində də dəyişməz olaraq eyni cinsdə qalmışdır.

Açar sözlər: urdu, fars, alınma sözlər, cins kateqoriyası

Məlum olduğu kimi, dilçilikdə olan qrammatik kateqoriyalardan biri də cins kateqoriyasıdır və bu kateqoriya dünyada mövcud olan dillərin heç də hamısında yoxdur. Məsələn fars dilində cins kateqoriyası yoxdur, amma urdu dilində bu kateqoriya mövcuddur. Fars dilində cins kateqoriyası olmadığına görə də bir qayda olaraq, fars dilinin qrammatika kitablarında isimlərin cinsindən bəhs olunmur [4, s.247]. Lakin buna baxmayaraq, cins kateqoriyası olmayan dillərdə, o cümlədən də fars dilində, cins anlayışı əsasən leksik-semantik, morfoloji və mürəkkəb sözyaratma üsulları ilə ifadə olunaraq, bu və ya digər cinsə aid edilir və bu yalnız canlı isimlərə aiddir.

İsimlərin leksik yolla cins anlayışını bildirməsi onların leksik-semantik mənası ilə bağlı meydana çıxır. Leksik üsulla cins anlayışı, əsasən aşağıdakı qaydada ifadə olunur:

a) Qohumluq bildirən sözlərin mənasında cins anlayışı (kişi və ya qadın cinsi) ifadə olunur. Məsələn, پدر [pedər] – ata; مادر [madər] – ana; دختر [doxtər] – bacı; پسر [pesər] – oğul; خواهر [xahər] – qız; برادر [bəradər] qardaş; خاله [xale] – xala və s.

b) Heyvan adlarını bildirən isimlərdə cins anlayışı ifadə olunur. Məsələn: قوچ [qoç] – qoç, گسفند [qusfənd] – qoyun, گاو [qav] – inək, نر [nər] – öküz və s.

Morfoloji üsulla cins anlayışının ifadəsində də əsas yeri isimlər tutur. Bu üsulla cins anlayışının ifadəsi aşağıdakı qaydalar üzrə özünü göstərir.

a) Peşə, sənət bildirən isimlərə ərəb dilindən keçmiş "-ə" şəkilçisini artırmaqla kişi cinsində olan sözdən qadın cinsində olan söz düzəldilir. Məsələn, müəllim – müəllimə, şair – şairə

b) Kişi adlarını bildirən xüsusi isimlərə ərəb mənşəli "-ə" şəkilçisini artırmaqla qadın adları düzəldir. Məsələn, Azad – Azadə; Firuz – Firuzə və s.

Sintaktitk üsulla cins anlayışı əsasən izafət quruluşu ilə yaranır. Peşə, sənət bildirən sözlərcins anlayışını ifadə edən isimlərə qoşulur. Məsələn, həkim qız, mühəndis oğlan və s.

Qeyd etdiyimiz kimi, fars dilindən fərqli olaraq urdu dilində cins kateqoriyası mövcuddur. Canlı isimlərlə yanaşı, cansız isimlərin də hərəsinin öz cinsi vardır. Urdu dilində isimlərin iki cinsi vardır: muzakkar – kişi cinsi və muannas – qadın.

A.Kərimovun sözləri ilə desək, urdu dilində olan isimləri məntiqi cəhətdən cinsə görə iki qrupa bölürlər: həqiqi və qeyri-həqiqi isimlər.

1. Kişi və qadın cinsi haqqında həqiqi təsəvvür yaradan canlı isimlərə həqiqi qadın və kişi cinsli isimlər deyilir, başqa sözlə, istənilən halda kişi cinsli ismin qadın cinsində qarşılığı vardır. Məsələn, مرد [mard] – kişi; عورت [ourat] – qadın; فرزند [farzand] – oğul; دختر [duxtar] – qız və s.
2. Hər bir cansız ismin öz cinsi vardır və onlar qeyri-həqiqi qadın və kişi cinsində olur [1, s.88].

Urdu dilində cins kateqoriyasının mövcud olması səbəbindən bu dilə keçmiş alınma sözlər, o cümlədən də fars mənşəli sözlər də urdu dilinin qrammatik qaydalarına uyğun olaraq cins kateqoriyasını qəbul etmişdir. Məsələn, fars dilində olan "میز [miz] – masa" sözünün cinsi yoxdur, lakin urdu dilində bu söz qadın cinsindədir. Yaxud "دروازه [darvaza] – qapı" sözünün fars dilində cinsi yoxdur, urdu dilində isə bu söz kişi cinsindədir. Urdu dilində olan fars mənşəli sözlərin hansı cinsə aid olmasını müəyyən etmək üçün urdu dilində olan cins kateqoriyasının əlamətlərinə nəzər salmaq yerinə düşərdi.

Möləvi Abdul Haqq "Urdu qavaid" (Urdu dilinin qrammatikası) əsərində urdu dilində olan sözlərin cinsi haqqında qeyd edir ki, sonu "د، ذ، ڈ، ر، ز، ژ، ط، ظ، ف، ہ، ب، پ، ت، ج، چ، ح، خ، و، ی" hərflərilə bitən sözlər qadın cinsində olur [7, s.37]. Abdul Haqqın bu fikirləri tam razılaşmaq doğru olmazdı. Çünki, sonu bu hərflərlə bitən bütün sözlər heç də A.Haqqın dediyi kimi qadın cinsində deyil. Məsələn, دروازہ [darvazā] – qapı; بچہ [baççā] – uşaq; سر [sir] – baş; کار [kār] – iş və s. sözlər "ہ" və "ر" hərfləri ilə bitir və urdu dilində bu sözlər qadın cinsində deyil, kişi cinsidədir.

A.Kərimov da sonu ہ "he" hərfi ilə bilətn isimlərin qadın cinsində olmasına diqqət verərək yazır ki, urdu dilində sonu bu hərflə bitən fars, ərəb və sanskrit mənşəli əksər isimlər qadın cinsinə aid edilir. Məsələn تنخواہ [tanxvah] – maaş; پناہ [panah] – sığınacaq; جگہ [caqah] – yer; راہ[rāh] – yol; توجہ [tavaccoh] – diqqət və s. [1, s.92]. Lakin, burada diqqəti çəkən əsas məqamlardan biri budur ki, qadın cinsində olan bu isimlər sonu ہ "he" ilə bitsə də tələffüzdə ā (uzun a) səsini deyil, "h" səsini bildirir. Beləliklə də, buradan belə bir qənaətə gəlmək olar ki, sonu "ہ" (he) ilə bitən hər hansı bir sözün cinsini təyin etmək üçün burada "ہ" hərfinin hansı səsi ifadə etməsinə diqqət yetirmək lazımdır. Əgər sözün sonunda gələn "ہ" hərfi "ā" (uzun a) səsini ifadə edərsə o söz kişi cinsində, "h" səsini ifadə edərsə, onda qadın cinsindədir.

Ümumiyyətlə urdu dilində sonu ā (uzun a) səsini ifadə edən "ا" və "ہ" hərfləri ilə bitən sanskrit mənşəli əksər isimlər (məs: larkā, bakrā və s.) kişi cinsində olduğuna görə, sonu ā (uzun a) səsini ifadə edən bu hərflərlə bitən fars mənşəli sözlər də urdu dilinin qrammatik qaydalarına tabe olaraq kişi cinsindədir.

Lakin, Məhəmməd Sultan Zou Çatqami "Rahbar-i urdu" əsərində qeyd edir ki, sanskrit dilində sonu "ا" ilə bitən üç hərfli sözlər qadın cinsində olduğu üçün, sonu bu sait ilə bitən üç hərfli bütün fars və ərəb mənşəli isimlər də (دوا [davā] – dərma ہوا [havā] – hava, külək; غذا [ğizā] – ərzaq) qadın cinsindədir [5, s.38].

Urdu dilində sonu ان "ān" ilə bitən sözlər (کنوان [kanvān] – quyu; دھوان [dhovān] – yuyucu və s.) kişi cinsində olduğu üçün sonu ان "ān" ilə bitən fars mənşəli sözlər də bu dildə kişi cinsindədir. Məsələn, کارواں [karvān] – karvan; جہاں [cahān] – dünya; آشیاں [aşyān] – yuva və s.

Qeyd etdiyimiz kimi, urdu dilində sonu ا "alif" və ہ "he" (uzun a) saiti ilə bitən sözlər kişi cinsində olduğu kimi, sonu ی (i) ilə bitən isimlər də əksər hallarda qadın cinsində olur və beləliklə, sonu ی (i) ilə bitən fars mənşəli isimlər də qadın cinsini qəbul etmişdir. Məsələn, کشتی [kişti] – qayıq;

ی (ī) şəkilçisi vasitəsilə digər nitq hissələrindən düzələn bütün düzəltmə isimlər də qadın cinsindədir. Məsələn, بلندی [bulandī] – hündürlük; گرمی [qarmī] – yay; سردی [sardī] – qış; زندگی [zindaqī] – həyat; خریدی [xaridī] – alış; کامیابی [kamyabī] – uğur; خوبصورتی [xubsuratī] – gözəllik və s.

Məhəmməd Zeynalabdin "Ayin-i urdu" əsərində qeyd edir ki, sonu "ش" (şin) hərfi ilə bitiən bütün fars mənşəli sözlər urdu dilində qadın cinsindədir. Məsələn, آزمائیش [azmāyiş] – sınaq; کوشش [koşiş] – cəhd; دانش [dāniş] – bilik; خواہش [xāhiş] – xahiş və s. [6, s.48].

Abdul Haqq da bu fikri təsdiq edərək yazır ki, feldən yaranan və sonuna "ش" (şin) hərfi artırılaraq düzələn fars mənşəli bütün isimlər qadın cinsindədir. [7, s.38]

Urdu dilinin qrammatik qaydasına uyğun olaraq sonu ا "alif" və ہ "he" (uzun a) saiti ilə bitən sözlər kişi cinsində olan canlı isimlərin sonundakı ا "alif" və ہ "he" hərflərini ی (i) ilə əvəz etməklə qadın cinsində olan isim düzəltmək mümkündür və bu qayda fars mənşəli sözlərə də aid edilir. Məsələn, دادا [dada] baba – دادی [dadi] nənə; بچہ [baççа] oğlan uşağı – بچی [baççi] qız uşağı; بندہ [banda] kişi bəndə – بندی [bandi] qadın bəndə və s.

Eyni zamanda sonu samitlə bitən fars mənşəli sözün sonuna ا "alif" artırdıqda o söz kişi cinsində, ی (ī) artırdıqda isə qadın cinsində olur. Məsələn, fars dilində olan مرغ [morğ] sözünün sonuna "ا" artırdıqda مرغا [murğā] – xoruz, "ی" artırdıqda isə مرغی [murği] – toyuq olmaqla, biri kişi, digəri qadın cinsində işlədilir.

Məşhur rus tədqiqatçısı Z.M.Dimşits da sonu ā (uzun a) səsini ifadə edən "ا" və "ہ" hərfləri ilə bitən isimlərin (پردہ [pardā] – pərdə; پرزہ [purzā] – alət; گرما [qarmā] – yay; سرما [sarmā] – qış və s.) kişi cinsində, ī (uzun i) səsini ifadə edən ی (çhoti ye) ilə bitən isimlərin (تیزی [tezī] – sürət; سردی [sardī] – qış; گرمی [qarmī] – yay; زندگی [zindaqī] – həyat və s.) isə qadın cinsində olduğunu qeyd edərək yazır ki, sonu samitlə bitən fars mənşəli alınma sözlərin isə hansı cinsə aid olması semantik uyğunluq prinsipinə əsaslanır. Belə ki, urdu dilinə keçmiş hər bir fars mənşəli ismin bu dildə olan sanskrit mənşəli sinonimi hansı cinsdədirsə, o cinsə aid edilmişdir. Məsələn, *lab* (fars) // *hont* (sanskrit) "dodaq"; *qoşt* (fars) // *mans* (sanskrit) "ət"; *parçam* (fars) // *chanda* (sanskrit) "bayraq" və s. isimlər kişi cinsində, *zaban* (fars) // *cibh* (sanskrit) "dil"; *şarm* (fars) // *lacca* (sanskrit) "ayıb"; *zamin* (fars) // *bhumi* (sanskrit) "yer"; *şab* (fars) // *rat* (sanskrit) "gecə" və s. sözlər isə qadın cinsindədir [2, s.43].

Semantik uyğunluq prinsipinə münasibət bildirən Ş.Sabzvari yazır: "Elə fars mənşəli sözlər vardır ki, onlar urdu dilində bir neçə mənada işlədilir və bu tip sözlər ifadə etdiyi mənalardan asılı olaraq, hər iki cinsi – həm kişi, həm də qadın cinsni qəbul etmişdir. Məsələn, fars dilində "آب" (āb) sözü, urdu dilində həm "su", həm də "parıltı" mənalarında işlənir. Bu söz urdu dilində "su" mənasında işləndikdə kişi cinsində, "parıltı" mənasında işləndikdə isə qadın cinsində olur. Çünki, sanskrit dilində "su" sözünü ifadə edən پانی [pani] sözü kişi cinsində, "parıltı" sözünü ifadə edən چمک [çamak] sözü isə qadın cinsindədir [3, s.69]. Lakin Ş.Şabzvarinin bu fi-

kirləri öz təsdiqini tapmamışdır. Çünki, bütün urdu dili lüğətlərində “آب” (āb) sözü yalnız kişi cinsindədir.

Maraqlı faktlardan biri də budur ki, fars dilindən fərqli olaraq ərəb dilində cins kateqoriyası vardır və fars dili vasitəsilə urdu dilinə keçmiş ərəb mənşəli sözlər də urdu dilində fərqli cinslərdə olur. Ərəb dilində qadın cinsində olan söz urdu dilində kişi cinsindədir, yaxud da əksinə, ərəb dilində kişi cinsində olan söz urdu dilində qadın cinsindədir. Məsələn, ərəb dilində olan “şəms” (günəş) sözü qadın cinsindədir, urdu dilinə daxil olan bu söz kişi cinsindədir. İ.Cavid bu haqda yazaraq qeyd edir: “Urdu dilində “şəms” sözünün sinonimi olan “surac” sözü kişi cinsində olduğu üçün, “şəms” sözü də kişi cinsini qəbul etmişdir” [4, s.248].

Deməli, ərəb mənşəli isimlərin də cinsi də urdu dilində semantik uyğunluq prinsipinə əsaslanır. Lakin urdu dilində olan bütün ərəb mənşəli sözlər bu prinsipə əsaslanmır. Belə ki, ərəb dilində sonu ت “te” ilə bitiən sözlər ərəb dilində qadın cinsindədir və bu sözlər urdu dilində də qadın cinsindədir. Yuxarıda qeyd edildiyi kimi, urdu dilində sonu ت “te” ilə bitən sözlər qadın cinsində olduğu üçün, ərəb mənşəli bu sözlərin cinsi urdu dilində dəyişməz olaraq qalır.

Yuxarıda deyilənləri nəzərə alsaq, urdu dilində işlənən fars mənşəli isimlərin də urdu dilinin qrammatik qaydalarına uyğun olaraq bu və ya digər cinsə aid olmasını aşağıdakı prinsiplərə görə təsnif etmək olar:

Sonu ā (uzun a) səsini ifadə edən “ا” hərfi ilə bitən fars mənşəli sözlər kişi cinsindədir. Məsələn, پیما [peymā] – ölçü; سیما [sīmā] – üz və s.

Sonu “ا” ilə bitən üç hərfli sözlər qadın cinsində olur. Məsələn, دعا [duā] – dua; صدا [sadā] – səs və s.

Sonu “ه” (he) ilə bitən hər hansı bir sözdə “ه” hərfi “ā” (uzun a) səsini ifadə edərsə o söz kişi cinsində, “h” səsini ifadə edərsə, onda qadın cinsindədir. Məsələn, راه [rah] (q.c) – راستہ [rasta] (k.c) – yol; سربراہ [sarbarah] (q.c) – başçı; آئینہ [ayinā] (k.c) – güzgü və s.

Sonu ی (ī) ilə bitən bütün fars mənşəli isimlər qadın cinsini qəbul etmişdir. Məsələn, صدی [sadī] – əsr; سبزی [sabzī] – tərəvəz və s.

Sonu samitlə bitən hər bir fars mənşəli ismin bu dildə olan sanskrit mənşəli sinonimi hansı cinsdədirsə, o cinsə aid edilmişdir. Lakin istisna olaraq sonu “ش” (şin) və “ت” (te) hərfləri ilə bitiən bütün fars mənşəli sözlər urdu dilində qadın cinsindədir. Məsələn, تلاش [talāş] – axtarış; تراش [tarāş] – təraş və s.

Mürəkkəb isimlərin cinsinə gəldikdə isə, komponentlərinin hər ikisi kişi cinsində olan mürəkkəb sözlər kişi cinsində, kompomemtlərinin hər ikisi qadın cinsində olan mürəkkəb sözlər isə qadın cinsində olur. Lakin əgər mürəkkəb sözün komponentlərindən biri kişi, digəri qadın cinsinə aiddirsə, onda həmin söz ikinci tərəfin cinsini qəbul edir. Məsələn, آب و ہوا [ab-o-hava] – iqlim (q.c) → آب [ab] – su (k.c) + ہوا [hava] – hava (q.c); دل و جگر [dil-o-ciqar] – cürət (k.c) → دل [dil] – ürək (k.c) + جگر [ciqar] – ciyər (k.c) və s.

Ədəbiyyat

1. Kərimov A.R. Urdu dilinin qrammatikası. Bakı, Adiloğlu, 2010, 395 səh.
2. Дымшиц З.М. Грамматика языка урду. М 2001
3. ڈاکٹر شوقت سبزواری ۔ اردو قواعد ۔ ۱۹۲۷
4. ڈاکٹر عصمت جاوید۔ اردو پر فارسی کے لسانی اثرات ۔ ۱۹۸۷
5. مولانا محمد سلطان ذوق چاتگامی۔ رہبر اردو۔ کراچی، ۱۳۹۸ ح
6. مولوی محمد زین العابدین۔ آئین اردو۔ پنجاب، ۱۹۲۶
7. مولوی عبدالحق۔ قواعد اردو۔ ۱۹۱۲
8.

Э. Ибрагимов

Род персоязычных заимствований в языке урду

Резюме

В статъе исследуется вопрос о роде существителъных, персидского происхождения в языке урду. Как известно, род является одной из грамматических категорий в языкознании, но данная категория имеется не в каждом языке. Например, она отсутсвует в персидском языке, при этом имеется в языке урду. В связи с отсутствием данной категории в персидском языке, она не исследуется в грамматиках этого языка. В языке урду все существителъные, как одушевленные, так и неодушевленные, имеют категорию рода. В языке урду два рода: мужской и женский. Слова персидского происхождения, подчиняясъ грамматическим законам языка урду, приняли категорию рода. Существителъные, где буквы “ا” и “ہ” обозначают конечный долгий звук «а», в основном, относятся к мужскому роду, а существителъные закончивающиется буквой ی (ī) для обозначения долгого звука «и», приняли женский род. Определения рода заимствованных слов из персидского языка с окончанием на согласную букву основывается на принсипе семантического соответствия. Во время исследования выявилосъ что любое заимствованное существителъныеное персидского происхождения в языке урду с окончанием не согласную букву имеется в этом языке синонимичное слово с происхождением языка санскрит к какому роду относится, к такому роду относится и в этом языке.

В отличии от персидского языка категория рода присутствует в арабского языка в язык урду заимствования имеют различный род. Слова женского рода в арабском языке, в языке урду бывают в мужском роде, и наоборот, слова мужского рода в арабском встречаются в урду в форме женского рода. Для примере можем привести слова “шемс” (солнце), которое в арабском языке в форме мужского рода. Так как в языке урду имеется синоним этого слова – слово “сурадж” и она мужского рода, следователъно, слово “шемс” также приняло форму мужского рода. Наряду с этим, отметим, что все слова арабского происхождения с исходом на “ت” (те) и именещие форму женского рода, остается не изменным, сохраняют эту форму и в языке урду.

Ключевые слова: урду, персидский, заимствованное слово, род

E.Ibrahimov

The gender of Persian loanwords in Urdu

Summary

This article is about the gender of nouns of persian origin and used in Urdu. As we know in linguistics, gender is one of the categories. This category does not exist in all languages. For example, there is no gender category in Farsi but in Urdu it is. Because there is no gender in the Persian language, there is no mention of sex in the grammar books of the Persian language. But in Urdu, it has the same name as the soul of the soul. In Urdu the names have two genders. Male and Female. Words of Persian origin, like Urdu words, have been subordinate to the command and accepted the gender. So the names that make the sound “a" or "a" loud and end with

the letters "ا" and "ہ", especially in the male gender, but the names that make the sound "ī" or "ı" and end with "ی (chotee ye), accept the female gender. Persian consonant words ending with a consonant are determined by their semantic match. During the research, it has been found that any noun ending in consonant, accepted in Urdu, has adopted the synonymous gender of its sanskrit language.

Of course, it is different from the Persian language, in Arabic there is a gender category. Arabic words spoken by Urdu in Farsi come in different genders. The word in the Arabic language is male, in Urdu it is female or in the opposite it is male in Urdu. For example, we can say that the word "Shams" has the female gender in Arabic, but as it comes into Urdu, it accepts the male gender. Because in the Urdu language it is synonymous with the word "Shams" meaning "Sooraj", it also accepts it completely. Besides, the Arabic words ending with the letter "T" and having the female gender do not change the Urdu language and keep their gender.

Key words: Urdu, Persian, loanwords, gender

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.05.2019
Filologiya elmləri doktoru, professor Anar Kərimov tərəfindən
tərəfindən çapa tövsiyə olunmuşdur

XATİRƏ NƏCƏFOVA
BDU
Zahid Xəlilov
e-mail: javid.najafov@ikma.com

MÜASİR AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ SƏNƏT-PEŞƏ TERMINLƏRİNİN STRUKTUR-SEMANTIK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Qeyd etməliyik ki, söz yaradıcılığı anlayışı ilə dilçilikdə iki linqvistik hadisəni izah edirlər. Birincisi dildə olan hazır modellər və nümunələr əsasında affiksiya və digər formal vasitələrlə eyniköklü sözlərdən düzəltmə və mürəkkəb sözlərin yaradılması söz yaradıcılığı hesab edilir. Söz yaradıcılığının digər mənası daha geniş əhatə dairəsinə malikdir. Belə ki, söz yaradıcılığı dilçilikdə düzəltmə və mürəkkəb sözlərin yaranmasının, quruluşunun və təsnifatının bütün aspektlərini öyrənən müstəqil bir sahədir.

Söz yaradıcılığı nominasiya prosesini və onun nəticələrini təmin etməklə insanın dərketmə fəaliyyətində əhəmiyyətli rol oynayır. Söz yaradıcılığı həm də dilin lüğət tərkibinin zənginləşməsinin və nitq hissələri arasında əlaqələrin yaradılmasının əsas vasitələrindən biridir.

Söz yaradıcılığına verilən digər bir tərifdə deyilir ki, o dilin motivə edilmiş təksözlü işarələrinin yaradılması haqqında elmdir.

Zənginləşmə elə bir prosesdir ki, burada lüğət tərkibinin diaxron mənzərəsi açılır, tarixi - mədəni inkişafın dildə faktlaşma üsülları meydana cıxır. Ona görə də dilin lüğət tərkibinin zənginləşməsində əsas mənbə dilin daxili imkanlarıdır. Məlumdur ki, türk dilləri leksikasının zənginləşməsi həm daxili imkanlardan, materiallardan, vasitələrdən və yollardan istifadə yolu ilə sözdüzəltmə hesabına, həm də dünyanın başqa dillərindən sözalma hesabına olur. Dilin lüğət tərkibinin zənginləşməsinin əsasında dildə olan sözlərin semantik mənasının genişlənməsi, söz yaradıcılığı üsulları, başqa dillərdən tərcümə prosesi(kalkaetmə) və alınmalar durur.

Xüsusilə, müasir dövrdə ingilis və rus dilindəki elmi-kütləvi ədəbiyyatın təsiri altında müxtəlif materialların Azərbaycan dilinə tərcüməsi ilə əlaqədar dilimizə bir cox söz və terminlər keçmiş və bunların quruluşu kimi formalaşan yeni söz və ifadələr yaranmağa başlamışdı. Belə ki, ictimai - iqtisadi, siyasi inkişaf dilin söz yaradıcılığı sistemində də özünü göstərir, yeni növlü leksik - qrammatik vahidlərin yaranmasına səbəb olur.

Açar sözlər: peşə, kontekst, meyar, dil, söz

Hər bir sözün yaranması müəyyən ehtiyacdan doğur. Ünsiyyətin müəyyən şəraitə bağlı ehtiyacından yaranan söz sonra bütün dil daşıyıcıları üçün zərurətə çevrilir. Əslində dilin lüğət fonduna daxil olmuş sözün hər birinin etimologiyasına gedib çıxmaq olar, amma bu xüsusi elm sahəsi olan etimologiyanın mövzusudur.

Adətən etimon axtarışı ulu dilə gedib çıxır, bəzən də başqa dillərlə qarşılıqlı tarixi əlaqənin aşkar olunmasını tələb edir.

Termin problemi ilə bağlı hər cür məsələnin şərhində dildə bu və ya digər sənət-peşə terminlərinin yaranmasını gerçəkləşdirən bütün amillər nəzərə alınır.

Bu amillər aşağıdakılardır:

1. Təcrübə;
2. Linqvistik texnika;
3. İnsan psixologiyası və ayrıca fərdin rolu;

4. Cəmiyyətin rolu;
5. Xarici şəraitin təsviri;
6. Adlandırma və dil sistemi;
7. Dilin, təfəkkürün real gerçəkliklə qarşılıqlı münasibəti[4,s.147].

Dilçilikdə peşə-sənət terminlərinin semantik təkamülü, məna diferensiallaşması, semantik inkişafın səbəbləri və istiqamətləri haqqında fikirlər vardır. D. S. Lotte yazır: ”Adi söz sənət-peşə termininə çevrilərkən terminlər sistemində müəyyən məna kəsb edir[5,s. 34]. M. Qasımov sənət-peşə terminlərinin semantik baxımdan inkişafı prosesində üç əsas mərhələni qeyd edir:

1. Adi məişət sözlərinin sənət-peşə termininə çevrilməsi;
2. Sənət-peşə terminlərinin mənasının xüsusiləşməsi;
3. Sənət-peşə terminlərinin genişlənməsi [2, s.20].

S. Sadıqova isə semantik üsulla yaranan iki prosesin müşahidə olunduğunu qeyd edir:

1. Ümumişlək məna daşıyan sözün məna cəhətdən genişlənib sənət-peşə termini mənası ifadə etməsi;
2. Sənət-peşə terminlərinin özünün semantik cəhətdən genişlənib daha yeni məna kəsb etməsi[2, s.300].

Sənət-peşə terminləri müasir Azərbaycan və ingilis dillərinin bədii üslubunu zənginləşdirir. Dilçilkdə bu vahidlər daim inkişafdadır.

Qeyd edək ki, bəzi peşə adları xüsusi isimlərə çevrilmişdir. Məsələn, Ovçu, Dəmirçi, Alim və s.

Gizirin şəklini gətirdilər. Alıb baxdım [8,s.96].

Yuxarıdakı cümlələrdə “gizir” sözü peşə adının xüsusi ismə çevrilməsi ilə meydana gəlmişdir.

Dil materiallarını gözdən keçirsək orada xeyli peşə, sahə terminlərinin işləndiyinin şahidi olarıq.

Bu sözlər cümlə konturunda xüsusi əlamətləri ilə diqqət çəkir, sintaktik vəzifəni həyata keçirirlər.

Müasir Azərbaycan dilindəki digər cümləni nəzərdən keçirək:

“Kişi qanrılıb bir xeyli aralıda gəzişən aqronoma başı ilə işarə elədi” [8,s.229].

Bu cümlədə isə aqronom” sözü sənət-peşə bildirir.

Qeyd etməliyik ki, sahə termininin təqdimatı həm yeni sözdə, həm də mənaca ona yaxın olan sözlərin semantik quruluşunda dəyişikliklər yaradır. Həm Azərbaycan, həm də ingilis dilində sənət-peşə terminlərini şərtləndirən cəhətlər təxmini olaraq aşağıdakılardır:

Qloballaşma;
Mədəniyyətlərarası əlaqələr;
Sosial-iqtisadi amillər;
Xalqların istila edilməsi;
Digər xalqlarla dostluq münasibətlərinin formalaşması;
Coğrafi şəraitin gətirdiyi məcburi şərtlər;
Obyektiv inkişaf qanunları və s.

Terminlərin çoxu sözdüzəldici şəkilçilərin ingilis dilində meydana gəlməsi ilə yaranır. Məsələn: ingilis mənşəli –er– icra edən mənasında işlədilən suffiks XVI əsrdə latın dilindən keçən yunan mənşəli –ist– şəkilçisinin sinonimidir. Hər iki şəkilçiyə sənət-peşə bildirən isimlərdə rast gəlinir, işin icraçısını müəyyənləşdirməyə xidmət edir. Məsələn: teacher, driller, driver, writer, journalist, botanist, economist və s. Bu şəkilçilər bəzən bir-birindən fərqlənir.

–er– şəkilçisindən fərqli olaraq –ist– şəkilçisi:

Əksər hallarda ismə əlavə oaraq işlədilir: violinist, receptionist

Bir qayda olaraq, german mənşəli olmayan söz bəzən german mənşəli sözlərə əlavə edilir: walkist, rightist

Doktrina və ya sistem, siyasi partiya, ideologiya tərəfdarı mənasında işlədilir. Communist, Marxist, chartist, Darwinist və s. " Qanun tərəfdarı" mənasında işlədilən –ist – şəkilçisinə malik sözlə "nəzəriyyə" bildirən –ism– şəkilçili mücərrəd isimlərlə uyğunluq təşkil edir. Məsələn: communism, socialism və s.

Müasir dövrdə kargüzarlıq sahəsində bir sıra sahə terminləri mövcuddur. VDKS adlı termin adətən Beynəlxalq Yazışmalar Sistemi ilə birgə işlədilir. BYS və VDKS də sahə terminləri kimi nəzərdən keçirilir. DSMB deyilən məxvi kargüzarlıq sahəsi daha aydın şəkildə dövlət sirrinin saxlanılması bölməsidir ki, burada dövlət tərəfindən ayrılmış şəxs bu işlərə nəzarəti həyata keçirir.

Bundan əlavə, turizm sahəsinə nəzər salsaq, "tur, turbroker, turizm, turist" kimi sənət-peşə terminlərinə rast gələ bilərik.

Onu da qeyd edək ki, turizm sahəsinə aid olan olan terminlərin böyük əksəriyyəti morfoloji yolla düzəlir.

Bunlar aşağıdakılardır:

çı, çi, çu, çü (reklamçı, bukletçi, tərcüməçi);
lıq, lik, luq, lük (agentlik,turagentlik);
lı, li, lu, lü (ekipajlı, bahalı);
sız, siz, suz, süz (ekipajsız, rüsumsuz);
ıcı,ici,ucu, ücü (icraedici, idarəedici);
ıntı,inti, untu, üntü (gəzinti, çıxıntı);
ma, mə (bronlaşdırma, qidalanma);
iş, iş, uş, üş (yarış, göstəriş);
maq,mək (satmaq, getmək);
maz, məz (daşınmaz, qaçılmaz).

Beləliklə, aydın olur ki, xeyli miqdarda terminlər bu sahədə fəal olaraq işlənirlər.

Misallara nəzər salaq:

" For, it was to be seen with half an eye that he was a thorough gentleman, made to the model of the time; weary of everything, and putting no more faith in anything than Lucifier"[11,s.127].

Yuxarıdakı misalda "model" sözü incəsənət sahəsinə aid olan termin kimi qiymətləndirilir.

Digər bir mikromətnə nəzər salaq:

"The result of varietes of boredom I have undergone, is a conviction, that any set of ideas will do just as much good as any other set and just asmuch harm as any other set. There is an English family with a charming Italian motto: What will be, will be. It is the only truth going![10,s.137].

Burada "İtalian motto" söz birləşməsi rəssamlıqla bağlı sahələrdə işlədilən termindir.Bu sahəni tədqiq edən alimlərdən T. Henry, K.Larcy, S.Selinceo, J. Lackstrom, M. Todd-Trimble və L. Trimblin adlarını qeyd etmək olar. Onlar sahə terminləri ilə bağlı məlumatlarda müstəqil "info" nun dialoq nitqi şəklində verilməsini xarakterik hesab etmirlər.

Qeyd etməliyik ki, sənət-peşə terminləri sahə terminologiyasının əsasında dayanır.

Müasir ingilis dilində də sənət-peşə terminlərinin istifadəsi zamanı predikativliyin sözlərin müəyyən qaydada düzülüşündən və müəyyən qrammatik üsullarla əlaqələnməsindən meydana gəldiyi göstərilir. Sənət-peşə terminlərindən istifadə mətn-kontekst vasitəsilə həyata keçirilir.Sənət-peşə terminlərinin yaranmasında köhnə və yeni informasiyasının qarşılıqlı şəkildə birbirini izləməsi dil strukturlarının dinamikasını müəyyənləşdirməyə imkan yaradır. Sənət-peşə terminləri yaranarkən müəyyən prosedur qaydaların ardıcıllığı vacib sayılır.

Beləliklə, sənət-peşə terminləri müəyyən qayda və qanunlara tabe olsa da öz rəngarəngliklə-ri, nümayiş etdirdikləri "dil performansları" ilə diqqət çəkir.

Aşağıdakı cümlə də maraq doğurur:

"Bobby Holloway says my imagination is a three hundred -ring circus. Currently I was in ring two hundred and ninety –nine , with elephants dancing and clowns cartwheeling and ti-gers leaping through rings of fire[10,s.98].

"Clowns " sözü səslənmə baxımından maraq doğurur.

"Harold Gattley's new girl friend - a teacher alone received no fission". (Harold Gattleyin yeni qız dostu – müəllimə tək qərar vermədi.)[10,s.393].

"Colonel" sözündən bəhs etmişkən, Jane Austenin " Pride and Prejudice "

əsərindən götürülmüş parça da italyan kökənli bu sözün müxtəlif vaxtlarda ingilis bədii nəsrinin ən işlək nümunələrindən biri olduğunu təsdiqləyir.

"Colonel Forster arrived here yesterday. He tells us that one of the officers, a close friend of Wickam, believes that Wickam never intended to go to Scotland, or to marry Lidya at all .

The colonel followed the couple as far as London , but they have not been seen leaving the capital. Our anxiety, my dear Lizzy, is very great. My teachers believe the worst , and the colonel fears Wickam is not a man to be trusted , but I can not believe to be so wicked" ((Polkovnik Forster buraya dünən gəldi. O bizə deyir ki, zabitlərdən biri olan Vikamın yaxın dostu inanır ki, Vikam heç vaxt Şotlandiyaya getmək və Lidya ilə evlənmək niyyətində olma-mışdır. Polkovnik cütlüyün arxasınca getmiş, amma onların paytaxtı tərk etdiyini görməmişdir. Mənim narahatlığım, əzizim Lizi, çox böyükdür. Mənim müəllimlərim bu barədə pis fikirdədir, polkovnik qorxur ki, Vikam ona etibar ediləcək adam deyil, amma mən inana bilmirəm ki, o be-lə qəddardır)[12, s.82].

"Teacher" sözü sənət-peşə terminidir. Təhsil sahəsində işlədilir.

And, taking coat and hat again, driver directed to moving eastward". (Onunla bağlı baş ve-rənlər onu yatmağa qoya bilməzdi. Və, sürücü paltosunu və papağını götürərək, şərqə doğru is-tiqamətləndi)[11,s.45].

Burada isə "driver" sürücülük termini kimi işlədilmişdir.

Bəzi misallara nəzər salaq:

Məsələn: "Well, Judge Thatcher, the vilonist, took it and put it out of interest, and it fetc-hed us a money a day a piece all the round. The window Douglas, she took me for her son"[10,s.46].

"Violonist" sözü musiqi sahəsinə dair sənət- peşə bildirən termindir.

Beləliklə, sənət-peşə terminləri ilə bağlı sahə terminlərinin işləndiyi sahələrə təhsil, turizm, kargüzarlıq və s. aid edilir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Abdullayev K. Azərbaycan dilinin sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1999, 281 s.
2. Qasımov M. Azərbaycan terminologiyası. Bakı: Mütərcim , 2007,192 s.
3. Sadıqova S. Azərbaycan dilinin terminologiyası. Bakı: Elm 2011, 380 s.

Rus dilində

4. Арнольд.В. Стилистика современного английского языка. М. 1990. 500 с.
5. Лотте Д. Основы построения научно- технической терминологии. Изд-во, АН СССР,М., 1961, 158 с.

İngilis dilində

6. Ewer, J.R. Hughes-Davies, E. "Further notes on Developing an English Programme for Students of Science and Technology" in Swalls (ed., 1985),pp.34-45
7. George Yule, The study of language, London: Cambridge, 1996, 307 p.

İstifadə olunmuş mənbələr

8. Çəmənzəminli Y .V. Ayrılıq axşamı,Bakı: Gənclik,1971, 100 s.
9. Məlikzadə İ. Gümüşgöl əfsanəsi. Bakı: Yazıçı,1989,584 s.
10. Hemingway E. To have and have not. M: Международные отнощения,1978, 216 p.
11. John Galsworthy. "The Forsyte Saga ". In chancery Book: II Progress,1987, 303p.
12. Jane Austen ." Pride and Prejudice". Oxfotd University Press, 1998, 108 p.

Kh. Najafova

The semantical-structural characteristics of the terminology of denoting professions in modern English and Azerbaijani languages

Summary

The article deals with the semantical-structural characteristics of the terminology of denoting professions in English and Azerbaijani languages . While analyzing great attention was given to the facts taken from the linguistic literature. One of the important goals of the article is to detect and find out the characteristics of this terms. The author emphasizes the role of this words. It is noted that this gives us more power to understand the process clearly and use the language more competently. The analysis shows that these components are interrelated. They are interact and complement each other in the process of speech continuum**.** To complete the task, they may use the language that the instructor has just presented, but they also may draw on any other vocabulary, grammar, and communication strategies that they know. In communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Communicative output activities involve a similar real information gap. In order to complete the task and know the terms students must understand the meaning. In these activities, language is a tool, not an end in itself. In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output. At all proficiency levels, including beginners, benefit from this variety, it is more motivating, and it is also more likely to result in effective language learning. They often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process.

The author tries to detect and describe the ways on this problem. One of the main goals of language learning is to acquire the ability to communicate effectively. Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented systematic. The author emphasizes the role of it, referring to the works of scientist that have been researched in this field of linguistics. She emphasizes that since its emergence, this caught the attention of linguistics and new researches appeared.

Key words: profession, context, criteria, language, word

Наджафова Х.

Структурно- семантические характеристики слов профеции на современном Азербайджанском и английском языках

Резюме

Статья посвящена k структурно- семантическому характеристику слов профеции в Азербайджанском и английском языках. В анализе большое внимание обращено на фактом, полученные из лингвистических литератур. Автор пытается раскрыть характеристику этих слов. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл текстов во время анализа еще более ясно, а также использовать язык в еще более разнообразном колорите. Анализ показывает, что эти компоненты взаимосвязаны. Они в процессе формирования взаимодействуют и дополняют друг друга.

Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке. Процесс обучения язык в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Основной целью Государственной программы является формирование единой обшенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании.

Ключевые слова: профеция, контекст, критерия, язык, слова

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən tərəfindən çapa tövsiyə olunmuşdur

ŞAHİN YUSİFLİ
BDU. İran filologiyası
Zahid Xəlilov
shyusifli@bsu.edu.az

"شطرنج" KOMPONENTLİ LEKSİK VAHİDLƏRİN FARSDİLLİ ƏDƏBİYYATIN ZƏNGİNLƏŞMƏSİNDƏ ROLU

Xülasə

Oyun adları və onun atributlarından poetik mətnin təşkilində istifadə edilməsi bütün orta əsr şairlərinin yaradıcılığında mövcuddur. Bu qədim təbəqə farsdilli şeirin bütün üslublarında şeir yazan şairlərinin yaradıcılığında nəzəri cəlb edir. Qədim leksik təbəqə sayılan bu oyun adlarının stolüstü növünə "şahmat" və "nərd" aid edilir. Məqalə boyu farsdilli ədəbiyyatda şairlər arasında ən çox istifadə olunan, bir tərəfi "şahmat" olan söz birləşmələri və leksik vahidlər nəzərdən keçirilmişdir. Bu leksik təbəqənin nə cür formalaşması, onun tərkib hissəsi araşdırılmışdır. Şahmatı yaxşı bilən şairlər şahmat və onun atributlarından istifadə etməklə dərin məzmuna malik lirik əsərlər yaradıblar. Qeyd etmək lazımdır ki, orta əsr şeirinin forma çətinlikləri bir yana, oraya hər hansısa bir oyunun tərkib hissəsi və atributu da əlavə edildikdə dərin məzmunlu şeir yaranması oxucular üçün çox maraqlı idi. Məhz bu məqalədə şeirlərə əsaslanaraq həmin leksik vahidlər barəsində vahid fikir yaratmağa çalışmışıq. Bu vahidlər farsdilli ədəbiyyata töhvə verməklə yanaşı, fars dilinə yeni ifadələr qazandırmış, lüğət bazasını genişləndirmişdir. Oyun adlarının müxtəlifliyi farsdilli ədəbiyyatda özünəməxsus leksik-semantik sahə əmələ gətirmişdir. İlk baxışdan belə bir sahənin mövcudluğu nəzərə çarpmasa də, nəzmdə rast gəlinən böyük sayda leksik modellər belə bir sahənin var olmasını dəqiqliklə göstərməklə yanaşı, sahənin özünəməxsus leksik-semantik xüsusiyyətlərlə malik olmasından xəbər verir. Qədim leksik təbəqə olan oyun adları məhz etnoqrafik baxımdan fars dilinin leksikasına rəngarənglik gətirir. Bu rəngarəngliyin səbəbi oyun adları və atributlarının nəzmdə bir fiqur tək istifadə olunarkən etnik-milli çalarlar və etnoqrafik koloritin qüvvətli inikası ilə bağlı olmasıdır.

Açar sözlər: Şahmat, farsdilli ədəbiyyat, stolüstü oyunlar, əksolunma, şahmat xanası, şahmat taxtası, fiqurlar, qala, şah

Klassik ədəbiyyatda öz işlənmə tezliyi ilə seçilən, daha ənənəvi leksemlər oyunların stolüstü qrupuna daxildir. Bu oyunlar arasında bir tərəfi şahmat və nərdin öz adlarından ibarət olan, o cümlədən atributlarının komponent təşkil etdiyi düzəltmə sözlərə daha çox rast gəlinir. Stolüstü oyunların adı, atributları ilə bağlı yaranan söz və söz qrupları arasında şahmat oyununun adı birinci gəlir. Bu oyunun adı və atributlarının iştirakı ilə yaranan düzəltmə sözləri qədim və müasir lüğətlərdə izləmək mümkündür. Bu lüğətlərdə yalnız ənənəvi sintaktik modellər poetik mətn daxilində ifadə etdiyi məna baxımından tədqiq olunur. Bu ənənəvi modellər və leksik qruppanı struktur və semantik cəhətdən tədqiq edərək, aşağıdakı modelləri əldə etmişik: [1, 67]

Şahmatla bağlı olan struktur-leksik modellər:

1. شطرنجوار (şahmatvari)

Bu düzəlmə leksik vahid "وار" şəkilçisinin köməyi ilə yaranan isimdən düzələn sifətdir. Bu söz "şahmatvari" və ya "şahmat formasında" kimi tərcümə olunur. Məsələn:

بازی روزگار، زندگـی **شطرنج وار** را دوست ندارد
(Fələyin oyunu şahmatvari həyatı sevmir) [2]

2. خریطهٔ شطرنج (şahmat kisəsi)

Ə.Ə.Dehxoda öz "Lüğətnamə"sində bu izafət birləşməsinin mənasını "şahmat vasitələrinin yığıldığı kisə" kimi təqdim edir.

بجز **خریطهٔ شطرنج** و نرد شعر برنج
ز بزم خاقان چیزی برون نیاوردی
(سوزنی سمرقندی) [3, 12595]

(Şahmat kisəsi, nərd və əziyyətli şeirdən başqa, /Xaqan məclisindən bir şey aparmadın)

3. شطرنج عشق (eşq şahmatı)

Bu izafət birləşməsinin lüğəvi mənası "eşq şahmatı" dır. Hind üslubuna nümayəndələri arasından bəzi şairlərin yaradıcılığında daha çox rast gəlinir. Əbdürrəhman Cami öz divanının "فاتحة الشباب"(cavanlıq dövrü) hissəsində belə bir beytlə çıxış edir:

چون بر بساط وصل تو جامی نیافت دست
شطرنج عشق با رخ تو غایبانه باخت
(جامی)

(Sənin vüsalına çatmaq üçün Cami yol tapmadığından,/ Sənin surətini görməyə-görməyə eşq şahmatı oynadı)

4. شطرنج محبت (məhəbbət şahmatı)

"Şahmat "sözünün həqiqi və irfani eşqin tərənnümündə söz birləşməsinin bir tərəfi kimi çıxış etməsi bütün orta əsrlər boyu şairlərin dəb halında işlətdiyi vasitələrdən idi. Belə ki, "شطرنج محبت" (məhəbbət şahmatı və ya aşiqlik) izafət birləşməsi "eşq şahmat"ı ilə eyni mənaları ifadə edir:

با تو آن روز که **شطرنج محبت** چیدم
ماتی خود ز تو در بازی اول دیدم
(محتشم کاشانی)

(Sənin lə o gün məhəbbət şahmatı düzdüm (sevgili olduq), / Elə ilk oyunda mat olduğunu gördüm)

نبینم بر بساط خوبیت همتا خوش آن عاشق
که **شطرنج محبت** با رخ خوب تو می بازد
(جامی - هفت اورنگ)

(O aşiq tək sənin gözəlliyinə heç kəsi tay görmərəm,/ Ki, sənin gözəl surətinlə məhəbbət şahmatını oynasın)

5. شطرنج غم (qəm şahmatı)

Bu izafət biləşməsi "məhəbbət şahmatı"nın əksi olaraq "qəm şahmatı" mənasında çıxış edir. Azərbaycan şairlərindən Məshəti Gəncəvinin yaradıcılığında rübailərdə tez-tez bu leksik fiqura rast gəlinir.

شطرنج غمت مدام چون ما بازیم
باید که دلت نرنجد ار مات کنیم
(مهستی)

(Həmişə biz sənin lə qəm şahmatı oynayanda, /Gərək ki mat olsan, inciməyəsən)

وحشی که به **شطرنج غم** و نرد محبت
یکباره متاع دل و دین باخته این‌ست

[6] (وحشی بافقی)

(Vəhşi qəm şahmatı və məhəbbət nərdində,/ Birdəfəlik ürəyi qırılmış və dinini itirmişdir)

6. خانه شطرنج (خانهٔ شطرنجی) (şahmat xanası)

Şahmat taxtasında olan xanalara və bu xanalara bənzər olan dördbucaqlı formalara "خانه شطرنج" deyilir. Xanalar fiqurların hərəkətində xüsusi əhəmiyyətə malikdirlər. Azərbaycan və hind üslubu şairlərinin bir çoxunda "xana"lar maddi və xəyali nöqtə kimi çıxış edilər.

این شماتت های یاران زیر چرخ امروزین است
خانه شطرنج تا بود است خوش همسایه بود

[7] (بیدل دهلوی)

(Dostların bu sevinci (şəmatəti) bu günə aiddir, / şahmatda xana olduqca yaxşı qonşu var)

"Anəndərac" lüğətində şahmat xanalarının məhz belə adlanması göstərilir: "Fiqurlar üçün şahmat taxtasında olan xanalar".

پردهٔ ناموس نبود بهر جان‌بازان عشق
خانهٔ شطرنج را کی حاجت دیواره‌است

[3, 12596] (خان آرزو)

(Namus pərdəsi eşq yolunda canından keçənlər üçün deyil/
şahmatın xanaları nə zaman divara ehtiyaclı olub ki.)

7. عرصه / تخته شطرنج/قلمروی شطرنج /صحفه شطرنج / بساط شطرنج / نطع شطرنج/ رقعه ی شطرنج شطرنج (şahmat taxtası və onun üzərindəki sahə)

Şahmat fiqurlarının yer aldığı taxtaya, o cümlədən taxtanın üzərində olan sahəyə uyğun bir çox leksik vahidlər orta əsr şairlərinin yaradıcılığında izlənilir. Hər bir şair öz üslubuna uyğun olaraq bu vahidlərdən istifadə etmişdir. Bu şeirlərdə şahmat meydanı, şahmat sahəsi, şahmat səhifəsi, şahmat taxtası kimi ifadələr bir-birini əvəzləyir.

تا چه بازی رخ نماید بیدقی خواهیم راند
عرصه شطرنج رندان را مجال شاه نیست

(حافظ)

(Hansı oyuna qədər qala piyada kimi hərəkət edəcək /
Rindlərin şahmat meydanı şahlar üçün deyil)

تا کی اندوه کج و راست ز دنیا بردن
مهره ی **عرصه شطرنج** بصد رفتار است

(بیدل دهلوی)

(Nə vaxta qədər dünyadan düz və əyri qəmləri aparmaq olar,/ Fələk meydanının fiqurları min cür rəftara malikdir)

8. شاه شطرنج (şahmat şahı)

Şahmatda olan əsas fiqurlardan biri kimi "şah" fiquru klassik ədəbiyyatda şairlərin yaradıcılığında geniş şəkildə istifadə olunur. "Şahmatın şahı" kimi tərcümə olunan bu izafət birləşməsi bir çox şairlərin yaradıcılığında izlənilir.

گفتم این و گری‌ختم ز عسس
شاه شطرنج را نگی‌رد کس

(Bunu deyib, qarovulçudan qaçdım,/ Şahmatın şahını kim tuta bilər ki.)
[3,12596]

9. شطرنج العرفا (Ariflərin şahmatı)

Leksikoqraf Məhəmməd Moenin lüğətində qeyd olunur ki, bu ürfani bir istilahdır. Sufilərin oynadığı şahmat oyununa "شطرنج العرفا" deyirlər. Sufilər bu oyunu yaradana çatmaq onun vüsal oyunu kimi qiymətləndirirlər. Bu oyun onların həqiqətdə olan hərəkətlərinin oyunda olan təcəllisi idi. Bu növ şahmatda sufilər bir kağız və kardon parçası götürərək, onu xanalara bölürdülər. Xanalara uyğun olaraq pis və yaxşı sifətləri yazırdılar. Bəzən sifətlər əvəzinə təsəvvüfdə olan dərəcələr qeyd olunurdu. Onlar bu oyunu bir zərlə oynayırdılar. Oyun şahmat səhifəsinin "صفر عدم" adlanan aşağı sol küncündən başlanır və xalların sayına uyğun olaraq hər kəs sağ tərəfdəki olan xanalara doğru istiqamətlənirdi. Növbəti addımda isə sol yuxarı küncdən sağa tərəf hərəkət edirdilər. Kim yuxarıda yerləşən "وصلت" və ona bənzər olan sözə birinci çatarsa, o, qalib hesab olunurdu. (9, 128)

10. شطرنج بازیدن / شطرنج بازی کردن / لعب شطرنج) شطرنج باختن)
(şahmat oynamaq və ya şahmat oyunu)

Feil formasında olan bu ifadə "شطرنج بازیدن" yəni "şahmat oyanmaq" mənasını ifadə edir. Bu ifadəyə yaxın "شطرنج بازی کردن" feili də mövcuddur. Farsdilli ədəbiyyatın əksəriyyətinin yaradıcılığında ən az bir dəfə də olsun bu birləşməyə rast gəlmək mümkündür.

شاه دل گم گشت و چون شطرنج را شه گم شود
کی تواند **باختن شطرنج** را شطرنج باز [3, 12596]
(منوچهری دامغانی)

(Ürəyini (yarını) itirmiş şah, şahmatda məğlub olmuş şah kimidir/
Şahmatı şahmatçı tək oynamağı kim bacarar.)

شطرنج مباز با ملوکان
شهمات شوی و ره ندانی [3, 12596]
(عطار)

(Oynama sən şahlarla şahmat, / Yolunu bilməsən, olarsan sən mat)

سعدیا صاحبدلان **شطرنج** وحدت **باختند**
رو تماشا کن که نتوانی چو ایشان باختن
(سعدی)

(Ey Sədi, ariflər həmrəylik şahmatı oynadılar/ Onlar tək oynamağı bacarmadığına bax !)

عشق بازیدن چنان **شطرنج «بازیدن»** بُوَد
عاشقی کردن نیاری دست سوی او میاز
(منوچهری دامغانی)

(Eşq oyunu şahmat oyunu kimidir,/ Aşiqlik etməyəcəksənsə, ona tərəf əl uzatma)

11. شطرنجباز (şahmatçı)

Bir tərəfi "شطرنج" olan digər düzətmə söz "شطرنجباز" dır. Bu söz leksik cəhətdən isim hesab olunur "şahmatçı" mənasını ifadə edir. "Anəndərac" və "Nazem- Əl-otəba" lüğətlərində "şahmat oynamaq məharəti olan şəxs" sözləri ilə xatırlanır.

بازی خود دیدی ای **شطرنج باز**
بازی خصمت ببین پهن و دراز
(مولوی - مثنوی معنوی/ دفتر ۵)

(Öz oyununu oynadın ey şahmatçı, / Geniş və uzun düşmənçilik oyununa bax)

گهی **شطرنج بازم** با حریفان
گهی راوی شوم با شعر و ابیات

(سناعی)

(Gah rəqiblərlə şahmat oynayır,/ gah da şeir və beytlərlə ravi oluram)

Bu leksik vahidin digər paraleli və tam sinonimi "شطرنجی" sözüdür. İsimin sonuna nisbət şəkilçisi olan "ی" əlavə olunmaqla yeni bir söz yaradılmışdır. Lüğəvi mənası "şahmata mənsub" olan bu sözün digər mənaları bir növ kağız (bir biri ilə kəsişən xətləri olan) və ya kilim mənasını versə də, əsas etibarı ilə şahmata yaxşı bacaran şəxslərə aid edilən bir leksik vahid hesab olunur. [10, 650]

Bu sözün digər mənaları barəsində "Nazem Əl-Otəba" lüğətində bildirilir ki, "شطرنجی" dənli bitkilərin qarışığından hazırlanan bir yemək, çörəyin bir hissəsi, xalının bir hissəsi, əlvan rəngli həsir, xanalardan ibarət cədvəl mənalarını ifadə edir. [3, 12596]

چنین فیل در عرصهٔ کارزار
ندیده است **شطرنجی** روزگار

(نورالدین محمد ظهوری)

(Bu cür fili döyüş meydanında, /Şahmatçı olan fələk də görməmişdir)

12. شطرنج بازی - bir çox lüğətlər bu sözün mənasını "qumar və şahmat" kimi təqdim edir. Əsas mənası "şahmat oynamaq" olsa da, bu adda bir süfrə və ya xalça növünün olduğu qeyd olunur.

Farsdilli ədəbiyyatda şairlərin yaradıcılığında yuxarıda göstərdiyimiz əsas nümunələrdən başqa, "شطرنج" komponentli digər birləşmələrə də rast gəlinir. Bunlardan "شطرنج حسن", "مهره شطرنج", "وزیر شطرنج" və s kimi nümunələri göstərə bilərik. Orta əsr şairləri bu cür vasitələrlə şeirə bir abu-hava gətirir, oxucunu həyəcanlandırır, elm və digər sahələrdə də məharətli olmalarını cəmiyyətə və şeir əhlinə sübut edirdilər. Şairlər bu fiqurları işlətməklə şeirlərinin tələblərə cavab verdiyini, hər cür poetik fəndlərlə zəngin olduğunu digəri qarşısında izhar edirdilər.

Ədəbiyyat

1. زهرا محمد خانی. تجلی بازی در ادبیات فارسی. انتشارات زوار. تهران. ۲۱۳۹. ص ۲۸۰
2. https://lenzook.com/post/ بازی-شطرنج-وار-رو-دوست-نداره-چون-نمی‌شه/post/ EZ20W9
3. علی اکبر دهخدا. لغت‌نامه. موسسه ی لغت‌نامه ی دهخدا. تهران. ۴۱۳۳. جلد ۹
4. نورالدّین عبدالرّحمن جامی. دیوان کامل. تهران. چاپ پیروز، ۱۳۵۶
5. نورالدّین عبدالرّحمن جامی. هفت اورنگ. تهران : میراث مکتوب، ۱۳۷۸
6. https://ganjoor.net/v/vahshi/divanv/ghazalv/sh64/
7. https://fa.wikisource.org/ wiki/۲/دیوان_بیدل_دهلوی
8. دیوان قصاید و غزلیات شیخ فریدالدین ابوحامد محمد عطار نیشابوری. سایت فرهنگی و اجتماعی و خبری تربت جام. مهر ماه. ۷۱۳۸. ۵۱۸ ص
9. محمد بن علی بن سلیمان راوندی. راحةالصدور و آیةالسرور در تاریخ آل سلجوق. تهران. ۱۱۳۳. ۴۳۸ ص.
10. لاله تیک چند بهار، بهار عجم، چاپ مولوی هادی علی، لکهنو. ۳۴۳۱

Ш. Юсифли

Роль лексических единиц, объединяющих «شطرنج » в обогащении персоязичной литературы

Резюме

Разнообразие названий игр на персидском языке создало уникальное лексическое и семантическое поле. Так что на первый взгляд кажется, что арены тоже нет. Но эта вековая лексика науки идет вперед и назад между поколениями. Надо сказать, что многие поэты в средние века использовали названия этих игр, а также их инструменты, методы и правила и составляли повторяющиеся произведения по порядку. В этой статье мы попытались найти и исследовать некоторые из этих слов. Названия игр, относящихся к древнему классу, придают красочным персидским лексиконам особенно лингвистическое преимущество. В этой статье мы рассмотрим настольные игры в частности. Стоит отметить, что многие средневековые поэты использовали только названия этих игр в своих произведениях. Как будто названия этих игр были в порядке моды, и поэты, которые хотели продвигать свою силу, часто использовали такие слова. Мы должны сказать, что, поскольку эти слова используются в поэмах персидских лозунгов в разных значениях, и необходимо указать их внутренние и истинные значения, и, таким образом, старый класс слов обнаружится. На первый взгляд, это не так, но модели, использованные в поэмах веков, выражают существование именно этого литературного поля. Из этого следует, что эта область, с ее семантическими и лексическими особенностями и специфическими симптомами, остается в значительной степени неисследованной исследователями, и по сей день никакого четкого объяснения не найдено. Названия игр, которые являются старой лексической категорией, принесли красочный персидский словарь, особенно этническую принадлежность. Причина этой красочности состоит в том, что она хорошо демонстрирует этническое и расовое разнообразие народов Ближнего Востока при использовании в этих поэтических инструментах.

Ключевые слова: Шахматы, персоязычный литература, настольные игры, проявляющийся, шахматы поле, шахматная доска, фигуры, замок, король

S.Yusifli

The role of lexical units combining "شطرنج" in enriching Persian language literature

Summary

The variety of game names in Persian has created a unique lexical and semantic field. So at first glance it doesn't seem that there is an arena either. But this age-old lexicon of science goes back and forth between generations. It has to be said that many poets in the Middle Ages have used the names of these games as well as their instruments and methods and rules and have composed repetitive works in order. In this article we have tried to find and research some of those words. The names of the games, which are of the ancient class, give colorful Persian lexicons a particularly linguistic edge. In this article, we will consider desktop

games in particular. It is worth mentioning that many medieval poets have only used the name of these games in their works. It was as if the names of these games were in the fashion order, and the poets who wanted to promote their power used such words a lot. We must say that these words have been used in the poems of Farsi-language slogans in different meanings and it is necessary to specify their internal and true meanings so that this old vocabulary will come to light. At first glance, this is not the case, but the models used in the poems of centuries express the existence of this particular literary field. From this it turns out that the field, with its semantic and lexical features and specific symptoms, has remained largely unexplored by researchers, and to this day no clear explanation has been found. The names of the games, which are an old lexical category, have brought colorful Persian vocabulary, especially ethnicity. The reason for this colorfulness is that it shows well the ethnic and racial diversity of the Middle Eastern people when used in these poetic instruments.

Keywords: Chess, persian language literature, desktop games, expression, chess house, chess board, nuts, castle, king

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya elmləri doktoru, professor Şəfəq Əlibəyli
tərəfindən tərəfindən çapa tövsiyə olunmuşdur

CƏMALƏ HÜSEYNOVA
BDU
Zahid Xəlilov
cemilekerimli@gmail.com

EKSPRESSIV NITQ AKTLARI: EKSPRESSIVLƏR

Xülasə

Məqalədə danışanın nitqində onun psixoloji vəziyyətinin, eləcə də emosiyanın, hissin, intensiyanın ifadəsini tapması, ekspressivlərin nitq aktları növü kimi təyin olunması məsələləri araşdırılır. Bu məqsədlə ayrı-ayrı tədqiqatçıların nitq aktlarının təsnifində ekspressivlərin yerini müəyyənləşdirməsinə münasibəti aydınlaşdırılır, ekspressivlərin müxtəlif nitq aktları növlərinə aid edilməsi səbəbləri öyrənilir. Elmi ədəbiyyatda ekspressiya ilə bağlılığı olan nitq aktlarını adlandıran terminlərin variantlılığı aşkara çıxır. Məlum olur ki, ritual nitq aktları, konvensional etiket formulları, nitq etiketi formulları, etiket nitq aktları, sosial nitq aktları, etiket fəaliyyəti, qeyri-formativ nitq aktları kimi terminlər ekspressiv nitq aktları anlamında istifadə edilir. Bu halın ekspressiv nitq aktlarının davranış normaları ilə şərtlənən nitq qəlibləri ilə əlaqəsinin nəticəsində yaranması fikri irəli sürülür. Nitq qəlibləri sosial qəbul edilmiş və fərqli nitq situasiyalarında ünsiyyət iştirakçılarının istifadə etdiyi hazır formalardır. Məişət situasiyalarında danışanın hazır qəlibləri işlətməsi davranış normasından irəli gəlir və bu situasiya psixoloji vəziyyətə təsirlə səciyyələnmir.

Təhlil göstərir ki, nitq aktlarına aid tədqiqatlarda ekspressivlərin təyin olunma meyarı, yaxud meyarları dəqiq müəyyənləşdirilməmişdir. Belə bir vəziyyətin yaranmasının əsas səbəbi ekspressiv nitq aktlarının müxtəlifliyi və rəngarəngliyindən irəli gəlir.

Nitq aktlarının performativ feillərin işlənməsi ilə təyin və təsnif olunması bir çox hallarda özünü doğruldur. Məsələyə bu istiqamətdə yanaşma ekspressivləri nitq aktlarının xüsusi növü olaraq ayırmağa imkan verir. Ekspressivlər danışanın psixoloji, emosional vəziyyəti haqqında informasiya daşıyan nitq aktı kimi təyin edilir.

Açar sözlər: nitq aktı, reprezentativlər, assertivlər, direktivlər, komissivlər, ekspressivlər, deklarativlər, behabitivlər

Ünsiyyətdə iştirak edən kommunikantın psixoloji vəziyyəti barədə informasiya daşıyan nitq aktları danışanın adresata, eləcə də nitqin məzmununa emosional münasibəti ilə əlaqədar yaranır. Başqa sözlə desək, belə nitq aktında psixoloji vəziyyəti ifadə etmək intensiya və adresata emosional təsirlə reallaşdırılır.

C.Ostinin təsnifatında ekspressivlər ayrıca nitq aktı qrupu kimi fərqləndirilməmişdir. O, nitq aktlarının tiplərini xəbər funksiyasını yerinə yetirən performativ feillər əsasında təyin etmişdir. Onun bölgüsündə ekspressivlərin bir qismi komissivlər və behabitivlər qrupuna daxil edilmişdir. Öhdəlik və hədə-qorxu mənalı ekspressivlər komissivlərin, başqasının davranışlarına reaksiyanı ifadə edən təbrik və üzrxahlıq tipli ekspressivlər isə behabitivlərin tərkibinə salınmışdır[Bax: 1, s.26]. C.Ostinin sinonim olmayan feillərin fərqli illokutiv akta aidliyi fikri ilə C.Serl razılaşmamış və belə hesab etmişdir ki, illokutiv akt və illokutiv feil anlayışları sinonim ola bilməz. C.Serlin təsnifatında illokutiv məqsəd, nitq aktının reallığı ifadə etmə xüsusiyyəti və onun həqiqiliyi meyar kimi götürülmüşdür. Qeyd edilən meyarlara əsaslanaraq C.Serl beş nitq aktı tipini ayırmışdır:1) reprezentativ və ya assertivlər; 2) direktivlər; 3) komissivlər; 4) ekspressivlər; 5) deklarativlər[2, s.183]. Göründüyü kimi, bu bölgüdə ekspressivlər ayrıca qrup olaraq göstə-

rilmişdir. Təklif edilmiş və sonralar dəqiqləşdirilmiş bu bölgü linqvistik praqmatikaya qədər olan dövrdə geniş yayıldığına görə, ekspressivlər də tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Ekspressivlər elə nitq aktı tipidir ki, onu təşkil edən sözlərlə real hadisənin, yaxud baş vermiş hadisənin mahiyyəti arasında məna uyğunluğu olmur. Məsələn: çayı dağılmış adam bu hadisə ilə bağlı üzr istədikdə o çayı dağıtdığını, bir qayda olaraq, elan etmir, sadəcə üzr istəyir. C.Serl bunu kiminsə ayağını tapdalamaqla əlaqədar üzr istəmək zamanı istifadə olunan nitq aktı ilə izah etmişdir[2, s.183].

Ekspressiv nitq aktlarına münasibət müxtəlif təsnifatlarda özünü fərqli şəkillərdə göstərir. Y.Habermasın nitq aktlarının təsnifində ekspressivlər ayrıca sinif kimi təqdim olunmur. Müəllif onları reprezentativlər (danışanın hiss və duyğularını ifadə etdiyi nitq aktları), tənzimləyicilər (ehtiyat, hədə-qorxu hallarında danışanla dinləyən arasındakı münasibəti bildirən söyləmlər) və universalilər (danışanın müəyyən normalara əsaslanan institusional fəaliyyətini ifadə edən nitq davranışı: təbrik, minnətdarlıq, salamlama və s.) qruplarına daxil etmişdir[3, s.48].

B.Freyzerin təsnifi danışanın kommunikativ intensiyası meyarı əsasında verilmişdir. Bu təsnifatda ekspressivlərin bir qismi öhdəliklə, başqa bir qismi isə danışanla dinləyənin münasibəti ilə bağlı nitq aktlarına aid edilmişdir. Öhdəlik nitq aktlarında danışan propozisiyada qeyd olunan fəaliyyəti yerinə yetirməyi öz üzərinə götürmək niyyətini ifadə edir[4, s.192]. Bu bölgünün maraqlı cəhətlərindən biri nitq aktlarının adlandırılmasında, eləcə də onların qruplarının təyinində çoxçeşidliyin daha aşkar görünməsidir. Əgər Y.Habermas tənzimləyicilər (requlyativlər) və universalilər qrupların; ayırmışdırsa, B.Freyzer öhdəlik, həmçinin danışanla dinləyən arasında münasibəti ifadə edən nitq aktlarından bəhs etmişdir. Bu cəhət, ümumiyyətlə nitq aktlarının tiplərinin dəqiq təyin olunmasına münasibətdə qeyri-müəyyənliyin qaldığını təsdiq edir. D.Vunderlix nitq aktlarının satisfaktiv tipindən bəhs etmişdir. Müəllif minnətdarlıq və öz hərəkətinə haqq qazandırmaqla bağlı nitq aktlarını bu ad (satisfaktiv) altında birləşdirmiş və ekspressivləri də bu tipə aid etmişdir[5, s.77].

Nitq aktlarının təsnifinə dair başqa tədqiqatlarda ekspressivlərin ayrıca qrup kimi fərqləndirilmədiyini müşahidə etmək olur. Məsələn, K.Bax, R.Harniş və C.Liçin təsniflərində ekspressivlər, eləcə də onları fərqləndirmək meyarı yoxdur. C.Liçin təsnif meyarları cərgəsində hörmət amilinin yaradılması və onun qorunmasının "soaial məqsədi" kriteriyası yer alır. Lakin bu meyar ekspressivləri fərqləndirməyə əsas vermir [Bax: 6, s.41; 7, s.103].

T.Balmer və V.Brennenştulun təklif etdiyi təsnifatda ekspressivlər əsas dörd qrup arasında yer alır. Onların irəli sürdüyü digər üç model apelyasiya, interaksiya və diskursdur [8].

Y.Veyqand ekspressivləri hissləri ifadə edən nitq aktları hesab etmiş, onların fundamental qrup yaratmaq imkanına malik olmadığını yazmışdır [9]. Bununla belə, emosionallıqla fərqlənən formalar emosional neytral konstativlərdən ayrılır. C.Serl və Y.Veyqandın məsələyə münasibətini daha dərindən araşdırsaq, görərik ki, bu tədqiqatçılar ekspressivləri deklarativlər alt qrupuna aid edirlər. Aydın olur ki, hər iki müəllif hisslərin ifadəsini konstitutivlıklə bağlamır. Belə nitq aktlarında fikrin, münasibətin, hissin həqiqiliyi, səmimiliyi taqm şəkildə ifadəsini tapmır. Nəticədə belə nitq aktları məzmundanxali olan "boş fraza" təsiri bağışlayır. Onların canlandırılmasının əsas məqsədi kommunikasiyanı davam etdirmək niyyətidir.

Ekspressiv nitq aktlarını ayrıca bir qrup kimi ayırmağı T.Sander də düzgün saymamışdır. O, belə hesab edir ki, bu qrup nitq aktlarının mahiyyəti heç də hissi ifadə etmək deyildir. Minnətdarlıq və ya təbrik, demək olar ki, sosial funksiya daşıyır. İstənilən ekspressiv sözlər komissiv və direktiv nümunəsi, daha geniş miqyasda götürüldükdə nəzərdə tutulan öhdəliyi ifadə etmək nitq davranışının məhluludur [10].

Yuxarıda qeyd olunan təsnifatların mühüm xüsusiyyəti illokutiv sinfi, danışanın psixoloji vəziyyəti, illokutiv predikatı isə propozisional təyinatla qarşılaşdırmaqdır. "Bu və ya digər illokutiv aktı normal həyata keçirmək üçün danışan müvafiq psixoloji vəziyyətdə olmalıdır. Nəyisə

təsdiq etmək üçün danışan təsdiq edəcəyi hökmün doğruluğuna əmin olmalıdır. Əgər danışan adresatı hansısa fəaliyyəti yerinə yetirməyə təhrik edirsə, ilk növbədə o, bu fəaliyyətin reallaşmasını istəməlidir"[11, s.45-46].

Ümumiyyətlə, performativ feillər çox sayda qruplara bölünür. Hər bir qrupa müəyyən illokutiv akt müvafiq gəlir. Ekspressivlər nitq qəlibləri kimi əlahiddə durur. Şübhəsiz ki, etiket qayda və normalarında konkret nitq qəlibləri mövcuddur. Bu cür qəliblərin danışıq, ünsiyyət prosesində canlandırılması da, təbii ki etiket situasiyalarında baş verir. Belə hallarda danışan bu və ya digər etiket qəlibini tələffüz edərkən mütləq hansısa psixoloji vəziyyətə düşmür. Xüsusi hallarda isə belə psixoloji durum formalaşır. Ümumiyyətlə, insanın baş verən hadisələrə psixoloji reaksiyasında anilik, gözlənilməzlik amili həmişə olur. Zənnimizcə, gözlənilməzlik burada dominant rol oynayır. Fərq qəfil səbəbdən əlindəki fincanı yerə sala bilər, düşən fincan sına da bilər, sınmaya da bilər. Yaxud sınmış fincanın hansısa tikəsi, qırıntısı kiməsə dəyib ona xəsarət verə bilər. Bütün bu cür hallar tam eyni deyil, fərqli emosional vəziyyətlər yaradır. Gecikmiş tələbə auditoriyaya girərkən üzr istəyirsə, bu onun psixoloji durumunda dəyişmələrdən xəbər vermir.

Halbuki, bəzən belə halda həyəcan da mümkündür. Məsələn, müəllim tələbini auditoriyaya buraxmır, ona elə şəkildə etiraz edir ki, bu, tələbəni pis vəziyyətdə qoyur və s. Qeyd olunanları nəzərə alaraq, bəzi tədqiqatlar illokutiv aktların təsnifini dixotomik prinsiplər üzrə aparırlar. Bu halda adresatı müəyyən fəaliyyətə sövq etdirən illokutiv aktlar psixoloji baxımdan bunu reallaşdırmayan nitq aktlarına qarşı qoyulur[11, s. 53-54].

Nitq fəaliyyəti məhsulunun necə adlandırılmasından asılı olmayaraq, onları nitq aktları nəzəriyyəsindəki ekspressivlər sinfinə daxil etmək mümkündür. Çünki bu cür nitq aktlarında illokutiv məqsəd eyniliyi aşkar şəkildə özünü göstərir. Ekspressiv məqsədin əsasında hissi ifadə etmək durur. Ekspressiv məqsədli söyləmlərdə danışan vəziyyətlə bağlı psixoloji durumu təqdim edilən propozisional məzmunla aydınlaşdırır[12, s.253].

Ekspressivlər onların funksiyasından irəli gələn perlokutiv effektin ümumiliyi baxımdan bir-biri ilə əlaqələnir. Bəzi tədqiqatçıların fikrinə görə, perlokutiv məqsəd adresatda adresanta münasibətdə müsbət fikir oyatmaqdır. Ona görə də belə nitq aktlarına fərdlərarası münasibəti mənzimləyən nitq aktları da deyilir.

Ekspressiv nitq aktlarını illokutiv aktlar sırasındakı sərhədlərini təyin etmək üçün onların uğurluluq və tam yerinə yetirilmə şərtlərini müəyyənləşdirmək lazım gəlir. Ekspressiv nitq aktlarını ən mühüm mahiyyətini belə ifadə etmək olar: Danışan adresatın iştirak etdiyi şəraitdə həqiqi şəkildə müəyyən ekspressiya ilə hansısa propozisional məzmunu ifadə edir və bu propozisional məzmun adresatın özünə aid olur.

Ekspressivlərin uğurluluğunun ilkin şərti odur ki, danışan söyləmi deyərək, hansısa mülahizəni irəli sürür və bu zaman emosional vəziyyətini, həmçinin emosional münasibətini də göstərir. Ekspressiv nitq aktını danışan canlandırmalı, hələ baş verməmiş hadisə ilə onu əlaqələndirməməlidir. Baş verməmiş hadisəyə, əmələ görə üzr istəmək tələbi yoxdur. Söyləmi tələffüz edərkən də danışan propozsional məzmunu ifadə edir. Əgər propozisiyanın ifadəsi obyektə, yaxud subyektə münasibətdə doğrudursa, onda bu məzmun həqiqi sayılır. Yəni propozisiyanı ekspressiya ilə ifadə etmək həqiqi, doğru məzmun daşıyır. Bu şərt propozisional məzmun şərti adlandırılır.

Ekspressivlərin uğurluluğunun vacib şərti ekspressiv söyləmin neqativ və ya pozitiv yönlənməsi ilə bağlıdır. Başqa sözlə desək, dinləyənin, danışanın canlandırdığı ifadənin propozisional məzmununa marağının olub-olmamasını nəzərdə tutur. Yəni adresat danışanın müəyyən fəaliyyəti həyata keçirməsi, yaxud müəyyən söyləmi canlandırmasında maraqlıdır. Danışan inanır ki, dinləyən bunu istəyir. Neqativlik halında adresat danışanın söyləmi canlandırmasında maraqlı deyildir. Eyni zamanda, adresatın da ondan belə bir söyləmi gözləmədiyini başa düşür və həmin söyləmi canlandırmır. Ekspressiv o halda uğursuzdur ki, danışanın ünvanlandığı, deyək

ki üzrxahlıq nitq aktı onun hərəkətinə uyğun gəlməsin. Yəni danışan üzr istəmək tələbini doğuracaq bir fəaliyyətə yol verməmişdirsə, onun üzr istəməsini ifadə edən ekspressiv uğursuzdur. Deməli, danışanın ekspressiyalı söyləmi canlandırması üçün hansısa şərait və şərt vacibdir.

Ekspressivlərdən istifadə üçün həqiqilik və səmimilik vacib şərtdir. Danışan propozisional məzmun ifadə edən söyləmi canlandırarkən səmimi olmalı, onun üzrxahlığı real fakta əsaslanmalıdır. Həqiqi və həqiqi olmayana ekspressivlər arasında fərq ondadır ki, danışan ikinci halda müvafiq psixoloji vəziyyəti keçirmir. O, prpozisiyanın ifadə etdiyini yerinə yetirmək niyyətinə malik deyildir. Vəziyyəti düzəltmək, propozisiyanın tələb etdiyi hərəkəti yerinə yetirmək danışanı öz söyləmini ekspressiya ilə canlandırmağa sövq edir

Ekspressivlərin uğurluluğu danışanı söyləmi daha çox ifadəli şəkildə canlandırmasından asılıdır.

Beləliklə, ekspressivlərin uğurluluq şərtlərinin bir sıra səciyyəvi xüsusiyyətlər doğurması aşkara çıxır. Əvvəla, ekspressivlərin ümumi deyil, konkret nitq aktı situasiyasında variativliyi ilə seçilən həqiqilik şərti vardır. İkincisi, cibliyi ilə seçilən həqiqilik şərti vardır. İkincisi, ekspressiv nitq aktları bu və ya digər hadisəyə intensional münasibəti ifadə edən psixoloji vəziyyətə malikdir. Ekspressivlərlə ifadə olunan münasibət, bir qayda olaraq, emosionaldır.

Həqiqilik şərtinə cavab verməyən söyləmlərin uğurluluğu, yəni ifadəli canlandırma prosesində danışanın emosional vəziyyətində dəyişmə baş vermirsə, konveksional nitq aktı meydana çıxır. Bu da üzrxahlıq, təbrik, arzu və s. bildirən nitq aktlarının ekspressivlərə aid edilməsinə səbəb olur. N.İ.Formanovskaya emotiv və etiket nitq aktlarının perlokutiv gözləmə baxımından fərqləndirir. Onun fikrinə görə, emotiv nitq aktları (məsələn, invektivlər) emosional vəziyyəti müxtəlif şəkildə təzahür etdirir. "Etiket nitq aktları (minnətdarlıq, üzrxahlıq, təbrik və s.) kooperativlik zonasında yerləşən, nitq davranışını tənzimləyən, sosial qəbul edilmiş qəliblərdir. Onlar müsbət qiymətləndirmə xüsusiyyətinə malikdir[13, s.112]. Aydın olur ki, N.Formanovskaya ekspressivliyi nitq aktının funksional xüsusiyyəti sayır, onun ifadəli? gücləndirilmiş, vurğulanan formalarda mövcudluğunu qəbul edir.

Fikrimizcə, nitq aktının danışanın ona münasibətindəki doğruluq, səmimilik kimi hissləri əsasında fərqləndirilməsi, ayrı-ayrı nitq aktları tiplərinə aid edilməsi sırf linqvistik baxımından özünü təsdiq etmir. Çünki bu və ya digər nitq aktının nə dərəcədə doğru olduğunu dinləyən həmişə təyin etmək imkanına malik deyildir. Ümumiyyətlə, cümlədə söylənən fikrin doğru, yaxud yalan olması səmimi və ya qeyri-səmimi söylənməsi ilə bağlı nəticə çıxarmaq üçün meyar ola biləcək formal linqvistik vasitələr yoxdur. Doğruluq, həqiqilik şərtinə cavab verən söyləm prototip, ilkin olandır. Məlumdur ki prototip müəyyən invariant sistemin ən reprezentativ variantıdır.

Prototip yüksək dərəcədə spesifikliklə, törəmə variantlara təsir etməklə, müntəzəm funksionallıqla seçilməklə səciyyələnir. Prototip etalon təqdimedici, etalon variantdır. Yəni müxtəlif variantlar arasından seçilmiş müəyyən variantdır. Nitq şəraitinin stereotipləşdirilməsi ayrı-ayrı hallarda prototipləri müəyyən qəliblərə çevirir. Belə qəliblər qəbul edilmiş olduqlarına görə, düşünülmədən, emosional vəziyyəti dəyişmədən canlandırılır. Onlar həqiqi ekspressivlərin variantları olub konvensional nitq aktlarıdır. Belə ayırma ilkin prototip mənanın hansı dərəcədə neytrallaşmasını, söyləmin reallaşdırdığı əlavə mənaların üzə çıxarılmasını, öz aralarındakı münasibətini öyrənməyə əsas verir.

Linqvistikada ekspressiv nitq aktlarının birmənalı təyin olunma mexanizmi yoxdur. Ekspressiv nitq aktlarının müxtəlifliyi və rəngarəngliyi bu məsələnin həllinə mane olur. Ekspressivlər arasındakı dəqiq fərqləri də aydınlaşdırmaq mürəkkəb linqvistik məsələdir. Belə bir cəhət tədqiqatçıların ekspressivləri ayırmasına da ciddi təsir göstərmişdir. Məsələn, C.Ostin danışanın adresata müsbət münasibətini ifadə edən nitq aktlarını (salamlaşma, minnətdarlıq, üzrxahlıq və s.) behabitivlərə aid etmiş və bununla yanaşı, duelə, döyüşə, yarışa çağırışı ifadə edən illokutiv

aktları da bu sinfin tərkibinə salmışdır. Bir az da irəli gedərək müəllif təqsirləndirmə, şikayət, etiraz kimi nitq aktlarını da behabitivlərə aid etmişdir[1, s. 119]. Nəticədə onun behabitivlər qrupu ifrat dərəcədə genişlənmiş, təyinetmə baxımından qeyri-müəyyənlik kəsb etmişdir. Məhz bu şəkildə yanaşmanın nəticəsidir ki, C.Serl əvvəlcə ekspressivlər sinfini məhdudlaşdırmaq qənaətinə gəlmiş, bu məqsədlə təşəkkür etmək, minnətdar olmaq, üzr istəmək, təəssüf etmək, salamlamaq, heyfsilənmək kimi feillərdən istifadə etmişdir. Bundan sonra tərifləmək, kompliment söyləmək kimi feillər də sistemə əlavə edilmişdir [Bax: 2, s.183]. Qeyd edilmiş feillərin mənalarına nəzər saldıqda onların müsbət hissləri ifadə etməsini aydın görmək olar.

İnsanın psixoloji qurumuna təsir göstərə biləcək müxtəlif şəraitləri intensivlik dərəcəsinə görə də fərqləndirmək mümkündür. Ekspressivlərdə emosiyanın, hissin hansı dərəcədə üzə çıxması, yaxud ifadə edilməsi, təbii ki, onları ayırmaq üçün əsas sayıla bilməz. Nitq aktını ekspressiv olaraq fərqləndirmənin özəyində danışanın ümumi psixoloji durumu, hadisələrə emosional münasibəti durur. Lakin bu emosional vəziyyətin hansı səviyyədə olması, onun intensivliyi ekspressivin təyinində əsaslı rola malik deyildir. Çox və ya az təəssüflənmək, yaxud ümumiyyətlə təəssüflənmək ekspressivin müəyyənləşdirilmə meyarı ola bilmir.

Ədəbiyyat

1. *Остин Дж.Л.* Слово как действие // Новое в зарубежной лингвистике. – Вып. 17. – М., 1986. – С. 22-129.
2. *Серль Дж.* Классификация иллокутивных актов // Новое в зарубежной лингвистике. – Вып. 17. – М., 1986б. – С. 170-194.
3. *Habermas J.* The Theory of Communicative Action. – Vol. 1. – London: Heinemann, 1984. – 465 p.
4. *Fraser B.* Hedged Performatives // Syntax Semantics. – Vol.3: Speech Acts. Ed. by P. Cole and J.L. Morgan. – 1975. – P. 187-210.
5. *Wunderlich D.* Studien zur Sprechakttheorie. – Frankfurt a.M.& Suhrkamp, 1976. – 416 S.
6. *Bach K., Harnish R.* Linguistic Communication and Speech Acts. Cambridge, L.: MIT Press, 1980. – 327 p.
7. *Leech G.N.* Princioles o Pragmatics. – London: Longman, 1983. – 250 p.
8. *Ballmer Th., Brennenstuhl W.* Speech Act Classification. – Berlin^ Springer, 1981. – 271 p.
9. *Weigand E.* Sprache als Dialog. Sprechakttaxonomie und kommunikative Grammatik,. – Tübingen: Niemeyer, 1989. – 368 S.
10. *Sander T.* Expressive (Rede-)Handlungen // Divinatio. Studia culturologica series. – № 18. – 2003. – S. 7-34.
11. *Богданов В.В.* Классификация речевых актов // Личностные аспекты языкового общения. – Калинин, 1989. – С. 27-37.
12. *Серль Дж., Вандервекен Д.* Основные понятия исчисления речевых актов // Новое в зарубежной лингвистике. – Вып. 18. – М., 1986. – С. 151-169.
13. *Формановская Н.И.* Эмоции, чувства, интенции, экспрессия в языковом и речевом выражении // Эмоции в языке и речи. Сб. науч. тр. – М.: РГГУ, 2005. – С. 106-116.

Гусейнова Джамаля
Дж.Гусейнова

Экспрессивные речевые акты: экспрессивы

Резюме

В статье речь идёт об отражении психологического состояния, эмоций, чувств, интенции в речи говорящего. Рассматривается проблема определения экспрессивов как разновидности речевых актов. С этой целью в статье даётся обзор научных взглядов учёных на речевые акты и место экспрессивов в их классификации; изучаются причины отнесения экспрессивов к различным видам речевых актов. Выявляется вариантность терминов, обозначающих речевые акты, связанные с экспрессивностью, в научной литературе. Выясняется, что такие термины, как ритуальные речевые акты, конвенциональные формулы этикета, формулы речевого этикета, речевые акты этикета, социальные речевые акты, этикетная деятельность, неформативные речевые акты используются для обозначения понятия «экспрессивные речевые акты». Выдвигается предположение, что данная ситуация складывается в результате связи экспрессивных речевых актов с речевыми моделями, обусловленными нормами поведения. Речевые модели – готовые формы, используемые участниками общения в различных речевых ситуациях. Использование говорящим готовых моделей в бытовых ситуациях исходит из норм поведения, и данная ситуация влияет на психологическое состояние.

Проведенный в статье анализ показывает, что в исследованиях, посвященных речевым актам, критерий или критерии определения экспрессивов точно не установлены. Основная причина этого кроется в разнообразии экспрессивных речевых актов.

В статье также отмечается, что определение и классификация речевых актов использованием перформативных глаголов во многих случаях оправдывает себя. Такой подход к проблеме позволяет выделить экспрессивы как особый вид речевых актов. Экспрессивы определяются как речевой акт, несущий информацию о психологическом, эмоциональном состоянии говорящего.

Ключевые слова: речевой акт, репрезентативы, ассертивы, директивы, комиссивы, экспрессивы, декларативы, бехабитивы

Huseynova Jamala Farhad gizi

Expressive speech acts: expressives

Summary

The article deals with the reflection of the psychological state, emotion, feeling, intention in the speaker's speech. The problem of definition of expressives as a type of speech acts is considered. To this end, the article contains the review of the scientists' views on the speech acts and place of expressives in their classification; the reasons of assignment of expressives to the different types of speech acts are studied. Variation of terms that indicate speech acts connected with expressiveness in the scientific literature is revealed. It has been found that such terms as ritual speech acts, conventional etiquette formulas, speech etiquette formulas, speech acts of etiquette, social speech acts, etiquette activity, informative speech acts are used to indicate the notion

"expressive speech acts". It is suggested that this situation is a result of the connection between expressive speech acts and speech models caused by norms of behavior. Speech models are socially adopted finished forms used by participants of communication in the different speech situations. Use of the finished models by speaker comes from norms of behavior, and this situation influences the psychological state. The analysis carried out in the article shows that the researches dedicated to speech acts have not determined precisely criterion or criteria of definition of expressives. The main reason for this is variety of expressive speech acts. It is noted in the article that definition and classification of speech acts by use of performative verbs justify themselves in many cases. Such an approach to the problem allows to highlight expressives as the special type of speech acts. Expressives are defined as a speech act that carries information about the speaker's psychological, emotional state.

Keywords: speech act, representatives, assertive, directives, commissives, expressives, declarative, behabities

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 15.09.2019
Akademik Nizami Cəfərov tərəfindən tərəfindən çapa tövsiyə olunmuşdur

ZAHİRƏ KAZIMOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Bakı Azadlıq prospekti 34
zahire.kazimova@mail.ru

XARİCİ DİLİN ÖYRƏDİLMƏSİNDƏ SİFAHİ NİTQ

Xülasə

Məqalədə şifahi nitq bacarığının tədrisinə xüsusi diqqət yetirilməsindən bəhs edilir. Görkəmli metodist alimlərin müəyyənləşdirdiklərinə görə şifahi nitq audio eşitmə və danışığa əsaslanır. Hər hansı yad bir xarici dilin şifahi nitqlə qavranılması, həmin xarici dilin səslə ifadə olunması və şifahi nitq nümunələrinin səsləndirilməsi ilə bağlıdır. Məqalədə xarici dilin tədrisi prosesində tələbələrlə danışıq bacarığını öyrənmək üçün səs eşitmə bacarıqlarını inkişaf etdirmək (audiollaşdırma) vacib olduğu əsas götürülür.

Audiollaşma proqramının uğurlu olması üçün çalışmalar ardıcıl, gündəlik aparılmalıdır.

Sifahi nitq bacarığının tədrisinə xüsusi diqqət yetirilməsi , oxu və yazxının da keyfiyyətini çox yüksəldir. O da öz növbəsində şifahi nitqin inkişafına yardım edir.

Şifahi nitq bacarığının öyrənilməsinin müasir metodları tələb edir ki auditoriyadakı bütün tələbələrin fəal iştirakı təmin olunsun. Şifahi nitqin əsas şərti öyrədilən dildə tələbənin hökmən özünün sərbəst danışmasıdır.

Son illərin tərcübəsi göstərir ki, xarici dilin tədrisi sistemli surətdə yaxşılaşmağa və təkmilləşdirməyə doğru inkişaf edir.Xarici dilin tədrisində yeni üsullar özünü göstərir , yeni metodik yollar işlənilir, yeni problemlər qoyulur, müəllimlərin təcrübəsi və ustalığı artır. Yuxarıda göstərilən arqumentlər daha mütərəqqi üsullarla az zaman müddətində tələbələrin oxuma, yazma, nitqi qavrama və ifadə etmək bacarığının inkişaf etməsinə xidmət edir.

Acar sözlər: inkişaf etdirmək,başa düşmək,şifahi nitg bacarıgları, xüsusi calışmalar,ifadə,xüsusi diggət

Ali məktəblərdə xarici dili öyrənmə prosesinin ən mühüm elementlərindən biri də tələbələrin sifahi nitg bacarıglarının inkişaf etdirilməsidir.Sifahi nitgdə sərbəst danışmagın öyrədilməsi tədrisin yüksək mərhələsini təşkil edir və bunun

Üçün çox böyük tədris mərhələlərindən keçmək lazımdır.

Şifahi nitq iki elementdən başa düşmək və danışmaqdan ibarətdir.Görkəmli tədqiqatçılara görə danışma prosesi adi vərdiş deyil,yaradıcı xarakter daşıyır.Çünki, danışmaga cəhd edən hər bir tələbə sərbəst olaraq sözləri seçməli, uzlaşdırmalı və fikrini ifadə edən vasitələrə çevirməlidir.Artıq şifahi nitqə sahib olan hər bir tələbə hər hansı mövzuda danışmagı bacarmalıdır. Ona

Görə də xarici dil müəllimi çalışmalıdır ki sadədən mürəkkəbə dogru hərəkət etsin və öyrətdiklərini avtomatlaşdırma həddinə çatdırdıgdan sonra tələbələrə

sadə danışıq kombinasiyalarını qurmagı öyrətsin.

Bu zaman iki tip çalışmalara xüsusı diqqət yetirmək vacibdir:

1.Ayrı-ayrı dil nümunələrının avtomatlaşdırılmasını təmin edən məşq xarakterli Çalışmalar.

2Tələbələrin danışıq bacarıgını maksimum artırmaga xidmət edən əsl nitq danışıq

Çalışmaları.

Şifahi nitq bacarığının öyrədilməsinin müasir metodları tələb edir ki,auditoriyadakı bütün tələbələrin fəal iştirakı təmin olunsun.Keçmiş ənənəvi

Metodlarda dərs vaxtının çoxu ev tapşırıqlarının yoxlanılmasına və hər bir tələbə ilə fərdi məşgul olmaga sərf olunurdu. Bu da ona gətirib çıxarırdı ki, həftə ərzində hər tələbəyə beş və ya on beş dəqiqə danışma vaxtı düşürdü. Belə bölgü ilə nə qədər texniki vasitələrdən istifadə etsən də şifahi nitqin hazırlıqsız,sərbəst situativ formasının avtomatlaşdırılmasını təmin etmək mümkün deyildir. (1.səh 90)

Xarici dilin tədrisi prosesində tələbələrə danışiq bacarığını öyrətmək üçün səs eşitmə bacarıqlarını inkişaf etdirmək (audiollaşdırma) vacibdir.

Hər hansı xarici dilin öyrənilməsində audiollaşdırma (səs eşidilməsi) ilkin mərhələdir. O səslərin, leksik vahidlərin və qrammatik strukturların vasitəsilə

Yaradılır. Tədrisin ilk dövründə düzgün audiollaşdırma ilə xüsusi çalışmalar vacibdir.

Auidiollaşma proqramının uğurlu olması üçün çalışmalar ardıcıl, gündəlik aparılmalıdır.

Şifahi nitq bacarığının öyrənilməsində dərslikdəki mətnlərin çox böyük rolu vardır.Tələbələr mətn üzərində sərbəst işləyərək,hər bir sözün təiəffüzünü,yazılışını və mənasını dəqiq bilməlidirlər. Bundan başqa,qaydasız felləri,çoxmənalı sözlərin əsas mənalarını, frazeoloji birləşmələri, grammatik konstruksiyalardakı söz düzümünü,zaman əlaqələrini, köməkçi felləri, söz önlərini,artiklları öyrənmək vacibdir.

Tədris zamanı şifahi nitqin öyrənilməsini yoxlamaq üçün dərsə aid çalışma məşqləri,danışıq, həmçinin qrup,cüt və fərdi çalışmalardan istifadə etmək olar.

Gənaət olunmuş vaxt hesabına nitq çalışmalarını elə aparmaq olar ki, hər tələbə xarici dildə daha çox cümlələr desin. Bu baxımdan fərdi, cüt,qrup və xor halında calışmalar yaxşı effekt doğurur. (3,56)

Sifahi nitq vərdişlərini inkişaf etdirmək üçün müəllimin biliyi və pedaqoji qabiliyyəti,öyrənmək istəyən tələbənin çalışqanlığı, xüsusi çalışmaların yerinə

Yetirilməsi çox mühümdür.

Xarici dil bacarıqlarının mahiyyətini açmağa xidmət edən vasitələrə aşağıdakıları misal göstərmək olar.

1.Tələbələr dərslikdəki mətnin sonundakı suallara cavab tapmalıdırlar.

2.Dərslikdəki mətn üzrə suallara mətnə baxmadan cavab verməlidirlər.

3.Mətn üzrə(ümumi,xüsusi,alternativ) suallar tərtib edilməlidir.

4.Nəzakət və təbrik bildirən sözlərdən ibarət nitq nümunələri, frazeoloji və ideomatik birləşmələr,atalar sözü, hətta mətn əzbərlənməli,ucadan oxunmalı,müəllimin və tələbələrin ifasında səsləndirilməlidir. Müasir dövrdə səslənmədə texniki vasitələrin tətbiq olunması xarici dillərin öyrənilməsində böyük nəticələr alınmasına xidmət edir.Texniki vasitələr düzgün tələffüz etməyə,Intonasiyaya,xarici dilə düzgün qulaq asmağa, həmçinin təkrar etməyə və xarici

Nitqi eşitmə qabiliyyətini inkişaf etdirməyə çox yardımçı olur.(4,45)

Şifahi nitqin tərkibini başa düşmək və danışmaq kimi elementlər təşkil edir.

Vaxtilə ənənəvi metodik prinsip xarici dil materialının mənimsənilməsi üçün eyni

Zamanda həm eşitmə,danışma,oxuma və yazmadan istifadə olunurdu.Xarici dil

Tədrisinin əsas söykənən prinsipi isə tələb edir ki, verilən material belə bir

Ardıcıllıqla kommunikativ proqrama daxil edilsin – eşitmə,danışma,oxuma və yazma.Bunlar arasındakı interval materialın mənimsənilmə dərəcəsindən asılı

Olaraq müxtəlif ola bilər.

Xarici dildə şifahi nitqin öyrədilməsində dərs mətnlərinin rolu böyükdür və onlarla metodiki iş aşağıdakı qaydada aparılmalıdır: tələbələr mətni yaxşı öyrənməli, oradakı sözlərin yazılışını və mənasını bilməli, mətndəki qaydasız fel

Formalarını, çoxmənalı sözləri, qrammatik konstruksiyaları,köməkçi fellərə və s. Diggət yetirməlidirlər.Müəllim dərsdə onları sual-cavab şəklində soruşur və əzbər

Danışdırır. (2 108)

Son zamanlar elmin,texnikanın inkişafı əyani vəsaitlərin tətbiqi nitq bacarıqlarının inkişafına çox güclü təsir göstərir.Onlardan audio disklərin, video kameraları(kinofilmlər) və xüsusən də internet şəbəkəsini xüsusi qeyd etmək lazımdır.Bu əyani vəsaitlər təbii xarici dil mühitini yaradırlar. (5, 608).

Texniki vasitələr düzgün tələffüz etməyə,intonasiyaya,düzgün xarici dilə qulaq asmaga,həmçinin təkrar etməyə və xarici nitqi eşitmə qabiliyyətini inkişaf etdirməyə çox yardımçı olur.

Şifahi nitqin özü də bir –birilə sıx bağlı iki elementdən xarici nitqi başa düşməkdən və onu ifadə etməkdən təşkil olunmuşdu.

Şifahi nitqin bu özəlliyini nəzərə alaraq təcrübəli metodistlər və müəllimlər xüsusi üsullar axtarıb tapır, uyğun mətnlər və çalışmalar müəyyənləşdirirlər. Texniki ali məktəblərdə tələbələrdə şifahi nitq bacarığını yaratmaq üçün çox böyük vaxt müddəti ayrılmamışdır .Müəyyən edilmiş ikili müddətində tələbələrə həm hazırlanmiş mətn və mövzular üzrə danışmağı öyrətməli, həm də əvvəlcədən hazırlanmış şifahi nitq bacarığı təlqin edilməlidir. Məlumdur ki, humanitar fakültələrə nisbətən texniki ali məktəblərdə şifahi nitq vərdişləri öyrətmək çox çətindir. Lakin nə qədər çətin olsa da çalışmaq lazımdır ki, tələbələr müəyyən mövzular üzrə azda olsa öz fikirlərini ifadə etməyi bacarsınlar və hər hansı xarici insanın nitqini başa düşərək, sadə dialoqa girə bilsinlər.

Beləliklə yekun olaraq deməliyik ki, xarici dil dərslərinin təşkilinin və tədrisinin ən yaxşı göstəricisi tələbələrin şifahi nitqlərində səhvlərin olmamasidir.

Əgər müəllim şifahi nitqdə səhvlər tapmışsa, əvvəlcə o səhvlərin xarakterini və səbəbini analiz etməlidir. Tədris prosesində əsas aparıcı sima olan müəllim bütün bacarığını toplayaraq geniş izah aparır, təkrar çalışmalar verərək xarici dil formalarının öyrənilməsinin ən optimal variantlarını işləyib hazırlayır

Tədrisin bu. mərhələsi sonrakılar üçün əsas olduğu üçün müəllim tələsgənlik etməməli, verilən material və çalışmaların tələbələr tərəfindən dəqiq mənimsənilməsinə nəzarət etməlidir. Əgər nə qədər təcrübəli müəllim olursa olsun, tələbələr tərəfindən lazımi fəallıq göstərilməsə heç vaxt şifahi nitq vərdişi yaranmayacaq.

Ədəbiyyat

1.Babkina B.C. Emux F. K.Teach by speak by speak 1975. 90 səh.
2.Verdiyeva Z. İngiliscə danışmağı öyrənək 1993 108 səh
3.Methods of Teaching English 1983 96 səh
4.B.B.Belyayev. Psixoloqiçeskaya xarakteristika ustnoy reçina inostrannom yazıke.Jurnal №1 200. (4.45)
5.Basilyev B.B. Osnovı prepodovaniya anqliyskoqo yazika speçialistam.İZD.MQU M 1985 (5, 608).

Z.Kazımova

Устная речь в изучение иностранных языков

Резюме

В статье подчеркивается, что особое внимание уделяется обучению устной речи.Как отмечают выдающиеся методические ученые , устная речь основана на аудиослухе и речи.Вербальная речь любого иностранного языка связана с выражением этого иностранного языка посредством использования разговорной речи и использования устных образцов речи. В статье подчеркивается, что важно развивать навыки звукового восприятия(аудиовизольные матералы), чтобы научиться говорить со студентами в процессе обучения иностранному языку.

Необходимо приложить усилия на ежедневной основе чтобы ,сделать аудио-визуальную программу успешной .

Акцент на устные языковые навыки также значительно повышает качество чтения и писма. Помещение , в свою очередь , способствует развитию устной речи.

Современные методы говорения требуют активного участия всех учеников в классе. Основным условием устной речи является то, что студент может свободно говорить на языке, на котором он говорит.

Перевод последних лет показывает, что преподавание инастранных языков систематически улучшается и совершенствуеся . Новые методы в обучении иностранным языкам пок азывают, что разрабатываются новые методологии, увелчиваются новые проблемы и увеличиваеся перевод преподавателей. Вышеупомянутые аргументы помогают развить способность студента понимать и выражать свою письменную речь за меньшее время более продвинутыми методами.

Ключевые слова: развивать, понимать, навыки устной речи, специальные упражнение,выражение, особое внимание.

Z.Kazimova

Oral speech in foreign language teaching

Summary

The article deals with the to pay special attention to the teaching of oral speech. Verbal speech is based on audio hearing and speech as recognized by prominent Methodist scholars. Verbal speech of any foreign language is associated with the expression of that foreign language by the use of the spoken language and th use of oral speech patterns. The article emphasizes that it is important to develop sound listening skiils(audiovisuals) to learn how to speak with students in a foreign language teaching process.

Efforts should be made consistently on a daily basis to make the audiovisual program successful.

The emphasis on oral language skills also greatly enhances the quality of reading and writing.In turn it promotes oral speech development.

Modern methods of speaking skills require that all students in the classroom actively participate.

The main prerequisite for oral speech is the students ability to speak fluently in the language spoken.

Resent years experiment shows that teaching foreign language is systematic developing towards improvement and grothing. New methods of teacing foreign languages are showing new methodologies are being developed new problems and teachers experience and skills are increasing. The aforementioned arguments help to develop students ability to comprehend and express their writing skills in less time by more advanced.

Key words:to develop,to understand,oral speech capability,especial exercises, Classification,especial attention

Redaksiyaya daxil olma tarixi: 21.03.2019
Çapa qəbul olunma tarixi: 25.07.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Sevil Əliyeva
tərəfindən tərəfindən çapa tövsiyə olunmuşdur

SƏDAQƏT QASIMOVA
ADNS
sadaqat@mail.ru
Azadlıq prospekti

DİL VƏ NİTQ KOMPONENTLƏRİNİN PARALELİZMİ

Xülasə

Dil və nitq komponentlərinin hər birinin ünsürləri öz funksiyası baxımından fərqlənsə də, nitqin istər zahiri cəhətdən, istərsə məzmun baxımdan gözəlliyini vəhdətdə təşkil edir. Dilin quruluşu anlamında, yəni dilin maddi elementləri (vahidləri) – fonem, leksem, söz birləşməsi və cümlə dilin daha çox linqvistik komponenti sayılır.

Semantik rəngarənglik – polisemantik boya və bu zəmində formalaşan məcazilik leksik vahidlərin çeşidli mövqeyi – istifadə dairəsi, mənşəyi, monosemantik pozisiya və s. ritorik komponentə uyğun gəlir. Çünki birinci, dilin (nitqin) zahiri hissəsi, xarici əlaməti (forması) hesab edilir; xarici əlaməti ikinci isə başlıca olaraq mənanın təzahür ünsürləridir.

Komponentlərdən birinin nitqdən təcrid olunması ritorik tərzin öz təsirini itirməsinə səbəb olur. Nitqin hər iki forması üzrə (şifahi və yazılı) linqvistik komponent sistem təşkil edir.

Linqvistik komponentlər sisteminə daxil olan, predikativlik, modallıq və bitmə intonasiyası nitqdə; nitqi tamamlayan ifadəli hərəkətlər isə həm də dil üçün səciyyəsidir. Buna görə də bu cəhətdən dil və nitq üçün ortaq komponent adlandırılması tam müvafiqdir.

Yəni dil və nitq komponentləri arasında mühüm fərqli cəhətlər olsa da, eyni ictimai hadisənin iki müxtəlif tərəfləri sayılır.

Ünsiyyət müxtəlif vasitələrlə ola bilər. Lakin dil hər cür ünsiyyət vasitəsindən fərqlənərək onların ən başlıcası olaraq fəaliyyət göstərir. Dil insanın bütün fəaliyyət dairəsini əhatə edir. Elə bir sahə yoxdur ki, insan orada dilə müraciət etməsin. Dil insanların sosial tələblərini ödəmək, qazanılmış nailiyyətləri möhkəmləndirmək və başqalarına çatdırmaqda əvəzsiz vasitədir.

Yuxarıda qeyd etdiyimizə görə, dil komponenti bir sistem təşkil edir. Bu sistemin başında özlüyündə (ayrılıqda), heç bir məna ifadə etməyən fonem, sonunda isə dilin ən böyük vahidi olan cümlə durur. Bunlardan əlavə dil komponentləri sırasına həm də cümləni formalaşdıran predikativlik, modallıq və bitmə intonasiya daxildir. Bu linqvistik kateqoriyaların mahiyyətini səciyyələndirən xüsusiyyətlərə nəzər salaq:

Predikativlik – cümlənin varlıq haqqında müəyyən məlumatvermə qabiliyyəti ilə ölçülür

İntonasiya yürüdülən məqsədin tələbindən doğur.

Cümlədə fikrə münasibət bildirmə xüsusiyyətinə malikdir.

Nitq komponentləri sırasına isə nitqi tamamlayan ifadəli hərəkətlər də daxildir. Çünki nitq jestlər, mimikalar və digər ifadəli hərəkətlərlə müşayiət olunur. Bu hərəkətlər nitqi daha canlı, daha təsirli etməklə yanaşı, ifadəliliyi də gücləndirir. Jest insan bədəninin, qolun, əlin, başın və s. mənalı hərəkəti olmaqla bədən dili ilə ifadə olunan fəaliyyətlə müşayiət edilirsə, üz əzələlərinin ifadəli hərəkətləri anlamını bildirən mimika insan hisslərinin, əhval-ruhiyyəsinin təzahür formalarından biridir. Bu cür nitqi tamamlayan jest və mimikalar yalnız söylənilən fikrə uyğun olaraq ifadə olunduqda effekt verir.

Açar sözlər: nitq, jest, dil, dil komponenti, predikat, modulallıq, intonasiya

İctimai ünsiyyətin ən kəskin silahı olan dil özünə məxsus olan komponentləri ilə diqqəti cəlb edir. İzahlı lüğətdə "tərkib" anlayışını ifadə edən komponent sözü dildə iki mənada işlənir: a) dilin quruluşu anlamında, yəni onun (dilin) maddi elementləri (vahidləri) – fonem, leksem, söz birləşməsi və cümlə.

b) semantik rəngarənglik-polisemantik boya və bu zəmində formalaşan məcazilik, leksik vahidin çeşidli mövqeyi-istifadə dairəsi,mənşəyi, monosemantik pozisiyası və s. Birinci dilin daha çox linqvistik komponenti sayılır. İkinci isə əsasən ritorik komponentə uyğun gəlir. Çünki birinci dilin (nitqin) zahiri hissəsi, xarici əlaməti hesab edilir, ikinci isə başlıca olaraq mənanın təzahür ünsürləridir. Bunlar vəhdətdə ifadə olunmasına və nitqin anlaşılmasında əsas təşkil etməsinə baxmayaraq müstəqil komponentlər şəklində təzahür edir. Bu komponentlərin hər birinin ünsürləri öz funksiyası baxımından fərqlənsə də, lakin nitqin istər zahiri cəhətdən, istərsə məzmun baxımından gözəlliyini vəhdətdə təşkil edir.Bunlardan (komponentlərdən) birinin nitqdən təcrid edilməsi ritorik tərzin öz təsirini itirməsinə səbəb olur. İstər şifahi, istərsə də yazılı nitqdə linqvistik komponent sistem təşkil edir. Bu sistemin tərkibi isə yuxarıda qeyd etdiyimiz ünsürlərdən (fonem, leksem, semantik çalarlıq və s.) ibarətdir. Nitqin effektiv təsiri öz gücünü bu komponentiv ünsürlərin vəhdətindən alır. Nitqin ifadəli, estetik baxımdan gözəl olmasında xüsusi əhəmiyyət daşıyan komponentləri və onların ünsürlərinin əlamət və mövqelərini ayrılıqda izah etməyi məqsədə müvafiq hesab edirik.

Əsas hissə

I. Birinci komponent və onun ünsürləri.

Məlumdur ki, dil bir sistem təşkil edir. Bu sistemin bir başında öz-özlüyündə heç bir məna ifadə etməyən fonem, digər başında isə cümlə durur. "Bu sistemi təşkil edən dil vahidləri (fonem, morfem, söz, söz birləşməsi, cümlə) öz-özlüyüundə heç bir mənaya malik olmayan vahidi, cümlə isə son, ən mənalı vahididir". [1,s.35] 1) Dil dedikdə ilk növbədə səsli dil nəzərdə tutulur. Səsli dil tələffüz edilir, eşidilir; yazılır və oxunaraq dərk edilir. Danışıq səsləri, yaxud fonetikanın tədqiq obyekti olan səslər, hər şeydən əvvəl, ictimai ünsiyyətin ən kəskin silahı olan dilə məxsusdur və dilin maddi qabığıdır.

Deməli , hər bir sözün yaranması və onun varlığı üçün iki keyfiyyət – səslənməyə və mənaya malik olması vacibdir .Bu iki əlamət olmadan sözü dərk etmək mümkün deyildir .

3) Dil sistemində ünsiyyət prossesinin formalaşmasında xüsusi rola malik lingvistik komponentlərdən biri və ən önəmlisi söz birləşməsidir . "Söz birləşməsi bu silsilədə sözlə cümlənin sərhədində dayanır . Buna görədir ki , söz birləşməsi özünəməxsus xüsusiyyətlərə malik sintaktik vahid olmaqla yanaşı , bir tərərfdən sözlə , bir tərəfdən cümlə ilə bağlıdır . Lakin onlar müxtəlif həm də bir – birinə münasibətdə müstəqil dil vahidləri olub hərəkətin özünəməxsus xüsusiyyətləri fəaliyyət dairəsi və rolu vardır " . [1,s.35]

Cəmiyyətin bütün üzvləri arasında ünsiyyət və fikir mübadiləsi vasitəsi olan dil əsas ünsiyyət forması kimi cümlədən istifadə edir.

II. İkinci komponent (semantik rəngarənglik və bu zəmində formalaşan məcazilik, leksik vahidin çeşidli mövqeyi və s.)

Birinci komonent – dilin (nitqin) qrammatik konkretliyini, ünsiyyətin düzgünlük mövqeyini, qurulma şəraitini şərtləndirirsə, ikinci komponent – nitqin estetik gözəlliyini müəyyənləşdirir. Nitqin gözəlliyini səciyyələndirən komponentlərin ən vacib olanları aşağıdakılardır:

1) Polisemantik boya və bu zəmində formalaşan məcazilik. Nitq komponentinin bu istiqaməti fonem və fonematik ahəngdarlıq, həmçinin çoxmənalılıq əsasında yaranan məcazilik amilinə əsaslanır. Fonem və fonematik ahəngdarlıq fonemin dilin fonetik qabığında müxtəlif çalarlıqlarına əsasən təzahür edir. "Həyəcanlı vurğu ilə bu və ya digər söz hiss və həyəcanla dolğunlaşdırılır, həyəcanlı vurğu ilə məhz duyğular ifadə olunur". [4,s.109]

Hər bir söz həm zahiri, həm də daxili cəhətlərə malikdir. Sözün səslənməsi onun zahiri

cəhətidir. Yuxarıda qeyd etdiyimiz kimi, zahiri cəhət istər fonem, leksem, istərsə də söz birləşməsi və cümlə olsun birmənalı tərzdə dilin maddi qabığını təşkil edən komponenti sayılır. Sözün daxili cəhətləri isə onun mənası ilə bağlıdır ki, bu da əvvəldə bəhs etdiyimiz ikinci, yəni poetik komponentə aiddir. Sözün həqiqi mənası ilə yanaşı, onun məcazi mənası da mövcuddur. Bu əlamət bütün sözlərə aid edilə bilməz. Fikrin ifadəsinə yeni rəng qatan belə keyfiyyət leksik vahidin polisemantikliyindən qaynaqlanan bir ekspressiv prosesdir. Bunu aşağıdakı sxem əsasında canlandırası olsaq, belə bir qrafik alınar.



Məcazilikdən isə nitqin gözəlliyini təşkil edən bədii ifadə və təsvir vasitələri yaranır.

Nəticə

Dil paralel komponentlərlə daha zəngin olur. Nitq paralel komponentlərlə daha ifadəli görünür. Fikrin təsir dairəsi genişlənir, emosional gücü artır. Dil paralelizminin vəhdətdə təzahürü ünsiyyətin baş tutmasını maksimuma çatdırır, anlaşmanın dürüstlüyünün təmin edilməsinə səbəb olur.

Ədəbiyyat

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili, 5-ci hissə, sintaksis, “Şərq-Qərb”, Bakı-2007.
2. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili, 1-ci hissə, Fonetika, “Şərq-Qərb”, Bakı-2007.
3. Əhmədova S, Azərbaycan dilinin lüğət tərkibindəki sözlərin üslubi layları “MBM”, Bakı-2014.
4. Qurbanov A, Müasir Azərbaycan ədəbi dili, 1-ci cild, “Elm və Təhsil”, Bakı-2010

С.Гасымова

Цель языкового и речного сотрудничества

Резюме

Хотя элементы каждого из языковых и речевых компонентов отличаются по своей функциональности, речь прекрасна как с точки зрения содержания, так и с точки зрения содержания. В структуре языка, то есть материальные элементы (единицы) языка -

фонема, лексема, словосочетание и предложение являются наиболее лингвистическими компонентами языка.Семантический цвет - это многозначная краска и множество образных лексических единиц, сформированных на этом этаже - круг использования, происхождение, моносемантическая позиция и т. Д. соответствует риторической составляющей. Во-первых, внешняя часть языка (речи) считается внешним признаком (формой); второй знак является основным проявлением второго.

Изоляция одного из компонентов речи приводит к тому, что риторический стиль теряет свой эффект. Лингвистический компонент обеих форм речи (словесной и письменной) образует систему.Предсказуемость, модальность и интонационная интонация, включенные в систему языкового компонента; Выразительные действия, которые дополняют речь, также характерны для языка. По этой причине совершенно уместно, чтобы язык и речь рассматривались как общий компонент.Хотя между компонентами языка и речи существуют важные различия, существуют два разных аспекта одного и того же социального события.Общение может происходить разными способами. Однако язык отличается от всех других средств коммуникации и является основным. Язык охватывает все сферы человеческой деятельности. Нет места, где человек не говорит на языке. Язык является бесценным инструментом для удовлетворения социальных потребностей людей, укрепления и передачи их достижений.Как мы уже упоминали, языковой компонент - это система. В начале этой системы есть фонема, которая сама по себе не имеет смысла, а в конце - предложение с самой большой единицей языка. Кроме того, языковые компоненты также включают предикат, модульность и завершающую интонацию, которые формируют предложение. Давайте посмотрим на особенности, которые характеризуют сущность этих языковых категорий:

а) Предсказуемость - измеряется способностью предложения определять существование существа

б) интонация возникает из требований по назначению.

в) Имеет способность выражать мнения в предложении.

Компоненты речи также включают выразительные действия, которые дополняют речь. Потому что речь сопровождается жестами, выражением лица и другими выразительными действиями. Эти действия не только делают речь более яркой и эффективной, но и повышают качество речи. Жест включает тело, руку, руку, голову и т. Д. Когда выражение лица, которое выражает выражение мышц лица, сопровождается деятельностью, выражаемой на языке тела значимыми движениями, это одно из проявлений человеческих эмоций и настроений. Жесты и выражения лица, которые дополняют такую речь, эффективны только тогда, когда они выражены в соответствии с тем, что сказано.

Ключевые слова: речь, жест, язык, , языковой компонент, предикат, модульность, интонацию

S.Gasimova

Purpose of language and speech cooperation

Summary

Although the elements of each of the language and speech components differ in their functionality, the speech is beautiful both in terms of content and in terms of content. In the structu-

re of the language, that is, the material elements (units) of the language - phoneme, lexeme, word combination, and sentence are the most linguistic components of the language.

Semantic color - a polysemantic paint and a variety of figurative lexical units formed on this floor - circle of use, origin, monosemantic position, etc. corresponds to the rhetorical component. First, the outer part of the tongue (speech) is considered an external sign (form); the second sign is the main manifestation of the second.

The isolation of one of the components of the speech causes the rhetorical style to lose its effect. The linguistic component of both forms of speech (verbal and written) forms a system.

Predictability, modality, and intonation intonation that are included in the linguistic component system; The expressive actions that complement the speech are also characteristic of the language. For this reason, it is entirely appropriate that language and speech are considered as a common component.Although there are important differences between language and speech components, there are two different aspects of the same social event. Communication can come in a variety of ways. However, language differs from all other means of communication and acts as the main one. Language covers all areas of human activity. There is no area where the person does not speak the language. Language is an invaluable tool for meeting the social needs of people, strengthening and communicating their achievements. As we have already mentioned, the language component is a system. At the beginning of this system is a phoneme with no meaning in itself, and at the end of it is the sentence with the largest unit of language. In addition, the language components also include predicate, modularity, and ending intonation that form the sentence. Let's look at the features that characterize the essence of these linguistic categories: a) Predictability - measured by the ability of the sentence to determine the existence of a creature b) Intonation arises from the demands of the intended purpose. c) Has the ability to express opinions in the sentence. The components of speech also include expressive actions that complement the speech. Because speech is accompanied by gestures, facial expressions, and other expressive actions. These actions not only make the speech more vibrant and more effective, but also enhance the quality of the speech. Gesture includes the body, arm, arm, head, etc. When accompanied by activity that is expressed in body language with meaningful movements, the facial expressions that express the expression of facial muscles are one of the manifestations of human emotions and moods. The gestures and facial expressions that complement such speech are effective only when expressed in accordance with what is said.

Keywords: speech, gesture, language,, language component, predicate, modularity, intonation

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Aida Salahova tərəfindən tərəfindən çapa tövsiyə olunmuşdur

HÜZURƏ AĞAYEVA
ADU
Rəşid Behbudov 134
e-mail: hagayeva@list.ru

ORTA MƏKTƏBLƏRDƏ İBTİDAİ TƏHSİL SƏVİYYƏSİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİNİN SƏMƏRƏLİ YOLLARI
(ingilis dili materialları əsasında)
XÜLASƏ

Son illərdə nəşr edilmiş metodik ədəbiyyatlarda dillərin kommunikativ təliminə dair həsr edilmiş tədqiqatların mövcudluğunu qeyd etmək lazımdır. D.Haymz, S.Savinyon, C.Edelhof, D.Litl, C.Uilems, D.Atkinson, M.Klayn, D.Kuşman, R.Engerstrom, H.Gardner, E.Gofman, H.Grays, C.Gamperə, C.Kasper, C.Martin, L.Smit və s. alimlərin tədqiqatlarında ingilis dilində adekvat kommunikasiyanın təliminin kifayət qədər mürəkkəb bir məsələ olduğu vurğulanır.

Şifahi nitq vərdişlərinin aşılanmasından bəhs edərkən, ilk növbədə kommunikativ səriştənin nə olduğu sualı ilə qarşılaşırıq. "Kommunikativ kompetensiya" (Communicative competence) termini ilk dəfə olaraq, sosiolinqvist Del Haymz tərəfindən təklif edilmişdir. Kommunikativ kompetensiyaya yiyələnmiş dildaşıyıcıları və eləcə də dildaşıyıcıları olmayan dil istifadəçiləri dildən ünsiyyət məqsədilə adekvat şəkildə istifadə etmək qabiliyyətinə yiyələnmiş olurlar. Del Haymz öyrənilən dilin sosial və funksional qaydalarının mənimsənilməsini prioritet hesab edir.

Kommunikativ təlim sahəsində çoxsaylı tədqiqatların müəllifi olan S.Savinyon kommunikativ səriştənin nisbiliyini, kommunikasiya prosesinə cəlb olunmuş iştirakçılardan asılılığını və dinamik xarakterə malik olduğunu qeyd edir.

Şifahi nitq vərdişlərinin aşılanması zamanı nitq situasiyalarının rolu danılmazdır. Bu iki formada həyata keçirilir: əyani-situativ-ekstra linqvistik və kontekstual-situativ. Əmələ gəlmə şəraitindən asılı olaraq, təbii və yaxud təlim situasiyalarını da qeyd etmək olar. Təbii şəraitdə şifahi nitq real, canlı və yaradıcı ünsiyyət prosesində formalaşır.

Lakin onu da qeyd etmək lazımdır ki, müvafiq şərait olduğu halda mütləq real situasiyalardan bəhrələnmək vacibdir. Burada xarici dili, o cümlədən ingilis dilini tədris edən müəllimin üzərinə düşən əsas vəzifə ünsiyyət prosesini stimullaşdırmaqdan və əmələ gələn təbii situasiyanın şagirdlər tərəfindən nitq reaksiyasına səbəb olmasını təmin etməkdən ibarətdir.

Təlim situasiyaları, öz növbəsində aşağıdakı növlərə bölünür:

a) audio-vizual vasitələrdən istifadə etməklə şagirdlərin həyat təcrübəsinin üzərində qurulan situasiyalar;

b) gerçəkliklə bağlı olan şərti- kommunikativ situasiyalar;

c) oxunulan materiallar əsasında təşkil edilən situasiyalar;

d) müəllim tərəfindən stimullaşdırılan və təsəvvürlər üzərində təşkil edilən situasiyalar.

Açar sözlər: nitq, kontekst, dil, ünsiyyət

Onu da qeyd etmək lazımdır ki, ibtidai təhsil səviyyəsində şifahi nitq vərdişlərinin aşılanmasının səmərəli yollarından biri situativliyin düzgün şəkildə qurulmsıdır. Sinif şəraitində baş verə bilən təbii situasiyalardan fərqli olaraq, spontan şəkildə əmələ gələn təlim situasiyaları müəllim tərəfindən planlaşdırılır və şagirdlərə təqdim edilir. Çox vaxt həmin situasiyaları təqdim edərkən müəllim tərəfindən mənimsənilməli olan konkret linqvistik materialların istifadə edilməsi tövsiyə edilir.

Əsasən şərti-real situasiyalar əyani-nitq, oxunulan materiallar və audio-vizual vasitələr vasitəsilə təşkil edilən situasiyalar təsviri-nitq situasiyalarına aid edilə bilər.

Təlim situasiyaları onlarda real və qeyri-real komponentlərin nisbətindən asılı olaraq, səciyyələndirilir. Bu göstəricini əsas tutaraq, məhz real modellər olan şərti-real situasiyalar təbii situasiyalara ən yaxın hesab edilə və uğurla istifadə edilə bilər. Problemli situasiyalarda baş verən proseslər şagirdlərin ingilis dilində nitqinin fəallaşdırılması, mənimsənilmiş linqvistik materialların aktuallaşdırılması və şifahi nitqin əsasını təşkil edən potensial fəaliyyətin həyata keçirilməsi üçün və beləliklə şagirdlərdə şifahi nitqin inkişaf etdirilməsi üçün səmərəli şəraitin yaradılmasını tələb edir.

Şagirdlərdə bu və ya digər tipik olan situasiyanı ona uyğun olan leksik vahidlər və söz birləşmələri ilə əlaqələndirmək bacarığının şifahi nitqin tərkib hissəsi kimi inkişaf etdirilməsi zəruridir. Metodist-alimlərin fikrincə, bu və ya digər xarici dildə mövcud olan linqvistik vasitələri, yəni dilin sistemini bilmək heç də həmin dildə dil vahidlərinin situasiyalar və müxtəlif kontekstlərə dildə mövcud olan normalarına uyğun olaraq danışmasını təmin edə bilməz [4,s.14].

İngilis dilinin və şagirdlərin ana dilinin kommunikativ baxımdan müqayisəli təhlili, konkret kommunikativ situasiyalara uyğun olan nitq və struktur modellərinin müqayisəsi tövsiyə edilməlidir. Bu istiqamətdə müqayisəli tədqiqatın həyata keçirilməsi iki dildə mövcud olan analoji kommunikativ situasiyaların, və eyni zamanda müqayisə edilən dillərin yalnız birinə xas olan situasiyaların mövcudluğunu aşkar etməyə kömək edəcək.

Bundan əlavə, situativ modellərin müəyyən edilməsi şagirdlərin diqqətini xarici dil vahidlərinin istifadə edilməsi normalarına cəlb etmək və onlarda mənimsənilmiş linqvistik materiallarını real gerçəkliklə yaradıcı şəkildə əlaqələndirmək bacarığı və şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi üçün səmərəli şərait yaradır.

Beləliklə, şagirdlərdə ibtidai təhsil səviyyəsində ingilis dlində şifahi nitq bacarıqları formalaşdıraraq, mütləq müvafiq linqvistik materialların və nitq modellərinin dilin normalarına uyğun kommunikasiya prosesində işlədilməsinə xüsusi diqqət yetirilməlidir. İngilis dili dərslərində təlim situasiyalarından geniş şəkildə istifadə etməkə orta məktəblərdə şifahi nitqin inkişaf etdirilməsi prosesini daha səmərəli şəkildə təşkil etmək və bu istiqamətdə daha yüksək nailiyyətlər əldə etmək mümkündür.

Şagirdlərə təqdim edilən situasiyalar real ünsiyyət situasiyalarına yaxın olmalı və konkret kommunikativ situasiyalarda şagirdlərin bilavasitə "iştirak etmə effekti"ni təmin etməlidir.

İngilis dilində şagirdlərə təqdim olunan situasiyalar onları maksimum dərəcədə fəallaşdıraraq, öyrənilən xarici dildə şifahi nitq ünsiyyətinə qoşulmalarına həvəsləndirilməlidir. Şagirdlərin ingilis dilində danışmağa maraqlı olması ən önəmli şərtlərdən biridir.

Onu da yadda saxlamaq lazımdır ki, müəyyən dil materiallarının səmərəli şəkildə fəallaşdırılmasına səbəb ola bilən zəruri şərtlərdən biri mənimsənilməli olan linqvistik materialların və nitq modellərinin şagirdlərin kommunikativ baxımdan tələbatlarına uyğun olmasıdır [2,s.120].

Orta məktəb şagirdinin hər hansı tələbatına cavab verən və onun fəaliyyətini istiqamətləndirən şərtlərdən ən önəmlisi onlarda dilin öyrənilməsinə olan həvəsdir. Dillərin tədrisində motivasiya mənimsənilməli olan linqvistik materialların öyrənilməsinin zəruriyyəti və şagirdlərin yerinə yetirdikləri müxtəlif fəaliyyət növlərinin məqsədəuyğunluğu kimi çıxış edir. Bu tədrisin səmərəliliyini təmin edən vacib şərtlərdəndir. Hər hansı dil materiallarının mənimsənilməsi zamanı tədricən mürəkkəbləşən tapşırıqların yerinə yetirilməsi və mərhələli şəkildə yaradıcı nitq ünsiyyətinə keçməyi mümkün edən amillərdən ən vacibi şagirdlərin dilin öyrənilməsi və ondan kommunikativ məqsədlərlə istifadə edilməsinə olan marağıdır.

Şifahi nitqin aşılanmasına kommunikativ yanaşma şagirdlərə tədris edilən xarici dil sahəsində biliklərin hazır şəkildə təqdim edilməsi deyil, əldə edilmiş bilik və bacarıqların təbii kommunikativ fəaliyyəti prosesində təkmilləşdirilməsini nəzərdə tutur.

Qeyd olunduğu kimi, situativ nitqlə bərabər kontekst-situativ və kontekst üzərində qurulan nitq növü mövcuddur. Adı çəkilən nitq növü kontekst situasiyaların geniş şəkildə istifadə etməklə əmələ gəlir və hər hansı mətndə və yaxud nitqdə dilin şərait, münasibətlər və real gerçəkliyin əlaqəli şəkildə dil vasitəsilə əks etdirilməsi kimi başa düşülür. Tədris edilən xarici dildə şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi prosesində dil daşıyıcılarının yaşadığı ölkələrdə rast gəldikləri situasiyalara mümkün dərəcədə uyğun olan situasiyaların təqdim edilməsi daha məqsədəuyğundur. Bu da şagirdlərin gələcəkdə dilin təbii ünsiyyət vasitəsi oldugu şəraitdə sərbəst şəkildə fəaliyyət göstərmək imkanlarını inkişaf etdirir.Sinif şəraitində bu yanaşmanın həyata keçirilməsi məqsədilə bədii ədəbiyyatda olan problemli situasiyalardan istifadə etmək tövsiyə edilə bilər [5, s.260].

Hər hansı mətnin tərkibində olan semantik informasiya şifahi nitqin inkişaf etdirilməsi üçün stimul ola bilər.

Eyni zamanda mətndə olan linqvistik xarakterli informasiya kommunikasiyanın adekvat linqvistik vasitələrdə və nitq modellərindən istifadə etməklə həyata keçirilməsinə xidmət edir.

Dil daşıyıcılarının yaşadıqları mühitdə rast gəldikləri və onların nitq davranışlarının nümunələri kimi qəbul edilə bilən kommunikativ situasiyalar əsasında təsvir edilən kontekstual situasiya sinif şəraitində analoji nitq situasiyaların yaradılması üçün bir model hesab edilə bibr. Həmin situasiyaların yaradılması mənimsənilməli olan dil materialları və nitq modellərinin kommunikasiya prosesində istifadə edilməsi məqsədini güdür. Oxu zamanı əldə edilmiş informasiya müzakirə obyektinə dair müəyyən fikirlərin və yanaşmaların yaradılmasına səbəb olaraq, şagirdlərdə şifahi nitq vərdişlərinin səmərəli şəkildə inkişaf etdirilməsini təmin edir [4, s. 17].

Fikrimizcə, orta məktəblərdə ibtidai təhsil səviyyəsində təhsil alan şagirdlərin şifahi nitq fəaliyyətinin stimullaşdırılması yolları müəyyən edilərkən, üstünlük real kommunikasiya situasiyalarının modelləri tələbinə cavab verən kontekstual situasiyaya verilməlidir.

Beləliklə, kontekstual situasiya orta məktəbin müxtəlif pillələrində təhsil alan şagirdlərin verbal fəallığının stimullaşdıran bir vasitə hesab edilə bilər. Kontekstual situasiya həm də hər hansı xarici dilin öyrədilməsində əsas məqsəd olan tədris edilən dildə şifahi nitqə yiyələnmək üçün səmərəli şəraitin yaradılmasını təmin edən vasitələrdəndir.

Tədqiqatçıların fikrincə, xarici dildə şifahi nitqin inkişaf etdirilməsi mərhələli şəkildə həyata keçirilməli və 3 əsas mərhələni əhatə etməlidir:

1. Reproduktiv mərhələ. Bu mərhələdə situasiyaların yaradılması nəzərdə tulular. Müəllim burada istiqamətiəndirici funksiyanı həyata keçirir.

2. Reproduktiv-produktiv. Yaradıcı elementləri olan bu mərhələdə oxu və yaxud dinləmə üçün təqdim edilən mətndə olan linqvistik materialları və nitq modellərindən istifadə etməklə situasiyaların yaradılması və müvafiq çalışmaların yerinə yetirilməsi nəzərdə tutulur.

3. Produktiv (yaradıcı) mərhələ. Bu mərhələdə şagirdlərdə şifahi nitqin inkişaf etdirilməsi və təkmilləşdirilməsi nəzərdə tutulur. Burada verbal kontekst əsasında situasiyaların yaradılması və mövzu çərçivəsində müvafiq yaradıcı xarakterli tapşırıqların yerinə yetirilməsi nəzərdə tutulur. Həmçinin sözü gedən mərhələdə mətnin çərçivəsindən çıxmaq şərtilə problemli situasiyaların yaradılması da arzu ediləndir.

Metodist-alimlərin fikrincə, kontekstual situasiya dilöyrənənlərin danışıq bacarıqlarının inkişaf etdirilməsi və təkmilləşdirilməsi üçün istifadə edilə bilən ən səmərəli vasitələrdən hesab edilə bilər[1,s.197].

Bu gün ingilis dilinin tədrisinin əsas məqsədlərindən biri şagirdlərdə şifahi nitq vərdişlərinin formalaşmasıdır. Bu da ingilis dilinin təbii ünsiyyət vasitəsi olan situasiyada şagirdlərin verbal və qeyri-verbal ünsiyyət bacarıqlarının inkişaf etdirilməsini nəzərdə tutur. Burada həm dil

sisteminin, həm də həmin sistemin müxtəlif kommunikativ situasiyalarda tətbiq edilməsi normalarının şagirdlər tərəfindən mənimsənilməsi olduqca vacibdir.

Onu da vurğulamaq lazımdır ki, yarana bilən kommunikativ situasiyaların sayı qeyri-müəyyən və qeyri-məhdud olduğundan, onların hamısını nəzərə almaq qeyri-mümkündür.

Məhz bu səbəbdən də onlar orta məktəblərdə şifahi nitqin inkişaf etdirilməsinin ən əsas vasitələrindən biri olmasına baxmayaraq, situativ yanaşma tam şəkildə şifahi nitqin formalaşmasını təmin edə bilmir və bu səbəbdən müasir dövrdə xarici dillərin müvəffəqiyyətlə tədris edilməsini təmin edə bilən yeganə bir üsul kimi qəbul edilə bilməz.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, ingilis dilinin məqsədyönlü öyrədilməsi həm müəllim, həm də şagirdlər tərəfindən tədris prosesinin məqsədlərinin dərk edilməsini və tədrisin keyfiyyətini təmin edən vacib şərtlərdəndir.

Məlum olduğu kimi, kommunikativ sərişta bilavasitə şagird və tələbələrdə şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi ilə bağlıdır. Təlim materiallarının məzmunu bir stimul olaraq, öyrənilən dildə kommunikasiya prosesinin yaradılmasına tələbatın əmələ gəlməsinə səbəb olur və nəticə etibarilə, şagirdlərin fəal verbal fəaliyyətinə gəlirib çıxarır.

Qeyd edək ki, bütün səviyyələrdə olduğu kimi, ibtidai təhsil səviyyəsində müəllim dərsə yaradıcı yanaşmalıdır, məzmun standartlarına əsasən dərsin məqsədini müəyyənləşdirməlidir. Bu zaman öyrədici, inkişafetdirici, tətbiqedici, təhsilləndirici funksiyalar nəzərə alınmalıdır. Bu xüsusilə ibtidai təhsil səviyyəsində arzuolunandır.

Beləliklə, müasir dərsdə haqqında bəhs etdiyimiz bu məsələlər bir-biri ilə sıx əlaqədə olub, biri digərini tamamlayır. Bunların əsasında isə təlim nəticələri, məzmun standartları, təlim strategiyaları dayanır. Sinifdə ingilis dilində ilk dərsin ibtidai sinifdə "interaktiv" təlim metodu ilə qurulması aşağıdakı kimi təqdim oluna bilər:

Mövzu: şagirdlərin ilkin qabiliyyətlərinin üzə çıxarılması.

Dərsin məqsədi: müəllim şagirdlərə xarici dilə ilk dərsdən maraq oyatmaq məqsədi ilə söhbət edir.

Mövzu üzrə iş. Müəllimin şərhi: Müəllim dərsi "Uşaqlar, kim neçə dil bilirsə o sayda da adamdır" cümləsi ilə başlayır. Məsələn, götürək "Uzaq sahillərdə" filmindəki M.Hüseynzadənin qəhrəmanlığını. M.Hüseynzadənin bir neçə dil bilməsi onun qəhrəman olmasına səbəb olur. Sonra sinfin və şagirdlərin məktəbəqədər səviyyəsini yoxlamaq üçün onlardan ingilis dilində nəyi bildiklərini soruşur.

1. Kim 1-dən 10– a qədər ingilis dilində saya bilər?

Əşyaların rəngini, formasını fərqləndirmək qabiliyyətini üzə çıxarmaq üçün soruşur:

1. Hansı rəngləri tanıyırsınız?

2. Rənglərin adlarını ingilis dilində deyin (ağ, qırmızı, sarı, yaşıl, qara, göy və s.)

Dərslik üzrə iş: müəllim şagirdləri mövcud xarici dil dərsliyi ilə tanış edir.

Uşaqlar, siz bu dərsliyin köməyilə ingilis dilində əlifbanı, səsləri öyrənmək üçün maraqlı tapşırıqlar və oyun növlərindən istifadə edəcəksiniz. Müəllim dərsə Azərbaycan və İngiltərə bayraqlarını gətirir və onları bir-birindən fərqləndirir.

M: Bizim bayrağımız neçə rənglidir?

Ş: Üç rəngli.

M: Bu rənglər hansılardır?

Ş: Mavi, qırmızı, yaşıl.

Şifahi olaraq, bu dərsdə şagirdlərə üç rəng adını öyrətməlidir.

Müəllim məktəb şəkli ətrafında suallar verir.

M: 1. Burada neçə şagird görürüsünüz?

2. Bunlardan neçəsi oğlandır?

3. Bunlardan neçəsi qızdır?

Müəllim bu dərsdə ingilis dilindən şagirdlərin məktəbəqədərki bilik səviyyəsini müəyyənləşdirir və ilk dərsdən fənnə qarşı maraq oyadır. Öyrədilən dərslərin möhkəmləndirilməsi məqsədilə müəllim elə oyun növləri və şəkillər seçməlidir ki, burada ingilis dili fənnindəki (qrammatika, fonetika, leksika) yəni dilin 3 komponenti arasında əlaqə yaratsın və bu prosesdə o şagirdlərin təkrar prosesdə biliyini qiymətləndirsin.

Müəllim dil sisteminə dair bilik və vərdişləri aşılamaqla bərabər onları dildaşıyıcıları yaşayan mühitdə qəbul edilmiş verbal və qeyri-verbal normalar haqqında məlumatlandırmalı və mənimsənilmiş nəzəri biliklərin, əldə edilmiş vərdiş və bacarıqların hər hansı sosial kontekstdə tətbiq etmək qabiliyyətinin şagirdlərdə inkişaf etdirilməsi üçün səmərəli olan təlim şəraitini yaratmalıdır. Müəllim rəsmi və qeyri-rəsmi olan sosial kontekstdə istifadə edilməli olan dil vahidləri və ünsiyyət normalarının arasında olan mühüm fərqləri şagirdlərin diqqətinə çatdırmalı və formal və qeyri-formal sosial kontekstdə verbal və qeyri-verbal davranışın xüsusiyyətləri haqqında onları məlumatlandırmalıdır. İngilis dilini öyrənən şagirdlər eyni replika və ya suala bəzən bir neçə cavab variantlarının mümkün olduğu haqqında məlumatlandırılmalıdırlar.

Məsələn, şagirdlərə məlumat çatdırılır və mümkün olan cavab variantları onlara təqdim edilir:

"Happiness goes up very little with more cash".

a) How interesting!

b) I'm pleased to hear that.

c) Terrific/great!

d) That's a good news.

"Nothing is being done to improve the environment".

a) That's unfortunate.

b) Don't worry about it.

c) What a pity!

d) How terrible!

Yuxarıda qeyd etdik ki, şagirdlərdə ünsiyyət vərdişlərinin inkişaf etdirilməsi məqsədilə tövsiyə edilən fəaliyyət növlərindən biri situasiya qurmaqdan ibarətdir.

Şagirdlərə aşağıdakı şəkildə tərtib edilmiş kartların təqdim edilməsi tövsiyə edilə bilər:

Card №1. At a party.

You have seen the person before. But you don't remember his/her name. Try to find out the name politely.

Card №2. At a party.

You have seen the person before. You remember his/her name. Greet him/her and ask how he/she is.

Card №3.

In pairs, try to use some very common natural phrases.

Card №4.

Divide into groups and use motions below to have a debate.

Bu zaman kommunikativ səriştənin komponentləri arasında olan əlaqələr kontekstində deklarativ və prosedura bilikləri səciyyələndirilir. Deklarativ biliklər analitik bacarıqlarla bağlıdır. Bura linqvistik, praqmatik və danışıq kompetensiyaları aiddir.

Prosedura bilikləri isə deklarativ biliklərin tətbiqi, kommunikasiyanın baş verdiyi kontekstdə həmin biliklərdən istifadə edilməsidir. Bu da bilavasitə danışığın planlaşdırılması və strateji kompetensiyanın inkişaf etdirilməsi ilə əlaqədardır. Qloballaşma dövründə ingilis dilinin "lingua franca" (ünsiyyət dili) kəsb etdiyi xüsusi rolu və əhəmiyyətini nəzərə alaraq, şagirdlərə şifahi nitq vərdişlərinin aşılanması istiqamətində işin məqsədyönlü, mərhələli ardıcıl şəkildə təşkil edilməsi problemi xüsusi əhəmiyyət kəsb etmiş olur.

Hər hansı fəaliyyətin keçirilməsi üçün insanın onun icrasına meyilli və hazır olması vacibdir. «Ustanovka» adlandırılan bu vəziyyətin əmələ gəlməsinin bu və digər situasiyada konkret xüsusiyyətlər əldə edərək situasiya və tələbatın təsiri əlaqəli şəkildə vacibdir[3,s.98].

Dildən kommunikativ və yaxud qeyri-kommunikativ şəkildə istifadə edilməsi, həmçinin nitq və formal xarakter daşıyan tapşırıqların yerinə yetirilməsi arasında fərq məhz öyrənilən xarici dildən təbii şəkildə istifadə etmənin, bir növ «təbii nitq niyyətinin» olub-olmamasında özünü biruzə verir [1, s.300].

"Situasiya" terminini hər hansı ifadənin istifadə edilməsi üçün vacib olan şərait kimi dəyərləndirirlər. Bununla bərabər situativ nitqi və eyni zamanda müxtəlif xarakterli situasiyaları şərti olaraq, iki qrupa bölərək, nitq və ekstra-linqvistik situasiyalar olaraq səciyyələndirirlər. Nitq situasiyası dedikdə insanın nitq fəaliyyətinə səbəb olan ekstra-linqvistik və nitq (xarici və daxili) stimullarını nəzərdə tuturlar. Ekstra-linqvistik situasiya isə hər hansı situasiyanın yaranmasına səbəb olan, onun quruluşu və digər əlamətlərinə təsir edən situativ kontekst kimi başa düşülür. Hal-hazırda dünyanın müxtəlif ölkələrində yaşayan insanlar ingilis dilindən ünsiyyət məqsədilə istifadə edirlər. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, ingilis dilindən ünsiyyət vasitəsi kimi istifadə edən insanların böyük əksəriyyəti dil daşıyıcıları deyil. Bu da qlobal miqyasda ünsiyyət dili olan ingilis dilində şifahi nitqə yiyələnməsi probleminin aktuallığı və vacibliyini bir daha sübut edir. Beləliklə, ibtidai təhsil səviyyəsində ingilis dilinin tədrisini elə təşkil etmək lazımdır ki, bu zaman linqvistik vahidləri və nitq modellərinin konkret situasıyalarla əlaqələndirmək bacarığının inkişaf etdirilməsi təmin edilsin və eyni zamanda onlarda müxtəlif kommunikativ situasiyalara nitq vasitəsilə reaksiya formaları inkişaf etdirilsin.

Ədəbiyyat

1. Jack C. Richards. Communicative Language Teaching Today. Cambridge University Press, 2006, 471 p.
2. Maclennan, S. "Integrating Lesson Planning and Class Management ELT Journal, 41,3, 1997, pp.193-200.
3. MacCorquodale, Kenneth. On Chomsky's Review on Skinner's Verbal Behavior. Journal of the Experimental Analysis of Behavior 13, 1970, pp. 83-99.
4. Morgan, J and M. Rinvolucri. Once Upon a Time, Cambridge: Cambridge University Press, 1983, pp. 14-18.
5. McGroarty, Mary. Some Meanings of Communicative Competence for Second Language Students. TESOL quarterly 18, 1984, pp. 257-272.

H. Agayeva

The effective ways of improving oral speech habits in junior stage at schools
(on the basis of English materials)

Summary

The article deals with the problem of working out effective ways of speaking skills.Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of effectiveness. Since its emergence this notion caught the attention and new researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use

the language more competently. So, speech defined as language use as social practice that is based on cognition, is recognized as a means to represent reality from a particular viewpoint and to negotiate relationships between text producers and recipients. The present article brings together these two functions of speech by looking at the role in constructing reality, a question that is further narrowed down by addressing how such constructions transport notions of identity that speak participants in particular relations to each other. The links are multi-faceted, involving how speakers use sentences, how language is employed to describe. Some theoretical and methodological issues that arise when one investigates it in spoken speech.

Key words: speech, context, language, communication

Х. Агаева

Еффективные пути формирования навыков устной речи в младших классах в средних школах (на основе материалов английского языка)

Резюме

В данной статье рассматриваются вопросы устной речи. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на языке. Процесс обучения речью в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. Статья посвящена k устному речью на современном методике. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. В контексте все используемые должны быть речевыми, коммуникативными точнее. Практически все используемые в процессе коммуникации должны быть реченаправленными, специально организованные таким образом, чтобы создавать необходимые условия для формирования соответствующих навыков и умений. Функциональность, ситуативность, личностная направленность, является основными свойствами речевой коммуникации.

Одной из наиболее актуальных проблем языкам является обучение устном речевому общению на изучаемом языке. В психологии общение трактуется как совокупность социальных связей, средство динамического взаимодействия общества и личности.

Ключевые слова: речь, контекст, язык, коммуникация

Redaksiyaya daxil olma tarixi: 21.03.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən tərəfindən çapa tövsiyə olunmuşdur

FƏRİD İBRAHİMLİ
Gəncə Dövlət Universitetinin
Gəncə şəhəri, Heydər Əliyev prospekti 425
feridibrahimoglu@gmail.com

MORFOLOJİ STRUKTURDA ZAMAN

XÜLASƏ

Məqalə zaman konseptinin morfoloji strukturda ifadə imkanlarından bəhs edir. Təbii ki, ani, qüvvətli hiss və həyəcanların ifadəsi olan poeziyada zamanın ifadəsində bu cür üslubi məqamlar yaradıcılıq prosesi ilə eyni anda meydana çıxır. Bu baxımdan morfoloji strukturda bu cür ifadə vasitələrini dərketmənin, ətraf aləmə münasibətdə hiss və duyğuların qavrayışa çevirilməsinin əsasında dayanan koqnitiv orqanların ani refleksiv fəaliyyətinin nəticəsi hesab etmək olar.

Zamanın morfoloji strukturda ifadəsi digər funksional üslublarda fərqli formalarda özünü göstərməsə də, bədii təfəkkürün məhsulu olan kontekst daxilində morfoloji əlamətlərin funksional-üslubi imkanları özünü daha qabarıq göstərir. Bu məqamda da sözlərin morfoloji xüsusiyyətləri ilə semantikası arasında əlaqə müstəsna rol oynayır.

Koqnitiv kateqoriyaların elmi-nəzəri əsaslarını öyrənmək, tədqiq etmək üçün poeziya nümunələri üzərində aparılan araşdırmaların təcrübi nəticələri daha effektiv əsaslandırılmış olur. Bu baxımdan, 1960-cı illər Azərbaycan poeziyasından seçilmiş nümunələr əsasında tədqiqat aparılaraq, zamanın ifadə vasitələri morfoloji vahid olaraq tədqiqata cəlb edilmişdir.

Sözlərin morfologiyası ilə semantikası arasında əlaqə barədə tədqiqatçıların fikirləri nəzərdən keçirilmişdir. Zaman ifadə edən ayrı-ayrı morfoloji vahidlərin birləşmə xüsusiyyətləri, cümlədə rolu öz forma xüsusiyyətlərinə görə müxtəlif olur. Təbii ki, hər bir kontekstin daxilində mütləq şəkildə zaman məzmunu özünü göstərir. Buna səbəb odur ki, bizim ətraf aləmi dərk edib çıxardığımız nəticələr, bütün düşüncə-fikir sistemimiz zaman koqnitiv kateqoriyası ilə uyğunluq, bəzən də dialektik ziddiyyət təşkil edir və bu dialektik əlaqə həmişə mövcud olur.

Kontekst daxilində müxtəlif - zaman ifadə edən adlar, zaman ifadə edən hərəkətlə bağlı olan adlar – zərflər, formal əlamətlərin qoşulması ilə hərəkətin baş verib-verməməsini göstərən feillər, feili bağlama, feili sifət və işlənmə vəziyyətindən asılı olaraq zaman ifadə edən digər morfoloji vahidlərin struktur imkanları araşdırılmışdır.

Açar sözlər: konsept, morfoloji struktur, zaman kateqoriyası, koqnitiv, poeziya

Zamanın konseptual strukturuna daxil olan zaman ifadə edən semantik vahidlər, həm də morfoloji vahidlərdir. Morfoloji vahid dedikdə nəzərdə tutulan odur ki, hər bir sözün semantikası ilə yanaşı, zahiri qabığı, morfoloji strukturu mövcuddur. Morfologiyanın tədqiqat predmeti nədir sualı ətrafında fikirlər çoxşaxəlidir. “Morfologiya sözlərin mənası və formasının sistematik kovariasiyasını – dəyişməsini öyrənir.” [3, s. 2] Sözün mənası forması ilə daim əlaqədədir və sözün məna dəyişkənliyi formanın dəyişməsi ilə nəticələnir. Deməli, zamanın konseptual strukturuna daxil olan ayrı-ayrı semantik vahidlər fərqli forma xüsusiyyətlərinə malik morfoloji vahidlərdir. “Morfologiya sözlərin formalaşmasında morfemlərin birləşməsini öyrənir.” [3, s.3] Morfemlərin birləşməsi dedikdə, cümlədə morfemlər öz morfoloji xüsusiyyətləri ilə birləşərək cümlə - fikir yaradır. Deməli, müəllifin morfologiya haqqında bu tərifindən çıxış etsək, həqiqətən də, morfologiya morfemlərin birləşmə xüsusiyyətlərini öyrənir. Zaman ifadə edən ayrı-ayrı morfoloji vahidlərin birləşmə xüsusiyyətləri, cümlədə rolu öz forma xüsusiyyətlərinə görə müx-

təlif olur. Ümumiyyətlə, zamanın ifadəsi yalnız sözün semantik qatında yox, ümumi konteksdə də meydana çıxır. Deməli, ayrı-ayrı zaman bildirən semantik vahidlərdə olduğu kimi düşüncənin də öz zamanı var. Düşüncənin zamanı dedikdə kontekstin ümumi məzmunundan meydana çıxan zaman nəzərdə tutulur. Təbii ki, hər bir kontekstin daxilində mütləq şəkildə zaman məzmunu özünü göstərir. Buna səbəb odur ki, bizim ətraf aləmi dərk edib çıxardığımız nəticələr, bütün düşüncə-fikir sistemimiz zaman koqnitiv kateqoriyası ilə uyğunluq, bəzən də dialektik ziddiyyət təşkil edir və bu dialektik əlaqə həmişə mövcud olur. Zamanın ifadə vasitələrinin morfoloji strukturu kontekst daxilində müxtəlif - zaman ifadə edən adlar, zaman ifadə edən hərəkətlə bağlı olan adlar – zərflər, formal əlamətlərin qoşulması ilə hərəkətin baş verib-verməməsini göstərən feillər, feili bağlama, feili sifət və işlənmə vəziyyətindən asılı olaraq zaman ifadə edən digər morfoloji vahidlər şəklində özünü göstərir. Zamanın morfoloji strukturda ifadəsi digər funksional üslublarda fərqli formalarda özünü göstərməsə də, bədii təfəkkürün məhsulu olan kontekst daxilində morfoloji əlamətlərin funksional-üslubi imkanları özünü daha qabarıq göstərir. Bu məqamda da sözlərin morfoloji xüsusiyyətləri ilə semantikası arasında əlaqə müstəsna rol oynayır. Sözlərin morfologiyası ilə semantikası arasında əlaqə barədə tədqiqatçıların fikirləri müxtəlifdir. "İlk dəfə ingilis dilində Çətir təşkilatına rast gəldikdə, bunu başa düşməyimizdə problem yox idi və lüğətdən axtarmağa ehtiyac yox idi, İngilis dili lüğətində isə, ümumiyyətlə, bu ifadə yox idi. *Bir çətir kimi fəaliyyət göstərən təşkilat* mümkün qədər dəqiq tərcüməsidir. Əsas sözlərin semantik komponenti onların funksiyasıdır və bu nümunədə *çətir* əsas semantik komponent rolunu oynayır. Bundan əlavə, dil istifadəçilərinin dildən mürəkkəb metaforik istifadəsi görünür. Metaforalarda bir məlumat mənbəyindən gələn fikirlər başqa bir sahəyə köçürülür. Çətirin qoruyucu funksiyası olduğunu bilirik və bir və ya daha çox insanı yağış və günəşdən qoruya bilir. Daha sonra bu məlumat daha mücərrəd bir ünvana (domenə) köçürülür." [1, s.209] Müəllifin fikrinə görə, morfoloji vahidlərin birləşməsi zamanı daxilində semantik əsas rolunu oynayan morfoloji vahid fikrin ümumi ifadəsinin əsasında dayanır.

Gəl tutub əl-ələ qaçaq bu gündən
Qayıdaq
öz uşaq keçmişimizə.
Utancaq, mehriban,
dəli, qüssəli,
Yolları dolaşıq keçmişimizə.
Dolaşaq günlərin sıx meşəsini,
Dəysin üzümüzə söz-sov budaqlar.
Sındıraq ilk eşqin buz şüşəsini,
Görək quruyubmu həsrət bulaqlar. [5, s.15]

Sabir Rüstəmxanlının 1968-ci ildə qələmə aldığı "Tanımaq istəsən" adlı şeirindən seçilmiş parçanın ifadə etdiyi fikrin əsasında dayanan əsas semantik komponentlər öz morfoloji xüsusiyyətlərindən istifadə edərək digər sözlərlə əlaqələnmişdir. Ancaq semantik məzmun bu əlaqənin şərtlərini müəyyənləşdirmişdir. Şeirdə hər bir ifadənin *(bu gündən qaçaq, uşaq keçmişimizə, dolaşıq keçmişimizə, günlərin sıx meşəsini, ilk eşqin buz şüşəsini, həsrət bulaqlar)* zaman məzmunu özünü aydın göstərir. Şeirin əksər misralarında əsas semantik komponent funksiyası zaman ifadə edən vahidlərdə *(bu gün, keçmiş)* cəmləşir. Şair zaman ifadə sözlərin leksik-semantik imkanlarından istifadə edərək, birinci misrada hərəkəti zaman cəhətdən izah etdiyi halda, növbəti misralarda işlənmiş *(keçmişimizə)* sözlərində mücərrəd adlandırma əsas rol oynayır və bu cür ad bildirmə nəticəsində, leksik-semantik məzmununda zaman anlayışı qalsa da, asanlıqla adlara məxsus formal əlamətləri qəbul edərək digər sözlərlə üslubi-sintaktik əlaqəyə girir. Birinci cümlədə *uşaq* sözü *keçmiş* sözünün semantikasına uyğunlaşıb onu təyin edərək məcazilik yaratmışdır. Yetkin bir insanın uşaqlıq dövrü də keçmişə bağlıdır. Deməli, bu kontekst daxilində uşaq

da, keçmiş də eyni semantik yükü daşıyır. Yəni şair *uşaq* sözü ilə keçmişi, *keçmiş* sözü ilə uşaqlığını diqqətə çatdırır. *Yolları dolaşıq keçmiş* ifadəsində isə *yollar* sözü də bir-birinin ardınca düzülən keçmişin günlərinin, aylarının, illərinin, yəni müəyyən zaman hissələrinin ümumi mənasını özündə əks etdirir. Yəni zaman ötür keçmişə çevrilir, keçən zaman isə yola bənzədilir. Şeirdə məcazilik strukturunun əsasında dayanan zaman konseptidir, deməli, bədii dilin üslubi imkanları hesabına sözlər arasında yaranmış semantik əlaqə qrammatik əlaqəni formalaşdırmışdır və bunun nəticəsində yuxarıdakı ifadə yaranmışdır. Həmin ifadənin morfoloji strukturuna nəzər saldıqda görürük ki, semantik əlaqə imkan yaratmışdır ki, şair ifadənin estetik gücünü artırmaq üçün mənsub olan sözü – *yolları* yiyəlik məzmunu daşıyan sözdən - *keçmiş* əvvəldə işlətmişdir. Hətta *yolları* sözünün təyinedicisi olan sözü – *dolaşıq* aid olduğu sözdən sonra işlətməyə nail olmuşdur. Nəticədə, müəllif leksik-semantik və morfoloji strukturun ümumi imkanları hesabına üslub baxımından ən uğurlu ifadəni formalaşdıra bilmişdir.

"Dildə zamanın müxtəlif ifadə vasitələrinin bütün semantik zənginliyi və rəngarəngliyinə baxmayaraq, temporallıq sahəsinin əsas və başlıca ifadə vasitəsi kimi məhz morfoloji zaman və ya morfoloji temporallıq kateqoriyası hesab olunmalıdır, çünki zamanın morfoloji yolla ifadəsi temporal münasibətlərin reallaşmasında məcburiliyi, müntəzəmliyi və ümumiliyi ilə xarakterizə olunur. Gerçəkliyin zaman münasibətləri dildə ən ümumi şəkildə məhz feil formasında ifadə olunur." [6, s.208] Feillərin formal əlaməti kimi özünü göstərən zaman kateqoriyası bir mətn daxilində ifadə olunan fikirlərin - cümlələrin zaman məzmununun həmzaman olmasını, yaxud ardıcıllığını (keçmiş, indiki, gələcək) ifadə edir. Britaniya linqvisti B.Komri keçmiş, indiki, gələcək zamanları ədəd oxunda təsvir etməklə, zamanın yerləşməsini və bir-birinə keçidini təsvir etmişdir. Ona görə, hadisələr feil vasitəsi ilə zaman içərisində bir yerə yerləşdirilmək məcburiyyətindədir. Feilin xəbər şəkli özünü üç zamanda göstərsə də, digər şəkillərdə gələcək zaman məzmunu görünür. Digər şəkillərdə nəzərə çarpan zamanın semantik imkanları yaxın, daha yaxın, yaxın, uzaq gələcəyi ehtiva edir. Əmr şəkli daha yaxın *(gəl, bax, yaz),* vacib şəkli *(gəlməliyəm, baxmalıyam, yazmalıyam)* yaxın, lazım, arzu, şərt *(gələsiyəm, gələ, gəlsə)* şəkilləri isə uzaq qeyri-müəyyən gələcəyi bildirir. "Şəkil vəziyyətindəki feilin ifadə etdiyi hərəkət danışan, dinləyən və özündən məlumat verən, nə biçimdə, nə tərzdə ifadə edildiyini göstərən bir qrammatik qəlib, bir anlatma vasitəsidir. Bu qəlib içində feil şəklinin dildəki istifadə forması ilə əlaqəli olan bir ruh durumunun varlığı da söhbət mövzusudur. Yəni şəkil eyni zamanda bir oluşun necə bir ruh durumu ilə əlaqəli olduğunu bildirir." [7, s.569] Feil şəkillərinin bu cür əlamətini nəzərə alaraq, onları zaman kateqoriyasından ayrı şərh etməyin üzərində dayanmışdır. Lakin müəllif onu da qeyd edir ki, zaman məzmunu şəxs kateqoriyası və şəklin ifadə etdiyi əmr, arzu, vacib, lazım, şərt məzmunu ilə eyni anda ortaya çıxdığı üçün şəkil və zaman kateqoriyası bir çox hallarda eyniləşdirilərək şərh edilir. Müəllif bu məsələdə bir-birinə zidd fikirlərdən sitatlar gətirib şərh etsə də, özü də zamanın morfoloji strukturunu şəkil kateqoriyasından ayırmaq və birləşdirmək məsələsində israrlı olmamışdır. Ancaq müəllifin yuxarıda önə çıxarılan fikri feillərin şəkil kateqoriyasının struktur tərkibini dəqiqliklə şərh edir. Həmçinin mətn daxilində yer alan zaman ifadə edən leksik-semantik vahidlər də zaman kateqoriyası ilə uyğunluq təşkil edir. Bədii mətnlərdə zaman konseptinin bu cür əlaqənin nəticəsində meydana çıxması mətnin bədii-fəlsəfi gücünü artırmağa xidmət edir. Təbii ki, bu cür əlaqədə uyğunsuzluğun olması əslində mümkünsüzdür. Lakin leksik-semantik vahidlərlə zaman kateqoriyasının uyğunluğunun müxtəlif formalarından istifadə üslubi mahiyyət kəsb edir. Feillər keçmiş zamandadırsa, həmin kateqoriyaya uyğun gələn leksik-semantik vahidlərin uzaq, yaxın, daha uzaq və daha yaxın keçmişi ifadə etməsi müəllifin bədii məqsədindən asılı olaraq dəyişir. Bu cür uyğunluq zaman kateqoriyasının bütün formalarında müşahidə edilir. Bədii mətnlərdə *idi, imiş* hissəciklərinin köməyi ilə keçmiş zaman məzmunlu indiki zaman formasından *(gəlirdi, gəlirmiş)*, keçmiş zaman məzmunlu gələcək zaman formasından *(gələcəkdi, gələcəkmiş, gələrdi, gələrmiş)* istifadə etməklə və bunlara

müvafiq leksik-semantik sistemin formalaşdırılması ilə müəllif bədii-fəlsəfi düşüncənin, dərketmənin, ətraf aləmə münasibətin əsasında dayanan zamanın daha dəqiq ifadəsini verməyə çalışır."Həqiqətən, bəzi mədəniyyətlərdə zamanın yerləşməsində dəqiqliyə çox az əhəmiyyət verilir, leksik olaraq 'bu gün' və 'indiki' anlayışlarını ayırmaq mümkün olmur. Zamanın ifadəsində dəqiq bir yerə çatmaq mümkün olan mədəniyyətlərdə bu cür dəqiqlik üçün ifadələr meydana gələ bilsə də, qeyd etmək lazımdır ki, bu cür ifadələr dilin qrammatikasını dəyişmir, əksinə mövcud qrammatik nümunələrdən istifadə edərək, yeni leksik vahidləri (məsələn, nanosaniyə kimi) ən yaxşı şəkildə yaratmaq və ya dəqiq kəmiyyətlə ifadə etmək üçün mövcud leksik vahidlərdən və riyazi ifadələrdən (məsələn, 10 saniyə) istifadə edilir. Həqiqətən, zamanı bu cür dəqiq ifadə etməyi zəruri hesab edən mədəniyyətlərin dillərində bu sahədə çox az qrammatik fərq var." [2, s.8] Mədəniyyətin inkişaf səviyyəsi ilə yanaşı, elmi-texnoloji tərəqqinin də zamanın daha dəqiq ifadəsində rolu vardır. Zamanı daha dəqiq ölçən texnoloji alətlərin vasitəsi ilə zamanın konseptual dərketmə imkanları genişlənir və nəticədə ayrı-ayrı mədəniyyətlərə məxsus bu cür etnolinqvistik faktorların təsiri ilə dilin qrammatik quruluşuna uyğunlaşan, zamanı daha dəqiq ifadə edən leksik vahidlər yaranır. Lakin zamanın daha dəqiqliklə riyazi ifadəsinə (dəqiqə, saniyə, nanosaniyə) bədii dildən daha çox, məişət və elmi dildə rast gəlinir. Bədii dildə leksik-semantik və morfoloji qatda ifadə olunan zaman konseptinin yeganə məqsədi zamanı ifadə etmək yox, müəllifin obrazlı düşüncəsinin, şərait və vəziyyətlə bağlı ümumi məna yükünün əyaniləşdirməsinin əsasında dayanmaqdır.

Gecə yağış yağdı...
səhərə qədər..
Başını salmışdı zanbaqlar gölə.
Onları qoruyur bu vaxt su sudan,
Amma güllər, otlar, başqa çiçəklər
Yağışın altında mərd durmuşdular.
Gün doğdu... hər yerdə parladı bahar.
Zanbaqlar başını suyun altında
Şirin bir yuxudan çəkdiyi zaman,
Amma güllər, otlar, başqa çiçəklər
Qaldırdı başını zərbə altından. [5, s.176]

Əli Kərimin 1969-cu ildə qələmə aldığı şeirindən seçilmiş parçada müəllif müşahidəsinin əsasında dayanan tərənnümün zaman məzmunu keçmişə istiqamətlənmişdir. Müəllif keçmişi zaman dilimlərinə ayırmış, *yağdı, başını salmışdı, durmuşdular, gün doğdu, bahar parladı, qaldırdı* keçmiş zaman feilləri ilə müşahidə etdiklərini keçmiş zamanın daxilində ardıcıllıqla düzmüşdür. Müəllifin ilk müşahidəsi *gecə yağışın yağması ilə* başlayır, *gecə, səhər* leksik-semantik vahidləri ilə mətnin ümumi məzmununun – müəllif müşahidəsinin zaman ardıcıllığı təsvir edilmişdir. Keçmişin semantik çərçivəsinin daxilində tərənnümü estetik zənginləşdirmək naminə əsasında dayanan şahidlik məzmununu daha da əyaniləşdirmək məqsədi ilə *onları qoruyur bu vaxt su sudan* ifadəsində feil indiki zamanda seçilmişdir. "İndiki zamanın xarakterik istifadəsi vəziyyətə görə müəyyənləşir. İndiki zamandan daha böyük zaman dilimini təsvir etməsinə baxmayaraq, bununla belə indiki zamanı ifadə edir." [2, s.37] Azərbaycan dilindən fərqli olaraq bir çox dillərdə indiki zamanın davam edən formasına rast gəlirik, lakin Azərbaycan dilində indiki zamanın uzunmüddətliliyinin, davamediciliyinin ifadəsi zaman ifadə edən leksik vaidlərdən, yaxud ümumi məzmundan istifadə etməklə formalaşdırılır.

Təbii ki, ani, qüvvətli hiss və həyəcanların ifadəsi olan poeziyada zamanın ifadəsində bu cür üslubi məqamlar yaradıcılıq prosesi ilə eyni anda meydana çıxır. Bu baxımdan istər morfoloji, istər leksik-semantik strukturda bu cür ifadə vasitələrini dərketmənin, ətraf aləmə münasibətdə hiss və duyğuların qavrayışa çevirilməsinin əsasında dayanan koqnitiv orqanların ani ref-

leksiv fəaliyyətinin nəticəsi hesab etmək olar. Bu da onu deməyə əsas verir ki, koqnitiv kateqoriyaların elmi-nəzəri əsaslarını öyrənmək, tədqiq etmək üçün poeziya nümunələri üzərində aparılan araşdırmaların təcrübi nəticələri daha effektiv əsaslandırılmış olur.

Ədəbiyyat

1. Booij G.E. The Grammar of Words: An Introduction to Linguistic Morphology. Oxford University Press: 2005, p. 308
2. Comrie B. Tense. Cambridge University Press, 1985, p. 139
3. Haspelmath M. and D. Sims A. Understanding Morphology. 2nd edition. Hodder Education, an Hachette UK Company, London: 2010
4. Kərim Ə. Seçilmiş əsərləri. I cild. Bakı: Azərnəşr, 1991, 334 s.
5. Rüstəmxanlı S. Seçilmiş əsərləri. Bakı: Şərq-qərb, 2004, 343 s.
6. Tahirov İ. Azərbaycan və ingilis dillərində zaman kateqoriyası. Bakı: Nurlan, 2007, 323 s.
7. Zeynep K. Türkiye Türkçesi Grameri. Şekil Bilgisi. III baskı. Ankara, 2009, 1224 s.

F.Ibrahimli

Morphological structure of time

Summary

The article talks about the possibilities of expressing the concept of time in a morphological structure. Of course, in poetry, which is an expression of instantaneous, powerful feelings and excitement, these styles of expression in time appear at the same time as the creative process. From this point of view, such expressions in the morphological structure can be considered the result of sudden reflexive activity of cognitive organs, which are based on perception, and perception of the environment.

Although the expression of time in the morphological structure does not manifest itself differently in other functional styles, the functional-styling capabilities of the morphological traits within the context of the product of artistic thinking are more pronounced. At this point, the connection between the morphological features and semantics of the words plays a special role.

The practical results of research on poetry patterns are more effectively justified in order to study and explore the theoretical basis of cognitive categories. From this point of view, the 1960s carried out a study based on samples selected from Azerbaijani poetry, and the expressive means of time were involved in the study as a morphological unit. Researchers' views on the relationship between word morphology and semantics have been reviewed. Different morphological units, which express the time, combine features, and their role varies according to their shape characteristics. Of course, within each context, the content of the time is definitely present. This is because the results we perceive in the world, our whole system of thought, sometimes coincide with the cognitive category, and sometimes the dialectical relationship, and that dialectic connection is always present.

Different contextual names, time-related names - adverbs, verbs that indicate whether movement with the addition of formal signs, vertical closure, feasibility and other structural features of time-dependent morphological units are explored.

Key words: concept, morphological structure, category of time, cognitive, poetry

Ф. Ибрагимли

Морфологическая структура времени

Резюме

В статье рассматриваются возможности выражения понятия времени в морфологической структуре. Конечно, в поэзии, которая является выражением мгновенных, сильных чувств и возбуждения, эти стили выражения во времени появляются одновременно с творческим процессом. С этой точки зрения такие выражения в морфологической структуре можно считать результатом внезапной рефлексивной деятельности когнитивных органов, которые основаны на восприятии и восприятии окружающей среды. Практические результаты исследований поэтических паттернов более эффективно обосновываются для изучения и изучения теоретических основ когнитивных категорий. С этой точки зрения, в 1960-х годах было проведено исследование на основе образцов, отобранных из азербайджанской поэзии, и выразительные средства времени были вовлечены в исследование как морфологическая единица. Хотя выражение времени в морфологической структуре не проявляет себя по-другому в других функциональных стилях, функциональные возможности морфологических черт в контексте продукта художественного мышления более выражены. Здесь особую роль играет связь между морфологическими особенностями и семантикой слов.

Взгляды исследователей на связь между морфологией слова и семантикой были пересмотрены. Различные морфологические единицы, которые выражают время, объединяют особенности, и их роль варьируется в зависимости от их характеристик формы. Конечно, в каждом контексте содержание времени определенно присутствует. Это потому, что результаты, которые мы воспринимаем в мире, всей нашей системе мышления, иногда совпадают с категорией познавательных способностей, а иногда и с диалектическими отношениями, и эта диалектическая связь всегда присутствует. Различные контекстуальные имена, связанные со временем имена - наречия, глаголы, которые указывают, исследуются ли движения с добавлением формальных знаков, вертикальное замыкание, выполнимость и другие структурные особенности зависящих от времени морфологических единиц.

Ключевые слова: концепция, морфологическая структура, категория времени, познавательный, поэзия

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 25.07.2019
Filologiya üzrə fəlsəfə doktoru, İlham Tahirov tərəfindən tərəfindən
çapa tövsiyə olunmuşdur

VƏFA PİRİYEVA
Azərbaycan Dillər Universiteti
Təbriz küç49
vafa@mail.ru

DOĞMA DİLİN TƏSİRİNDƏN İNGİLİS DİLİNDƏ TƏZAHÜR EDƏN PROSODİK VƏ İNTONASİYA SƏHVLƏRİ

Xülasə

Bu məqalədə doğma dildə-- azərbaycan və rus dillərində danışanların İngilis dilində danışarkən onların nitqində özünü göstərən fonetik səhvlərin iki növünün fərqləndirilməsinə cəhd edilir: intonasiya və prosodik səhvlər. Əsas meyarlar olaraq prosodiya və intonasiya kimi fonetik terminlər arasındakı fərqlər ayırd edilir. Bəzi dilçilər bu iki terminin arasında heç bir fərqin olmadığını qeyd edirlər. Tədqiqatçılar belə hesab edirlər ki, prosodik müdaxilə ana dilinin və öyrənilən dilin danışıq qaydalarının təsiri altında dil sisteminin pozulması prosesidir. Deməli bu dilin öz normalarını pozaraq təzahür etməsidir. Prosodiya səviyyəsində öyrənilən dil normalarından sapmalar sabitdir və xarici dil quruluşunun "xarici elementləri" ilə qarşılıqlı əlaqədə ana dilinin prosodik vahidləri və modellərini öyrənmək və əks etdirmək bacarığını inkişaf etdirməyə başlayır. Eşitmə bacarıqları nə qavrayışda, nə də nitqdə prosodik sinirləri ayırd edə bilmir.

Məlumdur ki, bir prosodik müdaxilənin nəticəsi yalnız dinləyicinin mövqeyindən asılıdır. İngilis dilini öyrənən azərbaycanlıların və rusların prosodik səhvlərini nəzərə alaraq vurğulayırıq ki, bu cür səhv hər cür ünsiyyət formasında baş verə bilər. İngilis hekayəsinin sonunun prosodik dizaynına tələbələrin ana dili də təsir göstərə bilər. Hər üç dildə olan tonların konfiqurasiyasında da ciddi uyğunsuzluqlar var: İngilis dilində enən ton Azərbaycan və Rus dillərində hamar enmə tonuna nisbətən daha aydın görünür. Bu fərqlər semantik olmayan səhvlərə, yəni sözün mənasına və əhəmiyyətinə təsir etməyən səhvlərdən qaynaqlanır. Ana dilindən melodik bir nüansın və ya elementin istifadəsi prosodik bir səhv kimi təsvir edilə bilər. Bu iki hadisə arasındakı əsas fərq sözün semantikası ilə əlaqədardır. "İntonasiya" anlayışı əsaslı bir cəhətləri özündə cəmləşdirsə də, proses yalnız nitq hissələrinin təşkili vasitələrinə aiddir. Beləliklə, intonasiya məna daşıyır və mücərrəd elementlərə malikdir, və prosodiya isə daha konkretdir və formal xarakter daşıyır.

İntonasiyadakı səhvlər bəzən bir İngilis üçün hətta təhqiramiz ola bilər. Bu məqalədə təkcə İngilis dilini öyrənən tələbələr tərəfindən deyil, həm də böyüklər tərəfindən edilən çoxsaylı tipik prosodik və intonasiya səhvlərinə dair bəzi nümunələr verilmişdir.

Yazılmış məqalə həm fonetika müəllimləri üçün, həm də İngilis dilini yaxşı öyrənmək və danışmaq istəyənlər üçün faydalı olacaqdır.

Açar sözlər: intonasiya, prosodiya, fonetik müdaxilə, vurğu, tipik səhvlər

Fonetik interferensiyanın kifayət qədər tədqiqinə baxmayaraq, hal-hazırda da bu problem həm dilçilərin, həm də əksər fonetika mütəxəssislərinin diqqət mərkəzindədir. Aparılan tədqiqatların nəticələri bir daha təsdiqləyir ki, başqa dildə danışanların xarici dilində hər hansı bir ifadənin prosodik və intonasiya ilə bağlı çətinliklərinin əsas səbəbi şəxsin ana dilinin dominant təsiridir. Dilçilikdə prosodiya nədir?

Dilçilikdə prosodiya fərdi fonetik seqmentləri olmayan (sait və samit) olmayan nitq elementləri ilə əlaqədardır, lakin hecaların və nitqin daha geniş vahidlərinin xüsusiyyətləri, o cümlədən intonasiya, ton, stress və ritm kimi linqvistik funksiyalardır. Belə elementlər supraseqmentlər adlanır. Təbii olaraq sual yaranır?

Bəs fonetik interferensiya nədir?

Fonetik interferensiya ikinci dilə yiyələnmə və dil təması prosesində hər iki dildən istifadə edən ikidilli insanların nitqində bir dilin (və ya müxtəlifliyin) digərinə təsiri deməkdir.

Prosodiya söyləmin və ya danışanın müxtəlif xüsusiyyətlərini əks etdirə bilər: danışanın emosional vəziyyətini; nitqin formasını (təsdiq, sual və ya əmr); istehza və ya sarkazmın olmasını; vurğunu, kontrast və diqqəti ifadə edə bilər.

Tədqiqatçıların qeyd etdiyi kimi, prosodik müdaxilə, ana dilinin təsiri altında dil sisteminin və öyrənilən dilin nitq normalarının pozulması prosesi və nəticəsidir və bu isə dildə danışan hər hansı bir əcnəbinin nitqində, dilin vurğu-ritmik, melodik və s. normalarının pozulmasında özünü büruzə verir [5, 25]. Prosodiya səviyyəsində öyrənilən dil normalarından sapmalar sabit xarakter daşıyır və xarici dildə təhsil alan tələbənin xarici dil quruluşunun "yad elementləri" ilə qarşılıqlı əlaqədə olması səbəbindən doğma dilin prosodik vahidlərini və modellərini qavramaq və əks etdirmək bacarıqları formalaşmağa başlayır. Eşitmə bacarıqları nə qavrayışda, nə də nitq prosesində prosodik nüansları fərqləndirməyə qabil deyil.

Məlumdur ki, prosodik müdaxilənin nəticəsi yalnız dinləyicinin mövqeyindən müəyyənləşdirilən vurğudur [1, 214].

Bəzi müəlliflər, "prosodik" müdaxilə anlamında, bilinqvin ana dilinin prosodik sisteminin təsiri ilə prosodik vahidlərin və ifadə vasitələrinin səhv modifikasiyalarında və ya yanlış dəyişikliklərində özünü göstərən "intonasiya" müdaxiləsi terminindən istifadə edirlər [3, 59]. Lakin, bizim fikrimizcə, iki anlayış arasında fərq mövcuddur və bu ifadənin (sintaqmın) semantikasına aiddir, çünki prosodiya nitq hissələrinin təşkili vasitələrini, sözün formal təşkili vasitələrini özündə ehtiva edir .

Prosodik və intonasiya müdaxiləsinin və vurğusunun mahiyyətinin öyrənilməsinə həsr olunmuş linqvistik əsərlərdə müəllim üçün xüsusilə vacib olan belə bir konsepsiya da mövcuddur - “"səhv" konsepsiyası.

Səhv tələffüz vərdişini özündə ehtiva edən vurğudan fərqli olaraq nitq səhvləri qeyri-sabitdir və ümumiyyətlə xarici dil ilə tanışlığın ilkin mərhələsində meydana çıxır. Vurğu və nitq səhvi anlayışları arasındakı sıx bir əlaqə, xarici bir vurğunun əsasını təşkil edən tələffüz səhvlərinin daima təkrar edilməsi ilə özünü göstərir.

Beləliklə, V.A.Makarova bəzi intonasiya vahidlərinin nitqdə realizasiyası zamanı iki növ səhvləri müəyyənləşdirir:

1) bir intonasiya əhatəsinin digəri ilə əvəzlənməsi ilə əlaqəli səhvlər, həmsöhbətlər arasında anlaşılmazlığa səbəb olan qeyri-adekvat situasiyalar. Yeri gəlmişkən qeyd edək ki, V.V.Vinogradov bu tip səhvləri situasiya səhvləri adlandırır.

2) intonasiya əhatəsinin səhv, təhrif olunmuş təzahürləri [4, 85].

Bir qrup tədqiqatçılar fonetik səhvləri bir-birindən ayırırlar: doğma ana dilindən asılı olmayan ***ümumi səhvlər*** və ***doğma dilin müdaxiləsi nəticəsində yaranan səhvlər*** .

Dildə bu iki faktın olmasına baxmayaraq fonetik səhvlərin növləri ilə bağlı hələ də dəqiq sərhədlər və təsvir yoxdur, bu da fikrimizcə təlimin ilkin mərhələsində xarici dilin fonetikasının tədrisində müəyyən problemlər yaradır.

Doğma ana dilindən götürülmüş bir melodik ştrixin və ya elementin nitqdə istifadəsini prosodik səhv kimi xarakterizə etmək olar. Bu iki hadisə arasındakı əsas fərq sözün semantikası ilə əlaqədardır. *"İntonasiya"* anlayışı əsaslı bir aspekti (məzmunu) özündə cəmləşdirdiyi halda, prosodiya yalnız nitq hissələrinin təşkili vasitələrinə aid olur. Deməli intonasiyada **m**əna var və mücərrəd elementləri ehtiva edir, prosodiya isə daha konkretdir, formal olaraq uyğun olması vacib görünür. Prosodiya və intonasiya arasındakı bu fərq nitq ünsiyyəti prosesində birbaşa özünü göstərir: intonasiya səhvləri ifadənin mənasını poza bilər və prosodik səhvlər isə mənaya təsir etmir.

Sözsüz ki, bir dildən başqa bir dilə məsələn, Azərbaycan dilindən ingilis dilinə tətbiq olunan intonasiya qarşılıqlı anlaşmanı çətinləşdirə bilər və tez-tez nitq ünsiyyəti prosesində problemlər doğura bilər [7, 12].

Bildiyiniz kimi, hər hansı bir dilin özünəməxsusluğu onun xarakterik tonlarının istifadəsində çox açıq şəkildə özünü göstərir. A.D.Travkina belə hesab edir ki, bir dildə mövcud olan səs tonları mütləq şəkildə başqa dildəki səs tonları ilə eyni olmasa da eyni semantik effekti verir, ümumiyyətlə həm forma, həm də məna cəhətdən oxşar olurlar. [6, 120].

Eyni bir cümlənin tələffüzü zamanı intonasiya səhvlərinin hansı anlaşılmazlığa gətirib çıxardığını aşağıdakı nümunələrdə izləyək:

`**The teacher**` left directions for Jane to follow--- i.e. directions such that Jane could follow them.

*`**The teacher**` left directions for `**Jane** to follow--- i.e. directions to the effect that Jane should follow her.*

Nümunələrdən göründüyü kimi intonasiya ayrı-ayrı mənaların yaranmasına səbəb olur.

Tamamilə aydındır ki, terminal tonun qoyulması zamanı danışanın kommunikativ niyyətinə uyğun olmayan həmsöhbətin aydınlaşdırıcı bir sualı yarana bilər:

Should Jane follow the directions left by the teacher or should Jane follow the teacher herself?

Digər bir nümunəyə nəzər salaq:

Tom has instructions to cleave// Tom has instructions to eave.

Qeyri-adekvat situasiyada tonun qoyulması, ifadənin mənasını əhəmiyyətli dərəcədə dəyişərək anlaşılmazlığa və çaşqınlığa səbəb ola bilər:

Beg your /pardon (=I'm sorry)

I /beg your pardon (= What did you say?) .

Buna görə də heç də təsadüfi deyil ki, bəzi hallarda intonasiya səhvləri həmsöhbətin- dil daşıyıcısınn danışan tərəfindən gözlənilməyən reaksiyayasına səbəb ola bilər.

Ümumiyyətlə enən ton ifadələrdə faktların sadə ötürülməsini, yuxarı ton isə hörmətsizlik, məlum həqiqətə və ya həmsöhbətə diqqətsizlik təəssüratı yaradır. Nitqin prosodik xüsusiyyətlərini araşdırarkən eşitmə meyarları (dinləyicinin zehnində yaranan subyektiv təəssüratlar) və akustik meyarları (obyektiv ölçülə bilən səs dalğasının fiziki xüsusiyyətləri) ayırmaq lazımdır. Nitqin prosodik dəyişiklikəri ilə bağlı vahid yanaşmalar mövcud deyil. Akustik baxımdan başlıca dəyişkənliklər bunlardır:

səsin aşağı və yüksək tonu
səslərin uzunluğu (qısa və uzun)
səsin yüksəkliyi
səs keyfiyyəti

fundamental tezlik
səsin intensivlik səviyyəsi

Qeyd edək ki, səs nitqdə, qulaqın qəbul etdiyi bir tonun nisbi yüksəkliyi və ya zəifliyi, vokal kordlarının realizasiyası zamanı bir saniyədə yaranan titrəmələrin sayından asılıdır.

Artan və enən tonda verilən eyni ifadələr hətta təhqiramiz görünə bilər, çünki bu ton İngilis dilinin daşıyıcıları tərəfindən səbirsizlik və istehza etmək məqsədilə istifadə olunur, mənfi təəssürat yaranmasına səbəb olur. Maraqlı bir nümunəni M. Schubiger (5) təsdiqləyir:

---What a re`markably `pretty `little river!

---I am glad you admire it.

Ancaq əcnəbi şəxsin etdiyi intonasiya səhvi kifayət qədər gözlənilməz cavab doğura bilər

---You don't expect me to live in New York! (Siz mənim NyuYorkda yaşamağımı gözləmirsiniz!) [9, 67].

Məna çalarlarına görə aşağıdakı ifadələrin tələffüzü iki variantda da özünü göstərir.

Məlumdur ki, İngilis dili sözlərin sabit bir qaydası ilə xarakterizə olunduğundan, əksər hallarda bu məna çalarları intonasiya ilə ifadə olunur. Azərbaycan və rus dilində bu funksiya əsasən sintaksis (inversiya) ilə yerinə yetirilir.

Məna çalarlarına görə aşağıdakı ifadələrin tələffüzü iki variantda da özünü göstərir. Məsələn:

At that moment Mike saw two enormous "bears" (How horrow-struck he must have been! What a terrible situation for Mike!")

At that moment Mike saw two enormous "bears" (How surprized they must have been! What a terrible situation for Mike!")

Bu vaxt Mayk iki nəhəng ayı gördü! ("Nə qədər dəhşətə gəlmişdi! Onun üçün necə də dəhşətli bir vəziyyət!").

Bu vaxt Mayk iki nəhəng ayı gördü! ("Nə qədər də təəccüblənmişdi! Onun üçün necə də dəhşətli bir vəziyyət!")[9, 72].

Dilçiliklə bağlı yazılmış əsərlərdə əcnəbilər tərəfindən İngilis tonlarının düzgün istifadə edilməməsinə də aid misallar gətirirlər: yüksək tonun aşağı və hamar bir tonla əvəz etmək, İngilis dilində tez-tez mənfi hissləri - laqeydlik, sarkazm və s. mənfi çalarları bildirir. Məsələn:

Can I go now?-- İndi gedə bilərəm? (nəzakətli sual-istək).

Can I go now?-- İndi gedə bilərəmmi? (qıcıq və səbirsizlik ifadə edən sual).

I have just read the new biology book."Interesting?"

(Yeni biologiya kitabını indicə oxudum!) "Maraqlıdır? (Səmimi maraq)." Maraqlıdır? (rəsmi sual, laqeydlik) .

N.B Volskaya belə hesab edir ki, intonasiya səhvləri eyni zamanda məntiqi və emosional məlumatların dəyişməsinə səbəb olur [3, 68]. Müəllif apardığı təhlillərə əsaslanaraq göstərir ki, aşağı düşən və yüksələn tonla verilən ifadələr və xüsusi suallar ingilis dilinin daşıyıcıları tərəfindən "etiraz, qıcıqlanma, təhqir" kimi neqativ assosiasiyalar doğuraraq mənfi məna **çalarları ifadə edir**:

Şübhəsiz ki, intonasiya semantik nüansların ifadəsi üçün "məsuliyyət daşıyır".

Yuxarıda qeyd etdiyimiz kimi, intonasiyanın mənaya təsiri çox böyükdür və açıq-aydın görünür ki, müxtəlif cür səslənən ifadələrin intonasiya variantları xarici dil tələbələri üçün ilkin şərhə ehtiyac duyur.

Təcrübə göstərir ki, ingilis dilinin intonasiyasının mənimsənilməsində yaranan çətinliklər həm nitq hadisəsinin özünün mürəkkəbliyi, həm də tədris prosesində bu cəhətin öyrədilməsinə lazımi diqqətin olmaması ilə izah olunur.

Prosodik səviyyədə ən çox rast gəlinən səhvlər, ilk növbədə Azərbaycan və rus dilinin ritmik nümunəsinin ingilis dilinə tərcüməsidir. Nəticədə tələbənin tələffüzündə İngilis nitqinin tələffüz normasından sapmalar müşahidə olunur. Müşahidələrimizə görə, ümumiyyətlə Azərbaycanlıların və rusların ingiliscə nitqi qeyri-sabit, qeyri-bərabər bir ritm ilə xarakterizə olunur; fasilələrin təşkili və onların müddəti çox vaxt təsadüfi olur.

İngilis, Azərbaycan və rus dillərinin prosodik sistemlərindəki fərqlər terminal tonların müxtəlifliyində də özünü göstərir .

İngilis dilini öyrənən Azərbaycanlıların və rusların prosodik səhvlərini nəzərə alaraq vurğulayırıq ki, bu cür səhvlər hər hansı bir ünsiyyət tipində ola bilər. İngilis dilində enən ton, daha hamar Azərbaycan və rus dillərində enmə ton ilə müqayisədə olduqca kəskindir. Bu fərqlər "semantik olmayan", yəni sözün mənasına və əhəmiyyətinə təsir etməyən prosodik səhvlərin səbəbidir.

İngilis dilinin intonasiyasının öyrənilməsi ilə bilavasitə əlaqəli belə bir həqiqəti də qeyd edirik: həm prosodik, həm də intonasiya səhvləri əksər hallarda ucadan oxuyarkən meydana çıxır. Bundan əlavə, qeyd etmək lazımdır ki, nitq fəaliyyətində özünü biruzə verən prosodik və intonasiya səhvləri müəllim üçün o qədər də nəzərə çarpan deyildir, çünki adətən şagirdin oxuduğu mətn onun qarşısında olur və səsli nitqin qavranılması və qiymətləndirilməsi vizual olaraq mümkün olur.

Sonda bir daha vurğulamaq lazımdır ki, örənilən dilin intonasiyasının xüsusiyyətlərinə məhəl qoymamaq nitq ünsiyyətinin pozulmasına, yəni dinləyici tərəfindən danışanın qeyri-adekvat anlaşılmasına səbəb olur. Ancaq bununla belə hər ikisi ana dili ilə ünsiyyət prosesinin effektivliyini təmin etmək üçün vacib olduğundan, bu məqama fonetikanın tədrisində lazımi diqqət göstərilməlidir.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlirik ki, xarici dilin fonetikasının tədrisində bəzi xüsusi hallarda ortaya çıxa biləcək fərqliliyə baxmayaraq, intonasiya və prosodik səhvləri ayırd etmək və onların qarşısının alınması və aradan qaldırılması üzərində işləmək daha məqsədəuyğun hesab olunur.

Ədəbiyyat

1. Виноградов В.А. О филологическом механизме иностранного акцента // Проблемы теоретической и прикладной фонетики и обучение произношению. - М., 1973.
2. Вишневская Г.М. Интерференция и акцент (на материале интонационных ошибок при изучении неродного языка) / Дисс. ... докт. филол. наук. -СПб., 1993.
3. Вольская Н. Б. Интонационные ошибки русских студентов и их оценка носителями английского языка // Фонетическая интерференция. - Иванове, 1985.
4. Макарова Е.Н. Структурный и функциональный аспекты просодии и интонации // Коммуникативные единицы языка: структурный, семантический и прагматический аспекты.-М., 1990.
5.Метлюк А.А. Просодическая интерференция в иноязычной речи. - Минск, 1985.
6. Травкина А.Д. Фоновое интонационное знание как составная часть языковой компетенции // Фонетика и психология речи.- Иванове, 1984.
7. O'ConnorJ.D., ArnoldG.R. Intonation of colloquial English. -London,1961.
8.Palmer H.E. English intonation with systematic exercises. -Cambridge, 1924.
9. Alien W.S. Living English speech. - London, 1965.

V.Piriyeva

Prosodic and intonation errors in native speakers' english

Summary

In this article, an attempt is made to differentiate between two types of phonetic errors in the English speech of a native Azerbaijani and Russian: intonational and prosodic errors. As the main criteria we used the difference between such phonetic terms as prosody and intonation.We share the opinion of those who differentiate between those notions, though some linguists see almost no difference between them. Researchers have noted that prosodic interference is the process and consequence of the violation of the language system under the influence of the native language and the rules of speech of the learned language. It shows itself in violation of its norms. The deviations from the language norms learned at the prosody level are stable and begin to develop the ability to learn and reflect the native language's prosodic units and models as they interact with the "foreign elements" of the foreign language structure. Hearing skills are not capable of distinguishing prosodic nerves in neither perception nor speech.

It is well known that the outcome of a prosodic intervention is an emphasis only on the position of the listener. Given the procedural errors of Azerbaijanis and Russians who learn English, we emphasize that this kind of error can occur in any form of communication. The prosodic design of the end of English narrative may also be influenced by students' native language. There are also

serious discrepancies in the configuration of the tones in both languages: the descending tone in English is more pronounced in comparison to the smooth descending tone in Azerbaijani and Russian languages. These differences are due to non-semantic errors, that is, those that do not affect the meaning and significance of the word. The use of a melodic pattern or element from a native language can be described as a prosodic error. The main difference between these two events is related to the semantics of the word. While the concept of "intonation" incorporates a substantive aspect, the process relates only to the means of organizing parts of speech. So intonation has meaning and contains abstract elements, and prosody is more specific, formally compatible.

The errors are usually quite evident to a native English speaker who perceives them in prosody just as a foreign accent of the interlocutor.

Mistakes in intonation may sometimes be even offensive for an Englishman. In this article we give some examples of typical prosodic and intonational errors which are very often made not only by schoolchildren studying English but by grown-ups as well.

Hopefully, this article will be quite helpful for teachers of phonetics and useful for those who want to teach and speak good English.

Key words: intonation, prosody, phonetic intervention, accent, typical errors

В, Пирийева

Просодические и интонационные ошибки, возникающие в английском языке, вследствие влияния родного языка

Резюме

Несмотря на существующее довольно большое количество исследований фонетической интерференции, интерес к ее изучению как со стороны лингвистов, так и специалистов по фонетике не угасает до сих пор. Выводы, сделанные на основании результатов исследований, в очередной раз подтверждают то, что главная причина возникновения трудностей просодического / интонационного оформления фразы на иностранном языке для носителей другого языка заключается в доминирующем влиянии родного языка индивида. Просодическая интерференция, как отмечают исследователи, представляет собой процесс и результат нарушений языковой системы и речевой нормы изучаемого языка под влиянием родного языка и проявляется в нарушениях акцентно-ритмических, мелодических и временых норм языка в речи говорящего на этом языке иностранца. Отклонения от норм изучаемого языка на уровне просодии носят весьма устойчивый характер и объясняются тем, что обучающийся иностранному языку обладает уже устоявшимися навыками восприятия и воспроизведения просодических единиц и моделей родного языка, во взаимодействие с которыми вступают "чужеродные элементы" иноязычной структуры, а еще не сформировавшиеся слуховые навыки не могут служить опорой для различения просодических нюансов как при восприятии, так и при производстве речи.

Известно, что следствием просодической интерференции является акцент, который определяется только с позиции слушающего.Некоторые авторы в значении "просодической" интерференции употребляют термин "интонационная" интерференция, под которой понимают воздействие просодических систем родного языка билингва, проявляющееся в ошибочных модификациях просодических единиц и средств выражения. Однако, с нашей точки зрения, различие между этими двумя понятиями существует, и заключается оно в

отношении к семантике фразы / синтагмы, поскольку просодия включает в себя лишь средства организации речевых единиц, формальную организацию фразы, в то время как интонация охватывает и содержательный аспект.

В лингвистических работах, посвященных исследованию сущности просодической и интонационной интерференции и акцента, встречается и такое особенно важное для преподавателя понятие, как "ошибка". В отличие от акцента, представляющего собой неправильный произносительный навык, ошибка носит неустойчивый характер и присутствует обычно на начальном этапе знакомства с иностранным языком. Тесная связь этих двух понятий проявляется в том, что именно постоянно повторяющиеся произносительные ошибки становятся основой иноязычного акцента. Другие исследователи выделяют в сущности те же виды фонетических ошибок: общие ошибки, независимые от родного языка, и ошибки как результат, следствие интерференции родного языка . Таким образом, классификации фонетических ошибок у большинства ученых совпадают, что свидетельствует о довольно унифицированном характере этого явления.Несомненно, интонация одного языка, например русского, будучи примененной к другому языку может затруднять взаимопонимание и часто создает проблемы в процессе языкового общения. Сами англичане считают, что они "охотнее простят иностранцу несовершенное произношение звуков, чем неправильную речевую интонацию", которая, помимо других функций, выражает отношение говорящего к собеседнику, и потому иностранец, употребив неправильную интонацию, может ненамеренно оскорбить слушающего.

Однако до сих пор не существует четкого разграничения и описания типов фонетических ошибок, что, по нашему убеждению, представляет определенную проблему для методики преподавания фонетики иностранного языка, особенно на начальном этапе обучения. В данной статье мы попытаемся, насколько это возможно при известной взаимосвязи просодии и интонации, провести границу между понятиями "просодическая" и "интонационная" ошибки. Что касается просодических ошибок, являющихся результатом просодической интерференции родного языка, то необходимо еще раз отметить, что, с одной стороны, такие ошибки "выдают" в человеке иностранца, но с другой стороны, ошибки в просодии, т. е. отклонения в акцентно-мелодической, ритмической и временной организации иноязычной речи, никого не "задевают" лично. Речь такого человека несет на себе отпечаток просодической системы родного языка и, как уже отмечалось, воспринимается иностранцем как акцент.

Ключевые слова: интонация, просодия, фонетическая интерференция, акцент, типичные ошибки

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 25.10..2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Kifayət Alırızayeva tərəfindən tərəfindən çapa tövsiyə olunmuşdur

SƏFURƏ ABDURAHMANOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Şəki filialı
safurasalehli@gmail.com
Şəki şəh., M.Rəsulzadə, 305

ŞİFAHİ NİTQİN TƏDRİSİNDƏ TEXNİKİ VASİTƏLƏRİN ROLU

Xülasə

Şifahi nitq bacarığı İngilis dilini öyrənmək üçün tələbələr tərəfindən mənimsənilməli olan bacarıqlardan biridir. Bu, ünsiyyət üçün vacib bir vasitədir. Sinifdə şagirdlərin nitq qabiliyyətlərinin yaxşılaşdırılması hər zaman diqqət mərkəzində olub. Sürətlə inkişaf edən 21-ci əsrdə sinif otaqlarında danışma bacarığını öyrətmək üçün müxtəlif innovativ texnologiyalar tətbiq olunur. Texnologiya bu müasirləşən dünya ilə tanış olmaq üçün vasitədir. Bu gün rabitə, ticarət və sövdələşmə prosesindən daha çox texnologiya təhsil sektorlarında geniş istifadə olunur. Texnoloji vasitələr şagirdlərə danışıq bacarığı kimi dil biliklərini inkişaf etdirməyə köməkçi vasitə kimi qəbul edilmişdir. İnternet, podkastlar, video konfranslar, videolar və nitq tanıma proqramı danışma bacarığını öyrətmək üçün ən yaxşı vasitə hesab olunur.

İkinci dil öyrənərkən texnologiyadan istifadə bu gün əsl zərurətə çevrilib. Bu məqalədə şagirdlərin danışıq bacarığını inkişaf etdirmək üçün texnologiyanın necə istifadə olunacağından bəhs edilir. Danışıq bacarığını inkişaf etdirmək üçün texnologiyanın istifadəsinin fərqli üsulları hərtərəfli müzakirə edilir. Nəticədə aşağıdakı son irad və tövsiyələr qeyd edilə bilər:

1. Texnologiya inkişaf etdirdikcə bu mühitin təlim prosesinə daxil edilməsi zəruridir.
2. Kompüterə daha çox təlim fəaliyyətinin ayrılmaz hissəsi və bacarıqların öyrənənlərə ötürülməsi vasitəsi kimi baxılır.
3. İkinci dil öyrənməsində nəzəriyyə və təcrübə müasir texnologiyaların tətbiqi ilə bir araya gələ bilər.
4. Danışıq bacarığını effektiv öyrənmək və öyrətmək üçün müasir texniki yollara riayət edilməlidir.
5. İngilis dili müəllimləri şagirdlərini danışıq qabiliyyətlərini inkişaf etdirməkdə texnologiyadan istifadə etməyə həvəsləndirməlidirlər.
6. Təhsil müəssisələri tədris prosesini dəstəkləmək üçün yeni avadanlıq və laboratoriyalardan istifadə etməklə texniki təlim imkanlarını modernləşdirməlidirlər.
7. Müasir texnoloji alətlər daha maraqlıdır və əyləncəli öyrənmə təmin edir, şagirdləri həvəsləndirir və dil öyrənmə prosesini səmərəli şəkildə artırmağa kömək edir. Üstəlik, bu vasitələr tələbələrin müstəqil şəkildə öyrənmələrinə kömək edir.

Açar sözlər: real həyat situasiyaları, fərdi və interaktiv rollu oyunlar, rol kardları, debat, problem, səbəb

Şifahi nitq müxtəlif situasiyalarda şifahi və qeyri-verbal simvolların köməyilə məna yaratmaq və paylaşmaq prosesidir. Şifahi nitq ikinci dil öyrənmənin və tədrisinin mühüm hissəsidir. Onun əhəmiyyətinə baxmayaraq, çox illər şifahi nitqin tədrisi lazımınca qiymətləndirilməmişdir və İngilis dil müəllimləri şifahi nitqi təkrarlar və dialoqların əzbərlənməsi vasitəsilə tədris etmişlər. Buna baxmayaraq, bugünkü dünya tələb edir ki, şifahi nitqin tədrisinin məqsədi tələbələrin ünsiyyət bacarıqlarının yaxşılaşdırılmasına yönəlməlidir, çünki yalnız belə tələbələr özlərini ifadə edə və hər cür kommunikativ situasiyalara uyğun mədəni və sosial qaydaları izləməyi öyrənə bilər. [5.13]

Şifahi nitqin tədrisi nədir?

- Nitq səslərini və səs modellərini təqdim etmək;
- İkinci dilin söz və cümlə vurğusu, intonasiya modelləri və ahəngindən istifadə etmək;
- Müvafiq sosial vəziyyətə, auditoriyaya, situasiyaya və mövzuya uyğun söz və cümlələri seçmək;
- Tələbələrin fikirlərini mənalı və məntiqi ardıcıllıqla qurmaq;
- Dildən bir qədər qeyr-təbii pauza ilə sürətlə və inamla istifadə etmək (səlislik). [4.10]

Hal-hazırda bir çox dilçi və müəllimlərin də qeyd etdiyi kimi, tələbələr "qarşılıqlı təsir, əlaqə" ilə ikinci dildə danışmağı öyrənirlər. Kommunikativ dil tədrisi və kollaborativ öyrənmə bu məqsəd üçün ən yaxşı vasitələrdəndir. Kommunikativ dillər tədrisi kommunikasiyanı tələb edən real həyat situasiyalarına əsaslanır. Bu metoddan istifadə etməklə, tələbələrin bir-biri ilə ikinci dildə ünsiyyət saxlamaq imkanı olacaq. Qısaca olaraq, müəllimləri tələbələrin şifahi nitqini inkişaf etdirən real kommunikasiyanın, əsl fəaliyyətlərin və məzmunlu tapşırıqların olduğu sinif mühitini yaratmalıdır. Tələbələr məqsədə nail olmaq üçün və ya tapşırıqları tamamlamaq üçün qruplarda əməkdaşlıq edəndə bu baş verə bilər.

Şifahi nitqin inkişaf etdirən fəaliyyətlər

Müzakirələr

Məzmun əsaslı dərsdən sonra, müxtəlif səbəblərə görə müzakirələr keçirilə bilər. Tələbələr nəticəyə çatmaq, hadisə haqqında ideyalar paylaşmaq və ya öz müzakirə qruplarında həll yolu tapmağa istiqamətlənə bilərlər.

Rollu oyunlar

Şifahi nitqin tədrisinin başqa bir üsulu rollu oyunlardır. Tələbələr təsəvvür edirlər ki, onlar müxtəlif sosial mühitlərdədirlər və müxtəlif sosial rolları var. Rollu oyunlarda, müəllim şagirdlərə məlumat verir ki, onlar kimdirlər və onlar nə fikirləşirlər və ya nə hiss edirlər.

Modelləşdirmələr

Modelləşdirmələr rollu oyunlara çox oxşardır, ancaq modelləşdirmələrin fərqli cəhəti odur ki, onların daha dəqiqdirlər. Modelləşdirmələrdə tələbələr real ətraf mühit yaratmaq üçün sinfə əşyalar gətirə bilər. Məsələn, əgər tələbə müğənni kimi iştirak edirsə, o oxumaq üçün mikrofon gətirir.

İnformasiya boşluğu

Bu fəaliyyətdə tələbələrin cütlərdə işləməsi nəzərdə tutulur. Tələbə öz şərikinin bilmədiyi informasiyaya malikdir və şəriklər öz informasiyalarını bir-biriləri ilə paylaşırlar. İnformasiya boşluğu fəaliyyətləri problemləri həll etmək və ya informasiyanı toplamaq kimi çoxlu məqsədə xidmət edir.

Beyinhəmləsi

Verilən mövzuda tələbələr məhdud vaxtda ideyalar yaradırlar. Kontekstdən asılı olaraq, həm fərdi həm də qrup beyinhəmləsi effektivdirlər və tələbələr tez və sərbəst ideyaları yaradırlar. Beyinhəmləsinin yaxşı xüsusiyyətləri odur ki, tələbələr ideyalarına görə tənqid edilmirlər, beləliklə tələbələr yeni ideyaları paylaşmaq üçün cəsarətli olurlar.

Hekayə danışma

Tələbələr əvvəlcədən eşitdikləri hekayəni və ya nağılı qısaca ümumiləşdirə və ya onlar sinif yoldaşılarını demək üçün öz hekayələrini yarada bilərlər. Hekayə danışma yaradıcı düşünməni gücləndirir. Bu, tələbələrə başlanğıc, inkişaf və sonluq formatında, eləcə də obrazlara və süjetə malik olan ideyaları ifadə etməkdə kömək edir.

Müsahibələr

Tələbələr müxtəlif adamlarla seçilən mövzularda müsahibələri apara bilərlər. İnsanlarla müsahibələri aparmaq tələbələrə yalnız sinif daxilində deyil, sinifdənkənar da şifahi nitq imkanlarını təcrübədən keçirmək üçün şansı verir. Müsahibələrdən sonra, hər tələbə sinfə öz tədqiqatını təqdim edə bilər. Bundan başqa, tələbələr bir-biridən müsahibə götürə bilər və sinfə öz əməkdaşını təqdim edə bilər.

Hekayə tamamlama

Bu çox maraqlı, bütün sinfi əhatə edən, çox azad danışma fəaliyyətdir və bu fəaliyyət zamanı tələbələr dairə şəklində otururlar. Bu fəaliyyət üçün, müəllim hekayə danışmağa başlayır, ancaq bir neçə cümlədən sonra nəql etməyi dayandırır. Sonra hər tələbə əvvəlki tələbənin dayandığı yerdən nöqtədən nəql etməyə başlayır. Hər tələbənin 4-10 cümlə əlavə etməsi lazımdır. Tələbələr yeni xarakterlər, hadisələri, təsvirləri və s. əlavə edə bilər.

Reportaj

Sinfə gəlməmişdən əvvəl tələbələr qəzet və ya jurnal oxumalıdır və sinifdə onlar dostlarına maraqlı hesab etdikləri xəbəri məlumat verirlər. Tələbələr həmçinin dərsə gəlməmişdən qabaq gündəlik həyatlarında baş verən maraqlı hadisələri danışa bilərlər.

Şəkil nəql etmək

Bu fəaliyyət bir neçə ardıcıl şəklə əsaslanır. Tələbələr rubrika kimi müəllim tərəfindən verilən meyara diqqət yetirməklə ardıcıl şəkillərdə baş verən hekayəni danışmalıdırlar. Rubrikalara nəql zamanı lazım olacaq lüğət və ya tərkiblər daxil ola bilər.

Şəkil təsviri

Şifahi nitq fəaliyyətində şəkillərdən başqa cür istifadə yolu tələbələrə sadəcə bir şəkil vermək və onların şəkildəkiləri təsvir etmələridir. Bu fəaliyyət üçün tələbə qrupları yaradılır və hər qrupa müxtəlif şəkil verilir. Tələbələr qrupları ilə şəkli müzakirə edir və sonra hər qrup üçün məruzəçi bütün sinfə şəkli təsvir edir. Bu fəaliyyət şagirdlərin yaradıcılıq potensialını və təxəyyülünü, eləcə də ictimai şifahi nitq qabiliyyətlərini möhkəmləndirir.

Fərqi tapın

Bu fəaliyyət zamanı tələbələr cütlərdə işləyə bilər və hər cütə iki müxtəlif şəkil, məsələn, futbol oynayan oğlanlar və tennisi oynayan qızların şəkli, verilir. Cütlərdə tələbələr şəkillərdəki oxşarlıqları və fərqləri müzakirə edirlər.

Şifahi nitqin tədrisi üçün təkliflər

- Əməkdaşlıq, orijinal materialları və tapşırıqları əhatə edən zəngin ətraf mühiti təmin etmək ilə ikinci dili danışmaq üçün tələbələrə maksimal imkanı yaratmaq.
- Hər şifahi nitq fəaliyyətində hər tələbəni cəlb etməyə cəhd etmək; bu məqsəd üçün tələbə iştirakının müxtəlif yollarını təcrübədən keçmək.
- Sinifdə müəllimin danışıq vaxtını azaltmaq və tələbənin danışıq vaxtını artırmaq. Geri çəkilmək və tələbələri müşahidə etmək.
- Tələbənin cavabına qiymət verərkən müsbət əlamətləri göstərmək.
- Tələbələri daha çox danışmağa təhrik etmək üçün belə suallar verə bilərsiniz: "What do you mean? How did you reach that conclusion?"
- Tələbələr danışarkən tələffüz səhvlərini çox tez-tez düzəltməyin. Düzəliş tələbəni nitqindən yayındırmamalıdır.
- Yalnız sinifdə deyil, sinifdənkənar şifahi nitq fəaliyyətləri təşkil etmək.
- Tələbələrin düzgün işlədiyinə və sizin köməyinizə ehtiyacları olub-olmadığına əmin olmaq üçün sinifin ətrafında dövr edin.
- Tələbələrin şifahi nitq fəaliyyətlərində ehtiyac duyduğu lüğəti əvvəlcədən təmin edin. [3.5]

Müasir tələbəyə texniki cəhətdən tam təchiz olunmamış dərs kabinetləri, müasir texnologiyadan istifadə olunmayan tədris prosesi olduqca maraqsızdır.

Dünya praktikasında ali təhsil müəssisələrinin qüdrəti onun malik olduğu müasir kitabxanalar, müxtəlif laboratoriyalar, yenilənmiş informasiya bazası və ən əsası, İKT-nin ən son yeniliklərinin tətbiqi ilə ölçülür.

Son zamanlar İngilis dilinin tədrisi (ELT) metodologiyası çox sürətlə inkişaf edir, təhsilin müasir texnologiyalara olan tələbatı artır, təhsil modelləri, təhsil prosesi iştirakçılarının rolları tədricən dəyişir. Bu gün innovativ metodlarla mobil təhsil imkanı yaradan yeni vasitələr meydana çıxır ki, bu da İnformasiya texnologiyasının (İT) nisbətən qısa, lakin surətlə inkişaf edən tarixi və kompüterin köməyi ilə dil öyrənmə (CALL-Computer Assisted Language Learning) indi özünün üçüncü dövrünü yaşayır.

IKT-nin auditoriyaya inteqrasiyası və xüsusən ingilis dilinin tədrisində istifadəsi tələbələrin təhsilində və gələcək peşəkar həyatlarında uğur qazanmalarına yardımçı olacaq, bacarıq və vərdişlərin inkişafına zəmin yaradacaqdır və tələbələr aşağıdakı nəticələrə nail olacaqlar: [1.65]

• Kompüter vasitəsilə sinxron və qeyri-sinxron ünsiyyət qurmaq. Hipermətn (audio və video materiallar), tətbiqi proqramlar: elektron poçt, e-poçt ünvanları, videokonfrans, qlobal şəbəkə ilə tanış olmaq.

• Şəbəkə etiketi (internetdə davranış qaydalarını öyrənmək).

• İngilis dilinin tədrisində internetdən istifadə etməyin əsas səbəbləri ilə tanış olmaq.

• İnternetlə təmin olunmuş auditoriyadan istifadə bacarıqlarına yiyələnmək və tətbiq etmək.

• Gələcək müəllimlərin peşəkar inkişafını təmin edən resuslardan: peşəkar jurnallardan, nəşrlərdən və virtual kitabxanalardan istifadə etmək. Peşəkar birlik və assosiasiyalar(EBSCO, J-stor, Oksford jurnalı, İRK-nin rəqəmsal vasitələri) ilə tanış olmaq və onlardan faydalanmaq.

• İnteraktiv (şəbəkədaxili) seminarlar və konfranslarda iştirak etmək. İngilis dilinin tədris edilməsinə dair internet səhifələri (saytları) ilə tanış olmaq.

• Müəllimlər arasında əməkdaşlığı genişləndirmək. Kooperativ və əməkdaşlıq şəraitində işləmək.

• Distant təhsil, TEFL, TESL, CELTA, DELTA, TKT və s. kurslar ilə tanış olmaq və onlardan yararlanmaq.

• Tələbə əməkdaşlığını gücləndirmək, müəllim və tələbə arasında qarşılıqlı fəaliyyət (məsləhət, dialoq , jurnal və yazılı konfranslar) aparmaq.

• Sinif daxili fəaliyyət və layihələr təşkil etmək.

• Müəllif hüququ və plagiatlıq barədə müzakirələr aparmaq.

• İnternetə əsaslanan kurs hazırlamaq. [1. 66]

Təhsildə bu gün mümkün olan müasir texnologiyalar bunlardır: [2.11]

- Kommunikasiya laboratoriyası
- Nitqin tanınması proqramı
- İnternet
- TELL (Dil Öyrənməsini Artıran texnologiya)
- Podkastinq
- Sürətli Əlaqə Qələmi (Quick Link pen)
- Quicktionary

Kommunikasiya laboratoriyaları

Bu proqram təminatı şifahi nitq bacarıqlarını inkişaf etdirmək üçündür. Laboratoriyada qulaqcıqların istifadəsi mövzuya marağı artırır.

Nitqin tanınması proqramı

Nitqin tanınması proqramı həmçinin tələbələrin nitqini yaxşılaşdırmağa kömək edir, bu deyilən sözləri maşın dilinə çevirə bilər. Qurğu oxunulan mətnin dəqiqliyini tanıyır və "Siz əla səsləndirdiniz" kimi müsbət rəylərlə təmin edir və ya istifadəçiyə bir daha sınaqdan keçirmək üçün imkan verir, və beləliklə şagird yaxşı oxuyub oxumadığını müəyyənləşdirə bilir. Bu proqram təminatı həmçinin qrammatikanı, tələffüzü, anlamanı qiymətləndirir və düzgün formalar ilə təmin edir, məsələn, əgər tələbə sözü səhv tələffüz edirsə, bu öyrənmə aləti onun səhvini düzəltməyə kömək edir. Bu qurğu distant təhsil alan şagirdlər üçün çox faydalı qurğu ola bilər, çünki onların onların nitqlərini düzəldən müəllimləri yoxdur və bu qurğu onların danışıq bacarıqlarını yaxşılaşdırmağa kömək edə bilər.

İnternet

İnternet bütün dünyada tanınmış termindir və geniş istifadə edilir. Tələbələr indi internetdən İngilis dilini öyrənmək üçün sinifdə istifadə edir. Sinif daxilində onlayn öyrənmə onlar üçün maraqlı görünə bilər və tələbələrə lazım olan materialları seçməyə kömək edir. Tələbələr mümkün onlayn olan qrammatika tapşırıqlarını edə bilərlər. Şifahi nitqlərini yaxşılaşdırmaq üçün tələbələr Skype, MSM, Google talk və digər tətbiqlərdən istifadə edə bilər və dostları, digər tələbələr, müəllim və hətta doğma dil daşıyıcıları ilə əlaqə yarada bilərlər. Bu növ öyrənmə tələbələrin şifahi ustalığını təkmilləşdirir və ünsiyyət qurmaq üçün motivasiya rolu oynayır. İnternet vasitəsilə tələbələr çoxlu audio tədris materialına tapa bilər, məsələn video, radio və teleşoular, oyunlar, səs qeydiyyatları, yoxlama sorğuları, podkastinqlər və s. beləliklə, tələbələrin danışıq bacarıqlarını inkişaf etdirməyə kömək edir.

TELL

TELL, dil təlimi və öyrənməni artırmaq üçün texniki vasitələr, proqram təminatı və internet daxil olmaqla kompüter texnologiyasının istifadəsidir. O İngilis dili öyrənilməsini genişləndirmək üçün mümkün bütün texnologiyalardan istifadə üçün tələbələrə imkan verir.

Podkastinq

Podkastlar yüklənilə bilər, bu audio dil öyrənənlərə hədəf dillə tanış olmağa kömək edir və müəllimlər bunlardan müzakirələr kimi fəaliyyət növləri üçün sinifdə faydalı audio material kimi istifadə edə bilər. Podkast şifahi nitqlərini təkmilləşdirnmək üçün şagirdlərə şübhəsiz kömək edir. Podkastinq audio faylların inteqrasiyasıdır və bizim özümüzün materiallarımızı sinifdaxili və sinifdən xaricdə istifadə etmək çün mümkündür.

Podkastinq pedaqoji məqsədlər üçün texnologiya əsaslı əyləncə sistemlərindən istifadə etmək üçün tələbələrə imkan verir. Podkast istənilən vaxt hər kəs ilə informasiyanı paylaşmağa tələbələrə və müəllimlərə imkan verir. Dərsdə iştirak etməyən təbə qeydə alınmış dərsin podkastını yükləyə bilər və istirak etmədiyi mühaziräni əldə edə bilər.

Sürətli əlaqə qələmi

Sürətli Əlaqə Qələmi şagirdlərə internet liknlərini çap olunmuş mətni köçürmək imkan verir. O sözün lüğəvi mənasını əldə etmək üçün oxucuya imkan verir. Maşın tərcümələrindəki son inkişaflar ***Go translator*** və ***Bablefish*** kimi tərcümə proqramları təqdim edir.

Quicktionary (sürətləndirici)

Bu qələmə bənzər qurğudur. O imkan verir ki, oxucu sözü asanlıqla gözdən keçirsin və onun tərcümə və tərifini əldə etsin. [2.12]

Ədəbiyyat:

1. Dil təlimində innovativ metodlar. Bakı, 2012.
2. Chirag P. Use of Multimedia Technology in teaching and learning communication skill. 2003
3. Hayriye Kayi., Teaching speaking., The Internet TESL Journal., 2006
4. Nunan D., Practical English language teaching., 2003
5. Chaney, A.L., and T.L.Burk. Teaching oral communication in grades k-8.1998

S.Abdurahmanova

The role of technical means in teaching speaking skill

Summary

Məsələn, **¡Qué Dios esté contigo!** və **¡Qué Dios te acompañe!** frazeologizmlərinin hər ikisi Pireney yarımadası ispancası üçün, yəni klassik ispanca üçün keçərli variantlar olub eyni mənanı, yəni "Tanrı Sənə yar olsun!" anlamını ifadə edirlər. Nümunələrə diqqət edək.

*Mair le dirigió una mirada de desprecio antes de dirigirse a Trystan, que por fin la miró. - ¡**Que Dios esté contigo!**, Trystan. - ¡**Que Dios esté contigo!**, Mair, y que seas muy feliz*. [13].

"*Lo persigné, le dije, ¡**que Dios te acompañe!***" [17]. Göründüyü kimi, burada artıq frazeoloji dublet formatlı variantlılıqdan söhbət gedir.

İspan dilindəki dini məzmunlu frazeologizmlərin variantlılığını aşağıdakı qruplar üzrə fərqləndirmək olar:

1) Teonim komponentin variantlılığına istinad edən leksik variantlılıq;

Məsələn, **Si Dios quiere//Si el Señor quisiere** "*Tanrının izni ilə*" frazeoloji vahidlərini buna misal göstərmək olar. Birinci varinatda Dios "Tanrı" teoniminə yer verildiyi halda, ikinci varinatda **Señor** "Cənab" evfemizmindən istifadə edilmişdir.

Haşiyəyə çıxıb qeyd edək ki, Y.M.Çernikovaya görə teonim və demonimlərin evfemizmlə əvəzlənməsi hind-Avropa dilləri üçün yetərincə xarakterik olan cəhətdir. Dilçi A.Musorinə istinadən, ümumiyyətlə, hind-Avropa dillərində hələ xristianlıqdan öncəki dövrlərdə, Tanrı teoniminin ilkin anlamda, məhz, "Cənab, Sahib" mənalı leksik vahidlə ifadə olunduğunu da xüsusilə qeyd etmişdi [9, 139] .

Müasir ispan dilinin dini frazeologizmlərində "Dios" teonimi analoji evfemizmlərlə asanlıqla əvəzlənə bilir. S.A.Nikiofirova "Dios" teonimi ilə yanaşı ispan dilinin variantları üçün el Creador, Diosito, Nuestro Señor, Señor , el Redentor, Señor Todopoderoso, El Padre Eterno,

Nuestro Amo, Su Divina Majestad, El Dulce, el Santísimo və s. bu kimi allyuzial fonlu evfemizmlərin işləkliyinin xarakterik olduğuna diqqət çəkir [4, 312].

Məsələn, **Si Dios quiere//Si el Señor quisiere** frazeoloji vahidlərinin variantlılığı məhz evfemizm korrelyasiyasına əsaslandığı üçün burada tam semantik uyğunluq təsbit edilə bilər. Nümunələrə diqqət edək:

*Las personas que utilizan esa frase lo hacen para enfatizar su buena suerte ("Ha encontrado trabajo, gracias a Dios") o para conjurarla (**Si Dios quiere**, nos iremos este año todos de vacaciones"), pero ambas maneras son, a mi modo de ver, visiones de un Dios arbitrario y caprichoso* [10] .

İncildə isə deyilir: *Más bien, debierais decir: **Si el Señor quiere**, viviremos y haremos esto o aquello*. (Santiago 4:15)

2) Digər komponentlərin variantlılığına istinad edən leksik-qrammatik variantlılıq;

Llevar una cruz a cuestas // Andar con las cruces a cuestas "1.Tanrıdan əhv diləmək; 2. Dərd içində qovrulmaq"; kimi frazologizmləri misal göstərmək olar [11]

"Gözünün yaşı ovcunda olmaq" mənasını ifadə edən ***Llorar como una Magdalena*** və ***Estar hecha una Magdalena*** frazeologizmləri də ikinci növ variantlılığı təşkil edir. Birinci frazeologizmin hərfi tərcüməsi "Məcdəlli Məryəm kimi ağlamaq", ikincisinin isə "Müqəddəs Məryəmə çevrilmək" anlamını ifadə edən bu birləşmələr istər komponentar baxımından, istərsə də qrammatik quruluş özəlliyinə görə bir-birinin alternativini təşkil edir və frazeoloji sinonimiyanı deyil, varaiantlılıq halını təcəssüm etdirir. Nümunəyə diqqət edək: *Al oír la expresión '**llorar como una Magdalena' (o 'estar hecho alguien una Magdalena**') a algunos estudiantes de español se les vendrá a la mente la imagen de esos ricos bollos dulces, similares al bizcocho, que tomamos para desayunar o merendar. Su origen no puede ser más distinto* [11].

"İncil" obrazı olan Mariya Maqdalenaya allüziya əsasında meydana gəlmiş bu variantlılıq İsa Peyğəmbərin çarmıxa çəkilməsi gününə aid "mətnə" - intertekstemina istinad edir. İsa Peyğəmbərin tərəfdaşlarından olan bu qadının çarmıxa çəkilmiş peyğəmbərin durumu qarşısından axıtdığı göz yaşları və keçirdiyi emosional sarsıntı müvafiq frazeologizmlərin "şaquli kontekstini" təşkil edir. *Se dice que por esta razón cuando Cristo fue crucificado María Magdalena lloraba arrepentida por no poder ayudarle y por ver como sufría este personaje; de aquí es que se dice que se **llora como Magdalena**, pues en la biblia se le representa arrepentida y llorando cuando Jesús es crucificado* [10].

Onu da qeyd edək ki, İsa Peyğəmbərin davamçısına çevrilmədən öncə, Mariya Maqdalenanın yüngül əxlaqlı qadın kimi tanınması faktı həmin ifadənin digər anlamda - "qadının tövbə etməsi" mənasında istifadəsini də mümkün edir. (bax: [12])

Hərfi tərcümədə "Yəhuda kimi olmaq, Özünü Yəhuda kimi aparmaq" anlamını verən ***Ser como un Judas/ portarse alguien como un Judas*** "Yəhuda kimi olmaq/Özünü Yəhuda kimi aparmaq (satqın olmaq)" frazeoloji vahidləri də; eləcə də hərfi tərcümədə "Yəhudaya bənzəmək, Yəhudaya oxşamaq" anlamlı ***Estar hecho/parecer alguien un Judas*** "pinti, səliqəsiz (danışıq dilində "cır-cındır") geyinmək" frazeoloji vahidləri də ikinci növ variantlılığı təşkil edirlər.Məlumdur ki, frazeoloji variantlılıqla frazeoloji sinonimiya arasında yetərincə həssas sərhəd mövcuddur. Bəzi hallarda sinonimlər məhz variantların məna differensiallaşmasından da yarana bilər. Bu, o zaman baş verir ki, variantların fərqli kontekstdə yükləndiyi semantika tam adekvatlıqdan az və ya çox dərəcədə uzaqlaşır. Məsələn, hərfi tərcümədə "Tanrının iradəsi olarsa" anlamını əks etdirən **Si fuese la voluntad de Dios** frazeologizmi daha öncə haqqında bəhs etdiyimiz **Si Dios quiere//Si el Señor quisiere** variantlılığına sinonimdir. Əslində hər üç frazeoloji vahid "Tanrı izn verərsə" mənasını ifadə etsə də, sonuncular müvafiq anlamlı frazeorefleks mövqeyində asanlıqla çıxış edə bilirlər. **Si fuese la voluntad de Dios** frazeoloji vahidi üçün isə

həmin mövqe bir o qədər də xarakterik deyil. Deməli funksional planlı asimmetriya yaranır ki, bu da artıq variantlılıqdan deyil, sinonimlikdən danışmağa imkan verir.

Pues si tu voluntad fuese la voluntad divina, en estando enfermo no querrías, contra la divina voluntad, estar sano, pero ***sí que fuese voluntad de Dios*** *el que sanases* [14, 251].

3) Metaforik paralellik əsasında meydana gələn frazeoloji variantlılıq;

İspan dini frazeologizmlərinin təhlili burada xüsusi növ variantlılıq kimi səciyyələndirə biləcəyimiz "Metaforik paralellik əsasında meydana gələn frazeoloji variantlılıq" qrupunun fərqləndirilməsini labüd etmişdir. İspan xalqına xas dünyanın dil mənzərəsində, eləcə də konkret olaraq, xristianlığa xas olan dini öngörüş və doqmalar müxtəlif anlayış və obrazlar arasında bərabərlik işarəsinin qoyulmasını mümkün etmişdi. Məsələn, ***Alma de Judas*** "Yəhudanın ürəyi" və ***Alma de Caín*** "Qabilin ürəyi" ifadələrinin variantlılığını təmin edən Yəhuda və Qabil presedent onimləri, əslində fərqli "İncil" süjetlərinə allüziya əsasını təşkil edir. Məlum olduğu kimi, Yəhuda İsa Peyğəmbərin on iki həvarilərində biri olmuş və ona xəyanət etmiş şəxsdir. "İncil"də oxuyuruq: "*Y entró Satanás en Judas, por sobrenombre Iscariote, el cual era uno del número de los doce; y éste fue y habló con los principales sacerdotes, y con los jefes de la guardia, de cómo se lo entregaría. Ellos se alegraron, y convinieron en darle dinero*." Evangelio (22:2-5). Sonradan öz xəyanətinin dəhşətli miqyasının fərqinə varan Yəhuda həyatına intiharla son vermişdi.

Bundan fərqli olaraq, Qabil obrazı bilavasitə xristianlıqla bağlı olmayıb, ibrahimi dinlərin müqəddəs kitablarda əksini tapan süjet və obrazlarla bağlılıq təşkil edir. "Fələstin torpaqlarında yaranan bu dinin (xristianlığın – R.Ə.) ilk azsaylı davaçıları, ***qədim yəhudi ənənəsi çərçivəsində***, yeni təfəkkürün əsas müddəalarını ifadə etdiklərini" bildirən A.Əlizadənin fikirləri bu kontekstdə xüsusilə maraq doğurur: "Xristianlığın tarixi köklərinə və yaranmasına diqqət yetirdikdə, ***onun bir tərəfdən qədim yəhudi dininə***, başqa bir tərəfdən isə antik dövr dünyagörüşü və fəlsəfəsi ilə sıx surətdə əlaqədar olduğu məlum olur" [1, s. 6, 9].

Əgər Yəhuda obrazı xristianlığın meydana gəlməsindən sonrakı dövrlə bağlılıq təşkil edirsə, bundan fərqli olaraq, Qabil obrazı ibrahimi dinlərin ilki, birincisi olan yəhudiliyin müqəddəs kitabından bəlli olan Adəm və Həvvanın birinci övladının adıdır. Qardaşı Abelə duyduğu həsədi boğa bilməyən Qabil onu öldürməklə bəşər tarixinin ilk qatilinə çevrilmişdir.

"İncil"də oxuyuruq: *Y dijo Caín a su hermano Abel: Salgamos al campo. Y aconteció que estando ellos en el campo, Caín se levantó contra su hermano Abel, y lo mató*. (Génesis 4:8).Göründüyü kimi, birinci halda xəyanətkar və özünə qəsd etmiş Yəhuda, ikinci halda isə xəbis və qatil Qabildən söhbət gedir. Onların cinayətləri fərqli mahiyyət kəsb etsə də, xristianlıq doqmaları nəzərində onlar eyni səviyyəli günah sahibləridir və buna görə də, ortaq semantik yüklü metaforik keçidi ifadə edirlər.

Təxminən analoji situasiyanı hərfi tərcüməsi "Beelzəbuba vermək" olan **Darse a Belcebú** "Əsəbiləşmək, qəzəblənmək" frazeoloji vahid ilə və hərfi tərcüməsi "Şeytana vermək" olan **Darse *uno* al diablo** "Qəzəblənmək" frazeologizminin variantlılığında da izləyə bilərik. Belə ki, Beelzəbub xristian adət ənənələrində şeytanın mələklərindən biridir. Cəhənnəmi idarə edən iki mələkdən biridir. Burada biz hiponim və hiperonim korrelyasiyası əsasında yaranmış asimmetrik korrelyasiyanı izləmiş oluruq. "Şeytan" hiperonim olduğu halda, "Beelzəbuba" isə hiponimdir.Göründüyü kimi, ispan dini frazeologiyasında variantlılıq hadisəsi öz spesifikliyini ilə seçilir və bu spesifiklik həm ispan xalqının dünyanın dil mənzərəsi özünəməxsusluğu ilə, həm də, ispan dilinin ədəbi dil variantlılığı ilə şərtlənir.

Ədəbiyyat:

1. Əlizadə A. A.Xristianlıq: tarix və fəlsəfə: ilk cağlar. Bakı: Əbilov, Zeynalov və oğulları, 2007, 172s.

2. Ахренов А.В. К вопросу о месте межвариантной синонимии в преподавании испанского языка как иностранного // Вестн. Моск. гос. областн. ун-та. Сер.: Лингвистика. - 2007. - № 1. - С. 311-316. http://espanol.su/foro/viewtopic.php?p=57062&sid=ccf48fb922c98d7fbf0dca5a04227228
3. Карпина Е. В. К вопросу о вариативности испанского языка на территории мексиканского полуострова Юкатан //Томский журнал лингвистических и антропологических исследований. 2016. Т. 1. № 11. С. 19-29. https://ling.tspu.edu.ru/files/ling/PDF/articles/karpina_e._v._19_28_1_11_2016.pdf
4. Никифорова С.А. Семиотика религиозных аллюзий в костариканском национальном варианте испанского языка. // Вестник РУДН. Серия «Теория языка. Семантика. Семиотика, с.309-319, https://cyberleninka.ru/article/n/semiotika-religioznyh-allyuziy-v-kostarikanskom-natsionalnom-variante-ispanskogo-yazyka
5. Праченко О.В. Вариативность испанских фразеологических единиц с компонентом цвета в сопоставлении с русскими ФЕ // Русская и сопоставительная филология: состояние и перспективы, Казань: Изд-во Казан. ун-та, 2004.– С.76-77
6. Пронченко Е. Н. Обучение лексической стороне устной речи на основе синонимии (испанский язык, начальный этап языкового вуза, диссер…канд.филол.наук., Пятигорск, 2002, 210 с. http://www.dissercat.com/
7. Соколова К.А. Структурно-семантические особенности фразеологизмов с цветовым компонентом в западно-романских языках (на материале испанского, французского и итальянского языков) , Диссертация на соискание ученой степени кандидата филологических наук, Санкт-Петербург 2016 , 247 С. https://disser.spbu.ru/files/disser2/disser/bCk5HG7xpz.pdf
8. Степанов Г. В. Типология языковых состояний и ситуаций в странах романской речи. / Г. В. Степанов. – М.: Наука, 1976. 224 с.
9. Черникова Е. М. Эвфемизация теонимов и демонимов в некоторых индоевропейских и афразийских языках, диссер… канд. филол. наук, Челябинск 2007, 194 с.
10. Belén Casado Mendiluce. http://blogs.diariovasco.com/lapsicologaencasa/2017/06/30/por-que-dices-si-dios-quiere/
11. Buitrago Alberto. Diccionario de dichos y frases hechas. Madrid, 2012. http://profesoresdeele.org/2015/03/31/expresiones-relacionadas-con-la-semana-santa/
12. Llorar como una Magdalena http://hombrerefranero.blogspot.com/2012/09/llorar-como-una-magdalena.html
13. Margaret Moore. Pack Margaret Moore. https://books.google.az/
14. Miguel de Unamuno/Diario íntimo: (1897) https://books.google.az/
15. ¿Qué significa llorar como una Magdalena? http://que-significa.net/la-expresion/llorar-como-una-magdalena/
16. http://old.kpfu.ru/f10/publications/konf/articles_1_1.php?id=3&num=32000000
17. https://www.debate.com.mx/mundo/Lo-persigne-le-dije-que-Dios-te-acompane-20170123-0182.html

Р.Алиева

Вариативность в испанской религиозной фразеологии

Резюме

В статье рассматриваются вариативность в религиозной фразеологии испанского языка. Автор обращает внимание на множество вариантов литературного языка

испанского языка и отмечает, что этот момент также находит своё отражение в фразеологической вариантности. Как известно, вариативный разницы между вариантами испанского литературного языка оцениваются как «фразеологические варианты», а варианты в рамках того же варианта, как «фразеологические дублеты». В статье автор, которая в основном исследует «фразеологические дублеты» утверждает, что этот тип вариативности можно выделить в трех группах. Автор приходит к заключению, что вариативность в испанском языке имеет свою специфику.

Причина этого состоит в том, что распространение испанского языка в широком географическом ареале, существование различных диалектов этого языка, а также различия в литературном языке влияют и на вариативность фразеологический единиц. Приведенные в статье примеры являются ярким тому подтверждением.

Автор также отмечает, что фразеологические единицы теономическими и демонимическими компонентами, характерные для индоевропейских языков, но также охватывают обширную географическую область, где распространен испанский язык, и эти фразеологизмы широко используются в повседневной жизни. В некоторых случаях, эти компоненты явно выделяются, но иногда действуют как аллюзия.

Ключевые слова: испанский язык, варианты литературного языка, религиозные фразеологизмы, «Библия», метафора

R.Aliyeva

Variation in Spanish religious phraseology

Summary

The article explores variants in the religious phrases of the Spanish language. The author draws attention to the many variants of the literary language of the Spanish language and notes that this point is also reflected in the phraseological variation. As you know, that variations differences between the variants of the Spanish literary language are evaluated as “phraseological variants”, and variants within the same variant as “phraseological doublets”. In the article, the author, who mainly explores “phraseological doublets,” argues that this type of variation can be distinguished in three groups. The author concludes that variability in the Spanish language has its own specifics.

The reason for this is that the spread of the Spanish language in a wide geographical area, the existence of various dialects of this language, as well as differences in the literary language, also affect the variability of phraseological units. The examples cited in the article are clear evidence of this. The author also notes that phraseological units with theonomic and demonic components are characteristic for Indo-European languages, but also cover a vast geographical area where the Spanish language is spread, and these phraseological units are widely used in everyday life. In some cases, these components are clearly distinguished, but sometimes act as an allusion.

Key words: Spanish language, variants of literary language, religious phraseology units, “Bible”, metaphor

Redaksiyaya daxil olma tarixi: 21.03.2019

Çapa qəbul olunma tarixi: 25.05.2019

Filologiya üzrə fəlsəfə doktoru, dosent Ülfət İbrahim tərəfindən tərəfindən çapa tövsiyə olunmuşdur

VÜSALƏ CƏFƏR-ZADƏ
Bakı Dövlət Universiteti
Zahid Xəlilov küç
vusale.n@gmail.com

AZƏRBAYCAN DİLÇİLİYİNDƏ MƏTN SİNTAKSİSİNİN PROBLEMLƏRİNƏ DAİR BƏZİ QEYDLƏR

Məqalədə mətn sintaksisinin bəzi problemlərinə toxunulur. Baxmayaraq ki, mətn haqqında kifayət qədər tədqiqat işləri yazılır, yenə də mübahisəli məsələlərin mövcudluğuna diqqət yetirilir. İlk olaraq məqalədə mətnin dil, yoxsa nitq akti olması məsələsinə diqqət yetirilir. Müəllif yerli və xarici dilçilərdən nümunələr gətirməklə mətnin dil və nitq aktının sintezi olması qənaətinə gəlir.

Məqalədə diqqətə çatdırılan problemlərdən biri də tabesiz mürəkkəb cümlənin elə mətn olması məsələsidir. Müəllif tabesiz mürəkkəb cümlələrdə komponentlərdən birinin digərindən asılı olmadığını əsas göstərir. Tabesiz mürəkkəb cümlənin tərkibinə daxil olan komponenetlərin hər birinin ayrılıqda müstəqil işlənə bilməsini qeyd edir. Həmçinin tabesiz mürəkkəb cümlələri və mətnin komponentlərini bağlayan vasitələrin eyniliyini diqqətə çatdırır. Bu qeydlərdən çıxış edərək tabesiz mürəkkəb cümlənin mətn olması qənaətinə gəlir. Müəllif fikirlərini yekunlaşdıraraq tabesiz mürəkkəb cümlə növünün olmadığını diqqətə çatdırır.

Müəllif mətn sintaksisinin aktual problemlərindən biri kimi mətnin komponentləri arasında əlaqə vasitələri məsələsinə də toxunur. Komponentlərin mətndaxili əlaqələrinin cəmi ilə yanaşı, mətndə ayrı-ayrı komponentlərin bir-birilə əlaqəsi zamanı ortaya çıxan əlaqə üsullarının mövcudluğundan bəhs edir. Müəllif rus və Azərbaycan dilçiliyində komponentlər arasında əlaqə üsullarının yalnız koheziya əsasında formalaşan növlərinin, yəni zəncirvari və paralel əlaqənin qeyd edilməsinə iradını bildirir. Komponentlər arasında koherensiyaya əsaslanan xətti əlaqə üsulunun da mövcud olduğunu diqqətə çatdırır.

Açar sözlər:*mətn sintaksisi, potensial sintaksis, aktual sintaksis, kommunikativ funksiya, propozisional üsul, zəncirvari əlaqə, paralel əlaqə, xətti əlaqə, semantik bağlılıq,* koheziya, koherentlik

Mətn haqqında tədqiqatlar genişləndikcə araşdırılmayan sahələrortaya çıxır. Mətn barəsində fikirlərin çoxluğu bir sıra mübahisəli məsələləri də önə çıxarır.Mətn sintaksisinin həllinə ehtiyacı olan problemləri çoxdur. Lakin biz məqaləmizdə aşağıda göstərilmiş problemlərin izahına yer verməyə çalışacağıq.

1. Mətn özlüyündə dil və nitq aktlarının sintezidir.
2. Tabesiz mürəkkəb cümlə elə mətndir.
3. Mətnin komponentləri arasında 3 əlaqə vasitəsi var.

Azərbaycan dilçiliyində mətn sintaksisinin problemlərinə nəzər saldıqda əvvəlcə diqqəti mətnin dil, yoxsa nitq aktı olmasına yönəldirik. Çünki tədqiqatçıların mətni nitq aktı hesab etmələrinin nəticəsində illərdir mətn dilçilik tədqiqatlarında özünə yer tapmayıb.

XIX əsrin əvvəllərindən başlayaraq dilçilik elminin inkişafında yeni mərhələ yarandı. Əsasən, sintaksis sahəsində yaranan yeni fikirlər, funksional sintaksisin yaranması və cümlənin aktual üzvlənməsi dilçilikdə bir-birindən maraqlı mülahizələrin təşəkkül tapmasına gətirib çıxardı. Bu təlim semantika və funksiyanın bir-birinə bağlı olaraq reallaşması və həmin kontekstdə fikrin konkret dil vasitələri ilə ifadəsinin öyrənilməsinə yönəlir.

Sintaksisi potensial və aktual sintaksisə ayıranlar, əsasən, potensial sintaksisin tədqiqi ilə məşğul olublar. Potensial sintaksisə həsr olunan tədqiqat işləri ilə müqayisə edildikdə aktual sintaksis

xeyli geridə qalıb. Aktual sintaksisin tədqiqi dilin kommunikativ imkanlarını aydınlaşdırmağa xidmət edir. Dilin kommunikativ funksiyasının önə çıxarılması sintaksisə yeni baxışın yaranmasına gətirib çıxardı.

XX əsrin əvvəllərində Praqa dilçilik məktəbinin sintaksis sahəsindəki uğurlarından biri olan cümlənin aktual üzvlənməsi nəzəriyyəsi mətn dilçiliyinə yeni bir baxışın yaranmasına gətirib çıxardı. Bu nəzəriyyəyə əsasən, məlumat vahidi kimi cümlənin məntiqi-psixoloji izahı yox, kommunikativ funksiyasından çıxış edən dil aspekti götürülürdü. Praqa dilçilik məktəbinin nümayəndələrinin mətn sintaksisi haqqındakı fikirləri mətn sintaksisinin öyrənilməsində böyük əhəmiyyət kəsb edirdi. Bu məktəbin nümayəndələrindən olan V.Matezius və K.Kojevnikova aktual üzvlənmə ilə bağlı müxtəlif fikirlər irəli sürdülər [5; 6].

Azərbaycan dilçiliyində bu barədə fikir bildirən A.Məmmədov teksti, abzası yalnız nitq faktı kimi nəzərdən keçirməyi doğru hesab etmir. "Mətndə elə cümlələr var ki, onlar yalnız dil modelləri əsasında düzəldilmişlər. Mətn dil və nitq vahidlərinin sintezidir" [4, 11]. Mətni dil və nitqin sintezi hesab edən müəlliflə tamamilə razıyıq.

K. Abdulla isə mətnin dil, yaxud nitq vahidinə aid əlamətlərini əvvəlcə mətnin emik, yəni dilə aid səviyyəsi ilə etik, yəni nitqə aid səviyyəsini fərqləndirməyi labüd hesab edir. Bu da mətnin informativ əsasının (invariantının) və variantlarının qarşılıqlı münasibətinin araşdırılmasına gətirib çıxarır. Emik səviyyədəki mətni fonem, morfem, leksem kimi dil vahidləri ilə analogiyada tekstema kimi ayırıb adlandırır. Bunun qarşılığı olaraq etik səviyyədə elə tekst terminini saxlayır. Müəllif mətnə dil və nitqin sintezi kimi deyil, bütövlükdə özündə həm dil, həm də nitq əlamətlərini qoruyan, saxlayan bir vahid kimi yanaşır. ... Öz fikirlərini "Kitabi-Dədə Qorqud" dastanının ayrı-ayrı boylarının müxtəlif variantlarından gətirdiyi nümunələrlə əsaslandıran müəllif belə bir nəticə çıxarır: "geniş mənada götürdükdə və obrazlı şəkildə desək, mətn özünü iki üzlü Yanus kimi göstərir. Eyni zamanda həm dil faktı, həm də nitq faktı ola bilir. Dil faktı kimi özünü göstərən mətndə, yəni tekstemada invariantlıq (dəyişməz) mahiyyəti gizlənmişdir, nitq faktı kimi özünü göstərən mətn-tekstdə isə variant mahiyyəti özünü göstərir" [1; 258, 277].

Sintaksisə funksional yanaşmanın nəticəsində tədqiqata cəlb olunan məsələlərin obyekti olaraq mərkəzdə mətn dururdu. Bu dövrdə mətn sintaksisinin müxtəlif aspektdən tədqiqi yeni bir mərhələnin əsasını qoydu.

Söylənilən fikirləri ümumiləşdirərək belə nəticəyə gəlirik ki, mətn ayrıca götürülmüş dil, yaxud nitq faktı deyil, o, özündə dil və nitqi aktlarını birləşdirir, yəni onların sintezi (birləşməsi, əlaqələnməsi) kimi təzahür edir. Mətni bu baxımdan nəzərdən keçirdikdə əsas diqqət onu təşkil edən komponentlərin əlaqələnməsinə yönəlir. Buna əsaslanaraq, mətn komponentlərinin bir-biri ilə qarşılıqlı əlaqəsini, əlaqələri yaradan mətndaxili semantik münasibətləri əsaslandıran formal elementləri nəzərdən keçirməli oluruq. Bunun üçün isə propozisional və kommunikativ üsulları ayrı-ayrılıqda nəzərdən keçiririk. Propozisional üsulla mətni təhlil etdikdə cümlənin öyrənilməsinə tədbiq edilən qanunauyğunluqlar mətnə köçürülür, bu zaman mətnin linqvistik xarakteri əsaslı şəkildə öz yerini möhkəmləndirir. Kommunikativ üsulla mətnin təhlili zamanı isə birbaşa mətnə aid olan spesifik xüsusiyyətlər üzə çıxır və diqqətə çatdırılır. Bu zaman mətn bir bütöv kimi tədqiqata cəlb edilir.

Mətn sahəsində aparılan tədqiqatlar cümlədən böyük sintaktik vahdin mövcud olduğunu təsdiqlədi. Məhz buna görə də frazadan böyük vahidlərin sintaksisi ilə məşğul olmaq zərurəti meydana çıxdı. Belə ki, müəyyən mənada bir birinə bərabərləşdirilən subyekt və predikat hissələrin birliyi kimi çıxış edən cümlə müəyyən informasiya ötürür, lakin o informasiya mətn daxilində bütövləşir. Mətn tərkibinə daxil olan cümlələr arasındakı müxtəlif daxili, gizli semantik qrammatik məna özünü göstərir. Elə bu xüsusiyyətinə görə də onu vahid kimi aid olduğu sahəyə daxil etmək, yəni mətn dilçiliyinin ayrıca müstəqil dilçilik sahəsi kimi ayırmaq məqsədəuyğundur.

Nəticədə, şifahi nitq "diskurs", yazılı dil aktı isə "mətn" terminlərinin fərqləndirilməsi problemləri meydana çıxır. Şifahi olaraq söylənilənlərin yazıya köçürülərək mətn formasına salınması

və onun dil aktı kimi nəzərdən keçirilməsi məqsədəuyğundur. Dil aktı kimi sintaksisin digər vahidlərinin özünəməxsus xüsusiyyətləri olduğu kimi, mətn də bu xüsusiyyətləri özündə daşıyır. Özünəməxsus daxili strukturu, komponentlərini əlaqələndirən vasitələrin mövcudluğu onun dil faktı kimi tədqiqini şərtləndirir. Mətnin sərhədlərinin müəyyənləşdirilməsi uğrunda aparılan tədqiqatların çoxluğu da mətnin dil faktı olduğunu sübut edir. Çünki sintaksisin əsas tədqiqat obyektlərindən biri, tabesiz mürəkkəb cümlələr elə mətnin özüdür. "Tabesiz mürəkkəb cümlə kimi tabesiz mürəkkəb cümlə növü açıq-aşkar şəkildə onun tərkibinə daxil olan komponentlərin, yəni müstəqil cümlələrin struktur-semantik xüsusiyyətlərini öz içində əridə bilmir" [1, 158]. Tabeli mürəkkəb cümlələri yaradan komponentlər bir-birilə sıx əlaqəli olduğu halda, tabeli mürəkkəb cümlələrdən fərqli olaraq, tabesiz mürəkkəb cümlələrdə komponentlərdən birinin digərindən asılılığı müşahidə edilmir. Tabesiz mürəkkəb cümlənin tərkibinə daxil olan komponenetlər hər biri ayrı-ayrılıqda müstəqil işlənə bilir. Asanlıqla komponentlər arasında nöqtə qoyub yeni cümlə ilə fikri davam etdirmək mümkündür. Həm tabesiz mürəkkəb cümlələri, həm də mətnin komponentlərini bağlayan vasitələrin eyniliyi də bunu təsdiq edir.

Mətn sintaksisinin əsas problemlərindən biri kimi tabesiz mürəkkəb cümlənin məhz elə mətn olması irəli sürülür. Lakin bu mövzu əsaslı tədqiqata cəlb olunmayıb. Bu sahədə tədqiqat işləri genişləndirilsə, tabesiz mürəkkəb cümlə növünün olmadığınıdiqqətə çatdırmaq olar.

Mətn sintaksisinin aktual problemlərindən biri də mətnin komponentləri arasında əlaqə vasitələri məsələsidir.

Komponentlərin mətndaxili əlaqələrinin cəmi ilə yanaşı, mətndə ayrı-ayrı komponentlərin birbirilə əlaqəsi zamanı ortaya çıxan əlaqə üsulları da vardır. K.Abdulla bu əlaqə üsulunu məntiqi sintaktik əlaqə adlandırır və koheziyaya əsaslandığını qeyd edir [2, 107].

Mətnin komponentləri arasında əlaqə vasitələri koheziya və koherentliyin arasındakı əlaqəyə görə fərqlənir. Lakin rus və Azərbaycan dilçiliyində komponentlər arasında əlaqə üsullarının yalnız koheziyaya əsasında formalaşan növlərini qeyd ediblər, yəni zəncirvari və paralel əlaqə. Ancaq komponentlər arasında koherensiyaya əsaslanan xətti əlaqə üsulu da mövcuddur.

Zəncirvari əlaqə cümlələrin halqavari bağlılığına əsaslanır. Bir cümlənin reması digərinin temasına çevrilir.

Ağalar, qonağım cənab knyaz Qaqarindir. O, bizim içərimizdə olmayan, bizə nəsib olmayan bir sənət sahibidir. Rəssamdır. O, şəkil çəkir, bir növ bizim qədim divarların bəzəyini işləyən rəhmətüllah Mir Əli kimi. Dinimiz bizə insan rəsmetməyi qadağan edir. Xristianlarda isə belə deyil. Cənab knyaz buralara səyahət edib ki, bizim həyat və təbiətimizdən bəzi lövhələri rəsm etsin (Cəfərzadə Ə. Aləmdə səsim var, Bakı: Şərq-qərb, 2016, s.42).

Mətnin ilk cümləsinin teması digər cümlənin remasına çevrilib. Eynilə ikinci cümlənin teması üçüncü cümlənin remasıdır. Bu ardıcıllıq 4-cü cümlədə də eynilə davam edir. Mətn bütövlükdə zəncirvari əlaqə əsasında formalaşıb.

Paralel əlaqə əsasında qurulan mətnlərdə əvvəlcə ümumiləşdirici bir cümlə verilir, sonra həmin cümlədəki subyekt ideyası paralel cümlələrlə müxtəlif cəhətdən şərh edilir, ümumi fikir konkret məna ifadə edən cümlələrə paylanır [3, 459].

Elə Nadir də, Vaqif də ləyaqətli oğlanlar idi. Onlardan hərəsinin öz üstün cəhəti, gözəl xüsusiyyəti vardı. Lakin Sevda Asifi heç birinə tən tutmurdu, onu tamam başqa gözdə görürdü. Qızcığaz zahirən özünü laqeyd göstərsə də daxilən bu ünsiyyətə biganə deyildi. O, Asifin cazibə qüvvəsində yaşayırdı. Ancaq sevirdimi Sevda, sevmirdimi Sevda, bunu bilmirdi. Məhəbbətə oxşar bu duyğu onunçun işıqda bir qaranlıq, qaranlıqda bir işıq timsalında idi (Qədirzadə S. Sevdasız aylar, Bakı: Xan, 2015, s. 6).

Mətnin ilk iki cümləsi öz aralarında paralel əlaqə ilə əlaqələnib. Sonrakı üç cümlədə də öz aralarında paralel əlaqə ilə bağlanıb.

Xətti əlaqə üsulu koheziya əsasında formalaşan əlaqə üsullarından fərqlənir. Koherentlik əsasında yaranır. Mətnin hər bir komponenti öz arasında tema – rema, tema – rema, ... formasında əlaqələnir. Yəni hər cümlənin ayrıca tema və reması olur. Lakin bu o demək deyil ki, cümlələr bir-birilə bağlanmır. Cümlələri bir-birilə əlaqələndirən semantik bağlılıq olur.

Mahmud ağa qonaqlıq təşkil etdi. Çalğılar çalındı. Qonaqlar buyurdu. Rəssam özünə dikilən gözlərdən anladı. Sanki onu təqdim edirdilər qonaqlıqdakılara. Qulağı anlamadığı sözlərin ahəngində ikən, sanki dili bilmədiyi üçün günahkarca gülümsədi. Otağı seyr etdi. (Cəfərzadə Ə. Aləmdə səsim var, Bakı: Şərq-qərb, 2016, s.48).

Mətnin komponentləri arasında semantik bağlılıq üzərində qurulan əlaqə dilçilərin diqqətini cəlb etməyib. Əsas fikirlər zəncirvari və paralel əlaqə üzərinə yönəlib, xətti əlaqə isə kənarda qalıb. Bu səbəbdən mətnin komponentləri arasında əlaqə mövzusunun ayrıca tədqiqat işi kimi işlənməsinə ehtiyac var.

Mətn sintaksisinin problemləri bunlarla yekunlaşmır. Bunun səbəblərindən biri mətn haqqında fikirlər irəli sürərkən xarici dilçilərin fikirlərinə əsaslanmaq olsa da, digəri Azərbaycan dilində mətnin bütün sahələrini əhatə edən əsaslı tədqiqat əsərinin olmamasıdır.

Ədəbiyyat

1. Abdulla K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri, Bakı: MTM İnnovation, 2016, 360 s.
2. Abdulla K., Məmmədov A.Y., Musayev M.M., Üstünova K., Novruzova N. və s. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı: Mütərcim, 2012, 606 s.
3. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis,V nəşr. Ali məktəblər üçün dərslik. Bakı: Elm və təhsil, 2010, 500s.
4.Məmmədov A. Mətn yaranmasında formal-əlaqə vasitələrinin sistemi. Bakı: Elm, 2001, 144 s.
5. Матезиус В. О так называемом актуальном членении предложения // Пражский лингвистический кружок. Сб. Статей. Москва, 1967, с. 239–245
6. Николаева Т.М. Краткий словарь терминов лингвистики текста // Лингвистика текста // Новое а зарубежной лингвистике, в.VIII , М., Прогресс, 1978, с.467-472.

Jafar-zadeh V.N.

Some notes on text syntax issues in Azerbaijani linguistics

Summary

The article discusses some problems with text syntax. Despite the fact that enough research works has been written about the text, there are still controversial issues that should be focused on. First, the article addresses the issue of whether a text is a language or speech act. In conclusion, the author gives examples taken from local and foreign linguists that the text is a synthesis of a language and speech act.

One of the problems highlighted in the article is the fact that a compound sentence is a text. The author demonstrates that in compound sentences one component does not depend on another. He notes that each of the components included in the compound sentence can be used independently. He also draws attention to the similarity of complex sentences and means linking the components of the text. Based on these notes, it can be concluded that a compound sentence is text. Summing up his thoughts, the author points out that a compound sentence does not exist.

The author also considers the problem of means of link between text components as one of the urgent problems of text syntax. In connection with the total number of intra-text links of components, he mentions the existence of emerging means of link during the interaction of individual components with each other in the text. The author wants to note only the means of link between the components formed on the basis of cohesion, namely, chain and parallel communication in Russian and Azerbaijani linguistics. It also highlights the existence of a coherent linear method of link between components.

Key words:text syntax, potential syntax, actual syntax, communicative function, propositional method, chain connection, parallel connection, linear connection, semantic connection, cohesion, coherence.

Джафар-заде В.Н.

Некоторые примечания о проблемах синтаксиса текста в азербайджанской лингвистике

Резюме

В статье рассматриваются некоторые проблемы синтаксиса текста. Несмотря на то, что о текстепишется достаточно исследовательских работ, все еще существуют спорные вопросы, на которых следует сфокусировать внимание. Во-первых, в статье рассматривается проблемао том, является ли текст языковым или речевым актом. В заключение автор приводит примеры, взятые у местных и иностранных лингвистов, что текст представляет собой синтез языкового и речевого акта.

Одной из проблем, выделенных в статье, является тот факт, что сложносочиненное предложение является текстом. Автор демонстрирует, что в сложносочиненных предложениях один компонент не зависит от другого. Он отмечает, что каждый из компонентов, включенных в сложносочиненное предложение, может употребляться независимо. Он также обращает внимание на сходство сложносочиненных предложений и средств, связывающих компоненты текста. Основываясь на этих примечаниях, можно сделать вывод, что сложносочиненное предложение является текстом. Резюмируя свои мысли, авторуказывает, что сложносочиненного предложения не существует.

Автор также рассматривает проблему средств связи между текстовыми компонентами как одну из актуальных проблем синтаксиса текста. В связи с общим количеством внутри текстовых связей компонентов, упоминает о существовании возни кающихся средств связи во время взаимодействия отдельных компонентов друг с другом в тексте. Автор в русской и азербайджанской лингвистикаххочет отметить только средства связи между компонентами,сформированные на основе когезии, а именно цепнуюи параллельную связи. Выделяет также существование когерентного линейного метода связи между компонентами.

Ключевые слова:синтаксис текста, потенциальный синтаксис, актуальный синтаксис, коммуникативная функция, пропозициональный метод, цепная связь, параллельная связь, линейная связь, семантическая связь, когезия, когерентность.

.

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 25.10.2019
Filologiya elmləri doktoru, professor Sənubər Abdullayeva
tərəfindən tərəfindən çapa tövsiyə olunmuşdur

ELNARƏ NİFTƏLİYEVA
ADPU
Üzeyir Hacıbəyov64
elnara@mail.ru

SİNTAKTİK YOLLA ƏMƏLƏ GƏLƏN ENONTİOSEMİYA HADİSƏSİ

Xülasə

Beləliklə aydın olur ki, dilimizdə sintaktik yolla eyni səs tərkibinə malik əks mənalı sözlərin yaranma prosesi çoxdan başlanılmış və bu proses hal-hazırda da lüğət tərkibinin zənginləşməsində xüsusi rol oynayır. Sintaktik yolla söz yaradıcılığında iştirak edən eyni fonetik tərkibli, əks mənalı sözlərin iki qrupa ayrıldığını qeyd etdik.

Bu qrupa daxil olan, düzəltmə qaydaları müxtəlif olan eyni səs kompleksli, müxtəlif mənalı sözlərlə müqayisədə düzəltmə qaydaları məhdud olan və sözdaxili əksmənalılıq yaradan eyni səs tərkibinə malik mürəkkəb fellərin kəmiyyət baxımından çoxluq təşkil etdiyinin şahidi olduq. Bu enantiosemiya hadisəsinin az təqdiq olunmasına baxmayaraq, qədim və dərin tarixi köklərə malik olduğunu sübut edir.

Sözün sintaktik bir şəkildə yaradılması prosesi Azərbaycan leksikasının təkmilləşdirilməsində mühüm rol oynayır. Sintaktik bir şəkildə yaradılan söz obyektlərinin araşdırma obyektləri analitik və mürəkkəb sözlərdir.

Onların tərkib hissələrinin felləri olan mürəkkəb fellər bu maddədəki əks məna verlişləri mövcud deyildir, buna görə də son tərkib hissələrinə aid olan fe'llərdir, eyni səsli olan köməkçi fellərlə birlikdə müstəqilliklərini itirməyən əks mənalı mürəkkəb fellər də mövcuddur.

Açar sözlər: fel, söz düzəltmə, sintaktik, məna, söz, dil.

Dilimizin öz daxili imkanları hesabına inkişafı lüğət tərkibinin zənginləşməsində başlıca meyar hesab olunur, dilin varlığını və müstəqilliyi şərtləndirən əsas amillərdən sayılır (6, 278).

Başqa müasir dillər kimi, Azərbaycan ədəbi dili də, başlıca olaraq, öz daxili imkanları və başqa dillərdən alınmalar hesabına inkişaf edir və lüğət tərkibini zənginləşdirir (7, 394).

Sintaktik yolla söz yaratma prosesi Azərbaycan ədəbi dilinin leksikasının inkişafında mühüm rol oynamış və bu gündə oynamaqdadır. Sintaktik yolla söz yaradıcılığı prosesinin tədqiq obyekti analitik və mürəkkəb sözlərdir (5,170).

Səlim Cəfərov "Müasir Azərbaycan dili, Leksika" ali məktəb dərsliyində komponentlər arasındakı əlaqələrin xüsusiyyətlərinə görə nitq hissələri üzrə mürəkkəb sözləri iki qrupa ayırır:

1) Əlaqələrin bütün xüsusiyyətlərini maksimal sürətdə özündə əks etdirənlər, yaxud düzəltmə qaydaları müxtəlif olan mürəkkəb sözlər;

2) Əlaqələrə aid bütün xüsusiyyətləri minimal sürətdə özündə əks etdirənlər, yaxud düzəltmə qaydaları məhdud olan mürəkkəb sözlər;

Bunlardan birinci qrupa mürəkkəb isim, sifət, zərflər, ikinci qrupa isə mürəkkəb fellər daxildir (5,182).

Sintaktik yolla əmələ gələn eyni səs tərkibinə malik əsk mənalı sözləri də bu qruplar üzrə təsnif etmək olar.

Əlaqələrin bütün xüsusiyyətlərini maksimal sürətdə özündə əks etdirənlər, yaxud düzəltmə qaydaları müxtəlif olan eyni səs tərkibinə malik əks mənalı mürəkkəb sözlər

Düzəltmə qaydaları müxtəlif olan eyni səs tərkibinə malik əsk mənalı mürəkkəb sözlər tabelilik və tabesizlik əlaqəsi əsasında düzəlir.

Tabesizlik əlaqəsi əsasında düzələnlər:

Acgözlük

a) Sadə sifətlə düzəltmə ismin birləşməsindən yaranan eyni səs tərkibinə malik ***acgözlük*** sözünün: *tamahkarlıq*, *gözüdoymazlıq*, *hərislik*, və əksinə: *çox böyükmaraq*, *ehtiras*, *həvəs* əks mənalarına və onlara dair nümunələrə nəzər yetirək:

a) Tamahkarlıq, gözüdoymazlıq, hərislik

b) Çox böyük maraq, ehtiras, həvəs

(2,31).

Antonim sözlərin birləşməsi yolu ilə düzələnlər:

böyük-kiçik, var-yox

Böyük-kiçik

Düzəltmə qaydaları müxtəlif olan və antonim sözlərin birləşməsi əsasında yaranan eyni səs tərkibinə malik ***böyük-kiçik*** sözünün izahlı lüğətdə: *yaşlarından asılı olmayaraq hamı* və əksinə: *vəzifəcə*, *yaşca*, *böyük* və *kiçik olanlar* əks mənaları verilir. Bu mürəkkəb sözün əks mənalarına və bu mənalara dair nümunələrə nəzər yetirək:

1.Yaşlarından asılı olmayaraq hamı

[Sarxan] daima lətifələrlə danışar, *böyük-kiçiyə* baxmadan zarafat eləməyi sevərdi (1,349).

Bəzən "böyüklü-kiçikli"şəklində işlənir

Böyüklü-kiçikli, hamı küçələrə çıxdı (2,349)

Var- yox

Antonim sözlərin birləşməsi nəticəsində yaranan eyni fonetik tərkibli ***var-yox*** sözünün: *bir adamın malik olduğu şeylərin hamısı* və *vur-tut*, *ancaq*, *yalnız*, *təkcə* əks mənaları var. Yazılışı və tələffüzü eyni olan mürəkkəb sözün əks mənaları və bu mənaların işləndiyi nümunələr aşağıdakılardır:

Bir adamın malik olduğu şeylərin hamısı

Bu camaatın hər bir fərdi *varını-yoxunu* sizin sözlərinizin, fikirlərinizin yollarında fəda etməyə hazırdır (4,466).

2. Tabelilik əlaqəsi əsasında düzələnlər:

Başıdolu

Ağıllı, dərrakəli

(2,241).

2. Məst,sərxoş, kefli

2) Düzəltmə qaydaları məhdud olan mürəkkəb sözlər qrupuna analitik yolla yaranan rəngarəng fel formalarının bəzilərini daxil etmək olar. Azərbaycan dilində işlənən analitik fellər iki qismə ayrılır: komponentləri fel olanlar; komponentlərindən ancaq sonuncusu fel olanlar (5,184).

Adlıq hissəsi təktərəfli birləşmə şəklində olub, subyekti ifadə edən eyni səs tərkibinə malik əks mənalı mürəkkəb fellər; ***ad qoymaq, adı çıxmaq,arası açılmaq, can vermək, əl eləmək, təhrik etmək, hökmü keçmək, vəkillik etmək.***

Can vermək

Felin çoxmənalılığı və ondakı məcazi məna əsasında yaranan eyni səs kompleksli ***can vermək*** feli müasir Azərbaycan ədəbi dilində ən çox işlənən fellərdən biri olub, *son dəqiqələrini yaşamaq*, *can üstə qoymaq*və *diriltmək*, *canlandırmaq*, *həyat vermək* mənalarının ifadəsi ilə sözdaxili əksmənalılıq yaradır. Səs tərkibi eyni olan bu felin əks mənaları və bu mənalara dair nümunələr aşağıdakı şəkildə verilir:

Son dəqiqələrini yaşamaq, can üstə qoymaq

Qılınclar, nizələr keçdi döşündən,
Cəllada *can verdi* ,dilində: "Vətən!" (2,383).

2. Diriltmək, canlandırmaq, həyat vermək

Xoş gəldin, xoş gəldin! Gəlişin xoşdur,
Ölkəyə *can verən* gülüşün xoşdur !(1,291).

Vəkillik etmək

Adlıq hissəsi təktərəfli birləşmə şəklində olub, bilavasitə subyektlə bağlı olan eyni fonetik tərkibli ***vəkillik etmək*** felinin dilimizdə enantiosemiya hadisəsi sayılan iki əks mənası var: *vəkil sifəti ilə məhkəmədə və s- də başqasının işini aparmaq* və adətən mənfi mənada işlənən *başqasının əvəzinədanışmaq*, *iş görmək*. Məna baxımından bir –birindən fərqlənən bu mürəkkəb felin izahlı lüğətdə sadəcə əks mənaları göstərilir:

1. Vəkil sifəti ilə məhkəmədə və s-də başqasının işini aparmaq

2. Başqasının əvəzinə danışmaq,iş görmək (mənfi mənada işlənir)

b) Felin adlıq hissəsi təktərəfli birləşmə şəklində ismin təsirlik halında olub, obyekti ifadə edə bilən eyni səs tərkibinə malik əks mənalı fellər: ***əl-ayağını toplamaq, əlinin dalını yerə qoymaq.***

1.Tabe olmaq, təslim olmaq, məğlub olduğunu etiraf etmək

2.Tabe etmək, məğlub etmək

c) Felin adlıq hissəsi yönlük halda olub, obyekt ifadə edən eyni səs tərkibinə malik əks mənalı fellər: ***cana gətirmək, cana gəlmək.***

Cana gətirmək

Adlıq hissəsi yönlük halda olan və obyekt bildirən eyni səs tərkibli ***cana gətirmək*** felinin: *təngəgətirmək*, *bıqdırmaq*, *bezikdirmək*, *usandırmaq* və *dirçəltmək*, *diriltmək*, *canlandırmaq* mənaları əksmənalılıq bildirir. Bu mürəkkəb felin əks mənaları və bu mənaların işləndiyi nümunələr aşağıdakılardır:

Təngə gətirmək, bıqdırmaq, bezikdirmək, usandırmaq

[Xortdan:] İblisi cəhənnəm əhli bir növ *cana gətirmişdi* (1,384).

Dirçəltmək, diriltmək, canlandırmaq

Gülə sənsiz nəzər etsəm, *gətirər canə* məni (1,384).

d) Felin adlıq hissəsi ismin yerlik halında olub, obyekt ifadə edən eyni səs tərkibinə malik əsk mənalı fellər: ***saqqalını dəyirmanda ağartmaq.***

Saqqalını dəyirmanda ağartmaq

Adlıq hissəsi ismin yerlik halında olan və obyekt bildirən eyni səs kompleksli ***saqqalını dəyirmanda ağartmaq*** felinin əks mənaları bunlardır: *çox görüb*, *çox işləyib böyüktəcrübə qazanmaq* və *qocaldığı halda heç bir şeyöyrənməmək* . Tədqiqat zamanı bu sözün əks mənaları ilə bağlı nümunələrə nə Azərbaycan dilinin izahlı lüğətində, nə də istifadə olunan bədii ədəbiyyatda rast gəlinmir, bu səbəbdən sadəcə əks mənalar qeyd olunur:

1. Çox görüb, çox işləyib böyük təcrübə qazanmaq

2. Qocaldığı halda heç bir şey öyrənməmək

e) Felin adlıq hissəsi ismin çıxışlıq halında olub, obyekt ifadə edən eyni səs tərkibinə malik əks mənalı fellər: ***ağlını başından çıxarmaq***

Ağlını başından çıxarmaq

Adlıq hissəsi ismin çıxışlıq halında olub, obyektlə bağlı olan eyni səs tərkibli ***ağlını başından çıxarmaq*** felinin: *azdırmaq*, *pis yola çəkmək* və müsbət mənada işlənən *məftunetmək*, *valeh etmək* əks mənaları var. Formaca eyni olan bu mürəkkəb felin ifadə etdiyi əks mənalara dair nümunə yoxdur. Məcazi mənalı ***ağlını başından çıxarmaq*** felinin əks mənaları aşağıdakılardır:

1. Azdırmaq, pis yola çəkmək

2. Məftun etmək, valeh etmək

Ədəbiyyat

1.Abdullayev Şaiq Seçilmiş əsərləri, III cild, Bakı, "Avrasiya press", 2005, 536 səh.
2.Azərbaycan dilinin izahlı lüğəti (I cild), Bakı, "Şərq-Qərb", 2006, 744 səh.
3.Azərbaycan dilinin izahlı lüğəti (II cild), Bakı, "Şərq-Qərb", 2006, 792 səh.
4.Azərbaycan dilinin izahlı lüğəti (IV cild), Bakı, "Şərq-Qərb", 2007, 192 səh.
5.Cəfərov Səlim Müasir Azərbaycan dili, II hissə, Leksika, Bakı, "Şərq-Qərb", 2007, 192 səh.
6.Həsənov Həsrət Müasir Azərbaycan dilinin leksikası.Bakı, "Maarif", 1987, 308 səh.
7.Xəlilov Buludxan Azərbaycan dilinin leksikologiyası. Bakı, "Nurlan" nəşriyyatı, 2008, 442 səh.

E Niftaliyeva

The enontesimia event which was created by a syntactical way.

Summary

The process of the word creation by a syntactical way plays an important role in the improvement of Azerbaijan lexics. The investigating objects of word creating by a syntactical way are analytical and compound words. Compound verbs which their components are verbs don't exist opposite meaning verb in this article, that's why it deals with its last components are verbs, and also opposite meaning compound verbs not losing their independence, creating with auxiliary verbs which contain the same sound.

Thus, it is clear that the syntactic way in our language has a long process of generating meaningful words that have the same sound, and still play a special role in the enrichment of the vocabulary. We have noted that syntactic words are divided into two groups of words with the same phonetic composition, meaningful words. We have seen that in this group, the same vocal complexes with different corrections rules, and the number of complex verbs with the same vocabulary that have limited correction rules compared to different meaningful words and create verbal confusion.

This is evidence that the Enantiosemia phenomenon has ancient and deep historical roots, though little is known.

*Key words:*verb, wordbuilding, syntactical, meaning, word, language.

Э Нифталийева

Процесс словообразование синтактическим путем

Резюме

Процесс словообразование синтактическим путем играл и играет важную роль в развитие лексики азербайджанского литературного языка. Объект исследования синтактическим путем есть слова аналитические и сложные. В статье нет сложных глаголов, которые облаю противоположным значением, у которых одинаковое озвучение, поэтому речь идет о сложных глаголах с противоположным значением и у которых последний компонент является глагол который сохранил свой значение. Таким образом, ясно, что синтаксический способ в нашем языке имеет длительный процесс генерирования значимых слов, которые имеют одинаковый звук и все еще играют особую роль в обогащении словарного запаса.

Мы отметили, что синтаксические слова делятся на две группы слов с одинаковым фонетическим составом, значащие слова. Мы видели, что в этой группе одни и те же вокальные комплексы с разными правилами исправления и количество сложных глаголов с одинаковым словарным запасом, которые имеют ограниченные правила исправления по сравнению с разными значимыми словами и создают словесную путаницу.

Это свидетельствует о том, что феномен энантиосемии имеет древние и глубокие исторические корни, хотя мало что известно.

Ключевые слова:глагол, словообразование, синтактическим, значение, слова, язык.

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya elmləri doktoru, professor Buludxan Xəlilov tərəfindən tərəfindən çapa tövsiyə olunmuşdur

KƏMALƏ ƏLİYEVA
Bakı Dövlət Universiteti
Zahid Xəlil küç.
kemale655@gmail.com

CÜMLƏNİN FORMALAŞMASINDA KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN ROLU

Xülasə

Morfologiya ilə sintaksis qrammatikanın bir-biri ilə bağlı iki qütbü olaraq fikrin ifadəsində birlikdə çıxış edir. Müasir dilimizdə müstəqil lüğəvi mənaya malik olmayan köməkçi nitq hissələri cümlənin həm struktur, həm də semantik-informativ cəhətdən qurulmasında mühüm rola malikdir. Onlar bütünlükdə cümlədəki fikri dəyişmək gücünə malikdir. Bağlayıcılar yalnız söz və ya cümlələri bağlamır, habelə onlarda məna çaları da yaradır. Bağlayıcıların əksəriyyəti təcrid olunduğu sözlə əlaqəsini tam kəsdiyindən onların müvafiq konstruksiyalarda işlədilməsi çox zaman fakültetiv olur. Bəzi hallarda isə hətta bağlayıcı müvafiq konstruksiyanı birbaşa formalaşdırır. Belə ki, bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələr məhz bölüşdürmə bağlayıcısı vasitəsilə reallaşır. Digər bağlayıcılar isə konstruksiyada ifadə olunan fikri hətta ədat kimi qüvvətləndirir. Məsələn, qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdə müvafiq məna qarşılaşması bağlayıcısız da vardır, lakin qarşılaşdırma bağlayıcısı olduqda bu məna daha baria şəkildə özünü göstərir.

Bağlayıcıların sintaktik funksiyalarından biri xüsusiləşməni formalaşdırmasıdır. Belə ki, iştirak bağlayıcılarından olan "o cümlədən, o sıradan", bir qayda olaraq, məhz xüsusiləşdirməyə xidmət edir.

Ədatlar sözlərin və ya bütöv cümlənin mənasını qüvvətləndirir.Lakin onlar, bir tərəfdən, cümlədəki mənanı dəyişə bilir, digər tərəfdən, cümləni, xüsusən də tabeli mürəkkəb cümlənin müəyyən budaq cümlə növlərinin yaranmasında birbaşa fəal rol oynayır. Tabeli mürəkkəb cümlənin qarşılaşdırma budaq cümlə növünün bir tipi məhz ədatın köməyi ilə formalaşır. "Belə" və "da, də" qüvvətləndirici ədatı bu zaman şərt şəkilçisinin də olduğu xəbərə qoşulur və şərt məzmunu, demək olar ki, konstruksiyada üzə çıxa bilmir. Eyni leksik tərkibli konstruksiya sadə, tabesiz mürəkkəb və tabeli mürəkkəb cümlə kimi çıxış edə bilər. Üçüncü halda qeyd edilən ədatların iştirakı vacibdir. Bu fikri "-mı[4]" sual ədatı haqqında da demək olar.

Qoşmalar isə cümlədə əsas etibarilə halların funksiyasını yerinə yetirir, yəni sözlərin əlaqəsini qurur. Bununla yanaşı, onlar qoşulduqları sözlərə yeni məna çaları verməklə müxtəlif cümlə üzvlərini formalaşdırmaqda fəal iştirak edir. Qoşmalar müxtəlif cümlə üzvlərini formalaşdırır. Bu baxımdan sintaktik konstruksiyaların formalaşmasında köməkçi nitq hissələrinin rolu əvəzsizdir.

Açar sözlər: cümlə, bağlayıcı, morfologiya, köməkçi nitq hissələri, sintaksis

Qrammatikanın qırılmaz tərkib hissəsi olmaq etibarilə morfologiya və sintaksisin qarşılıqlı əlaqələri güclüdür. Əslində morfoloji vahid və kateqoriyalar mahiyyət etibarilə sintaktik vahidlərin yaranmasına vasitəçidir. Söz həm leksik, həm də morfoloji vahid kimi fikrin əsas ifadə vasitəsidir, lakin qrammatik vasitələr, daha dəqiq desək, morfoloji kateqoriyalar olmasa, fikrin ifadəsi də mümkün olmaz, anlaşılmazlıq yaranar. A.M.İvanova yazır: "Müasir dilçilikdə morfoloji və sintaktik səviyyəyə qrammatik sistemin iki avtonom səviyyəsi kimi baxılır, lakin onlar ayrılmaz şəkildə bir-biri ilə bağlıdır" (2,11). Bu sahədə nitq hissələri, habelə qrammatik kateqo-

riyalar xüsusi əhəmiyyət daşıyır. Belə ki, "nitq hissəsi" anlayışı olmadan söz birləşməsi və cümlə təlimi, yəni sintaksis mövcud ola bilməz" (4,12). Ona görə də dilin öz kommunikativ və ekspressiv funksiyasını lazımi şəkildə həyata keçirməsi üçün morfoloji kateqoriyaların, o cümlədən köməkçi nitq hissələrinin rolunun öyrənilməsi əhəmiyyətə malikdir.

Köməkçi nitq hissələrinin ayrılıqda leksik mənası yoxdur, lakin onlar zaman-zaman sintaktik səviyyədə müstəqil lüğəvi mənalı sözlərdən təcrid olunduğundan onlarda əvvəlki sözün leksik mənası potensial şəkildə qalır və bu gizli məna ilə onlar cümlənin ümumi məzmununa təsir edir, onda müəyyən çalar yaradır. Digər tərəfdən, köməkçi nitq hissələrinin əsas vəzifəsi sözləri, cümlələri əlaqələndirmək və onlarda qrammatik mənanı formalaşdırmaq olduğundan yenə də müstəqil leksik mənalı sözlər qədər böyük rol oynayır. Onu da qeyd etmək lazımdır ki, "Türk dillərinə aid yazılmış qrammatikalarda və eləcə də elmi-tədqiqat əsərlərində köməkçi nitq hissələri, əsasən, leksik-sintaktik əlamətlər əsasında təsnif edilir" (9,4). Deməli, köməkçi nitq hissələrinin sintaktik qatda oynadıqları rol böyükdür.

Məlum olduğu kimi, bağlayıcıların əsas vəzifəsi sözləri və ya cümlələri bir-birinə bağlamaqdır. Təbii ki, çox halda bağlayıcının işləndiyi yerdə onu atmaq, işlətməmək mümkündür, lakin bu həmişə mümkün deyil. Məsələn: *Adil və Sərvər istədiklərini ala bilməyəcəklərini bilirdilər, amma bu nəticəni gözləmirdilər.* (V.Bayramlı) Bu cümlədə iki yerdə bağlayıcıdan istifadə edilmişdir; bunlardan biri—birləşdirmə bağlayıcısı həmcins mübtədalar arasında, ikincisi—qarşılaşdırma bağlayıcısı isə həmcins xəbərlər arasında işlənmişdir. Birinci halda bağlayıcını buraxmaq mümkündürsə, ikinci halda mümkün deyil.

Bunun səbəbi bağlayıcıların potensial məzmununun nə dərəcədə qorunmasıdır; belə ki, tabesizliyin birləşdirmə, tabeliliyin aydınlaşdırma bağlayıcılarında potensial semantika artıq tam mücərrədləşdiyindən onlar daxilində olduğu birləşmə və ya cümləyə konkret məzmun çaları ötürə bilmir. Hətta dilçilikdə bunlar asemantik vahid də adlandırılır. Bu baxımdan verilmiş misalda *"və"* bağlayıcısının işlədilməməsi təbii görünür. Belə olan halda həmin bağlayıcının işlədilməsinin əhəmiyyəti varmı? Demək lazımdır ki, dildə artıq olan heç nə yoxdur; burada bağlayıcının işlənməsinin də mütləq bir rolu vardır. Bağlayıcı, bir tərəfdən qrammatik əlaqəni – tabesizliyi qüvvətləndirir, digər tərəfdən, bağlayıcısız varianta nisbətən konkretliyin yaranmasına xidmət edir. Burada bir məsələ də ondan ibarətdir ki, *"və"* bağlayıcısının işlədilməsi ilə bərabərhüquqlu komponentləri dairəsi daralır, yəni bağlayıcı məhz sonuncu komponentdən əvvəl işlənir.

Bu cümlədə qarşılaşdırma bağlayıcısını buraxmaq, demək olar ki, mümkün deyil, daha dəqiq desək, qarşılaşdırma bağlayıcısının işlədilməməsi konstruksiyanın özündə anlaşılmazlıq yaradır. Qarşılaşdırma bağlayıcısı işlənmədikdə komponentlər arasındakı əlaqə, münasibət qeyrimüəyyən qalır və bununla da bütünlükdə konstruksiyada fikir dolaşıq olaraq qalır.

"Və" bağlayıcısının asemantik mövqeyi, cümləyə fəqləndirici başqa bir çalar verə bilməməsi onun istənilən vaxtda ellipsisə uğramasına imkan verir. Lakin bunu qarşılaşdırma bağlayıcısı haqqında deyə bilmərik. Məlumdur ki, qarşılaşdırma mızmunu, hər şeydən əvvəl, komponentlərdə ifadə olunan məna və ya məzmunun qarşılaşdırılması zəminində olur, bağlayıcı komponentlərin müvafiq məzmunda bağlılığının qüvvətlənməsinə və bir az da aydın üzə çıxmasına yardım edir. Məsələn: *İş vaxtı çoxdan bitmişdi, fəhlələr hələ də dəzgahların arxasından çıxmamışdılar*.(M.S.Ordubadi) Burada hadisələr məzmun etibarilə qarşılaşdırılır, lakin bu qarşılaşdırma bağlayıcısız vəziyyətində birdən-birə aydın olmur, komponentlərdə olan hadisələrin ciddi şəkildə müqayisəsi tələb olunur. Bu konstruksiyaya qarşılaşdırma bağlayıcılarından birini artırdıqda isə qarşılaşdırma məzmunu açıq xarakter alır: *İş vaxtı çoxdan bitmişdi, lakin fəhlələr hələ də dəzgahların arxasından çıxmamışdılar*. Burada bağlayıcı konstruksiyaya qarşılaşdırma məzmunu verməmişdir, onu sadəcə olaraq daha aydın ifadəsinə imkan yaratmışdır.

Bununla belə elə qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr də var ki, bağlayıcının işlənməməsi orada müəmma yarada bilir. Məsələn, "*Qalın qar ətrafı bürümüşdü, amma yolda hələ də maşınların hərəkəti dayanmamışdı. (*Varis) – cümləsindən "*amma"* bağlayıcısını atsaq, konstruksiyanın komponentlərinin məzmun əlaqəsində qeyri-dəqiqlik meydana çıxmış olacaqdır, daha doğrusu, məzmun əlaqəsi məntiqi olmayacaq, çünki bunun nəticəsində komponentlərdəki məzmunlar bir-biri ilə tutuşmayacaqdır.

Tabesiz mürəkkəb cümlədə komponentlər arasında məna əlaqəsinin formalaşmasında bilavasitə fəal iştirak edən bölüşdürmə bağlayıcısıdır. İki hadisənin, faktın bir-biri ilə bağlayıcısız əlaqələnməsi zamanı hadisələr qarşılaşdırma və aydınlaşdırma əlaqəsində ola bilir. Lakin bir sıra bağlayıcısız tabesiz mürəkkəb cümləyə müvafiq bağlayıcılar əlavə etməklə komponentlər arasındakı əlaqəni ya dəyişdirmək, ya da dəqiqləşdirmək olar. Məsələn, Yağış yağdı, külək əsdi" cümləsi ilk baxışda sadalamanın eynizamanlı əlaqəsi kimi qiymətləndirilir, çünki başqa məzmun əlaqəsini burada görmək mümkün olmadığı kimi, həmin əlaqəni formalaşdıran vasitə də iştirak etmir. Həmin konstruksiyaya ayrı-ayrılıqda müxtəlif bağlayıcıları artıraraq nəticənin fərqli olduğunu aydın müşahidə etmək mümkündür:

1.*Həm yağış yağdı, həm külək əsdi.*
2.*Nə yağış yağdı, nə də külək əsdi.*
3.*Gah yağış yağdı, gah da külək əsdi.*

İlk iki konstruksiya komponentlər arasındakı məna əlaqəsinə görə fərqlənmir; belə ki, hər ikisi eynizamanlılıq əlaqəsindədir. Birinci cümlədə eynizamanlılıq iştirak məzmunu ilə möhkəmlənirsə, ikinci cümlədə heç bir hadisənin olmaması eynizamanlılıq yaradır. Üçüncü cümlə isə əvvəlkilərdən əsaslı şəkildə fərqlənir. Burada da iki eyni eyni hadisədən söhbət gedir, lakin bu hadisələrin bir-birinə münasibəti eyni deyil. Belə ki, burada bölüşdürmə bağlayıcısının işlənməsi konstruksiyada komponentlərin məna əlaqə və münasibətini tamam dəyişir. Burada artıq eyni zamanda baş vermiş hadisələrdən danışmaq olmaz; hadisələr nıvbəli şəkildə – gah biri, gah da digəri baş verir. Ona görə də burada bölüşdürmə əlaqəsi özünü göstərir. Onu da demək lazımdır ki, tabesiz mürəkkəb cümlədə bölüşdürmə əlaqəsi məhz bölüşdürmə bağlayıcılarının iştirakı ilə formalaşır. Deməli, bağlayıcı yalnız komponentləri bağlamır, həm də konstruksiyanın təyinatını müəyyənləşdirir. Bu baxımdan bağlayıcının rolu təkcə struktur modeli formalaşdırmaq deyil, həm də fikrin dəqiq ifadəsinə xidmət etməkdir.

Bağlayıcıların cümlədəki rolu ilə bağlı digər məsələ onların konkret məzmunlu və bu məzmunla müəyyənləşən strukturlu konstruksiyalarda işlədilməsidir. Bağlayıcıların potensial məzmuna malik olması həm də orada özünü göstərir ki, istənilən bağlayıcını hər hansı konstruksiyada işlətmək olmaz, onların konkret istifadə yeri və məqamı vardır. Məsələn, bölüşdürmə bağlayıcıları bölüşdürmə əlaqəli, qarşılaşdırma bağlayıcıları qarşılaşdırma əlaqəli, aydınlaşdırma bağlayıcıları aydınlaşdırma əlaqəli komponentlər – sözlər və ya cümlələr arasında işlənir. Bu bağlayıcıların başqa məqamlarda işlədilməsi faktı ilə qarşılaşmaq mümkün deyil. Bu isə bir daha həmin bağlayıcılarda potensial müvafiq məna olduğunu deməyə əsas verir.

Onu da demək lazımdır ki, tabesizlik bağlayıcılarının funksiyası bərabər hüquqlu sözlər, cümlə üzvləri, mürəkkəb cümlənin komponentlərini bir-birinə bağlamaqdır. Lakin elə məqamlar da vardır ki, qeyd edilən komponentlərdən bəzilərində bu bağlayıcıların işlədilməsi qeyrimümkün olur. Məsələn, tabesizliyin aydınlaşma bağlayıcıları həmcins üzvləri və ya ümumiyyətlə bərabər hüquqlu sözlərin arasında işlədilə bilməz. Bunun əsas səbəbi odur ki, adından da göründüyü kimi, aydınlaşdırma bağlayıcıları olan yerdə komponentlərdən ikincisi birincisini aydınlaşdırmalı, izah etməli, konkretləşdirməlidir. Bu isə əslində müəyyən mənada tabesizliyin tələblərinə cavab vermir. Belə ki, tabesizlik əlaqəli konstruksiyalar bərabər hüquqa malik oldu-

ğundan onlardan birinin digərini izah etməsi müəmmalıdır. Orasını da demək lazımdır ki, aydınlaşdırma bağlayıcıları aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlənin komponentləri arasında işlənsə də, həmcins üzvlər arasında işlənə bilmir. Cümlə üzvü səviyyəsində biz aydınlaşdırma bağlayıcılarına əlavə ilə onun aid olduğu söz, cümlə üzvü arasında rast gəlirik ki, bu da təbii haldır. Əlavə aid olduğu üzvün mənasını konkretləşdirir, aydınlaşdırır, izah edir ki, bu da həmin bağlayıcının təyinatı ilə uyğundur.

Tabesizlik bağlayıcıları ilə bağlı maraqlı məqamlardan biri də onların bağladıqları sintaktik vahidlərin bir-birinə olan münasibətidir. Əslində tabesizlik bağlayıcıları, əsas etibarilə həmcins üzvlər arasında işlədilir. Lakin xüsusiləşmələrdə bunların istifadəsi fərqli mənzərə yaradır. Misala baxaq: *Bütün kənd əhli, o cümlədən mənim atam və anam bu hadisədən bərk sarsılmışdılar.(*Ə.Vəliyev) Bu cümlədə iştirak bağlayıcısı (o cümlədən) həmcins üzvləri bağlamamışdır; belə ki, buradakı *"mənim atam və anam*" "*kənd əhli*" birləşməsi ilə həmcinslik təşkil etmir. Ona görə ki, onlar semantik baxımdan fərqli faktlar deyil, biri digərinin daxili komponentidir. *"Mənim atam və anam"* ifadəsi burada xüsusiləçmə yaratnışdır ki, bu da məhz bağlayıcı vasitəsilə meydana çıxmışdır. Qeyd edək ki, bu tip cümlələrdə xüsusiləşmiş üzvün əvvəlində "*xüsusən, xüsusilə"* modal sözlərini də işlətmək olar. Bu zaman uyğun ifadə yenə xüsusiləşmə olsa da, onlar semantik baxımdan bir-birindən fərqlənir. Hər iki halda bütövün hissəsinin ayrılması faktı verilir, lakin "*O cümlədən"* ifadəsi olanda iştirak məzmunu əsasdırsa, "*xüsusən, xüsusilə"* ifadələri olanda seçilmiş məzmunu əsasdır.

Köməkçi nitq hissələrindən biri ədatdır. Məlumdur ki, ədat sözlərin və cümlələrin mənasını qüvvətləndirən, onlara müəyyən məna çalarları verən sözlərdir. Bu sözlər bəzən cümlənin komponentlərini bağlama funksiyasını da yerinə yetirir. Birinci halda ədat sadə cümlənin bu və ya digər üzvünə və ya bütünlükdə cümlənin ümumi məzmununa aid olur. İkinci halda isə ədat tabeli mürəkkəb cümlənin baş və budaq cümləsinin arasında işlənib onların bağlanmasında mühüm rol oynayır. İkinci halda da ədat yalnız komponentləri bağlamaqla kifayətlənməyib, orada müəyyən məzmun, qrammatik məna fərqi də yaradır. Bu ədatlar *"-mı[4], belə, da, də"* sözləridir. Bəzi tədqiqat əsərlərində -sa[2] şərt şəkilçisi də ədat kimi təqdim edilir və tabeli mürəkkəb cümlənin komponentlərini bağladığı qeyd edilir (1,257).Demək lazımdır ki, ədatın əsas funksiyası söz və ya sümlələrin müvafiq mənalarını qüvvətləndirməkdir və bu zaman müstəqil işlənmə xüsusiyyətinə malikdir, -sa[2] isə yalnız budaq cümlənin xəbərinə qoşularaq, budaq cümləni baş cümləyə birləşdirməklə yanaşı, orada şərt məzmunu yaradır. Ona görə də, fikrimizcə, -sa[2] şərt şəkilçisidir. ədat sadə cümlədə sual məzmununu qüvvətləndirir: *Səmayə söni görə bildimi?* (Varis) Lakin bu ədat tabeli mürəkkəb cümlədə həm baş, həm də budaq cümlənin xəbərinə qoşula bilir: 1)*Bilirsənmi, bu qədər yolu gələnə qədər mən nə qədər çətinliklərdən keçmişəm?(*E.Elatlı); *2.Yağış yağdımı, evin dörd tərəfi su gölünə çevrilirdi.(*S.Əhmədov)

Birinci nümunə tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədir. Baş və budaq cümlənin əlaqələnməsində *-mi* ədatı mühüm rol oynayır; belə ki, ədat baş cümlənin xəbərinə birləşmiş və sual məzmununun qüvvətlənməsinə təsir edir. Bu cümləni ədatsız işlətmək mümkün olsa da, bu hal nadir hallarda diqqəti cəlb edir. İkinci cümlə zaman budaq cümləli tabeli mürəkkəb cümlədir. Müasir dilimizdə az işlənən bu budaq cümlə növü, demək olar ki, ədat olmadan işlədilmir. Düzdür çox çətinliklə ifadə olunan xüsusi intonasiya nəticəsində ədatsız eyni məzmun və strukturu yaratmaq mümkündür, lakin bu forma, demək olar ki, işlədilmir.

Tabeli mürəkkəb cümlənin tərəflərinin bağlanmasında iştirak edən köməkçi nitq hissələrindən biri *"belə"* ədatıdır. Bu ədat sadə cümlədə hər hansı bir sözlə işləndikdə fərqləndiricilik, seçilmə məzmunu formalaşdırır, tabeli mürəkkəb cümlədə işləndikdə isə qarşılaşdırma budaq cümləsi meydana çıxır. Məsələn: 1.*Məhsulun bol olması belə onu əvvəlki fikrindən döndərə bilməmişdi.(*Varis) 2.*Anası onu tanısa belə, ona tapşırılanı yerinə yetirməli idi*.(O.Zeynalov) Birinci nümunə sadə cümlədir; buradakı ədat müxtəlif faktlar içərisindən "məhsulun bol olma-

sı" faktının seçilməsinə, ayrılmasına xidmət edir. İkinci cümlə isə qarşılaşdırma budaq cümləsidir ki, baş və budaq cümlənin bağlanmasında -sa şərt şəkilçisi ilə yanaşı, qarşılaşdırma məzmunu yaratmışdır. Bu ədat olmasa, həmin konstruksiya şərt budaq cümləli tabeli mürəkkəb cümlə olacaqdı: *Anası onu tanısa, ona tapşırılanı yerinə yetirməli idi*.

Onu da qeyd edək ki, "*belə"* ədatı cümlənin həm struktur, həm də məzmun cəhətdən dəqiqləşməsində mühüm rola malikdir. Belə ki, *"belə"* sözü müasir dilimizdə omonim səciyyəli olub, həm qüvvətləndirici ədat, həm də işarə əvəzliyi kimi çıxış edir. Bəzən onların eyni bir cümlədə eyni yerdə işlədilməsi qarışıqlıq yarada bilər. Məsələn: *Qəhrəman bu hadisəni ən yaxın dostlarına belə danışmamışdı*. (O.Zeynalov) Bu cümlədə "*belə"* sözünün fərqli intonasiyalarla deyilməsi ayrı-ayrı məzmunların meydana çıxması ilə nəticələnir. Birinci halda bu söz ədatdır və bu zaman həmin ədatdan sonra xüsusi, yüksək tonla müşayiət olunur, ona görə də ondan sonra yazıda vergül işarəsindən istifadə edilməlidir. Bu zaman həmin söz "*hətta"* qüvvətləndirici ədatı ilə sinonim olur və asanlıqla əvəzlənə bilir. İkinci halda isə "*belə*" sözü işarə əvəzliyidir, heç də xüsusi intonasiya ilə deyilmir, digər üzvlər kimi, adi intonasiya ilə müşayiət olunur və cümlənin tərzi-hərəkət zərfliyi funksiyasını yerinə yetirir. Bu baxımdan həmin cümlələrin ifadə məqsədi də, konkret fikir də bir-birindən fərqlənmiş olur.

"Belə" ədatı güzəşt budaq cümləli tabeli mürəkkəb cümlənin komponentlərini bağladıqda onun əvəzinə *"da, də"* ədatını işlətmək mümkündür və bu zaman konstruksiyada, demək olar ki, struktur-semantik cəhətdən ciddi fərq özünü göstərmir: *Anası onu tanısa da, ona tapşırılanı yerinə yetirməli idi*. Kiçik fərq ondan ibarətdir ki, *"belə"* ədatı olduqda konstruksiyada yalnız gələcəklə bağlanan hadisə verilir və bu hadisənin baş verməsinə dair bir tərəddüd vardırsa, "*da, də*" ədatı olduqda zaman məhdudiyyəti yoxdur və yalnız tərəddüd deyil, bir çox halda qətiyyət məzmunu da özünü göstərir. Deməli, ədat yalnız aid olduğu sözə və ya cümləyə qüvvətlilik vermir, habelə cümləni struktur-semantik cəhətdən formalaşdırır.

Ədatların cümlə formalaşmasındakı rolu təsdiq və inkar bildirənlərdə xüsusilə özünü göstərir. Məlum olduğu üzrə, digər ədatlar kimi, təsdiq və inkar ədatları da müvafiq məzmunları qüvvətləndirməyə xidmət edir. İlk olaraq bu fakt onda özünü göstərir ki, bu ədatların işləndiyi əksər cümlələrdə fikir aydındırsa, xüsusilə dialoji nitqdə verilən cavabda semantik aydınlıq varsa, ədatın işlədilməsi fakultetiv olur, yəni ədatın işlədilməsi ancaq ekspressiya, qüvvətləndiricilik funksiyasını yerinə yetirir. Bu zaman həm təsdiq, həm də inkarlıq bildirən ədatlar iştirak edə bilər. Məsələn: *Təşkilatın üzvlərinin bu işdən xəbəri varmı? –Bəli, təşkilatın üzvlərinin bu işdən xəbəri var.(*S.Rüstəmxanlı) Burada *"bəli"* sözünü işlətməmək də olar; bu söz verilən fikr sadəcə qüvvətləndirir. Bu ədatın yerinə təsdiq bildirən "əlbəttə" modal sözünü də işlətmək mümkündür, lakin bununla da konstruksiyadakı fikrə təsdiqliklə yanaşı, modal münasibət də əlavə olunur.

Sözsüz ki, bu cümlədə *"bəli"* yox, inkarlıq bildirən "*xeyir"* ədatını da işlətmək olar; bu zaman cavab cümləsinin özündə də inkarlıq şəkilçisi işlədilir və fikir özü inkar şəklində verilir və deməli, verilən sualın cavabı inkar məzmunla verilir. Buna görə də inkar məzmununu qüvvətləndirmək üçün təbii olaraq "*xeyir"* ədatından istifadə edilir: *Təşkilatın üzvlərinin bu işdən xəbəri varmı? –Xeyir, təşkilatın üzvlərinin bu işdən xəbəri yoxdur.*

Lakin təsdiq və inkar ədatlarının işləndiyi elə cümlələr də vardır ki, onları oradan çıxarmaq olmaz, əks halda qeyri-dəqiq, qeyri-normal cümlə alınmış olar. Bu fakt daha çox yarımçıq cümlələrdə olsa da, bütöv cümlələrdə də belələrinə rast gəlmək olur. Məsələn: *Dünən küçədə baş vermiş hadisələrdən xəbərin varmı? –Xeyir, eşitməmişəm.(*O.Zeynalov) *Sabah səhər tezdən dördüncü sahədə yığım başlayacaqmı? –Xeyir, hələ yığıma hazır deyilik.(*Ə.Vəliyev) Birinci konstruksiya yarımçıq cümlədir və yalnız xəbərdən ibarətdir. Bu cümlənin bütöv forması belədir: *Xeyir, dünən küçədə baş vermiş hadisələrdən xəbərim yoxdur.* Burada ədatsız forma normal cavab xarakterinə malik cümlədir. Suala yalnız bu şəkildə cavab vermək müəyyən mənada qeyri-təbii təsir bağışlayır. Deməli, burada ədat fikrin dəqiq ifadəsi üçün əhəmiyyətli rol oynayır.

İkinci nümunədə cümləni ədatsız, demək olar ki, işlətmək mümkün deyil, ona görə ki, suala cavab kimi gələn fikir dəqiq və aydın olmur, ədat sual cümləsi ilə cavab cümləsi arasında məzmun əlaqəsini formalaşdırır.

Sintaktik vahidlərin, o cümlədən cümlənin formalaşmasında qoşmanın da rolu böyükdür. Məlumdur ki, qoşma ismin bu və ya digər halında olan sözə qoşularaq müxtəlif məna çalarları yaradır. Lakin qoşmanın funksiyası yalnız bununla bitmir. Qoşma sözlər arasında əlaqə yaradan əsas dil vahidlərindəndir. Onu da deyək ki, tədqiqatçılar qoşmanı funksiyasına görə ismin halları ilə müqayisə edirlər. Tədqiqatçılar qoşmanın, əsasən, məkan və zaman məzmunu bildirdiyi göstərirlər, hətta bəziləri dildə məkanın ifadə vasitəsindən bəhs edərkən məkani-qrammatik hallarla yanaşı, qoşmalardan xüsusilə bəhs edirlər (5,8-18 ; 6,23; 8, 234-258 və b.).Bu baxımdan qoşma müxtəlif cümlə üzvlərini formalaşdıraraq, cümlənin yaranmasına təsir edir. İ.İ. Meşşaninov göstərir ki, dünyanın əksər dillərində cümlə üzvləri xüsusi morfoloji əlamətə malik olur ki, bu da sintaktik funksiyanı yaradır... Belə ki, cümlə üzvlərinin idarəsi və birləşməsi bütün dillərə aid olan xüsusiyyətdir, lakin bu funksiya qrammatik üsullarla həyata keçirilir. (3:8) Azərbaycan dilində bu üsullardan biri məhz qoşmalarla birləşmənin yaratdığı üsuldur.C.M.Trofimova qeyd edir ki, leksik mənalı söz özündən sonrakı köməkçi nitq hissəsi ilə, xüsusən də qoşma ilə birləşir və bu zaman leksik mənaya və vahid qrammatik formaya malik sintaktik bütöv, konstruksiya kimi çıxış edir (7,12). Deməli, müəllifin də göstərdiyi kimi, sintaktik vahidlərin formalaşmasında köməkçi nitq hissələrinin, xüsusən də, qoşmanın rolu mühümdür.

Qoşmalar bəzi cümlə üzvlərini formalaşdırır; birgəlik (*ilə, -la*[2]), fərqləndirmə (*başqa, ayrı, savayı, özgə, qeyri*), aidlik (*haqqında, barəsində*), səbəb-məqsəd (*üçün*) qoşmaları vasitəli tamamlıq, zaman (*əvvəl, qabaq, sonra, bəri*), habelə məsafə (*kimi, qədər, -dək*) qoşmaları zaman zərfliyi, məsafə (*kimi, qədər, -dək*), istiqamət (*doğru, sarı, qarşı, tərəf)* yer zərfliyi, bənzətmə-müqayisə (*kimi, -tək*), aidlik (*aid, dair, məxsus*) qoşmaları təyin, müqayisə-bənzətmə (*kimi, -tək)* qoşmaları tərzi-hərəkət zərfliyini, səbəb-məqsəd qoşmaları(*üçün, ötrü, görə*) səbəb və məqsəd zərfliyiformalaşdırır. Bunların bəziləri qoşmasız müvafiq cümləüzvü kimi işlədilə bilmir. Digərləri isə qoşmasız müvafiq cümlə üzvü olsa da, qoşmalı variantla qoşmasız variant məzmun baxımdan bir-birindən fərqlənir. Misallara müraciət edək:

1.*Münəvvər atası ilə danışandan sonra əri barədə dediyi sözlər üçün xəcalət çəkdi* (K.Məmmədov); 2.*Bir vaxtlar mirvari kimi dişləri vardı* (O.Zeynalov); 3.*Gülçöhrə səhərədək yerinin içində vurnuxdu, ərinin xilası üçün yollar aradı* (Varis); 4.*Oğlu gedəndən sonra Səfurə xalanın gecəsi-gündüzü yox idi, onu qaytarmaq üçün yollar düşünürdü.* (Anar)

Birinci nümunədə dörd qoşma işlənsə də, yalnız ikinci və dördüncüsü cümlə üzvü formalaşdırmışdır; ikincisi zaman zərfliyi (*atası ilə danışandan sonra*), dördüncüsü səbəb zərfliyi (*sözlər üçün*) yaratmışdır. Digər ikisi isə tərkibdaxili komponentlərə birləşdiyindən ayrıca cümlə üzvü kimi çıxış edə bilmir(*atası ilə danışandan, əri barədə dediyi*). İkinci nümunədə qoşma təyini(mirvari kimi), üçüncü nümunədə zaman zərfliyi (səhərədək) və məqsəd zərfliyi (ərinin xilası üçün), nəhayət, sonuncu nümunədə zaman (oğlu gedəndən sonra) və məqsəd zərfliyi (onu qaytarma üçün) formalaşdırmışdır.

Deməli, cümlənin formalaşmasında köməkçi nitq hissələrinin hər biri fərqli funksiyalarda çıxış edir; bağlayıcılar cümlə üzvlərini və cümlələri bağlayır, məna çalarının yaranmasına təsir edir, ədatlar mənanı qüvvətləndirməklə yanaşı, fərqli çalarlar yarada bilir, qoşmalar isə müxtəlif cümlə üzvlərini formalaşdırır. Bu isə həmin morfoloji vahidlərin sintaktik səviyyədə oynadığı rolun əhəmiyyətini göstərir.

Ədəbiyyat:

1.Abdulayev Ə.Z. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı: Maarif, 1974, 420 s.
2.Иванова А.М. Сравнительно-сопоставительное исследование проблем морфосинтаксиса в чувашском языкознании. АДД, Чебоксары, 2011, 45 с.
3.Мещанинов. И.И. Структура предложения. Изд-во АН СССР, Москва-Ленинград, 1963, 104 s.
4.Милословский И.Г. Морфологические категории русского языка. Москва: Либроком, 1981, 256 с.
5. Рамазанова Р.М. Послелоги в аварском языке в их сопоставлении с английскими пространственными предлогами в непространственном значении. АКД, 2009, 23 s.
6. Рашидова А.Г. Выражение пространственных отношений в лакском, английском и русском языках(на материале падежных систем с послелогов и предлогов), АКД, Махачкала, 2013, 23 s.
7.Трофимова А.Г. Послелоги удегейского языка(в сопоставительном аспекте), АКД, 2007, 24 с.
8. Шилова В.В. Пространственные послелоги в лесном диалекте ненецкого языка//Языки коренных народов Сибири. Вып. 8, Новосибирск: 2002, 234-258
9.Zeynalov F.R.Müasir türk dillərində köməkçi nitq hissələri. Bakı: Maarif, 1971, 312 s.

K.Aliyeva

The role of the auxiliary parts of speech in the formation of sentence

Summary

Morphology and syntax act together in the expression of thought, as two poles of grammar, related to each other. In our modern language, auxiliary parts of speech, that do not have independent linguistic meaning, play an important role in the structural and semantic-informative construction of the sentence. They can change the whole meaning of sentence.

The conjunction do not only connect words or sentences, but also create meaning. Most of conjunctions have completely interrupted their connection with isolated words, thats why their use in appropriate structures is often facultative. In some cases, even the conjunction directly form the corresponding structure. Thus, compound sentence with disjunctive coordination is realized through disjunctive conjunctions. Other conjunctions reinforce the idea expressed in the sentence as a particle. One of the syntactic functions of conjunctions is the formation of specifications. So that, the conjunctions "also", "including", as a rule, serves the specification.

The particles reinforce the meaning of words or whole sentence. They can change the meaning of the sentence, and they also play a direct role in the formation of sentence or formation of dependent clauses of complex sentence. One type of dependent clause of complex sentence is formed by the help of particle. In this case, the intensifying particles "such" and "also" connect to the predicate and the content of the condition is almost impossible to find the construction. The same lexical structure can act a s a simple, compound or complex sentence. In the third case, the presence of the mentioned particles is essential. We can say the same about the question particle -"mi^{4}".

The postpositions, in the sentence, mainly performs the function of cases, that is, connect the words. At the same time, they actively involved in the formation of different parts of senten-

ce by giving new meaning to the words they connect. The postpositions forms different parts of the sentence. In this regard, the role of the auxiliary parts of speech in the formation of syntactic structures is indispensable.

Keywords: sentence, conjunction, morphology, auxiliary parts of speech, syntax

К.Алиева

Роль служебных частей речи в формулировании предложения

Резюме

Морфология и синтаксис, являясь двумя полюсами грамматики, выступают единым фронтом в выражении мысли. В современном нашем языке служебные части речи, которые не имеют самостоятельного лексического значения, играют важную роль в структурном и семантико-информативном построении предложения. Они способны полностью изменить смысл предложения. Союзы не только связывают слова или предложения, но и придают им разные смысловые оттенки. Поскольку большинство союзов полностью прерывают связь с обособленным словом, их использование в соответствующих конструкциях часто является необязательным, факультативным. В некоторых случаях союз напрямую образует соответствующую конструкцию. Так, сложносочинительные предложения с разделительной связью образуются именно с помощью разделительных союзов. Другие союзы, как частицы, усиливают мысль, выраженную в конструкции.

Одной из синтаксических функций союзов является формирование обособления. Так, союзы “o cümlədən, o sıradan” («в том числе») служат для обособления.

Частицы усиливают значение слов или целых предложений. Однако они могут, с одной стороны, изменять смысл предложения, а с другой стороны, могут играть непосредственную роль в формировании определенных типов придаточных предложений в сложноподчиненных предложениях. Один из типов сопоставительных придаточных предложений СПП формируется именно с помощью частицы.

Усилительные частицы “belə” и “da, də” присоединяются к сказуемому с условным аффиксом, при этом условный смысл в конструкции можно сказать нивелируется. Конструкция с одинаковым лексическим содержанием может выступать и как простое, и как сложносочиненное, и как сложноподчиненное предложение. В последнем случае наличие указанных частиц обязательно. Это же касается и вопросной частицы «-mı[4] ».

Послелоги же в предложении в основном выполняют падежную роль, то есть служат для связи слов. В то же время, придавая новые смысловые оттенки словам, к которым они присоединяются, послелоги активно участвуют в формировании разных членов предложения. Таким образом, в формировании синтаксических конструкций роль служебных частей речи незаменима.

Ключевые слова: предложение, союз, морфология, служебные части речи, синтаксис

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 25.10.2019
Filologiya elmləri doktoru, professor Tofiq Müzəffəroğlu (Hacıyev)
tərəfindən tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

SONA VƏLİYEVA
filologiya elmləri doktoru
"Kaspi" Mətbuat və Təhsil Mərkəzinin rəhbəri.
sonaveliyeva@gmail.com

HÜSEYN CAVİD VƏ MÜASİRLƏRİ: QURBANƏLİ ŞƏRİFZADƏ

Xülasə

Hüseyn Cavidin Qurbanəli Şərifzadəyə yazdığı məktublar yalnız bu iki şəxsiyyətin həyat və yaradıcılığına deyil, o dövr bütün Azərbaycan ədəbiyyatının bir çox məsələlərinin üzərinə işıq salır. Hüseyn Cavid Qurbanəli Şərifzadəni bir şəxsiyyət kimi yüksək qiymətləndirir, onu maarifpərvər insan kimi dəyərləndirir, millət və mədəniyyət fədaisi adlandırır.

Hüseyn Cavidin Trabzon, Boğaz içi, İstanbul haqqında yazdığı qeydlər onun gözəlliyə vurğunluğundan irəli gəlirdi. Hüseyn Cavidin təbiətsevərliyi, gözəllik aşiqi olması sonralar bədii yaradıcılığında da özünü göstərmişdir. Hətta görkəmli şairin "Mənim Tanrım gözəllikdir, sevgidir" deməsi də onun gözəlliyə və məhəbbətə olan səmimi duyğularının ifadəsi idi.

Hüseyn Cavidin Qurbanəli Şərifzadəyə yazdığı məktublarda mədəniyyət və təhsil məsələlərinə yüksək qiymət verilmişdir.

Qiraətxanalar, kitabxanalar, teatr tamaşaları təqdir edilir, maarifə, təhsilə rəğbət yaradılır və dil öyrənmək təbliğ olunurdu.

Hüseyn Cavidin məktublarında romantik düşüncə tərzinə maraq və dünyaya fəlsəfi baxış da özünə xüsusi yer tutmuşdur.

Açar sözlər: Hüseyn Cavid, Qurbanəli Şərifzadə, məktub, maarif, mədəniyyət, kitabxana, romantik düşüncə.

Həyatı və yaradıcılığı ilə həmişə nümunə olan Hüseyn Cavidin öz dövrünün müasirləri ilə bağlı əlaqələrinin də əvəzsiz bir məktəb kimi öyrənilməsi zərurəti həmişə hiss edilməkdədir. "Hüseyn Cavid və müasirləri" anlayışı Cavidin ömür yolunun bir çox məqamlarına işıq salmaq, tərcümeyi-halına bağlı bəzi məsələləri təhlil etmək, bədii yaradıcılığı ilə əlaqədar qaranlıq nöqtələri aydınlaşdırmaq gücünə malikdir.

Digər tərəfdən "Hüseyn Cavid və müasirləri" anlayışı Hüseyn Cavidin yaşına uyğun olaraq dəyişilmiş, yeniləşmiş və fərqli fikir və düşüncələrin meydana çıxmasına imkan yaratmışdır. Belə ki, Hüsyn Cavidin İstanbulda təhsil alarkən əməkdaşlıq etdiyi insanlarla onun Gəncədə və yaxud Naxçıvanda olarkən münasibət qurduğu dostlarına və həmkarlarına eyni mövqedən nəzər yetirmək olmaz. Yaxud inqilabi hərəkatla bağlı tanıdığı fəallarla əməkdaşlıq etdiyi teatr və sənət aləminin adamları arasında bərabərlik işarəsi qoymaq olmaz. Bu baxımdan Hüseyn Cavidin Qurbanəli Şərifzadə ilə münasibətləri XX əsrin əvvəlləri üçün son dərəcə səciyyəvi olan münasibətlər idi.

Hüseyn Cavid İstanbulda təhsil alarkən Qurbanəli Şərifzadənin ünvanına bir neçə məktub göndərir. Bu məktublar yalnız Hüseyn Cavidlə Qurbanəli Şərifzadənin münasibətlərini öy-

rənmək baxımından deyil, eyni zamanda dövrün ictimai-siyasi hadisələri, insanların yaşayış tərzi, ədəbi-elmi düşüncənin istiqamətləri barədə də müəyyən bilgiləri qoruyub saxlamışdır.

Elə birinci məktubdan görünür ki, Hüseyn Cavid Qurbanəli Şərifzadəni bir şəxsiyyət kimi yüksək qiymətləndirir, onu fəzilət sahibi olan maarifpərvər insan kimi dəyərləndirir, millət və mədəniyyət fədaisi adlandırır.

Hüseyn Cavidin Qurbanəli Şərifzadəyə ünvanladığı birinci məktub, əsasən, Hüseyn Cavidin Naxçıvandan İstanbula hansı yollarla getməsinin təsvirinə həsr edilmişdir. Onun keçib getdiyi yol xəritəsinin əsas məntəqələri bunlardır: Uluxanlı – Tiflis – Batum – Trabzon – Samsun – İstanbul. Məktubda yolboyu rast gəldiyi gözəlliklərdən məmnun qaldığını da Hüseyn Cavid ürək genişliyi ilə qələmə almışdır.O, Trabzon haqqında bunları yazır: "Trabzon çox eyi və səfalı ruhpərvər və nəşətküstər bir bələdədir. Əvvəl dənizdən ufaq bir qəsəbə kimi görünürdü. Seyr edib gəzəndən sonra mülahizə etdim, böyük bir bələdə və kəndisi də vilayət (quberniya) məhsub olunur" (1, s.251).

Yaxud İstanbula yetişəndə Buğaz içi barədə aludəliklə danışır: "gecə saat üç buçuqda İstambulun Boğazına daxil olduq. Elə ki, sübh açıldı, tamaşa etdik. Boğaz nə Boğaz!!! Allah zaval verməsin..." Məktubun sonunda bu məsələyə yenidən qayıdaraq heyranlıqla bildirir: "İstambulun havası gözəl, Boğazının havası pək gözəl və qarşısının havası dəxi gözəl və eyicədir" (1, s.251). Hüseyn Cavid Qurbanəli Şərifzadəyə yazdığı **ikinci** məktubda da "...Boğaz içinin havasının pək lətif olmasından" danışır (1, s.255).

Hüseyn Cavidin Trabzon, Boğaz içi, İstanbul haqqında yazdığı bu qeydlər onun gözəlliyə vurğunluğundan irəli gəlirdi. Hüseyn Cavidin təbiətsevərliyi, gözəllik aşiqi olması sonralar bədii yaradıcılığında da özünü göstərmişdir. Hətta görkəmli şairin "Mənim Tanrım gözəllikdir, sevgidir" deməsi də onun gözəlliyə və məhəbbətə olan səmimi duyğularının ifadəsi idi.

Məktubun bir yerində isə mövcud rejimdən narazı olanların münasibəti ifadə edilmişdir: "Üç nəfər gürcü bənə Batuma kibi arqadaş oldu. Bir buçuq saat qədər onlarla alışdıqda bəzi mətləblərdən: kəndilərinin məzlumiyyətindən... və Qəlyanovun zülm və şəqavətindən nəql edib, atəşparə kimi yanıb yaxılırlar idi..." (1, s.250).

Məktubun daha maraqlı cəhətlərindən biri də Hüseyn Cavidin Naxçıvanın görkəmli ziyalılarının adını çəkməsi və onları salamlamasıdır:

"Ərzi-səlam məxsusi bəxədəmati-aliyeyi-mütai Əsədağa Kəngərli, səlləməhumullah ənilhədisan və ümdətütüccar Kərbəlayı Nəsrullah Şeyxov və Mirzə Nəsrullah ağa Əmirov və cənab Nəsirbəyov və Bektaşov və Şeyxov, E.Sultanov və Məhəmmədov və Məşədi Məhəmməd ağa Şərifov və hər ki, başəd zihali mən pürsan yək bə yekra duayi mən bərəsan və əziz və ərcümməndim Əbdüləziz və Əbdüləzim və Əli əfəndiyə dəxi məxsusi salamım var!" (1, s.253).

Bu məsələ ətrafında fikir mübadiləsi aparan Əziz Şərif həmin adları xatırlayaraq yazır: "Müəllif Naxçıvanda qalmış həmyerlilərindən bəzilərinin adlarını çəkib, onlara salam göndərdiyini bildirir. Bunların hamısı o zamankı Naxçıvanın qabaqcıl ziyalıları, açıq fikirli ictimai xadimləri və mötəbər adamlarıdır. Naxçıvan mühitində görkəmli olan bu şəxslərlə bərabər, Hüseyn Cavid burada Qurbanəli Şərifzadənin kiçik qardaşı "Məşədi Məhəmməd ağa Şərifov", on bir yaşlı oğlu "əziz və ərcümməndim Əbdüləziz", xalası oğlu və qaynı Əbdüləzim Rüstəmov və qardaşı oğlu "Əli əfəndiyə" də "məxsusi salamı" olduğunu yazır ki, bu da onun ümumiyyətlə Şərifzadə ailəsinə kifayət dərəcədə yaxın və məhrəm olduğunu göstərir". Maraqlıdır ki, Əziz Şərif bu şəxslərin əksəriyyətini "o zamankı Naxçıvanın qabaqcıl ziyalıları, açıq fikirli ictimai xadimləri və mötəbər adamlarıdır" (3, s.424). Deməli, Hüseyn Cavidin müasirlərindən danışmaq əslində qabaqcıl ziyalılardan, açıq fikirli ictimai xadimlərdən, mötəbər adamlardan danışmaq deməkdir.

Hüseyn Cavid 2 oktyabr 1906-cı ildə Qurbanəli Şərifzadəyə **ikinci** məktubunu yazır. Gənc tələbənin artıq İstanbulda məskunlaşması, münasib insanlarla oturub-durması, bir növ iş-

lərinin qaydaya düşməsi açıq şəkildə hiss edilir. Bundan başqa məktubdan Hüseyn Cavidin qəzetlərlə, kitabxanalarla, teatrlarla əlaqələri olması barədə də müəyyən qədər məlumat almaq olur. Bütün bunları o, məktubda "mədəniyyətimiz və təhsilimiz" başlığı altında ayrıca vermişdir. Hüseyn Cavidin qeydinə görə "gündə bir saat fransızca və iki saat da türk lisanında bəzi ədəbiyyat və tarixə dair elmlərdən oxuyur və üç-dört saat da gündə məzkur dərsləri hazırlamaqla məşğul olurmuş" (1, s.254).

Qəzetlərə gəldikdə isə "Həblül mətin", "İrşad" qəzetlərinin və "Molla Nəsrəddin" jurnalının adını çəkir. Məlum olur ki, artıq tələbələr "Həblül mətin" və "İrşad" qəzetlərini alıb oxuyurlar. "Molla Nəsrəddin" jurnalına gəldikdə isə Hüseyn Cavid yazır: "Qafqazın möhnətəngiz xəbərlərini oxuduqda pərişanhal olmağı nəzərə alıb, bəzi sıxıntıları rəf etmək üçün "Molla Nəsrəddin" əmiyə də yazdım ki, qış gecələrindən ötrü fəna deyil deyə, bir müddət Rusiyanın İstambuldakı postasına yollasınlar" (1, s.255). Bu cümlədən görünür ki, Hüseyn Cavid "Molla Nəsrəddin" jurnalını "bəzi sıxıntıları rəf etmək üçün" istəmişdir. Başqa sözlə, o, İstanbulda tələbə olarkən "Molla Nəsrəddin" yumorunu duyan şəxsiyyətlərdən biri olmuşdur. Eyni zamanda onun mətbuata verdiyi yüksək dəyər **üçüncü** məktubunda "Həyat" qəzeti barədə ürək ağrısı ilə və anasının vəziyyəti ilə bağlı, həm də qardaşını nəzərdə tutaraq müqayisəli şəkildə yazdığı bir cümlədə də özünü göstərir: "Lakin Siz bildiyiniz kimi, əgər o da mənimtək oxumaq üçün qürbət vilayətə gedərsə, anam ikimizin ayrılığına tab gətirməyəcək, "Həyat" qəzeti kimi diri-diri vəfat edəcəkdir" (1, s.258).

Hüseyn Cavid Qurbanəli Şərifzadəyə yazdığı ikinci məktubunda İstanbuldakı qiraətxanalara və Kütübxaneyi-Ümumiyi-Osmaniyəyə yüksək dəyər verir, eyni zamanda bu qiraətxana və kitabxanalarda olan bir çox kitablara yasaq qoyulmasından da şikayətlənir. Hüseyn Cavid Naxçıvanda məktəbi qurtarandan sonra keçirdiyi boş vaxtların əvəzini çıxmaq arzusunu da bildirir. Onun ümumi əhvali-ruhiyyəsini təyin edən əsas fikir isə "Keçdi cəhalət zamanı... Gəldi hürriyyət zamanı..." cümlələrində ifadə olunmuşdur (1, s.255).

Teatr məsələlərinə gəldikdə isə adamların hər gün teatrlara gedib tamaşalara baxmalarından razılıqla danışır. Məktubun bir yerində isə yazır: "Keçən günlərdə bir teatroya getmişdik. İran hüriyyətxahlarının fransızca şəbehini çıxarırlardı" (1, s.256).

Hüseyn Cavidin Qurbanəli Şərifzadəyə yazdığı ikinci məktubu ötən əsrin əvvəllərində Türkiyədə cərəyan edən ədəbi-mədəni hadisələrin təhlilində gərəkli mənbədir. Əziz Şərif də yazır: "Bu məktubun böyük bir hissəsi Türkiyənin və İstambulun o vaxtkı əhvalının təsvirinə həsr edilmişdir ki, bu da, zənnimcə, oxucular üçün maraqlı olmalıdır" (3, s.430).

Hüseyn Cavidin Qurbanəli Şərifzadəyə ünvanladığı üçüncü məktub 16 oktyabr 1906-cı il tarixinə aiddir və Qurbanəli Şərifzadəyə çox böyük hörmətlə yazılmışdır: "Mərifətli, mərhəmətli və tərifə sığmaz Məşədi Qurbanəli Ağa Şərifov cənablarına çatacaqdır (müvəffəqiyyətləri daha artıq və mərhəməti dahi daimi olsun)".

Üçüncü məktub, əsasən, qardaşı Əlirzanın təhsil məsələsinə həsr edlmişdir. Lakin onu qətiyyən şəxsi xarakter daşıyan sənəd hesab etmək olmaz. Ona görə ki, həmin məktubda qaldırılan məsələləri dövrü üçün aktual olan və hətta bu gün üçün də əhəmiyyətini itirməyən problemlər kimi dəyərləndirmək lazımdır. Qardaşı Əlirzanın narazılıqlardan ibarət məktubu Hüseyn Caviddə mütəəssirlik doğurur. Hüseyn Cavid öz narahatlığını bədii çəkildə belə təsvir edir: "İkinci məktubun məzmunundan isə kədər dəryasına cumdum. Əlirzanın məktubu onun təəssüflü əhvalını bildirirdi. Ürəyim kəbab oldu, əhvalım iztirabla doldu. Mən İstanbul səfəri fikrinə düşdükdə cənabınıza bildirdim. Siz də məni bu işə təşviq etdiniz. Sonra isə anamın halını düşünüb məndən ayrı qaldıqca halı necə olacağını təsəvvürünüzə gətirdiniz və yenə getməyimi məsləhət bildiniz. İndi Sizin mərhəmətinizdən ürəyim istədiyi kimi arzularıma nail olmuşam. Lakin!.." (1, s.257).

Başqa bir maraqlı cəhət ondan ibarətdir ki, "Mən İstanbul səfəri fikrinə düşdükdə cəna-

bınıza bildirdim. Siz də məni bu işə təşviq etdiniz" sətirləri Hüseyn Cavidin İstanbula gəlməsində Qurbanəli Şərifzadənin mühüm rolunun olduğunu təsdiqləyir. Başqa sözlə, Hüseyn Cavidin tərcümeyi-halının mühüm bir tərəfinin geniş və obyektiv təhlilinə imkan yaradır.

Hüseyn Cavid elə bu **üçüncü** məktubda İstanbula təhsil almaq üçün gəlməyinin əhəmiyyətini də dəqiq bildiyini etiraf edir: "Mədəniyyətə həsr edilmiş bu əsrdə hamı elm əldə etməyə rəğbət və hər kəs mərifət qazanmağa qeyrət göstərir, heç insafdır ki, biz bəsirət gözümüzü yumaq, qəflətə, cəhalətə cumaq? Bu, bir fürsətdir ki, hal-hazırda əlimə çatıb, tale üzümə səadət qapısı açıbdır" (1, s.257-258). Elə məhz buradanda çıxış edərək qardaşı Əlirzanın da oxumağı üçün şərait yaradılmasını Qurbanəli Şərifzadədən təvəqqə edir.Eyni zamanda Əlirsanı nəzərdə tutaraq yazır: "Rus dilini təkmilləşdirməyi ona tövsiyə edin. Mümkün olarsa, fars və türk dillərini də təkmilləşdirsin" (1, s.258). Hüseyn Cavid **yeddinci** məktubunda isə özünün rusca öyrənməsindən söhbət açır: "Şimdi bənim son nöqteyi-nəzərim rusca qayət mükəmməl bilmək və ən birinci düşüncəm də budur. Zənn edərsəm, eyi çalışsam, iki sənədə müvəffəq olurum" (1, s.269).

Hüseyn Cavid Qurbanəli Şərifzadəə ünvanladığı **altıncı** məktubunda da (10 mart 1909) maarif və təhsildən bəhs edir: "Keçən məktubunuzda Naxçıvana dair səthi bir məlumata nail oldum. Bu dəfəki məktubunuzda da əgər mümkün olsa, İrəvanda türkcə təhsil haqqında və maarifi-islamiyyə naminə hiss olunan təşəbbüsat və iqdamata dair bir şey yazmanızı rica edərim" (1, s.266).

Aydınca görünür ki, Hüseyn Cavid maarifə, təhsilə, dil öyrənməyə üstünlük verirdi. Əslində görkəmli sənətkarın özü də bir neçə dil bilirdi və dil bilməyin əhəmiyyətini artıq çoxdan dərk etmişdir. Həmçinin qeyd edək ki, Hüseyn Cavidin qardaşı ilə bağlı bu təşəbbüsü nəticəsiz qalmamışdır. Bu barədə Əziz Şərif yazır: "Dərin həyəcanla yazılmış bu məktubun nəticəsi olaraq Qurbanəli Şərifzadənin təşəbbüsü ilə Əlirza Rasizadə, naxçıvanda lazımi surətdə hazırlanandan sonra Qoridə müəllimlər seminariyasına göndərilib, orada təhsil almış və müəllimliyə başlamışdı" (3, s.432).

Hüseyn Cavid 4 yanvar 1909-cu ildə Qurbanəli Şərifzadəyə yazdığı **dördüncü** məktubda elm öyrənməyin əhəmiyyətindən bıs edir, eyni zamanda öyrəndikləri proqramın məhz "ustadi-möhtərəm Rza Tofiq bəyin səlah gördüyü bir proqram" olduğunu bildirir (1, s.261).

Dördüncü məktubun ən mühüm cəhətlərindən birisi artıq Hüseyn Cavidin romantizmin estetikasına yiyələnməsini göstərən faktdır. Bu baxımdan Hüseyn Cavid Qurbanəli Şərifzadəyə yazır: "Bən hammallığı, xidmətkarlığı pək ziyadə sevərəm. Fəqət belə bir dövri-hürriyyət və zəmani-səadətə bənliyimi satmaq, əsir olmaq istəməm, (əsir olduğum bir şey varsa, o da həqiqət və məhəbbətdir). Əsarət zəncirinə bağlanmaq, o müləvvəs qeydi çəkməyə razı olamayıram. Səbəbi isə ağır yük daşımaq, məğruranə bir minnət çəkməyə bir dürlü könlüm qane olamayır. Məşhur Kəmal bəy demiş ki (kimsənin lütfünə olma talib, əvəzi cövhəri-hürriyyətdir)" (1, s.262). Həqiqət və məhəbbətə əsir olmaq romantik düşüncəli sənətkarlara xas xüsusiyyətdir. Həmçinin qeyd etmək olar ki, Hüseyn Cavid həmin məktubunda Səid Səlmasi və Namiq Kamal kimi romantik sənətkarların da adını çəkməklə əslində ədəbi mövqeyini nümayiş etdirirdi. Əlavə olaraq bildirmək yerinə düşər ki, o, 1912-ci ildə Abdulla Surun vəfatı ilə bağlı yazdığı məqalədə Namiq Kamalın adını və şeirini qabartmışdır: "Tabutun üzəri tirmələr, şallar, ipəklərlə bəzənmişdi. Məktəb tələbəsi tərəfindən ilk baharın yeni açmış gül-qönçələrilə süslənmişdi. Cənazənin üzərində mərhumun adilə bərabər Namiq Kamal mərhumun bu beyti də yazılmışdı:

Yüksəl ki, yerin bu yer deyildir,
Dünyayə gəliş hünər deyildir" (1, s.221).

Hüseyn Cavid bütün ömrü boyu öz ləyaqətini və məğrurluğunu qorumuşdur. Hətta repressiya illərində belə onu ruhən sındırmaq mümkün olmamışdır. Görkəmli sənətkarın bu xüsusiyyəti Qurbanəli Şərifzdəyə yazdığı **beşinci** məktubunda da ifadə olunmuşdur: "Şimdi bu təs-

limdən məqsəd bu ki, artıq xalqa boyunduruq olmaq istəməm və istəməyəcəyəm və ianə torbasını da yırtdım, parçaladım ki, bir də həm gözüm görməsin, həm də hissiyyatım xırpalanmasın. Biz istiqraza talib idik, ianəyə isə talib olmadığımı təkrar ərz edirəm. Bir də xilasə olaraq, acizanə, həm də pək acizanə rica edirəm və pak vicdanınıza and verirəm, bir daha nə Rəhim xana, nə Hacıyevə, nə Hacı Rəsula, nə cəmiyyəti-xeyriyyəyə, nə də cəmiyyəti-şəriyyəyə müraciət etməyəsiniz, edəcək olsanız, həm sizdən incirəm, həm də qəbul etməm. Burada qalmaq iqtidarım bitdikdən sonra orada ərzi-vücud edərəm" (1, s.265).

Hüseyn Cavidin Qurbanəli Şərifzadəyə yazdığı **beşinci məktubda** da romantik düşüncə tərzi özünü göstərməkdədir. Onun təbiət təsviri fonunda qələmə aldığı parça yalnız romantik baxışlı bir sənətkarın qələmindən çıxa bilərdi: "Məktubunuz qövsi-qüzehli hava kibi bir anda, bir baxışda həm bahar çiçəklərini tənzirə qalxışır, gözəl və mütəməvvic əlvan sərpirdi, həm də o rənglər, o qevsi-qüzehli, o ləmədar və fərəhli rənglər arasında bir rəngi-matəm, bir lövheyi-pürələm, bir barani-sitəm sisləri yağdırırdı. (Fəqət heyhat!.. İnsan daima aldanmağa məhkumdur)" (1, s.263). Qövsi-qüzehdən, bahar çiçəklərindən, təbiətin gözəlliyindən danışaraq məmnunluğunu ifadə edir, eyni zamanda həmin təbiət elementləri arasında bir matəm rənginin, kədər lövhəsinin görünməsi insan təbiətinin təzadlarını bildirir. Yəni Hüseyn Cavidə görə insanın hisləri, duyğuları və fikir dünyası birxətli deyildir, mürəkkəb, bəzən də ziddiyyətlidir.

Hüseyn Cavidin Qurbanəli Şərifzadəyə göndərdiyi 14 iyun 1909-cu il tarixli **yeddinci** məktubunda da eyni istiqamət hiss edilməkdədir**:** "Əfəndim! 20 mayısda mühərrər məktubunu yaxud məktubunuzu keçən həftə Hacıbaba ağanın kantorundan aldım. Bidayətindən nəhayətinə qədər iki-üç dəfə təkrar-ələttəkrar oxudum. Gah məsrur, gah məmnun, gah məhzun oldum. Şu mütənəvve, müxtəlif əhvala məruz oluşum da məktubunuzda mündəric müxtəlifülmaal cümlələrdən irəli gəlir. Məktubun bir tərəfi güldürür, digər tərəfi ağladır, bir tərəfi gah kiryələr, qəzəblər içində xəndələr saçır, gah ümidlər, təbəssümlər içində ruhu, vicdanı titrədir, müəzzib edir. Bununla bərabər şu cümlələr, şu giürizlər, şu düşüncələr hər nöqteyi-nəzərdən olursa-olsun həpsi gözəldir, həpsi mühakiməlidir, həpsi həqiqətdir". (Cavid,5-ci cild, s.266-267)

Hüseyn Cavidin **beşinci** məktubunun sonrakı hissəsində Qurbanəli Şərifzadəyə müraciətlə qələmə aldığı düşüncələri də birbaşa romantizm estetikası ilə bağlıdır: "Əfəndim! Başqalarına məktub yazdığım zaman nasılsa heç özənməm, xeyr, yanlış söylədim, heç düşünərək yazmam, yəni düşünüb də yazmaq istəməm. Fəqət sizə gəlincə, bir yapraq kağız əlimə aldımmı? Dərhal geniş-geniş sahələr, parlaq-parlaq ülviyyətlər, acı-acı həqiqətlər, xüsusən təsvir və təsəvvürü güc bir çox fikirlər alay-alay gözümdə təcəssüm edər kibi olur. Nə qədər mənalı bir şey yazmağı arzu edirəmsə də, ən sonunda heç bir şey yazamadığımı görərək, hiddətlənirəm, çünki sizə məktub yazarkən, düşünürəm ki, kaş mümkün olaydı da bir səhifədə, bir sətirdə, bəlkə bir kəlmədə fikrimi, duyğumu, məhsulati-təcrübiyyəmi sizə ərz edə bilsəydim, heyhat, olmur, olamayır ki!" (1, s.263-264). Bunlar fikrin bədii ifadə imkanları barədə mülahizələrdir ki, bilavasitə romantik düşüncə tərzi ilə bağlıdır. AMEA-nın müxbir üzvü Kamran Əliyev yazır: "Şübhəsiz, fikri "bir səhifədə, bir sətirdə, bəlkə bir kəlmədə" ifadə etmək istəyi kağız və ya qələm qıtlığından deyildi. Bu, çox güman ki, "üstüörtülü" yazı tərzinə haqq qazandırmaq, az sözlə böyük mənaları verə bilmək arzusundan doğurdu" (2, s.142).

Beşinci məktubda Hüseyn Cavidin dünya filosoflarına istinadı ilə bərabər, fəlsəfi düşüncələri də əks olunmuşdur. Həmin düşüncələri onun öz dövrünün ən qabaqcıl düşüncələri hesab etmək olar: "Bəzən vicdanınızın nazik və pak səhifələrini oxuyuram da, dərin bir inşirah, geniş bir səfvət aləmində yaşayıram, zənn olunur. Fəqət o saf vicdanın bir az daha ifratını hiss etdiyim zaman tüklərim ürpərir. Sonra bütün-bütün safdərunluğun əleyhində bulunacağım gəlir. Daha doğrusu, bulunuram da. Məsələn, "əmmamə", "came", "məsələyi-xilafət", "mədəniyyət", "həmiyyət" və "tərəqqi" kəlmələri bir-birinə qarışaraq, bir mühəssələ təşkil edəcəyini, yaxud edə biləcəyini düşünürkən, bütün-bütün bir xəyal, bir kölgə, bir namütənahilik, bir hiçlik qarşı-

sında bulunduğuma heç şübhə etməyirəm. Və möhtəşəm bir filosofi-kəbirin dediyi kibi: "təbiətdə hiç bad-hava, müftə bir şey olmadığını, qeyri-təbii olaraq, şöləpaş olan həqiqətlərin puç bir xəyaldan ibarət olduğunu göz önünə gətirərək, heç bir şeyə dərhal etimad edərək, göydən zənbil ilə nazil olduğuna etiraf eləməyirəm. Hasili-əhbablıq, mədənilik, gözəllik, hissi-mərhəmət, ruhaniyyət həp birər incə teldən, şəxsi və adi, qırılacaq qədər çürük bir teldən asılıdır ki, tədqiq və təcrübəyə qalxışsan, dərhal qırılar! Dərhal pozular, dərhal sönər..." (1, s.264).

Hüseyn Cavidin vətən və millət sevərliyi **yeddinci** məktubda daha aydın və konkret şəkildə ifadə edilmişdir: "Şimdi əsil məqsəd vətənə xidmət, həm də layiqiylə xidmət etməkdir" (1, s.269).

Ədəbiyyat

1. Cavid Hüseyn. Əsərləri, 5-ci cild, Bakı, "Lider nəşriyyatı", 2005
2. Əliyev Kamran. Azərbaycan romantizminin poetikası. Bakı, "Elm", 2002
3. Müasirləri Hüseyn Cavid haqqında.Bakı, "Zərdabi LTD" MMC, 2018

Sona Valiyeva

Huseyn Javid and his contemporaries
Gurbanali Sharifzade
Summary

The letters written by Huseyn Javid to Gurbanali Sharifzade shed lights not only to the life and works of these two personalities, but also to other problems existing within that time in the Azerbaijani literature. Huseyn Javid estimated highly Gurbanali Sharifzade as a personality, appraised him as an enlightener and called him the self-sacrificer of the nation and the culture.

Notes made by Huseyn Javid about Trabzon, Bogaz ichi and Istanbul were related directly to his infatuation to the beauty. His love for the nature and generally, his love for beauty have proved themselves later in his works. Even, the expression by H.Javid "my God is beauty and love" was expression of his frank feelings to the beauty and the love.

Huseyn Javid appreciated highly the matters related to the culture and education in the letter's to Gurbanali Sharifzade. He appreciated the establishment of libraries and theatre spectacles, he has always expressed his respect to the education and propagated the language learning.

Ağının janrdaxili dəyişmələri maraqlı mərhələlərdən keçir. Yardımlı və Cəlilabad bölgəsində ağıya "oxşama" da deyirlər. Adətən, körpəni nazlayır, oxşayırlar. Mərhumu oxşamağın, onu qəmli avazla son mənzilə yola salmağın da bir rəmzi mənası vardır. Bu, təxminən o deməkdir ki, insan dünyaya gələndə də, dünyadan gedəndə də oxşanır. Xalq olumla ölümü yaxınlaşdırır, birini digərinin davamı kimi başa düşür. Professor Mirali Seyidova görə, qədim ölübasdırma mərasimlərində bir tərəfdə ölü və onun üstündə ağlama prosesi durur, o biri tərəfdə yeni insan yaratmaq, yeni insan dünyaya gətirmək düşünülür. Ağılar qədim dövrlərdə yuğ nəğmələri kimi tanınırdı. Dəfn mərasimlərində "ağuçular" qopuzun müşayiəti ilə xüsusi nəğmələr oxuyardılar. Ə.B.Haqverdiyev "Azərbaycanda teatr" adlı məqaləsində yuğ mərasimini digər xalq tamaşaları ilə bir yerdə öyrənir, "Şaxsey-vaxsey" mərasimindən, "Şəbeh" dini tamaşasından söhbət açır. O, yuqlamaq sözünü "ağlamaq" kimi izah etsə də, yuqçuların ikisimli qopuz çalıb oynadıqlarını bildirir (9, 104-105). Bölgədə ağının bir növü olan sızıltı ölünün üzərində həzin səslə ağlamaq kimi anlaşılır. Bunun əksi olan bozlama isə uca səslə ağlamaqdır. Buna bəzən "səs çəkmək" də deyilir. "Dədə Qorqud kitabı" ensiklopedik lüğətində bozlama taledən, qədərdən narazılığı ifadə edən hal kimi verilir və göstərilir ki, bozlama (bozuq şəkli də var) Anadoluda melodik olaraq ahənglə söylənilir. Dastanda bozlamaq sözünə çox yerdə rast gəlmək mümkündür: a) "Qadın ana! Qarşum alub, nə bögrərsən? Nə bozlarsan, nə ağlarsan?" b) "Bəybörə bəg, nə ağlayub bozlarsan?" c) "Oğul", "oğul" deyübəni bozlayayınmı?" (9, 105). Ölünü uca səslə oxşamağa bəzən zarıma da deyirlər. Dastanda zarıma zarılıq qılma kimi ifadə olunmuşdur: "Boyi uzun, beli incə Burla xatın boynıyla qulağın aldı düşdi; güz alması kibi al yanağın dartdı yırtdı; qarğu kibi qara saçını yoldı; "oğul", "oğul" deyübən zarılıq qıldı, ağladı" (9, 105). "Qopuz çalıb, ağu döyüb" mərhumu son mənzilə ötürən Dədə Qorqud dastanlarının qəhrəmanları yuğ mərasimini musiqi ilə rövnəqləndirirdilər. Ağı qədim türk ədəbiyyatında da geniş yayılmış xüsusi bir janrdır və Mahmud Qaşqarlının şəhadətinə görə, bunların ən məşhuru "Alp Ər Tonqanın ölümünə ağı" sayılır. Azərbaycan folklorunda olduğu kimi, türk folklorunda da ağının xüsusi bir şeir şəkli yoxdur. Azərbaycanlıların bayatısına bənzər manilərlə yanaşı, əvvəli mərhuma, yaxud yaxınlarına nəsrşəkilli müraciətlə başlayan sərbəst şeir formasında ağılar da vardır. Türklərin ilk ağı örnəkləri Çin mənbələrində öz əksini tapmışdır və hunlara məxsusdur. Orxon abidələrində ağı "sağıt", ağı söyləyən isə "sağıtçı" adlanır (9, 105). Ağını islamiyyətdən əvvəl Azərbaycanda keçirilən yuğ matəm tamaşasında müğənninin söylədiyi nəğmə də sayırlar. Tamaşada müğənni uca səslə mərhumun igidliyindən söz açır, şeir, deklamasiya deyir, sonra qopuz çalıb kədərli nəğmələr oxuyur, tamaşaçıları ağladırdı. Əski qaynaqlarda belə müğənnilər "sağucular" adlanırdı. M. Allahverdiyev isə matəm mənasını ifadə edən "saqun", "yuq" mərasimlərinin və bu mərasimlərdə söylənilən ağıların xalq faciə tamaşalarının yaranmasında mühüm rol oynadığını bildirir: "Ağlamaq, kədərlənmək mənasını əhatə edən ağıçılar xalq arasında faciə aktyorları kimi tanınmış və son zamanlara qədər yaşamışlar... Matəm günü ağlamaq üçün çağırılmış adamlara "yuğçu" deyirdilər" (9, 105). Ağıçıları "dil deyənlər" də adlandırırdılar. Ölü sahibləri ağıçılara pul ödəyir, onları mərhumun üçü, yeddisi və qırxına çağırırdılar. Ölüm, ayrılıq, fəlakət mövzularında olan ağı qəmi, kədəri, hüznü, üzüntünü əks etdirir və ağıt adlanır. Yaxın adamları, əzizləri ölənlər ürəklərini ağıyla boşaldırlar. Ağının məzmunu da elə buradan yaranır. Konkret olaraq bir adama aid olan ağılarda mərhumun adı çəkilir, hansı şəraitdə, hansı yaşda öldüyü də bildiril-

dir. Bacı, qardaş, ana, ata, oğul haqqında ağılar daha çoxdur. Ağı janr xüsusiyyətlərinə görə bayatıya bənzəyir. Ağının ağı olmasını yalnız onun məzmunu müəyyən edir. Adətən, ağını bayatıların tərkibində toplayırlar. Lakin bayatı şəklində olmayan ağılar daha çoxdur.

Ağılar formasına və məzmununa görə fərqlənirlər. Şivən ölənin başı üzərində ah-fəqanla oxunur. Şivən yas mərasiminin ilk ayini sayılır və ölüm baş verdiyi andan ölünün dəfn üçün evdən çıxarıldığı vaxtacan davam edir, əsas əlamətləri oxşamalarla hönkür-hönkür ağlamaq, üz cırmaq, başa kül tökmək və saç yolmaqdır. Şivən "Kitabi-Dədə Qorqud"da da ağının bir növü kimi öz əksini tapmışdır: "Kimi "oğul" deyü, kimi "qardaş" deyü ağladı. Ol yigit üzərinə möhkəm qara şivən oldı" (9, 106). Şivəndən sonra qıyha gəlir. Folklor örnəkləri içərisində qıyhalar da xüsusi yer tutur. Qıyha ağı janrının bir növüdür. Qıyha çəkmək, qışqırmaq, nalə çəkmək anlamından gələn qıyha müstəqil janr kimi formalaşmasa da, ağının bir növü kimi maraq doğurur. Yardımlı bölgəsində geniş yayılmış "Getdi, yarım qəyitmədi" qıyha gəraylısını, "Qar gəley" qıyha folklor nümunəsini buna misal göstərə bilərik (9, 103-104). Qıyha ölənin yaxınlarının yas mərasimi dövründə yasa gələnlərə dərdlərini izhar etmək üçün çəkilir:

İrəflərə düzdüm kasa,
Balalarım batdı yasa.
Bəhram, oldu ömrüm qısa,
Getdi, yarım qəyitmədi.

Alnımda teli büzümdə,
Heç kim olmaz mən dözümdə.
Arzumu qoydu gözümdə,
Getdi, yarım qəyitmədi (19, 148).

Bozlamalar, sızlamalar (sızıltılar və iniltilər), üzüntülər və təsəllilər yas mərasimində ağının müxtəlif mərhələlərini təşkil edir. Ağı-epitafiyalar ölənin başdaşına və sinədanına yazılır, mərhumun şəxsiyyəti haqqında məlumatı nəzm parçaları ilə onun qəbrini ziyarətə gələnlərə çatdırır. Onlara başdaşı və sinədan ağıları da deyirlər (9, 107). Bəzi sinədan və başdaşı yazıları var ki, onlar həm folklorşünaslıq, həm də tarix elmi üçün eyni dərəcədə əhəmiyyətlidir. Muğan bölgəsində bu tipli araşdırmaları Elşad Əmənov (8, 147-154) və Ələsgər Mirzəzadə (18, 73-84) aparmışlar. Maraqlıdır ki, bölgənin ağı söyləyiciləri bu tipli folklor nümunlərini bayatıçəkmə adlandırırlar. El şairi, çoxlu mərsiyələrin müəllifi Zeynəb Alıhüseynqızının Kərbala şəhidləri, peyğəmbər, görkəmli din xadimləri, ana və qardaş haqqında bayatıları əslində ağılardan ibarətdir (3, 18-22).

Azərbaycan folklorşünaslığında yas nəğmələri ilə bağlı çoxsaylı araşdırmalar aparılmasına baxmayaraq, ağının janrdaxili dəyişmələri ətraflı şəkildə öyrənilməmişdir.

Epik növün janrdaxili dəyişmələri rəngarəngdir. Nağılların dinamikası xüsusi araşdırma tələb edir. Dastanlar xalq romanı, sənədli povest, nağıl, olmuş əhvalat, aşıq rəvayətləri, xatirat (memoriat), salnamə, tarixi hadisə (olay) və sair mərhələlərdən keçir. Nəzm parçaları olan və nəzm parçaları olmayan dastanlar mövcuddur. Dastanın janrdaxili inkişafını belə sistemləşdirmək olar: Aşıq rəvayətləri, nağıl-dastanlar və dastanlar (13, 161-163).

Lətifələrin janr xüsusiyyətlərini bəzəmə və boyama, şəbədə və lağlağı, dodaqqaçdı, yaxud məzəli əhvalat, atmaca, bədyə və öcəşmə, qaravəlli və təkərləmə, gülməcə, zarafat, cırnatma, məzhəkə, yumor şəklində qruplaşdırmaq olar. Məsələn, Borçalıda şəbədə, Qarabağ bölgəsində bəzəmə və boyama, Muğan bölgəsində dodaqqaçdı və atmaca, Naxçıvanda bədyə və öcəşmə geniş yayılmışdır (2, 27-37).

Azərbaycan folklorunda epik növün janrları kimi əfsanələrin və rəvayətlərin xüsusi yeri vardır. Həm əfsanə, həm də rəvayət ayrıca janr kimi formalaşana qədər müəyyən mərhələlərdən keçmişdir. Əfasanə və rəvayətləri yaxınlaşdıran cəhətlərlə yanaşı, onları fərqləndirən tematik keyfiyyətlər mövcuddur. Hər iki janr həcminə, təhkiyə üslubuna, söylənilən əhvalata münasibətinə görə bir-birinə yaxındır. Əslində, əfsanə real əsaslara söykənməyən, uydurulmuş məzmuna malikdir. Əfsanələrin janrdaxili dəyişmələri əsasən məzmununa görə aparılır. Buraya daxildir: a) Müxtəlif hadisələr və şəxslər haqqında əfsanələr; b) Toponimik əfsanələr.

Folklorşünaslıqda mifoloji rəvayətlər kimi təqdim olunan mətnlər də əslində müxtəlif əfsanələrdən ibarətdir. Mifoloji rəvayətləri əfsanələrdən fərqləndirən cəhət bu mətnlərin arxaik inanclarla bağlı olmasıdır.

Yardımlı ərazisindəki Qız qalası haqqında yazıya alınmış beş əfsanənin məzmunu Ərdəbillə bağlıdır. Əfsanəyə görə, Qız sevmədiyi hökmdara getməkdən boyun qaçırır və gizlincə çıxıb gedir. Hökmdara xəbər göndərir ki, "Məni ərdə bil!" Guya Ərdəbil şəhərinin adı belə yaranmışdır. Bu əfsanə Yardımlının Ərdəbillə iqtisadi və mədəni əlaqələrinin qədim tarixə malik olduğunu sübut edir. Qız qalası haqqında Sabir Rüstəmxanlı, Mirnağı Nəzərli, Şamil Əsgər və İlham Əsgərovun yazıya aldıqları, həmçinin Rəhmanov Sənan Ruhulla oğlunun söylədiyi əfsanələr folklor örnəyi baxımından maraqlıdır (19, 28-34). Tarixçi-tədqiqatçı Elşad Əmənov isə Qız qalasının əslində kosmik tədqiqat mərkəzi olduğunu yazır (8, 112-128).

Rəvayətin janrdaxili dəyişmələri aşağıdakı ardıcıllıqla araşdırılır:

a) başagəldilər;

b) olmuş əhvalatlar;

c) toponimik rəvayətlər;

ç) tarixi hadisələrlə və tarixi şəxsiyyətlərlə bağlı rəvayətlər;

d) hədislər;

e) rəvayət xarakterli mifoloji mətnlər;

ə) təbiət hadisələri ilə bağlı rəvayətlər.

f) aşıq rəvayətləri.

Hədislər dini mahiyyət daşıyan hadisələr haqqındadır. Hədislər dini rəvayətlərə, dini əfsanələrə, dini lətifələrə, müqəddəslərlə bağlı dini əhvalatlara və dini ehkamlarla bağlı fikirlərə bölünür. Müqəddəslərlə bağlı dini əhvalatlara daxildir:

-Allah kəlamlarının yozumları;

-Peyğəmbərlər haqqında hədislər;

-Dörd məsum haqqında hədislər;

-Seyid və övliyalar haqqında hədislər;

-Təriqət başçıları haqqında hədislər;

-Tərbiyəvi mahiyyətli hadisələr haqqında hədislər.

Rəvayət xarakterli mifoloji mətnlər mifik əfsanələrdən fərqlənir, onların əsasında reallığı əks etdirən, lakin mifləşdirilmiş rəvayətlər dayanır. Muğan bölgəsindən yazıya alınmış "İlan", "Tüklücə", "Arvadın məsləhəti" və sair mifoloji mətnlər rəvayət xarakterlidir (6, 26-39). Təbiət hadisələri ilə bağlı rəvayətlər min illər boyu əldə edilmiş metereoloji bilgilərdən bəhrələnmək və insanların təsərrüfat həyatını nizamlamaq məqsədilə yaradılmışdır. Məsələn, "Keçiqran", "Qarı nənə və dəvə", "Qocanın balıqlar padşahını tutması" kimi rəvayətlər təbiət hadisələrindən düzgün yararlanmaq üçün gələcək nəsillərə ötürülən "mesajlar"dır (6, 101-130).

Tarixi rəvayətlər və başagəldilər regional (məhəlli) rəvayətlərə və beynəlmiləl rəvayətlərə bölünür. Regional (məhəlli) rəvayətlər bir bölgə ilə bağlı rəvayətlərdən, bir xalqla bağlı rəvayətlərdən, bir neçə xalqla bağlı rəvayətlərdən, bir şəxslə bağlı rəvayətlərdən ibarətdir.

Toponimik rəvayətlər yer-yurd adları haqqındadır və bir neçə yerə bölünür ki, bunlar da əsasən etnoslarla, antronimlərlə və relyeflə bağlı olur. Toponimlər xalqın keçmişi, məişəti,

təfəkkürü və dili ilə sıx bağlıdır. Buna görə də toponimik rəvayətlərin qruplaşdırılması coğrafi xarakterli yozumlarla üst-üstə düşür (19, 268-274). Bunlar əsasən aşağıdakı kimidir:

-İnsan adları daşıyan coğrafi adlarla (antrotoponimlərlə) bağlı rəvayətlər;

-Tayfa, qəbilə, nəsil adını bildirən coğrafi adlarla (etnotoponimlərlə) bağlı rəvayətlər;

-Bitki adından yaranan toponimlərlə (fitotoponimlərlə) bağlı rəvayətlər;

-Heyvan adından yaranan toponimlərlə (zootoponimlərlə) bağlı rəvayətlər;

-Qədim coğrafi adlarla (paleotoponimlərlə) bağlı rəvayətlər;

-Su obyektlərini bildirən toponimlərlə (hidrotoponimlərlə) bağlı rəvayətlər;

-Relyef, dağ, dərə, təpə, gədik və s. bildirən toponimlərlə (oronimlərlə) bağlı toponimlər;

Toponimik rəvayətlərin bir qismi real əsası olmayan yozumlardan ibarətdir. Bəzi oykonimlər lal toponimlər sayılır və "danışmır". Yaşayış məntəqələri haqqında olan lal toponimlər müqayisəli təhlillər vasitəsi ilə öyrənilir və araşdırılır. Bu zaman rəvayətlərə daha çox müraciət olunur.

Tarixi hadisələrlə və tarixi şəxsiyyətlərlə bağlı rəvayətlər xalqın keşməkeşli keçmişi ilə bağlı mühüm və əlamətdar olayları, bu olaylarda fərqlənmiş insanları folklorun yaddaşına alır. Xalq öz həyatında baş verən tarixi hadisələrə biganə qalmır, bu tarixi hadisələrin aparıcı simaları haqqında müxtəlif rəvayətlər düzüb-qoşub.

Muğan bölgəsində daha çox rəvayətin bir növü olan başagəldilər söylənilir. Başagəldi real hadisələr üzərində qurulur, real şəxslər haqqında olur. Başagəldi başına hadisə gəlmiş şəxsin özü tərəfindən də söylənilir. Rəvayətin digər növü sayılan olmuş əhvalatlar həcminə və janr xüsusiyyətinə görə başagəldilərdən qismən fərqlənir. Olmuş əhvalat memuarial xarakterlidir və nağıllara yaxın bir dildə söylənilir. Nağıldan fərqli olaraq, olmuş əhvalatda inandırıcı reallıq mövcuddur, həm də olmuş əhvalat daha çox çağdaş xarakter daşıyır, yəni yaxın günlərin hadisələrini əks etdirir (19, 162-167).

Aşıq rəvayətləri isə digər rəvayətlərdən tam fərqlidir. Aşıq rəvayətləri bəzən müstəqil şəkildə, bəzən isə dastan gecələrində aşıq tərəfindən söylənilən dastanın süjet xəttinə uyğun məzmunda olur. Aşıq rəvayətləri uzun dastanı dinləməkdən "yorulmuş" tamaşaçıları canlandırmaq və əyləndirmək üçün də söylənilir. Maraqlı fakt budur ki, bəzi aşıq rəvayətləri dastanların əsasında dayanır, yaxud sonradan mənzum parçalar əlavə olunmaqla inkişaf etdirilərək dastan səviyyəsinə qaldırılır. Buna görə də el arasında gəzən, yaxud aşıqlar tərəfindən söylənilən belə rəvayətlər toplanılır və rəvayətin bir növü kimi ayrıca nəşr olunur. Aşıq rəvayətləri digər bölgələrdə də geniş yayılmışdır. Ağbaba aşıqlarının rəvayətləri ayrıca folklor örnəkləri kimi toplanmış və nəşr olunmuşdur (14, 97-98).

Muğan bölgəsində daha çox başagəldilər söylənilir. Tarixi şəxslərlə və tarixi yerlərlə bağlı rəvayətlərin xeyli hissəsini Mahmudağa Qasımov yazıya alıb (16, 14-530);

Nitqi təkmilləşdirmək, tələffüzü asanlaşdırmaq məqsədilə yaranan yanıltmaclar Muğan bölgəsində dildolaşdırma, yanıltma, yahaltma adlarıyla yayılmışdır (6, 368-369).

Təfəkkürü inkişaf etdirən, uşaqların düşünmə qabiliyyətini artıran tapmacalar ayrı-ayrı bölgələrdə müxtəlif adlar altında tanınır. Tapmacaların janrdaxili dəyişmələrinə bilməcələr və bağlamalar daxildir. Bilməcələr tapmaca sözünün sinonimi kimi işlənsə də, bəzi struktur və məzmun fərqləri ilə seçilir. Həm bilməcələr, həm də tapmacalar şəkli xüsusiyyətlərinə görə nəsr və nəzm şəklində olur. Bağlamalar isə tamamilə fərqlidir, yalnız nəzmdən ibarətdir. Bağlama iki nəfərin deyişməsini xatırladır, bu iki nəfərdən birinin söylədiyini digəri tapmalı və ardıcıl olaraq öz bağlamasını söyləməlidir. Cavabı tapmayan tərəf məğlub olur. Cavablar bəzən bayatı şəklində olur.

Dramatik növün janrdaxili dəyişmələri oyun nəğmələri və oyunlardan xalq tamaşasınadək böyük bir tarixi mərhələ keçir. Oyuna hazırlıq mərhələlərində söylənilən mətnlər oyunla-

rın əsasında dayanır. Belə mətnlərdən biri "Uralama" adlanır. Uralama zamanı oyunçuların bölgüsü aparılır. Muğan bölgəsindən yazıya alınmış "Uralamalar" olduqca sadədir:

Hap-hapı,
Harpı sapı.
Beş barmağı,
Bir yarpağı.
Vur dırnağa,
Çıx qırağa.

Yaxud:
Handa-hunda,
Tülkü yatıb bunda (6, 375).

Azərbaycan folklorunda dramatik növün janrları (tamaşa folkloru) fərqli xüsusiyyətləri ilə seçilir. Belə ki, bu janrlar ifa formasına (oyun-nəğmə, oyun-yarış, oyun-tamaşa, oyun-tapmaca, püşkatma oyunu, beşdaş oyunu, kəndirdartma, saysayma və sair), ifaçı tərkibinə (uşaq oyunları, yeniyetmə oyunları, oyuq-kukla tamaşaları və sair), ifa məqamına (mərasim və mövsüm oyunları, şəbih tamaşaları və sair), ifa tərzinə (zorxana, qaçdı-tutdu, gözbağlayıcı, aşıq-aşıq, mərəköçdü, turnavurdu, dirədöymə və sair), ifa quruluşuna (hərəki oyun, atüstü oyun, ipüstü oyun, heyvanoynatma, xoruzdöyüşdürmə, çövkan, kilimarası, xalq tamaşası və sair) görə qruplara bölünür və öyrənilir. Elçin Aslanov oyunları və tamaşaları təxminən belə qruplaşdırır: a) atüstü oyunlar; b) qız-gəlin oyunları; c) dərviş oyunları; ç) zorxana oyunları; d) mərasim şənlikləri; e) oyuq-kukla tamaşaları; *ə) uşaq oyunları; i) şəbih tamaşaları* (5, 7-9). Muğan bölgəsində geniş yayılmış oyunlardan biri şatıroyunudur. Əyləncə xarakterli və idman (yarış) mahiyyətli şatıroyunları var (12, 69-76). Oyunların və xalq tamaşalarının janrdaxili dəyişmələri tam araşdırılmamışdır.

İşin elmi yeniliyi: Azərbaycan folklorun örnəklərinin janrdaxili dəyişmələr ilk dəfə elmi şəkildə öyrənilir, bu sahədə aparılmış araşdırmalar ümumiləşdirilir.

İşin nəticəsi: Biz Muğan bölgəsinin folklor nümunələrinin bir qisminin janrdaxili dəyişmələrini nəzərdən keçirdik. Yekun olaraq, bu qərara gəlmək mümkündür ki, Azərbaycan folklorunda janrdaxili dəyişmələr hərtərəfli araşdırılmalı, növlərin janr təyinatı dəqiqləşdirilməlidir. Janrdaxili dəyişmələr janrın inkişaf xüsusiyyətlərinin göstəricisidir. Əslində, söhbət janrın təzahür formalarından gedir. Janrdaxili dəyişmələrin öyrənilməsi və araşdırılması folklorşünaslıqda janrla bağlı müxtəliffikirliyə son qoyur, dəyişmələrə məruz qalan folklor nümunəsinin müstəqil janr nümunəsi, yoxsa bir janrın növləri olması fikrinə aydınlıq gətirir.

Ədəbiyyat:

1.Alarlı (Hüseynov) B. Muğan elləri. Bakı, Elm və təhsil, 2018, 288 s.
2.Alarlı . Komik janrın özəllikləri. Bakı, 2013, 96 s.
3.Alıhüseynqızı Z. Allah, məni əhli beytə dost eylə. Şeirlər. Redaktoru və ön süzün müəllifi Bilal Alarlı Hüseynov. Bakı, Elm və təhsil, 2018, 148 s.
4.Arvad ağısı: bayatı, haxışta, sevgi, laylay, qaynana-gəlin sözləri. Tərtib edəni Mirzə Abbas Abbaszadə. Bakı, Səda, 2004, 60 s.
5.Aslanov E. El-oba oyunu, xalq tamaşası. Xalq oyun-tamaşa mədəniyyətimizdə deyim və adların izahlı söz kitabı. Bakı, İşıq, 1984. S.276

6.Azərbaycan folkloru antologiyası, XVII kitab (Muğan folkloru).Toplayanı Bilal Hüseynov. Bakı, "Nurlan", 2008, 448 s.
7. Bayat F. Folklor dərsləri. Bakı, Elm və təhsil, 2012, s. 143.
8.Əmənov E. Muğan: İtmiş tarixin izi ilə. Birinci kitab. Redaktor və ön sözün müəllifi Bilal Alarlı Hüseynöv.Bakı, Elm və təhsil, 2018, 160 s.
9.Hüseynov (Alarlı) B. Viləş çayı boyunca (Yardımlının folklor dünyası). Bakı, Sözün işığı, 2015, 162 s.
10.Hüseynov (Alarlı) B. Azərbaycan folklorunda mübahisəli janr probleminin modifikativ və assiqnmentativ tərəfləri // "Ali təhsildə keyfiyyətin təminatı" mövzusunda Respublika Elmi Konfransının materialları (23-24 dekabr). Lənkəran Dövlət Universitetinin elmi nəşri. Lənkəran, 2016, s. 162-163).
11.Hüseynov (Alarlı) B. Muğan folklor mədəniyyətinin əsas istiqamətləri // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Müasir inkişaf mərhələsində elm, texnika və istehsalatın vəhdəti" mövzusunda keçirilən Respublika Elmi Konfransının materialları (7-8 may 2018-ci il). Lənkəran Dövlət Universsitetinin elmi nəşri. Lənkəran, 2018, s. 66-68
12.Hüseynov (Alarlı) B. Şatırlar və şatır oyunu. AMEA Nizami adına Ədəbiyyat İnstitutu və Folklor İnstitutu. İslam coğrafiyasında və Azərbaycanda xalq oyunları və meydan tamaşaları. Beynəlxalq Elmi Konfransın materialları. Bakı şəhəri, 15 iyul 2016-cı il. Bakı, Elm və təhsil. 2016, s. 69-76
13.Hüseynov B. Çağdaş dastanların janr təyinatında müqayisəli məqamlar // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Tədris prosesində elmi innovasiyaların tətbiqi yolları" mövzusunda Respublika Elmi-Praktik Konfransının materialları (7-8 may 2019-ci il). Lənkəran Dövlət Universitetinin elmi nəşri. Lənkəran, 2019, s.161-163
14.İsmayılov H. Azərbaycan folklorunun regional xüsusiyyətləri. Bakı, Səda, 2006, 336 s.
15.Qaraçöp. Ensiklopedik toplu.Təkmilləşdiilmiş ikinci nəşri. Tərtib edəni və nəşrə hazırlayanı N.Əbdülrəhmanlı. Bakı, Qanun, 2019, 880 s.
16.Qasımov M. Cəlilabadın tarixi, etnonim və toponimləri. Bakı, Elm və təhsil, 2016, 542 s.
17.Ləzranlı Mirzəqulu. Olanlardan, keçənlərdən (Sənədli hekayələr). Əlyazmalar əsasında qələmə alıb: Araz Gündüz. Bakı, Alatoran, 2016, 322 s.
18.Mirzəzadə Ə. Muğan maddi mədəniyyət abidələri. Bakı, Nərgiz, 2015, 160 s.+ 16 s. şəkil
19.Yardımlı folklor örnəkləri, 1-ci kitab. Toplayıcılar: İ.Abbaslı, B.Abdulla, E.Məmmədli və B. Hüseynov. Bakı, Elm və təhsil, 2014, 334 s.

B. Huseynaga

Intergenre changes in Azerbaijani folk-lore
(On the base of Mugan folk-lore spesimens)

Summary

In the article the intergenre changes in Azerbaijan folk-lore are investigated and the genre features of epic, lyrical and dramatic kinds are looking through. The genre and intergenre changes in Azerbaijan folk-lore are not learned enough. The appearance, stability of structure and the stages of intergenre changes of some regions are in need of investigation. Mugan region wich we have chousen for investigation of the theme is rich in various folk-lore samples. On this purpose to define the folk-lore area of the region and to investigate genre potential are very

important. That is why seriously collecting and printing of folk-lore samples are the first stage of investigation.

The intergenre changes of saga (dastan), tale (nağıl), joke, entifa (ağı) and other folklore spesimens are looking through.

Intergenre changes prove the development characters of the genre. In fact, the talk is about the forms of genre. The studing and investigation of intergenre changes put an end on various thoughts on folk-lore and give the explanation that the folk-lore speimen which faced to changes is independent genre spesimen, or the kind of any genre.

The author mostly supports on his own collection of folk-lore spesimens. It is noted that the theme is investigated for the first time.

Key words: Azerbaijani folk-lore, Mugan folk-lore specimens, intergenre changes in folk-lore.

Б.Гусейнов

Внутрижанровые изменения в Азербайджанском фольклоре
(На основе образцов Муганского фольклора)
Резюме

В статье разбирается внутрижанровые изменения в Азербайджанском фольклоре, рассматривается жанровые особенности эпического, лирического и драматического видов. В Азербайджанском фольклоре особенности жанра и внутрижанровые изменения достаточно не изучены. Есть большая потребность в примере одного или нескольких регионов разбирать созданию жанров, их совершенствованию, стабилизацию структуры этапов внутрижанровых изменений. Муганский регион, которого мы выбрали для исследования темы, богат разнообразными фольклорными образцами. С этой целью очень важно определить фольклорный ареал региона, обнаружить его жанровый потенциал. По этому первый этап исследования составляет сбор фольклорных образцов в основательной форме их издание. Рассматривается внутрижанровые изменения в эпосах, сказках, анекдотах, причитаниях и других видах фольклора.

Внутрижанровые изменения – это особенности прогресса жанра. В самом деле речь идет о формах появления жанра. Изучение и разбирательство внутрижанровых изменений постовляет точку разногласию связи жанром в фольклороведении, приводит ясность мыслью, о том, что фольклорный образец, который подвергся к изменению, образец самостоятельного жанра или вид какого-то жанра.

Автор больше основывается на те фольклорные образцы, которых собирал сам. Имеется ввиду, что тема исследуется впервые.

Ключевые слова: Азербайджанский фольклор, образцы Муганского фольклора, внутрижанровые изменения в фольклоре.

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Rəyçi:, filologiya üzrə fəlsəfə doktoru, dosent Akif Əhmədov tərəfindən çapa tövsiyə olunmuşdur

QƏRƏNFİL RZAYEVA
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
qerenfilrzayeva40@gmail.com

XIX ƏSR AZƏRBAYCAN MAARİFÇİLİYİ VƏ MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN AZƏRBAYCANIN İCTİMAİ-SİYASİ VƏ MƏDƏNİ-FƏLSƏFİ FİKİR TARİXİNDƏ ROLU

Xülasə

Vaxtilə bəşər mədəniyyəti tarixinin parlaq səhifələrinin yarandığı Azərbaycanda, ümumiyyətlə müsəlman Şərqi ölkələrində xurafat və cəhalətin inkarı olaraq maarifçiliyin özünə yer tapması təbii və qanunauyğun bir hadisə idi. XIX əsr Azərbaycan maarifçiliyi Azərbaycan ictimai mühitində yarandığından və təkcə Qərbin və Rusiyanın deyil, həm də Şərqin mütərəqqi ideya-siyasi ənənələrindən istifadə etdiyindən o, özünəməxsus xüsusiyyətlər kəsb etmiş, orijinal inkişaf yolu tuta bilmişdir. Məhz buna görə də, Azərbaycan maarifçilik ideyaları Azərbaycan xalqının milli intibahına, mədəni tərəqqisinə güclü təsir göstərə bilmişdir.

XIX əsr Azərbaycan ədəbiyyatında maarifçilik ideyalarının inkişafından danışarkən, bu sahədə misilsiz xidməti olan, maarifçi-realist konsepsiyanın banisi Mirzə Fətəli Axundzadənin adı xüsusilə qeyd edilməlidir. Mirzə Fətəli Axundzadə azərbaycan xalqının əsrlər boyu yaratdığı böyük mədəniyyətin məntiqi, qanunauyğun bəhrəsi kimi meydana gəlmiş, əldə edilmiş nailiyyətlər, mütərəqqi ideyalar onun ictimai-siyasi və fəlsəfi görüşlərinin, həmçinin sənətə baxışının təşəkkülündə mühüm rol oynamışdır. M.F.Axundzadənin maarifçi-realist konsepsiyası, ictimai fikir və fəlsəfi düşüncəsi insanlığın şüurunda kök salmış cəhalətə, dini fanatizmə nəinki şübhə toxumu səpmiş, həmçinin geriliyin müdafiəçisi olan mövcud cəmiyyətin dayaqlarına öldürücü zərbə endirmişdir. O cəmiyyətə ki, tarixdə görünməmiş qanunlar yazır, insanlığın mənəvi məhvi üçün bütün üsul və vasitələrini səfərbər edirdi.

Açar sözlər: maarifçilik, realizm, ictimai münasibətlər, mədəni fikir, fəlsəfi düşüncə, filosof, M.F.Axundzadə

Ulu Öndər Heydər Əliyev 2001-ci ildə yeni ilin gəlişi münasibətilə xalqımızı təbrik edərkən demişdir: “XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən, müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə, XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır. Bu qaynaqlar həm ayrı-ayrı görkəmli şəxsiyyətlərin – Abbasqulu ağa Bakıxanov və Mirzə Kazım bəy kimi nadir insanların çox uğurlu yaradıcılıq fəaliyyətində öz əksini tapmış, həm də birbaşa milli maarifçilik ideyalarının gerçəkləşməsi ilə bağlı olmuşdur. Azərbaycanda məhz bu dövrdə demokratik mətbuat, anadilli məktəb, dünyəvi teatr yaranaraq milli şüurun formalaşmasına təkan verdi. Bu, bir həqiqətdir ki, XVII əsr Qərbdə - İngiltərə, Fransa, Almaniya və digər ölkələrdə təşəkkül tapan maarifçilik fəlsəfəsi və ideologiyası ümumbəşəri fəlsəfi və ictimai-siyasi fikir tarixində xüsusi bir mərhələ olub. Feodalizmdən burjua-sosial sisteminə keçidin qanunauyğunluqları ilə şərtləşən bu fəlsəfə və ideologiya yenicə yaranan və yüksəlməkdə olan burjuaziyanın dünyəvi və praktik maraqlarına müvafiq olaraq yeni keyfiyyət xüsusiyyətləri kəsb etmiş, əqli-metafiziki düşüncələrdən, dini xurafatdan təmizlənməklə, onun elmə və təcrübəyə daha çox arxalanmasını təmin etmək, ictimai tərəqqi yolundakı maneələri aradan qaldıraraq, onun inkişafını sürətləndirmək, insan azadlığına və hüquq bərabərliyinə nail olmaq kimi çox böyük və şərəfli vəzifələrin həllini öz qarşısında məqsəd qoymuşdu. Həmin səbəblərə görə, XVIII əsrin sonu,

XIX əsrin əvvəllərində Azərbaycanda da maarifçilik ideyaları təşəkkül tapmağa başladı. Qərb ölkələrinə və Rusiyaya nisbətən Azərbaycanda maarifçilik ideyalarının bir qədər gec meydana çıxması o zamankı Azərbaycanın konkret siyasi-iqtisadi, sosial-mədəni şəraiti ilə bağlı olmuşdur. Belə ki, XVIII əsr Qərbdə və Rusiyada maarifçilik fəlsəfəsinin yaranması və inkişafının zəruri maddi və elmi-mədəni müqəddəm şərtləri kifayət dərəcədə yetişmişdisə, həmin dövrdə Azərbaycanın intellektual-maarifçilik mühitinin zəruri amilləri ancaq başlanğıc vəziyyətində idi" (5).

Heydər Əliyevin fikrincə, artıq XIX əsrdə, xüsusən də onun ikinci yarısında Azərbaycanda burjua-ictimai münasibətləri inkişaf edərək feodal qaydalarını sıxışdırıb aradan qaldırmaq həddinə gəlib çatır. Bununla yanaşı, intellektual-maarifçilik mühitinin yaranması və yayılması üçün zəruri elmi biliklər də artıb-çoxalır. Bu dövrdə ölkədəki mədəni-mənəvi yüksəliş də diqqəti cəlb edir. Bu onu göstərir ki, Azərbaycanda maarifçilik mühiti, necə deyərlər, "boş bir yerdə", zəmin olmayan bir məkanda yaranmayıb. Eyni zamanda o, Azərbaycana ancaq Qərbdən və Rusiyadan köçürülmüş xalis kənar hadisə də deyildi. Çünki belə olsaydı, Azərbaycan maarifçiliyi Qərb və Rusiya maarifçiliyinin sadəcə təkrarı olardı. Hansı ölkədə və nə vaxt yaranmasından asılı olmayaraq, maarifçilik fəlsəfəsi və ideologiyasının mahiyyəti, prinsipləri, məqsəd və vəzifələri, əsasən eyni olur. Bununla yanaşı onu da bilmək lazımdır ki, Azərbaycan maarifçiliyi Azərbaycan ictimai mühitində yarandığından və təkcə Qərbin və Rusiyanın deyil, həm də Şərqin mütərəqqi ideya-siyasi ənənələrindən istifadə etdiyindən o, özünəməxsus xüsusiyyətlər kəsb etmiş, orijinal inkişaf yolu tuta bilmişdir. Məhz buna görə də, Azərbaycan maarifçilik ideyaları Azərbaycan xalqının milli intibahına, mədəni tərəqqisinə güclü təsir göstərə bilmişdir.

Feodalizm cəmiyyətinin tənəzzülü, burjua münasibətlərinin təşəkkülü prosesinə daxil olan ölkələr arasında olan Azərbaycanda da yeni dünyagörüşün əsasında maarifçilik dayanırdı. Həmin dövrdə maarifçilik ölkənin yeni istiqamətdə inkişafına xidmət edən ideoloji hərəkat olmuşdur. Bu hərəkatın başlıca mahiyyəti cəmiyyətin iqtisadi-siyasi, ictimai-etik görüşlərini tənqid etmək, yeni, müasir fikirlər irəli sürmək, dünyəvi elmlərin, ağlın, zəkanın, maarifin əsasında yeni münasibətlərin inkişafına yol açmaq olmuşdur. Maarifçilər öz ideyalarını xalq içərisində yaymaq üçün bədii ədəbiyyatdan ideoloji silah olaraq istifadə etmişlər. Maarifçilərin fikrinə əsasən, insanın əxlaqi-mənəvi keyfiyyətləri yaşayıb ünsiyyətdə olduğu mühitin məhsulu, təzahürüdür. Ən pis xarakterə malik insan da sağlam, əlverişli mühitə düşərsə, o, mənəvi cəhətdən saflaşaraq ideallaşa bilər. Əksinə, saf bir insan pis mühitdə korlanaraq məhv olar. Deməli, insanların xarakter və əxlaqlarındakı çatışmazlıqları islah edib, onları kökündən dəyişdirmək üçün feodal cəmiyyətini devirib yeni bir cəmiyyət yaratmaq vacibdir. Bu ideologiyanın həyata keçirilməsində təbii ki, ədəbiyyat silah rolunu oynamalı idi. Bunun üçün isə yeni ədəbi prinsiplər, üslub, yaradıcılıq metodunun meydana gəlməsi zəruridir. Bu zərurət, XIX əsrin ortalarında ədəbiyyat tariximizdə yeni yaradıcılq metodunun – realizmin yaranmasını şərtləndirmiş oldu.

XIX əsr Azərbaycan ədəbiyyatında maarifçilik ideyalarının inkişafından danışarkən, bu sahədə misilsiz xidməti olan, maarifçi-realist konsepsiyanın banisi Mirzə Fətəli Axundzadənin adı xüsusilə qeyd edilməlidir.

Tarixə qısa ekskursiya etsək, görərik ki, XIX əsrin ikinci yarısı Azərbaycanda feodal münasibətlərinin dağılmağa başladığı və mədəni inkişaf üçün yeni imkanlar yaranması dövrüdür. Ölkənin iqtisadi həyatındakı yüksəliş cəmiyyətin inkişaf qanunlarına uyğun olaraq, yeni ictimai qüvvələrin yaranmasına səbəb oldu. Həyat bu qüvvələrin qarşısında yeni vəzifələr qoydu, yeni icyimai-siyasi ideyalar, fəlsəfi fikirlər, bir-birini təsdiq və ya inkar edən fikri cərəyanlar ortaya çıxmağa başladı. Başqa sözlə, Azərbaycanda qabaqcıl inqilabi ideyaların meydan alması üçün əlverişli şərait yarandı.

Mirzə Fətəli Axundzadə belə bir tarixi dövrün yetişdirdiyi nəhəng şəxsiyyət idi. O, dövrün yaradıcı insanlardan tələbini aydın bildiyi üçündür ki, özünə qədərki fikri cərəyanları, mütərəqqi ideyaları mənimsəməklə kifayətlənmədi, onları daha da inkişaf etdirərək, Azərbaycanda qabaqcıl ideologiyanın bayraqdarı səviyyəsinə yüksəldi.

Mirzə Fətəli Axundzadə azərbaycan xalqının əsrlər boyu yaratdığı böyük mədəniyyətin məntiqi, qanunauyğun bəhrəsi kimi meydana gəlmiş, əldə edilmiş nailiyyətlər, mütərəqqi ideyalar onun ictimai-siyasi və fəlsəfi görüşlərinin, həmçinin sənətə baxışının təşəkkülündə mühüm rol oynamışdı. Qeyd edək ki, M. F. Axundzadənin ictimai-siyasi və fəlsəfi fikirlərinin ideya zəminində milli və beynəlmiləl mənbələrin vəhdəti dayanır. O, öz elmi, ədəbi yaradıcılıq ənənələrini ancaq milli ənənələrlə məhdudlaşdırmır, əksinə, bu çərçivəni cəsarətlə qırmağa çalışaraq, müasir dünya mədəniyyəti səviyyəsinə yüksəltmək yollarını axtarırdı. Beləliklə, mütəfəkkir sənətkarın dünyagörüşü zəngin milli fikrin zəminində, onunla möhkəm daxili əlaqələri olan ümumşərq kontekstində təşəkkül tapmış, rus və Avropa mənbələri isə ona professional Azərbaycan tənqidi və estetikasını yeni dövrün ümumi tələbləri səviyyəsinə yüksəltmək üçün geniş imkanlar açmışdı.

Mirzə Fətəli Axundzadə ədəbiyyatın əsas vəzifəsini onun təbliğ etdiyi ideyanın məzmununda, bu məzmunun dövrün tələblərinə nə dərəcədə cavab verməsində görürdü. Müasirlərini "hikmət və mərifətlə" dolu əsərlər yazmağa çağıran mütəfəkkir-alim, belə qənaətə gəlmişdi ki, sənətin əsas məqsədi "insanların əxlaqını yaxşılaşdırmaq, oxucu və qulaq asanları ibrətləndirməkdən" ibarətdir.

Mirzə Fətəli Axundzadənin ədəbi görüşləri onun fəlsəfi mövqeyinə, materialist dünyagörüşünə *(Materiyanı (obyektiv reallığı) mövcudluğun əsası, başlanğıcı, ideal təsəvvürün (anlayış, iradə, ruh, hisslər)isə törəmə olduğunu iddia edən fəlsəfi baxış)* söykənirdi. Dünyanın maddiliyini təsdiq etmək – Axundzadə fəlsəfi fikrinin məhək daşı idi. Böyük mütəfəkkir öz fəlsəfi görüşləri ilə Budda, Ə. Cami, Ş. M. Şəbüstəri, F. Petrarka, V. Skott kimi filosofların görüşləri arasında bir yaxınlıq duyur və yazırdı: "Külli-kainat bir qüvveyi-vahidə və kamilədir: yəni bir vücudi-vahidü kamildir"(3, 9).

Eyni zamanda Mirzə Fətəli Axundzadənin estetik konsepsiyasının təşəkkülündə, ədəbi-nəzəri qənaətlərinin formalaşmasında başlıca mənbə Şərqlə bağlı olan milli ədəbi irsdir. İstər Nizami, Nəsimi, Füzuli, Vaqif, Bakıxanov, Vazeh və Zakirin estetik görüşləri, istərsə də o zamana qədər Azərbaycanda mövcud olan ədəbi-tənqidi və mədəni irs öz sənət baxışlarını əsaslandırmaq üçün Mirzə Fətəlinin istinad etdiyi qaynaqlar idi. Bunu qeyd etməmək, Axundzadə ədəbi-fəlsəfi görüşlərinin mənbələrindən ən əsasını diqqətdən yayındırmaq və onu Azərbaycan ədəbi-mədəni, həmçinin ictimai fikrinin inkişaf prosesindən ayırmaq olardı.

Ədəbiyyatşünas-alim Şamil Salmanov tənqiddən bir yaradıcılıq sahəsi kimi bəhs edərək yazır: "Tənqid sənətkarın yaratdığı sənət əsərini təhlil edir, ideyasını, fəlsəfəsini başa düşməyə, formasını, daxili strukturunu qiymətləndirməyə, izah etməyə çalışır və bununla da öz spesifik vəzifəsini yerinə yetirir: bu da özünə görə bir növ yaradıcılıqdır, sənətdir; – təhlil və izah, dərketmə və dəyərləndirmə sənəti..." (6, 52).

Azərbaycan ədəbiyyatı tarixində dramaturgiyanın və realist bədii nəsrin, fəlsəfi publisistikanın banisi kimi şöhrət qazanan Mirzə Fətəli Axundzadə eyni zamanda, müasir tipli ədəbi tənqidin də banisidir. "O, ədəbi tənqidin mahiyyəti, funksiyası, bədii tərəqqidə və ictimai fikrin inkişafında rolu haqda söz açan, onun xeyrini və gözəlliyini müasirlərinə başa salan birinci mütəfəkkirdir. Əlbəttə, Azərbaycan nəzəri-estetik fikir tarixində Mirzə Fətəliyə qədər bədii sözün, ədəbiyyatın ictimai funksiyası haqqında fikir söyləyən sənətkarlar çox olub. Lakin bizim ədəbi fikir və dil tariximizdə "kritika" və "tənqid" sözlərinə ilk dəfə M. F. Axundzadənin leksikasında təsadüf edilir" (4, 1-2).

M. F. Axundzadə tənqidinin və estetikasının başlıca problemi olan realizm onun sənət nəzəriyyəsinin əsasını təşkil edir. Yazıçının fikrincə, sənət əsərində «xilafi-vaqe», yəni real həyata zidd bir şey, anti-realizm olmamalıdır, bunun əvəzində sənətdə «mütabiqi-hal» təzahür etməlidir.

Mirzə Fətəli Axundzadənin ədəbi-tənqidi irsini araşdıran K.Talıbzadəyə görə, yazıçı bu metodun ayrı-ayrı prinsiplərini vahid bir konsepsiya əsasında şərh etmiş, öz realist nəzəriyyəsində maarifçi realizm mövqeyində dayanmış, bu məsələnin həlli uğrunda ardıcıl mübarizə aparmışdır. Gerçəkliyi sənətin əsas təsvir obyekti hesab edən Axundzadəyə görə hər hansı bir təsvir ağlın tələblərinə uyğun olmalıdır. O, məhz bu tezisdən çıxış edərək realizmin prinsiplərini müəyyənləşdirməyə çalışmışdır.

Mirzə Fətəlinin tənqid nəzəriyyəsi, onun özünüdərki milli ədəbiyyatımızda XX əsrin əvvəllərində tamamilə yeni mərhələyə qədəm qoymuşdu və bu dövrün ədəbi-ictimai fikri məhz M. F. Axundzadəni ilk Azərbaycan tənqidçisi kimi tanımış, ona rəğbət bəsləmişdir. "Beləliklə, ədəbi tənqid öz inkişafının yeni və mürəkkəb bir mərhələsinə – milli intibah, inqilab və təbəddülatlar dövrü olan XX əsrə Axundovun realist tənqidi ənənələri ilə gəlmişdi" (7, 134)

M. F. Axundzadə hələ XIX əsrdə Azərbaycan mədəniyyətinin, azərbaycançılıq ideologiyasının inkişafında mühüm xidməti olan şəxsiyyətlərdən biri kimi də tanınır. O, bu dövrdə Azərbaycan xalqının mütərəqqi ideallara inteqrasiyası baxımından əhəmiyyətli xidmət göstərmiş, yeni, Avropa tipli ədəbiyyatın dram, bədii nəsr, ədəbi tənqid, publisistika kimi janrlarını anadilli ədəbiyyatımıza daxil etməklə, xalqla ünsiyyətin yeni üsullarını tapmış və xalqını zamanın tələbinə uyğun düşünməyə, fəaliyyət göstərməyə səsləmişdir.

"Axundov öz komediyalarında milli həyatımızın gerçəkliklərini, adət-ənələrini, ictimai davranış normalarını güzgü kimi əks etdirir, bu həyatın gerilikçi tərəflərini tənqid etməkdən çəkinmir, xalqa şirin yalanlar söyləməkdənsə, əsil maarifləndirmə - acı gerçəkləri göstərmək yolunu tuturdu" (8, 13).

Türk-müsəlman xalqlarının dünya sivilizasiyasının müasir dəyərlərinə qovuşmaq məqsədi ilə latın qrafikalı yeni əlifba uğrunda qoşulduğu mübariz hərəkatı da, öncə Mirzə Fətəli Axundzadə başlatmışdı.

Akademik F.Qasımzadənin fikrincə, 50-60-cı illərin maarifçiliyi əvvəlki maarifçilikdən özünün daha mübariz və təsirli olması ilə, demokratik ideyalarla daha çox çulğaşıb qarışması ilə, nəhayət, azadlıq hərəkatı ilə bilavasitə bağlı olması ilə seçilir. Bu sonrakı, kamil maarifçiliyin əsas fərqləndirici cəhətidir ki, öz əksini daha dolğun şəkildə M. F. Axundzadənin yaradıcılığında tapmışdır.

XIX əsrin 50-60-cı illərində feodalizmin dağılması posesinin sürətlənməsi, xalq azadlıq hərəkatının genişlənməsi realist ədəbiyyatın inkişafını sürətləndirirdi. Xalqın millətə çevrilməsi prosesi başlamışdı. Xalq şüuru inkişaf edib milli şüura çevrilirdi. Milli şüurda ictimai həyata qarşı oyanan fəal münasibətin getdikcə artması ədəbiyyatın həyatla olan əlaqəsini möhkəmləndirdi. Ədəbiyyat həyat həqiqətini nisbətən daha geniş və dərindən əks etdirməyə başladı, mövzu və mündəricəsi əhəmiyyətli dərəcədə dəyişərək ictimailəşdi. Feodal-patriarxal cəmiyyətin yaratdığı ətalət və süstlük, cəhalət və nadanlıq, mədəni gerilik, zorakılıq əleyhinə mübarizə ədəbiyyatın aktual mövzularına çevrildi ki, bu da milli şüurun dirçəlişinə gətirib çıxardı. M. F. Axundzadə bədii sənətin amalından danışarkən təxminən belə bir fikir ifadə edirdi ki, burada məqsəd xalqın tərəqqisinə, elmə, mədəniyyətə qovuşmasına nail olmaqdır.

Xalqının taleyini düşünən M. F. Axundzadənin ideya mübarizəsinin əsas qayəsi azadlıq və ədalət bayrağını yüksəklərə qaldırmaqda, öz yaşayışını dinc yolla qurmaqda, xoşbəxt və firavan həyata qovuşmaq arzusunda olan xalqına yol göstərmək olmuşdur. O, milli şüurun oyanmasına əngəl olan zülm evinin – despotik cəmiyyət quruluşunun dağılmasının tərəfində idi. Mütəfəkkir-alim, dövlət məsələlərində islahatlar yolu ilə əldə edilmiş xalq hakimiyyətinin və parlament

yaratmağın tərəfində idi. "Azadlıq və demokratiyanı anlamaqda Axundzadə sonralar daha da irəli getmiş və bunların baş tutmasının yalnız mövcud quruluşu dəyişməklə, cəmiyyətin əsaslarını köklü surətdə dağıtmaq və yeniləşdirmək yolu ilə mümkün olacağını dərk etmişdir" (2, 392).

Axundzadənin fikrincə, cəmiyyət quruluşunda lazımi islahatlar aparılarsa, xalq cismani və mənəvi azadlığa qovuşarsa, onu elm və mədəniyyətin nailiyyətləri ilə tanış etmək, kütləni savadlandırmaq, tərəqqiyə çatdırmaq mümkün olar və bu da öz növbəsində milli şüurun dirçəlməsinə, xalqın gələcəkdə öz müqəddəratını təyin edə bilmək bacarığının formalaşmasına gətirib çıxara bilər.

Əgər diqqət etsək görərik ki, M. F. Axundzadə "Aldanmış kəvakib" povestində oxucusuna mütərəqqi, ədalətli hökmdar kimi təqdim etdiyi Yusif Sərracı "hakimiyyətə gətirməklə" cəmiyyəti islahatlar yolu ilə dəyişdirmək ideyasını irəli sürmüş və xalq hakimiyyətinin tərəfində olduğunu yaratdığı obraza, onun əməllərinə münasibətində ifadə etmişdir. "M. F. Axundov Yusif Sərracı hakimiyyət başına tez gətirmək seçimində təsadüfiliyə yol verməmişdir – hərçənd belə nəticə çıxaran ədəbiyyatçılar, oxucular istisna deyil. Yazıçı dünyagörüşünün demokratik və məntiqi idi ki, hakimiyyət başına gələn siniflərdən yalnız fəhlə sinfinin əxlaqi illüziyalara, riyakarlığa ehtiyacı olmur. Ona görə ki, bu sinfin azadolma şəraiti eyni zamanda bütün cəmiyyətin istismardan, zülmdən qurtulması deməkdir "(9, 137).

Demokratik fikirli mütəfəkkir-alim, insan ağlının hər cür ətalət və süstlükdən, cəhalət və mürtəce quruluşun mövcud buxovlarından azad olması ideyasını irəli sürür, Avropa və Asiyada, o cümlədən bütün dünyada insan ağlının əbədi məhbusluqdan tamamilə azad olmasını bəşəriyyətin xoşbəxt yaşayışının açarı hesab edirdi. M. F. Axundzadə bu barədə yazır: "Bəşəriyyətin xoşbəxtlik və səadəti o vaxt mümkün olacaqdır ki, istər Asiyada və istərsə Avropada insan əqli əbədi həbsdən tamam qurtaracaq, işlərdə və fikirlərdə yalnız insan əqli sənəd və dəlil hesab edilib, hakimi mütləq olacaqdır"(1, 144-145).

Zaman keçdikcə M. F. Axundzadənin ictimai-siyasi, fəlsəfi dünyabaxışında ciddi dəyişikliklər yaranmış, "Aldanmış kəvakib"də irəli sürdüyü siyasi fikirlər "Kəmalüddövlə"də inkişaf etdirilərək daha yetkin şəkildə ifadə olunmuşdur.

"70-ci illərdə onun dünyagörüşünün inkişafı öz yetkin və kamil həddinə çatır və inqilabçı-demokrat səviyyəsinə yüksəlir; o, bütün Yaxın Şərq ölkələrində azadlıq ideyalarının carçısı olur.

... Azərbaycan xalqının mənəvi mədəniyyətinin inkişafında bütöv bir xətt onun adı ilə bağlıdır. M.F.Axundzadə görkəmli maarifçi-demokrat, feodal quruluşu və islam dini-mistik ideologiyasının qatı əleyhdarıdır. O, ilk dəfə olaraq, ərəb əlifbasının latın əlifbası ilə əvəz olunmasını irəli sürmüşdür, dini fanatizmə və Şərq despotizminə qarşı öz güclü səsini qaldırmışdır" (10, 16). Ş. Məmmədovun fikrincə, M. F.Axundzadənin fəlsəfi-siyasi ideyaları Azərbaycan və İranın ictimai və fəlsəfi fikrinin sonrakı inkişafına daha güclü təsir göstərmişdir.

Nəticə etibarilə deyə bilərik ki, vaxtilə bəşər mədəniyyəti tarixinin parlaq səhifələrinin yarandığı Azərbaycanda, ümumiyyətlə müsəlman Şərqi ölkələrində xurafat və cəhalətin inkarı olaraq maarifçiliyin özünə yer tapması təbii və qanunauyğun bir hadisə idi. Qərbdən gələn təsirin nəticəsində XIX əsrin əvvəllərindən təşəkkül tapan Azərbaycan maarifçiliyi, əsrin sonlarınadək böyük bir yol qət etdi və XIX əsr Azərbaycan insanının düşüncəsində, həyata baxışında, yaşam tərzində ciddi dəyişikliklər yaratdı. Əsrlərdən bəri düşüncələrə hakim kəsilmiş "susmaq fəlsəfəsi"nə, zülmə boyun əymək, hər şeyi "təqdiri-ilahi"dən bilmək, bir qarın çörək üçün ağa, mülkədar qapısında böyun bükmək kimi feodal dünyasının qeyri-insani adət-ənənələrinə dünya maarifçilik ideologiyası və Azərbaycan maarifçiliyi birdəfəlik son qoydu. Abbasqulu ağa Bakıxanovun dünyaya baxışında formalaşan maarifçilik ideyaları Mirzə Fətəli Axundzadənin tənqidi təfəkkürünün süzgəcindən keçərək özünün yetkin mərhələsinə çatdı.

M. F. Axundzadənin maarifçi-realist konsepsiyası, ictimai fikir və fəlsəfi düşüncəsi insanlığın şüurunda kök salmış cəhalətə, dini fanatizmə nəinki şübhə toxumu səpmiş, həmçinin geriliyin müdafiəçisi olan mövcud cəmiyyətin dayaqlarına öldürücü zərbə endirmişdir. O cəmiyyətə ki, tarixdə görünməmiş qanunlar yazır, insanlığın mənəvi məhvi üçün bütün üsul və vasitələrini səfərbər edirdi.

Böyük tənqidci, ictimai-siyasi xadim, sözün əsl mənasında vətəndaş-sənətkar olan M. F. Axundzadənin apardığı ədəbi, ictimai-siyasi mübarizə layiqli bəhrəsini verdi. XX əsr Azərbaycan ədəbiyyatında yetişən ədəbi simalar, məhz onun tənqidi-realizmindən bəhrələnərək dövrün acı həqiqətlərinə ayna tuta bildi. Görkəmli dramaturq, nasir, publisist və pedaqoq Cəlil Məmmədquluzadə məşhur "Ölülər" əsərini yazdı. O, bu əsəri ilə mənən ölü Azərbaycan insanının ruhuna can verdi. "Ölülər" ölü canların dirçəlməsinə, xalq kütlələrinin şüurunda baş verən köklü dəyişiklik, İsgəndərin xəyal belə etmədiyi cəmiyyətin yaranmasına gətirib çıxardı. Ölkəmizdəki azad cəmiyyət quruluşu, insanın fikir, söz azadlığı, sahib olduğu haqları tanıması və öz müqəddəratını təyin etmək üçün müstəqil qərarlar qəbul etməsi faktı, heç şübhəsiz, qaynağını məhz XIX əsr maarifçilərinin ideya mübarizəsindən alır.

Ədəbiyyat

1. M. F. Axundzadə. Əsərləri, II cild. Bakı, Şərq-Qərb, 2005
2. F. Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, "Elm və təhsil", 2019.
3. M. F. Axundzadə. Əsərləri, III cilddə. Bakı, Şərq-Qərb, 2005
4. Z. Əsgərli. Mirzə Fətəli və Füzuli. "Ədəbiyyat"qəzeti, 21 dekabr , 2012
5. http//www//googl/com//…
6. Ş. Salmanov. Akademik Kamal Talıbzadə. Bakı, "Ozan", 1998
7. T. Rəhimli. Ədəbiyyat və tənqidin yaradıcılıq problemləri. Bakı, "Avropa", 2009
8. V. Ömərov. Axundzadənin əsərlərində azərbaycançılıq ideyaları. "Səs", 8 mart, 2012
9. A. Eminov, N. Məmmədli. M. F. Axundovun obrazları və dilçilik görüşləri. Bakı , "Elm və təhsil", 2012
10. Ş. Məmmədov. M. F. Axundovun dünyagörüşü. Bakı, 1962

G.Rzayeva

19th-century Azerbaijani education and the role of Mirza Fatali Akhundzade in the history of Azerbaijan's socio-political and cultural-philosophical thought

Summary

It was a natural and legitimate phenomenon that enlightenment as a denial of prejudice and ignorance took place in Azerbaijan, and in Muslim countries in the past, when brilliant pages of the history of human culture were created. Since the 19th century Azerbaijani education was created in the Azerbaijani public environment and utilized the progressive ideological and political traditions of not only the West and Russia, but also of the East, it was able to take its own path of development. That is why the ideas of Azerbaijani education have a strong influence on the national renaissance and cultural development of the Azerbaijani people.

Speaking of the development of enlightenment ideas in the 19th-century Azerbaijani literature, the name of Mirza Fatali Akhundzade, the founder of the enlightenment-realist concept, should be particularly mentioned. Mirza Fatali Akhundzadeh has emerged as a logical, logical fruit of the great culture of the Azerbaijani people for centuries, and the achievements

and progressive ideas played an important role in the organization of his socio-political and philosophical discussions, as well as his vision of the arts. M.F. Akhundzade's enlightenment-realist conception, public opinion and philosophical thinking have shed light on the ignorance of humanity, sowing religious fanaticism not only the seeds of doubt, but also the pillars of the existing society that is the defender of backwardness. He wrote a law that was unprecedented in history, and mobilized all methods and means for the spiritual destruction of mankind.

Key words: enlightenment, realism, public relations, cultural thought, philosophical thinking, philosopher M.F. Akhundzade

Г. Рзаева

Азербайджанское образование XIX века и роль Мирзы Фатали Ахундзаде в истории общественно-политической и культурно-философской мысли Азербайджана

Резюме

Это было естественное и законное явление, когда просвещение как отрицание предрассудков и невежества имело место в Азербайджане и в мусульманских странах в прошлом, когда создавались блестящие страницы истории человеческой культуры.

С 19-го века азербайджанское образование создавалось в азербайджанской общественной среде и использовало прогрессивные идеологические и политические традиции не только Запада и России, но и Востока, оно могло идти своим путем развития. Именно поэтому идеи азербайджанского образования оказывают сильное влияние на национальное возрождение и культурное развитие азербайджанского народа.

Говоря о развитии идей просвещения в азербайджанской литературе XIX века, следует особо упомянуть имя Мирзы Фатали Ахундзаде, основателя концепции просвещения-реализма. Мирза Фатали Ахундзаде на протяжении веков становился логическим, логическим плодом великой культуры азербайджанского народа, и достижения и прогрессивные идеи сыграли важную роль в организации его общественно-политических и философских дискуссий, а также в его видении искусства.

Просвещенно-реалистическая концепция, общественное мнение и философское мышление М.Ф. Ахундзаде пролили свет на невежество человечества, посеяв религиозный фанатизм не только в семена сомнения, но и в опоры существующего общества, которое является защитником отсталости. Он написал закон, беспрецедентный в истории, и мобилизовал все методы и средства для духовного уничтожения человечества.

Ключевые слова: просвещение, реализм, общественные отношения, культурная мысль, философское мышление, философ М.Ф. Ахундзаде

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya elmləri doktoru professor Nadir Məmmədli
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏTRABƏ GÜL
filologiya üzrə fəlsəfə doktoru, dosent (BMU)
Ünvan: BMU, Bakı-Sumqayıt Yolu 16 km,
Həsən Əliyev 120, Bakı AZ 0101, Azərbaycan
Elektron poçt: egul@beu.edu.az

KEÇƏN ƏSRİN 60-80-Cİ İLLƏR AZƏRBAYCAN BƏDİİ NƏSRİNDƏ ARXETİPLƏRİN SİMVOLİK MƏZMUNU

Xülasə

Keçən əsrin 60-80-ci illər bədii nəsri çağdaş mərhələdə yeni nəsr kimi ədəbi-mədəni sferada özünə xüsusi yer almaqdadır. Bunun isə kifayət qədər əsaslı səbəbləri vardır. Daha çox olan isə milli-mənəvi təfəkkür meyarlarına əsaslanma ilə səciyyələnir. İ.Hüseynovun, İ.Şıxlının, İ.Əfəndiyevin, Y.Səmədoğlunun, Anarın, Elçinin, M.Süleymanlının, V.Nəsibin və s. yaradıcılığı timsalında fundamental mənzərə yaranır. Sosrealizm konsepsiyasının siyasi doktirina olaraq müəyyənləşdirdiyi ideoloji təsəvvür birbaşa milli-mənəvi olana əks düşüncənin yaradılmasını əsas edirdi. Burada "sovet adamı", "mədəni qəhrəman" və s. kimi məsələlər bədii mühitin qarşısında tələb olaraq dayanırdı. 60-cı illər bədii nəsri arxetiplərin işləkliyinə, metaforik səpkinin aparıcılığına köklənməklə möhtəşəm bir istiqamətin müəyyənliyi və güclənməsi ilə marağa səbəb oldu. Mifdən, eposdan süzülüb gələn düşüncə və yaddaş modellərinin bir məqsəd olaraq təhlili arxetiplərin, araxik yaddaşın etnomilli səviyyədə yaşarlığının aparıcılığı ilə faktlaşmışdır. Bunların bir bütöv olaraq hansı səviyyədə özünü bədii nəsrdə qoruyub saxlaması 60-80-ci illər bədii nəsrində funksional mahiyyəti ilə yeni nəsr təsəvvürünü formalaşdırmaq üçün əsas oldu. Mətn/mətn, mətn/mühit, mətn/subyekt sxemində kodlaşmaqla ədəbi prosesin axarına istiqamət verdi.

Açar sözlər: Altmışıncı illər bədii nəsri, yeni nəsr, arxetip, nəsrdə metaforik məzmunun aspektləri, milli mənəvi dəyərlərin ifadəlilik xüsusiyyətləri və s.

Məsələnin qoyuluşu: 60-80-ci illər bədii nəsrində arxetiplərin funksional məzmunu və metaforik aspektləri.

İşin məqsədi: Çağdaş Azərbaycan nəsrində bədii-estetik özünəməxsusluğun, milli-mənəvi potensiyanın ifadəlilik imkanlarının aydınlaşdırılması.

Keçən əsrin 60-cı illər ədəbiyyatı ədəbi-nəzəri fikirdə "yeni nəsr", "yeni nəsil" adı ilə xüsusi olaraq vurğulanır. Bunun da köklü səbəbləri var və əsas olan odur ki, sovetlər dönəminin müəyyənləşdirdiyi qəhrəman tipləri və düşüncə modelləri bütünlükdə sovet adamı təsəvvürünü formalaşdırmağa köklənmişdi. Siyasi sistemin, ideoloji mühitin ədəbiyyat təsəvvürləri bütünlükdə sosrealizm prinsipləri üzərində nizamlanmaqla mövcud nümunələrə münasibətini sərgiləyirdi. 37-ci ilin repressiyası, totalitar rejimin amansız hücumları, ikinci cahan savaşı, müharibədən sonranın prosesi və dövlətin sərt ədəbiyyat qərarları bütünlükdə böyük ədəbiyyatın içindən keçirdi və bir növ altmışıncı illərə gedən yolun faktlaşmasını zəruriləşdirirdi. İ.Hüseynovun, İ.Şıxlının, İ.Məlikzadənin, Y.Səmədoğlunun, Anarın, Elçinin və bu sıradan olan digərlərinin ədəbiyyat təsəvvürləri 60-cı illər təsəvvürünün formalaşması üçün əsas oldu. Əlbəttə burada bütün prosesi həmin nəslin düşüncəsinə yazmaq da mahiyyəti əks etdirmir. Burada əvvəlki nəsilərin, məsələn, M.Hüseynin, R.Rzanın, S.Rəhmanın, Qabilin və başqalarının da rolu vardır. Daha doğrusu, ədəbi proses 60-cı illəri ədəbiyyat hadisəsi kimi zəruriləşdirdi. Ədəbi prosesin özündə milli-mənəvi yaddaşa bağlanacaq arxetiplərin, etnomədəni təsəvvürün yeni hərəkətliliyi məsələsi ortaya çıxdı.

Azərbaycan ədəbiyyatı bütün mərhələlərdə özünün dinamik xarakteri, tarixi ənənənin yaşarlığı ilə səciyyələnmişdir. Sovetlər dönəmində baş verənlərin xofu, xalqın tarixi-mədəni sisteminə qarşı olan hücumlar bir növ müxtəlif üsul və fikir rəngarəngliyində üslub özünəməxsusluqlarını bir zərurət olaraq qarşıya qoydu. Bu isə bütün mahiyyəti ilə 60-cı illərdə təfsilatı ilə göründüyü üçün ədəbiyyat tarixinə də belə bir adla daxil oldu. Xalq yazıçısı Anar yazır: "Dəfələrlə demişəm və bir də təkrar edirəm ki, ictimai-siyasi şərtlərlə bağlı olaraq 60-cı illərdə ədəbiyyatımızın yeniləşməsində bütün nəsillərin, o cümlədən yaradıcılıq fəaliyyətinə əvvəlki onilliklərdə başlamış şairlərin, nasirlərin, dramaturqların xidmətləri danılmazdır. Məhz bu illərdə yaşlı və orta nəsil nümayəndələrindən Rəsul Rzanın "Qızılgül olmayaydı" poeması, "Rənglər" silsiləsi, bir çox şeirləri, Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması, "Latın dili" və başqa şeirləri, Qabilin "Tramvay parka gedir", "Məhəbbət deyil", "Küləkli havalarda, yağışlı havalarda", "Gedən yerim olaydı" səpkili şeirləri, Mehdi Hüseynin "Yeraltı çaylar dənizə axır" romanı, Sabit Rəhmanın "Əliqulu evlənir", "Yalan" komediyaları, İlyas Əfəndiyevin "Geriyə baxma, qoca" romanı, "Sən həmişə mənimləsən" pyesiylə başlayan yeni tipli dramaturgiyası, İsmayıl Şıxlının "Dəli Kür"ü, Bayram Bayramovun "Sərinlik" povesti, Salam Qədirzadənin "Xəzan yarpaqları" hekayəsi meydana çıxdı ki, bütün bu örnəklər daha əvvəlki sovet dövrü ədəbiyyatımızdan xeyli fərqli idi" **(1).** İ.Hesynovun "Saz", "Tütək səsi", "Kollu Koxa", "Doğma və yad adamlar", "Yanar ürək" və s. kimi möhtəşəm əsərləri ədəbiyyatın yaradıcılıq axtarışlarının hadisəsi olaraq bir növ ədəbi-mədəni prosesin axarına istiqamət verdi. Anarın "Yaxşı padşahın nağılı", "Ağ qoç, qara qoç", "Elçinin "Mahmud və Məryəm", Yusif Səmədoğlunun "Qətl günü", "Deyilənlər gəldi başa", Mövlud Süleymanlının "Dəyirman", "Köç" və s. əsərləri milli-mənəvi düşüncənin yaddaş aspektlərini, dequstativ mənzərəsini aydınlaşdırmaq üçün əsaslı material verir.Etnokulturoloji sistemin genetik kodları daha çox qoruyuculuq və daşıyıcılıq missiyasına köklənmişdir. Tarixi proses, sosial-siyasi sferanın müəyyənləşdirdiyi və qoruyub saxlamağa çalışdığı mövcud sistemlər folklor / mif dialogiyasında birxətlilik funksiyası ilə hərəkətdə olmuşdur. 60-80-ci illər ədəbiyyatı da öz mənəvi gücünü bunlarda tapmaqla yaradıcılıq axtarışlarında ədəbi prosesə istiqamət verəcək nümunələrlə ortaya çıxdı. Əlbəttə Azərbaycan ədəbiyyatının əvvəlki dönəmlərində, daha doğrusu XIX əsrin sonu XX əsrin əvvəllərindəki vəziyyətdə də eyni mənzərənin şahidi oluruq. A.Şaiqin, S.S.Axundovun, Y.V.Çəmənzəminlinin, Ə.Haqverdiyevin, S.M.Qənizadənin, C.Məmmədquluzadənin, H.Cavidin, A.Səhhətin, M.Hadinin, M.Ə.Sabirin və başqalarının yaradıcılığında nəzərə çarpan özünəməxsusluq yeni şəraitdə və yeni mühitdə fərqli-fərqli kontekstlərdə mühiti izləməkdə idi. Məsələn, R.Əfəndiyevin təbiət simvolikasına və onun rəngarəng komponentlərinə bağlanan "Uşaq və gül", "Gül", "Bənövşə", "Durna", "Qırqovul", "Bülbül", "Keçi", "Yağış" və s. kimi nümunələri yaddaş arxetiplərinin və uşaq təsəvvürlərinin hərəkətliliyi baxımından mühüm əhəmiyyət kəsb edir. S.Axundovun "Tutuquşu" hekayəsi və bu silsilədən olan əsərlər sırasındadır. T.Elçinin "Qarğanın məktəbində" hekayəsi də S.Axunduvun "Tutuquşu" əsərinin ruhu əsasında yazılmışdır. Bunun tarixi qaynaqları xalqın zəngin yaradıcılığına bağlanır və Azərbaycan ədəbiyyatında kifayət qədər klassik nümunələri vardır. Şərq ədəbiyyatının görkəmli nümayəndələrindən olan Ziyaəddin Nəxşəbinin "Tutinamə" əsəri bütün təfərrüatları ilə mahiyyəti əks etdirir və arxetiplərin yaddaş aspektlərini daha uğurlu ifadə edə bilmək gücü ilə səciyyələnir. **(7).** M.Füzuli qitələrinin birində vurğulayır ki, "eyləsən tutiyə təlim ədayi-kələmat, nitqi insan olur, amma özü insan olamaz" **(4, 158).** Bütün müstəvilərdə Şərq ədəbiyyatı, eləcə də orta əsrlər Azərbaycan ədəbiyyatı müxtəlif aspektli simvolika üzərində köklənmişdir. XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanın ictimai, siyasi və mədəni həyatında baş verənlər həmin simvolikanın yeni məzmun və ifadə çalarlarını müəyyənləşdirmək üçün ciddi funksiya daşıyır. Y.V.Çəmənzəminlinin "Məlikməmməd" nağılı əsasında yazdığı "Məlikməhəmməd" hekayəsi bunun tipik nümunəsidir. Əli Abbasovun 1950-ci ildə yazdığı "Məlik Məmməd" mənzum pyesi də bura daxildir. Ümumiyyətlə, keçən əsrin 60-cı

illərində ədəbiyyatda baş verən yeniləşmə, keyfiyyət dəyişmələri etnokuturoloji təfəkkürün arxaik modellərinə yüklənməklə yeni məzmun çalarları qazandı. İ.Hüseynovun "Saz" povestində sazın obrazlaşması, "Tütək səsi"ndə tütəyin simvolik kodları bütünlükdə bədii nəsrin yaradıcılıq axtarışlarında ayrıca hadisə səviyyəsində təhlillərə yol açdı. "Kollu Koxa"nın verdiyi informasiyada arxetiplərin ehtiva etdiyi aspektlər öz qaynağını etnosun təfəkkür potensiyasından alırdı. "Oğlanları gedəndən sonra, axşamlar evdə darıxanda qoca hərdən sazı köynəyindən çıxarırdı. Eyni ilə Bəhmən kimi, kürəyini qovağın gövdəsinə söykəyib, eynilə Bəhmən kimi narın-narın "dınqıldadırdı" və vaxtı ilə Dərəçiçəkli Aşıq Alıdan eşitdiyi dastandan bir beyti öz ürəyinə yatan şəkildə dəyişdirib mızıltı ilə oxuyurdu:

Gəl, ey şeşpayi bəhrim,
Qalmadı tabanım, təhrim.
Düşmən gəlib məni kəməndə salar,
Şah babamın gözü yolda qalar...

Qoca hər dəfə yalnız bu beyti oxuyurdu və hər dəfə gözləri dolurdu. "Gəl ey Şeşpayi bəhrlərim! Şah babanızın gözünü yolda qoymayın, gəlin!" – deyirdi.

Bir axşam, həmişəki qayda üzrə, araba yağı ilə çəkmələrini silib, gödəkcəsi çiynində, təsbehi əlində, idarədə vaxt keçirib evə qayıdandan sonra yenə sazı götürdü. Ancaq çalmadı. Bir tərəfini iri, uzun taxt, o biri tərəfini yorğan-döşək yığını və taxıl çuvalı tutmuş otağın yuxarı divarında, uşaqların əli çatmayan yerdən mıx vurub, sazı oradan asdı.

-Əhd eləmişəm, Bəhmən gələnə qədər saz köynəkdən çıxmayacaq, - dedi.

Nə üçün əhd elədiyini isə demədi" **(6, 13-14).** Bədii intelleksiyanın təfəkkür meyarları bütün xronotopları ilə yaddaşa bağlanır və dinamik mənzərəsini ayrı-ayrı zaman kəsiklərində arxetiplərin hərəkətliliyi ilə dövriyyəyə gətirir. Keçən əsrin 60-80-ci illər nəsri də məhz artıq yaradıcılıq axtarışlarını və müxtəlif səviyyələrdə milli-mənəvi dəyərlərin ümumi sistemlərinin oyanışını bir zərurət olaraq ortaya qoydu. Bunun isə köklü səbəbləri vardır və daha çox siyasi-ideoloji sistemin basqılarının yaratdığı xofu sındırmağa köklənmişdi. İ.Hüseynovun, İ.Məlikzadənin, İ.Şıxlının, İ.Əfəndiyevin, Anarın, Elçinin, Y.Səmədoğlunun, M.Süleymanlının, V.Nəsibin yaradıcılığında özünə yer alan milli özgürlük konsepsiyası birbaşa özünü ifadəyə köklənmişdi. Ümumiyyətlə, ədəbi prosesdə formalaşmış 60-cı illər nəsri təsəvvürünün potensiyası və özünü ifadə sistemi məhz etnokulturoloji sistemin bədii-estetik sxemlərinə bağlanır. İ.Hüseynovun "Saz" povestində sazın obrazlaşması, İsfəndiyar kişi, Qılınc Qurban, Feldşer Hacı, Milli qədər funnksional çəkiyə malikdir və əsərin adına da təsadüşü gəlib çıxmamışdır. Daha doğrusu, mahiyyət onun ehtiva etdiyi təsəvvür və məzmuna yüklənir. Əsərin sonundakı epizoid bütünlükdə müəllifin qayəsini, arxetiplərin bədiilik komponenti olaraq nə qədər ciddi təsəvvür formalaşdırdığını aydınlaşdırır. "İsfəndiyar kişi nə qədər oturduğunu bilmədi.

Dəmir yolundan tanış qıjıltı ilə təkər taqqıltıları eşidildi. Ancaq qoca başını qaldırmadı, drezenə baxmaq istəmədi.

Kim isə yavaş-yavaş gəlib iki addımlıqda dayandı. Hacı idi. Bayaqdan su quyusunun dikdirinin qırağında oturmuşdu. İndi getmək istəyirdi.

Qoca ona baxdı.

-Gedirsən?

-Gecən xeyrə qalsın, İsfəndiyar əmi. Gedim.

Qoca dilləndi.

-Yox, getmə... Zəhmət çək, içəridən sazı mənə gətir, bala...Tilsim sındı... Gətir sazı, - dedi" **(6, 57).** Burada mətnin yaratdığı təsəvvür bir neçə istiqamətdə arxetiplərin işləklik və informasiya mənzərəsini aydınlaşdırmağı gərəkli edir:

a) sazın funksional səciyyəsi;

b) yaddaş səciyyəsi;

d) tarixi səciyyədə kəsb olunan mənzərə;
e) arxaik təsəvvürdə formalaşdırdığı aspektlərin sistemi;
ə) milli-mənəvi yaddaşın modelləşmə səviyyəsi və s.

Ümumiyyətlə, arxetiplərin etnik yaddaşın potensiyasını qoruyub saxlamaq və onu müqəddəs olan kimi müxtəlif kontekstlərdə gələcəyə daşımaq təbii mədəni olan kimi nəzərə çarpır. Sovetlər dönəminin formalaşdırdığı təsəvvür, "sovet adamı" konsepsiyasının bütün kontekstlərdə əsas tutulması, mədəni qəhrəman problemi bədii düşüncədə heç vaxt birmənalı qarşılanmamışdır. Çünki bunların hamısı milli-mənəvi arxetiplərin, yaddaş və dəyər normalarının sarsıdılmasına hesablanmışdı. Belə olan tərzdə sıxılmış və ideoloji sistemin ifadəsinə köklənmiş ədəbiyyat müxtəlif kontekstlərdə yaradıcılıq axtarışlarına köklənirdi. Yeni nəsr təsəvvürünün formalaşması da bütün müstəvilərdə bunun nəticəsi olaraq ortaya çıxmışdı. İ.Hüseynovun "Anadil ötən yerdə", "Tütək səsi", "Kollu Koxa", "Quru budaq" əsərləri də bu kontekstdə metaforik məzmunu ilə ciddi təsəvvür formalaşdırır. Məsələn, "Tütək səsi"ndə bir epizoda diqqət yetirək: "Vaxtı ilə, hələ müharibədən əvvəl Cümrü yaxşı tütək çalardı. Bunu ona Məsi öyrətmişdi. Ancaq tezliklə Cümrü öz ustadını üstələmişdi.

Axşamlar məktəbdən çıxandan sonra Tapdıqla gedib, darvaza qabağında, kötük üstündə oturan Cümrünün "Başxanım" və "Sarıtel" havalarına qulaq asardıq...

Atalartımız gedəndən sonra Cümrü tütəyi atmışdı. Onun hətta axşamlar daxmasının belinə qalxıb tütək çalan Məsiyə acığı tuturdu. Qaşlarını sıx-sıx çataraq: "Elə bil yas tutur, başıbatmış" – deyirdi.

Bəs necə oldu ki, Cümrü özü yenidən tütək çalmağa başladı?" **(5, 307-308).** İ.Hüseynovun 60-cı illər ədəbiyyatına gətirdiyi özünəməxsusluq, yeni düşüncə və arxaik yaddaşa müraciət meyilləri bütün parametrləri ilə millilik konsepsiyasına köklənmişdi. Tütəyin obrazlaşması, mətn hadisəsi olaraq Cümrü, Tapdıq, Şöşü, Mehbalı əmi qədər mahiyyəti ifadə edə bilmək funksiyası arxaik kodların hərəkətliliyi ilə mühüm funksiya yerinə yetirir. Əvvəl "Başxanım", "Sarıtel" havalarına köklənən Cümrünün və tütəyin "Çoban bayatı" çalması mahiyyəti, pozulmuş nizamı işarələyir. Yazıçının povestin sonlarında vurğuladığı "uşaq səsi ilə başlayan əhvalat burada qurtardı. Tütək səsi isə... yox, qurtarmadı" **(5, 354)** qənaətinin işarələdiyi məzmun, informasiya Şöşünün "əppək, əppək" deyə maddi ehtiyaclarını, zamanı, Cümrünün tütək çalmasında isə ("Çoban bayatı") mənəvi yaddaşın iztirablarını ortaya qoya bilmək gücü ilə funksiyalaşır. "Anadil ötən yerdə" isə xalq əfsanəsində özünə yer almış tipik bir mənzərənin arxetip modeli mətnə gətirilir. Gecələr səhərə qədər ayağından asılan anadil timsalında mükəmməl bir mənzərə yaradılır. İ.Şıxlının "Həkimin nağılı", "Namus qaçağı", İ.Əfəndiyevin "Geriyə baxma, qoca", "Sarıköynəklə Valehin nağılı", Elçinin "Bülbülün nağılı", Anarın "Yaxşı padşahın nağılı", "Ağ qoç, qara qoç", Yusif Səmədoğlunun "Qətl günü", Mövlud Süleymanlının "Dəyirman", "Köç" əsərləri və s. bütün mahiyyəti, metaforik madellərin funksional xarakteri ilə arxaik təsəvvürlərin yaşarlığını və dinamikasını bir tərəf kimi ortaya qoymaqla ədəbi-mədəni prosesə istiqamət verdi. Y.Səmədoğlunun "Qətl günü"ndə Sarıca oğlu Məhəmmədlə Sərbaz arasında olan söhbət, eləcə də Baba Kaha bütün mahiyyəti ilə arxetiplərin hərəkətliliyi üzərində köklənmişdir. "Zülfüqar kişi Sarıca oğlu Məhəmmədin əlini bərk-bərk sıxdı.Sonra Kürün qurumuş vadisiylə addımlayan iki qaraltı uca bir qayanın başında üçüncü qaraltını gördülər. Qaya başında dayanmış dəmir dəbilqəli sərbazın kürəyinin ortasına nizə sancılmışdı: yarasından axan qan ətrafdakı daşların üstünə ləkə-ləkə yayılmışdı. Sərbaz onları görüb soruşdu.

-Yolunuz haradı, qardaşlar?

Sarıca oğlu Məhəmməd cavab verdi:

Baba Kahaya, qardaş.

Sərbaz bir göz qırpımında aşağı endi:

-Ölümünüz xeyir.

-Ölümə qənşər.

Qabaqda Qərənfillə Yasəmən, arxada Zülfüqar kişi, Sarıca oğlu Məhəmməd və yürüşdən gətirdiyi bir gavur qızının üstündə doğma qardaşının kürəyindən vurduğu nizə yarasından tələf olmuş sərbaz yavaş-yavaş, bir-birilə kəlmə kəsmədən Baba Kahaya doğru gedirdilər" **(8, 48).** Son dövr ədəbiyyatın yaradıcılıq axtarışlarında arxetiplərin belə funksional xarakteri, üstünlük qazanma meyilləri sırf milli-mənəvi yaddaşa meyilliliyin aparıcı məzmunu ilə əlaqələnir. "Yaddan çıxmış sözlər", "Xəzri", "İncə dərəsində yaz çağı" və s. kimi pekayələr də ədibin bu istiqamətə üstünlük verməsi ilə bağlanır. M.Süleymanlının "Şanapipik", "Duzsuzluq", "Yel Əhmədin bəyliyi", "Şeytan", "Dəyirman" povestləri, "Köç" romanı bütün parametrləri ilə paradiqmatik bir təsəvvür formalaşdırır və ədəbi mühitin ehtiyaclarına, etnosun ruhunun yaşarlığının aparıcılığına hesablanmışdır. "Yamacda bir kənd", "Armud ağacının nağılı", "Sapand", "Qaraca kişinin yaylaqları", "Sığırçı Gülünün ala iti", "İt dərisi", "Ağacan", "Quru kəllə" və s. kimi hekayələri də bu ruhun məzmun faktları ilə ədəbi mühitin diqqətini özünə cəlb etmişdir. Bütün bunlar 60-80-ci illər bədii nəsrinin dinamik mənzərəsini, keyfiyyət dəyişmələri müstəvisində gedən proseslərdə arxetiplərin mahiyyətə yönəlikli hadisə kimi funksional xarakterini müəyyənləşdirir.

İşin elmi nəticələri: Keçən əsrin 60-80-ci illər bədii nəsri tarixi-mədəni yaddaşa, mifik təsəvvürdən gələnlərin bədii arenaya gətirilməsinin məqsədyönlülüyü ilə səciyyələnir. Onun sistemli şəkildə təhlili, müxtəlif kontekstdə araşdırılması ciddi məsələ kimi ədəbi-nəzəri fikrin hələ də qarşısında duran problemlərdəndir.

İşin elmi yeniliyi: Mifdən, eposdan süzülüb gələn düşüncə və yaddaş modellərinin bir məqsəd olaraq təhlili arxetiplərin, araxik yaddaşın etnomilli səviyyədə yaşarlığının aparıcılığı ilə faktlaşır. Bunların bir bütöv olaraq hansı səviyyədə özünü bədii nəsrdə qoruyub saxlaması 60-80-ci illər bədii nəsrində funksional mahiyyəti ilə yeni nəsr təsəvvürünü formalaşdırmaq üçün əsas olmuşdur.

İşin tədqiq əhəmiyyəti: 60-80-ci illər bədii nəsri əsasında arxetiplərin təhlili tarixi-mədəni prosesin gedişini və çağdaş mənzərəsini aydınlaşdırmaq üçün xüsusi əhəmiyyət daşıyır.

Ədəbiyyat

1. Anar. Qəribə dünyanın adamı. "Ədəbiyyat" qəzeti, 30 may 2008-ci il
2. Anar. Seçilmiş əsərləri. Bakı, Lider, 2004, 416 s.
3. Anar. Seçilmiş əsərləri. Bakı, Çaşıoğlu, 2004, 488 s.
4. Füzuli M. Heyrət, ey büt. Bakı, Gənclik, 1989, 224 s.
5. Hüseynov İ. Seçilmiş əsərləri. 3 cilddə, I c., Bakı, Azərnəşr, 1988, 416 s.
6. Hüseynov İ. Seçilmiş əsərləri. 3 cilddə, II c., Bakı, Azərnəşr, 1988, 368 s.
7. Nəxşəbi Z. Tutinamə. Azərnəşr, 1991, 368 s.
8. Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2005, 320 s.
9. Süleymanlı M. Köç. Bakı, Yazıçı, 1984, 278 s.
10. Süleymanlı M. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2006, 480 s.

A.Gul

Symbolical content of archetypes of the past century of azerbaijani literary prose.

Summary

The 60s-80s literary prose of the past century grasps truistic ground as modern prose in literary cultural sphere. İt possesses a ponderable ground for that which mostly serves as national spiritual cogitative criteria. I. Huseinov, I. Shikhli, I. Efandıev, Y. Samadoglu, Anar, Elchin, M.

Suleimanli, V. Nasib and many others` creativities provide pivotal report to see the vista. The Idiological imagination which was considered to be the political doctrine of sosrealism conception predicated on the opposite ideas more than national spiritual ones. The " Soviet Man", "Cultural Hero" and other issues stood as a demand at the front line of the literary set. The 60s-80s literary prose generated great interest with the frequent use of archetypes and metaphorically predetermined estabilished directions. The purposeful analysis of the thinking and memory patterns that have been eroded from the myths and epics is driven by the archetypes, the ethnographic level of archaic memory. The extent to which they have maintained themselves in the artistic generation has given rise to a new generation of imagination with its functional essence in the 60-80s. Text/text, text/milieu, text/ subject encoding schema directed stream of literary process.

Key words: 60s-80s literary prose, new prose, archetype, content of metaphorical aspects in prose, eloquent features of national spiritual values and etc.

А. Гул

Символическое содержание архетипов 60-80-ых годов прошлого века в азербайджанской художественной прозе.

Резюме

Художественная проза в нынешнем этапе 60-80-ых годов прошлого века занимает определенное место как проза в художественно-культурной сфере. И для этого были веские причины. Еще больше это характеризуется обоснованностью национально-нравственного мышление. В ярких образцах творчества И. Эфендиева, Ю. Самедоглы, Анара, Эльчина, Сулейманлы, В. Насиба и т.д формируется основная картина. Идеологическое представление определяемое как политическая доктрина концепции соцреализма непосредственно привело к созданию противоположного мнения о национальной- нравственности. Такие задачи как "человек советского времени", "культурный герой"и т.д выступали в качестве требований в художественной среде. Художественная проза 60-ых годов вызывает интерес определением и усилением великолепного направления сосредотачиваясь на употребление архетипов и особенности стиля. Целеенаправленный анализ паттернов мышления и памяти, разрушенных мифами и эпопеями, обусловлен архетипами, этнографическим уровнем архаической памяти. Степень, в которой они сохранили себя в художественном поколении, породила новое поколение воображения с его функциональной сущностью в 60-80-х годах. Основываясь на схеме текст/текст текст/среда текст/субъект способствовал течению художественного процесса.

Ключевые слова: Художественная проза 60-ых годов, новая проза, архетип, аспекты метафорического содержания в прозе, особенности выразительности национально нравственных ценностей и т.д.

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiy elmləri doktoru, professor Mahmud Allahmanlı
tərəfindən çapa tövsiyə olunmuşdur

QÖNÇƏ SƏFTƏROVA
Sumqayıt şəhər Təfəkkür liseyinin direktoru
goncha83@yahoo.com

AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATINDA İLAN KULTUNUN MİFOLOJİ SƏCİYYƏSİ

Xülasə

Müəllif məqalədə Azərbaycan və türk xalqlarının folklor yaradıcılığında kultların, o cümlədən ilan kultunun səciyyəvi əhəmiyyəndən söhbət açır. Dünya, türk və eləcə də Azərbaycan folklorunda müxtəlif kultlara rast gəlmək mümkündür. Kult – mürəkkəb ritual-mifoloji sistemdir. Təbiət kultları arasında türk mifoloji fikir tarixində mühüm yer tutan kultlardan biri də ilan kultudur. İlan kultu Azərbaycan folklorunda, xüsusilə, nağıl və əfsanələrdə özünə daha çox yer etmişdir. İlanın demonik qüvvələrə yaxınlığı, hətta özünün bu tipdə görünüşü, ona sabitlik mərhələsini keçməmiş varlıqları özündə təcəssüm etdirməsi ilə bağlıdır. İlan kultunun spesifikliyi xaosun və kosmosun ilkin başlanğıcı kimi bilinən sular dünyası ilə bağlılıqda da özünü göstərir. Qədim Azərbaycan inancında ilan torpağın altında yaşayan yer ilahəsinin simvolu hesab edilirdi. Məlum olduğu üzrə, ilan ildə bir dəfə yaz-yay aylarında qabığını dəyişir, yenilənir, gözəlləşir. Sanki bu aylarda ilanlar daha çox gözə dəyərək bu yenilənməni nümayiş etdirirlər, insan olan yerlərə üz tuturlar. Bu xüsusiyyətinə görə xalqımızın yaşlı nümayəndələri arasında ilanı məleykəyə bənzədənlər də var.Müəllif həmçinin qeyd edir ki, təbiət kultları universal xarakter daşıyır və bütün dünya xalqlarının inancında özünəməxsus yer tutur. Bu baxımdan ilan kultu da xalqımızın inancında özünə yer etmişdir. Belə ki, nağıl, əfsanə, əsatir və rəvayətlərimizdə ilana münasibət birmənalı olmamış, bəzən ilanın toxunulmazlığı, xeyirxahlığı haqqında, bəzən isə əksinə şər qüvvələrin təmsilçisi kimi fəsadlar törətməsinə bir-birindən fərqli nümunələr yaradılmış ("İlanın ağına da lənət, qarasına da" və s.) və yaddaşlarda iz qoymuşdur. Müəllif əfsanə, əsatir, rəvayət və nağıllardan gətirdiyi konkret nümunələrlə ilan kultunun xalqımızın inancında tutduğu mövqeyi əsaslandırmağa çalışır.

Açar sözlər: kult, mifologiya, nağıl, əsatir, rəvayət, folklor

Bu gün Azərbaycan xalqının ictimai-siyasi, iqtisadi və milli-mənəvi həyatında müstəqilliyin əldə olunması ilə bağlı bir çox dəyərlər və ənənələr bərpa olunur. Onlardan biri də əsrlər boyu xalqımızın inanc yeri və adət-ənənəsinin böyük bir hissəsini təşkil edən kultlardır. Azərbaycan xalqının şifahi və yazılı ədəbiyyatının formalaşmasında bir çox xalqlar iştirak etsə də, əsas yeri türk xalqları tutub. Bunu ortaq ədəbi mənbələrin mövcudluğu ilə də sübut etmək olar.

Dünya, türk və eləcə də Azərbaycan folklorunda müxtəlif kultlara rast gəlmək mümkündür. Kult – mürəkkəb ritual-mifoloji sistemdir. Təşəkkül tapdığı vaxtdan ənənəvi düşüncə və onu reallaşdıran mədəniyyətin tərkib hissəsidir. Kult latın sözü olub, clore-becərmək, ehtiram etmək və cultus-becərilməsi, baxılması, ehtiram edilməsi mənasını verir. "Folklor dünyagörüşü və onun mətn reallaşması mürəkkəb və zəngin hadisədir. Müxtəlif simvolik davranış kodlarının (söz, hərəkət-jest, sehr və s.) mürəkkəb sintezi olaraq meydana çıxan folklorun məna, məzmun və forma zənginliyi əsas etibarilə onun arxetipik strukturu ilə şərtlənir. Bu struktur onu birbaşa olaraq mifologiyaya – əsasında təbiət kultlarının da geniş yer aldığı arxaik təsəvvürlər sisteminə bağlayır" [8, 3]. Kult "tanrıların, mədəni qəhrəmanların, nəslin ilk nümayəndəsinin, ilahiləşdirilmiş bütün varlıqların icmadakı müqəddəslik mövqeyinə ehtiram göstərilməsi, çətin anlarda onlardan kömək istənilməsi və xatirələrinin ədəbiləşdirilməsinə yönələn kollektiv və fərdi dav-

ranış növüdür, kultun daşıyıcısının fövqəltəbiiliyinə olan inama əsaslanır. Kult bir sıra xüsusiyyətləri ilə rituallara yaxınlaşır" [11, 322]. Lakin kultlar rituallardan fərqli olaraq, hər an insanların ehtiyac və istəklərinin həyata keçirilməsi vasitəsinə çevrilə bilir. Rituallar ilin müəyyən vaxtlarında, müəyyən mühüm hadisələrin ildönümü ilə bağlı olaraq icra olunurdu. Kult ayinlərinin keçirilməsində isə məhdudiyyət və konkret vaxt anlayışı olmur, cəmiyyət üzvləri fərdi və ya kollektiv şəkildə müqəddəs hesab etdikləri yerlərdə və müqəddəs hesab etdikləri kultların şərəfinə qurbanlar kəsə və müxtəlif ayinlər icra edə bilərlər. Ona görə də ilkin inanışlarda kultlarla bağlı çoxlu sayda miflərin yaradılması təəccüb doğurmamalıdır. Fikrimizcə, gözə görünən canlı və cansız varlıqların kultlaşdırılması ibtidai insanın təbiət hadisələri qarşısında olan acizliyi ilə bağlı idi və zamanla bu kult anlayışlarının çoxunun da sıradan çıxması müxtəlif daha təkmil dinlərin yaranması və cəmiyyətin sürətli inkişafı ilə bağlı idi. Araşdırmalar göstərir ki, əski çağ düşüncəsi üçün dünyanı dərkin başlıca vasitəsi gerçəkdən də mifoloji obrazlar olmuşdur. Lakin müasir insan mifə yaddır, müasir dünyada mifik düşüncə etibarını itirsə də, kultlar, totemlər, inanclar hələ də müasir insanın yaddaşında öz izlərini qoruyur.

Kultların araşdırılması zamanı tədqiqatçılar əsasən onları iki yerə bölməyə üstünlük vermişlər: cansız təbiət obyektləri ilə bağlı inamlar, canlı təbiət obyektləri ilə bağlı inamlar. Cansız təbiət obyektlərinə tapınışla bağlı olan inamlara cansız təbiət ünsürləri – göy cisimləri, dağ, bitki, su kultları ilə bağlı inamlar, canlı təbiət obyektlərinə isə türk kosmoqoniyasında əsas yer tutan qurd, ilan, at, keyik, ceyran, maral, o cümlədən quş kultları ilə bağlı inamlar aid edilir.

Ümumiyyətlə, folklorşünaslar qeyd edirlər ki, folklorda təbiət kultlarıyla bağlı inamların öyrənilməsi mürəkkəb bir məsələdir. Buna səbəb kimi isə problemə ən müxtəlif yönlərdən yanaşma imkanlarını göstərirlər. Azərbaycan şifahi xalq yaradıcılığında kultlarla bağlı müxtəlif forma və şəkilli inanclar mövcuddur. Azərbaycan nağıllarında isə bu inancların öyrənilməsi çox geniş və zənginliyi ilə fərqlənir. Xüsusilə, türk mifik düşüncəsində özünəməxsus yer tutan qurd, ilan, at, geyik, ceyran, maral, eləcə də quş kultlarının (Zümrüd, Simurq) öyrənilməsi.

Təbiət kultları universal xarakter daşıyır və bütün dünya xalqlarının inancında özünəməxsus yer tutur. 11 iqlim qurşağından 9-nun Azərbaycan ərazisində mövcud olması, burada rəngarəng landşaftın, flora və faunanın olmasına imkan yaradır. Belə məhsuldar, çiçəklənən, günəşli, odlu-alovlu torpaqda müxtəlif ayinlərin icrası ilə xarakterizə olunan təbiət kultlarının olması təəccüb doğurmamalıdır. Bunlar arasında türk mifoloji fikir tarixində mühüm yer tutan kultlardan biri də ilan kultudur. İlan kultu Azərbaycan folklorunda, xüsusilə, nağıl və əfsanələrdə özünə daha çox yer etmişdir. "İlanın demonik qüvvələrə yaxınlığı, hətta özünün bu tipdə görünüşü, ona sabitlik mərhələsini keçməmiş varlıqları özündə təcəssüm etdirməsi ilə bağlıdır. İlan kultunun spesifikliyi xaosun və kosmosun ilkin başlanğıcı kimi bilinən sular dünyası ilə bağlılıqda da özünü göstərir... İlan kultunu şərtləndirən qabarıq cizgilərdən biri də ilanın yeraltı ölülər aləminin qoruyucusu rolunda çıxış etməsidir. Yeraltına, ölülər dünyasına xüsusi ehtiram göstərən Azərbaycan türkləri, ilanın yeraltına bağlılığını nəzərdən qaçırmamış, onu sakrallaşdırmış, bütün yaxşı və pis tərəfləri ilə folklor yaradıcılıqlarına daxil etmişlər" [8, 9].

İslamaqədərki inanclarda ilan kultunu əsasən torpaqla, yeraltı dünya, ölülər və ruhlar aləmi ilə bağlayan tədqiqatçılar üzərində ilan təsviri olan əşyaların cənazəylə bərabər dəfn edilmək üçün nəzərdə tutulduğunu qeyd edirdilər. Qədim xalqların inancında ilan ruhların hamisi və yol göstərəni hesab edilmişdir. O, ruha qarşısına çıxan çətinliklərin öhdəsindən gəlməyə kömək edir və axirətə qovuşdurur. Orta Asiya insanının inancına görə Günəş tanrısı öz elçilərini yer üzünə ilan şəklində göndərir, elə məhz bu səbəbdən də ilan müqəddəsdir.İlan (əfsanəyə əsasən şeytan ilan cildinə girir) Adəm və Həvvanı aldadaraq, qadağan olunmuş meyvəni yemələrinə nail olur, beləliklə də, insanın ilk düşməni hesab edilir. Cənnətdən Adəm və Həvvayla bərabər qovulan ilana dünyada cəfa çəkməsi əmr edilir. Bu Tövratdan üzübəri xristian və islam alimləri tərəfindən qəbul edilmişdir. Amma nə İncildə, nə də Quranda belə detallı bir məsələ öz

əksini tapmayıb. İlan səmavi dinlərdən öncə çoxtanrılı dinlərdə özünəməxsus yer tutmuşdur. Yunan mifologiyasında Hermesin əsasında üz-üzə dayanmış iki ilanın təsviri onun zəhərinə və zəhərindən əldə edilən antizəhərə işarədir. Bu gün də həmin əsa tibbin simvolu sayılır. Yenə də yunan mifologiyasının önəmli xarakterlərdən Meduzanın saçlarının yerinə başında ilanların qaynaşması maraqlı bir detaldır. Misir mifiologiyası və tarixində ilana bir çox yerlərdə rast gəlinir. Fironların baş geyimlərində yer alan kobra motivi buna çox önəmli nümunədir. Fikrimizcə, bu başçının mütləq, güclü və hüdüdsuz hakimiyyətinin simvolu kimi xarakterizə oluna bilər. Uzaq Şərqdə (Çin, Yaponiya, Koreya və s.) müqəddəs sayılan əjdaha kultunun da ilan kultunun bir variantı olması maraq doğurur. Ortaq türk abidələri sayılan "Bilqamıs" və "Kitabi-Dədə Qorqud" dastanlarında da ilanla bağlı maraqlı məqamlar öz əksini tapmışdır. Belə ki, ölümsüzlük çiçəyini Bilqamısdan oğurlayan ilan əbədi həyata qovuşur. Burda ilanın acgözlüyü, dünyanın qayda-qanunları ilə razılaşmamsı kimi maraqlı bir xüsusiyyəti ortaya çıxır. Bu da onun qədim insanın düşüncəsində həm də demonik qüvvə olması faktını ortaya çıxarır. Dədə Qorqud əcəldən qaçmaq üçün hər şeyi edir, lakin ölüm ilan cildində onu tapır. Bənzər motiv Avropa xalqlarının da foklorunda özünə yer alır. Qədim Azərbaycan inancında ilan torpağın altında yaşayan yer ilahəsinin simvolu hesab edilirdi. Məlum olduğu üzrə, ilan ildə bir dəfə yaz-yay aylarında qabığını dəyişir, yenilənir, gözəlləşir. Sanki bu aylarda ilanlar daha çox gözə dəyərək bu yenilənməni nümayiş etdirirlər, insan olan yerlərə üz tuturlar. Bu xüsusiyyətinə görə xalqımızın yaşlı nümayəndələri arasında ilanı məleykəyə bənzədənlər də var. Bütün bu qeyd olunanlarla yanaşı nağıl, əfsanə və rəvayətlərimizə diqqət yetirəndə aydın görə bilərik ki, ilan həm də burada xeyir-bərəkət, ev-ocaq yiyəsi, həmçinin təbiətin müxtəlif sirlərini bilən bir varlıq kimi öz əksini tapmışdır. Burada diqqəti cəlb edən maraqlı cəhətlərdən biri də nağıl və əfsanələrdə ilanın əsasən müsbət obraz kimi verilməsidir. Demək olar ki, ilanlar heç bir zaman ziyan vermir, əksinə qəhrəmanı dar məqamlarda xilas edir, çox vaxt onların var-dövlətə, müdrikliyə çatmasına kömək edirlər. Nağıl və əfsanələrimizin bir çoxunda ilan sayəsində qəhrəman qızıl, pul, maldövlətlə yanaşı, sehirli qabiliyyətlər də əldə edir.

Bundan başqa, Azərbaycanda el arasında ilanla bağlı olduqca arxaik bir inanc da mövcuddur. Bu da ilanların "ocaq ilanı" və "ev ilanı" kimi təsvir olunması ilə bağlıdır. Ocaq ilanı başqa ilanlardan böyük və ağ rəngdə olur. Onlar yeddi qardaş şəklində təsvir olunurlar və adətən yaşayış məntəqələrinə yaxın yerlərdə məskən salırlar. Həmin yerlərin əhalisi onlara dərin hörmət bəsləyir, süd, duz, su, çörəklə qidalanmaları üçün şərait yaradır. Xalq arasında inanca əsasən, kim onlara bilərkdən ziyan versə, mütləq cəzasını çəkməli olurdu.

"Ev ilanı" da mifologiyada rastlaşılan bir anlayışdır. O, daha xeyirxah missiyalı olub evi qoruyur, digər zərərverici ilanların evə daxil olmasına mane olur. Belə ki, ilanlarda uzaqdan birbirinin qoxusunu duyaraq, yaxınlaşmamaq kimi bir instinkt var.

Bəzi inamlarda ilan ev yiyəsi kimi çıxış edir. Bu zaman ilana toxunmaq, ona zərər yetirmək olmaz. Tədqiqatçı B.Abdulla yazır ki, bizdə bir tərəfdən "Hər evin öz ilanı var", "İlan olan evdən xeyir-bərəkət kəsilməz", "Yuxuda ilan görsən, arzuna çatarsan" və s. deyib ilan pirlərinə, sehirli aləmin sirlərini onların adamlara öyrətmələrinə inanılmış, digər tərəfdən isə ağ olsun, istərsə də qara təfavütü yoxdur. "İlan görənə lənət, görüb öldürməyənə lənət, öldürüb basdırmayana lənət" demiş, hətta onu 3, 7, 40 başlı bilib bulağın, çayın qarşısını kəsən, susuzluq, quraqlıq yaradan qüvvə sayılmışdır [1, 126].Azərbaycan nağıllarından – "Taxta qılınc", "Dad Xanpərinin əlindən", "Qızıl ilan", "Daş üzük", "Əhməd", "Çil madyan", "Ovçu Pirimin nağılı", "İlan və qız", "Zəmanənin hökmü", "Yaxşılığa yaxşılıq", "Qızıl balıq" və s., əfsanələrindən – "İlan və elçi daşı", "İlan çobanı köməyə çağırırmış", "Qızıl ilan və gözəl qız", "Xilaskar ilan", "Ağ ilan əfsanəsi", "Zümrüd quşu və ilan", "Gülzarı ilan da sevir", "Qarpız", "İlanların müharibəsi", "İlan və qaranquş" və sairələrində ilan kultunun səciyyəvi xüsusiyyətləri aydın şəkildə öz əksini

tapmışdır. Bu nağıl və əfsanələrdə ilanın müxtəlif funksiyaları üzə çıxmış olur. "Həmin funksiyalar aşağıdakılardır:

1. İlan insana dil bilmək qabiliyyəti bəxş edir;
2. İlan insana sehr yaratmaq gücü verir;
3. İlan insana çevrilə bilir" [8, 102].

Birinci funksiyada ilan insana dil bilmək qabiliyyəti bəxş edir. "Ovçu Pirimin nağılı"nda ağ ilan padşahının qızını qara ilandan qurtaran Ovçu Pirim xeyirxahlığı qarşısında ilanlar padşahından "yaşıl qaşlı üzüyü və ağzına tüpürməsini" istəyir. Üzüyün sayəsində "ürəyi nə istəyirsə əldə edə biləcəyi" halda, "ilanın sehirli tüpürcəyi" sayəsində "cəmi quşların, heyvanların, otların dilini biləcək". Bircə bu sirrin heç kimə açılmaması isə ilanın Ovçu Pirimin qarşısına qoyduğu şərt olur. Burada olunan yaxşılığı unutmayan ilan xeyirxah obraz kimi çıxış edir. "İlan və elçi daşı" əfsanəsində də oxşar motiv öz əksini tapmışdır.

"Taxta qılınc" adlı nağılda ilan qarşımıza tamamilə başqa bir funksiyada çıxır. Belə ki, ona edilmiş yaxşılığın qarşısında o şah oğlunun həyatını qurtarmaq üçün insana çevrilir. Taxta qılınc adıyla şah oğluna xidmət edən ilan onu həm böyük sərvət sahibi edir, həm də çox gözəl bir şah qızı ilə evlənib xoşbəxt olması üçün əlindən gələni əsirgəmir. Bu barədə öz tədqiqatlarında danışan görkəmli alim M.Seyidov qeyd edir: "Taxta qılınc" nağılının ilk süjet quruluşunu, heç olmasa həmin səpkili nağıllardakı fikrin yaranma tarixini, ilan onoqonunun yavaş-yavaş başqa bir onoqonla əvəz olunduğu keçid dövrü ilə əlaqələndiririk" [12, 20]. Lakin indiki elmi prizmadan yanaşsaq görərik ki, tədqiqatçı ilanı onoqon hesab etsə də, burada ilan yalnız kult səciyyəli görsənir."Ümumiyyətlə, ilanın türk mifoloji və folklor mətnlərindəki yeri onun kult olması ilə izah olunur. İlanın bəzi tədqiqatlarda totem hesab olunması da ilan kultunun – ilan ətrafında yaradılmış ritual-mifoloji kompleksin təzahürüdür" [8, 102].

Burda qarşılaşdığımız cilddəyişmə motivi xalq nağıl və əfsanələrimizdə çox maraqlı şəkildə öz əksini tapmışdır. Bu motiv, yəni insanın müxtəlif heyvanlara, yaxud da əksinə heyvanların insana çevrilməsi faktı dünya xalqlarının arxaik düşüncəsində yer alan maraqlı faktordur. "Qu cildli pəri", "Qurbağa qız" (Yuqoslaviya), "Bənövşəyi ilan" (İndoneziya), "Pərinin paltarı" (Koreya), "Çar Dada Seqbonun qızı" (Afrika), "Bazubəndin nağılı", "Qah-qah dağında üç xiyara aşiq olasan" (Azərbaycan) və sair kimi dünya xalqlarının nağıllarında bu mifik motivin izlərini aydın görmək olar" [2, 10].Maraqlıdır ki, "Qızıl balıq", "Taxta qılınc" nağılında da sonluqlar təxminən eyni şəkildə tamamlanır. Bu kimi xalq nağıl və əsatirlərində şahzadə xanımın ağzından çıxan ilanın öldürülməsi ilə müsbət qəhrəman şər üzərində qalib gəlir. Burada şamanizmin də izləri görünməkdədir. Belə ki, şər qüvvənin insan bədənindən qovulması, kənarlaşdırılması faktı ilə qarşılaşılır. "Qızıl ilan və gözəl qız" və "Qızıl ilan" əfsanələrində də ilanın cildini dəyişərək aşiq olduğu qızla görüşməsi və bunun acı sonluğu öz əksini tapır. Qeyd edək ki, ilana ərə getmək məsələsi də nağıllarımızda qarşılaşdırğımız maraqlı məqamlardan biridir. Məsələn, "İlan və qız" nağılında kiçik qız atasının öldürülməməsi üçün ilana ərə getməyə razılıq verir. İlan qızı evinə gətirəndən sonra cildini dəyişir və gözəl bir oğlana çevrilir, onlar gözəl bir ailə qururlar. Lakin xoşbəxtlik uzun sürmür. Böyük bacıların təlqin etməsi ilə qız oğlanın ilan cildini yandırır. Bundan sonra qız ilan oğlanı tapmaq və xoşbəxtliyə nail olmaq üçün uzun müddət mübarizə aparır, müxtəlif ağır sınaqlardan çıxmaq məcburiyyətində qalır. Dünya xalqlarının folklorunda bənzər motiv öz əksini tapmışdır. Bu baxımdan, qədim Roma əfsanəsi "Amur və Psixeya" daha səciyyəvidir. Əfsanələrimizin bir qismində ilan ağac kultu ilə birgə əks olunur. Belə ki, ilan ya kola, ya da ağaca çevrilir. Adətən, ilan uzun və gözəl qız hörüklərinin arasında yatır, ya da qızın qara, uzun hörükləri ilana çevrilir. "Abduləsər dağı" və "İlan məhəbbəti", "Qız və ilan" əfsanələrində bu motiv aydın şəkildə əks olunur. "Qız və ilan" əfsanəsində şahın gözünü ağı-qarası qızı qızılgül kolunun dibində yatır və kol ilana çevrilir. Qız ilana aşiq olur. Qız gedəndən sonra ilan yenidən qızılgül koluna çevrilir və onun yolunu gözləyir.

"Daş üzük" nağılında da ilan yenə sehirli gücü olan xeyirxah obrazdır. Nağılda ilanlar padşahının qızını bağlı yeşikdən xilas edib azadlığa qovuşduran Keçəl bu dəfə onun atasından çətinliklə də olsa, sehirli daş üzüyü almağa nail olur.

"Əhməd", "Dad Xanpərinin əlindən" adlı nağıllarda isə ilan yenə də maraqlı funksiya yerinə yetirir. Belə ki, burada onlar əzazil, deyingən arvadlardan qorxan, insan kimi danışan və sehirli gücləri olan heyvanlardır. Onlar dilə gəlib ya çoban Əhməddən, yaxud da Xanpərinin ərindən pənah umurlar. Əlbəttə, olunan yaxşılığı da unutmur və yenə də insanlara kömək edirlər. "Əhməd" nağılında quyunun başına gələn çoban orada bir arvad və bir ilan olduğunu görür. "...ilan çobanı görən kimi dil açıb dedi:

- Çoban, sənə qurban olum, məni qurtar bu arvadın əlindən, ta baş-beynimi aparıb.

Doğrudan da quyuda bir arvad var idi ki, Əflatun bu arvadın əlinə düşsəydi, çürüyüb ölərdi. Çoban baxıb gördü ki, doğurdan da ilan arvadın əlindən az qalıb ölə..." [5, 261]. Çoban ilanı quyudan xilas edir və bunun qarşılığında ilan ona sehirli bir kisə və bir papaq verir.

"Dad Xanpərinin əlindən" nağılında arvadından bezmiş kişi onu quyuya atır, orada arvadından təngə gəlmiş ilanı isə xilas edir. Burdan da ilanın Azərbaycan nağıl və əfsanələrində fəaliyyəti başqa mifik obrazlardan fərqlənir, bir şəxsin, yaxud da bir ailənin taleyi ilə bağlı səciyyə daşıyır. "Çil madyan" adlı nağılda ilan səciyyəvi xarakter daşıyan bir obraz deyil. Bəzi əsatirlərdə olduğu kimi burada ilan xəzinənin keşiyini çəkən mənfi surətdir. Əlbəttə, bu şəraitdə o, qəhrəmana məğlub olmalıdır. Nağılın qəhrəmanı İlyas da ağıllı bacısının məsləhəti ilə ilanın yaşadığı dağa gedir, ona qalib gəlir və onun qoruduğu qızıl sandığı şah oğluna gətirir.

"Qızıl ilan" və "Zəmanənin hökmü" adlı nağılların ideyası, əgər belə demək mümkündürsə, oxşardır. Yaxşılıq edən ilana qarşı insan nankor mövqedə dayanır, əvvəlcə qardaşlıq söz verir, lakin sözünün üstündə durmur və xəyanət edir. "Qızıl ilan" nağılında kasıb kəndliyə hər gün bir ləl verib onun yaxşı dolanmasına kömək edən ilan kəndlinin oğlu tərəfindən öldürülmək təhlükəsi qarşısında qalır. Oğlan ilanı quyruğundan yaralayır, bunun qarşılığında isə qızıl ilan kəndlinin oğlunu çalıb öldürür. Sonradan onun yanına gələn kəndliyə isə çox müdrik cavab verir: "... Bizim aramızda olan sirri özgəsinə verdin, indi hanı mənim quyruğum, hanı sənin oğlun? Munnan sora bizim dostlığımız tutmaz. Sənin sinəndən oğul dağı getməz, mənim sinəmnən quyruq dağı getməz" [5, 295].

Qeyd etməliyik ki, bizim nağıllarımızdan fərqli olaraq dünya xalqlarının folklorunda ilan daha çox şərin mövqeyində durur. Maraqlı cəhətlərdən biri də budur ki, dünya folklorunda ilan adətən xəzinənin qoruyucusu kimi mənfi obrazda çıxış edir, qəhrəman tərəfindən döyüşdə öldürülür. Azərbaycan nağıllarında isə ilan xeyirxahdır, qurtarıcıdır.

İlana pərəstiş etmənin izlərinə müxtəlif etnosların mədəniyyət və inanclarında fərqli variantlarda rast gəlinir. Folklorumuzda ilanın mənfi qüvvə kimi verilməsi nisbətən yaxın dövrün məhsulu olub çox az hallarda təsadüf olunur. Məsələn, "Yaxşılığa yamanlıq" adlı nağılda ilan artıq düşmən obrazındadır. Onu bağlı qutunun içində yanmaqdan xilas edən kəndlini çalmaq istəyir. Kəndlinin "yaxşılığımın əvəzi bumu olmalıdır?" sualının qarşısında ilan onun boğazını daha da sıxıb deyir: "- Nahaq yerə mənə yaxşılıq eləmisən. Niyə, bilmirdin ki, biz nəsil yaxşılıq qabağında pislik elərik? Yaxşılığın əvəzində səni vurub balalarını yetim qoyacağam" [6, 245]. Burada ilanın mənfi qüvvə kimi verilməsi mifoloji təfəkkürdəki bədxahlığı ilə bağlıdır. Təəccüblüsü də odur ki, bu nağılda hiylələri ilə insana qalib gələn tülkü bu dəfə hiyləsilə kəndliyə zərər verməyə çalışan ilana qalib gəlir və kəndlinin həyatını qurtarır. Kəndliyə isə bu sözləri deyir: "- A kişi, yaxşılığa yaxşılıq hər kişinin işidi. Amma yamanlığa yaxşılıq hər ötənin işi deyil. Fürsəti fövtə vermə, bu gavuru tez öldür, canın qurtarsın" [6, 247]. Əlbəttə, insan oğlu da bu yaxşılığı unutmur, vaxtı çatanda tülkünün həyatını qurtarmaqla ona olan borcunu ödəyir.

"Beləliklə, ilan obrazının Azərbaycan-türk folklorundakı yeri nağıl və əfsanələrin üzə çıxardığı sakral görüşlərin mahiyyəti ilə sıx bağlı olan bütöv kult simvolikası kontekstində izahını

tapır. İlanın obraz kimi genezisinin tapılması asan məsələ olmasa da, onun mifik köklərə malik olması, ətrafında kult (tapınış – sitayiş) sisteminin qurulması heç bir şübhə doğurmur" [8, 107].

Deyilənlərdən də aydın olduğu kimi, ilan kultu xalqımızın inancında özünə yer etmişdir. Belə ki, nağıl, əfsanə, əsatir və rəvayətlərimizdə ilana münasibət birmənalı olmamış, bəzən ilanın toxunulmazlığı, xeyirxahlığı haqqında ("Yuxuda ilan görsən, arzuna çatarsan"), bəzən isə əksinə şər qüvvələrin təmsilçisi kimi fəsadlar törətməsinə bir-birindən fərqli nümunələr yaradılmış ("İlanın ağına da lənət, qarasına da" və s.) və yaddaşlarda iz qoymuşdur.

Ədəbiyyat

1. Abdullayev B. Haqqın səsi. Bakı: Azərnəşr, 1989, 136 s.
2. Ağbaba A. Mifologiya. Dərslik. Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2019, 242 s.
3. Azərbaycan nağılları. 5 cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005, 360 s.
4. Azərbaycan nağılları. 5 cilddə. II cild. Bakı: Şərq-Qərb, 2005, 296 s.
5. Azərbaycan nağılları. 5 cilddə. III cild. Bakı: Şərq-Qərb, 2005, 296 s.
6. Azərbaycan nağılları. 5 cilddə. IV cild. Bakı: Şərq-Qərb, 2005, 336 s.
7. Azərbaycan nağılları. 5 cilddə. V cild. Bakı: Şərq-Qərb, 2005, 304 s.
8. Əlizadə R. Azərbaycan folklorunda təbiət kultları. Bakı: Nurlan, 2008, 176 s.
9. Əliyev R. Mif və folklor: genezisi və poetikası. Bakı: Elm, 2005, 222 s.
10. Əsatirlər, əfsanələr, rəvayətlər. Bakı: Şərq-Qərb, 2005, 302 s.
11. Qafarlı R. Mifologiya. Mifogenez: rekonstruksiya, sturkur, poetika. 6 cilddə, I cild. Bakı: Elm və təhsil, 2015, 454 s.
12. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 324 s.

Г.Сафтарова

Мифологичекие аспекты культа змеи в устном народном творчестве азербайджана

Резюме

Автор статьи раскрывает значение культов, в том числе и культа змей в фольклоре азербайджанского и турецкого народов. Культ - это сложная ритуально-мифологическая система. Одним из природных культов занимающих важное место в истории тюркской мифологической мысли является культ змеи. В связи с этим в азербайджанской мифологии, особенно в сказках и легендах культу змеи уделяется много внимания. Близость змеи к демоническим силам, даже его внешнее сходство с ними связана с воплощением в образе змеи существ занимающих переходную позицию между добром и злом. Специфичность культа змеи проявляется и в его связи со стихией воды, как символа первичного хаоса и космоса. В верованиях древнего Азербайджана змея так же символизирует живущую под землей богиню земли. Как известно змея один раз в году в весенне-летние месяцы меняет свою кожу, обновляется, становится красивее. В этот период змеи все больше попадаются на глаза и подбираются ближе к домам людей, как бы демонстрируя это обновление. Из-за этой особенности среди нашего народа есть пожилые люди, которые сравнивают змей с ангелами. Автор также отмечает и то, что культы носят универсальный характер и играют особую роль в верованиях народов мира.

С этой точки зрения культ змеи занимает особое место в системе верований нашего народа. В азербайджанских сказках, мифах, легендах и преданиях встречаются примеры неоднозначного отношения к змее, когда змея выступает как символ доброты или зла, что нашло свое отражение в народной памяти. На конкретных примерах, взятых из азербайджанских мифов, легенд и сказок автор пытается обосновать место змеиного культа в представлениях нашего народа.

Ключевые слова: культ, мифология, сказка, миф, легенда, фольклор

G.Saftarova

The mythological aspects of the snake cult in azerbaijan folklore

Summary

Author discussed the kult (worship) in folk creature of Azerbaijan and Turkish and also importance of snake kult. It is impossible to meet different worships in world, Turkish and Azerbaijan folk. Kult (worship) is the complex ritual mythic system. One of the cults that plays an important role in the history of Turkish mythology among natural cults is the snake cult. The snake cult has made more of its place in Azerbaijani folklore, especially in fairy tales and legends. The snake's proximity to the demonic forces, even its own appearance, is due to the fact that it is the creature that has not passed the stage of stability. The specificity of the snake cult is also related to the chaos and the world of water, which is known as the initial beginning of space. Ancient Azerbaijan believed that the snake was a symbol of the earth god living under the soil. It is known that once a year, during the summer, the snake changes its bark, regenerates and becomes beautiful. As in these months, snakes are more prominent and show off this renewal, turning to where human beings are. Because of this feature, there are also some snake-like creatures among the older people of our nation. Author also noted that the nature kult has the universal character and take a special place in all worlds trust. From this point of view, snake kult has also took special place in our people’s trust. Thus, love to snake exists in our the stories, legends, myths and tales, gave examples on untouchable of snake, kindness but sometimes vice-versa representer of harness, badness. (Damn to white snake or black snake).

Author tried to base on snake kult in people’s trust with concret samples on stories, legends, myths and tales.

Key words: cult, mythology, fairy tales, myths, legends, folklore

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 21.09.2019
Filologiya elmləri doktoru, professor Məhəmmədəli Mustafayev
tərəfindən çapa tövsiyə olunmuşdur

VESİLE ŞEMŞEK
ORCİD: 0000-0002-9800-4557 Dr. Öğretim Üyesi, Kastamonu Üniversitesi,
İlahiyat Fakültesi, İslam Tarihi Bölümü,
vsemsek@gmail.com

RUS EDEBİ SIMALARINDAN L.N.TOLSTOY VE İSLAM PEYGAMBERINE DAİR GÖRÜŞLERİ

Özet

Rus mütefekkir, filozof, pasifist, eğitim reformcusu, kısa öykü ve oyun yazarı Tolstoy Lev Nikoloyeviç, dünya edebiyatında iz bırakan klasiklerdendir. Özellikle, gerçekçi kurgu çerçevesinde Rusya'nın ve dünyanın önemli yazarları sırasında yer alan Tolstoy, sanatının ''Altın Çağı'' adlandırılan dönemde edebiyat tarihine önemli eserler miras bırakmıştır. Türk edebiyatının Tolstoy ile tanışması XIX. Yüzyılın sonunda yeni harfler gelince gerçekleştiği ve yazarın çok sayıda eseri Türkçe ye tercüme edilerek yayımlandı. Tolstoy , amaçsız sanatın olmadığını , sanatın ise başlıca amacının insanlar arasındaki ilişkilerin düzenlenmesine yardım etmesi gerektiğini savunarak, sanatın bu ilişkilerin düzelmesine önemli rol oynadığından bahsetmektedir.

Tolstoy, yaşam süreci boyu, Rusya'da meydana gelen siyasi ve kültürel olayları ayna misali eserlerine yansıtarak dönemine ışık tutmakta idi. Onun eserleri Çarlık Rusya'sından, Devrim Rusya'sına ilerleyen süreci birçok yönüyle gözler önüne serer. Bu yalnızca dış gerçek açısından değil, iç gerçek ya da bilinçaltı açısından da büyük önem taşır. Dahası bu yönüyle öncüdür.

Çağının en büyük romancısı olan Tolstoy, J.J. Rousseau gibi, insanların ahlakını bozan sanata düşmandı. Zorbalığa ve büyük mülkiyete karşıydı. Mülkiyet konusunda ailesiyle arası açıldı. Bunun için varını yoğunu köylülere dağıtırken, eserlerinin telif ücretinin dağıtılmasına sıra geldiğinde karısı buna engel olur. Bu çalışmanın amacı, Rus yazarın, hayatı, eserleri, edebi kimliği hakkında genel hatlarıyla bilgi vermek ile birlikte, Tolstoy'un, İslam Dini ve onun peygamberine yönelik yaptığı araştırmaları derleyerek yazarın, bu çalışmalar sonuncunda vardığı kanaatini ortaya çıkarmaktır. Yazar, hayatının son dönemlerinde dinlerin hakikatlerine yönelik tatminsizlikten dolayı geçirdiği ruhsal bunalımlar onu, yeni din arayışına sevk eder. Yaptığı araştırmalar ve yaşadığı tecrübeler sonucunda, İslam dini ve onun peygamberi ile tanışan yazar, bu konuya dair ciddi verilere ulaşarak ve kendini ve etrafını aydınlatan düşünceleri ve yorumları ile buna değer kattığı söylenebilir.

Anahtar Kelimeler : mütefekkir , edebiyat, eserler, peygamber, din

Lev Nikolayeviç Tolstoy
Biografisi

Tolstoy, Lev Nikolayeviç, 9 Eylül 1828'de Moskova'nın güneyinde Tula vilayetine bağlı Yasnaya Polyana'da doğdu. 20 Kasım 1910'da Astopova'da yaşamını yitirdi. Annesi Prenses Mariya, Babası Kont Tolstoy'un dördüncü çocuğu olan Lev, Niolayeviç soylu, tanınmış bir ailenin çocuğu idi. Kendisi de daha sonraları ''kont'' unvanını aldı. İki yaşında annesinin dokuz yaşında babasını kaybeden Tolstoy, çocuk yaşta Kazan'a halasının yanına geldi. Halası, Aleksadra Osten Sake dinine bağlı biri olması sebebiyle, küçük çocuğun dindar kişilik kazanmasına büyük ölçüde yansıtmıştır. Bu durumu, yazarın, hayatında ve eserlerinde önemli etki bırakmıştır. Daha okul çağında Diskens, Pascal, Platon gibi büyük düşünürlerin eserini okuyarak kendini yetiştirdi. Halasının vefatına kadar onun yanında iyi bir şekilde yetişen ve eğitim alan Tolstoy, halasının ölümü üzerine kuzenleri ile birlikte diğer halası Pelegeya'nın yanına gelerek akrabaları ile birlikte yaşamaya başladı. Alman ve Fransız dillerini üzere, özel eğitim alan yazar, daha sonra eğitimini tamamlamak için bir süre Kazan Üniversitesi'nde öğrenim gördü. Ama Çarlık Rusya'sının yönetimindeki haksızlıklara karşı tepkili davra-

narak büyük direniş gösterirdi. Bu durum dayanamayan genç Tolstoy, 1847'de okulu bırakıp doğduğu topraklara Yasnaya Polyana'ya geri döndü. Babasından kalan geniş toprak arazilerini yöneterek kendi çiftliğini kurdu. Tolstoy, hayatını ilk yıllarını düzenli bir yaşam arayışında geçiriyordu ve Yasnaya Polayana'ya geldiğinde bu düzenli yaşamı hayalini burada da gerçekleştiremedi. Tekrar Moskova'ya giden yazar, bir süre burada kalarak, tarih ve edebiyat alanında da kendini yetiştirmeye başladı. Daha sonra Moskova ve Petersburg'un hareketli ortamını tercih ederek ilim tahsili devam ettirmek için buralara geldi. İlk eseri olan ''Detstvo'' (Çocukluğum) burada kaleme aldı

Tolstoy, meşakkatli geçen gençlik yıllarında, abisinin çağrısı üzerine, 1851 'de Kafkaslarda asker olan, abisi Nikolay'ın yanına giderek bir yıl orduda kaldı. Edebiyat, tarih, din ve felsefe alanlarına dair ilgi duyan yazar, bu alanlarda birçok eserin müellifi oldu. Yazar, edebiyat alanında dışında birçok tarihi öykülerin, çocuk kitaplarının, tiyatro oyunlarının da müellifi olarak tanınmaktadır. Kırım Savaşı'ndan sonra ordudan ayrılan yazar, 1857'de Fransa, İsviçre ve Almanya'ya gezileri yaptı. Bu seyahatlerden büyük tecrübeler kazanarak memleketine geri döndü. Akabinde, Yasnaya Polyana vilayetinde yaşayan köylülerin eğitimine ciddi anlamda önem vererek onların her alanda yetişmesine katkıda bulundu. Çin ve Japon devlet ilişkilerine ait yazılar yazdı. Her iki devlette özel görevde bulundu. 1858-1865 yıllarında çeşitli ülkelerde tercümanlık yaptı. 1860-1861 arasında yeni bir Avrupa gezisine çıkan yazar, bu ülkelerdeki eğitim sistemlerini inceledi. Ülkesine döndüğünde kendi imkanları ile eğitim dergisi, kolay ve anlaşılır ders kitapları yayımlamaya başladı. 1862 yılında evlilik yapan yazar, bundan sonraki on beş yılını on üç çocuklu, mutlu bir aile babası olarak geçirdi. Çiftliğinin arazisini yöneterek toprakları iyi bir şekilde işleterek tarım alanında da gelişmeler sağladı. 20 Kasım 1910'da Astopova tren istasyonundan İstanbul'a doğru yola çıkan yazar, son aylarda yakalandığı zatürenin ağırlaşması üzerine bulunduğu tek başına ıssız tren istasyonunda yaşamını yitirdi. (Büyük Sovyet Ansiklopedisi, II cilt, s. 263-264, Moskova, 1979)

Edebi Şahsiyeti

Tolstoy'un Avrupa'ya olan seyahatleri politik fikirlerini geliştirmesin yanında onun edebi sanatını da büyük ölçüde etkilemişti.1855'de Turgenyev ile tanışması, Tolstoy'un, dönemin iki önemli; ilki Batıya açık, diğeri ulusal kaynaklardan yana olan iki edebiyat grubuna hakim olmasını sağlamış oldu. Ancak, zamanla her ikisine ters düştüğü de oldu. 1857'de İsviçre, Almanya ve Fransa'yı gezdi. Bu seyahatleri sırasında büyük Fransız roman yazarı Viktor Hugo ile tanıştı. Tolstoy Viktor Hugo'nun sefiller adlı baş yapıtından müthiş bir şekilde etkilenmişti. Bu roman, Tolstoy'un 1869 da tamamladığı Barış ve Savaş baş yapıtının oluşmasında çok büyük etkiye sahipti. ''Tolstoy'un Altın Çağı'' olarak adlandırılan bu dönemde Tolstoy, Anna Karenina eserini de kaleme aldı. Tolstoy, hayatının bu döneminde edebiyat alanında önemli çalışmalara imza attı ve en değerli eserlerinden ''Çocukluk Yılları'', Savaş ve Barış (1865), Anna Karenina (1875), yazdı. Nitekim, yazarın, dünya edebiyat tarihine armağanı olan ve yedi yıllık bir emek sonucunda ''Savaş ve Barış''romanını kaleme aldı. Yine, edebiyat klasiği olan ''Anna Karenina'' eserini yazdığı sırada, uzun zaman bu eserin etkisinde kalarak geçici bunalımlar yaşayarak intiharın eşiğinden döndü. 1900'lerden sonra zamanının büyük bölümünü dini düşüncelere ayırdı. Yazar, dini düşüncelerinden dolayı büyük tepkilere maruz kaldığı gibi, daha sonraki dönemlerde büyük tartışmaların ortaya çıkmasına neden olmuştur.

2.1. Romanları

Ölümden Sonra Diriliş (1959), Kazaklar (1937), Harp ve Sulh (1988), Sergey Baba (1942), Hacı Murat (1943), Anna Karenina (1949, 1987)

2.2. Hikayeleri

''Nerede Sevgi Orada Allah'' (1834), İnsan Ne İle Yaşar (1934),Samimi Saadet—Aile Mutluluğu (1977), İvan İlyiç'in Ölümü (1935), Efendi ile Uşak(1936), Katya, (1956), Polikuşka (1946), Budala İvan—Akılsız Oğlan (1960), Balodan Sonra(1948), Kröyçei Sonat(1958), Sivastopol (1966), Üç

Ölüm Yaşayan ölü, Çocukluk, İlk gençlik, Gençlik, Gocukluk ve Ergenlik Yıllarında 1970-1985 tarihleri arasında kaleme almıştır.

Başlıca Eserleri Hakkında

Yazara ait oldukça çok sayıda eser bulunmaktadır. 36 romanı, diğerleri hikaye olmak üzere toplam yüze yakın eseri bulunmakla birlikte, eğitim alanında yaptığı reformlara dair 54 eser yazdı. Bunlardan 16 eseri Türkçeye çevrilerek yayınlanmıştır. Başlıca eserlerinde kısa olarak verildi.

3. 1. ''Savaş ve Barış'' eseri tarihi bir romanın ebedi ve sanatsal açıdan büyük yankı uyandırmasının ardından sanatçılıkta zirveye yerleştiren roman olmasıyla ayrı bir değere sahiptir. ''Savaş ve Barış'' yaşanmış tarihsel olaylara dayanması yenilikçi kurgusu ve gerçekçi karakter ve durum tasviriyle ön plana çıkıyorken toplumsal ve insan psikolojisi açısından gerçekçiliyle okuyucu kendi dünyasına çekmektedir. Toystoy'un bunu yapmaktaki başarısı, insanları ve özellikle kadın tanıyışından gelmektedir. Bunda Tolstoy'un eşi Sophia Behrs inde etkisi büyüktür. Sopiha Bers, Tolstoy-'un tüm eserlerini titizlikle incelemiş ve Tolstoy için eşsiz bir editör olmuştur (2, Voyna İ Mir, Moskova).

3.2. ''Anna Karenina'' Tolstoy bu eserinin mukaddimesine, '' Bütün mutlu aileler birbirine benzer: her mutsuz aileninse kendine özgü bir mutsuzluğu vardır.'' Tolstoy dönemin roman sanatında üstün bir konumda bulunan realizm akımının önemli temsilcisidir. Realizm akımını bir atom çekirdeği olarak düşünürsek Tolstoy bu atomu parçaları ayırır ve geri kalan tüm parçacıkları gözler önüne sunar. Dünya edebiyatındaki realizm genel olarak toplumsal durumları ve olaylara dayanmaktayken Tolstoy, tüm bunlarla beraber insan ruhunu ve davranışlarını harfler ve sözlerle resmeder. Tolstoy'un edebi ve sanatsal anlamda büyük bir isim konumuna erişmesi onun ruhsal çöküntüsüne ve bitmek bilmez memnuniyetsizliğine engel olamadı ne yazık ki, Tolstoy'un aklı fikri özellikle Rus köylüsünün durumundaydı. Tolstoy soylu olmaktan mutsuzdu abu nedenle bir köylü gibi yaşıyordu köylü gibi giyiniyordu. Rus köylüsünün toplumdaki durumunu iyileştirmek adına birçok faaliyette bulundu ''Kroyçer Sonat'',''İtiraflarım'', ''Efendi İle Uşak'' eserlerini bu dönemde dünyaya sundu (5,İş Bankası, Kültür Yayınları, Ankara).

3.3.''Diriliş'' adlı eserin ortaya çıkardığı gerçekler ve fikirler nedeniyle Tolstoy, Rus Ortodoks Kilisesi tarafından ateist olarak anılarak kiliseden aforoz edilmiştir. 1910 yılında hayatını kaybettiğinde çoktan birçok büyük ismi etkilemişti Tolstoy. Bu isimler arasında büyük yazalar Virginia Woolf, James Joyce, Vladimir Nabokov; felsefi ve politik kişilikler arasında da Gandhi bulunur. Tolstoy, bir romanında baş karakterini bir tren istasyonunda öldürmüştü. Büyük yazarın hayatının da bir tren istasyonunda son bulması başka romanlara ve piyeslere konu olabilecek kadar akıllarda duygusal bir etki bırakmaktadır.

3.4. ''Hz. Muhammed'in Kuran'a Dahil Edilmeyen Kelamları''(Tolstoy, L.N. (1990). Hz. Muhammed'in Kuran'a Dahil Edilmeyen Kelamları, Bakü, s.17.) adlı eserini hayatının son dönemlerinde kaleme alan yazar, giriş ve tek bölümden oluşan eserinde İslam Peygamberine dair görüşlerini yansıtarak dini ve felsefi değer taşıyan yaklaşımlarını sergilemiştir.

4. İslam Dini ve Hz. Muhammed İle İlgili Görüşleri

Dindar bir kişiliğe sahip, katı bir mümin olan Tolstoy'un, çeşitli dinleri araştırarak sonunda Hz. Muhammed'in sözlerinden (hadis) etkilendiğini ve böylece, İslam dinini araştırma ihtiyacı duyduğundan bahsederek, onun siyasi kimliği, ahlakından övgü ile söz eder. Yine, Hz. Muhammed'in, Hıristiyanlıktan altı yüz yıl sonra gelen İslam dinine getirdiği yeniliklerin onun siyasi dehası sayesinde yapıldığından eserinde ifade etmektedir.

Tek bölümünden oluşan eserde, giriş bölümünden sonra "Hz. Muhammed'in seçme hadisleri" başlığı altında derlenen hadisler (kelamlar)yer almaktadır. L. N. Tolstoy,"Hz. Muhammed'in Kurana dahil edilmeyen kelamları" eseridir. Eserin giriş bölümünde, yazar, Sühreverdi'nin, Hz. Muhammed'in hadisleri'' isimli eserini inceleler ve burada yer alan hadisleri derleyerek ''Hz. Muhammed-

’in Kuran’da Yer Almayan Kelamları’’ adlı küçük hacimli kitap hazırlayarak kendi imkanları ile Moskova’da 1909 yılında yayınladı.

Güçlü ve etkileyici tenkit yöntemi ile uzun zaman Hıristiyan anarşizmi savunduğu için 1901'de kilise tarafından aforoz edildi. Katı bir Hıristiyan olan yazar, hayatının son dönemlerinde ruhi bunalımlar geçirdi. Hayatı boyu dini araştırmalarına devam eden Tolstoy, İslam tarihi alanında geniş literatür incelemeleri yaptı. Uzun süren çeşitli araştırmalardan sonra İslam dini ve bu dinin Peygamberi Hz. Muhammed'in hayatını incelemeye başladı. Gerçek anlamda etkilendiği İslam dini hakkında daha geniş bilgi edinmek ve Müslümanlarla yakından tanımak için İstanbul'a gitme kararı aldı. İstanbul’da Müslümanların dini yaşantılarını inceleme fırsatı bulan Tolstoy, Hz. Muhammed'in hayatını inceleyerek onun hadis-i şerifleri hakkında dikkat çekici görüşler kaydetmiştir. Hıristiyanlığın yoğun biçimde yaşandığı bir dönemde yazar, Hz. Muhammed hakkındaki görüşlerini çekinmeden ifade ederek etrafındaki insanlara da İslam dini hakkında aydınlatırdı. Buna örnek olarak, Azerbaycanlı bir general ile evlenen Rus asıllı Yelizabet Vekilova’nın din değiştirme konusunda, kendisinin ve çocuklarının İslam dinini seçimine yönelik sorularına yazdığı cevap mektubunu inceleyerek, mektubun orijinal metnini tercüme ederek Tolstoy'un Hz. Muhammed ile ilgili görüşlerini aktaralım. Tolstoy, cevap mektubunda şunları yazmaktadır: "Muhammediliğin, Hıristiyanlığın tüm mezheplerinden üstünlüğüne ve evlatlarınızın bu necip esaslara dayalı dine geçmelerini tüm kalbimle alkışlayarak desteklemekteyim. Ben Hıristiyanlığın bütün kaide ve esaslarına saygı duyan biri olarak şaşırtıcı durumla karşı karşıya olduğumu söyleyebilirim. Muhammed'in hem şahsiyeti, hem getirdiği dinin esaslarını incelediğimizde, Provaslav kilisesinden çok daha yüksekte yer aldığını görülmekteyim. Bu konuda akla takılan hiç bir şüphenin söz konusu olmadığını da bizzat vurgulamak isterim. Ayrıca, eğer insana iki seçim hakkı verilse idi, Hıristiyanlık ve Muhammedilik arasında, aklını kullanan her insanın, tek Allah'ı ve onun peygamberini üstün tutması gerekirdi. Çünkü karışık ve anlaşılmaz teslis inancı, halen kiliseye bile tam anlamıyla karanlık kalmakta ve açıklanamamaktadır. Çeşitli Hıristiyan mezheplerinin çok karışık mülahazaları olmasına ve İslam'ın Hıristiyanlıktan altı yüz yıl sonra gelmesine rağmen, Muhammedilik her zaman kiliseden yüksekte olacaktır.” Tolstoy’un, konu ile ilgili adı geçen eserinin incelenmesi sonucunda Hz. Muhammed ile ilgili bir açıklama yer almaktadır; l' Dindar bir kişiliğe sahip, katı mümin olan ünlü yazar, çeşitli dinleri araştırarak en son Hz. Muhammed'in hadislerinden çok etkilendiğini ve bu sayede İslam dinini araştırmaya ihtiyaç duyduğunu ve bu incelemeler sonucu Hz. Muhammed'in siyasi kimliği, şahsiyeti ve Hıristiyanlıktan altı yüz yıl sonra gelen İslam dinine getirdiği yeniliklerden bahseder. Hz. Muhammed'in siyasi dehası ve ahlaki meziyetleri hakkında edindiği bilgileri eserinde genişçe anlatmaktadır.

Rus tarihçisi Panova, ‘’Hz. Muhammed’in Hayatı’’ adlı eserinin sonunda, F.M. Dosteyevskiy ve L.N.Tolstoy’un Hz. Muhammed hakkında görüşlerine atfederek, şu açıklamayı yapmaktadır: ‘’Rus Edebiyat tarihinin önemli simalarından olan Dostoyevskiy ve Tolstoy’un, bireysel çabaları, derin araştırma çalışmalarına ekledikleri şahsi tecrübeleri ile Tek Allah’ı bularak iman ettiklerini, kamil insan modelini yalnızca İslam Peygamberinin örnek almakla mümkün olacağını ve ayrıca, her insanın Hz. Muhammed’in hayatını, özellikle inanç konusunda onun öğretilerine uymanın gerekliliğini vurguladıklarını kaydeder.

Kaynakça

Büyük Sovyet Ansiklopedisi, (1979). II cilt, s. 263-264, Moskova.
Tolstoy, L.N.(1867). Voyna İ Mir, Moskova.
Tolstoy, L.N. (1990). Hz. Muhammed’in Kuran’a Dahil Edilmeyen Kelamları, Bakü.
Tolstoy, L.N. (1968). Savaş ve Barış, Cem Yayınları, İzmir.

Tolstoy, L.N. (2011). Anna Karenina, Ayşe Hacıhasanoğlu. Çev. İş Bankası, Kültür Yayınları, Ankara.
Tolstoy, L.N. (2015). Savaş ve Barış, Leyla Soykuf, Çev.2 cilt, İletişim Yayınevi, Ankara.
Tolstoy, L.N. (1981). Voyna İ Mir, Rusça, 3 cilt, Moskova.
Panova, V. F.(1993). Hz. Muhammed'in Hayatı, Moskova.
Tolstoy, L. N. (1970). Çocukluk ve Gençlik Yılları, A.Ekeş, Çev. İstanbul.
Tolstoy, L. N.(1937). Kazaklar, A.K.Akyüz, Çev.Ankara.
Tolstoy, L. N.(1971). Diriliş, E.Altay, Çev. Ankara.
Tolstoy, L. N. (1910). Anna Karenina, Raif Necdet Kestelli- Sadık Naci, 4 cilt, İstanbul.

Vesile Shemshek

One of the russian literary figures ,Tolstoy and his views on the prophet of Islam

Keywords: thinker, literature, works, prophet, religion

Summary

Tolstoy Lev Nikolojevic, Russian scholar, philosopher, pacifist, educational reformer, short story and playwright, is one of the classics that has left its mark in world literature. In particular, Tolstoy, who took place during the important writers of Russia and the world within the framework of realistic fiction, bequeathed important works to the history of literature during the so-called 'Golden Age' of his art. Introduction of Turkish literature to Tolstoy XIX. A large number of his works were translated and published until new letters arrived at the end of the century.
Tolstoy argues that art is not aimless art , and that the main purpose of art is to help regulate relations between people, and that art plays an important role in the improvement of these relations.
Throughout his life, Tolstoy reflected the political and cultural events that occurred in Russia into his works as a mirror and shed light on his period. His works reveal many aspects of the process from Tsarist Russia to revolutionary Russia. This is of great importance not only in terms of the external reality, but also in terms of the internal reality or the subconscious. Moreover, it is pioneering in this aspect.The greatest novelist of his time, Tolstoy, J.J. Like Rousseau, he was hostile to art that spoils people's morals. It was against bullying and great property. The property opened up with his family. For this reason, while distributing his wealth to the villagers, his wife prevents him when it comes to distributing the royalties of his works.The aim of this study is to give general information about Russian writer's life, works and literary identity, and to compile Tolstoy's researches on Islamic religion and its prophet to reveal the author's conclusion. The author's mental crises during the last years of his life due to his dissatisfaction with the truths of religions lead him to the search for new religion. As a result of his researches and experiences, the author, who met with the Islamic religion and his prophet, can be said to add value by accessing serious data on this subject and his thoughts and comments that illuminate himself and his surroundings.

Keywords: thinker, literature, works, prophet, religion

Весиле Шемшек

Л. Н. Толстой, один из русских литературных деятелей и его взгляды на пророка ислама

Резюме

Лев Николаевич Толстой, русский мыслитель, философ, пацифист, образовательный реформатор, автор коротких рассказов и драматург, - один из классиков, оставивших след в мировой литературе. В частности, Толстой, который был одним из важнейших писателей России и мира в рамках реалистической художественной литературы, оставил важные произведения истории литературы в период, названный " Золотой век" своего искусства.

Ознокомление турецкой литературы с Толстом в конце XIX столетия обнаружились новые рукописи, а многочисленные работы автора были переведены на турецкий язык и опубликованы.На протяжении всей своей жизни в своих произведениях Толстой отражал политические и культурные события, которые происходили . Его работы раскрывают многие аспекты процесса от царской России до революционной России. Это важно не только для внешней реальности, но и для внутренней реальности или подсознания. Более того, он является примером в этом аспекте.Величайший писатель своего времени Толстой как Ж.Ж. и Руссо, он был враждебен искусству, которое портит нравы людей. Поскольку он был против издевательств и большого имушества, у него возникли проблемы с семьей потому что распределять гонорары за его произведения среди жителей деревни.Целью данного исследования является предоставление общей информации о жизни, творчестве и литературной идентичности русского писателя, а также обобщение исследований Толстого об исламской религии и ее пророке для раскрытия заключения автора. Психические кризисы автора в последние годы его жизни из-за его неудовлетворенности истинами религий приводят его к поиску новой религии. В результате своих исследований и опыта автор, познакомившийся с исламской религией и его пророком, может сказать, что он добавляет ценность, получая доступ к серьезным данным по этому вопросу, а также к его мыслям и комментариям, которые освещают его самого и его окружение.

Ключевые слова: мыслитель, литература, произведения, пророк, религия

Vesile Şemşek

Rus ədəbi simalarından biri olan L. N. Tolstoyun İslam Peyğəmbərinə dair fikirləri

Xülasə

Rus mütəfəkkiri, filosof, pasifist, təhsil islahatçısı, qısa hekayələrin müəllifi və dramaturq Leo Tolstoy dünya ədəbiyyatında iz qoyan klassiklərdən biridir. Xüsusilə, real fantastika çərçivəsində Rusiyanın və dünyanın əhəmiyyətli yazıçılarından biri olan Tolstoy, sənətinin "Qızıl dövr" adlandırdığı dövrdə ədəbiyyat tarixinin mühüm əsərlərini miras qoydu. Türk ədəbiyyatı , XIX əsrin sonlarında Tolstoy yaradıcılığı ilə tanış oldu və müəllifin yeni əlyazmaları üzə çıxaraq türk dilinə tərcümə edilərək nəşr olundu.Ömrü boyu Tolstoy Rusiyada baş verən nifrət etdiyi siyasi və mədəni hadisələri, əsərlərində əks etdirirdi. Əsərləri çar Rusiyasından inqilabi Rusiyaya qədər baş verən bir çox hadisələrdən bəhs edir. Bu, yalnız xarici reallıq üçün deyil, həm də daxili reallıq və şüuraltı üçün vacibdir. Üstəlik, o, bu sahədə öz yardıcılığı ilə bir nümunədir.Dövrünün ən böyük yazıçısı, olan Tolstoy J.J. Russo kimi, insanların mənəviyyatını korlayan sənətə düşmən idi. Zorakılığa və böyük əmlaka qarşı olduğuna görə ailəsi ilə problem yaşayırdı, çünki əsərləri müqabilində aldığı məvacibi kasıb kəndlilər arasında bölüşdürürdü. Bu araşdırmanın məqsədi, bir rus yazıçısının həyatı, işi və ədəbi kimliyi haqqında ümumi məlumat verməklə yanaşı, Tolstoyun İslam dininə və peyğəmbərinə müəllifin qənaətini ortaya qoymaq üçün apardığı araşdırmaları ümumiləşdirməkdir. Müəllif həyatının son illərindəki dinlərin həqiqətlərindən narazılığına görə yaşanan ruhi böhranlar onu yeni bir din axtarışına aparır.Tədqiqatları və subyektiv təcrübələri nəticəsində İslam dini və peyğəmbəri ilə tanış olan müəllif, bu mövzuda ciddi məlumatlara yiyələnərək öz fikir və şərhləri ilə həm peyğəmbərə , həm də ətrafını işıqlandıraraq dəyər qatır.

Açar sözlər: şükür, ədəbiyyat, əsərlər, peyğəmbər, din, mütəfəkkir

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 29.09.2019
Filologiy elmləri doktoru, professor Nahidə Bozqurt tərəfindən çapa tövsiyə olunmuşdur

ŞÖHRƏT SƏLİMOV (SƏLİMBƏYLİ)
AMEA **Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**
İstiqlaliyyət küçəs 26,
soxrat61@ rambler.ru.

RUHİ BAĞDADİ POEZİYASINDA GÖZƏLLİK KONSEPSİYASI

Xülasə

XVI əsr Azərbaycan ədəbiyyatının Bağdad ədəbi mühitində yetişən qüdrətli sənətkar Ruhi Bağdadi yaradıcılığının müxtəlif səpkidə təhlili, xüsusən gözəlin təsviri, gözəllik konsepsiyası mühüm fakt zənginliyi ilə səciyyələnir. Ruhi Bağdadi 1544-cü ildə Bağdadda anadan olmuş, Bağdad şəhərində yaşayıb-yaratmış, mükəmməl təhsil almış, şərq klassiklərinin, klassik Şərq poetika elminin incəlikərinə, təsəvvüf fəlsəfəsinin sirlərinə dərindən bələd olmuş bir sənətkardı. O, özünü eşq ruzigarının önündə Bağdad çöllərindən gələn bir torpağa bənzədirdi.

Gözəlin təsviri və gözəllik simvolarının şairin yaradıcılığı əsasında araşdırılması da bura daxildir. Ümumiyyətlə, XVI əsr ədəbiyyatımızda gözəllik simvollarının metaforik məzmunu bir təşbeh kimi diqqəti cəlb edir. R. Bağdadi yaradıcılığında xətt, xal, göz və yanağın obrazlaşmasının özünün spesifik anlamı vardır. Onun araşdırılması bütünlükdə digər sənətkarlarla tipoloji təhlilin gərəkliyini ortaya qoyur.

Ruhi Bağdadi yaradıcılığında məhəbbət lirikası XVI əsr Azərbaycan poeziyasının Bağdad ədəbi mühitində İmadəddin Nəsimidən sonra anadilli-türk poeziyamızda xüsusi mərhələdir. Onu da qeyd edək ki, Ruhi Bağdadi Fizuli ədəbi məktəbinin nümayəndəsi və onun layiqli davamçısı kimi tanınıb. Bu şairin poeziyasında xalq dilinə yaxınlıq və yüksək sənətkarlıq öz əksini tapmışdır.

Xətt, xal, göz, eşq, aşiq, yar, dilbər, həbib, gül, rüxsar və s. sözlərin işarələdiyi məzmun XVI əsr Bağdad ədəbi mühitində yetişən qüdrətli sənətkarın poeziyasının rəmzlər sistemini ortaya qoyur və fundamental məzmunla xarakterizə olunur.

Açar sözlər: Ruhi, Bağdad, üz, yanaq, qəzəl, həbib,eşq, səbr, poeziya

Ruhi Bağdadi lirik yaradıcılığı XVI əsr Azərbaycan poeziyasının Bağdad ədəbi mühitində İmadəddin Nəsimidən və böyük Füzulidən sonra anadilli-türk poeziyamızda xüsusi mərhələdir.

Ruhi Bağdadi 1544-cü ildə Bağdadda anadan olmuş, Bağdad şəhərində yaşayıb-yaratmış, mükəmməl təhsil almış, Şərq klassiklərinin, klassik Şərq poetika elminin incəlikərinə, təsəvvüf fəlsəfəsinin sirlərinə dərindən bələd olmuş bir şairdi. O, özünü eşq ruzigarının önündə Bağdad çöllərindən gələn bir torpağa bənzədirdi.

Ruhi Bağdadi yaradıcılığının başlıca mövzusunu qəzəlləri təşkil edir. Şair vurğulayır ki, şeir yazmaq üçün aşiq olmaq lazımdır, şeir eşqlə yazılır, təməl mövzusu eşqdir, belə yazılan şeir hansı tərzdə olursa-olsun, gözəl olacaqdı. Bu səbəbdən divan şeiri "eşqin şeiri" kimi də tanınmışdır. Eşq insanların dəyişməyən, nəsildən-nəslə keçərək günümüzədək gələn ən uca və ortaq duyğusudur. Şeir də gözəlləri vəsf etmək üçün yazılır və bu mənada bəyənilir, şöhrət tapır.

XVI əsrdə eşq, məhəbbət divan ədəbiyyatı içərisində ən çox şeir yazılan mövzu kimi mühüm yer tutur. Eşq bütün yolların açıldığı bir meydan idi. Divan şeirində eşq, müxtəlif bənzətmələrə, təsvir və təşbehlərə mövzu seçilmişdir. Çox inkişaf etmiş bu təşbehlər, istiarələr və təsvirlər divan şeirində olduğu qədər heç bir ədəbi ənənədə bu qədər zəngin çalarlara mövzu olmamışdır (1,s.283).

Şeir yazmaq üçün başlanğıc şərt eşqdirsə, şeirin bünövrə mövzusu da təbii olaraq eşq və sevgili olmalidir. Varlı-kasıb, yaşlı-gənc, kişi-qadın hər bir insanın yaşaya biləcəyi bir hiss var, o da eşqdir. Klassik ədəbiyyatımız bu mövzunu əsas götürərək eşqlə ucalmış, böyük Füzuli-ni yetirmişdi. Böyük Füzuli eşqə hər mövzudan daha üstün qiymət vermiş, "Təhəmmülü" (vəziyyəti) nə qədər zor olsa da, eşq vaz keçilməzdir, eşqin yoxluğu heç bir dəyər ifadə etməz, demişdir:

Eşq imiş hər nə var aləmdə,
Elm bir qeylü-qal imiş ancaq (2,s.306).

Ruhi bir şeirin şöhrət tapması üçün eşq və sevgili mövzusunun şərt olduğunu ortaya qoyur. Şairə görə gözəlin və gözəlliyin mövzu seçilməsinin özü şeiri gözəlləşdirir. Sevgilinin dodağı, yanağı, xətti, xalı şeiri şəkərdən şirin edir.Eşq də məhəbbətlə ifadə olunur. Ruhi şeirində davamlı olaraq məhəbbət mövzusuna geniş yer verir:

Cahanda hər kimi görsən məhəbbətə tələbkardır,
Onunçun dillərdə söylənən göftari-məhəbbətdir (3,s. 446).

Ruhi yaradıcılığında bəzən bir beytdə bir neçə təşbehlə qarşılaşırıq. Klassik ədəbiyyatımızda şeir deyincə ağla ilk gələn təşbeh (bənzətmə) sənətidir. Şairin divanında bəzən bunun hər beytdə bir ya bir neçə nümunəsinə rast gəlirik. Sözü daha təsirli demək üçün şeirdə təşbeh işlətmək divan ədəbiyyatının bir özəlliyidir. Ruhinin lirikasında ən çox işlənən təşbehlər üz, yanaq, xətt və xalla bağlıdır. Bu təşbehlər şairin 400-dən çox qəzəlində işlədilmişdir:

Ruhi "Divan"ında bu gözəllik simvolları ilə əlaqəli beytlərin çoxluğu, bizə imkan verir ki, üz, yanaq, xətt və xalla bağlı geniş təhlil aparaq. Əlimizdəki çoxsaylı beytləri bir yaz;da işlədə bilməyəcəyimizi nəzərə alıb beytlər arasında seçim qarşısında qaldıq. Buna görə də Ruhi lirikasında işlədilən yanaq, xal və xətt sayını aydınlaşdırdıq və bu qənaətə gəldik ki, Ruhinin 1115 qəzəllərinin 270-də yanaq, 132-də xətt, 39-da isə xalla bağlı beytlər var ki, bu da şairin üz və yanaq üzərində ən çox dayandığı gözəllik simvollarıdır. Bunun səbəbi isə qaş, göz, dodaq, xətt, xal kimi digər gözəlliklərin üzdə-yanaqda olmasıdır:

Ey könül, şad ol ki, halın ərz edərlər yarinə
Xətti-səbzin bir yana, xali-siyahın bir yana (Ruhi Bağdadi).

Xətt, xal, göz və yanaq ən çox aşiqin diqqətin çəkir, sevgiyə bir məlahət gətirir. Bu özəlliyi səbəbiylə xətt, xal, göz aşiqin könlünü alan, onu özünə bağlayan bir cazibə mərkəzidir (4, s.164).

Ruhi lirikasında bəzən üz yerinə "rux, ruxsar (xoşsifətli), ariz" kəlmələri işlədilsə də, əslində yanaq nəzərdə tutulur və yanaq daha çox xal, xətt və saç ilə birlikdə təsvir edilir. Yanaq haqqında söylənilmiş fikirlərin başında təravət və çöhrə gəlir. Yanaq sözünün sinonimi kimi lətafət, lətif, gülgün, al rəngli və ziba sifətləri də işlədilir. Utanma halı da, üzün qızarma gözəlliyi ilə təsvir edilir (5,s.163).

Rux kəlməsi Ruhi yaradıcılığına Füzulidən gəlir.Füzulidə rux kəlməsini bir gözəllik-şahmat termini kimi işlədilir:

Şahdur hüsn büsatında bu gün ol gülrux,
Ey Füzuli, məni avarə sürülmüş beydəq (6,s.181).

Ruhi məhəbbət kimi "çarəsiz dərd"ə, eşqə düşən insanın iki yolunun olduğunu dilə gətirir. Eşqə düşən insanın edə biləcəyi iki şey vardır: ya təhəmmül, ya da tərki-diyar. Aşiq səbrli və dözümlü olub əziyyətə qatlaşmali, ya da tərki-diyar olub getməlidir:

Dün bir əhli dərdə eşqin çarəsin sordum, dedi:
Ya səfərdir, ya təhəmmül, ikidən xali degül (3,s.702).

Böyük Füzuli lirikasında da eşq qəzəllərinin başlıca mövzusu olmuş və onu Şərq aləmində tanıtmışdı. Şairin eşq duyğusunu şeirinə mövzu seçməsi, özünü aşiq obrazında göstərməsi bu ədəbiyyatın əsas şərtlərindəndir. Divan şairliyinin yolu da aşiqlik və sevgili yolundan keçir:

Yar ilə agyarı həmdəm görməyə olsa idi səbr,
Tərki gurbət eyləyib əzmi-diyar etməzmi edim (7,s.115).

Sevgili divan şeirinin əsas obrazıdır. Aşiqin canına qəsd edər, zülüm və əziyyətə dözər. Mərhəmətsizdir. Sevgili aşiqin duyğularına qarşı sanki bir seyrçidir. Aşiq sevgilidən daima lütf gözləyir. Eşqində səmimidir. Sevgili aşiq ilə öz arasında bir məsafə saxlayar. Sevgili könül mülkünün sultanıdır. Bu səbəblə Ruhi qəzəllərində sevgili həmişə uca tutulur:

Bir əhli-lütf gözəl istərin,-demiş Ruhi,
Qosun bu fikri ki, ol bu diyardə yokdur (3, s.171).

Divanlarda, xüsusilə qəzəllərin məzmununda minlərcə beytlə lənətlənən, özünə küfürlər edilən rəqib tipinin vəsflərindən bir qismi belədir: sevgilinin yanından ayrılmaz, sevgilidən etibar görür, sevgiliyə çox yaxın və sırdaşdır, sevgilinin vəslini arzular, aşiqə əziyyət verər, fitnəkar və yalançı, daşürəklidir. Aşiqi sevgilidən ayırır və sevgiliyə yaxın buraxmaz, özündən və şərindən qorxar, kafir və dinsizdir, yalnız özünü düşünür (8,s.334).

Getdiyi xaneyi-əgyarə əcəbdir yarın,
Sağ olan xanəyə girməz, bu məsəldir ki, mələk (3,s.726).

Ruhinin qələmə aldığı şeirlər içərisində qəzəlləri məzmun zənginliyi ilə insan qəlbinin ən gizli sirlərinə toxunan və real sevgi münasibətlərinə həsr olunan gözəl lirik əsərlərdi. Onun qəzəllərində orta çağlarda yazılmış eşq duyğularını eyni zövqlə bu gün də oxuyuruq. Əsrlər ötsə də, gözəllik, əxlaq, sevgi dəyişməyibdir. İnsanlar yenə də sevir, hicran dərdi çəkir və vəfasızlıqdan gileylənirlər:

Səbrə taqət yoq dürür, hicranı bilməm neyləyim?
Ağlasam üşşaq içində etibar olmaz bana.
Mürgi-canın pərrü balın yoldu dəsti-ğəm, -dedim,
Gül kibi güldi, dedi: -Böylə şikar olmaz bana (3,s.316).

Ruhinin qəzəlləri də lirik-aşiqanə, sosial-fəlsəfi məna daşıyır. Əsasən sevgi, sevginin yaratdığı sevinc-kədər, vüsal, hicran dərdi, aşiqin şikayət və küskünlüyü şairin yaradıcılığında yüksək bədiiliklə öz əksini tapmışdır:

Ləlini sun xəstənə, - dedim, dedi:
Xəstəyi-eşq olana yoqdur əlac (9,s.76).

Şairin həyat və cəmiyyət haqqında düşüncələri bir kəlmə ilə belə təsvir edilir:

Ruzəyi-ğəmdə bizi anmaz həbib,
Şahə nə ğəm bir füqəra yatsa ac. (9,s.76).

Bu iki beytin birinci misrasında şair dostlarının onun yaman günündə yoxlamadığını deyirsə, ikinci misrada faqır-füqarənin ac-yalavac yaşamağının şaha heç də qəm gətirmədiyini söyləyir. Ruhinin qəzəlləri orijinallığı və xəlqiliyi ilə fərqlənir. Şair xalqa yaxın olmuş, onun istək və arzularını tamamlamışdır. Ruhinin qəzəlləri məna-məzmun, daxili ahəng və intonasiya ilə bir-birinə bağlanan beytlərə ayrılır:

Məst olub, ey gül, qoya zərrin külahın bir yana,
Eylə dəvasın bu gün xurşidü mahın bir yana.
Halini aşiqlərin görməkdə, eşitməkdədür,
Guşi-huşun bir yana, çeşmi-siyahın bir yana (10,s.37).

Ruhi yaradıcılığında obraz və fikir də yüksək bədiilik nümunəsidir:

Ölür gedər, gözəlin, ağzı dadini bilməz,
Leyk ğəmin qoyub ol xəstə kim, nəbat istər. (10,s.181).

Ruhinin qəzəllərinin bir hissəsi də sırf dünyəvi məsələlərə, yəni insanın insana, sevgilisinə, təbiətə və dünyaya münasibətinə həsr olunubdu. Bəzi ictimai-siyasi məzmunlu şeirlərində gözəllərin vəfasızlığından, dünyanın etibarsızlığından şikayətlənirsə, bir çox qəzəllərində bunun əksinə olaraq nikbin fikirlər, aşiqanə duyğularını dilə gətirir:

Zövqi-vəslin nə layiq əğyarə,
Əhli-dərd olmayan dəva neylər? (10,s.109).

Şair insanı dünyanın ən dəyərli varlığı adlandırır və insanın sevgi hisslərini, gözəlliyini qəzəllərində yüksək qiymətləndirir. Onun həm zahiri, həm də daxili gözəlliyini tərənnüm edir:

Naz ilə geysə əgninə dilbər səpid-sürx,
Çeşmim dögər ayağinə gövhəri səpid-sürx.

Ruhinin dünyəvi mövzularda yazdığı qəzəllərində ərəb və fars sözləri Füzulinin əsərlərinə nisbətən çox azdır. O, bədii söz və ifadələrdən çox məharətlə istifadə etmişdir. Onun işlətdiyi rədiflər əvvəlki sözlərlə bağlı olub məzmunca dolğunlaşır:

Səadətlə sərəfraz olduğundan şadman olma,
Gəl insaf et kiminlə başə çıqmışdır fəna dünya.
Qəti asan idi olmaq səadət mülkinə-malik,
İki gün bir qərar üzrə qalaydı bivəfa dünya (10,s.38).

Sevgili öz gözəlliyi ilə təbiəti gözəlləşdirir, təbiətin gözəllikləri isə sevgilini səhər şəfəqi ilə nura boyayır, onu saçlarına min bir ətir çiləyir:

Bir gədadır dil ki, çeşmi xan ehsanindədir,
Bir işıqdır göz ki, xaki-payinə möhtacdür. (10,s.189).

Təbiətin və gözəlin həmahəng, müqayisəli təsviri Ruhi şeirinin şah damarı və ilham mənbəyidir. Bu qarşılaşdırmada təbiət gözəllikləri sevgiliyə köçürülür, sevgilinin gözəllikləri təbiəti özgə bir aləmə çevirir:

Gəlməz o şuxdən vəfa kim, rəvişi yəman ola,
Aşiqə eyləyüb cəfa, ğeyriyə mehriban ola.

Göglərə çıqmada fəğan, yar isə ğeyrə mehriban,
Qorqum odur ki, nagəhan bir gün arada qan ola (9,s.184).

Yüksək şair ilhamının məhsulu olan bu qəzəl hər beyti ilə yeni cığır açan bir əsərdir. İlk beyt-"Gəlməz o şuxdən vəfa kim, rəvişi yəman ola, Aşiqə eyləyüb cəfa, ğeyriyə mehriban ola." Ruhi bu beytdə klassik ədəbiyyata məxsus bütün ciddi, qeyri-həyati ifadə vasitə və formalarını sındırıb, ədəbiyyatı dahiyanə şəkildə sadə, təbii bir yol salır, onu həyatla, real insanla elə bağlayır ki, bütün sonrakı beytlər bu nümunənin təsiri altında gedir. "Göglərə çıqmada fəğan, yar isə ğeyrə mehriban, Qorqum odur ki, nagəhan bir gün arada qan ola" – kim nəzərdə tutulur? Sevgili, ya qan? Aşiq sevgiliyə vurulmuş olar, onun gedişi yaman olar, aşiqə eyləyib cəfa, özgə birisiylə mehriban ola. Bəs onda ikinci beytin ikinci misrası nə ilə bağlıdır? Təsvir elə qurulub ki, sevgilini və aşiqi şair eyni dərəcədə nəzərə alır, heç birinə üstünlük verilməsə də, əslində, aşiqin qəmli sevgilinin canlı heykəli göz önündə canlanır: "Qan ilə dolsa gözlərin, cövrünə qalma dilbərin, Şayəd o mahi peykərin məqsudi imtəhan ola", beyti isə aşiqə bunun bir imtahan olacağına işarədir. Qəzəlin bu misraları qüdrətdən gələn bir tapıntıdır: ayrılıqmı, yoxsa imtahanmı...

Ruhi öz səmimi hisslərini ifadə etmək üçün şuxdən vəfa kim, rəvişi yəman ola, cəfa, fəğan, mehriban, nagəhan, bəxti-sərkeşi, dilbər, mahi peykər, ğönçə, fəm, bülbüli-gülşən, əfğan ola kimi xalq dilinə uyğun ifadələr və söz birləşmələri işlədir. Birləşmələr şairin dilində eyni məqsədə xidmət edir. "Sevgili" anlayışının metaforik ifadəsi Ruhinin şeir dilinin emosionallıq vasitələrindəndir:

Gül ki, üşşaq eyləsün, ey ğönçəyi-rəna, səfa,
Ğönçə açıldıqca eylər bülbüli-şeyda səfa. (3.s.307).

İkinci misradakı "rəna-gül" sözü sevgilini nəzərdə tutur; bunu sonrakı misralar izah edir – mən ona elə aşiqəm, necə bülbül gülə aşiq olar. "Sevgili", "dilbər" və əvəzinə "gül" deyilir, gülün bütün gözəlliyi sevgiliyə köçürülür, həm də sevgilinin təbiət möcüzəsi olan gül kimi gözəl, saf, ətirli olduğu bədii yolla əsaslandırılır. Xoş günündə, şairin ilhamı gələndə, ruhu da qanadlanır, qələmi insan gözəlliyinin təsvirinə yönəlir və "sevgili"yə "Hər kim o tilsimi boza bildisə vəlidir", deyir:

Fikr etmə ki, səndən edəvüz qəti-məhəbbət
Kim, bizdə olan mehrü məhəbbət əzəlidir.
Nəfsi-əjdəri kim, gənci-dilin oldi tilsimi,
Hər kim o tilsimi boza bildisə vəlidir (10,s.138).

Ruhi yaradıcılığında canlı ifadələrdən, həyati söz və birləşmələrdən istifadə edərkən təbii duyğularla yazdığını təsdiq edir:

Səbr qıl, derlər bana, ah etmə, bilməm neyləyim?
Səbr olur əql ilə, əql isə degildir bana yar (10,s.139).

Səbr qıl, derlər bana, ah etmə, bilməm neyləyim, sözü ilə, Səbr olur əql ilə, əql isə degildir bana yar - özlüyündə səmimi, ilahi duyğular olub, heç bir "ilahi sevgi" ilə izah edilə bilməz. Bütün bunlar Ruhinin hər şeydən əvvəl həqiqi həyat şairi olduğunu, göylərlə yox, yerlə, yer övladları ilə, onların sevgisi, məhəbbəti, insan gözəlliyi, təbiətin saflığı ilə öyündüyünü, Yerdən, insandan, təbiətdən qüvvət və ilham aldığını göstərir. Ruhi qəzəllərində göz yaşları bütün klassik ədəbiyyatımızda olduğu kimi bol-bol təsvir edilmişdir. Onun göz yaşları selinin təsviri də orijinaldır:

Yardən bən dərdnak, əğyar isə bəndən həlak,
Halini ağlar təbibə, hər kəsin bir dərdi var.

Bu cür misra və beytlər XVI əsr mühitində nə cür səslənirdi? Bunların başqa variantları da ola bilərdi. Yuxarıdakı beytin aşağıdakı variantı kimi:

Olsə xunabəyi-həsrətdə gözün mala-mal,
Ağla, ey didəyi-ğəmdidə, bu da bir dəmdir.

Aşiq sevgilisinin yolunda bütün cəfalara dözməyə hazırdır. Şairin qəzəllərində təsvir etdiyi sevgilini yerişi, duruşu, geyimi, hərəkətləri, boyu, ədası ilə göz önündə canlandırmaq olur. Sevən aşiq belə bir gözəlin yolunda hər şeyi unudur:

Dedim: vəfa eylə, al könlüm, eylə tərki-cəfa,
Könüllənür kibi oldi, birəz ol məhliqa. (10,s.45).

Zərif duyğular, incə hisslər ifadə edən bu cür şeirlərdə lirik qəhrəman klassik ədəbiyyatda öz sevgisi yolunda aləmi unudan aşiqlər kimidir:

Ruzigarın dil necə çəksün ğəmin kim, adəmin,
Bin ğəmi olsa verər bir sağəri-səhba səfa (10, s.47).

Ruhinin "Edər" rədifli qəzəlində təbiət və insan münasibətləri son dərəcə təbii təsvir edilmişdir. Hər bir fəslin öz ahəngi, öz gözəlliyi vardır və bunlar Ruhi ilhamının qanadlanması üçün bir mənbə olmuşdur. İnsanın əhval-rihuyyəsi yüksək olduqda gözəl də, bahar da gözəllik mənbəyidir. Şairin yaradıcılığında gül, bahar insana sevinc gətirən, insanın həyat eşqini artıran dirilik suyudur.

Turub yolində gül dəmbədəm təzəllim edər,
O şahi-hüsni sanur kimsəyə tərəhhüm edər.
Şu qönçə kibi ki, badi-nəsimdən açılur,
Eşitsə ahi-səhərxizimi təbəssüm edər (10,s.142).

Ruhi həyat, təbiət, sevgili obrazını burada yüksək təşbihlərlə cilalamışdır. Onun təsvir etdiyi dilbər nə qədər gözəldirsə, aşiqi də o qədər fədakardır:

Gözlərimdən dögülən əşki-firavanə səbəb,
Dəhənimdən çıqan ahi-şərarəfşanımdır. (10, s.188).

Ruhinin istifadə etdiyi təşbih və epitetlərdən hansının orijinal olduğunu, hansının klassik və şifahi ədəbiyyatdan gəldiyini müəyyən etmək indi o qədər də asan deyildir. Ruhinin öz deyim tərzi, xüsusi üslubu, az sözlə, səmimi və obrazlı bir dil ilə təsvir etmə üsulu yaradıcılığının zirvəsidir. O fikrini aydın və anlaşıqlı bir dillə ifadə edir:

Can qoməz kimsədə derlərsə ləbin, incinmə,
Qo nə derlərsə-desünlər, o bənim canımdır (10, s.321).

Bu gün Ruhi Bağdadinin dili klassik poeziyanın üslublarına bələd olmayan oxucular üçün bəzən çox çətinliklər yaradır. Lakin bu klassiklərin əsərlərinə tarixi baxımdan yanaşmaq daha düzgün olardı. Belə ki, XVI əsrin oxucusu, həmçinin XVII-XIX- XXI əsrin oxucusu da Ruhinin dilini anlayır və yaxşı başa düşürdü. Bu dil öz dövrü üçün tam anlaşılan bir dil idi. Orta çağlar Şərq poeziyasında müsəlman adət-ənənələrinə nəzəri baxış üstünlük təşkil etsə də, Bağdadda ya-

şayan şairlər doğma türk dillərində yazmış, güclü sənət əsərləri yaratmışlar.

İşin elmi nəticələri:

Ruhinin lirik əsərlərinin qəhrəmanı XV əsrə qədərki ədəbiyyat tariximizdə olduğu kimi aşiqdir. Şairin qəzəlləri əsasən lirik-aşiqanə, sosial-fəlsəfi məna daşıyır, həm də təsəvvüfü anlam verir. Ruhi lirik şeirlərində aşiqin dili ilə danışır. Əsasən sevgi, sevginin yaratdığı sevinc-kədər, vüsal, hicran dərdi, aşiqin şikayət və küskünlüyü şairin yaradıcılığında yüksək bədiiliklə öz əksini tapmışdır.

Ruhi Bağdadi lirikasında gözəlin təsviri, gözəllik konsepsiyası XVI əsr Azərbaycan poeziyasının Bağdad ədəbi mühitində İmadəddin Nəsimidən sonra anadilli-türk poeziyamızda xüsusi mərhələdir.

Ruhi Bağdadi lirikasında gözəlin təsviri, gözəllik konsepsiyası Füzuli dövrü və ondan sonrakı poeziyamızın inkişafının ən zəngin dövrüdür.

Ruhi şeiri Azərbaycan-türk ədəbiyyatımızın inkişafına da təsir edən və XVII- XVIII əsr romantik poeziyamız üçün zəmin hazırlayan yaradıcılıq yoludur.

İşin tədqiq əhəmiyyəti: Ruhi Bağdadi lirikasında gözəllik konsepsiyası XVI əsr Azərbaycan poeziyasının Bağdad ədəbi mühitinin inkişaf tendensiyasını və ədəbi-mədəni mühitinin ümumi mənzərəsini aydınlaşdırmaq baxımından mühüm önəm daşıyır.

Ədəbiyyat

1.Doğan Muhammed Nur. Eski Şiirin Bahçesinde. İstanbul, Alternatif Düşünce Yayınevi, 2005, 318 s.
2.Füzuli Divanı. (haz.Kenan Akyüz –Süheyl Beken – Sedit Yüksel – Muigan Cunbur), Akçağ Yay., Ankara, 1990, 500 s.
3. Ak Coşkun. Bağdatlı Ruhi divanı. Karşılaştırmalı metin. Cild: 1-2. Bursa: Uludağ Üniversitesi Yayınları, 2001, 1062 s.
4.Sefercioğlu, M. Nejat; Nevi Divanının Tahlili. Ankara, Kültür Bakanlığı Yayınları, Gaye Matbaası, 1990, kitab 448 s.
5.Pala İskəndər. Ansiklopedik divan şiiri sözlüğü. 15. b. İstanbul: Kapı Yayınları, 2017, 638 s.
6.Fuzuli Məhəmməd.(Tərt. edən:H. Araslı.I cild. “Azərbaycan”, Baki:1996, 448 s.
7.Fuzuli Divanı. İstanbul. 2005, İnkılap Kitab evi. CLXXXVII.Yayın Sanayi ve Ticaret A. Ş. 236 s.
8.İsen Mustafa. Ötələrdən bir səs Divan ədəbiyyatı və Balkanlarda Türk ədəbiyyatı üzərinə məqalələr. Ankara, Akçağ, 1997, 581 s.
9. Musabəyli Azadə. Ruhi Bağdadi: mühiti, həyatı, poetikası və Divanı /əlyazma qaynaqları əsasında/. - Bakı: Elm, 2005, 952 s.
10. Ruhi Bağdadi. Divan (nəşrə haz: Azadə Musayeva). I c. Baki: 2001, 240 s.

Ш.Салимов

Концепция красоты в поэзии Рухи Багдади

Резюме

Всесторонний анализ творчества азербайджанских авторов литературной среды Багдада XVI века характеризуется множеством важных фактов. Большой интерес представляет изучение поэзии Рухи Багдади, который родился в 1544 году в Багдаде, где получил безукоризненное образование, изучив все тонкости классической восточной поэзии. Он широко использовал в своих произведениях поэтическую концепцию

красоты. Метафорическое содержание символов красоты в поэзии XVI века привлекает особое внимание. Багдади присуще своеобразное понимание таких символов красоты, как глаза, родинка и щеки. Изучение его произведений предполагает необходимость типологического анализа всего творчества поэта.

В целом, творения Рухи Багдади являются новой ступенью развития азербайджанской поэзии в литературной среде Багдада XVI века после великого Насими.

Следует также отметить, что Рухи Багдади широко известен, как представитель литературной школы Физули и как его достойный последователь. Стихи этого поэта отличаются художественностью и образностью, хотя использовал он чистый народный язык.

Значение таких слов, как родинка, глаза, любовь, возлюбленный, возлюбленная, цветок и т. п. характеризуют поэтическую концепцию красоты творчества известного поэта XVI века Багдади, которого взрастила литературная среда Багдада.

Ключевое слова:Рухи, Багдад, лицо, щека, призрак, хабиб, любовь, терпение, поэзия

Sh.Salimov

Concentation of beauty in the poetry of Rukhi Baghdadi.

Summary

Comprehensive study of the work of Azerbaijani authors in the literatary environment of Baghdad in the 16-th century is characterized by many important factors. The study of the poetry of Rukhi Baghdadi, who was born in 1544 in Baghdad. Here he received an impeccable education, having studied all the subtleties of classical eastern poetry. He widely used the poetic concept of beauty in his works. Bagdadi has a peculiar understanding of such beauty symbols as eyes, mole and cheeks. The study of his Works suggests the need for a typological analysis of the poets entire work.

Rukhy Baghdady work was a new step in the development of Azerbaijani poetry in the literary environment of Baghdad in the XVI-th century afner the great Nasimi.

It should also be noted that Rukhy Baghdady was a worthy representative of the literary scool of Fizuli and his followers. The poems of Baghdady are distinguished by the artistry and imagery. He widely used folk language in its purest form.

The meaning of words such as a mole, eyes, love, lover, beloved, flower, characterize the poetic concept of the beauty of the work of the famous poet of the 16-th century Rukhi Baghdadi, who was brought up by the literary environment of Baghdad.

Key words: Ruhi, Baghdad, face, cheek, ghost, pill, love, patience, poetry

Redaksiyaya daxil olma tarixi: 11.03.2019
Çapa qəbul olunma tarixi: 25.10.2019
Filologiy elmləri doktoru Raqub Kərmov tərəfindən çapa tövsiyə olunmuşdur

AQŞİN DADAŞ-ZADƏ
AMEA Ədəbiyyat İnstitutu
Hüseyn Cavid prospekti
agshin1960@rambler.ru

XIX ƏSRİN SONU - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN DRAMATURGİYASINDA İCTİMAİ-FƏLSƏFİ DÜŞÜNCƏNİN BƏDİİ TƏSVİRİ

Xülasə

Məqalə Azərbaycan cəmiyyətinin ictimai-siyasi problemlərinin milli dramaturgiyamızın çiçəkləndiyi dövrdə (XX əsrin sonu-XX yüzilliyin əvvəli) bədii təcəssümü məsələsinə həsr olunmuşdur. Məhz bu dövrdə onun N.Vəzirov, N.Nərimanov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə kimi istedadlı nümayəndələri fəaliyyət göstərmişdir. Fərqli düşüncə tərzi və məxsusi yazı üslubuna malik bu şəxslər rus və Qərb dramaturgiyasının nailiyyətləri ilə yaxından tanış olmaqla yanaşı, nəzəri cəhətdən də müvafiq hazırlığa malik idi. Həmin səbəbə görə onlar yaşadıqları dövrün ən aktual mövzularına müraciət edir və bu mövzuları bədii cəhətdən sənətkarlıqla işləyə bilirdi. Adları göstərilən qələm ustalarının xalqın taleyi ilə bağlı mühüm tarixi məqamlara toxunan pyeslərinin Azərbaycan dramaturgiyasında xüsusi yeri vardır. Bədii təxəyyülün gücü sənətkarlara zahirən məişət "libası"na bürünmüş mövzular fonunda insan və cəmiyyətin taleyi ilə bağlı ciddi düşüncələrə yer ayırmaq imkanı verirdi. Xüsusilə vurğulamalıyıq ki, dramlarda haqqında bəhs edilən problemlər sırf milli çərçivəni aşaraq, bəşəri miqyas alırdı. Dinamik süjetlər, kompozisiya cazibədarlığı, personajların xarakterləri arasındakı təzadın ustalıqla verilməsi, ən başlıcası isə, sanki adi, gündəlik hadisələrin gizli qatından dünya düzümü ilə bağlı dərin məna daşıyan mətləblərin "qazılıb" gündəmə gətirilməsi istəyi bu dramaturqların əsərlərini fərqləndirir. Bütün bu təşəbbüslərin arxasında müəlliflərin milli dram sənətini əvvəllər tətbiq edilməyən bədii priyomlarla zənginləşdirmək və onun inkişafına yeni nəfəs vermək niyyəti durmuşdur.

Açar sözlər: dramaturgiya, fəlsəfə, bədiilik, personaj, psixologiya

XIX əsrin sonu -XX yüzilliyin ilk illərində bütün dünyanı bürümüş ictimai-siyasi, iqtisadi çaxnaşmalar böyük və qəddar imperiyanın tərkibində olan, coğrafi baxımdan ərazisi kiçilmiş Azərbaycan kimi bir məmləkətə də öz təsirini göstərir, dəhşətli təlatümlərlə müşayiət olunan proseslər insanların taleyində əsaslı çevriliş törədir, xalqın düşünən beyinlərinin idrakına sarsıdıcı zərbə vurur, eyni zamanda da, onlara dövrü, zamanı qabaqlayan, ümummilli mədəni-mənəvi inkişaf və tərəqqiyə yönələn ideyalarla zəngin impulsları ötürürdü. Belə bir mürəkkəb şəraitdə inkişaf etməkdə olan dram və teatr sənətimiz sahəsində çalışan müəlliflər əsərləri üçün seçdikləri mövzuların aktuallığına, süjetlərin ideya-bədii dolğunluğuna ciddi diqqət yetirməklə yanaşı, yeri gəldikcə, pyeslərinin ictimai və fəlsəfi vəzninə də önəm verməyə çalışırdılar. N.Vəzirov, N.Nərimanov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə kimi istedadlı və geniş dünyagörüşlü qələm sahibləri dərk edirdilər ki, dünya nizamının sürətlə dəyişdiyi bir vaxtda xalqa yalnız onu yaxından maraqlandıran məsələlərə dair bəsit süjetli əsərlər təqdim etmək kifayət deyil. İndi elə bir zaman yetişmişdir ki, səhnəyə tədricən insanın varlığı və fəaliyyəti ilə bağlı mühüm mətləbləri əhatə edən, tamaşaçını sözün həqiqi mənasında düşündürə biləcək pyeslər çıxarmaq lazımdır. Bu səbəbdən adları çəkilən dramaturqlar öz yaradıcılıq vəzifələrini bir qədər də genişləndirərək, hətta mürəkkəbləşdirərək bədiilik, dil və ifadə aydınlığı, cazibəli kompozisiya kimi ünsürlərə sadiq qalmaqla yanaşı, "auditoriya"nı daha yüksək kateqoriyalarla düşünməyə hazırla-

yırdılar.Yeni yaradıcılıq vəzifələrinin həllinə girişən ilk dranaturqlarımızdan biri Nəriman Nərimanov idi. İnsanların dünyagörüşündəki qüsurlara, onların mənəviyyatı və tərbiyə sferasındakı problemlərə, ümumən milli mentalitetdə kök salan arxaik təsəvvürlərə analitik yanaşma, məsələn, onun ilk dramı olan "Nadanlıq"da (1894) özünü büruzə verir. Bu pyesdə, adından hiss olunduğu kimi, ədibin yaşadığı dövrdə mövcud Azərbaycan cəmiyyətinin aktual əxlaqi-etik problemləri gündəmə gətirilir, millətin zərərli meyllər üzərində formalaşmış bir sıra qüsurlu, həm ailə, həm də bütün toplum üçün ziyanlı olan, təhlükəli məqamlara münasibət bildirilir. Əlbəttə, N.Nərimanovu, millətinin bu gününü və gələcək taleyini düşünən maarifçi bir ziyalı kimi, kütlələrin düşüncəsində, psixoloji aləmində yuva salan və çox vaxt tendensiya şəkilini alan reallıqlar ciddi narahat edirdi. Bu səbəbdən, yəni fikirini daha qabarıq şəkildə ifadə etməkdən ötrü müəllif əsərin süjet xəttini xarakter, tərbiyə və intellekt cəhətdən bir-birinin tam əksi olan iki qardaşın həyata, onun mənasına və cəmiyyətdə davranış normalarına baxışlarının ifadəsi üzərində qurmuşdur. Bədii baxımdan ümumən inandırıcı boyalarla verilmiş bu təzad çərçivəsində, deyək ki, bir etnik qrupun nümayəndələri arasında, hətta bir ailə daxilində mənəvi-ideoloji cəhətdən güclü və qarşısıalınmaz parçalanma, kəskin düşmənçilik səviyyəsinə çatan münasibətlər göstərilir. Pyesdə müşahidə etdiyimiz reallıq, ələlxüsus bu günün müstəvisindən baxdıqda, belə bir təsəvvür oyadır ki, dramaturq seçdiyi təsvir üsulu ilə bir dərəcəyədək mübaliğəyə yol vermişdir. Ona görə ki, əsərdəki ata surətinin, ən çox da qardaşlardan birinin əxlaq və davranış kodeksi ilə bağlı təsəvvürləri bədii şərtilik çərçivəsində verilsə belə, kifayət qədər aqressiv mahiyyət daşıyır. Lakin Azərbaycanın tarixi ilə tanış olan şəxslər bilməmiş deyillər ki, pyesdə haqqında bəhs olunan hadisələr öz dövrü üçün heç də nadir bir nümunə olmayaraq, bəzi məqamlarda tipik-ümumiləşdirici səviyyəyə yüksəlmişdir.

Daha bir diqqətəlayiq gerçəklik ondan ibarətdir ki, surəti ümumən müsbət planda işlənmiş digər qardaş müəyyən təhsil alıb ədəb-ərkan və tərəqqiyə xidmətin zəruriliyi haqqında ümumi anlayışlara malik olsa da, istedad və biliyini cəmiyyətin xeyrinə işləyən bir məcraya yönəldə bilmir. O, özü başa düşdüyü şəkildə nə qədər humanist fikirli adam olsa da, bütün çabaları zahirən insanlara təmənnasız xidmətə tabe etdirilsə də, xeyirxahlığı dar və birtərəfli şəkildə təsəvvür edir. Həmin səbəbə görə onun fəaliyyəti yaşayıb çalışdığı mühitin ab-havasının sağlamlaşdırılmasına xidmət etmir. Belə olduqda, bu qəhrəmanın, qardaşı tərəfindən əslində səbəbsiz olaraq qətlə yetirilməsi dramaturji inkişafın qanunlarına tam uyğun olmasa da, əsərin realist, sərt boyalarını bir qədər də tündləşdirmişdir. Cəmiyyətin ümumi geriliyi, intellektual durumun faciəvi mənzərəsi, milləti təşkil edən kütlənin göstərilən zaman çapında tələb olunan minimal inkişaf standartları ilə ayaqlaşa bilməməsi, təhrif olunmuş dini anlayışlardan törəyən, sxolastikaya söykənən düşüncə və davranış "normativ"ləri N.Nərimanovu bir mütəfəkkir və ziyalı kimi nə qədər düşündürsə də, sözün həqiqi mənasında, o, mövcud vəziyyətdən çıxış yolu da görmürdü. Heç də əbəs deyil ki, alman filosofu Şopenhauer vaxtilə belə bir fikir ifadə etmişdi: "...nikbinlik, əgər o, yastı alınları arxasında mənasız sözlərdən başqa bir şey görünməyən insanların ibarəpərdazlığı deyilsə, zənnimcə, yalnız ağlasığmazlığı ilə kifayətlənməyən, həm də, şəkk-şübhəsiz, bəşəriyyətin təsviredilməz iztirablarına acı rişxənddən başqa bir şey olmayan vicdansız bir dünyagörüşüdür".Şübhəsiz ki, hər şeyi görən və dərk edən nadir intellekt sahibi N.Nərimanov millətin ümumi bəlalarının səbəbi ilə bağlı təhlil aparmamış deyildi. Həmin təhlil nəticəsində isə, görünür, ona aşkar olmuşdu ki, kütləvi surətdə maariflənmə, savadlanma da yaranmış vəziyyətdən çıxış yolunu lazımınca təmin etmir. Dramaturq, haqqında bəhs olunan pyesdə mövcud ictimai-psixoloji, sosial labirintin gizli qatını həssaslıqla duymuş, toplumun əsas problemlərini canlandırmış, lakin onlardan qurtulmağın yolunu söyləyə bilməmişdir.Beləliklə, dövrün acı gerçəkliyi kifayət qədər sərt, realist boyalarla, bir qədər də hiperbolizasiya olunmuş şəkildə təqdim edilərək ciddi düşüncələrə yol açmışdır.

Ədibin ictimai-siyasi məzmunlu, həm də fəlsəfi vəznli "Nadir şah" pyesi (1899) toxunduğumuz mövzu çərçəvəsində böyük maraq doğurur. Hökmdar və kütlə münasibətlərinin bir çox məqamlarını əks etdirən bu əsər Azərbaycan xalqının müəyyən mənəvi-mental xüsusiyyətlərini də ehtiva edir. Despot bir dövlət rəhbərinin idarə üsulu, onun həm tabeliyində olan insanlarla rəftar tərzi, həm də dövlətçilik maraqlarından irəli gələn hərəkətləri burada müəllif tərəfindən ön plana keçirilmişdir. O, Nadirin despotizmini ilk növbədə onun genetik kökləri ilə əlaqələndirir. Lakin hökmdarın xasiyyətindəki cizgilərin canlandırılması onu yalnız müəyyən həddədək maraqlandırır və şahın hansı şəraitdə və potensial imkanlar hesabına taxt-taca yiyələnməsinə işıq salmaqdan ötrü, bir növ, yardımçı vasitə funksiyasını yerinə yetirir. Bundan sonra pyesin ikinci, zənnimizcə, əsas və aparıcı xətti işə düşür ki, o da dramaturqun, məmləkətin ümummilli maraqlar baxımından idarə olunması kimi hər zaman aktual olan bir məsələyə marağı ilə bağlıdır. Bu zaman Nadir şah tərəfindən görülən bəzi işlər və onların faydası realist təsvir müstəvisindən verilir. Diqqət çəkən məqamdır ki, şahın dünyagörüşündə müsbət yöndə baş verən dəyişikliyin əsas "memar"ı olan Cavad obrazı pyesin mürəkkəb toxumasına ustalıqla daxil edilmişdir. Məhz onun ideoloji müdaxiləsi nəticəsində Nadirin təhtəlşüurunda müəyyən vaxtadək mürgü vəziyyətində olan impulslar "dirilir" və öz nəcib işini görür. Buna baxmayaraq, hökmdarın faydalı təşəbbüsləri, gözlənildiyi kimi, müvəqqəti xarakter daşıyır ki, müəllifi göstərilən kontekstdə ilk növbədə bu məsələ düşündürür. Diktatorların əksəriyyəti (bəlkə də hamısı) kimi Nadirə də paranoya tipli şüur modeli xasdır ki, gec-tez özünü güclü surətdə büruzə verir və yalnız ailədaxili münasibətlərdə deyil, dövlət maraqları səviyyəsində də ciddi fəsadlar yaradır. N.Nərimanov, Nadir şahın öz doğma oğlunu bilərəkdən şikəst etməsi məsələsinə toxunaraq və əsərin finalında onun özünün alçaqcasına qətlə yetirilməsini təsvir edərək, tarixən yüksək mənsəb sahibi olan bu tipli şəxsiyyətlərin fərdi faciəsini bütün xalqın taleyində baş verən mənəvi-psixoloji sınma faktının üzərinə proyeksiya etmişdir. Belə ki, burada hökmdarın ölümü xalqın gələcək taleyinə birbaşa təsir edən bir qəzavü qədər formasına yaxınlaşmışdır. Müəllif bu reallığı pyesin alt (psixoloji) qatında fikri-emosional səviyyədə vurğulayaraq, bütöv bir qövmün gələcək aqibətinin dumanlı bir şəkil aldığını bildirmək istəmiş, özü də bu işi oxucunu düşünməyə sövq edən, özünəməxsusluğu ilə fərqlənən dramaturji üslubda yerinə yetirmişdir.

Həyatın gündəlik, daha çox zahiri əlamətlərini, məişət "bataqlığ"ından irəli gələn ənənəvi mənzərəsini bir qədər arxa plana çəkərək, mövcudiyyətin sirli mexanizminə, ümumi qanunauyğunluq və insanların şüurunda, əməllərində baş verən sapıntılara psixoloji, eyni zamanda da bir qədər mücərrəd fəlsəfi nöqteyi-nəzərdən yanaşmaq təşəbbüsü Əbdürrəhimbəy Haqverdiyevin "Pəri cadu" pyesində (1901) özünü güclü surətdə nümayiş etdirir. Həm mövzusu, həm insan mənəviyyatı və psixologiyasının naqisliyinin təsvirinə yanaşma üsulu, həm də simvolik-ümumiləşdirici nəticələrinə görə bu pyes yazıldığı dövrdə Azərbaycan dramaturgiyası üçün fenomenal bir hadisə hesab olunmalıdır. Qeyd etmək lazımdır ki, bəşəriyyətin mövcudluğunun mənası, insanların cılız hisslərinin əsiri olması məsələlərinə münasibət, süjetinin quruluşu və hadisələrin inkişafı, personajların düşüncə modelinin təqdimatındakı incə məqamlara görə bu əsər indinin özündə belə (yazıldığı tarixdən az qala 120 il ötdükdən sonra!—A.D.) bir çox milli dram nümunələrini üstələməkdədir. Heç şübhəsiz ki, əsaslı nəzəri biliyə malik, zəngin mütaliə sahibi Ə.Haqverdiyev yazıb-yaratdığı illərdə simvolizm kimi qeyri-adi və bədii potensialına görə cazibədar olan bir cərəyanla, onun aparıcı simaları hesab edilən dramaturqların (Hauptman, İbsen, Meterlink) yaradıcılığı ilə tanış idi. Bunu ədibin özü də etiraf edirdi. Zənnimizcə, sənətkar bu pyesində insanlar arasında münasibətlərin əzəli mürəkkəbliyi və onların zəif bir varlıq olaraq xislətinin islah edilməməsi məsələsini qabartmaq istəmiş, bəşəriyyətin tarix boyu mükəmməl quruluşdan uzaq olan bir toplum kimi formalaşmasına bədii-məfkurəvi bir baxış sərgiləmək məqsədi güdmüşdür.Beləliklə, ümumi parametrləri etibarilə, o qədər də əlverişli olmasa da, azçox müvafiq həyat modeli çərçivəsində yaşayıb fəaliyyət göstərən, bir müddət sonra isə hansısa

daxili impulsların təsiri ilə güzəranını, nəyin bahasına olursa-olsun, əsaslı surətdə yaxşılaşdırmağa can atan personajların seçdiyi davranış tərzinin (daha doğrusu, əsərin müəllifinin onlar üçün təyin etdiyi hərəkətlər kompleksinin) inandırıcı boyalarla işlənməsi pyesin simvolik-realist mayasının ifadə edilməsinə yardım göstərir.

"Pəri cadu"nun qayəsi və ümumi ovqatı ilə əlaqədar bir mühüm cəhəti də qeyd etmək lazımdır ki, əsərin ruhuna hakim kəsilən, "mövzu və obrazları üçün xarakterik olan solma (tənəzzül etmə), yuxu və ölüm kimi simvolizmə xas motivlər" onun toxumasında müəyyən kök buraxsa da, burada "zahiri hərəkətin tərəqqi edən iflic" vəziyyəti bir o qədər də müşahidə edilmir. Başqa sözlə, müəllif həyatda diqqətlə izlədiyi proseslərin neqativ axarını vurğulasa və təsvir etdiyi personajların gələcək taleyi ilə bağlı perspektivinin dumanlı olduğuna işarə etmiş olsa da, onun bu məqamda bədbinliyi Qərbi Avropa dramaturqlarının əsərlərində əks etdirilən mövqedən fərqlənir. Elə isə, Ə.Haqverdiyevin simvolist bir dram yaratmaq niyyəti də özünəməxsus çalarları ilə seçilən orijinal bir nəticə vermişdir. Pyesin bu keyfiyyətini vaxtilə Əli Sultanlı dəqiq müşahidə edərək belə bir nəticəyə gəlmişdi: "Əsərdə ("Pəri cadu"—A.D.) çox real məişət səhnələri, ailə münasibətləri, insan surətləri verilmişdir. Fövqəltəbii qüvvələr ecazkarlıq qabiliyyətindən məhrumdurlar və onlar şərti mahiyyət daşıyırlar. Hadisələrin gedişinə istiqamət verə bilmirlər..." (2, 264). Göründüyü kimi, Ə.Haqverdiyev Azərbaycan dramaturgiyasına novator bir pyes töhfə etməklə, simvolizm cərəyanının əsas ünsürlərinə sadiq qalmış, eyni zamanda bir çox kəskin realist və öz dövrü üçün bəlkə də modernist cizgiləri olan əsər qələmə almışdır. Ən diqqətçəkən məqam isə ondan ibarətdir ki, ədib iki əsrin qovşağında Azərbaycan cəmiyyətinin durumunun lokal bir fraqmentini nümunə olaraq alsa da, bütün insanlar üçün səciyyəvi olan əbədi problemləri gündəmə gətirmiş, bu zaman ümumbəşəri mahiyyət daşıyan bir mövzunun ayrı-ayrı xüsusiyyətlərini milli kolorit, o cümlədən folklordan qidalanan elementlərlə zənginləşdirərək bədii-emosional şəkildə canlandırmışdır.

XIX əsrin sonu Azərbaycanda elə bir dövr idi ki, artıq yaxın regionlarda cərəyan edən mürəkkəb ictimai-siyasi proseslər və onların təsiri burada da özünü göstərməyə başlayırdı. M.F.Axundov, H.Zərdabi və digər görkəmli ziyalıların fədakar səyləri nəticəsində bir çox hallarda Şərq mentalitetindən doğan, onilliklər boyu dini-sxolastik görüşlər dairəsində qalaraq ümumbəşəri inkişafdan uzaq düşən insanların beyninə tədricən inkişaf və tərəqqinin toxumları "səpilməyə" başlamışdı. Bu proses doğma ədəbiyyatımızdan da yan keçməmiş, onun bütün növlərində özünü göstərmişdi. Belə bir şəraitdə ədiblərimiz həm milli şüurdan doğan problemlərin səbəblərini bədii cəhətdən inandırıcı və emosional şəkildə açıb göstərmək, həm də öz tərəqqipərvər ideyalarını xalqa çatdırmaq üçün dramaturgiyada janr müxtəlifliyi məsələsinə də diqqət verirdi. Azərbaycan şəraitində faciə janrında yazılan ilk nümunələrin meydana gəlməsi isə yüksək dramaturji istedada malik şəxslərin özünü yaradıcılıq baxımından daha əsaslı şəkildə təsdiq etməsi ilə müşayiət olunurdu. Qeyd edilməlidir ki, ilk milli faciələrimiz həm məzmun, həm də həmin məzmuna uyğun gələn ideya istiqaməti və bədii ifadə vasitələri sistemində spesifik cizgilərə malik idi ki, indinin özündə də istər sənətkarlıq, istərsə də ictimai düşüncə baxımından unikal bir hal, məfkurəvi siqlət nümunəsi kimi qavranılmaqdadır. Məsələn, "Müsibəti-Fəxrəddin" pyesini (1896) ideya-tarixi, eyni zamanda da poetika prizmasından təhlilə çəkən Y.Qarayev onun nüvəsini təşkil edən əsas fikri, tendensiyanı, zənnimizcə, ümumən dəqiq müəyyənləşdirmişdir: "Maarifçilik bütünlükdə ilk realist faciələrin (Azərbaycanda faciə janrında yazılan pyeslər nəzərdə tutulur.—A.D.) əsas xüsusiyyəti kimi meydana çıxır. Maarifçi bədii-fəlsəfi fikirdə isə ifşa və tənqidin əsas hədəflərindən biri nadanlıq idi. Burada nadanlıq bəzən tragik tale şəklində təsvir olunurdu" (3, 52). Tədqiqatçı müstəqim şəkildə ifadə etməsə də, onun yazdıqlarının ümumi ruhundan bəlli olur ki, N.Vəzirov xalqın təmsilçisi olan bir qrup insanı vaxtı çoxdan ötmüş adətlər girdabında təsvir edərkən (öz dövrünün mədəni-texniki inkişafı ilə müqayisədə!—A.D.), real tragizmin ehtiva etdiyi fəsadları ciddi təhlilə çəkmiş və onların yanlış

inanclar, habelə onillər boyu davam edən bəzi psixoloji əyintilər mənbəyindən qidalandığı ideyasını bir əsas kimi götürmüşdür. Bir qədər də dərinə getsək göstərməliyik ki, dramaturq, faciəsini təsvir etdiyi ailələrin başı üzərini almış bəlaların (illərlə formalaşmış ictimai münasibətlərin) artıq konkret olaraq hansısa naməlum qüvvə tərəfindən qarşısıalınmaz, mistik bir şəkildə idarə olunması fikrini də intuitiv olaraq ortaya qoymuşdur. Məhz bu məqamda "Müsibəti-Fəxrəddin"lə bəzi antik yunan faciələrinin oxşar motivləri haqqında söz açmaq zərurəti meydana gəlir. Məsələn, qədim yunan faciəsinin banisi hesab olunan Esxilin "Xoeforlar", "Evmenidlər" əsərlərində bir nəsil daxilində baş verən qətl hadisələrinin qanla yuyulması məsələsi gündəmə gətirilmişdir. Burada dramaturq həm konkret bir nəsil üzərində hökm kəsilmiş qəzavü qədər mövzusuna, həm də o dövrün inanclarına uyğun olaraq allahların iradəsi məqamına toxunur və baş verən faciələrdə bu qüvvələrin rolunu layiqincə qiymətləndirir. Lakin qədim yunan mədəniyyətinin görkəmli nümayəndəsi kimi Esxil öz yaradıcılıq vəzifəsini yalnız fövqəlbəşəri güclərin taleyüklü "fəaliyyət"inin təsdiqi ilə məhdudlaşdıra bilməzdi. O, qanlı faciələrin bir nəsil daxilində, daha geniş mənada isə ümumiyyətlə cəmiyyətdə hər hansı formada baş verməsini ağlasığmaz bir vəhşət kimi dəyərləndirərək, əsərlərinin əsas qayəsini insanların şüuruna yönələn islahat motivlərinə doğru yönəltmişdir.

Əgər "Müsibəti-Fəxrəddin" pyesinin süjet xəttini, onun qələmə alındığı illərdə Azərbaycan dramaturgiyası üçün yeni olan məna çalarlarını, pafosunun xüsusiyyətlərini daha dərindən təhlilə cəlb etsək aşkar olar ki, burada qədim dövrün tragiklərinin əsərləri üçün xarakterik cizgilər, ümumiyyətlə ciddi bir məfkurəvi-emosional "ağırlıq mərkəzi" vardır. Əlbəttə, N.Vəzirov dövrünün görkəmli ziyalısı olmaqla yanaşı, sırf ateist mövqedə dayananlardan da deyildi. Onun maarifçi baxışları xalqın ürəkdağlayan durumuna ürəkdən yanması, bu vəziyyətdən çıxmasını arzulaması və bunun üçün fəaliyyət göstərməsi ilə yanaşı, faciəli taleyə inam hissinin bəzi ünsürlərini də əhatə etmişdir. Daha dəqiq desək, dramaturqun dünyagörüşündə xalqın müəyyən qruplarının (nəsillərinin) öz əməllərinə görə fövqəltəbii qüvvə tərəfindən lənətə düçar olması və fasiləsiz olaraq bu ağır yükün acısını dadmağa məhkum edilməsi ideyası müəyyən dərəcəyədək az qala mistik bir səviyyədə hiss edilməkdədir. Lakin müəllif belə bir vəziyyətin dəf edilməsinin mümkünlüyü fikrindən də əl çəkmir. Əsərin ideyası ondan ibarətdir ki, əgər insan öz iradəsini toplayıb, dünyaya bir qədər geniş müstəvidən baxsa, uzun müddət ərzində formalaşan, genetik səviyyədə kök salan ziyanlı davranış modelini götür-qoy etsə, bir işi icra etməmişdən əvvəl dərindən düşünsə (şübhəsiz ki, burada fərdin intellekt, savad və dünyagörüşündən də çox şey asılıdır!—A.D.), səhvləri ard-arda sıralamaz,özünün və ətrafındakıların həyatında müəyyən təshihlərə nail ola bilər. Pyesin inkişafı boyu getdikcə mürəkkəbləşən kompozisiya, rənglərin daha da tündləşməsi, dramaturji gərginliyin sözün müsbət mənasında həddi aşması fonunda meydana çıxan konkret məkan—zaman—mənəvi-psixoloji iqlim üçlüyünün kəskin, daha dəqiq desək, dəhşətli mənzərəsi məhz həmin fikrin kütlələrə ekspressiv və təsirli formada çatdırılmasına hesablanmışdır.

Fəlsəfi məfkurənin dərinliyi insan münasibətlərinin, bəlkə də, ibtidai-icma quruluşundan betər müstəvidə təzahür etdiyi "Ölülər" pyesində (C.Məmmədquluzadə,1909) özünü sarsıdıcı bir realist mənzərə şəklində nümayiş etdirir. Bu pyesdə təsvir edilən hadisələrə yaxın olaylar ötən əsrin əvvəllərində, görünür ki, vətənimizin hansısa məmləkətlərində baş verdiyindən və dramaturq, qələmini işlədərkən məhz şəxsi müşahidələrinə istinad etdiyindən onun bədii ifadəsi (əlbəttə, ilk növbədə müəllifin böyük istedadı və milli təəssübkeşliyi səbəbindən.—A.D.) olduqca güclü alınmışdır. Akademik Məmməd Arif 1967-ci ildə yazdığı və C.Məmmədquluzadənin yaradıcılığına həsr olunan "Böyük müasirimiz" məqaləsində ədibin dram əsərlərinin əsas ruhunu təşkil edən depressiyaya, hətta fatalizmə dair fikirlərini öz dövrünün (sovet dövrünün—A.D.) ideoloji-siyasi məhdudiyyətlərinin icazə verdiyi çərçivədə belə ifadə etmişdir: "Onun komediyaları (o cümlədən "Ölülər"—A.D.) özünəməxsusdur, burada tragizm mühüm rol oyna-

yır... Bir ağıllı qəhrəmanın iyirmi beş nəfər ölüyə və ya ağıllıya qarşı durması, nəticəsiz mübarizə aparması əsərlərə ictimai kədər motivi əlavə edir, tragizm gətirir" (4, 155). Doğrudan da, pyesin əsas qəhrəmanı İsgəndərin zehni nə qədər iti olsa da, onun nalayiq cəmiyyətə qarşı hər halda nəzəri cəhətdən öz təsdiqini tapan şərti mübarizə üsulu güclü iradədən doğan bir akt kimi qəbul edilsə də, niyyəti pozitiv mahiyyət daşısa da, bu çabaların nə vaxtsa səmərə verəcəyi böyük şübhə altındadır. Söz yox ki, konkret bir reallıq qarşısında yaranan çıxılmazlıq əhvali-ruhiyyəsi, təsvir etdiyi toplumun qaranlıq bir "dalan"da ilişib qalmasından doğan ümidsizlik C.Məmmədquluzadəni bir mütəfəkkir, vətənpərvər ictimai və ədəbiyyat xadimi kimi əzir və sarsıdırdı.

Zaman ötdükcə, sənətin sirləri və nəzəriyyə ilə bağlı mənbələrə doğru aparan yollar durulduqca, bir sözlə, tədqiqat sferasının paradiqması genişləndikcə toxunduğumuz mövzu və konkret olaraq əsərlə əlaqədar ifadə edilən fikirlər də yeni çalarlar əldə etməyə başladı. Lakin istənilən halda problemin məğzi ona hansı dövrdən nəzər yetirilməsinə baxmayaraq, öz əhatə dairəsini əvvəlkitək mühafizə edirdi. Məsələn, ədəbiyyatşünas C.Yusiflinin "Mirzə Cəlil komediyalarında struktur-kompozisiya xüsusiyyətləri" məqaləsində ortaya qoyduğu mülahizə "Ölülər" pyesinin fəlsəfi qatının nüvəsinin daha dəqiq qavranılması baxımından maraq doğurur: "...strukturu canlandırmaq niyyəti bütün dahi sənətkarların yaradıcılığında bu və ya digər şəkildə ifadə olunmuşdur. Misal üçün, Mirzə Cəlilin "Ölülər" və "Dəli yığıncağı" komediyalarını göstərmək olar... "Ölülər"də kim nə deyir desin, Mirzə Cəlili tip yaratmaq niyyəti zərrə qədər də maraqlandırmayıb, o, ÖLÜLƏŞMƏNİN özünü bir tam kimi, bir proses kimi alaraq sübut edir ki, dünyanın əsl mahiyyəti, modeli-karkası dağıldıqdan sonra yerdə qalan özülü budur" (1, 205). Düşünürük ki, əsərin əsas ideyasının əks etdirilməsi üçün belə bir mülahizənin irəli sürülməsi gerçəkliklə kifayət qədər uzlaşır. İsgəndərin və onun ən yaxın adamlarının pyesdə təsvir olunan mühitdə yaşaması, hər gün onun "zəhərli" havasını udması, cəmiyyətin insani keyfiyyətlərini, ən başlıcası isə, faktiki olaraq düşüncə qabiliyyətini itirmiş ünsürləri ilə istər-istəməz təmasa girmək məcburiyyəti əsl fantasmaqoriyanı xatırladır. Elə isə, əsərin qəhrəmanının düşüncə tərzi və hərəkətlərindəki müəyyən neqativizmi başa düşmək və ona bəraət qazandırmaq mümkündür. Nə qədər acı olsa da, bir məqama diqqət yetirmək gərəkdir: "Qriboyedovun Çatskisi ("Ağıldan bəla" pyesinin qəhrəmanı nəzərdə tutulur.—A.D.) əsərin sonunda baş götürüb ölkədən gedir. İsgəndər isə heç yerə getmir, o öz xalqından ayrıla bilmir, əsər onun qələbəsi ilə bitir, lakin bu qələbə məğlubiyyətə bərabərdir" (4, 155). Qələbəyə bərabər məğlubiyyətlər isə öz ardınca, adətən, yeni sarsıntı və məhrumiyyətlər çəkib gətirir.

Yuxarıda irəli sürülən mülahizələrdən aydın olur ki, iki əsrin qovşağında fəaliyyət göstərən dramaturqlarımız öz istedad və fikir potensialını əsasən ümummilli durumun heç də ürək açmayan tərəflərinin göstərilməsi üzərində cəmləşdirərək, həyatın insan üçün "tədarük etdiyi" ağır imtahanlar və onun həmin imtahanlara nə dərəcədə hazır olması mövzusunun bədii-fəlsəfi dərkini hədəfə alırdılar. Öz dövrü üçün kifayət qədər yüksək peşəkarlıqla yazılmış müvafiq pyeslər tamaşaçını düşündürməklə yanaşı, ona həyatın neqativ boyalarına münasibətdə daha həssas olmağı aşılayırdı. Ümumiyyətlə, bu əsərlərdə həyatın insana qənim kəsilən qüvvənin "fəaliyyət"i üzərində bərqərar olması, onun mənbəyi bəlli olmasa da, yaşayışın (mövcudiyyətin) bir funksiyasına, daimi keyfiyyətinə çevrilməsi fikri istər-istəməz özünü büruzə verir. Nəticədə, haqqında bəhs etdiyimiz dramaturji irs bir sıra hallarda milli çərçivələri vurub yıxaraq, məna və pafosu etibarilə, bir qədər mübaliğəli səslənsə də, bəşəriyyətin ümumi və əbədi durumu üzərinə proyeksiya olunur. Bununla da, onun məfkurəvi-estetik dəyəri xüsusi çəki qazanır.

Ədəbiyyat

1.Cavanşir Yusifli. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. I c. Bakı: Elm, 2006

2.Əli Sultanlı. Azərbaycan dramaturgiyasının inkişafı tarixindən. Bakı: Azərnəşr, 1964
3.Q.Yaşar. Faciə və qəhrəman. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1965
4.Məmməd Arif. Sənətkar qocalmır. Bakı: Yazıçı, 1980

Агшин Дадаш-заде

Художественное отображение общественно-философской мысли в азербайджанской драматургии конца xix- начала xx веков

Резюме

Статья охватывает общественно-политические проблемы азербайджанского общества, нашедшие художественное отражение в национальной драматургии в пору ее расцвета, пришедшего на конец XIX-начало XX столетий. Именно в это время жили и творили такие талантливые мастера пера, как Н.Везиров, Н.Нариманов, А.Ахвердиев, Дж.Мамедкулизаде. Эти люди, обладающие неординарным мышлением, особой манерой письма, были хорошо знакомы с достижениями русской и западной драматургии, обладали необходимой теоретической подготовкой. Благодаря этому они затрагивали и мастерски облекали в художественную форму самые актуальные темы современности. Особое место в азербайджанской драматургии занимают их драмы, связанные с исторической судьбой народа. Богатое воображение позволяло им создавать произведения, за бытовой оболочкой которых скрывались серьезные думы о судьбе человека и общества.

Особо следует подчеркнуть, что затронутые проблемы не носили узко национальный характер, а обладали общечеловеческим измерением. Динамика сюжетов, композиционная привлекательность, удачно изображаемый контраст между персонажами, и, самое главное, стремление разглядеть за, казалось бы, будничными событиями глубокий смысл, связанный с устройством мироздания, отличают пьесы вышеназванных драматургов. За всеми этими чаяниями просматривается желание авторов обогатить национальное драматическое искусство дотоле неизвестными художественными приемами и придать его развитию новые импульсы.

Ключевые слова: драматургия, философия, художественность, персонаж, психология

Agshin Dadash-zada

artistic reflection of public-philosophical thought in azerbaijan dramaturgy of the end of the xix-beginning of the xx centuries

summary

The article covers the socio-political problems of Azerbaijani society, which found artistic reflection in the national drama at the time of its prosperity, which came to the end of the 19th and beginning of the 20th centuries. It was at this time that such talented masters as N. Vezirov, N. Narimanov, A. Akhverdiev, J. Mammadkulizade lived and worked. These people, who have extraordinary thinking, a special manner of writing, were well acquainted with the achievements of Russian and Western drama, and had the necessary theoretical training. Thanks to this, they touched and masterfully clothed in art form the most relevant topics of our time. A special place in Azerbaijani dramaturgy is occupied by their dramas related to the historical fate of the people. A rich imagination allowed them to create works, behind the everyday shell of which were serious thoughts about the fate of man and society.

It should be emphasized that the problems raised did not have a narrowly national character, but had a universal dimension. The dynamics of the plots, compositional attractiveness, the contrast between the characters, and, most importantly, the desire to discern the deep meaning associated with the structure of the universe behind the seemingly every day events, are distinguished by the plays of the above playwrights. Behind all these aspirations, one can see the authors' desire to enrich the national dramatic art with unknown artistic techniques and give new impulses to its development.

Key words: dramatic works, philosophy, artistry, personage, psychology

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 25.10.2019
Filologiy elmləri doktoru, Məhəmmədəli Mustafayev tərəfindən çapa tövsiyə olunmuşdur

АЙТАН ГУСЕЙНОВА
Бакинский Славянский Университет
ayabenzer82@mail.ru

ТЕМА СЕМЬИ В РАССКАЗАХ Л. УЛИЦКОЙ

Резюме

Тема «семьи» в женской литературе считается самым главным. В статье в рассказах Л. Улицкой показывается традиции русской семьи. Семейная проблематика всегда отражается в произведениях женских писателей. В литературе произведениях женских писателей показывается семейные условии в кризисе. В современным модели семьи было изменена некоторые вещи, и эта нашла свое отражение в произведениях Улицкой. Семейная проблема всегда была связана с любовью. В рассказах Л. Улицкой мотив любви рассматривается в нескольких ситуациях. В рассказах Улицкая показывает разные виды любви. Тема семьи в рассказах Л. Улицкой тоже дается в прогрессе любви. В произведениях Улицкой очень трудно найти тему любви. Если в произведениях есть любовь, это означает, что там есть и семья. В статье автор постаралась показать каждую тему с чувством. В прозе Улицкой представлены всякие типы любви. Любовь может быт идентифицирована сложным комплексом чувств. Они связывается с духовным началом. В современной семье женское начало довлеет над мужским, что является, по мнению автора, отражением дисгармонии действительности. Именно семья в художественном мире Л. Улицкой приобретает значение доминирующей категории. В статье автор исследовав произведении Улицкой привадила примеры, и показала читателю внутренний мир основных героев.

Ключевые слова: семья, женский роман, писатель-женщина, тема любви, характеры, мать и отец.

Тема семьи в женской прозе является одной из магистральных. Об этом пишут такие исследователи современного литературного процесса, как И. М. Попова, Е. В. Любезная, Г. А. Пушкарь, Т. А. Ровенская, И. Л. Савкина. Известный петербургский исследователь русской литературы М. А. Черняк также полагает, что «мысль семейная» – основная тема женской прозы. В традиции русской классической литературы семья – нравственная основа человеческого быта и бытия. Семейная проблематика охватывает почти все произведения XIX века. Век XX – страшный и трагический – внес свои коррективы в восприятие этой темы [8 с. 30]. Произведения писателей-женщин в литературе фиксируют кризисное состояние семьи в обществе. В творчестве Л. Петрушевской, как полагают Н. Л. Лейдерман и М. Н. Липовецкий, выражена катастрофа современной семьи: «Драматическая ситуация у Петрушевской всегда обнажает искаженность человеческих отношений, особенно в семье или между мужчиной и женщиной» [3 с 29].

В процессе работы над проблематикой исследования нами был выделен ряд аксиологически значимых мотивов, идентифицирующих тему семьи, – мотив детства, интонирующими образами которого являются образ ребенка, матери, отца, а также мотив любви, воплощенный образами «нелепого» брака, настоящей семьи, жалости, ревности и другими. Данные мотивные комплексы представлены двумя полемизирующими значениями: конструктивным и деструктивным. Обратимся к анализу конкретных рассказов. Одним из магистральных в развитии семейной темы является мотив любви. В

рассказах Л. Улицкой данный мотив развивается в нескольких сюжетных ситуациях. Одна из них – нелепый брак. Рассмотрим цикл «Тайна крови». Данный образ присутствует во всех рассказах цикла, кроме «Старшего сына», однако представлен в каждом из произведений по-разному. В «Установлении отцовства» женитьба полноватого, лысоватого Лени на красавице Инге воспринимается окружающими как «нелепый брак». Вскоре брак этот распадается. Но самопожертвование героя и его безмерная любовь к жене и неродным детям на протяжении всей жизни помогают воссоздать семью. В рассказе «Певчая Маша» представлена иная ситуация. На первый взгляд, «настоящая семья» Ивана да Марьи оказывается «нелепым браком», и лишь только с любящим художником Александром Маша обретает настоящее семейное счастье. Таким образом, в оппозиции к нелепому браку возникает ситуация настоящей семьи, построенной на любви. Она в полной мере представлена в рассказе «Старший сын»: «Они, мало сказать, любили друг друга – они друг другу нравились: даже когда она впадала в истерику, а с ней такое случалось, и рыдала, и швыряла предметы, – он смотрел на нее с умилением: как женственна… А он, пьяный, казался ей трогательным, страшно искренним и нуждающимся в ее опеке» [7 с 79]. В рассказе «Сын благородных родителей» один из героев рассуждает: «Брак – ответственное предприятие. Он не имеет никакого отношения к тому, что в молодости мы называем любовью. У меня был очень хороший брак с моей покойной женой именно потому, что был построен не на любви. Но к детям брак тоже не имеет отношения. Хотя у нас с женой был сын, ты знаешь… Он рано погиб, а мы с женой остались близкими друзьями, партнерами в большой игре, никогда не мешали друг другу и, напротив, всегда старались помогать. Ребенок не представляется мне необходимым условием брака, а тем более его предпосылкой» [7, с 80]. Герой рассказа, Андрей Иванович, рассуждает именно о браке. Поэтому относительно сюжетов малой прозы Л. Улицкой можно утверждать, что брак и семья – не слова-синонимы. Все события рассказов цикла полемизируют с представленными рассуждениями героя. Настоящая семья может быть построена только на любви, а ребенок скрепляет семейные отношения. При описании природы брака автор позволяет себе явную иронию: «Сексуальная революция уже шла к закату, и вторые браки оказывались крепче первых, а третьи – совсем похожи на настоящие» [8, с. 67] (рассказ «Дина»). Обращаясь к значению слов брак и семья, можно говорить о существенном различии этих двух понятий в художественном мире Л. Улицкой. Брак – взаимовыгодный союз двух людей, основанный не на взаимной любви, а, как считает герой рассказа «Голубчик», «на основании честного брачного договора: ты – мне, я – тебе» [6, с 45]. В прозе Л. Улицкой представлены разные типы любви. Любовь может быть идентифицирована сложным комплексом чувств. Они связываются не с телесным, а с духовным началом («Короткое замыкание», «Счастливые», «Коридорная система», «Искусство жить» и пр.). Конструктивным образом, интонирующим тип любви духовной, выступает жалость. Например, в рассказе «Установление отцовства» Леня говорит жене о своей возлюбленной: «Инга такая хрупкая, такая ранимая… Ей без меня никак не справиться. А ты человек крепкий, сильный, ты все выдержишь» [7, с 84].

Тема семьи в рассказах Л. Улицкой представлена не только в развитии любви, но и в образах и мотивах детства, которые наиболее полно воплотились в раскрытии ключевых моментов особенной роли ребенка в семье, его особого положения. В рассказах цикла «Тайна крови» с мотивом детства связаны три основных образа: ребенок, мать, отец. В первом рассказе цикла «Установление отцовства» на уровне авторского сознания заявлена проблема чужого/родного ребенка и настоящего/неродного отца, которые сопровождаются возникновением интонирующей ситуации – семейной тайны, тайны рождения. В рассказе «Старший сын» он достигает своего кульминационного развития и обрастает

деструктивным состоянием страха героя перед раскрытием тайны рождения ребенка. Произведение повествует о переживаниях отца по поводу обнаружения старшим сыном тайны собственного рождения, о страхе перед возможностьюразрушения семейного счастья. Однако семья сохраняется, так как актуализируется семантический комплекс настоящего отца: для старшего сына, Дениса, отец – тот, кто его воспитал, кто сделал их семью счастливой: «Он попробовал вообразить их дом без отца, и его насквозь прожгло» [7, с 85]. Аналогично в первом рассказе цикла «Установление отцовства» трое детей, рожденные от разных мужчин, называют папой Леню, который их воспитал и который их искренне любит. Продолжая развитие полемизирующих мотивов, в рассказе «Певчая Маша» автор иллюстрирует заявленную ситуацию с другой стороны. Родной отец (по крови) бросает жену и детей, отказываясь от них, и обвиняя жену в измене. В финале также появляется мужчина, который становится настоящим отцом для детей героини и любящим мужем для нее самой. Резюмируя образы, заявленные в трех первых рассказах цикла, заключительное произведение, «Сын благородных родителей», по-иному раскрывает проблему отцовства. Несмотря на то, что Миша считает Григория Наумовича своим отцом, родной отец, Андрей Иванович, его не бросает, опекая всю жизнь. Таким образом, в цикле рассказов «Тайна крови» центральным становится образ настоящего отца. В первом абзаце произведения «Установление отцовства» автор иронично рассказывает о генетике, о том, как наука помогает установить отцовство. Приводя примеры четырех разных семей, в каждой из которых присутствует тайна рождения ребенка, автор ставит свой неопровержимый диагноз – наука бессильна в человеческих отношениях, настоящее родственные отношения определяются не тайной крови, а любовью и привязанностью. Семантический комплекс настоящего отца обуславливается такими качествами, как забота, любовь, жалость; это тот, кто сопровождает ребенка по жизни, а не просто дает право на существование. Обратимся к рассмотрению следующего конструктивного образа, воплощающего мотив детства, – образу ребенка. В рассказах Л. Улицкой он зачастую выполняет функцию скрепляющего звена в семейных отношениях родителей (речь идет только о настоящих семьях, построенных на любви). Особо актуальным становится образ позднего ребенка, воспринимаемого как дар свыше: «Их последняя, Малышка, придавала новый оттенок счастливой жизни: она была сверхплановая, совершенно подарочная девочка, беленький ангел, избалованный до нечеловеческого состояния» (рассказ «Старший сын») [7, с 89]. В рассказах «Короткое замыкание» и «Дочь Бухары» возникает деконструктивный образ больного ребенка, который выступает в качестве испытания, данного супругам. Крепкие семьи, построенные на любви, еще более сплачиваются: «Родители приняли удар судьбы и сплотились намертво. Не расцепить. Мертвой хваткой держали девочку на этом свете. Она умирала, а они вытягивали» (рассказ «Короткое замыкание») [7, с 88]. В других же – отцы бросают жен с больным ребенком, как, например, в рассказе «Дочь Бухары». В таком произведении актуализируется образ матери. Любовь матери к ребенку абсолютна. Мать и ребенок выступают как единое целое. Подтверждением этому служит и поэтика заглавий рассказов – «Дочь Бухары», «Писательская дочь», – наиболее полно выявляющая принадлежность ребенка матери. В подобных произведениях появляется еще одна деконструктивная коллизия – безотцовщины. Она в малой прозе Л. Улицкой характеризуется цикличностью: «Как это часто бывает, семейная традиция безотцовщины в каждом следующем поколении усиливается» (рассказ «Пиковая дама») [6 с 67]. Оставшись однажды без главы семьи, женщина принимает эту роль на себя. Дети, воспитанные в неполной семье, воспринимают данную ситуацию как нормальную, а вот появление в доме мужчины зачастую оценивается в категории не-нормы: «Мужчина – это прекрасно, но зачем это держать дома» (рассказ «Сквозная линия») [8, с

67]. Именно в разложении, распаде автор видит катастрофу современной семьи. Все чаще ее состав сводится к паре: мать – ребенок. Генетически семья должна быть организована по мужской/ патриархальной модели, позволяющей ей как явлению существовать в реальном мире. Мужчине изначальноприсущи традиционные семейные функции главы семьи (рода); защитника; добытчика/ кормильца. В такой традиционной модели семьи женщине доставалась роль ведомого партнера. В современной семейной модели произошел ряд трансформаций, которые нашли отражение в творчестве Л. Улицкой. Особенность семейной тематики была нами выявлена через сопоставление ряда мотивов и образов как конструктивного, так и деконструктивного типов. Образ же матери в малой прозе Л. Улицкой представлен исключительно в рамках конструктивного типа. Мать и ребенок выступают единым целым. В современной семье женское начало довлеет над мужским, что является, по мнению автора, отражением дисгармонии действительности, одним из проявлений хаотичности современной художественной картины мира. Отражение катастрофического состояния мира в многообразии его форм стало главной приметой современного литературного процесса. Тем важнее оказывается поиск универсальных нравственных опор в жизни человека. Именно семья в художественном мире Л. Улицкой приобретает значение доминирующей аксиологической категории.

Литература

1. Золотоносов, М. Мужчина ее мечты / М. Золотоносов // Московские новости. – 2004. – 13 февраля. – С. 7.
2. Лейдерман, Н. Л. Современная русская литература / Н. Л. Лейдерман, М. Н. Липовецкий. – М., 2001. – Кн. 3.
3. Пушкарь, Г. А. Типология и поэтика женской прозы: гендерный аспект (на материале рассказов Т. Тол- стой, Л. Петрушевской, Л. Улицкой): автореф. дис. … канд. филол. наук / Г. А, Пушкарь. – Ставрополь, 2007.
4. Ровенская, Т. А. Женская проза конца 1980-х – начала 1990-х годов: проблематика, ментальность, идентификация: автореф. дис. … канд. филол. наук / Т. А. Ровенская. – М.: Московский гос. ун-т им. М. В. Ло- моносова, 2001.
5. Тимина, С. И. Ритмы вечности (Роман Л. Улицкой «Медея и ее дети») / С. Тимина // Русская литература XX века в зеркале критики: хрестоматия; сост. С. И. Тимина, М. А. Черняк. – СПб.: Академия, 2003.
6. Улицкая, Л. Е. Бедные родственники / Л. Е. Улицкая. – М.: Эксмо, 2003. 15. Улицкая, Л. Е. Первые и последние / Л. Е. Улицкая. – М.: Эксмо, 2011.
7. Улицкая, Л. Е. Рассказы / Л. Е. Улицкая. – Режим доступа: http://lib.misto.kiev.ua/pro- za/ulickaya/- peoples.txt
8. Улицкая, Л. Е. Сквозная линия / Л. Е. Улицкая. – М.: Эксмо, 2011.
9. Черняк, М. А. Современная русская литература / М. А. Черняк. – СПб.; М., 2004.

A.Hüseynova

“L. Ulitskayanın hekayələrində
ailə mövzusu”

Xülasə

Qadın ədəbiyyatında ailə mövzusu çox vacib hesab edilir. Məqalədə L. Ulitskayanın hekayələrində rus ailəsinin ənənələri göstərilir. Ailə problematikası demək olar ki, bütün qadın yazıçıların əsərlərini əhatə edir. Ədəbiyyatda qadın yazıçıların əsərləri cəmiyyətdə ailə şəraitinin

böhran vəziyyətdə olduğu göstərir. Müasir ailə modelində bir neçə dəyişiklik baş vermişdi, bu da öz əksini L. Ulitskayanın yaradıcılığında tapmışdır. Ailə problemi hər bir zaman sevgidən, məhəbbətdən asılı olub. L. Ulitskayanın hekayələrində sevgi motivi bir neçə vəziiyətdə inkişaf edilir. L. Ulitskayanın nəsrində sevginin müxtəlif növləri göstərilir. Ailə mövzusu da L. Ulitskayanın hekayələrində məhəbbətin inkişafında verilir. Ulitskayanın əsərlərində məhəbbət mövzusunu da tapmaq çox cətinlik təşkil edir. Əgər əsərdə məhəbbət varsa deməli orada ailədən danışmaq mümkündür. Məqalədə müəllif çalışıb ki, hər bir mövzuya həssaslıqla toxunsun. Ulitskayanın əsərlərində sevdanın hər bir növü öz əksini tapıb. Məhəbbət mürəkkəb hislərin birləşməsi ola bilər. Bu cür hislər əsasən daxili mənəvi başlanğıcla bağlıdır. Müasir ailədə hal-hazırda qadın ər üzərində öz hakimiyyətini göstərir, müəllifin fikrinə görə, bu ahəngdarsızlığıb fəaliyyətidir. Məhz Ulitskayanın bədii dünyasında "ailə" dominat kateqoriya mənası daşıyır. Məqalədə müəllif Ulitskayanın əsərlərini tədqiq edərək misallar göstərmiş, əsas qəhrəmanların daxili dünyasını oxucuya çatdırmışdı.

Açar sözlər: ailə, qadın romanı, qadın yazıçı, məhəbbət mövzusu, əsas qəhrəmanlar, ana və ata.

Huseynova Aytan Abas

"The theme family in the stoires by
L. Ulitskaya"
Sammary

The family theme in woman prose is one of the main themes in the literature. We point the traditions of Russian family in the stories by L. Ulitskaya in the article. The family problem covers about all literary works of women wirters. The literary works by women writers in the literature fix the crises condition of family in the society. There are some changes in the modern model of family that reflected on the literary creation of L. Ulitskaya. The family depends on love. In the stories by L. Ulitskaya the motive love develops in some plot situations. There are different types of lovein L. Ulistkaya's prose. The theme family is also depicted in the development of love in the stories by L. Ulitskaya. It is every diffocult to find out the love conception in the works by L. Ulitskaya. If there is any love in the literary work, it means we can talk about family. In the article the author has tried to point each topic with sense. In the prose of Ulitskaya there have been pointed several kinds of love. The love can be identified in complex of feelings. They depend on moral begining. In modern family the wife shows her dominating on husband, and according to the writer it is the activity of non – harmony. That's why in the works by Ulitskaya "family" has dominating category. In the article the author researching the works by Ulitskaya she gave examples and showed the inner world of the man characters to the readers.

Key words: family, woman-novel, woman-writer, the theme love, the main characters, mother and father.

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 25.10.2019
Filologiya elmləri doktoru Naidə Məmmədxanlı tərəfindən çapa tövsiyə olunmuşdur

ELZA BABAYEVA
ADPU-nun Quba Filialının
Fətəlixan küç. №5
Ədəbiyyat və dil kafedrasının baş müəllimi
elza@mail.ru

HİKMƏT ZİYA TƏMSİLLƏRİNİN İDEYA-MƏZMUNU VƏ SPESİFİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məqalə Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi Hikmət Ziyanın yaradıcılığında əsas yeri tutan çoxsaylı təmsillərin təhlilinə həsr olunmuşdur. Təmsil janrı haqqındaümumi məlumatverildikdən sonra şairin həyatı, kitabları, təmsillərinin spesifik xüsusiyyətləri, mövzusu, ideyası, əsas tənqid hədəfləri araşdırılmış, şeirlərindən xarakterik misallar verilmiş, onların poetik əlamətləri göstərilmişdir.

Müəllif göstərir ki, Hikmət Ziya müraiciət etdiyi janrların hamısında uğur qazansa da, onun yaradıcılığı üçün ən aparıcı janr təmsildir. Müasir Azərbaycan təmsilinin yeni mövzularla zənginləşdirilməsi, bədii sənətkarlıq baxımından cilalanması məhz Hikmət Ziyanın adı ilə bağlığı məqalədə əsaslandırılır. Şairin bir neçə misradan ibarət yığcam təmsillərində sətiraltı məna çox güclü olduğu dolğun misallarla təsdiqlənir və fikrini ifadə etmək üçün maraqlı bədii detallardan istifadə etməyin ustasıkimi xarakterizə edilir. Məqalədən aydın olur ki, Hikmət Ziyanın dərin mənalı təmsilləri çoxdur. Hər bir qələm sahibinin əsirinə onun arzu və düşüncələri, həyata, cəmiyyətə baxışı ilə bərabər ruhu da hopur. Məhz bu səbəbdən Hikmət Ziyanın şəxsiyyəti və yaradıcılığının bir-birinə çox uyğun gəldiyi xüsusi vurğulanır. Cünki o, əyləncədən, beyni düşündürən, yaxşı ilə pisi bir-birindən ayıran eyham, rişxənd, istehza kimi çalarları göstərir. Onun xarakterlərinin hər birinin mayası gülüşlə, yumorla yoğrulur. Hikmət Ziya uşaqlardakı nöqsanları, həyatda rast gəldiyi qüsurları özünəməxsus bir həssaslıqla duyur, onları bədii gülüşün hədəfinə çevirir.

Hikmət Ziyanın təmsillərini iki qrupa ayırmaq olar: a) Uşaqlar üçün yazılan təmsillər; b) Böyüklər üçün yazılan təmsillər. Uşaqlar üçün yazılan təmsillərin əsas əlamətləri bundan ibarətdir ki, şair əsərlərində daha sadə süjetlə balacalar üçün anlaşıqlı olan mətləblərdən söhbət açır. Bu əsərlərdə şairin nəyə güldüyü aydın şəkildə, əlavə izahata ehtiyacı olmadan etdiyi heyvanın əsas əlamətinii üzə çıxarır, tipikləşdirir, gülüş doğuran anı vəziyyəti oxucuya çatdırır.

Açar sözlər:epik şeir, təmsil, satirik məzmun, uşaq ədəbiyyatı, məzmun, janr, mövzu, ideya.

Epik şeirin ən qədim həcmcə kiçik janrlarından biri olan təmsil özündə dərin mənanı əks etdirir. Tənqidi ruh və satirik məzmun daşımasıjanrın olması onun əsas xüsusiyyətidir. İnsanlara xas nöqsanlar, eyiblər təmsillərdə ayrı-ayrl əşya, bitki və heyvanlarin timsalında əks etdirilir. Təmsildə təbiət varlıqları və heyvanlar şəxsləndirilir, insan kimi danışdırılır.Əxlaqi-tərbiyəvi və nəsihətli səciyyə daşıyıyan bir ədəbi janr kimi adətən təmsilin sonunda müəllif öz fikrini kiçik nəsihət şəklində bildirir.

Olmasaydı cahanda sarsaqlar
Ac qalardı yəqin ki, yaltaqlar.

Azərbaycan ədəbiyyatında təmsilin ilk nümunəsini Nizami Gəncəvi “Sirlər xəzinəsi” poemasında yaratmışdır. Mirzə Ələkbər Sabir, Abasqulu Ağa Bakıxanov,Seyid Əzim Şirvani, Ab-

bas Səhhət, Abdulla Şaiq, Qasım Bəy Zakir və Hikmət Ziya kimi şairlərin də yaradıcılığında təmsilinmükəmməl nümunələrinə rast gəlirik.

XX əsrdə Azərbaycan ədəbiyyatında təmsil janrının çiçəklənməsi görkəmli şair Hikmət Ziyanın adı ilə bağlıdır. Hikmət Ziyanın yazdığı təmsillər öz bənzərsizliyi və daşıdığı məna yükü ilə uşaqların mənəvi inkişafında və tərbiyəsində böyük rol oynayır.

Hikmət Ziya 13 may 1929-cu il tarixdə Şəki şəhərində anadan olub. Sonra valideynləri Ağdam şəhərinə köçür. Hikmətin uşaqlıq illəri Qarabağda keçir. Orta təhsilini Ağdam şəhər 1 saylı orta məktəbində alır. Sonra ali təhsil almaq məqsədilə Bakıya gəlir. Azərbaycan (Bakı) Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsinə daxil olur. Təhsilini başa vurduqdan sonra təyinatını "Azərbaycan pioneri "qəzeti redaksiyasına alır. Burada uzun müddət (1952-1969) ədəbi işçi, ədəbiyyat və incəsənət şöbəsinin müdiri vəzifəsində çalışır. 1969-1984-cü illərdə "Göyərçin" jurnalı redaksiyasında poeziya şöbəsinin müdiri, məsul katib və zifələrində işləyir.Ədəbi yaradıcılığa isə 1952-ci ildə başlayır. İlk şeiri "Azərbaycan pioneri" qəzetində dərc etdirdiyi "Qoqola" olur. Bundan sonra o, dövrü mətbuatda vaxtaşırı dərc olunur. İlk satirik şeirləri, "Atamın hədiyyəsi", "Bahar gözəldir, yağış?", "Milçək ürəyi" kitabları Hikmət Əfəndiyev imzasıilə çap olunub. "Sınaq", "Əkiz qardaşlar" pyesləri tamaşaya qoyulur. Librettolarına ("Nənəmin nağılı", "İkilərin sərgüzəştləri", "Solğun çiçəklər") və şeirlərinə musiqi bəstələnir. Hikmət Ziyanın əsərləri SSRİ xalqlarının dillərinə tərcümə olunur. Onun təmsillərində əli əyrilər, yaltaq və ikiüzlülər satira atəşinə tutulur. Qısa təmsillərinin əksəriyyəti öz ədəbi taleyi olan, həyat və insan haqqında yazılmış əsərlərdir. Bu təmsillər fəlsəfi ümumiləşdirmələr yolu ilə yarananda daha tutarlı səslənir. Hikmət Ziya Ümumittifaq uşaq və gənclər ədəbiyyatı şurasının, "Mozalan" satirik kino jurnalı bədii şurasının, "Azərbaycan pioneri" və "Literaturnıy Azerbaydcan" jurnallarının redaksiya heyətinin üzvü olub. Onun adına "Hikmət Ziya" ədəbiyyat mükafatı təsis edilib.

Coşqun şair, işgüzar tərcüməçi, Əməkdar incəsənət xadimi Hikmət Ziya oğlu Əfəndiyev 1995-ci ilin avqust ayının 2-də vəfat etmişdir (27, 210).

H.Ziya hər şeydən əvvəl tanınmış təmsil ustasıdır. Müxtəlif illərdə yazıçının mindən çox təmsili dərc edilmişdir. Bədii sənətkarlığını cilalamaq üçün yazıçı qədim dünyanın görkəmli təmsil ustalarının yaradıcılığındakı sənətkarlıq məsələlərinə yaxından bələd olmuşdur. Bunula yanaşı, klassik Azərbaycans ənətkarlarının da bədii irsindən çox şeylər öyrənmişdir (28, 264).

Beləcə H.Ziya 1955-ci ildən təmsil janrına böyük maraq göstərmişdir. Onun 1986-cı ildə çap olunan "Ömrümün payı" adlı kitabına yazdığı ön sözdən məlum olur ki, şairi təmsil yazmağa görkəmli Azərbaycan şairi İslam Səfərli təhrik etmişdir. H.Ziyanın yazdığı təmsillər İslam Səfərlinin xoşuna gəlmış və o, demişdir ki,sən bu sahədə "üzəngi parlada" bilərsən.

Görkəmli şairin bu təhrikindən ilhamlanan H.Ziya təmsil janrının sirlərini öyrənməyə başlamış, Ezopun, Lafontenin, Krılovun, Qasım bəy Zakirin, Seyid Əzim Şirvaninin, Abasqulu Ağa Bakıxanovun və başqa görkəmli təmsil ustalarının əsərlərini sevə-sevə oxuyaraq bəhrələnməyə çalışmışdır. Bütün bunlar şairin yaradıcılığına öz müsbət təsirini göstərmişdir.

Xalq yazıçısı Mirzə İbrahimov H.Ziyanın təmsillərinə yüksək dəyər vermişdir. Krılovun təmsillərini dilimizə çevirən H.Ziya bu janrın sirlərinə bələd olduqca, daha gözəl təmsil nümunələri yaratmağa başlamışdır. Təsadüfi deyil ki, görkəmli rus ədibi Sergey Mixalkov da onu əla təmsilçi adlandırmışdır. Şairin təmsillərini təhlil edən, onlara yüksək dəyər verən ədəbiyyatşünaslar onu Azərbaycanın Krılovu adlandırmışlar (26).

Hikmət Ziyanın təmsillərində yaşadığı dövrün bütün sosial bəlalarına münasibət öz əksini tapır və xalq hikmətinin ziyası əks olunur. Nümunələr diqqət yetirək:

1) Şüşə cilikləndi dönsün almaza
Süpürüb yığdılar bir xəkəndaza
2) Kim keçidən qorxub qaçsa

Ona hücum eləyirdi
Buynuzları ələ keçsə
Yazıq-yazıq mələyirdi.

Azərbaycan uşaq ədəbiyyatını Hikmət Zyanın təmsilləri olmadan təsəvvür etmək qeyri mümkündür. Hikmət Ziyanın təmsilləri ibratamiz olmaqla bərabər uşaqların yaddaşında çox asanlıqla qalır. Şair"Fil udan cücə" təmsilində yekəxanalığı və özündənmüştəbehləri tənqid edir:

İlk dəfə hindən çıxıb,
Yan-yörəsinə baxıb
Civildədi biaram
Mən istəsəm lap filin
Özünü də udaram.

"Tülkü ikiüzlülüyü" təmsilində ikiüzlülük və yaltaqlıq tənqid ediliri:

Tülkü bacarsa, Qurdu
Didməyə də hazırdı
Gəl ki, onun haqqında
Tərifnamə yazırdı.

"Hind toyuğu və qanad" təmsilində lovğalıq və təkəbbürlülük tənqid edilir:

Hind toyuğu özünü mahir quş sanırdı.
Forsundan yol gedəndə pipiyi sallanırdı.
Haldan-hala düşürdü,
Gündə min yol şişirdi.
Həmişə də utanıb qızarmadan deyirdi:
-Quşa qanad gərəkdir
Uçmaq vacib deyildir.

"Çürük Alma" təmsilində vəzifə sahiblərinin vəzifədən çıxarıldıqdan sonra özlərini qeyri təvazökar aparmaları tənqid edilir:

Çürük Almanı vurub
Salmışdılar budaqdan.
Öz xahişimlə düşdüm
Söyləyirdi o vaxtdan.

Hikmət Ziyanın uşaq ədəbiyyatı sahəsində xidmətləri böyükdür. Bu da təsadüfi deyildir. Ömrü boyu uşaq mətbuatı sahəsində çalışması, onun ədəbiyyatın bu speisifik, bənzərssiz, gərəkli sahəsi ilə ciddi, sistemli, müntəzəm şəkildə məşqul olmasına zəmin yaratmışdır. Demək olar ki,"Göyərçin" jurnalının hər nömrəsində Hikmət Ziyanın şeirləri, təmsilləri, hekayələri, nağılları, məqalələri, səhnəcikləri dərc olunmuşdur. Uzun illər "Balaca Nəsrəddin" rubrikasında duzlu-məzəli lətifələri, yanıltmacları və tapmacaları ilə çıxış edən Hikmət Ziya yeni nəslin yumor duyumunun formalaşmasında da az iş görməmişdir.

Hikmət Ziyanınuşaq şeirlərinin mövzu dairəsi çox genişdir. Uşaqların maraq dairəsinə uyğun olan elə bir məsələ yoxdur ki, bu istedadlı uşaq şairinin diqqətindən kənarda qalsln. Şairin balaca oxuculara, yeniyetmələrə və gənclərə ünvanlanan şeirlərinin əksəriyyəti qısa, mənalı və

düşündürücüdür. Onun şeirləri dilinin çox sadə və aydın olması səbəbindən yaddaşlara daha tez hopur. Bu da uşaq ədəbiyyatı üçün vacib şərtlərdən biridir. Şair öz şeirlərində balaca qəhrəmanın bədii obrazını yaratmaqla onun arzu və düşüncələrini əks etdirməyi bacarır. Hikmət Ziyanın bu tipli şeirləri nəinki uşaqları, hətta böyükləri də düşündürür.Məsələn, "Günayın rəsmi" adlı şeiirə nəzər salaq:

Balaca rəssam Günay
Saçlarını hörürdü
Kibrit qutusu üstə
Od-alov gördü-
Sözləri də qaçmadı
Nəzərindən Günayın
"Uşaqları od ilə
Oynamağa qoymayın"
Alnını qırışdırıb
Günay qaşını çatdı
Kibrit qutusu üçün
Təzə rəsm yaratdı
Atom bombası çəkib
Üstdən çarpaz xətt atdı
Sözləri də bu oldu
Öz rəsminə Günayın
"Böyükləri od ilə
Oynamağa qoymayın".

Göründüyü kimi, Hikmət Ziya müraiciət etdiyi janrların hamısında uğur qazansa da, onun yaradıcılığı üçün ən aparıcı janr təmsildir. Müasir Azərbaycan təmsilinin yeni mövzularla zənginləşdirilməsi, bədii sənətkarlıq baxımından cilalanması məhz Hikmət Ziyanın adı ilə bağlıdır. Onun bir neçə misradan ibarət təmsillərində sətiraltı məna çox güclüdür. Şair fikrini ifadə etmək üçün maraqlı bədii detallardan istifadə etməyi ustalıqla bacarır.

Hikmət Ziyanın yığcam, dərin mənalı təmsilləri çoxdur. Hər bir qələm sahibinin əsirinə onun arzu və düşüncələri, həyata, cəmiyyətə baxışı ilə bərabər ruhu da hopur. Məhz busəbəbdən şair Hikmət Ziyanın şəxsiyyəti və yaradıcılığı bir-birinə çox uyğun gəlir.

Hikmət Ziya adiəyləncədən, beyni düşündürən, yaxşıilə pisi bir-birindənayıran eyham,riş-xənd, istehzakimiçalarlarıgöstərir. Onun xarakterlərinin hər birinin mayası gülüşlə, yumorlayoğrulur. H.Ziyauşaqlardakınöqsanları, həyatda rast gəldiyi qüsurlarıözünəməxsus bir həssaslıqladuyur,onlarıbədii gülüşün hədəfinəçevirir.

Hikmət Ziyanın təmsillərini iki qrupaayırmaqolar:

1. Uşaqlar üçün yazılan təmsillər;
2. Böyüklər üçün yazılan təmsillər.

Uşaqlar üçün yazılan təmsillərin əsas əlamətləri bundan ibarətdir ki, şair əsərlərində daha sadə süjetlə balacalar üçün anlaşıqlı olan mətləblərdən söhbət açır. Bu əsərlərdə şairin nəyə güldüyü aydın şəkildə, əlavə izahata ehtiyacı olmadan etdiyi heyvanın əsas əlamətiniiüzə çıxarır,tipikləşdirir, gülüş doğuran anıvəziyyəti oxucuya çatdırır. Şair əhvalata heç bir əlavə etmir, yeri gələndə isə özünün yumoristik tendensiyasını gizli saxlamır, nöqsanları lağa qoyur.

Tülkü, çaqqal görüşdü
Qucaqlaşdı, öpüşdü.
Tülkü and içdi:-Daha

Toyuq, xoruz boğmağa
Getmərəm əsla kəndə
Çaqqal uladı:-Mən də!
Həmin gün tülkü lələ
Xəlvəti bir yol ilə
Yollandı hinə sarı
Boğmağa toyuqları.
Dedi:-Fərə ətindən
Bir çığırtma yeyim mən
Çaqqal da yavaş-yavaş
Hinə üz tutdu bir baş
Düşündü: -Aycan, aycan
Yeyəcəyəm doyunca.
Artıq bu gündən belə
Özüm sahibəm hinə.
Bir hində rastlaşdılar
Onlar yaman çaşdılar.

Şair bu təmsildə hiyləgərliyi, yalançılığı və onun acı nəticəsini ustalıqla göstərə bilmişdir. Zaman keçdikcə, H.Ziyanın təmsilləri yeni keyfiyyətlər qazanırdı. Onun 1963-cü ildə «Şeirlər və təmsillər» kitabında toplanan təmsillərlə 1971-ci ildə çıxan «Qısqanc qarışqa» kitabındakı təmsilləri müqayisə etdikdə yaradıcılığında nə qədər yeni cəhətlərin yarandığını aydın şəkildə görmək olar. İlk təmsillərində geniş əhvalatlar, uzun dialoqlar olurdusa, şairin son əsərlərində sözə çox böyük qənaət görürük. İndi H.Ziyanın təmsillərinin əksəriyyəti cəmi dörd, bəzən də beş misradan ibarət olur. Ustad təmsilçi az sözlə böyük mətləbləri oxucusuna çatdıra bilir.

Ədəbiyyat

1. Ömrümünpayı. Bakı: Yazıçı, 1986, 235 səh.
2. Vətənimmənim. Bakı: Gənclik, 1988, 120 səh.
3. Seçilmişəsərləri. Bakı: Azərnəşr, 1992, 295 səh.
4. http://medeniyyet.az/page/news/662/Mahir-temsil-ustasi:-Hikmet-Ziya-.html
5. Rafiq Yusifoğlu. Uşaq ədəbiyyatı. Bakı, 2006, 268 s.
6. Rafiq Yusifoğlu. Hikmət Ziyanın sənət dünyası.http://anl.az/down/meqale/adalet/2014/may/373381.htm
7. XanımMustafayeva. Azərbaycanuşaqədəbiyyatı. Bakı, «Elm», 2011, 292 səh.
8. Zahid Xəlil. Füzuli Əsgərov. Azərbaycan uşaq ədəbiyyatı. Ali və orta ixtisas məktəblərinin tələbələri üçün dərslik. ADPU-nun nəşriyyatı. Bakı, 2007, 490 səh.

Э.Бабаева

Идейное содержание и специфические особенности
басен хикмета зии
Резюме

.

Хикмет Зия-один из видных деятелей азербайджанской детской литературы. Басни занимают огромное место в его творчестве. Данная статья начинается общей информацией о его баснях, об их особенностях. Так же в статье даются важные сведения о жизни и творчетве Хикмета Зии.

Автор в данной работе научно обосновывал идейное содрежание, специфические особенности басен и стихов поэта и поэтическими приметами охарактеризовал главную идею современного азербайджаского баснописца XX века.

Поэт добился успеха во всех жанрах, которым он обращался, но самый ведущий из них басни. Хикмет Зия, которого можно считать, основоположником современной азербайджанской басни, обогащал этот жанр. Его басни поэтически критикует сильное подстрочное значение темы. В творчестве он любил воспевать свой взгляд на мир, свои внутренние переживания. Именно сатира дает наиболее полное представление об иделах и жизненных ценностях этого человека. В творчестве все значимо: каждый образ, каждая сатирическая деталь. Только с помощью комических приемов можно выразить дух басен Хикмета Зия он поступил по-разному и это политика отображается именно в его баснях. В баснях всё значимо: каждый образ, каждая художественная деталь с помощью поэтических приемов выражает все богатство и разнообрази переживаний автора, и его патриотический дух. Творчество и личность согласуются в поэзии.

Его басни можно делить на две группы: а) Басни, написанные специально для детей. б) Басни, написанные специально взрослых.

В баснях, написанных специально для детей, автор простым сюжетом даёт мораль, основные признаки того зверя и животного, чему он смеётся, типи зирует и передаёт читателю.

Ключевые слова: эпик, стихотворение, басня, сатирическое содержание, жанр, тема, идея

Babayeva Elza,

Idea-content and specific features of hikmet ziya's fables
Summary

The article is dedicated to analysis of prominent representative of child literature Hikmet Ziya's multiple fables which occupy main place in his literary activity.

After giving general information about fable genre the poet's life, books, specific features of his fables, their topics, idea and main targets of criticism have been analyzed and relevant example of his poems have been given, their poetic aspects have been shown.

The author shows that although Hikmet Ziya was successful in all genres that he tried his pen the leading genre in his literary activity is fable writing. The article proves that the enrichment of Azerbaijan fable with new topics, the polish of it in terms of artistic literary mastership is closely connected with Hikmet Ziya's name.

The article maintains that hidden meaning behind his concise verses is very strong and he is a master in using interesting details to express his thought. It is clear from the article that Hikmet Ziya has got a lot of fables with deep meanings. Every man of pen puts his wishes and thoughts, his opinions on life into his works. Just for this it is emphasized that Hikmet Ziya's personality and literary activity are very compatible, because through fun he shows peculiarities such as sarcasm, irony, mockery which help to distinguish between good and bad. Each of his characters has been knead with smile and humor. Hikmet Ziya understands shortcomings in children and life and changes them into the targets of literary smile.

Hikmet Ziya's fables can be divided into two groups: a) fables written for children; b) fables written for adults.

The main characteristic of fables written for children is that the poet uses simpler plots in his works and creates understandable problems. In such works the author clearly, without additional explanation, in the example of a described animal shows the trait, makes it typical and provides the reader with the feature that causes smile.

Key words: epic poem, fable, satirical content, child literature, content, genre, topic, idea

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 25.10.2019
Filologiya elmləri doktoru, professor Razmazan Qfarlı
tərəfindən çapa tövsiyə olunmuşdur

FAİQ XALIQOV
Bakı Dövlət Sosial-İqtisadi kolleci
Metodiki kabinetin müdiri
Bakı AZ 1035, Ramiz Qəmbərov küçəsi 61
e-mail: faiqxaliqov66@bk.ru.

TƏHSİLDƏ ŞƏXSİYYƏTYÖNLÜ TƏRBİYƏNİN METODİKASI

.

Xülasə

Məqalədə tələbə təhsili anlayışı vurğulanır. Buraya şəxsi, mənəvi, əqli və iqtisadi təhsil daxildir. Bunun sayəsində hərtərəfli inkişaf etmiş bir gənc tərbiyə olunur. Tələbənin şəxsi tərbiyəsi gəncliyin şəxsiyyət kimi tərbiyəsidir. Beləliklə, şagird özünü təsdiq və ləyaqətlə tərbiyə edir. Şəxsi təhsil özünə hörmətə səbəb olur. Beləliklə, tələbə təhsilə münasibətdə daha prinsipial olur. Ruhani tərbiyə tələbələrin ədəbiyyata, sənətə, ölkəsinin və dünya tarixinə olan sevgisinin tərbiyəsidir. Beləliklə, gənclik ruhən zəngin olur. Məqalədə tələbələrin zehni tərbiyəsinin tədris prosesindəki məzmunu da açıqlanır. "İntellektual təhsil" anlayışı nəzərdən keçirilir. Zehni tərbiyənin qarşılıqlı əlaqələri vurğulanır.

Şagirdlərin məhsuldar təfəkkürünün inkişafı üçün müasir pedaqoji metodların işlənib hazırlanmasının zəruriliyi əsaslandırılmışdırılır. İqtisadi təhsil - bu proses yalnız iş keyfiyyətlərinin - müəssisənin, qənaətliliyin, ehtiyatlılığın formalaşmasını əhatə etmir. Həm də əmlak problemləri, idarəetmə sistemləri, iqtisadi gəlirlilik, vergi ilə bağlı biliklərin toplanmasıdır. İqtisadiyyat inkişaf etdikcə iqtisadi təhsil hazırda prioritet məsələdir. Ölkənin öz sahəsində mütəxəssislərə - səlahiyyətli iqtisadçılara ehtiyacı vardır. Tələbə iqtisadi nəzəriyyə əsaslarını mənimsəməlidir.

Müasir iqtisadi sistemin problemlərini başa düşməlidir Bu, elmi məlumatlı qərarlar qəbul etməyə kömək edir.

Açar sözlər: şəxsiyyətyönlü tərbiyə, mənəvi tərbiyə, əqli tərbiyə, iqtisadi tərbiyə.

Müasir qloballaşdırma dövründə elmi-intellektual sferada qazanılan yüksək nailiyyətlər hər bir dövlətin inkişaf səviyyəsindən, ümumi potensialından xəbər verən, sosial, iqtisadi, mədəni tərəqqini təmin edən, demokratikləşmə proseslərini sürətləndirən mühüm meyarlardan biri kimi çıxış edir. Cəmiyyət qarşısında dayanmış bir sıra əsaslı problemlərin həllində, açar rolunu oynayan elm və təhsil həm də xalqların dünya arenasında layiqli təmsilçiliyinə, insan kapitalının formalaşdırılması yolu ilə qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləməsinə real təminat yaradır. Yeni dünya nizamının bu gerçəklərinə nəzərən milli inkişaf strategiyasını müəyyənləşdirən müstəqil Azərbaycan dövləti də öz yüksəlişini sadəcə təbii sərvətlərin gətirdiyi dividentlərlə məhdudlaşdırmır, innovativ texnologiyaların tətbiq imkanlarını genişləndirməyə, biliklərə əsaslanan elmtutumlu iqtisadiyyatın formalaşdırılmasına çalışır.

Respublikamızda elmin, təhsilin inkişafı sahəsində mövcud ənənələrin milli məqsədə yönəldilməsi, bu ənənələrin çağdaş dövrün tələbləri səviyyəsində inkişafı, istisnasız olaraq müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, böyük öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan elminin, təhsilinin, ümumilikdə mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri

olmuş Ulu Öndər ölkəyə rəhbərliyinin bütün dövrlərində bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, xalqın nicatını məhz intellektual tərəqqidə görmüşdür. Azərbaycanda əsası Heydər Əliyev tərəfindən qoyulan və bu gün dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial siyasətin, ayrılıqda sosial müdafiə tədbirlərinin elmi əsaslar üzərində aparılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi dünyanın aparıcı elm və siyasət dairələrində böyük maraqla qarşılanır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsil sisteminin başlıca vəzifələri:

-ölkənin modernləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək;

-məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqın milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

-milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq;

-sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və əlavə təhsili təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaqdır.

Təhsildə aparılan islahatların əsas məqsədi cəmiyyət üçün hərtərəfli hazırlıqlı cənclər yetişdirməkdir. Tədrisdə kurikulumun tətbiqi bu meyara nail olmaqda önəmli faktordur.

Naxçıvan Müəllimlər institutunun rektoru, professor Oruc Həsənli qeyd edib ki, təhsil kurikulumları xarakterinə görə iki yerə ayrılır. Onlardan birincisi fənyönümlü, ikincisi isə şəxsiyyətyönümlü kurikulum adlanır. Şəxsiyyətyönümlü kurikulumlar, bilavasitə, həyati bacarıq və vərdişlərə üstünlük verilməsi ilə fərqlənir. Bu kurikuluma görə, insanın gələcək həyat fəaliyyətində lazım olacaq praktik bacarıq və vərdişlərinin, əqli fəaliyyətlə bağlı qabiliyyətlərinin formalaşması ön plana çəkilir.

Kurikulumların tətbiq edilməsi təhsildə canlanma yaratdı. Əslində bu, təhsilin inkişafının yeni mərhələsinin başlanğıcı idi. Şəxsiyyətyönlü və nəticəyönlü xarakter daşıyan kurikulumlar nəzəri cəhətdən özünəməxsus pedaqoji əhəmiyyətə malikdir.

Onların tətbiqi fəal təlim metodlarına geniş meydan açdı, təhsilalanın özünü aktuallaşma səviyyəsinin yüksəlməsinə, motivasiyanın formalaşmasına, idraki maraqlarının, qabiliyyətinin nəzərə alınmasına imkan verdi və fənlərin tədrisi təhsilalanda səriştələrin formalaşmasına xidmət etməyə başladı. Kurikulumların tətbiqi təfəkkür və təxəyyül paradiqmasının təhsil sisteminə tətbiqini genişləndirdi, yaradıcı təfəkkür və təxəyyülü inkişaf etdirdi. Kurikulum sisteminin tətbiqi müəllimlərin tələbələrə (şagirdlərə) vətənpərvərliyi aşılamağı, ölkənin gələcəyi üçün hərtərəfli hazırlanmış yetkin mütəxəssislər yetişdirməyi vacib etdi.

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Kamal Camalov bildirib ki, fərd olaraq dünyaya gələn hər bir insan üç əsas amilin təsiri ilə şəxsiyyətə şevrilir. Pedaqoq və psixoloqlar həmin amilləri bu cür təsvir edirlər: mühit, tərbiyə və irsiyyət. Bu amillər içərisində tərbiyənin xüsusi önəm daşıdığını vurğuluyan Kamal Camalov qeyd edib ki, digər amillər məhz düzgün və məqsədli tərbiyə zamanı şəxsiyyətin formalaşmasına öz müsbət təsirini göstərə bilir.

Pedaqogika elmində təhsilin keyfiyyətinin yüksəldilməsində əsas üç amilin böyük rol oynadığı göstərilir: 1.Kim öyrədir; 2. Nəyi öyrədir; 3. Necə öyrədir. Bu üç amil təhsil strategiyasında öz əksini tapmış və müəllim şəxsiyyətinə böyük önəm verilmiş, müəllim əsas sima kimi göstərilmişdir.

Sərişt̂əli müəllimin fəaliyyətinə verilən əsas tələb onun peşə kompetensiyalarına malik olmasıdır. "Sərişt̂əli müəllim" anlayışı pedaqogika aləmində yeni bir anlayışdır. Bəzi pedaqoji ədəbiyyatda bu "Pedaqoji mərifət", "Pedaqoji ustalıq" kimi də işlənmişdir. Qarşımızda duran əsas vəzifələrdən biri müasir dövrə uyğun hərtərəfli inkişaf etmiş şəxs yetişdirmək, dərin bilikli, geniş dünyagörüşlü, yüksək əxlaq və mənəviyyata sahib insan tərbiyə etməkdir.

Tərbiyənin mənəvi əsası dövlətçiliyə, xalqa olan sevginin aşılanmasıdır. Dövlətçiliyi, xalqını sevməyən şəxs ölkəsi üçün dəyərli mütəxəssis ola bilməz. "Vətəni sevməyən insan olmaz, olsa da o şəxsdə vicdan olmaz."

Ideya-mənəvi tərbiyə ahəngdar inkişaf etmiş şəxsiyyət tərbiyəsinin əsas istiqamətini təşkil edir. İdeya-mənəvi tərbiyənin nəzəri əsasını dialektik materializm təlimi,mütərəqqi bəşəri və milli ideyalar, sosial əsasını isə cəmiyyətdəki ideya-mənəvi dəyərlər, sosial normalar, cəmiyyətin sosial-ictimai quruluşu, sosial siyasəti təşkil edir.

İdeya- mənəvi tərbiyənin qarşısında bir sıra vəzifələr durur:

1.Gənc nəsli yüksək ideyalılıq və siyasi şüurluluq, habelə xalqımızın inqilabi, döyüş və əmək ənənələri ruhunda tərbiyə etmək;

2.Tələbələrə (şagirdlərə) mütərəqqi bəşəri və milli ideyalar, siyasi normalar və münasibətlər haqqında təsəvvürləri, bilikləri aşılamaq;

3.Tələbələrdə (şagirdlərdə) dünyagörüşü ideyalarına, siyasi normalara, siyasi reallıqlara və baxışlara maraq, onları qiymətləndirmək bacarığı formalaşdırmaq;

4. Nəslin ictimai-siyasi fəallığını artırmaq, bunun üçün zəruri bacarıq və vərdişlər aşılamaq.

Bütün bunların aşılanması ölkəmizin gələcəyi üçün çox önəmlidir. Vətənpərvərliyin mahiyyəti Vətənə məhəbbət və öz şəxsi maraqlarını Dövlətçilik və Vətən yolunda qurban verməyə əsaslanan emosional bağlılıqdır.Bu bağlılıq həm də özünün mənsub olduğun millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat və ya milli qürur kimi də hallanır. Vətənpərvərliyin tarixi kökündə min illər boyu yaşamış, möhkəmlənmiş, öz doğma torpağına, dilinə və adət-ənənələrinə bağlanmış dövlətçilik durur.

Ayrı-ayrı fənlərin (Azərbaycan tarixi, İnsan və cəmiyyət, Ana dili, Ədəbiyyat və s.) tədrisində ictimai-siyasi baxışlar, ideya inamı formalaşdırmaq üçün geniş imkanlar vardır. Müəllim bu imkanlardan istifadə edib tələbələrə (şagirdlərə) dərin bilik, ideya-siyasi təsəvvür və anlayışlar formalaşdırmağa çalışmalıdır.

Tarix müəllimlərinin bu yöndən öhdəsinə böyük məsuliyyət düşür. "Sərişt̂əli müəllim" termini bu yanaşmada da çox önəmlidir. Tarix müəllimi fənnini elə tədris etməyi bacarmalıdır ki, tələbələrdə (şagirdlərdə) bu fənnə maraq və istək yaratsın.Çünki "Azərbaycan tarixi" fənni şəxsiyyətyönlü vətəndaşın yetişdirilməsində çox böyük əhəmiyyət daşıyır. "Sərişt̂əli müəllim" sadəcə olaraq kitabdakı mövzuları deməklə kifayətlənməməli, bu mövzuları tələbələrə (şagirdlərə) elə çatdırmağı bacarmalıdır ki, onlarda Dövlətçiliyə, Vətənə məhəbbət aşılaya bilsin. Buna görə də tarix müəllimlərinin üzərinə böyük məsuliyyət düşür. Bu məsuliyyətin öhdəsindən gələn müəllimlər gələcəyin "Vətəndaş"larını yetişdirmiş olurlar.

Tərbiyə metodlarından biri də şüurun formalaşdırılması metodudur. Bu metodun məqsədi insanın şüuruna təsir etməklə onda düzgün təsəvvürlər, inam və əqidə yaratmaqdan ibarətdir. Bəzi pedaqoji mənbələrdə şüuru formalaşdıran metodlara inandırma metodu da deyilir.

Fəaliyyətin təşkili və ictimai davranış təcrübəsini formalaşdıran metod insanda müsbət adətlər yaratmaq və iradəni möhkəmləndirməklə düzgün davranış təcrübəsi formalaşdırmağa xidmət edir.

Onu qeyd etmək lazımdır ki, zehni (intellektual) tərbiyənin şəxsiyyətin formalaşmasında rolu böyükdür. Belə ki, praktika göstərir ki, intellektual inkişaf etmiş təhsilalan (şagird, subbakalavr, bakalavr, magistr) dərslərdə daha fəaldır və mövzuları daha asan qavrayır. Bununla belə fənn tədris edən müəllim tələbələrdə dərsə həvəs yaratmağı bacarmalı və onların mövzuya intellektual yanaşmaları üçün düzgün yanaşma seçməlidir.

Əqli tərbiyə qarşısında bir sıra vəzifələr durur:

1.İnsani bilik, bacarıq və vərdişləri aşılamaq;

2.Təlim əməyi bacarıqları və zehni əmək mədəniyyəti formalaşdırmaq;

3.Zehni qabiliyyətləri, yaradıcı təfəkkürü, psixiki prosesləri inkişaf etdirmək;

4.Yüksək ideya-mənəvi keyfiyyətlər, nəcib hisslər aşılamaq, elmi dünya görüşünün formalaşmasına kömək göstərmək.

Zehni (əqli) tərbiyə ilə iqtisadi tərbiyənin birgə aşılanması tələbələrdə (şagirdlərdə) elmə, keçirilən fənnə marağı daha da artırır, mövzunu mənimsəməyə müsbət təsir göstərir.

Misal üçün "Mühasibat uçotunun nəzəriyyəsi" fənnində balansda baş verən dörd dəyişikliyi misal göstərmək olar. Burada 1-ci dəyişiklik zamanı balansın aktivində bir hesab eyni məbləğ qədər artır, digər hesab eyni məbləğ qədər azalır, lakin balansın aktivinin yekunu dəyişmir. Müəllim burada tələbənin intellektual səviyyəsinin artırılması üçün müxtəlif yanaşmalardan istifadə edə bilər. Bu misal həm də iqtisadi tərbiyəyə təsir edən amillərdəndir. Təhsilalan bu kimi mövzular əsnasında nəinki zehni, həmçinin iqtisadi tərbiyə almış olur ki, bu da göstərilən fəndə iki tərbiyənin (zehni və iqtisadi) qarşılıqlı əlaqəsini göstərir.

Burada iqtisadi tərbiyənin əsas vəzifələrini qeyd etmək olar:

1.İqtisadi tərbiyə kiçik yaşlarından başlayaraq, uşaqlarda iqtisadi təfəkkürün sadə ünsürlərinin inkişafına zəmin yaratmalıdır.

2.Təhsilverən təhsilalanı iqtisadiyyatın, iqtisadi həyatın ən zəruri hadisələri ilə tanış etməli, onlarda iqtisadi təfəkkür və şüurun formalaşmasına kömək etməlidir.

3.Ailədə gəlirin və çıxarın hesaba alınmasını, ailə büdcəsinin planlaşdırılması və istifadəni öyrətməli, ona həvalə ediləcək əmlakı qorunmalı, əməklə manatın qədrini bilməlidir.

Təhsilalana aşılanan tərbiyə öz əksini deyilən mühazirələrdə də tapır. Mühazirə bu və ya digər mövzu üzrə dinləyicilərdə nisbi də olsa, düzgün anlayış formalaşdırmaq üçün planlılığı, ardıcıllığı, elmliliyi ilə səciyyələnən mütəşəkkil şərhdir. Bu metod tərbiyə vasitəsi olub, təhsilalanda sosial fəallıq, müstəqillik kimi keyfiyyətləri formalaşdırmaqla yanaşı, onları şüurlu intizam, kollektivçilik ruhunda tərbiyə edir. Məruzə zamanı nümunələrdən, misallardan faydalanmaq mütləqdir.

Nümunə haqda vaxtilə qədim yunan filosofu Senena deyirdi ki, öyüd və nəsihətlərin yolu uzun, nümunələrin yolu isə qısadır. K.D. Uşinski isə göstərirdi ki, şəxsiyyətin tərbiyəsi üçün şəxsiyyətə şəxsiyyətlə təsir göstərmək olar. Böyük çex pedaqoqu Y.A. Komenski isə təsdiq edirdi ki, "Uşaqlar dərk etməzdən əvvəl nümunəni götürürlər.

Bu baxımdan tərbiyənin bir növü olan iqtisadi tərbiyənin rolu müasir cəmiyyətdə çox əhəmiyyətlidir. İqtisadi tərbiyəni özlüyündə üç yerə ayırmaq olar.

1.İqtisadi tərbiyə haqda təsəvvür.
2.İqtisadi tərbiyənin məqsədi.
3.İqtisadi təsəvvürün əsası.

Müasir dövrdə iqtisadi tərbiyə bütün yaş qruplarından olan insanlar üçün əhəmiyyətlidir. Təhsil ocaqlarında iqtisadi tərbiyə, tərbiyənin digər istiqamətləri kimi pedaqoji prosesdir. Müasir dövrdə təhsilverən təhsilalanın aldığı təhsilin spesifikasından asılı olmayaraq, keçirilən fənnin özəlliyini nəzərə alaraq gənclərə iqtisadi biliklərin əsasını aşılamağı bacarmalıdır.

Bütün pedaqoji tərbiyələr bir biri ilə sıx əlaqədədir. İqtisadi tərbiyə əqli və əmək tərbiyəsinin formalaşmasına müsbət təsir edir və əksinə.

Dünyada və ölkədə baş verən iqtisadi proseslər iqtisadi tərbiyəni labüd edir. Təhsil ocaqlarında bununla təhsilverənlər (pedaqoqlar) məşğul olursa, təhsildən kənar, mətbuat (televiziya, internet) iqtisadi biliklərin formalaşmasına təsir edir. Deyildiyi kimi iqtisadi biliklər nəinki gənclərə, bütün yaş həddindən olan insanlara aşılanmalıdır. Çünki ölkəmiz iqtisadi cəhətdən inkişaf etdikcə vətəndaşların iqtisadi proseslərdə daha sıx iştirakı getdikcə daha çox aktuallaşır. Bu ən əvvəl iqtisadi proseslər barədə minimum təsəvvürün yaranmasıdır. Təhsil sistemində bu da özlüyündə iki istiqamətdə inkişaf edir. Birinci istiqamət: iqtisadiyyatyönümlü təhsil alan tələbələrdə iqtisadi biliklərin əsasının yaranmasıdır. Bu özlüyündə iqtisadi təfəkkürün formalaşması, iqtisadi terminlərin mənasının və mahiyyətinin bilinməsidir. Bunları qavramış tələbə iqtisadi fənləri daha yaxşı mənimsəyə bilir. Lakin iqtisadi təfəkkürü zəif olan tələbələr iqtisadi fənləri mənimsəməkdə çətinlik çəkirlər. Məhz bu vaxt təhsilverən tələbələrə fərdi yanaşaraq hər bir tələbənin iqtisadi biliyinin formalaşma səviyyəsini müəyyən etməli və belə tələbələrə iqtisadi biliklərin minimum həddini aşılayaraq, onlarda iqtisadi biliklərin bazasını yaratmağı bacarmalıdır. Digər istiqamət qeyri-iqtisadi ixtisaslar üzrə təhsil alanlarda iqtisadi biliklərin formalaşdırılmasıdır. Fənn olaraq buna iqtisadi coğrafiyanı aid etmək olar. Bununla yanaşı gənclərdə elə iqtisadi təfəkkür formalaşmalıdır ki, onlar gələcəkdə ölkənin iqtisadi həyatında yaxından iştirak edə bilsinlər.

Çünki bazar iqtisadiyyatı bunu labüd edir. Yuxarıda deyildiyi kimi ölkədə iqtisadi proseslər inkişaf etdikcə, bütün yaş qruplarından olan əhalinin bu proseslərdə iştirakı da labüdləşir. Buna səhmdar cəmiyyətlərinin səhmlərinin alışından tutmuş, əmək haqqının hesablanması və əmək haqqından tutulan vergiləri misal göstərmək olar.

Nəinki təhsilalanda, həmçinin vətəndaşların bütün zümrələrində iqtisadi təfəkkür formalaşıb inkişaf etdikcə onlar ölkədə baş verən iqtisadi proseslərdə bilavasitə iştirak edə bilir və bu proseslərə təsir etmə mexanizmlərinə sahib olmağa başlayırlar. Bu da ölkədə özəl sektorun, o cümlədən qeyri-neft sektorunun inkişafına təkan vermiş olur. Burada ölkənin rəhbərliyinin iqtisadi islahatları, ölkənin iqtisadiyyatının inkişafı və qeyri-neft sektorunun inkişafı üçün apardığı məqsədyönlü siyasətinin həyata keçirilməsi də önəmli faktordur.

Ədəbiyyat

1.Azərbaycan Respublikası Təhsil Nazirliyi. “Pedaqoji fikir tarixində tərbiyə və təhsil”. B-2011. Məmmədəli Hənnan oğlu Ağayev.
2.Müasir təlim texnologiyaları. B-2012. Müəllif A.M.Nəzərov.
3.”İqtisadi təlimlər tarixi”.Mehbullayev M.X. B-2005.
4.”Економическое воспитание студентов. М.Г.У. культуры и искуства. Ковалева.
5. “Azərbaycan müəllimi” qəzeti.25 oktyabr 2019. B.D.U.-nun professoru, pedaqoji elmlər doktoru, təhsil şurasının sədri Hikmət Əlizadə.

F.F. Khaliqov

Personal orientation of bringing up in the process of education.

Summary

The article highlights the essence of the concept of student education. Here includes personal, spiritual, mental and economic education. This brings up comprehension of young people.Large-orientated steering wheel in the context of the emergence of the concept of the student body, judging by the luxurious, the spiritual, the universal and the economic. The ethos of the Blagodar is evoked by investors. Student Life - How to Make a Good Student The warmth of the students is reflected in the self-esteem and friendship of the students. The luxury is getting into the air. A sincere student is not sincere to concentrate on the principle of ignorance. Lounge, Art and History of Living and Leading. My hearty stubbornness is stuck in a lot of fun. The status quo is explained by the sole disadvantage of students in the process. For example the "Intelligent Play". The highlighted aspects are the awkward aspects, observing unobtrusive development of modern pedagogical methods.

The economic process - the whole process is not predetermined, but full-fledged formulation - delusional, predetermined, accountable. There is a problem with the accumulation of problems of systematization, economic profitability, taxation. The economical preference is imanno, and exactly as the economist. Professionally trained professional - economist. It is a pervasive problem with the modern economic system. A student is as economical theorist. It misses the value of the emerald.

Key words: person-oriented education, mental education, intellectual education, economic education.

Ф.Ф. Халыгов.

Личностно-ориентированная направленностъ воспитания
в процессе образования.

Резюме

В статъе освещена сутъ концепции воспитания студентов. Сюда входит личностное, духовное, умственное и экономическое воспитание. Благодаря этому воспитывается всесторонне развитая молодежъ. Личностное воспитание студента – это воспитание молодежы как личностъ. Тем самым у студента воспитывается самоутверждение и достоенство. Личностное воспитание приводит к самоуважению. Тем самым студент становится более принципиален в отношении к учебе. Духовное воспитание – это воспитание любви у студентов к литературе, искусстве и к истории своей страны и мира. Тем самым молодежъ становится более богатым духовно. В статъе также раскрывается содержание умственного воспитания студентов в процессе обучения. Расмотрено понятие «интеллектуалъное воспитание». Выделены взаимосвязанные аспекты умственного воспитания. Обоснована необходимостъ разработки современных педагогических методов развития продуктивного мышления студентов. Экономическое

воспитание – данный процесс предпологает не толъко формирование деловых качеств – бережливостъ, предприимчивостъ, расчетливостъ. Это также накопление знаний, касаюшихся проблем собственности, систем хозяйствования, экономической рентабелъности, налогового обложения.

Экономическое воспитание приоритетно именно сейчас, так как идет развитие экономики. Стране необходимы профессионалы своего дела – грамотные экономисты. Они должны пониматъ сутъ проблем современной экономической системы. Студент должен владетъ основами экономической теории. Это помогает эму приниматъ грамотные решении.

Ключевые слова: личностно-ориентированная направленностъ воспитания, духовно-нравственное воспитание, умственное (интеллектуалъное) воспитание, экономическое воспитание.

Redaksiyaya daxil olma tarixi: 11.07.2019
Çapa qəbul olunma tarixi: 25.10.2019
Filologiya üzrə fəlsəfə doktoru Röza Cəfərova tərəfindən çapa tövsiyə olunmuşdur

REYHANƏ CƏFƏROVA
Bakı Dövlət Universiteti Ingilis dili
(təbiət fakültələri üzrə)
kafedarsının müəllimi
reyhane@mail.ru

TÜRK-AMERİKAN ƏDƏBİYYATININ FORMALAŞMASINDA HALİDE EDİB VƏ SELMA EKREMİN ROLU

Xülasə

Müxtəlif dövrlərdə dünyanın bir çox yerlərindən insanlar fərqli səbəblərdən ABŞ-a axın edirdilər. XX əsrin əvvəllərindən etibarən türklər də da ABŞ-a köç etməyə başladı. Türkiyədən ABŞ-a köçmənin üç əsas dalğası olduğundan, ilk dalğa Osmanlı İmperiyasının süqutu və Türkiyə Cümhuriyyətinin yaranması dövründə baş verdi. Bu, Türkiyə tarixində xüsusi əhəmiyyətli bir dövr idi. Bu məqalənin məqsədi bu dövrdə Türk Amerikan ədəbiyyatının meydana gəlməsi və inkişafını araşdırmaqdır. Türk Amerikan ədəbiyyatının yaranması iki qadın yazıçı Selma Ekrem və Halide Edib Adivarın adları ilə sıx bağlıdır. Yazıçıların ilk əsərləri tərcümeyi-hal xarakteri daşısa da və əsasən Türkiyə və türk vətəndaşlarını təsvir etsələr də, bu iki qadın Türk Amerika ədəbiyyatının yaranmasında xüsusi rol oynamışdılar. Qərb yönümlü və müasir dünyagörüşlü olduqları üçün, onların əsas məqsədləri əsasən Amerika və Avropa oxucularını cəlb etmək idi. Amerikalıların və avropalıların təsəvvüründə türk adamının müəyyən bir obrazı formalaşmışdı, və bu obraz o qədər də müsbət xarakter daşımadığı üçün bu yazıçılar bu görüntünün yenidən qurulmasında böyük bir müvəffəqiyyət qazandılar. Onların əsərləri Türkiyə və onun vətəndaşları haqqında yeni təsəvvürün formalaşmasında çox böyük rol oynadı.

Həm Halide Edib və həm də Selma Ekremin yazdığı əsərlər Osmanlı İmperiyasından Türkiyə Cumhuriyyətinə keçid dövründə baş verən ictimai-siyasi prosesləri, və onların türk vətəndaşlarının, xüsusi ilə qadınların həyatında oynadığı rolu bariz nümunələrlə əks etdirir.

Açar sözlər: mühacirət ədəbiyyatı, Halide Edib, Selma Ekrem ,roman

Mühacirət fenomeni sosiologiya elminin tədqiqat sahəsinə aid olan bir mövzu olmaqla yanaşı, sosial aspektinə görə onu digər elm sahələri ilə də əlaqələndirmək mümkündür.Bu sahələr içərisində xüsusilə Türk ədəbiyyatı mühacirət və ədəbiyyat arasındakı əlaqə baxımından zəngin tarixə malikdir. Bu yazı ədəbiyyat və ədəbiyyatşünaslığın metod və üsullarına əsasən mühacirət mövzusunu mövzu bütünlüyü çərçivəsində araşdıran məqalələrin məcmuəsi kimi qiymətləndirilə bilər.

Mühacirət türk ədəbiyyatının şifahi xalq ədəbiyyatı,klasik türk ədəbiyyatı, müasir türk ədəbiyyatı kimi qisimlərində araşdırıla bilər. Mühacirət mövzusunu bir çox ədəbi janrlar içərisində incəliklə araşdırmaq olar. Bu baxımdan ilk növbədə romanlara diqqət yetirsək türk tarixi roman ənənəsində əsas mövzu Osmanlı tarixi və Orta Asiya turk tarixi olmuşdur. Mövzusu adətən tarixi şəxsiyyətlər və bəzi sosial hadisələr olan romanların mövzu dairəsinə mühacirət mövzusu da əlavə edilmişdir. Osmanlı imperatorluğunun dağıldığı ərəfədə baş verən mühacirətin ictimai həyatda və məişətdə meydana gətirdiyi dəyişikliyin araşdırılıdğı bu yeni ədəbi materialın ən məşhur olanları arasında Osmanlı İmperiyasının süqutu, Türk Cumhuriyyətinin yaranması və ondan sonra baş verən hadisələr daxildir. Son dövrlərdə tədqiq olunmağa başlayan Türk-Amerikan

ədəbiyyatı və bu ədəbiyyatın yaranmasında rolu olan yazıçıların həyat və yaradıcılığı ön plana çəkilmişdir.

Mühacirət iqtisadi, sosial və siyasi səbəblər nəticəsində fərdlərin yerdəyişməsidir. Mühacirətin ictimai formalaşmaya qısa vaxtda və dərin təsir etməsi, başda sosioloji olmaqla sosial elmlərin digər şöbələrini də maraq və çalışma dairəsində yer alır. Bəşəriyyət tarixinin bir güzgüsü olaraq ədəbiyyat insan kütlələrinin ictimai həyatında əhəmiyyətli dəyişikliklərə səbəb olan hadisələri görür və çox vaxt öz nöqteyi-nəzərindən əks etdirir. Bu çərçivədə məcburi mühacirət kimi tanınan bəzi köçlər "ədəbiyyatda sürgün" anlayışı ilə qiymətləndirilmişdir. Ədəbiyyatımızda da miqrasiya fenomeni, şeir, hekayə və roman kimi müasir ədəbi janrlara aid edilən və ya heç olmasa daxil edilən mövzulardan biridir, həm də dastan və əfsanə kimi şifahi ədəbiyyat arqumentlərindəndir.

Çağdaş ədəbi janrlardan biri olan romanın miqrasiya fenomeninə yanaşması müəyyən bir metodologiyanı tələb edən problem sahəsi kimi görülə bilər.Sosiologiyanın tədqiqat sahəsinə aid olan mühacirət fenomeninin romandakı yeri araşdırılarkən məsələyə tematik cəhətdən yanaşmaq lazımdır.Köç və mühacirət ədəbiyyatçıların və sosioloqların ortaq məxrəcidir.Buna görə də mühacir yazıçıların romanları tədqiq edilərkən ədəbi və sosioloji təndiq birlikdə istifadə edilməlidir. Başqa sözlə, mühacirət mövzusu araşdırılarkən dövrün siyasi vəziyyəti ədəbi əsərlə birlikdə tədqiq edilməlidir. Tədqiq edilən mövzunun tarixi tərəflərinin olması,əsərlə əlaqədar digər ədəbiyyatlarda tarixi araşdırma aparılmasını tələb edir. Bununla əlaqədar tədqiqat işində araşdırılan köç romanlarının əsasən tarixi romanın bir növü olaraq tədqiq edilmişdir. Roman nəzəriyyəsi və ya roman sənətinin "köç" fenomeninə nə baxımdan və hansı səviyyədə təsir etdiyi, köç fenomenin romanın təşəkkülündə aldığı rolun nə olduğu, romanlarda ümumi bir ortaq təməl olub olmadığı araşdırma mövzusudur .

Mühacirət ədəbiyyatının önəmli bir hissəsini bir sıra səbəblərdən vətəni tərk etmək məcburiyyətində qalan ədiblər və onların yaradıcılıq yolu təşkil edir. Tarixin hər bir dövründə ana vətənini tərk edən və ya tərk etmək məcburiyyətində qalan insanların getdikləri yerlərdə qərib olmaları səbəbi ilə yaşadıqları maddi və mənəvi çətinliklər onların ədəbi yaradıcılığında öz izlərini qoymuşdur.

XX əsrin əvvələrində baş verən dünya müharibələri, siyasi və iqtisadi böhranlar bir çox ölkələrin və eləcə də xalqların taleyində həlledici rol oynadı. Belə ki, bir sıra siyasi, iqtisadi və sosial səbəblərdən kütləvi şəkildə insanların bir ölkədən digər ölkələrə axını başladı . Bu dövrdə ən çox mühacir qəbul edən ölkə ABŞ idi. İnsanlar bu ölkəyə arzular ölkəsi kimi baxırdılar. Onları öz ölkələrində çəkdikləri əziyyət və çətinliklərdən qurtuluş yolunu daha inkişaf etmiş ölkələrə köç etməkdə görürdülər.

Bu dövrdə Türkiyədən ABŞ-a mühacirət edənlərin də sayı xeyli artmışdı. XIX əsrin sonlarında başlayan bu proses XX əsrin əvvələrində daha da geniş vüsət aldı. Belə ki, Osmanlı İmperiyasının iqtisadi süqutu burda yaşayan bir çox insanların ölkəni tərk etməsinə səbəb oldu. Bu dövrdə ölkəni tərk edənlər əsasən kişilər idi.

XX əsrin əvvələrində Türkiyəni tərk edən insanlar arasında Halide Edib Adıvar və Selma Ekrem de var idi. Lakin qadının ölkəni tərk edib başqa ölkələrə üz tutması, siyasi və ictimai həyatda fəal rol oynaması və yaradıcılıqla məşğul olması Türkiyə Respublikasının qurulması ərəfəsində yeni bir addım idi. Bu addım Türk mühacirət ədəbiyyatının, xüsusi ilə Türk-Amerikan ədəbiyyatının yaranmasında mühüm rol oynadı.

Bu iki qadının həyat və yaradıcılığına nəzər salanda, onların keçdiyi həyat yolu fonunda Osmanlı İmperiyasının süqutu və Türk Cumhuriyyətinin yaranması haqqında ətraflı təsəvvür yaranır.

Halide Edibin həyat və yaradıcılığı

Halide Edib Adıvar 1884-cü ildə İstanbulda anadan olmuşdur. O, yeddi yaşında olarkən yaşını böyüdərək girdiyi Üsküdar Amerikan Qız Kollecindən bir şagirdin xəbər verməsi nəticəsində bir il sonra ordan uzaqlaşdırılmış və evdə xüsusi dərs almağa başlamışdı. Evdə aldığı xüsusi dərslər ilə təhsilini tamamlamışdır. (5;1)

1897-ci ildə, ingilis dilini öyrənərkən tərcümə etdiyi Cakob Abbottun "Ana" adlı əsəri nəşr olunmuşdur. Bu müvəffəqiyyətə görə Sultan II Əbdülhəmid tərəfindən 1899-ci ildə Şəfqət Nişanı ilə mükafatlandırılmışdır.

Daha sonra isə Halide Edib kollecə qayıdaraq ingilis və fransız dilini öyrənməyə başlamış və Üsküdar Amerikan Kollecindən diplom alan ilk müsəlman qadın olmuşdur.

Kollecin son sinfində tanış olduğu riyaziyyat müəllimi Saleh Zəki Bəy ilə məktəbdən məzun olduğu il ailə qurmuşdur. Onların iki övladı dünyaya gəlmişdir.

1908-ci ildə Tevfik Fikrətin çıxardığı Taninde yazıları nəşr olunmağa başlayan Halide Edip, ilk yazılarında həyat yoldaşının adından Halide Saleh imzasını istifadə edirdi.

Yazıları bəzi dairələrin reaksiyasını çəkən Halide Edip, bir müddət Misirə getmiş, 1909-cu ildə İstanbula dönmüşdür. O, siyasi məzmunla yanaşı ədəbi məqalələr də yazmağa başlamışdı.

Həyat yoldaşı Saleh Zeki, ikinci dəfə evlənmək istədikdə, 1910-cu ildə ondan boşanmış və Halide Salih əvəzinə Halide Edib adını istifadə etməyə başlamışdır.

Həmin il Halide Edib Seviyye Talib romanını nəşr etdirdi. Bu roman, bir qadının ərini tərk edərək sevdiyi kişilə ailə qurmağından bəhs edir. Bu roman bəzi dairələr tərəfindən feminist bir əsər olaraq qiymətləndirilmişdir. (1;85)

Dünya müharibəsi başladığında, Qızlar Məktəbinin müfəttişi olan Halide Edip, 1916-cı ildə Camal Paşanın dəvəti ilə bir məktəb açmaq üçün Livana və Suriyaya getmişdir. Orada olduğu müddətdə atasına verdiyi vəkalət ilə Bursada, ailə həkimləri Adnan Adıvar ilə nigahları kəsilmişdi.

Türk ordusu Livan və Suriyanı boşaltdıqdan sonra 4 mart 1918-ci ildə Halide Edib İstanbula döndü. Yazıçı, həyatının buraya qədər olan hissəsini “Mor Salkımlı Ev” adlı kitabında təsvir etmişdir. (5;1)

Yaxşı bir natiq olan Halide Edip, milli mübarizə dövründə, mitinqlərdə etdiyi çıxışlarla Türkiyənin ictimai həyatında çox əhəmiyyətli bir rol oynamışdır.

Müharibə başa çatdıqdan sonra Halide Edib Ankaraya döndü. Həyat yoldaşı Xarici İşlər Nazirliyinin İstanbul nümayəndəsi təyin edildikdən sonra İstanbula getdilər. Yazıçı xatirələrinin buraya qədər olan hissəsini "Türkün Odla İmtahanı" adlı əsərində təsvir etmişdir.

Respublikanın elanından sonra bir sıra qəzetlərdə məqalələri ilə çıxış edən Halide Edip, bu arada Respublika Xalq Partiyası və Mustafa Kamal ilə siyasi fikir ayrılıqları yaşadı. Həyat yoldaşı Adnan Adıvarın Terakkiperver Respublika Partiyasının yaradılmasında iştirak etməsi nəticəsində iqtidardan uzaqlaşdılar. Terakkiperver Respublika Partiyasının bağlanıb Takrir-i Sükun qanununun qəbul edilməsi ilə tək partiyalılıq dövrü başladığına görə, həyat yoldaşı Adnan Adıvar ilə birlikdə Türkiyədən ayrılmaq məcburiyyətində qaldı.

1939-ci ilə qədər 14 il ərzində xaricdə yaşadı. Bu müddətin 4 ili İngiltərədə, 10-ci il də Fransada keçdi. O, bu dövrdə Amerikaya da səfərlər etmiş və mühazirələr ilə çıxış etmişdir.

Həyatının geri qalan qisimində bir dövr siyasətə qatılmış, müəllimlik etmiş və yazmağa davam etmişdir.

9 yanvar 1964-cü ildə İstanbulda böyrək çatışmamazlığı səbəbiylə 80 yaşında vəfat etmişdir. Yazıçının həyatı və ictimai-siyasi fəaliyyəti bugün də müzakirə olunur yazdığı ədəbi əsərlər tədqiqata cəlb olunur.

Selma Ekremin həyat və yaradıcılığı

Selma Ekrem 1902-ci ildə İstanbulda anadan olmşdur. Onun ata tərəfdən babası Namik Kamal, məşhur ictimai xadim idi. Ekremin atası Ali Ekrem ədəbi xadim idi. O, Sultan Həmidin sarayında katib, daha sonra isə Aralıq dənizi sahillərində yerləşən əyalətlərdə və Osmanlı İmperiyasına məxsus adalarda qubernator olmuşdur. Selma Ekremin anası Cəlal Paşanın qızı idi. Cəlal Paşa Fransada təhsil almış, Sultan Əzizin yaveri və Sultan Həmid ordusunun generalı olmuşdur. (3; 261).

Selma Ekrem 1923-cü ildə ABŞ-da məskunlaşaraq Türkiyənin Nyu –York və Vaşinqtondakı diplomatik nümayəndəliklərində çalışmışdır. O, 1970-ci illərə qədər müəllim və jurnalist kimi işləmiş və müasir Türkiyənin yaranması haqqında yazmışdır. O, "Çadrasız" əsəri ilə yanaşı gənclər üçün yazılmış "Türkiyə" "Köhnə və Yeni" və "Türk nağılları" əsərlərinin müəllifi idi. O, İmperiyanın Türk Respublikasına çevrilməsinin şahidi olan yüksək təbəqəyə məxsus qərbyönümlü bir ailənin qızı idi.(3;251)

XX əsrin əvvəllərində Amerikanın Türkiyə və onun vətəndaşları haqqında fikirləri qaba türk kişisi və hərəmxanada yaşan qadın obrazı ilə məhdudlaşmışdı. Bu obrazlar 1893-cü ildə Çikaqoda keçirilən Dünya Sərgisində türk mədəniyyətinin təmsilçiləri tərəfindən ortaya çıxmış və sonrakı illərdə Türk tütünlərinə aid reklamlarda təkrarlanmışdı. Bu qəddar görünüşlü kişi obrazı idi. Bu obraz Amerikalıların düşüncələrində üstünlük təşkil edirdi. Eyni şəkildə hərəmin romantikləşdirilmiş bir təsviri də Amerika mədəniyyətinə nüfuz etmişdi. Bu modelə əsasən, çox vaxt türk qadınlarına, "vəhşi" türk kişilərindən fərqli olaraq, hərəmin hüdudlarında yaşayan cazibədar varlıqlar kimi baxırdılar. Məhz bu yad mədəni mühitdə və eyni zamanada Atatürkün rəhbərliyi altında gedən modernləşmə dövründə, Türkiyədən Amerikaya mühacirət etmiş Selma Ekrem "Çadrasız:Türk qızının tərcümeyi-halı"adı altında öz tərcümeyi-halını çap etdirmişdir.(1930) O, özünü həmin dövrdə Amerikada yaranan "yeni qadın" obrazı ilə bir çox oxşar cəhətləri olan müasir, qərbyönümlü türk qadını kimi təqdim etdi.(7;1)

İlk dəfə ingilis dilndə nəşr olunan "Çadrasız" əsəri Qərb oxucularının diqqətini cəlb etmək üçün yazılmışdı. Əsər Ekremin ölümündən uzun illər sonra, 1998-ci ilə qədər türk dilinə tərcümə olunmamışdı. Alim Karolin Goffmanın sözlərinə görə Ekrem Türk Respublikasında yeni yaranan oxucu kütləsindən daha çox Amerikan oxucusu ilə maraqlanırdı. Əsərini Amerika oxucusuna yönəltməklə, Selma Ekrem Türkiyə və onun vətəndaşları haqqında bu fikirləri aradan qaldıraraq, yeni təsəvvürlər yaratmağa müvəffəq oldu.

Ekremin türklər haqqındakı yeni təsəvvürlərə yanaşmasına nümunə olaraq onun Türkiyədə böyüməsi haqqında nostalji təsvirləri göstərmək olar. Bunun üçün Ekrem Osmanlı İmperiyasının son dövrünə təsadüf edən uşaqlıq xatirələrini bölüşmüş, eyni zamanda onun cəmiyyət, din və tale haqqında fikirlərini formalaşdıran hekayələri də daxil etmişdir. Ekrem hekayəsini məsum gəncik təcrübəsinə əsaslanaraq yazmağı qərara almışdır. Bununla o, Amerikalıların beynində kök salmış qorxunc türk və itaətkar türk qadını obrazı haqqında fikirləri aradan qaldırmaq istəyirdi.

Bütün əsər boyu Ekrem oxucusunun hekayədə yer alan insanlar və məkanlar haqqındakı təsəvvürlərinə xüsusi diqqət yetirmişdir. Bu onun öz anasına qərbdə qəbul olunmuş müraciət növü ilə deyil "xanım əfəndi" kimi müraciət etməsində daha açıq göstərir. Bununla belə Ekrem Qərb auditoriyası ilə ümumi bağlar qurmaq istəyir. Lakin eyni zamanda onlara öz fərqliliyini xatırladır.Ekrem heç bir zaman özünü qeyri-türk kimi qələmə verməyə çalışmamışdır. Əksinə o, türk etnik mənsubiyyətini daim müşaət edən qərb fikirlərini alt-üst etmək istəyirdi.

Özünün türk köklərini təsvir etmək Ekremə daha çox nüfuz gətirdi. O, Çadrasız əsərini yazmaqla özünü , ailəsini, və Türkiyənin qərbyönümlü daha gənc nəslini təsvir edir və bununla da Türkiyə daxilindəki qərb və şərq ziddiyətini aradan qaldırmağa çalışırdı.

Ekrem gözləyirdi ki, onun təsvir etdiyi Osmanlı ailəsində həyat və bu cəmiyyətdə qadının böyüməsi gənc Amerikan oxucu auditoriyasına yad gələcək. Lakin Ekrem öz oxucusu ilə öz nöqteyi- nəzərini bölüşməyə nail oldu. Bu ən çox islam və xristiyan ənənələrinin müzakirəsində özünü büruzə verirdi.

Ekrem, böyük bacısı və anası arasında gedən islam və xristianlıq arasında tarixi əlaqələr haqqında söhbəti öz xatirələrinə əlavə etmişdi. Bununla o, Amerika oxucularının İslamı Əhdi-Ətiq ənənəsinin bir hissəsi kimi daha yaxşı başa düşməsini istəyirdi.Söhbət zamanı oxucu və gənc türk uşaqları İsa Məsihin həm müsəlmanlar və həm də xristianların peyğəmbəri olması haqqında söhbətin şahidi olurlar.Belə düşünmək olardı ki, Ekrem bu kitabı öz dinləyicilərinin ona müsəlman kimi münasibət göstərərək rast gəlinəcək problemləri aradan qaldırmaq vasitəsi kimi nəzərdə tuturdu. Buna görə də, baxmayaraq ki, din uşaqlıq dövründə onun həyatında xüsusi rol oynamırdı, əsərdəki bu səhnə bir məsihçi auditoriyasının qorxularını aradan qaldırmaq və onların diqqətini çəkmək üçün nəzərdə tutulmuşdu.

Ekrem öz oxucu kütləsini türk kimliyi ilə fəxr etdiyinə inandırmasına baxmayaraq, o, qara çarşaba qarşı idi. Qızları başdan ayağa qaraya bürüyən bu çarşab onların yetkinlik yaşına çatmasının göstəricisi idi. Bacısı yeniyetmə yaşında örtünməsinə baxmayaraq, Ekrem ondan imtina etdi. Onun Amerikaya getmə səbəblərindən biri də bu idi.

Lakin bütün keşməkeşli xarici faktorlara baxmayaraq, onun yazdığı əsərlər göstərirdi ki,atasının rəsmi mövqeyinə görə o, əsl Osmanlı mühitində böyümüşdür və uşaqlıq illəri nisbətən daha təhlükəsiz keçmişdir.

Ekrem Osmanlı İmperiyasının son dövrünə təsadüf edən siyasi çaxnaşmaların və qeyri sabit vəziyyətin şahidi olmuşdur. Buna misal olaraq onun atası ilə Sultan Həmid arasında olan münasibətləri və atasının paytaxtdan uzaqlaşdırılaraq əyalətə göndərilməsini misal göstərmək olar.(5;2)Onlar tez-tez atasının təyinatları ilə əlaqədar olaraq bir yerdən başqa yerə köçürdülər . Selmanın atası onun əsərlərində mərkəzi yer tutur. O, təhlükəli cəmiyyətdə inam və təhlükəsizlik mənbəyi idi. Selmanın və digər ailə üzvlərinin əhval ruhiyyəsi atasının üz ifadəsindən asılı idi. Hörmət, mədəniyyət və təhsilin yüksək qiymətləndirildiyi bu ailə orta sinif Avropa ailələrinə bənzəyirdi. Lakin Selmanın ailəsi digər xüsusiyyətlərinə görə Avropa ailələrindən fərqlənirdi. Çoxlu sayda qohumlardan ibarət olan bu böyük ailə orta sinif şərq və qərb mədəniyyətinin vəhdəti idi. (3;264)

Kişilər ailənin ierarxiyasının başında olsa da, qadınlar daxili işlərdə və evin idarə edilməsində mübahisəsiz bir səlahiyyətə sahibdirlər. Selmanın anası evdar qadındır, lakin yazıçının anası haqqında yazdıqlarından belə aydın olur ki, o, eyni zamanda kifayət qədər qərbyönümlüdür.

Uşaq vaxtı Ekrem qohumları və fransız mürəbiyyəsindən təhsil almışdır. O, qısaca Quranı və türk dilini öyrənmişdir. Sonra Ekrem İstambulda qızlar üçün açılmış Amerikan kollecinə qəbul olmuşdur.

Ekremin ailəsində təhsil həm oğlanlar, həm də qızlar üçün çox vacib idi. Ekrem azad və oğlanlarla bərabəq hüquqa malik qız kimi yetişdirilmişdir. Lakin sonralar Osmanlı İmperiyasının qadınlara və qızlara göstərdiyi təzyiqlə üzləşmişdir. Onun böyük ailəsində həm qərbyönümlü , həm də adət-ənənələrə sadiq insanlar var idi. Selma onların hər birini çox sevirdi. Lakin digər tərəfdən ailədən kənarda artıq yetkinləşmiş Selma örtünmədiyinə görə ictimai təzyiqlərə məruz qalmışdır.(3;262)

Ailəsinin Osmanlı mənşəyi, türk vətənpərvərliyi, qərb mədəniyyətinə və Amerikalı qadınlara heyranlığı, onda qarışıq hisslərin yaranmasına səbəb oldu. Nəticədə, ABŞ-da səyahət etdikdən və orada yaşadıqdan sonra Ekrem son dövr Osmanlı cəmiyyətində böyüdüyü ailə dəyərlərinə, valideyn-övlad münasibətlərinə və davranışlarına daha hörmətlə yanaşmağa başladı.(3;263)

Ədəbiyyat siyahısı

1. Beyhan Kanter Halide Edib Adivar'in Romanlarinda Eril Tahakkümün Sinirinda Gezinen Kadinlar, Akademik Sosyal Araştırmalar Dergisi, Mart 2016, s. 84-94

2. Leyla Toksöz Halide Edib, Türk Modernleflmesi ve Feminizm , Türkiye Araflt›rmalar› Literatür Dergisi, , 2008, s 761-766

3.Duygu Köksal Escaping to Girlhood in Late Ottoman Istanbul: Demetra Vaka's and Selma Ekrem's Childhood Memories , The Ottoman Empire and its heritage,Volume 59, 2016 p 250-273

4.Gönül Pultar An "American Venture": Self-Representation and Self-Orientalization in Turkish- American Selma Ekrem's Unveiled , In Selected Proceedings of the First World Congress of the International American Studies Association, 2003.p 297-322. 5.https://tr.wikipedia.org/wiki/Halide_Edib_Ad%C4%B1var

6. www.archive.org/details/memoirsofhalide00haliuoft

7.http://www.baas.ac.uk/usso/youth-politics-and-dispelling-the-image-of-the-terrible-turk-with-selma-ekrems-autobiography-unveiled/

R.Jafarova

The role of Halide Edib and Selma Ekrem in the formation of Turkish-American Literature

Summary

At different times, people from different parts of the world flocked to the United States for various reasons. From the beginning of XX century, Turkish people began to immigrate to the United States, too. As there were three main waves of immigration from Turkey to the United States, the first wave took place during the period of the collapse of Ottoman Empire and formation of the Republic of Turkey. This was dramatically important period in the history of Turkey. The purpose of this paper is to investigate the formation and development of Turkish American literature during this period. The formation of Turkish American Literature is closely connected with the names of two woman writers, Selma Ekrem and Halide Edib Adivar. Though the writers' first works were of biographic character and mostly depicted Turkey and Turkish people, these two women had a certain place in the foundation of the Turkish American literature. Being west oriented and of modern outlook, their aim was to attract mostly American and European readers. As the Turkish man had a certain image in Americans and Europeans mind, which was not of too much positive character, these writers achieved a great success in reestablishing of this image. Their works played a tremendous role in the formation of new idea about Turkey and its citizens.

The works written by Khalida Edib and Selma Ekrem illustrate the socio-political processes that occurred during the transition from the Ottoman Empire to the Republic of Turkey, and their role in the lives of Turkish citizens, especially women.

Key words: immigrant literature, Halide Edib, Selma Ekrem, novel

Р.Жафарова

Роль Халиде Эдиб и Сельма Экрем в формирование Турецко-Американской литературы

Резюме

В разное время люди из разных уголков мира стекались в Соединенные Штаты по разным причинам. С начала XX века турецкий народ тоже начал иммигрировать в США. Поскольку было три основных волны иммиграции из Турции в Соединенные Штаты, первая волна имела место в период распада Османской империи и образования Турецкой Республики. Это был чрезвычайно важный период в истории Турции. Целью данной работы является исследование формирования и развития турецкой американской литературы в этот период. Становление турецко-американской литературы тесно связано с именами двух писательниц, Сельмы Экрем и Халиде Эдиб Адивар. Хотя первые работы писателей носили биографический характер и в основном изображали Турцию и турецкий народ, эти две женщины занимали определенное место в фундаменте турецко-американской литературы. Будучи ориентированными на запад и современными взглядами, их целью было привлечь в основном американских и европейских читателей. Поскольку у турецкого человека был определенный образ в сознании американцев и европейцев, который не имел слишком положительного характера, эти авторы добились больших успехов в восстановлении этого образа. Их произведения сыграли огромную роль в формировании нового представления о Турции и ее гражданах.

Работы, написанные Халидой Эдиб и Сельмой Экрем, иллюстрируют общественно-политические процессы, произошедшие во время перехода от Османской империи к Турецкой Республике, и их роль в жизни граждан Турции, особенно женщин.

Ключевые слова: иммигрантская литература, роман, Халида Эдиб, Селма Экрем

Redaksiyaya daxil olma tarixi: 21.07.2019
Çapa qəbul olunma tarixi: 25.10.2019
Filologiya elmləri doktoru, professor Cəlil Nağıyev tərəfindən çapa tövsiyə olunmuşdur

ÖZTÜRK ENVER FAZLIOĞLU,
UOT 82.
Bakı Slavyan Universiteti
enverozturk79@gmail.com

AHİSKA TÜRKLƏRİNİN SÜRGÜN ƏDƏBIYYATININ TARİXİ GENEZİSİ VƏ ƏDƏBİ TİPOLOGİYASI

Xülasə

Məqalədə 1944-cü ildə vətənlərindən sürgün edilmiş Ahıska türklərinin sürgün ədəbiyyatının tarixi-ədəbi qaynaqları və formalaşması qanunauyğunluqları, ədəbi özünəməxsusluğu, klassik ədəbiyyatdakı janrların sürgün dövründə bədii transformasiyaları, tarixi proseslərin ədəbi yaradıcılığa təsiri tədqiq olunur. Məqalədə Ahıska türklərinin tarixi, müasir dövrə qədər keçdikləri tarixi mərhələlər, siyasi proseslərin demoqrafiyaya, mədəniyyətə və toplum həyatına təsirindən bəhs edilmişdir, göstərilir ki, Ahıska türklərinin tarixində milli faciəyə səbəb olmuş 1944-cü ilin kütləvi deportasiyasından sonra folklor və ədəbiyyatın milli kimliyin qorunmasında müstəsna rol oynamış, bu hadisənin təsiri ilə milli mədəniyyətdə xüsusi bədii-estetik fenomen olan sürgün ədəbiyyatı formalaşmışdır. Məqalədə sürgünlə bağlı tarixi-siyasi proseslərin Ahıska türklərinin milli mənəviyyatına, mədəniyyətinə, folklor və ədəbiyyatına təsiri, bu təsir nəticəsində formalaşmış sürgün ədəbiyyatının klassik ədəbi irslə bağlılığı və sürgün dövründə baş vermiş janr, üslub və məzmun transformasiyaları nəzərən keçirilmişdir. Sürgün ədəbiyyatının məzmununun ilk növbədə vətən, doğma yurd, vətən həsrəti və yurd sevgisi, yurda dönüş əzmi, eləcə də milli-mənəvi dəyərlər, əxlaq normaları və davranış etiketinin aşılanmasına yönəlmiş didaktik mövzular olduğu bildirilir. Ayrıca olaraq klassik janr və rəmzlərin yeni məzmuna uyğun modifikasiyaları, eləcə yeni yaranmış lirik, lirik-epik, epik janrlar şərh olunur, memuar, roman, hekayə, sərbəst şeir formalarına toxunulur.

Ahıska türklərinin sürgün ədəbiyyatında bədii nəsr də yaranmış və müxtəlif janrlardan ibarət sistem kimi formalaşmışdır. Xalq yaradıcılığında nağıl, rəvayət, əfsanə, lətifə, dəstənə, dastan kimi poetik formalara malik bədii nəsr sürgün dövründə xatirə, memuar, publisistika, etnoqrafik qeydlər, roman, hekayə kimi yeni nəsr janrları ilə zənginləşmişdir. Son illərdə formalaşmağa başlayan Ahıska nəsri ilk növbədə Şahismayıl Adıgünlü, Nurəddn Sasıyev, Mircavad Ahıskalı kimi yazıçıların əsərləri ilə təmsil olunmuşdur. Bu yazıçıların yaradıcılığını bütövlükdə Ahıskalıların müasir nəsrinə xas aşağıdakı tipoloji xüsusiyyətlər səciyyələndirir: əsərlərin başlıca mövzusunun vətən sevgisi, sürgün acılarından ibarət olması; bədii yaradıcılıqlarında folklordan qaynaqlanması; folklor və etnoqrafik materialları toplamaları və nəşr etmələri; ortaq mövzuları həm nəsr, həm də nəzm əsərlərində qələmə almaları; əsərlərin dilinin vahid prinsip əsasında formalaşmaması (Nurəddin Sasıyev Ahıska dialektində, Şahismayıl Adıgünlü Azərbaycan, Mircavad Ahıskalı Türkiyə türkcəsində yazır); nəsr janrlarının fərqli tipologiyada aşkarlanması, yəni Nurəddin Sasıyevdə bədii nəsr, memuar, publisistika, folklor meyarlarının sinkretikliyi, Şahismayıl Adıgünlünün nəsrində kompozisiyanın hadisə deyil, xronoloji əsasda qurulması, təhkiyədə dialoqların təsvir və təhkiyə ilə müqayisədə mütləq üstünlüyü; Mircavad Ahıskalıda bədii mətnin siyasiləşdirilməsinə meyl izlənilir.

Ahıska sürgün ədəbiyyatının, demək olar ki, bütün janrları vətənpərvərlik, dini-mənəvi, sosial-əxlaqi tərbiyə funksiyasını yerinə yetirmişdir və yetirməkdədir. Ahıska türklərinin məhz sürgün ədəbiyyatında xüsusi didaktik-tərbiyəvi bədii mətnlər, eləcə də uşaq ədəbiyyatı formalaşmışdır. Müşahidələr göstərir ki, Ahıska türklərinin didaktik ədəbiyyatı aşağıdakı istiqamətlər

üzrə reallaşır və bu istiqamətlərdə tədqiqi məqsədəuyğundur: a) dini-mənəvi tərbiyə, b) vətənpərvərlik tərbiyəsi, v) sosial-əxlaqi tərbiyə, d) pedaqoji-maarifçilik tərbiyəsi.

Açar sözlər: Ahıska türkləri, sürgün ədəbiyyatı, ədəbi-tarixi qaynaqlar, ədəbi janrlar, didaktik məzmun

Qafqazda yaşayan bir çox türk və dağlı xalqlarının ənənəvi xalq yaradıcılığında və yazılı ədəbiyyatında mühüm yer tutan mövzulardan biri vətən sevgisi, işğalçılarla mübarizə olmuşdur. XIX əsrin əvvəllərindən başlayaraq Qafqazda cərəyan edən hərbi-siyasi hadisələr, yerli müsəlmanların cəlb olunduğu müharibələr bu xalqların milli mənəviyyatında, mədəniyyətində, folklor və ədəbiyyatında dərin iz buraxmış, şifahi xalq yaradıcılığında və yazılı ədəbiyyatda geniş əks olunmuş, bu motivlərin xüsusi bədii ifadə vasitələri, "köç yırları", "sürgün uzamları", "vətən ağıtları" kimi lirik janr formaları, memuar və epistolyar yaradıcılıq növləri təşəkkül tapmış, bütövlükdə xüsusi tarixi-ədəbi tipologiyası olan özünəməxsus "sürgün folkloru və ədəbiyyatı" yaranmışdır.

Qafqazın bir sıra digər müsəlman xalqları kimi, 1944-cü ildə vətənlərindən çıxarılıb Orta Asiyaya deportasiya edilmiş və bu vaxta qədər doğma vətənlərinə qayıda bilməmiş, müxtəlif ölkələrdə məskunlaşmış Ahıska türklərinin müasir folklorunda və ədəbiyyatında vətən və sürgün mövzusu xüsusilə aktuallaşmış, bu milli faciə milli varlığa və mədəniyyətə dərindən təsir edən, ictimai həyatın və mədəniyyətin mühüm tərkib hissəsi kimi *fəal sosial-psixoloji funksionallığını saxlayan önəmlii filoloji və tarixi-kulturoloji* məsələ kimi aşkarlanmışdır.

Lakin ümumən Ahıska türklərinin etnik mədəniyyəti və xüsusən bizim seçdiyimiz mövzu ilə bağlı *indiyədək aparılan tədqiqatlar* elə də çox deyil. Ahıska türklərinin sürgün ədəbiyyatı və folkloru haqqında prof. Asif Hacılının "Qəribəm bu vətəndə: Ahıska türklərinin etnk mədəniyyəti" (2) və "Ahıska türklərnin sürgün folkloru" (3) kitablarında bəhs edilmiş, onun topladığı ədəbi və folklor nümunələri təqdim olunmuşdur. Türkiyəli tədqiqatçı Yunus Zeyreyin "Ahıska Bölgesi ve Ahıska Türkleri" (11) kitabında da Ahıska türklərinin tarixi, klassik və müasir ədəbiyyatı ümumi şəkildə şərh olunmuş və müəyyən ədəbi nümunələr təqdim olunmuşdur. Qazaxıstanda fəaliyyət göstərən tədqiqatçı T.G.Taqarova Qazaxıstanda yaşayan Ahıska türklərinin ədəbiyyatının tarixi-etnik əsaslarına həsr etdiyi xüsusi məqalədə (15) isə bu ədəbiyyatın milli etnoqrafik, ədəbi əsasları və ümumi səciyyəsi təqdim olunmuşdur. Bütövlükdə bu məsələnin müstəqil tarixi-filoloji problem kimi elmi qoyuluşu və sistemli tədqiqi isə bu vaxta qədər aparılmamışdır.

Təqdim etdiyimiz məqalədə *tarixi-tipoloji tədqiqat metodundan* istifadə etməklə, Ahıska türklərinin 1944-cü ildən indiyədək davam edən sürgün dövründə formalaşmış xüsusi "sürgün ədəbiyyatı"nın özünəməxsus ədəbi-estetik fenomen və elmi anlayış kimi mövcud olduğunu, bu ədəbi fenomenin milli tarixi qaynaqlarının və müasir sosial-mədəni kontekstinin, ədəbi-bədii tipologiyasının ümumi şərhini və gələcək araşdırmalar üçün müəyyən elmi bazanın yaradılmasını əsas məqsəd kimi qarşıya qoymuşuq.

Ahıska türklərinin son 75 il ərzində yaranmış zəngin ədəbi irsinin, sürgün ədəbiyyatının tarixi genezisinin və ədəbi-estetik tipologiyasının tədqiqi sırf filoloji önəmi ilə bərabər, tarixi-siyasi proseslərin ədəbi yaradıcılığa təsirinin öyrənilməsi, repressiyaya uğramış digər Qafqaz müsəlman xalqlarının ortaq mental cəhətlərinin aydınlaşdırılması baxımından da böyük rol oynaya bilər. Bu baxımdan, Ahıska türklərinin etnik mədəniyyətinin, o cümlədən sürgün ədəbiyyatının sosial, estetik mahiyyətini qavramaq üçün ilk növbədə bu xalqın etnik səciyyəsinin və tarixinin ümumi səciyyəsini nəzərdən keçirmək lazımdır.

Ahıska türkləri tarixən cənubi-qərbi Qafqazda, indiki Gürcüstan Respublikasının Samsxe-Cavaxet bölgəsində yaşamış türk-müsəlman əhalisi, Anadolu türklərinin bir hissəsidir.

Osmanlı türkcəsinin yerli mənimsəmələrlə zənginləşmş Şərqi Anadolu dialektində danışan Ahıska türkləri mahiyyətcə Türkiyə türklərinin özünəməxsus etnoqrafik qrupu olsalar da, professor Asif Hacılının "Borçalının qarapapaq elatı tarix meydanına osmanlılığa meylli azəri türkləri kimi çıxmışsa, Ahıska eli – azərbaycanlılığa meylli Osmanlı türkləri hesab oluna bilər" (2, s.3-4) barədə mülahizəsi ilə razılaşmamaq olmur. Ahıska türklərinin mədəniyyətində Qafqaz – Anadolu – Yaxın Şərq arasında müəyyən transkültürlük əlamətləri sezilir və bu cəhət bədii ədəbiyyatda təzahür edir.

Lakin çoxkültürlüyü, mədəniyyətlərin dialoqunu qeyd etməklə bərabər, bir cəhəti xüsusi vurğulamalıyıq ki, Ahıska türklərinin fərqli mədəniyyətlər arasında keçid mövqeyi onların mədəniyyətin substrat mahiyyətinə, türk tipologiyasına təsir etməyib və bu tipologiya sürgün dövründə də qorunub saxlanaraq, inkişaf etmişdir. Ahıska türklərinin etnik varlığı, mədəniyyət və ədəbiyyatı Osmanlı türklərindən ayrılmazdır, ümumən türk mədəniyyətinin üzvi tərkib hissəsidir və bu cəhət onların bütün tarixi boyu izlənmişdir. Ahıska türklərinin tarixini tədqiqatçılar ümumilikdə aşağıdakı uyğun mərhələlərə ayırırlar: "qədim dövr, atabəylik və paşalıq, rus istilası və paşalığın süqutu, oyanış, sürgün, yurda dönüş mücadiləsi mərhələləri" (2; 54) və ya "qıpçaqlar dövrü, atabəylər dönəmi, Osmanlı mərhələsi, rus işğalı dövrü, sovet dövrü, sürgün dövrü" (11), "səlcuq, qıpçaq, atabəylik, Osmanlı, rus işğalı və əsarəti, XX yüzilin başlarında oyanış və milli mücadilə, sovet yönətimi və sürgün, vətənə dönüş mücadiləsi, Fərqanə və ikinci sürgün, Müstəqil Dövlətlər Birliyi dövrləri" (1).

Erkən dövrlərdə fərqli oğuz-qıpçaq soylarının yerləşdiyi, Orta əsrlərdə Ağqoyunlu, Qaraqoyunlu, Səfəvi kimi türk dövlətlərinin tərkibində olan bu ərazinin çağdaş etnik-mədəni siması Ahıska Atabəyliyi və Osmanlı dövründə tam formalaşır. Ahıska atabəyliyi (gürcücə Saatabaqo) "Azgur'dan Kars, Artvin, Tortum, İspir ve Erzurum'a kadar uzanan" (11, s.9) böyük əraziləri əhatə edir və tədqiqatçıların yazdığı kimi, "Bugünkü halk kültüründen de anlaşılıyor ki, Ahıska Türkleri ile Posof, Ardahan, Artvin, Ardanuç, Şavşat, Yusufeli, Tortum, Narman ve Oltu halkı aynı köktendir" (6, s. 83-84.).

1578-ci ildə bu ərazilərin Osmanlı dövləti tərəfindən fəthindən sonra burada mərkəzi Ahıska şəhəri olan Çıldır əyaləti və sonradan Ahıska paşalığı yaradılır, paşalıq iqtisadi, mədəni cəhətdən inkişaf edir, Osmanlı dövlətində ciddi hərbi-siyasi əhəmiyyətə malik olur. Ahıska paşalığı 1828-ci ildə Rusiya imperiyası tərəfindən işğal olunana qədər öz inzibati-siyasi varlığını və türk-islam mədəniyyətini qoruyaraq inkişaf etdirir. Burada bir çox qalalar, dini mərkəzlər, mədrəsə və kitabxanalar fəaliyyətə başlayır, zəngin xalq sənəti, aşıq yaradıcılığı, yazılı ədəbiyyat formalaşır.

Lakin XIX əsrin əvvəllərindən müsəlmanlara qarşı yönəlmiş "Şərq siyasəti", Rusiya və Osmanlı arasında hərbi toqquşmalar Ahıskanın tarixində acınacaqlı rol oynayır. Rusiya və Osmanlı arasında müharibələr nəticəsində 1828-ci ildə Ahıska paşalığı süqut edir və ərazisinin böyük bir hissəsi Rusiya imperiyasının tərkibinə qatılır, bu torpaqlarda Rusiya idarəçiliyində olan Ahıska və Ahilkələk adlı iki qəza yaradılır. Bundan sonra türklərin tarixi vətənləri Rusiya dövləti tərəfindən Qars və Bayazitdən köçürülən ermənilər hesabına geniş miqyasda ermənilərdirilməyə başlayır. Yerli türk əhalisinin böyük bir qismi doğma yurdunu tərk edib Osmanlıya köçür (54, s.30-40; 1, s.41-44).

Sonrakı dövrlərdə də rus-türk müharibələri Ahıska türklərinin həyatına birbaşa mənfi təsir edir, sovet rejimi bərqərar olana qədər yerli türk əhalisinin Türkiyəyə miqrasiyası davam edir (1). Bu proseslərin böyük miqyasını və türklər üçün ağır nəticələrini demoqrafik göstəricilər də təsdiq edir. Bölgənin iqtisadi, mədəni mərkəzi olan Ahıskanın 1828-ci ildə 50 minlik əhalisi işğaldan sonra kəskin şəkildə azalmağa başlayır və bir daha əvvəlki həddə yaxınlaşmır: 1939 – 12,2 min, 1959 – 16,9 min, 1966 – 17,8 min nəfər (14, c.298).

Türklərə qarşı bu proseslərdə ermənilər fəal rol oynayırlar. Qafqaza gəldikləri ilk vaxtlardan başlayaraq ermənilərin türklərə, eləcə də gürcülərə, ruslara, kürdlərə qarşı intriqaları XIX və XX yüzillərin bütün dövrlərində izlənilir (12; 10) və bu gün də davam edir.

XX əsrin əvvəllərində erməni quldur dəstələrinin dinc müsəlmanlara qarşı terroru şiddətli həddə çatır, imperialist havadarlarına arxalanan, yaxşı silahlandırılmış erməni terror dəstələri türklərə qarşı repressiyaları gücləndirir, dinc əhali kütləvi şəkildə qətl edilir. Bu dövrdə Ahıska türklərinin liderləri Ömər Faiq Nemanzadə, Osman Sərvər Atabəy, Dikanlı Hafiz və başqaları könüllülər dəstəsi yaradaraq erməni terroruna müqavimət göstərir, bu ərazilərdə Ahıska Hökuməti Müvəqqətəsi yaradılır, əvvəl Qarsda yaradılmış Milli Şura Hökumətinə və bir qədər sonra, 1919-cu ilin yanvarında elan olunmuş Cənubi-Qərbi Qafqaz Hökumətinə birləşir (1, s.131-173).

Lakin erməni terroru davam edir və 1918-ci ilin axırları – 1919-cu ilin əvvəllərində Böyük Ermənistan xülyaları ermənilərin Gürcüstana qarşı dövlət səviyyəsində hərbi təcavüzü və Gürcüstanla müharibəsi ilə nəticələnir. Ermənilərin Gürcüstan ərazisində geniş terror əməliyyatları Azərbaycan və gürcü ziyalılarını birləşməyə sövq edir, artıq 1917-ci ilin yayında Tiflisdə kəndli qurultayında ermənilərə qarşı Gürcü-müsəlman İttifaqı yaradılır (7, s.13). 1919-cu ildə gürcülərin dini təşkilatları ermənin müsəlmanlara qarşı terroruna son qoymağı tələb edirlər. Türklər isə 1919-cu ilin yanvar-martında Ude kəndində 180 katolik gürcünü evlərində gizlədib erməni qırğınından xilas edirlər (13). Borçalı, Ahıska-Axılkələkdə erməni fitnələri haqqında son dövrlərdə bir çox faktlar aşkarlanmışdır (8; 9).

1921-ci ilin martında Türkiyə və Sovet Rusiyası arasında bağlanan müqavilə ilə Ahıska və Axılkələk uyezdləri Gürcüstana birləşdirilir (1, s.173-178). Bu dövrdən bir müddət sülh şəraitinə düşən Ahıska türklərinin mədəni və iqtisadi dirçəlişi üçün müəyyən şərait yaranır. Lakin siyasi səbəblərə görə Türkiyə ilə əlaqələrin kəsilməsi nəticəsində kadr qıtlığı yaranır və məhz Azərbaycanla əlaqələr mədəni inkişafa təkan verən əsas amil olur. Azərbaycandan gələn mütəxəssislərin köməyi ilə Ahıska-Axılkələk obalarında müasir təhsil müəssisələri, mədəniyyət ocaqları yaranır, yerli pedaqoji, texniki, inzibatçı kadrlar yetişir. Gürcüstan türk ədəbi-mədəni mühitinin görkəmli tədqiqatçısı professor Abbas Hacıyevin yazdığı kimi, bu dövrdə Ahıska türklərinin Azərbaycanla mədəni əlaqəsi güclənir, Azərbaycandan xeyli sayda partiya-hökumət işçiləri, pedaqoji kadrlar, jurnalistlər, rejissorlar, aktyorlar gəlir. Bu dövrə milli mətbuat surətlə inkişaf edir, Adıgündə «Adıgün kolxozçusu» (1931), «Qızıl rəncbər» (1933), Ahıskada «Kommunist» (1930), Aspindzada «Bağban» (1933), «Sosializm kəndi» (1940) kimi mətbuat orqanları çıxır, Tiflis Azərbaycan Dram Teatrının köməyi ilə 1934-cü ildə böyük sənətkar İbrahim İsfahanlının başçılıq etdiyi Adıgün Səyyar Kolxoz-Sovxoz teatrı fəaliyyətə başlayır (67, s. 138-141; 5, s.21-31).

Lakin sovet rejiminin türk – müsəlman xalqlarına qarşı yönəlmiş siyasəti Ahıska türklərinin də 1944-cü ildə vətənlərindən Orta Asiyaya və Qazaxıstana deportasiya edilməsinə, 12 il xüsusi komendant rejimində yaşamasına və bu günə qədər də tarixi yurdlarına qayıda bilmədiklərinə səbəb olur.

Türklər sürgünün ilk dövrlərindən Vətənə qayıdış uğrunda mübarizəyə başlayır, 1956-cı ildə SSRİ Ali Sovetinin Rəyasət heyətinin fərmanı ilə Ahıska türkləri komendant rejimindən və yerlərini dəyişməklə bağlı məhdudiyyətlərdən azad edilsələr də, onların Gürcüstana köçməsi yasaqlanır, dəymiş maddi zərərin ödənməsi nəzərdə tutulmur. Ahıska türkləri sovet hakimiyyəti dövründə vətənə dönüş haqqını ala bilmir və təəssüf ki, indiyədək də ala bilməyiblər.

Hazırda Ahıska türkləri dünyanın ona qədər ölkəsində, o cümlədən ABŞ-da və Avropa ölkələrində məskunlaşıb. 1958-ci ildən başlayaraq Ahıska türklərinin böyük bir hissəsi Azərbaycana köçmüş və bu gün də onların çoxsaylı toplumlarından biri məhz burada yerləşib, azərbaycanlılarla tarix, dil, mədəniyyət yaxınlığına görə ahıskalıların etnik mədəniyyəti və ədəbiyyatı məhz burada yüksək səviyyədə inkişaf etmişdir.

Artıq yetmiş beş il ərzində deportasiya şəraitində, dünyanın ona qədər ölkəsində yaşayan, doğma vətənlərinə qayıdıb toplum halında məskunlaşa bilməyən Ahıska türklərinin milli kimliyini, vətənpərvərlik hisslərini, milli birliyini qoruyub saxlayan əsas amillərdən biri məhz bədii ədəbiyyat və xalq yaradıcılığıdır. Ahıska türklərinin mədəniyyətində bu milli faciənin təsiri ilə formalaşmış, sosial baxımdan fəal, yaradıcılıq nöqteyi-nəzərindən rəngarəng, lakin bu günə qədər ayrıca elmi problem şəklində öyrənilməmiş "sürgün ədəbiyyatı"nın tədqiqi bir çox cəhətdən əhəmiyyətli və aktualdır. Əvvələn, vətən həsrəti, sürgün acıları Ahıska türklərinin bütövlükdə milli mənəviyyatının və bədii yaradıcılığının əsas mövzusu kimi müasir dövrdə yeni çalarlar qazanmış, realist, romantik, bəzən modern bədii təfsirini tapmaqdadır. Digər tərəfdən, Ahıska türklərinin milli poeziyasında, nəsrdə, bəzən dram şəkillərində (əsasən ssenarilərdə) aşkarlanan "sürgün ədəbiyyatı" janr rəngarəngliyi ilə bərabər, orijinal semantik və struktur xüsusiyyətlərinə, funksional aktuallığına görə də özünəməxsus poetik fenomen şəklində aşkarlanır.

Lakin bir daha vurğulayaq ki, Ahıska türklərinin "sürgün folkloru və ədəbiyyatı" bu vaxta qədər sistemli akademik tədqiqatların, eləcə də digər türk xalqlarının ədəbi-bədii yaradıcılığının mövzusu olmamışdır. Ahıska tarixi və mədəniyyətinin tanınmış tədqiqatçısı Yunus Zeyreyin on yeddi il öncə söylədiyi aşağıdakı fikir, əslində, bu gün də aktualdır: "Ahıskalıların vatanlarından sürgün edilmeleri maalesef Türk kültür dünyasında hiç yer bulamamıştır... Fergana'da katliâma maruz kalana kadar varlıkları bile bilinmeyen bu insanlar, acaba kendi içlerinden sanatkârlar -şâir ve yazarlar- çıkarabilmişlermidir? Hayatlarını edebî eserlere işleyebilmişler midir?..." (11, s. 230).

Təbii ki, bu faktın sosial, demoqrafik və siyasi səbəbləri var idi. Sovet dövründə Ahıska türk ədəbiyyatının milli-tarixi zəmində inkişafına siyasi amillər və senzura imkan vermirdi, Müəyyən yazıçı və şairlərin əsərlərini isə çıxarmaq mümkün deyildi. Buna görə də Ahıska türklərinin sürgün ədəbyyatınnı nümayəndələri olan Usta Mürtəz, Cabir Xalid, Zeynul Yektayi, Fəhlül, Zarzimalı Aslan, Şahismayil Adigünlü, Şimşək Sürgün Kaxaretli, Mircavad Ahıskalı, Güləhməd Şahin, Həmdi Yitgün, Ilyas Xəlil, Ilim Səfil, Məhəmməd Paşaliyev, Nurəddin Sasıyev, Müzeyfə Qoca Adigünlü, Mehyar Əhmədoğlu, Şəmşir Şimşəkoğlu, Təzəgül Cövdətqızı və digərlərinin Türkiyədə, Azərbaycanda dərc olunmuş ədəbi əsərləri və kitabları göstərir ki, Ahıskalı şair və nasirlərin milli sorun və idealları məhz postsovet dövründə açıq şəkildə geniş oxucu kütləsinə çatdırılmağa başlamışlar.

Bu ədəbi əsərlərdə milli tarix, etnik dəyərlər, milli ideallar və sürgün dövrünün tarixi prosesləri, ilk növbədə digər türk xalqları ilə əlaqələr əks olunmuşdur. 1944-cü ildən bu günə qədər müxtəlif ölkələrdə məskunlaşaraq milli təhsildən, mətbuatdan məhrum olmuş Ahıska türklərinin başqa xalqlarla təmasları, "polietnik mühit onların ədəbiyyatına təsir edən güclü amil" (15, s. 138) olmuşdur. Bütün bunlara görə də klassik və modern bədii formaları, şifahi və yazılı mətnləri ehtiva edən Ahıska türklərinin sürgün folkloru və ədəbiyyatının tədqiqi bütövlükdə ümumtürk mədəniyyəti və türkoloji tədqiqatlar baxımından elmi əhəmiyyət kəsb edən aktual məsələlərdəndir.

Digər tərəfdən, bu məsələnin tədqiqində sürgün ədəbiyyatının sosial-ictimai proseslərdə funksional rolunun, xüsusən, didaktik-tərbiyəvi, birləşdirici əhəmiyyətinin aktuallığı ayrıca nəzərə alınmalıdır. Sürgün dövründə Ahıska türklərinin xalq yaradıcılığı və ədəbiyyatı tarixi yaddaşın qorunmasında, milli mənlik şüurunun, vətənpərvərlik hisslərinin, milli mənəvi dəyərlərin formalaşmasında, gənc nəslə aşılanmasında böyük tərbiyəvi-psixoloji rol oynamış və "sürgün poeziyası milli faciələri əks etdirmək, tarixi yaddaşı qorumaqla yanaşı, gənc nəslə yurd sevgisi, mübarizlik, vətənpərvərlik hissi aşılayır, tarixi varisliyi yaşadır, xalqı doğma yerlərə səsləyir, vətən eşqini və mübarizliyi artırır, vətənə dönüş mücadiləsinə xidmət edir" (3, s. 27).

Janr baxımından qeyd olunmalıdır ki, Ahıska sürgün ədəbiyyatı əsasən lirik şeir, poema, roman, hekayə kimi janrlardan ibarət olan bu əsərlərin məzmununu vətən sevgisi, doğma yurd

həsrəti, vətənə qayıdış əzmi, vətənpərvərlik hissləri, qürbət acısı və sürgün əzabları kimi motivlər təşkil edir. Klassik folklorda və ədəbiyyatda olduğu kimi, Ahıska türklərinin çağdaş poeziyasında da lirik şeir janrları üstünlük təşkil edir. Müasr lirikanın məzmununda əsas yer tutan vətən mövzusu iki formada – a) açıq şəkildə vətən həsrətini ifadə edən mətnlər; b) ənənəvi məhəbbət lirikası və ağıların assosiativ şəkildə sürgün mövzusunu aşkarlaması ilə ifadə olunur. Bəzən isə, ənənəvi mani-bayatılarda eşq, sevgi, yar və s. bildirən *ənənəvi rəmz və ifadələr* birbaşa transformasiya olunaraq "vətən", "yurd", "el", "vətən" kəlmələri ilə əvəz edilir: "Qoy gedem yurda bəni, / Tapşurma qurda bəni, / Gözi yolda qalan var,/ Öldürmə burda bəni"; "Kalanın bədənləri, / Çəvürün qedənləri, / Ah desin, kan tüfürsün, / Vətəndən edənləri"; "Anqaranın işinə bax, / Gözlərimin yaşinə bax, / Vətənə yesir qaldux, / Yaradanın işinə bax" (2, s.136-149).

Sürgün poeziyasında tarixi yurdun toponimikasını əks etdirən ("Bu dərənin uzuni, / Kıramadım buzuni, / Aldım Azqur qızıni, / Çekəmədim nazıni"; "Dağıstan dağ yeridür, / Gürcüstan bağ yeridür, / Adıgönün qızlari / Xormanın bol yeridür". – 2, 136-149), Osman Paşa, Mustafa Kamal Paşa, Xəlid Paşa, Ənvər Odabaşov kimi tarixi şəxsiyyətlərin xatırlandığı əsərlər də xüsusi yer tutur. Bütövlükdə, Ahıska türklərinin sürgün poeziyası, sürgün mühitinə semantik və funksional baxımdan uyğunlaşaraq, sürgün, vətən həsrəti kimi aktual mövzuları ifadə edən ənənəvi lirik janrlardan (mani, türkü, gəraylı, təcnis, qoşma, ustadnamə) və sərbəst şeir, uşaq şeiri kimi yeni janrlardan ibarət dinamik sistemdir.

Sürgün dövründə Ahıska türkləri ədəbiyyatında klassik səyahətnamələr, vətən ağıtları və dastanlar əsasında lirik-epik janrlar və üslub da formalaşmışdır. Müasir poemaları xatırladan vətən ağıtları, eləcə də səyahətnamələr, nəsihətnamələr, dəstənələr, xatirələr müasir şairlərdən Usta Mürtəz, Cabir Xalid, Zeynul Yektayi, Fəhlül, Zarzimalı Aslan Şair, Şimşək Sürgün Kaxaretli, Mircavad Ahıskalı, Ilyas Xəlil, Ilim Səfil, Güləhməd Şahin, Məhəmməd Paşaliyev, Şahismayil Adigünlü, Nurəddin Sasıyev, Müzeyfə Qoca Adigünlü, Səkinə Zanavlı, Mehyar Əhmədoğlu, Həmdi Yitgün, Şəmşir Şimşəkoğlu, Təzəgül Cövdətqızı, Müsəddin, İndusa Musaoğlu, Dərdli Gözəl, Aşiq Binəli, Usta Bəkir və başqalarının yaradıcılığında izlənilir. Bu əsərlərdə xalq poeziyasına xas emosional pafosla yanaşı, hadisələrin ardıcıllığının yığcam təsviri, subyektivliyin zəifləməsi, olayın, hadisələrin gerçək mənzərəsinin təsvirinə cəhd önə çıxır. Usta Mürtəz, Cabir Xalid, Səkinə Məhəmməd qızı Zanavlı , Şəmşir Şimşəkoğlu, İndusalı Musaoğlu, Təzəgül Cövdətqızı, Zeynul Yektay kimi şairlərin lirik-epik səyahətnamə və nəsihətnamələrində vətəninin təbiəti, doğma yurdun məskənləri, abidələri, məzarlıqlar təsvir olunur, gənclərə vətən sevgisi, yurda dönüş əzmi, milli-mənəvi dəyərlər aşılanır.

Beləliklə, Ahıska türklərinin müasir ədəbiyyatının nəzərdən keçirdiyimiz ədəbi-tipoloji səciyyəsi və tarixi genezisi aşağıdakı elmi qənaətin alınmasına imkan verir: ictimai-siyasi proseslərin və klassik mədəniyyətin təsiri ilə Ahıska türklərinin (o cümlədən sovet dövründə sürgün olunmuş digər xalq və toplumların) mədəniyyətində xüsusi bədii-estetik fenomen hesab olunacaq sürgün ədəbiyyatı formalaşmış və müstəqil elmi məsələ kimi aktuallaşmışdır; Ahıska türklərinin mədəniyyətində izlənən sürgün ədəbiyyatı və folkloru bu xalqın milli tarixini, cəlb olunduğu siyasi prosesləri, etnik-milli kimlik şüurunu əks etdirir; sürgün dövrünün demoqrafik, sosial həyat şəraitinə, siyasi kontekstə uyğun olaraq sürgün ədəbiyyatında sosial-psixoloji və didaktik funksiyaları xüsusi aktuallıq kəsb edir; müxtəlif regionlarda və xalqlarla təmasda formalaşan sürgün dövrü transkültür və polilinqvistik elementlərə malik olur. Sürgün ədəbiyyatı əsasən milli mətbuat və təhsilin olmadığı mühitdə şifahi şəkildə yaranır və hafizədə, yaxud əlyazmalarda mövcud olur, buna görə də bu mətnlərin toplanması mühüm filoloji vəzifədir. Qeyd olunan bütün bu tipoloji xüsusiyyət və amillərin sürgün ədəbiyyatının gələcək tədqiqatlarında metodoloji əsas kimi nəzərə alınması məqsədəuyğundur.

Ədəbiyyat

1. Buntürk Seyfeddin. Rus Türk Mücadelesi"nde Ahıska Türkleri. Ankara, Berikan Yayınları, 2007. 472 s.
2. Hacılı Asif. Qəribəm bu vətəndə /Ahıska türklərinin etnik mədəniyyəti/. B., Gənclik, 1992. 216 s.
3. Hacılı Asif. Axıska türklərinin sürgün folkloru. Bakı, Mütərcim, 2014. 100 s.
4. Hacıyev Abbas. Tiflis Azərbaycan teatrı. B., 1984.
5. Hacıyev Abbas. Tiflis Azərbaycan və Adıgün türk teatrı. Bakı, "Borçalı", 2006. - 32 s.
6. Kurat, Prof. Dr. Nimet Akdes, IV-XVIII. Yüzyillarda Türk Kavimleri ve Devletleri, Ankara, 1972, s. 83-84.
7. Qurko-Kryajin V. Erməni məsələsi. B., 1990.
8. Məmmədli Ş.. Paralanmış Borçalı və ya 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin acı nəticələri. B., 1991.
9. Şamıoğlu Ş.. Borçalıda etnik proseslər və millətlərarası münasibətlər (XIX-XX əsrlər). B., 1997.
10. Uimz S.A.. Ermənistan – terrorçu «xristian» ölkənin gizlinləri. Ermənilərin böyük fırıldaq seriyaları. I cild, B., 2004.
11. Zeyrek Yunus. Ahıska Bölgesi ve Ahıska Türkleri. Uyum Ajans ve Pozitif Matbaacılık Yayını. Ankara, 2001, 292 s.
12. Ахалцихская нетерпимость // "Кавказ" (№ 94), 1897.
13. Бараташвили Л., Бараташвили К. Мы - месхи... // Литературная Грузия, 1988.
14. Советский Союз. Географическое описание в 22-х томах. Грузия. Отв. ред. Ф.Ф.Давитая, М., 1967.
15. Тагарова Т.Г., Историко-этнические основы турецкой литературы в Казахстане // Вестник КазНУ. Серия Востоковедения. 2009, №2 (47)., с.133-138.

Э,Озтурк

Историческая генетика и литературная типология выселенской литературы ахысхинских турок

Резюме

В статье рассматриваются историко-литературные источники и закономерности выселенской литературы ахысхинских турок, изгнанных со своей родины в 1944 году, литературной идентичности, литературной трансформации жанров в классической литературе и влияния исторических процессов на литературное творчество. В статье рассматриваются история ахысхинских турок, их доисторические времена, влияние политических процессов на демографию, культуру и общественную жизнь, показано, что народная депортация фольклора и литературы после национальной депортации 1944 года привела к национальной трагедии в истории ахысхинских турок. На это событие повлиял феномен выселенской литературы, который является особым художественным и эстетическим явлением в национальной культуре.

В статье рассматривается влияние историко-политических процессов изгнания на национальную мораль, культуру, фольклор и литературу ахысхинских турок, связь между литературным наследием выселенской литературы и преобразованиями жанра, стиля и содержания, имевшими место в изгнании. Говорят, что содержанием литературы в изгнании являются прежде всего родина, тоска и любовь к стране, а также

дидактические темы, направленные на развитие национальных и моральных ценностей, этики и этикета. Они также интерпретируют новые жанры и символы, а также новые лирические, лирико-эпические, эпические жанры и затрагивают романы, рассказы и формы свободной поэзии.

В выселенской литературе ахысхинских турок литературная проза также была создана и сформирована как система различных жанров. Литературная проза, которая имеет поэтические формы, такие как сказки, легенды, легенды, легенды, эпосы в народном искусстве, обогащена новыми жанрами воспоминаний, воспоминаний, гласности, этнографических записей, романов и рассказов. Проза ахысхинских турок, которая начала формироваться в последние годы, была представлена в первую очередь такими писателями, как Шахисмайил Адгунлу, Нураддин Сасыев и Мирджавад Ахискас. Творчество этих писателей характеризуется следующими типологическими чертами, присущими современным ахысхинских турок: главная тема произведений - любовь к стране, изгнанникам; источник из фольклора в художественной литературе; сбор и публикация фольклорных и этнографических материалов; общие темы как в прозе, так и в поэзии; язык произведений не формируется по одному принципу (Нураддин Сасыев пишет на ахысхинском диалекте, Шахисмайил Адгунлу – на азербайджанском, Мирджавад Ахискали – на турецком языке); открытие жанров в разных типологиях: художественная проза, мемуары, синтез фольклора, сочинение Шахисмайла Адигли на хронологической основе и сравнение диалога с основанием; у Мирджавада Ахискалы наблюдается тенденция политизации литературного текста.

Почти все жанры ахысхинской выселенско литературы были и продолжают функционировать как патриотическое, религиозное, духовное, социальное и нравственное воспитание. Именно дидактически-воспитательные литературные тексты, а также детская литература сформировались в изгнанной литературе ахысхинских турок. Наблюдения показывают, что дидактическая литература турок основана на следующих областях: а) религиозное и нравственное воспитание, б) патриотическое воспитание, в) социальное и нравственное воспитание и г) педагогическое и просветительское образование.

Ключевые слова: Ахысхинские турки, выселенская литература, литературно-исторические источники, литературные жанры, дидактический контент

E.Öztürk

Historical genetics and literary typology of eviction literature of akhyskha turks

Summary

The article discusses the historical and literary sources and patterns of the evicted literature of Akhyskha Turks expelled from their homeland in 1944, literary identity, literary transformation of genres in classical literature and the influence of historical processes on literary creation. The article discusses the history of Akhyskha Turks, their prehistoric times, the influence of political processes on demography, culture and social life, it is shown that the national deportation of folklore and literature after the national deportation of 1944 led to a national tragedy in the history of Akhyskha Turks. This event was influenced by the phenomenon of evicted literature, which is a special artistic and aesthetic phenomenon in national culture.

The article discusses the influence of historical and political processes of exile on national morality, culture, folklore and literature of Akhyskha Turks, the relationship between the literary heritage of the evicted literature and the transformations of the genre, style and content that took place in exile. They say that the content of literature in exile is primarily the homeland, longing and love for the country, as well as didactic topics aimed at developing national and moral values, ethics and etiquette. They also interpret new genres and symbols, as well as new lyric, lyric-epic, epic genres and affect novels, short stories and forms of free poetry.

In the Akhyskha Turks ousted literature, literary prose was also created and formed as a system of various genres. Literary prose, which has poetic forms, such as fairy tales, legends, legends, legends, epics in folk art, is enriched with new genres of memories, memoirs, publicity, ethnographic records, novels and short stories. The prose of the Akhyskha Turks, which began to take shape in recent years, was presented primarily by such writers as Shahismayil Adgunlu, Nuraddin Sasyev and Mirjavad Ahiskas. The creativity of these writers is characterized by the following typological features inherent in modern Akhyskha Turks: the main theme of the works is love for the country, exiles; source from folklore in fiction; collection and publication of folklore and ethnographic materials; common themes in both prose and poetry; the language of the works is not formed according to one principle (Nuraddin Sasyev writes in the Akhyskha dialect, Shahismayil Adgunlu in Azerbaijani, Mirjavad Akhiskali in Turkish); the discovery of genres in various typologies: fiction, memoirs, synthesis of folklore, the composition of Shahismail Adigli on a chronological basis and comparison of dialogue with the foundation; Mirjavad Ahisqala has a tendency to politicize the literary text.

Almost all genres of Akhyskha eviction literature were and continue to function as patriotic, religious, spiritual, social and moral education. It was didactic-educational literary texts, as well as children's literature, that were formed in the exiled literature of the Akhyskha Turks. Observations show that the didactic literature of the Turks is based on the following areas: a) religious and moral education, b) patriotic education, c) social and moral education, and d) pedagogical and educational education.

Keywords: Akhyskha Turks, eviction literature, literary and historical sources, literary genres, didactic content

Redaksiyaya daxil olma tarixi: 14.07.2019
Çapa qəbul olunma tarixi: 25.10.2019
Filologiya elləri doktoru, professor Asif Hacıyev tərəfindən çapa tövsiyə olunmuşdur

ASLAN AYGÜN
BDU
ayka-aslanova@mail.ru

MƏHƏMMƏD İQBAL VƏ İSLAM CƏMİYYƏTİNİN NİZAMİ

Xülasə

Məqalədə görkəmi urdu şairi Məhəmməd İqbalın həyat və yaradıcılığı haqqında ümumi məlumat verilmişdir. Eyni zamanda, İqbal və İslam cəmiyyətinin nizamı qarşılıqlı şəkildə təhlil edilmişdir. Şair urdu, fars və ingilis dillərində yazıb yaratmışdır. Şairin on bir şeirlər toplusu vardır,bunlardan dördü urdu dilində, yeddisi isə fars dilindədir. Iqbal bütün yaradıcılığında humanzmi, vətənpərvərliyi və islamçılığı təbliğ etmişdir. XX əsrin əvvəllərində Birinci Dünya müharibəsi və bu müharibəyə qədərki məhəlli müharibələr, kütləvi qırğınlar, İnqilablar, devirmələr, milli-azadlıq hərakatlarının güclənməsi, dünyanın ictimai-siyasi quruluşunun dəyişməsi, yeni dünya xəritəsinin yaranması, faşizm qüvvələrinin hakimiyyətə gəlməsi, İkinci dünya müharibəsinə hazırlıq mərhələsi - bütün bunlar Məhəmməd İqbalın bir insan və şəxsiyyət kimi taleini izləyən mühüm amillər idi ki, onun şəxsiyyətinin, dünyagörüşünün, dini-fəlsəfi baxışlarının, ümumən isə poetik yaradıcılığının formalaşması mərhələsinə və dövrünə düşmüşdü. Qərbin aldadıcı siyasəti İqbalın da gözündən pərdəni götürdü və artıq o, Qərbi tamamilə başqa bir nəzərlə süzməyə başladı. Öz millətinə, Şərqə və bütün müsəlman dünyasına Qərb dünyasının əsl simasını göstərməyə cəhd elədi və poeziyasında bu amal, ideya uğrunda mübarizəyə qalxdı, Qərbin cəlbedici, aldadıcı həyat tərzinə aldanmamağı, yalançı və yırtıcı mahiyyətini dərk etməyi ön plana çəkdi, şeirin, sözün gücü ilə mübarizəni daha da dərinləşdirdi, kəskinləşdirdi, bir-birinin ardınca bu mövzuda həm urduca, həm farsca "Yolun Xızırı", "Şair və səhrada səyahət", "Həyat", "Hökümət", "Kapitalizm", "İslam", "İslamın yaranışı","Avropa", "Fikir azadlığı" və s. bu qəbildən cəsarət dolu, qətiyyətli şeirlərini yazdı.

Açar sözlər: ədəbiyyat, poeziya, qəzəl

XIX əsrin sonu, XX əsrin əvvəllərində İslam dünyasında yetişdirdiyi dəyərli şəxsiyyətlərdən biri olan Allamə Məhəmməd İqbal müsəlmanların oyanış hərakatını başladan bir mütəfəkkir və şairdir. O, eyni zamanda, bir İslam filosofudur. Belə ki, digər filosoflar kimi sadəcə fəlsəfə ilə məşğul olmamış, digər şairlər kimi də, yalnız şeir yazmamışdır. Məhəmməd İqbal bütün biliyini, fəlsəfəsini və şeirini İslama və İslam millətlərinə xidmətə sərf etmişdir. İslam və İslam millətlərinə xidmət etməyən ürfan-bilik, zəka, fəlsəfə və şeir İqbaldan tamamilə uzaqdır. Onun qayəsi, bütün imkanlarıyla müsəlmanların özünə dönüşünə, fitrətlərinə qayıtmalarına kömək etməklə İslama xidmətə bağlıdır. Onun poetik yaradıcılığında əksini tapan İqbal fəlsəfəsi, İqbal dünyagörüşü, İqbal ideya-estetik qayəsi Hind-Pakistan müsəlmanlarının malik olduqları oxşar siyasi, sosial və mədəni məsələlərlə qarşılaşan digər İslam ölkələrinin də gələcəyə bağlı mədəniyyət açarına, koduna çevrildiyindən beynəlmiləl və beynəlxalq məzmunlu bir mahiyyət, məna qazanır.

XVIII yüzilliyə doğru İslam dünyasında yaranmış reqressiv vəziyyət, İslamın məhv aparmağa başlamışdı. Daha əvvələrdən başlanan fəlakətlər (istət təbii, istər sosial-siyasi); Qərbin Şərqdə apardığı pozuculuq işlərinin güclənməsi və sistemli müdaxilələri Şərq-müsəlman sistemini getdikcə zəiflədir və aşınmaya doğru aparırdı. Qərbin özündə baş verən ictimai və texniki inqilablar, çevrilmələr Qərbi Şərqə doğru genişləndirdi. Qərbin Osmanlı imperatorluğuna qısqanclığı sürətlə artaraq düşmənciliyə çevrildi. İngiltərənin Şərqə doğru işğlçılıq planları sürət aldı. 1882-ci ildə Mehmet Ali Paşanın səyi nəticəsində Avropa-Parij stilində yenidən qurulan

Misir-Qhirə (Süveyş kanalının çəkilişi və istifadəsi-1869) İngilislər tərəfindən işğal edildi və Hindistana, Pakistana, İndoneziyya, Banqladeşə və digər ölkələrə kəsə, birbaşa su yolu açıldı. Qərbin texniki imkanları, dünyəvi elmləri və bu elmilərin nəticələri Şərqə lazım idi, amma Qərbin - Batının bu imkanları insanın mənəvi-əxlaqi cəhətən həmişə təzyiqdə və basqıda saxlaması, pozması Müsəlman ziyalılarını pəjmürdə eləyir, onları Qərbə qarşı mübarizəyə qaldırırdı. İngilislərə qarşı ilk etirazlar Misirdə 1919- 1923-cü ildə başlamışdı və bu hərəkat o qədər güclü olmuşdu ki, hətta qadınlar da ayağa qlxmışdılar... Müsəlman aləmində qadınların siyasi hərəkata qoşulması əlahiddə hadisələrdən hesab olunurdu.Ümumiyyətlə, tədqiqatçılar və elm adamları statistik araşdırmalarda Şərqin 1500-1800 illər arasını iqtisadi və siyasi cəhətdən durğunluq və tənəzzül mərhələsi hesab edirlər. İslam elminin və qaydalarının yayılmasında təriqətlər önəmli idi və yüzlərlə təriqətlə mövcud idi ki, bunlar da ayrı ayrı İslam bölgələrinə yayılmışdılar. Hindistanda ən qüvvətli, ictimai-siyasi sferada nüfuz qazanmış təriqət Çiştilər idi. Bunlardan əvvəl Hindistanda Məlamətilər və Qələndərilər kimi yerli adətləri mənimsəyən çoxlu,amma başıpozuq təriqətlər vardı. Qərbi Asiyada Rifailər təriqəti qeyri-adi zikirləri ilə diqqəti cəlb etmişdilər. Onlar ayinlərini yüksək səslə, atəş, od udmaqla, qızdırılmış dəmir yalamaqla, canlı ilanların başlarını dişdiyib qopartmaqla özlərinin güya qeyri-adi, ilahi gücə malik olduqlarını təlqin edirdilər [3, s.97]. Anadoluda, Osmanlı imperatorluğunda, xüsusən də, yeniçərlərin - ordunun üstünlük verdikləri, bəyəndikləri təriqət Bəktaşilər təriqəti idi. Bəktaşilər Allahdan, Hz.Məhəmməddən və Hz.Əlidən ibarət olan üçlü bir inancın daşıyıcılarıdırlar. Bu regionda böyük təsəvvüf şairi, Məhəmməd İqbalın mövlanə kimi tapındığı Cəlaləddin Rumidən (öl.1273) qaynaqlanan, sürətli şəkildə, anəngdar bir tərzdə fırlanaraq zikr edən. bununla da Qərbdə "fırlanan dərvişlər" deyə tanınan Mövləvilər də, Anadoluda yayılan təriqətlərdən biri idi. Bir yandan İslam aləmində təriqətlər fəaliyyət göstərərkən, o biri yandan isə çox böyük önəmə sahib mistik bir anlayış, hərəkat yarandı və sürətlə yayıldı. Bunun yaradıcısı Sivilyada təhsil görmüş, bir ispaniyalı sufi İbnül-Ərəbi idi. Əl-Ərəbi Məkkədə xəstə vaxtı yuxusunda "Müqəddəs-Qutsai taxtı" gördüyünü və övliyalar arasında ğn öndə olduğunu iddia elədi. İbnül-Ərəbi bu röyasından qidalanan, qaynaqlanan baş, əsas ideyasını irəli sürdü. "Fütühatül-Mekkiyede" (Məkkə vəhləri) adlandırdığı "vəhdəti vücud" (varlığın təkliyi) məzhəbini, doktirinasını irəli sürdü. Bu doktirinaya görə Allah hər şeydən üstündür, ancaq bütün yaradılış Allahın təzahürü olduğundan özlüyündə onlarla eynidir. Əl-Ərəbi bu ideyasını "Qurani-Kərim"də sıx-sıx görünməyən məşhur bir hədislə əsaslandırırdı: "Mən gizli bir xəzinə idim və bilinmək istədim. Beləcə bilinmək üçün dünyanı yaratdım!"[2, s.46].--- Bununla da o, çox maraqlı bir ideya irəli sürərək sufi-fəlsəfi düşüncə ilə yeni Platoncü düşüncənin cəzbedici bir sintezini yaratdı.

Məhəmməd İqbal bir Şərq mütəfəkkiri kimi bütün bunları öyrənmiş, mənimsəmiş və dünyagörüşünün tətbiqində bacarıqla istifadə eləmişdi. Ən maraqlı cəhətlərdən biri də odur ki, Məhəmməd İqbal bu örnəklərdən, ənənədən istifadə edərək öz ədəbi-estetik, dini-fəlsəfi, ictimai-siyasi ideyalarını, dünyabaxışını əsasən şeirlə, puştu və fars dillərində yaratdığı poeziya ilə ifadə etmiş və bu böyük ənənəni novatorluqla yeni dövrdə bacarıqla, dəyərincə davam etdirmişdir.Sufi dünyagörüşü və dini baxışları Məhəmməd İqbalın dünyagörüşünün formalaşmasında mühüm rol oynayan amillərdən ən əsası idi. Bu mədəniyyət nümulərindən biri XVIII əsrin sonlarında daha intensiv tətbiq edilən Höca Hızır (Xoca Xızır), bizdə Xızır Peyğəmbər əfsanəsidir. Bu obraz İndiki İraqda, qədim Mesopotamiyada, ərəbcə Əlcəzirədə qədim Hun dastanı"Gilqamış dastanında" və daha sonra Babilstan versiyalarında ortada idi. Sonralar sufilərin cəhdləri ilə Türkiyədən, Orta şərqdən Hindistana, Benqaliyaya qədər hər yerdə Xıdır-Xızır ilkbaharın, novruzun, yeniliyin, xoşbəxtliyin, məhsuldarlığın, həyatın rəmzidir, dara düçənlərin köməkçisi, xilaskarıdır, yaşıl rənglə əlaqələndirilir. Sufilik həm də üstünlük, hamıdan fərqlilik əmsalına malik idi. Sufi şəxsiyyət tipi kimi şahdan, sultandan, şahzadədən üstün sayılıb. Sufilər üçün ali hakimiyyət və hökm sahibi ancaq Allahdır, hər şeyin yaradıcısıdır. Deyilənə görə məşhur Çişti və-

lisi Nizaməddin Övliya: "Odamın iki qapısa var!" demişdi, Sultan bir qapıdan girərsə, mən o birisindən çıxaram! Amma sufi təriqətindən olan Sürheverdilər və Naxışbəndilər şəraitə uyğun olaraq hökmdarlıq institutları ilə barışdırıcı mövqedə olmuş, hətta rəğbət bəsləmişlər [2, s.163]

Məsələ burasında idi ki, XVIII əsrdən başlayaraq Müsəlman siyasi gücünün zəfləməyə başlamasıyla islami və dünyavi elmi bilik axtarıcıları arasında, həmcinin siyasi gücə, hüfuza arxalananlar arasında gerginlik, ziddiyyət əmələ gəldi və getdikcə şiddətləndi... İslami alimlər, sufilər və mistiklər öz cəmiyyətlərinə, ictimai platformalarına məxsus bilgilərini yenidən dəyərləndirməklə bu ziddiyyətə qarşı çıxmağa, cavab axtarmağa çalışırdılar. İlkin islami prinsiplərə, Quranın buyurduqlarına və dini hadisələrə yenidən bir dönüş başlandı, bununla bərabər, rasional elmlərin dəyərinə qarşı da təlaş, həyacan, narahatlıq hissləri də yaşanırdı... Başqa sözlə, dini sxolastika, sxolastik miras dünyəvi elmlərin XIX əsrdə sürətlənən yeni kəşflələri qarşısında aciz vəziyyətə, gücsüz duruma düşmüşdü... Lakin sufi təbəqəsində bu qarşıdurmaya yeni taktiki gedişlər axtarılır, sxolastik baxışlarda dəyişmələr, yenilənmələr başlayırdı. Məsələn, İbnül-Ərəbinin "vəhdəti-vücüd" sufi konsepsiyası mübahisə mərkəzinə gətirildi, onun yerinə təzə bir konsepsiya-"vəhdəti-şühud" anlayışı, məfhumu irəli sürüldü.

Ümumiyyətlə, XVIII əsr Qərb dünyasının intibah və modern dönəminin başlanğıcı hesab edilir. Həm elmi, iqtisadi inkişaf, həm də Şərqə doğru işğalşılıq və müstəmləkəçilik siyasəti Qərbi gücləndirir və bütün istiqmətlərdə-dini-fəlsəfi, ictimai-siyasi, iqtisadi sahələrdə Qərbhakim qüvvəyə çevrilirdi. Xüsusən Afrikanın şimalının və Hindistanın ingilislər tərəfindən işğalı bu ölkələr daxilində milli hissi, müstəqillik uğrunda mübarizəni, islam dünyagörüşündə isə bu yeni modern dalğaya qarşı dayanmaq, mübarizə aparmaq, yeniləşmək prosesini yaratdı [1, s.121]

Diqət yetirəndə, Məhəmməd İqbal poetik konsepsiyasının mərkəzində duran kamil insan obrazı və pak vicdan konsepsiyası eynən Məhəmməd (s.s.) peyğəmbərin şəxsiyyətinin proobrazı, dürüst desək peyğəmbərin obrazı əvəzedilməz nümunə idi... Başqa cürə desək, İqbalı ən çox beyət elədiyi, vurulduğu şəxsiyyət Məhəmməd peyğəmbər (s.s.) idi. Və onun özünün də kamil bir şəxsiyyət kimi formalaşmasında bu ən mühüm millərdən ən mühümmü idi. İqbalın özü bu barədə yazır: "Şəxsiyyətimi formalaşdıran, bu hala gətirənən mühüm amillərin başında Həzrəti Peyğəmbərə olan hüdutsuz məhəbbətim gəlir. O, Ali zata o qədər bağlıyam ki, mənəvi vrlığımı zəhərləmək məqsədiylə canavarlar kimi üzərimə saldıran maddəçi-materialist ceyranların, dağıdıcı doktirinaların, cəzbeici təklif və aldadıcı iltifatların qarşısına, önünə bir dağ kimi dikəldim. Hamısı da, yalçın qayalara çarpan dalğalar kimi qırılıb min parça oldular [5, s.79]

İslam modernizmi isə başqa bir istiqamət tutmuşdu. Modernizm Qərb elmi və Qərb hegomonluğu ilə üz-üzə gəlmə məcburiyyətində idi. Modernist İslamçılar müasəlmanların ən azından, Qərbin gücünün qaynağı olan elm və texnelogiyanın mənimsənilməsini və bundan bəhrələnməyi istəyirdilər. Böyük hədəfləri, məqsədləri isə İslami biliyi və elmi bu baxımdan bunun ana dirəkləri olan "Qurani-Kərim"i və hədisləri yenidən gözdən keçirməkdi. Modernistlərin öndə olan şəxsiyyətləri sırasında Hindistandan Əhməd xan, Türkiyədən Namiq Kamal (1840-1888), Misirdən Şeyx Məhəmmd Əbduh, Əfqanıstandan Cəmaləddin əl-Əfaqani dururdu. Bu şəxsiyyətlərin hamısının Qərb və İslami elmlərə bələdlikləri eyni deyildi, amma üləmaların tutduqları yolun zamanın, dövrün tələbləri iləbir araya sığmadığını bilirdilər. XIX yüz ildə və XX yüzilliyin başlanqıcında modernistlərin çoxu Qərbə panislamist bir mövqedən müqvimət gücündə idilər. Lakin Birinci Dünya müharibəsi Qərbin hegomonluğunu daha da qüvvətləndirdiyindən onları milli dövlət ideyası istiqamətində düşünməyə vadar etdi, bu ideya istiqamətində birləşməyə başladılar. Hindli modernist Məhəmməd İqbal İslami ölkələr təməlində tikilən bir milli dövlət, yəni Pakistan dövlətinin yaranma ideyasını inadla irəli sürürdü. Bu ideyalar istiqamətində çoxluq üçün modernizm laiqliklə öz əksini tapdı və Atatürkün Türkiyəsində, Rza şahın iranı kimi dinin xüsusi, özəl bir məsələ olacağı laiq dövlətlərdə gerçəkləşdi. Bu baxəmdan mo-

dernistlərin görüşlərində orta əsrlərdən qalan islami elmi mirasın elə də bir əhəmiyyəti yox idi. Qurduqları məktəblərdə, xüsusilədə Müsəlman dövlətlərində olan tədris sistemlərində Qərbə məxsus elm və texnelogiyasının yanında, Qərb dilləri və bəzi Qərb bəşəri elmləri tədris edilir və öyrədilirdi. Modernizm ən çox, tipik olaraq müsəlmanların seçilmiş ziyalılarının dünyagörüşü və istəkləri idi. Xeyli ziyalı şəxsiyyətlər Qərbin maddi gücünün arxasınca gedərkən, tamamən İslami güclərin təzyiqinə məruz qalmaq riskinə də yol verirdilər. Qərbin aldadıcı siyasəti İqbalın da gözündən pərdəni götürdü və artıq o, Qərbi tamamilə başqa bir nəzərlə süzməyə başladı. Öz millətinə, Şərqə və bütün müsəlman dünyasına Qərb dünyasının əsl simasını göstərməyə cəhd elədi və poeziyasında bu amal, ideya uğrunda mübarizəyə qalxdı, Qərbin cəlbedici, aldadıcı həyat tərzinə aldanmamağı, yalançı və yırtıcı mahiyyətini dərk etməyi ön plana çəkdi, şeirin, sözün gücü ilə mübarizəni daha da dərinləşdirdi, kəskinləşdirdi, bir-birinin ardınca bu mövzuda həm urduca, həm farsca "Yolun Xızırı", "Şair və səhrada səyahət", "Həyat", "Hökümət", "Kapitalizm", "İslam", "İslamın yaranışı","Avropa", "Fikir azadlığı" və s. bu qəbildən cəsarət dolu, qətiyyətli şeirlərini yazdı. Onun bu dövrdəki şeirləri bütünlüklə İslami mövzulardadır. Bu şeirlərində o, Avropanın istilaçılıq ideologiyasını, zehniyyətini və zəif düşmüş ölkələri istila edərək müstəmləkə məngənəsində saxlamaq siyasətinin mahiyyətini bildiyini göstərir. Hətta bu şeirlərdə Balkan və Trablis müharibələrinin də imperializmin müsəlmanları hədəfə almasını açıqlayır və münasibət bildirir. İqbalın poetik ifadə düşüncəsi burada təkcə, Hindistan hadisələrinin sərhədləri əhatəsini deyil, həm də ümumən müsəlman xalqlarının dərdlərini də əhatə etdiyi aşkar görsənir və bu da onun poeziyasının ideya-estetik xəttinin daha geniş perspektivləri barəsində təsəvvür yaradır. Burada yer alan "Şikayət", "Şikayətə cavab", "Şair və Meşale" ("Şair və Məşəl"), "Mərhum anamın xatirəsinə", "Hızır"("Xızır") ve "İslamın Doğusu" ("İslamın Şərqi") tam altı uzun poemalar bu mövzuda və sənətkarlıq cəhətdən olduqca vacib və önəmli, diqqəti çəkən əsərlərdir.

Ədəbiyyat

1. Celal Soydan. Ön söz. Bax: Muhammed İkbal. "Aşk ve Tutku. On Uzun Menzunme." kitabı, Ankara, Akçağ Yayınları, 2000, s.IX. 136 s.
2. Cevdet Kılıç, Büyük Mütefekkir Dr. Muhammed İkbal Hayatı,Şahsiyeti ve Fikirleri, Muradiye Kültür Vakfı Yay., Ankara, ty., 224s.
3. اتیا بیگم ۔ اقبال ۔ بمبای ، ویکتوری پرنٹنک پریس ، 1947
4. اقبال جاوید ، زندان رود ، لاہور ، اردو رایٹرس پریس ، 1985
5 ایم حبیب خان ۔ غالب سے اقبال تک ۔ حیدرابان ، آفیٹ پرنٹنگ پریس

Aslan Aygun

Muhammad İqbal and the order of the İslamic society

Summary

In the artcle shown life and poetry of great urdu poet Muhammad Iqbal. Mohammad Iqbal is one of the world's most famous thoughtful poets. Apart from his poetic and prosaic works in Urdu and Persian, he was also known for being a political leader. Knowing both Eastern and Western history, and especially, philosophy, he tried to synthesize Eastern and Western philosophy and poitns of view and create a medium value universe. Muhammad İqbal whrote his poems in urdu, persian and english languages. Iqbal has eleven collection of poems, four of them

in urdu, seven in persian language. As he wanted his message to go beyond the boundaries of the İndian subcontinent he switched over, in his later life, to writing poetry in Persian language in preference to Urdu, which, however, he did not altogether abandon. Iqbal's poetry and philosophy has inherently international meaning in connecting similar, and sometimes the same political, social and cultural issues, and difficulties that other Islamic countries are facing and provides the key to the future-oriented culture. Facing the socio-political and social requirements of the period he lives in, Iqbal is trying to establish healthy ground for the future of Muslim Indian people. His main objective is to wake people up and make them act with all thier strength and power. Allama Muhammad Iqbal known as "Real face of Islamic Benlig" wrote "Esrar-i Hodi" (also written as "Asrar-i Hudi") being inspired by the great genius of the East, Mevlana Jalaleddin Rumi (1184-1273) and his world-famous "Masnavi" ("Couplet") work. As they say, "the poem was written in the form of couplet and was first published in 1915...".

Key words: Poetic, poem, qhazal

Аслан Айгюнь

Мухаммад Икбал и порядок Исламского общество

Резюме

В данной статье изучаетсья жизнь и творчество Мухаммада Икбала, дается краткое содержания его произведений на фарси и урду и изучение его творчество. Также рассматривается творчество Икбала с исторической точки зрения. Болшая часть его стихов имеет социальное содержание. Икбал всю жизнь проповедовал национализм, патриотизм. С точки зрения изящество стилья многие творения Икбала могут выдержать сравнение не только с лучшими образцами литературы на урду и персидском, но и с произведениями на любом другом языке мира. Аллама Икбал считал единство и равноправие двумя основными и неотделимыми столпами Исламского общества. Он был уверен, что при определении и толковании демократии посредством исламского учения можно достичь желанного, отвечающего запросам времени общества. Он также считал, что чем больше мы приближаемся к истинному духу и божественному исламскому учению, тем лучше демонстрируются мощь, величие и единство мусульман, а исламское единство он понимал, как основанное на Единобожии. Икбал считал единство и осведомленность двумя взаимодополняющими факторами, а неосведомленность и невежество — основной причиной раскола. Очень популярен на Востоке, особенно в регионе Пакистана, Афганистана и Средней Азии,его произведения пользуются популярностью среди мусульман. Одно из знаменитых произведений Икбала «Послание Востока» (Пайам-е-Машрик) было адресовано тогдашнему королю Афганистана Аманулле-хану. На Востоке его окрестили как «Звезда Востока» (Ситора-е Шарк).

Ключевые слова: литература, поетика, газел

Redaksiyaya daxil olma tarixi: 12.05.2019
Çapa qəbul olunma tarixi: 24.10.2019
Filologiya elmləri doktoru, professor Mehdi Kazımov tərəfindən çapa tövsiyə olunmuşdur

VƏSİLƏ VƏLİYEVA
ZİTA HÜSEYNOVA
Azərbaycan Dövlət Aqrar Universiteti
Gəncə şəhəri, Ozan küç.120
valiyeva.vasila@gmail.com
zita_huseynova@mail.ru

TOMAS VULFUN HƏYAT VƏ YARADICILIĞI

Xüsalə

Məqalədə T. Vulfun simasında XX əsr amerika ədəbiyyatında özünəməxsus epopeya janrının formalaşmasını müəyyən edildi. Amerikan ədəbiyyatında aparıcı metod konsepsiyasına uyğun olaraq XX əsrin əvvəllərində sosial-realist xüsusiyyətlərini müəyyənləşdirilir. Vulfun yaradıcılığının özünəməxsusluğu onun tək romanlarında deyil, lirik-publisist fraqmentlərində, avtobioqrafik esselərində, dostlarına ünvanladığı məktublarında, işlə bağlı qeydlərində də öz əksini tapmışdır.

T. Vulf yaradıcılığı dünya ədəbiyyatşünaslığında təkcə Amerika milli ədəbi-bədii fikrinin və nəsr ənənəsinin təkamülü baxımından deyil, həm də dünya ədəbi prosesinə, estetik fikrinə təsir göstərən beynəlmiləl amil kimi qiymətləndirilmişdir. T. Vulfun yaradıcılığı özü-özlüyündə həm böyük estetik-bədii dəyəri, həm də Azərbaycan nəsrindəki yeni meyllərə müəyyən tipoloji uyğunluğu və bir sıra nasirlərin yaradıcılığına təsirləri ilə ciddi elmi maraq doğurur və əhəmiyyət kəsb edir. Deyilənləri nəzərə alaraq belə bir qənaətə gələ bilərik ki, Vulfun yaradıcılığının Folknerin, Drayzerin və Heminqueyin əsərləri ilə müqayisəli şəkildə araşdırılması və bu məqsədlə, adlarını çəkdiyimiz sənətkarların ardıcıl olaraq müraciət etdikləri roman janrının XX əsrin əvvəllərində təkamül yolunun tədqiq edilməsi ədəbiyyatşünaslığımız üçün aktuallıq kəsb edir.

Açar sözlər: amerika ədəbiyyatı, yaradıcılıq, dramaturgiya, poeziya.

XX əsr Amerika ədəbiyyatının görkəmli klassiki Tomas Vulf "Mələk, evinə bax" və "Evə dönüş yoxdur" adlı romanların müəllifi kimi böyük şöhrət qazanmışdır. Onun bütün əsərləri lirik bir obraz ətrafında cəmlənmişdir.Belə ki, hər bir amerikalıya uşaqlıqdan tanış burada adi amerika həyatı nəzərdə tutulur. Belə ki, Vulf öz tərcümeyi halını bədii hisslərlə,obrazlarla tərənnüm edərək, sanki müəllifin və qəhrəman arasındakı zaman və məkan anlayışlarını yox edərək, onları poetik şəkildə ucaldıb, əfsanə və nağıl zirvəsinə qaldırmışdır. Məhz bu özunəməxsus yaradıcılıq manerası Vulfu bir yazıçı kimi kəşf etmiş, ucaltmış, ona böyük maraq yaratmışdır. Belə ki, 1933-cü ildə romanın almanca tərcüməsi çıxdıqdan sonra T. Mann və Q. Qesse onu qiymətləndirmiş, müasir amerika ədəbiyyatının görkəmli nümayəndəsi ilə tanış olduqlarını bildirmişdir [2,s.5].

Vulfun tərcümeyi halına faustsayağı ram olmayan və özü üçün dünya mədəniyyətinin əyalətdən çıxmış bir insanın taleyi xarakterikdir. Bütün bu proseslər, hətta xırda detallar belə müəllifin həyat yollarını izlənilərək, onun yazışmalarına, qeyd kitabçalarına və çıxışlarına əsaslanır[2,s.12].

Tomas Kleyton Vulf, 3 oktyabr 1900-cu ildə dağların əhatəsində yerləşən balaca şəhərində Eşvildə (Şimali Karalina) anadan olmuşdur. Onun anası, Culiya

Vestol, yaşayış uğrunda mübarizə aparan tanınmış fermer ailəsində anadan olmuşdur. Culiyanın valideyinləri mənşəcə İrlandiya və Şotlandiyadan idilər. Onlar vaxtı ilə Vətəndaş müharibəsi zamanı Şimalilərə qarşı mübarizə aparmışdılar. 1884-cü ildə Culiya ailə qurmuşdur. O, Eşvildə gəlmələrdən hesab olunurdu. Alman və Holland imiqrantlarından olan ata Vulf, Pensilvan şəhəri olan, Qettisberqdə anadan olmuşdur. Qettisberq vətəndaş müharibəsi zamanı döyüş məkanı kimi yadda qalan tarixi şəhərlərdən olmuşdur. Tomasın atası çox bacarıqlı daş ustası idi. Onun Eşvildə balaca bir emalatxanası var idi. O, bu emalatxanada qəbir daşları və heykəllər düzəldirdi.

Göründüyü kimi, Tomas Vulf, həm milliyətcə, həm də tarixi baxımdan çox qarışıq mənşəyə malik idi və bu qarışıqlıq Tomas Vulfu bir-biri ilə mübarizə aparan xüsusiyyətlər və ənənələrin, təzad və ziddiyyətlərin varisinə çevirmişdi. Tomas Vulfun valideyinlərinin nigahı, onun bioqrafi Teribelin ifadə etdiyi kimi "epik bir mezolyans" idi. Çünki, burada yalnız xarakterlərin uyğunsuzluğu deyil, insanı mənəviyyatının və onun daxili təbiətinin fərqləndiyini qabardırdı. Tomas Vulf özünün qeyri adi bacarığa malik olduğunu hələ uşaq vaxtında hiss etmişdi. Beş yaşlı Toması, özünün təkidi ilə valideyinləri böyük bacı və qardaşları ilə birlikdə məktəbə qoymuşdular. İlk günlərdən balaca Tomas qeyri-adi istedadı və baracığı ilə seçilməyə başlamışdır. Bunu başa düşən müəllimlər onun valideyinlərini yola gətirərək balaca Toması xüsusi məktəbə getməsini təkid etmişdilər. Tomas Vulfin həyatının formalaşmasında bir neçə insanın rolu böyük olmuşdur. Gələcək yazıçının həyatını istiqamətləndirən ilk insanlardan biri Marqaret Roberts idi. Vulf dörd ilə yaxın Robertslər ailəsindən qalaraq təhsil almışdır. Sonra valideyinləri, on altı yaşlı oğlanlarını, Şimali Karolinada yerləşən Çeypel-Hill universitetinə yollamağa qərara almışdılar [1,s.8].

1918-ci ilin payızında Vulfu sarsıdan bədbəxt bir hadisə baş vermişdir. Belə ki, soyuqdəymədən onun ən sevimli qardaşı Ben rəhmətə gedir. Onun ölümünə valideyinlərinin, xüsusən də anasının laqeyidliyi səbəb olmuşdur. Məhz buna görə Vulf valideyinlərini heç cürə bağışlaya bilmirdi.

Erkən yaşlarından tələbə olması və universiteti cavan yaşlarında bitirməsi, gənc Vulfun həyatında heç bir əsaslı dəyişikliyə zəmin yaratmırdı. Vulf yalnız ədəbiyyat və dramaturgiyaya can atırdı. Onun bu arzuları isə yalnız Harvartda həyata keçə bilərdi. Çünki o zamanlar Harvardda ədəbiyyat və dramaturgiya seminarlarını professor C.P.Beyker aparırdı. Bütün bu arzuların həyata keçməsi isə böyük pul vəsaiti tələb edirdi. Vulf çətinliklə olsa belə valideyinlərini yola gətirərək bir illik Harvardda təhsil almağa gedir. Lakin Vulf burada bir il deyil, üç il təhsil alır. Bu illərdə Vulf çox böyük maddi çətinliklərlə üzləşərək sonunda varislikdən imtina edib, öz payından təhsil haqqını ödəmək müqabilində dəyişir.

1922-ci ilin yayında V.O.Vulf həyatını dəyişir. Lakin atasının ölümü onu elədə sarsıtmır. Onu atası ilə bağlayan yalnız poeziyaya məhəbbət, təntənəli, parlaq natiqlik qabiliyyəti idi. Harvartda Vulf bir neçə dəfə humanitar fənləri öyrənməyi qarşısına məqsəd qoyurdu. Lakin onun bütün amalı yalnız dramaturgiyaya yönəlmişdir. O vaxtlar Ç. P. Beyker onun üçün əlçatmaz bir avtoritet idi. Bu zamanlar Vulf başa düşmürdü ki, teatr onun istedadını təzahür edə bilməzdi. Belə ki, bu janr üçün səciyyəvi olan qəti forma, yığcamlıq, fabula ona uyğun deyildi. Məhz müəllifin bir aktlı (pyesləri) folklor motivləri ilə zəngin pyesləri onun bədii temperamentə və fantaziyaya malik olduğunu göstərən amillərdən biri idi. Həmin vaxtlarda, yəni 1923-cü ilin mayında Vulfun "Bizim şəhərə xoş gəlmisiniz" adlı

dramatık əsəri səhnələşdirilmişdir. "Artıq əminliklə deyərəm ki, məni bu yoldan yalnız səksərilik, xəstəlik, yada ki ölüm ayıra bilər. Həyat nə yaxşı nə də pisdir, nə eybəcər nə də gözəldir. Bunlar hamısı həyatdır. Həyat, həyat yalnız o bir məna kəsb edir. Həyat acı, qəddar, mehriban, alicənab, ehtiraslı, təmizqəlbli, küt, eybəcər, gözəl, sevincli, əzablıdır... Mən bunların hamısını öyrənmək istəyirəm və onu dərk etmək ücün lap dünyanı o başına getməyə hazıram. Və bütün dərk etdiklərimi, ağ vərəqə həkk edəcək, çalışacağam ki, bütün bunları gözəl və həqiqətə uyğun olsun" [2,s.9]. Bütün bu sözləri tələbə Vulf öz anasına göndərdiyi məktubda yazmışdı.

1923-cü ildə Vulf Harvard universtetini bitirir. Həmin ildə o bütün səyi ilə çalışır ki, professional səhnədə öz pyesini səhnələşdirsin. Lakin onun bütün cəhdləri boşa çıxır və o , nəhayət, anlayır ki, dramaturqiya onun qabiliyətini və istedadını üzə çıxarta bilməyəcək.

Gərgin axtarışlardan sonra, Vulf Nyu-York univerisitetlərinin birində ədəbiyyat müəllimi kimi fəaliyyət göstərir. O, ürək ağrısı ilə müəllimlik fəaliyyətinə başlayır. Bu iş onun çoxda ürəyincə deyildi. Beləliklə, axşamlar Vulf roman yazmağa başlayır və tədricən özüdə hiss etmədən dramaturgiyadan nəsrə keçməyə başlayır. Onun gözləri önündə Eşvil canlanır, keçmiş günlərin xatirələri baş qaldırırdı. 1924-cü ilin payızında Vulf məzuniyyət götürərək Avropaya səyahətə çıxır. Bu səyahət zamanı o Parisi yaxından tanımağa çalışırdı. Paris əhval-ruhiyəsi onun son əsərlərində qabarıq şəkildə özünü biruzə verir. 1928-ci ildə ABŞ-a qayıdanda TomasVulf gəminin göyərtəsində Alin Beristayn adlı bir xanımla tanış olur. İki uşaq anası olan Alin Beristayn-teatr rəssamı idi. Onun əri zəngin insan idi. Vulf və Alin bir-birinə yaxınlaşaraq, möhkəm sevgi əlaqəsi yaradırlar. Onların münasibəti beş il davam edir. Alin Beristayn çox həyatsevər, enerjili, hər bir işin öhdəsindən gələn bir insan idi. O, xüsusi qayğı və istək ilə Vulfa yanaşır, onun istedadına çox inanırdı. Vulf yaradıcılığının tədqiqatçısı olan E.Teribelin sözləri ilə desək "Alin Beristayn və Maksuel Perkiks, Tomas Vulf yaradıcılığını, təyyarənin iki künclü mühərriki kimi yerdən qaldırmışdı" [2,s.1] Məhz Alinin təsiri altında Vulf uşaqlıq və gənclik illəri haqqında xatirələrini cəmləyərək, bir mənbə kimi öz nəsr əsərində əks etdirmək fikrinə düşmüşdü.

Vulf "Mələk, evinə bax" adlı gələcək romanını 1926-cı ildə Londonda qələmə almağa başlamışdı. Romanın ilkin adı "O, itirilmiş" adlanırdı. Əsərdə hadisələr birinci şəxs tərəfindən nəql olunur. 1928-ci ildə müəllif öz romanını bitirərək, əsərinin əlyazmalarını müxtəlif redaksiyalara göndərir. Lakin bütün səylər boşa çıxır. Bu isə gənc müəllifin səbrini tükəndirərək onu hiddətləndirirdi. Yalnız kitab entuziastı olan A.Beristayn yorulmadan yeni nəşriyyatlar axtarışını davam etdirirdi. Bu axtarışlar bəhrəsiz qalmadı. Axır ki, roman öz limanına yan aldı. Baş redaktor Skribners Maksuel Perkens bu fitri istedada qızğın maraq göstərərək romanı dərc etdirdi. S.M.Perkens incə zövqlü, təmənnasız olaraq ədəbiyyata bağlı olan bir insan idi. Məhz, Perkens, rəssam – Vulfu göylərə qaldıran ikinci "mühərrik" idi [2, s.20].

1929-cu ilin yanvarında Vulf, Nyu-Yorka qayıdaraq baş redaktorla birlikdə kitabın əlyazmaları üzərində işləməyə başlayırlar. Həmin ilin avqustunda romanın bir parçası "Skribkers meqezin" jurnalında dərc olunur. Vulf və Perkenson əməkdaşlığı möhkəm bir dostluğun təməlini qoyaraq bu iki insanı daha sıx tellərlə bağladı.

Qeyd etmək lazımdır ki, bu roman tənqidçilər tərəfindən pis qarşılanmamışdı. Lakin Eşvill sakinləri romanda öz prototiplərini tapdıqları üçün böyük bir hay-küy qaldırmışdılar. Onlar hər xırda epizodda belə öz həyatlarının əksini gördükləri üçün müəllifi təndiqə tutmuş, anonim məktublar yazaraq onu hədələyirdilər. Ən dəhşətlisi isə, onun ailəsi və Robertslər ailəsinin Vulfun "utanmadan" və "qəddarlıqla" qələmə aldığı xatirələrə məyus olmaları idi. Demək olmaz ki, bu münasibət Vulf üçün gözlənilməz idi. Onu sarsıdan romanının təhqiramiz hesab olunması idi. O yazırdı: "Mən, bu kitabda təsvir olunan insanlarla ehtiraslı, emosional tellərlə bağlıyam, onlar dünyanın ən gözəl insanlarıdırlar" [3, s.12]

Tomas Vulf, ömrünün son günlərinədək, öz doğma şəhərindən mənən qovulduğu üçün əzab çəkirdi. Hətta bu hisslər onu bir yazıçı kimi zəfər çaldığı anlarda belə tərk etmirdi. O, doğma şəhərinə yeddi il ayaq basmamış, yalnız 1937-ci ilin yazında Eşvilə dönmüşdü.

1930-cu ildə Vulf müəllimlik fəaliyyətinə son qoyaraq, "Mələk" kitabının amerika və ingilis nəşriyyatları tərəfindən verdiyi qonorarla dolanırdı. O, yenidən Amerikanı tərk edərək Fransaya və Londona yola düşür. Burada o, Ficcerardla və Sinkler Lyuks ilə görüşür. Yazıçının bu səfərlərinin bir qayəsi var idi: acgöz rəssam təxəyyülünü artırmaq, yeni insanlarla tanış olmaq və ən əsası daxili narahatlığına son qoymaq idi. Çünki yazıçı şəxsi həyatında da gərginliklər yaşayırdı.

Məlumdur ki, Tomas Vulfun yaşayıb-yaratdığı dövr Amerika nəşrinin bir növ təşəkkül və inkişafı dövrünə təsadüf edir. O dövrdə, bu cəhəti xüsusilə nəzərə almaq lazımdır. Bir çox ultra müasir və realist təmayül və cərəyanlar mövcud idi. Tomas Vulf bunların ardınca gedib, ya getməyib ortaya "şüuraltı sirləri ilə qaynaşan", insanı müdhəm və əbədi sirr içində saxlayan bir əbədi cığır da açа və yaxud daha cəlbedici modernist üsul və oyunlarla səciyyələnən əsərlər ortaya qoya bilərdi. Tomas Vulf isə sehrbazlar kimi var qüvvəsini bir nöqtəyə cəmləyərək, "evin" torpağın ədəbi tarixini və faciəsini yaz-mağa üstünlük verdi. Vulf insanı müxtəlif cərəyanların təmayüllərin qarşısında sədd kimi dayanıb bütün əsərləri ilə "insan qalib gələcək" həqiqətini bəyan etdi və bunun qarşısında başqa bir alternativin olmadığını sübut etdi. Bu məqamda Vulf sənətkarlığının başqa bir cəhəti qabarıq şəkildə özünü göstərir. Vulf istənilən həqiqəti sadəcə təsdiq etmirdi, başqalarından fərqli olaraq onu prosesdə göstərə bilirdi. Onun yazmış olduğu epopeyalarda insanın baş verən hadisələrdən dolayı qəzəbi, kini aşıb-daşan, kükrəyən insanın, özünü oda-alova bürüyərək şığıması,"evi"-nə dönüşü Tomas Vulf yaratdığı obrazların, başqa sözlə, onun yaradıcılıq üsulunun adekvat ifadəsidir. Bir- biri ilə sıx əlaqədə olan simvolik obrazlar, epopeyanın fundamentini təşkil etmişdi. Belə ki, Vulf, Heminquey, Fitsctrald, Andersondan fərqli olaraq, bütün estetik baxışlara zidd olaraq həyatı təsvir etmişdi

Vulf bütün Amerika nəsrini qarşısıalınmaz şəkildə xoşbəxt sonluğa qaçmaqdan qurtardı. Bu XX əsrin əvvəllərində amerikan ədəbiyyatında "mənim həyatm" və "Amerika" dəyişimi prosesini səciyyələndirən ən əsas xüsusiyyətlərdən biri idi.

Beləliklə, haqqında söz açdığımız zaman kəsiyindən başlayaraq Amerika epopeyası məhz poetik strukturu etibarı ilə dərin dəyişikliklərə uğrayır, yeni daha dolğun keyfiyyətlər qazanmaq üçün köhnə stereotiplər əzmlə qurtulmağa çalışırdı. Dissertasiyada bu yöndə aparılan müşahidə və tədqiqlər əsas etibarilə belə bir fikirlə yekunlaşır ki, həmin zaman çərçivəsində yazıçıların o zaman artıq formalaşmış illüziyalarla mübarizəsi onların hamısına xas olmuş və bu "ümumi güc",

məhz "Amerika tipli yeni ədəbiyyatın" yaranmasına stimul vermişdir. Bu prosesin önündə məhz Vulf dayanırdı.

Göründüyü kimi, XX əsr Amerika nəsrinin ən görkəmli nümayəndələrindən olan Tomas Vulf yaradıcılıq dühası və novatorluğu ilə hər şeydən əvvəl onun ədəbiyyatı predmetinə və missiyasına münasibəti ilə ölçülür. Vulfun bu predmetə münasibəti əsaslı şəkildə dəyişirdi, bütün bunlar isə özünə qədər mövcud olan ən yaxşı ədəbi ənənələrə ümumiləşdirməklə nail oldu.

Vulf öz dövründə dəbdə olan, bütövlükdə XX əsri sarmış olan ədəbi cərəyan və meyllərin güclü və amansız burulğanından keçərək, yazı texnikası və manerasından daha çox insana münasibətdə əvəzsiz kəşflər etmişdir.

Yuxarıda sadalanan bu və ya digər cəhətlər Tomas Vulf roman-epopeyalarında da təbii əksini tapmışdır. Bu əsərlərdə əksini tapan zaman konsepsiyası hər bir irqin, ayrılıqda götürülmüş hər bir insanın dünyaya, zamana, varlığa fərdi nöqteyi-nəzərdən yanaşmasının fərqi üzərində bərqərardır. Onun əsərlərinin əsas qayəsi amerika reallığını dərk edən, minlərlə əlaqəsiz şahidləri birləşdirən Amerika haqqında eposdur. Vulf dövrün, real gerçəkliyini, ən adi həqiqətlərini yazıya almaqla ədəbi etalon yaratmağın metodunu kəşf etmişdir.

Ədəbiyyat:

1. The Man from Main Street: Selected Essays and other Writings: 1904 – 1950 Ed. By H.E.Maule and M.H.Crane – N.Y., 1953.
2. Letters of Thomas Wolfe Ed.by E.Nowell – N.Y., 1956.
3. Mailer N. Pieces and Pontifications – Boston – Toronto: Little, Brown and Co., 1982
4.The Enigma of Thomas Wolfe.Ed.by R.Walser. – Cambrige: Harvard University.Press, 1953

V.F.Valiyeva
Z.N.Huseynova

The life and work of Thomas Wolfe.

Summary

The article deals with the life and work of Thomas Wolfe. It is depicted in details of threatening life path. The article also mentions how and through whom Thomas Wolfe's life and creative endeavors to the summit. Despite all the difficulties, he has never lost his enthusiasm and has taken further steps. Thomas Wolfe was famous for his American essay as "a father of the subjective epic genre." He reflected the entire life of the American nation in his genre , not with any concrete person. His creative work is still in the interest of the whole generation today.

It is well-known that the period of Thomas Wolfe lived is coincided with the development of American edition. At that time, this aspect must be taken into account. There were many ultra modern and realistic tendencies. Wolfe did not simply confirm any truth, but unlike the others he was able to demonstrate it.

In the article is revealed the formation of a unique epic genre in the 20th century American literature. According to the leading methodology in American literature, the social-realistic features of the early twentieth century are defined. The peculiarity of Wolfe's creativity is ref-

lected not only in his novels, but also in his publicist fragments, his autobiographical essays, his letters to his friends, and his work recordings.

Key words: American literature, literary work, drama, poetry.

В.Валиева
З.Н. Гусейнова

Жизнь и творчество Томаса Вульфа

Резюме

В статье рассказывается о жизни и творчестве Томаса Вульфа. Подробно описывается его опасный жизненный путь, а также в статье упоминается, как и с чьей помощью, в течение жизни и творчества Томас Вульф оставался на вершине. Несмотря на все трудности, он никогда не терял энтузиазма и предпринимал дальнейшие шаги. Томас Вульф прославился в Американской литературе, как «отец субъективного жанра эпопеи». В образе, который он создавал, Томас Вульф отражал жизнь всего американского народа, а не какого-то конкретного человека. И сегодня его творчество всё ещё отвечает интересам всего молодого поколения.

Хорошо известно, что период жизни Томаса Вулфа совпал с развитием американского издания. В то время этот аспект должен быть принят во внимание. Было много ультрасовременных и реалистичных тенденций. Вулф не просто подтвердил какую-либо правду, но в отличие от других он смог продемонстрировать это.

В статье в лице Т. Вульфа раскрыто формирование уникального эпопического жанра в американской литературе 20-го века. Согласно ведущей методологии американской литературы, определены социально-реалистические черты начала XX века. Особенность творчества Вульфа отражена не только в его романах, но и в его устах и публицистических фрагментах, его автобиографических очерках, его письмах друзьям и записях его работ.

Ключевые слова: Американская литература, литературное произведение, драма, поэзия.

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 04.09.2019
Filologiya elmləri doktoru, professor Azad Məmmədov tərəfindən çapa tövsiyə olunmuşdur

NATELLA QULİYEVA
Bakı Avrasiya Universiteti
Həsən Əliyev 135 a
n.zakirli@gmail.com

SƏRDAR ƏSƏD YARADICILIĞI EPOXAL-İDEOLOJİ YANAŞMA MÜSTƏVİSİNDƏ

Xülasə

XX əsr Azərbaycan poeziyasının avanqard təmüyülünə aid, yaradıcı Sərdar Heydər oğlu Əsədovun (Sərdar Əsəd) həyat və yaradıcılığına həsr edilən elmi araşdırmanın aparılması müəyyən çətinliklərlə bağlıdır. Təkcə Sərdar Əsədin yox, ümumiyyətlə, bədii-yaradıcılıq yolu ötən əsrin ortalarında başlayan istənilən ədibimizin yaradıcılığı dövrün ideoloji-ədəbi normaları ilə bu və ya digər şəkildə bağlı idi. Onların yaradıcılığına konkret zamanın siyasi təlimatlarından, sosial-ictimai münasibətlərindən, yaşadığı mühitdən təcrid olunmuş şəkildə yanaşma metodoloji baxımdan səhv olardı. Dolğun qənaət çıxarmaq, yaradıcılıq potensialını obyektiv qiymətləndirmək üçün kifayət etməzdi.

Biz Sərdar Əsədin həyat və yaradıcılığına belə bir kompleks yanaşmanı rəhbər tutmağı qərara almışıq. Tarixi kontekst, sosial-ictimai münasibətlər, əhatə edən mühit daxilində elmi araşdırma metodunu əsas götürürük. Bunu ona görə zəruri hesab edirik ki, Sərdar Əsədin qısa həyat yolunun və yaradıcılığının mərhələləri, eləcə də şairin ölümündən sonra ona və yaradıcılığına ədəbi ictimaiyyətin münasibətində təzahür edən təzadlara aydınlıq gətirməyin vaxtıdır.

Tədqiqat göstərdi ki, S.Əsəd də daxil olmaqla sovet epoxası sənətkarlarının yaradıcılığına qiymət vermək üçün onlara ilk növbədə epoxal-ideoloji kontekstdə yanaşma lazımdır. Bu kontekst olmadan obyektiv və sağlam elmi nəticələr əldə etmək mümkün deyildir.

Açar sözlər: Sərdar Əsəd, Azərbaycan ədəbiyyatı, XX Azərbaycan poeziyası, poeziya, sovet epoxası, sosizlizm realizmi yaradıcılıq metodu, epoxal-ideoloji yanaşma

Məsələnin qoyuluşu: XX əsr Azərbaycan poeziyasının avanqard təmayülünə aid yaradıcı Sərdar Heydər oğlu Əsədovun (Sərdar Əsəd) həyat və yaradıcılığına həsr edilən elmi araşdırmanın aparılması müəyyən çətinliklərlə bağlıdır. Belə ki, onun Sərdar Əsədin poeziya aləmində qələmini sınamağa başladığı 1950-ci illərin əvvəllərindən artıq yetmiş il ötmüşdür. Yetmiş il tarixi baxımdan çox qısa mərhələ olsa da, bu dövrdə, sözün həqiqi mənasında, bütöv epoxalar yaşanıb – Stalin epoxasının son illəri (1953-cü ilədək), Xruşşov epoxası (1953-1964-cü illər), Brejnev epoxası (1964-1982-ci illər), Qorbaçov epoxası (1985-1991-ci illər)... Hər növbətisi epoxa da özündən əvvəlkini praktiki olaraq inkar edən fəlsəfəsi ilə əlamətdardır. Ardınca SSRİnin süqutu və dünyanın gərdişinin dəyişməsi, Azərbaycanın müstəqillik qazanması və 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatının tamhüquqlu üzvü olması.

İşin məqsədi: Tədqiqatın aparılmasında əsas məqsəd Sərdar Əsədin yaradıcılığını epoxal-ideoloji yanaşma müstəvisində nəzərdən keçirməklə qiymətləndirməkdir.

Diqqəti bu məqamlara cəlb etməyi ona görə vacib sayırıq ki, təkcə Sərdar Əsədin yox, ümumiyyətlə, bədii-yaradıcılıq yolu ötən əsrin ortalarında başlayan istənilən ədibimizin yaradıcılığına konkret zamanın siyasi təlimatlarından, sosial-ictimai münasibətlərindən, onların yaşadığı mühitdən təcrid olunmuş şəkildə yanaşma metodoloji baxımdan səhv olardı və dolğun qənaət çıxarmaq, yaradıcılıq potensialını obyektiv qiymətləndirmək üçün kifayət etməzdi. Biz, ədiblərimizin yaradıcılığını "tarixi kontekstdən qoparmaq" adlandırdığımız belə yanaşmanı qey-

ri-ciddi, elmi nöqteyi-nəzərdən isə hətta ziyanlı kimi qiymətləndiririk. Çünki bu vaxt istənilən əsəri, şeiri və hətta ayrıca götürülən bir sətri, misranı da kontekstdən qoparıb, təhlilini vermək onun müəllifinə münasibətdə, yumşaq desək, haqsızlıqdır. Əfsus ki, belə yanaşmalara həm keçmişdə, həm də indi xüsusilə də müasir "tənqidçilərin" şərhlərində çox tez-tez rast gəlmək olur.

Yuxarıda qısa şəkildə deyilənləri nəzəri alaraq, biz Sərdar Əsədin həyat və yaradıcılığına (bax: 3; 4; 5; 6) məhz belə bir kompleks yanaşmanı, başqa sözlə, tarixi kontekst və ondan irəli gələn siyasi fon, sosial-ictimai münasibətlər, əhatə edən mühit daxilində elmi araşdırma metodunu, başqa sözlə, kontekstual yanaşmanı rəhbər tutmağı qərara almışıq. Bunu ələlxüsus da ona görə zəruri hesab edirik ki, Sərdar Əsədin qısa həyat yolunun və yaradıcılığının mərhələləri, eləcə də şairin ölümündən sonra ona və yaradıcılığına ədəbi ictimaiyyətin münasibətində təzahür edən təzadlar, ilk baxışda qəribə görünsə də, bizim fikrimizcə, qanunauyğun surətdə göstərilən "epoxa"larla, demək olar ki, üst-üstə düşür.

1950-ci illərin əvvəlləri Azərbaycan ədəbiyyatında onunla əlamətdar olmuşdur ki, bu sahəyə bütöv bir nəsil istedadlı şair və yazıçı gəlmiş, ədəbiyyatımıza özünəməxsus yeni nəfəs gətirmişdilər. 1958-ci il sentyabr-oktyabr aylarından etibarən Sərdar Əsəd imzası ilə yazıb-yaradan Sərdar Heydər oğlu Əsədov da daxil olmaqla onların ədəbiyyatımıza gətirdikləri yenilikləri və verdikləri töhfəni obyektiv qiymətləndirmək üçün həmin dövrə ekskurs etmək və yuxarıda haqqında danışdığımız tarixi konteksti xatırlamaq faydalı olardı. Həmin dövrdə ədəbiyyatımızın inkişafına bilavasitə təsir göstərən əsas amillərə diqqət yetirək.

Böyük Vətən müharibəsindən (1941-1945-ci illər) sonrakı ilk onilliklər SSRİ-də, o cümlədən də Azərbaycanda ədəbiyyatın və onun tərkib hissəsi kimi poeziyanın inkişafının həm mürəkkəb və maraqlı, həm də yaradıcı axtarışlar və tapıntılarla zəngin mərhələsi olmuşdur. Çətinliklər və problemlər ondan irəli gəlmirdi ki, istedadlı, həssas, duyğulu, sərrast sözə malik ədiblərimiz yox idi. Hər şeyi mövcud reallıqlar – tarixi kontekst şərtləndirirdi.

1930-cu illərdə, ələlxüsus da onilliyin ortalarından başlayaraq cəmiyyətin həyatının bütün sahələri üzərində, o cümlədən də ədəbiyyat üzərində dövlət nəzarəti son dərəcə sərtləşdirilmiş və gücləndirilmişdi. Müharibənin qaçılmaz olduğunu anlayan SSRİ rəhbərliyi 1930-cu illərin sonları üçün ölkənin bütün resursları, o cümlədən də insan və mənəvi resurslar üzərində tam nəzarət yaratmağa müvəffəq oldu. SSRİ-də geniş miqyasda aparılan, eləcə də respubikamızın ədəbi mühitindən yan ötməyən bu proses kütləvi və amansız repressiyalarla müşayiət olunurdu.

1950-ci illərin əvvəllərində ədəbiyyat sahəsində fəaliyyətə başlayan gənc ədiblər, praktiki olaraq, SSRİ ilə həmyaşıd idilər və bütün bunlar onlar üçün tarix yox, yaşadıqları zaman idi. S.Əsəd "Arxa cəbhələrdə" (Əlyazma variantda şeirin ilkin adı "Bizim nəsil"dir – Bax: 7) şeirində deyirdi:

Yaddaşa yad deyil döyüş illəri,
"Ata" kəlməsi də atayla getdi.
Hələ bərkiməyən oğul əlləri
Nə qədər kimsəsiz körpə böyütdü...
/.../
Yalın ayaqlarla biz getdik işə,
Nənələrin dərdi aşdı başından.
Elə bilirdik ki,
Elə həmişə
Uşaqlar işləyər onca yaşından... /.../ (2, 7)

Yuxarıda çox yığcam şəkildə göstərilən, 1950-ci illərə qədərki tarixi kontekst təkcə Sərdar Əsədin yox, o illərdə ədəbi yaradıcılıq sahəsində fəaliyyətə başlayan gənc ədiblərimizin hamısı-

nın yaradıcılığını motivləndirir, istiqamətləndirir və müəyyənləşdirirdi. Lakin başqa həlledici amillər də mövcud idi.

SSRİ – ideoloji dövlət idi. İdeologiya cəmiyyətin həyatının bütün aspektlərinə, həmçinin də incəsənətə, ədəbiyyat sahəsinə nüfuz edirdi. Ona görə də təəccüblü olmamalıdır ki, hələ 1920-ci illərdə ədəbiyyata xüsusi tələblər irəli sürülməyə, məhdudiyyətlər qoyulmağa başlanmışdı. 1922-ci ildə xüsusi senzura orqanı olaraq, "Ədəbiyyat və nəşriyyat işləri üzrə Baş idarə" ("Qlavlit") yaradılır. 1925-ci ildə qəbul edilən "Bədii ədəbiyyat sahəsində partiya siyasəti" partiya qətnaməsində, qeyri-proletar yazıçıların hamısının proletariat tərəfinə cəlb edilməsi məqsədi qeyd olunmaqla, ədəbiyyat sahəsində proletar ideoloji platformanın üstünlüyü təsbit etdirilir. 1927-ci ildə "Sovet ədəbiyyatı" anlayışı meydana çıxır. 1928-ci ildə qəbul edilən, "Kütləvi oxucuya kitab xidmətinin göstərilməsi haqqında" partiya sənədi ilə bədii ədəbiyyatın üzərinə sovet insanının kommunist mənəviyyatı ruhunda tərbiyəsi vəzifəsi qoyulur. Zamanın qəhrəmanı zəhmətkeş olmalı, ədəbiyyat onu tərənnüm etdirməli, əməksevər sovet insanı – fədakar, yüksək mənəviyyatlı "sovet vətəndaşı" tərbiyə etməli idi. Qarşısında qoyulan bu məsuliyyətli vəzifənin öhdəsindən gəlmək üçün ədəbiyyat xüsusi yanaşma, xüsusi dünyagörüşü işləyib ərsəyə gətirməli idi və belə bir yanaşma partiyanın qərarları və nəzarəti altında Sovet hakimiyyətinin mövcud olduğu ilk onillikdə, 1920-ci illərdən etibarən dönməz surətdə formalaşmağa başlayır.

Beləliklə, XIX əsrin sonları-XX əsrin ilk onilliklərində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri M.F.Axundov və onun ənənələrini davam etdirən M.Ə.Sabir, C.Məmmədquluzadə və başqalarının "tənqidi realizm" üslubunun yerinə tədricən yeni – "sosialist realizmi" metodu gəlirdi.

Bu o deməkdir ki, Azərbaycanda 1950-ci illərdə ədəbiyyat sahəsində qələmini sınamağa başlayan şair və yazıçıların dünyagörüşü, mənəvi dəyərləri və bütövlükdə yaradıcılıq konsepsiyasına tarixi kontekstlə yanaşı, sələflərinin də təsiri çox böyük olmuşdur. Sələflərin həyat və yaradıcılığı gənc ədiblərimiz üçün hər cəhətdən tükənməz mənbə və ibrətamiz nümunə idi.

Beləliklə, bir tərəfdən gerçəkliyin, digər tərəfdən ideoloji təlimatların və nəhayət, sələflərin irsinin təşkil etdiyi tarixi kontekst 1950-ci illər Azərbaycan ədəbiyyatına həlledici nüfuz etməyə bilməzdi və bu meyil elə bir dərəcədə güclü və müəyyənedici idi ki, nə haqda və necə yazmaq lazımdır məsələsi müəllifin "daxili senzoru" səviyyəsində həll olur, kənar nəzarətə, senzuraya praktiki cəhətdən ehtiyac qalmırdı.

Sərdar Əsədin şəxsi arxivində biz kifayət qədər həcmli, təqribən 700 misralıq bir poemanın (1/2 çap vərəqindən geniş) əlyazma nüsxəsini aşkar etmişik. İkinci səhifədən başlayan (bu səbəbdən poemanın adını da müəyyən etmək mümkün deyildir) əsər (bax: 7), Azərbaycanda yaşayan, lakin başqa millətə mənsub olan cavan bir qadının həyatının müəyyən mərhələsini əhatə edir. Poema praktiki olaraq yekunlaşdırılıb, əsərin dili – Sərdar Əsədin 1950-ci illərdə qələminə xas olduğu kimi – sərrast və axarlıdır, müxtəlif obrazlar, xarakterlər dəqiq verilir, qələmə alınan hadisə bitkin işlənmişdir, süjet o qədər həyati təsir bağışlayır ki, sanki hadisələr müəllifin gözləri önündə indi və burada cərəyan edir. Əsər elə bir üslubda yazılıb, intriqa, daxili gərginlik əsər boyu elə bir dərəcədə saxlanılır ki, oxucunu maqnit tək özünə çəkir, sonu bilmək istəyirsən... Belə bir əsər 1950-ci illərin ortalarında çox böyük oxucu marağı doğurardı, lakin həm də güclü tənqidlərə məruz qalardı (əlbəttə, əgər dərc olunmasına icazə verilərdisə). Bunu hamıdan yaxşı Sərdar Əsəd özü bilirdi və poemanın əlyazmasının axırıncı səhifəsində belə bir qeyd etmişdir: "Cəsarət çatsa çap oluna bilər. Mart 1957".

Aydındır ki, burada söhbət hərfi mənada cəsarətdən getmir. Müəllifin qarşısını kəsən, sadəcə olaraq, "daxili senzor" idi. Onu da qeyd edək ki, Azərbaycanda işıq üzü görən bu tip əsərlərdən, bəlkə də, birincisi və ona görə də ən məşhuru, görkəmli yazıçımız, hazırda Azərbaycan Yazıçılar İttifaqının sərdi Anarın 1974-1978-ci illərdə yazdığı "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanıdır.

Lakin bununla bərabər, Sərdar Əsəd də bir şair kimi öz mənsub olduğu ədəbi-ideoloji mühitin nümayəndəsi idi. Bu gün onun yaradıcılığını nə qədər "dissidentləşdirmək" istəsək də, reallıq ondan ibarətdir ki, S.Əsəd öz dünyagörüşü etibarilə dinamik inkişafda olmuş sənətkar idi. Aşağıdakı şeir parçası, bizcə, onun yaradıcılığının bütün cəhətlərini göstərmək baxımından əlamətdardır. Sənətkar "Mən gəlirəm qurultaya" şeirində deyir:

/.../ Mən gəlirəm zirvələrdən
Aşa-aşa;
Yurdumdakı hər yoldaşa,
Vətəndaşa –
Sözüm vardır!..
Böyük zəfər günlərində, –
Qələbələr günlərində
Gözüm vardır!
Öz ömrümün hər anını
İş başında saya-saya,
Qolumdakı bu qüvvəti,
Qəlbimdəki məhəbbəti, –
Gətirirəm qurultaya! /.../ (1)

İşin yeniliyi və nəticəsi: Bütün bunlar göstərir ki, S.Əsəd də daxil olmaqla sovet epoxası səntəkarlarının yaradıcılığına qiymət vermək onlara ilk növbədə epoxal-ideoloji kontekstdə yanaşma lazımdır. Bu kontekst olmadan obyektiv və sağlam elmi nəticələr əldə etmək mümkün deyildir.

İşin nəzəri və praktiki əhəmiyyəti: Tədqiqatın nəzəri əhəmiyyəti bu məqalədən S.Əsədin yaradıcılığı ilə bağlı digər tədqiqatlarda nəzəri qaynaq kimi istifadə imkanları, praktiki əhəmiyyəti isə bu işdən ali məktəblərdə müasir poeziyanın tədrisi prosesində əlavə vəsait kimi istifadə imkanları ilə ölçülür.

Ədəbiyyat

1. S.Əsədov. Mən gəlirəm qurultaya / "Kommunist" qəzeti, 5 Fevral 1956
2. S.Əsədov. "Arxa cəbhələrdə" şeiri /"Ədəbiyyat və incəsənət" qəzeti, 21 Oktyabr 1967, s. 7
3. S.Əsədov. Gənclik illəri / Bakı, "Azərnəşr", 1957, 62 s.
4. S.Əsəd. Cərrah ürəyi /Bakı, "Azərnəşr", 1965, 116 s.
5. S.Əsəd. Yer ulduzu /Bakı, "Gənclik", 1974, 175 s.
6. S.Əsəd. Dağları aşdı sellər /Bakı, "Gənclik", 1977, 127 s.
7. Sərdar Əsədin şəxsi arxivi, XXIV Qovluq, 6-cı Fayl.

Н.Кулиева

Творчество Сардара Асада
с точки зрения эпохально-идеологического подхода

Резюме

Научные исследования, посвященные жизни и творчеству Сардара Гейдар оглу Асадова (Сардар Асада), относящегося к авангардному направлению азербайджанской поэзии XX века, связаны с определенными трудностями. Не только Сардар Асад, но и

творчество любого литератора, начавшего свою литературно-творческую деятельность в середине прошлого века, было так или иначе связано с идеолого-литературными нормами эпохи. Поход к их творчеству изолированно от социально-общественных отношений, среды обитания с методологической точки зрения было бы ошибкой. Этого недостаточно для полного вывода, объективной оценки творческого потенциала.

Мы решили придерживаться следующего комплексного подхода к жизни и творчеству Сардара Асада. За основу берутся исторический контекст, социально-общественные отношения, научные исследования в пределах окружающей среды. Мы считаем это важным потому, что наступило время внести ясность в этапы короткой жизни и творчества Сардара Асада, а также в противоречия, появившиеся в отношении литературной общественности к самому поэту и его творчеству после смерти.

Исследование показывает, что для оценки творчества мастеров советской эпохи, включая Сарадара Асада, в первую очередь необходимо подходить в эпохально-идеологическом контексте. Вне этого контекста невозможно получить объективные и здоровые научные результаты.

Ключевые слова: Сардар Асад, поэзия, азербайджанская литература, азербайджанская поэзия XX века, советская эпоха, творческий метод социального реализма, эпохально-идеологический подход.

N.Guliyeva

The creativity of Sardar Assad at the epochal-ideological apptoach

Summary

The scientific research dedicated to the early life and career of Sardar Assad who belongs to the XXth century of Azerbaijan poetry relates to different difficulties. Not only Sardar Assad, but the creativity of any of our writers, whose way of artistic creativity began in the middle of the last century, was connected with ideological and literary norms of the time. It would be methodologically wrong to approach their creativity in a way separate from the political guidelines of their time, their social relationships and their envirorment. Making full savings is not enough objectively to evaluate creative potential.

We have decided to lead such acomprehensive approach to Sardar Assad's life and work. We base our research on historical context, social relations and the surrounding environment. That is why we consider it important to clarify. The stages of Sardar Assad's short life and creativity, as well as the period after the poet's death, and the controversies that occur to him and his work in the literary community.

Research has shown that writers including Sardar Assad need to be approached first in an epochal-ideological context to evaluate the creativity of Soviet epic writers. Without their context it is impossiblu to achieve objective and scientific results.

Key words: Sardar Assad, poetry, Azerbabaijan literature, poetry of the XX century, Soviet epoch, reolizm of socialism, method of creativity, epochal-ideological approach

Redaksiyaya daxil olma tarixi: 24.02.2019
Çapa qəbul olunma tarixi: 27.10.2019
Filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy tərəfindən
çapa tövsiyə olunmuşdur

TAMARA ƏLİZADƏ
ATU
alizde64@mail.ru
S.Vurğun, 167

QAZAX MÜƏLLİMLƏR SEMİNARİYASININ AZƏRBAYCAN TƏHSİLİNİN İNKIŞAFINDAKI ROLU

Xülasə

Azərbaycan xalqının maariflənməsi məsələsi Azərbaycan Xalq Cümhuriyyətinin qarşıya qoyduğu ən vacib məsələlərdən biri idi. Xalq Maarif Nazirliyi yeni məktəblər, kurslar açmaqla qısa müddətdə ölkədə təhsilin səviyyəsini yüksəltməyə çalışırdı.

Azərbaycan məktəbləri üçün müəllim hazırlamaqda Qori Seminariyasının böyük rolu olmuşdur. Seminariyada Azərbaycan bölməsinin açılması A.O.Çernyayevskinin adı ilə bağlıdır. Onun zəhməti nəticəsində F.Köçərli, Ü.Hacıbəyov, İ.Vəkilov, M.Şıxlinski, kimi ziyalılar yetişdilər. Bu ziyalılar seminariyanın Azərbaycan bölməsinin aşılması uğrunda mübarizə apardılar. Nəhayət, Qazaxda açılmasına nail oldular. Seminariyanın ilk direktoru F.Köçərli oldu. O, fənlərin Azərbaycan dilində keçirilməsinə,dərsliklərin hazırlanmasına və tədrisinə, müəllimlərin seçilməsinə xüsusi diqqət edirdi.

Seminariyanın fəaliyyəti Azərbaycan dilində təhsilin və pedaqoji biliklərin inkişafı baxımından dövrün ən mükəmməl təhsil sistemi idi.

Seminariyada ehtiyacı olan tələbələrə təqaüd verilirdi. Həmin tələbələr 4 il kənd məktəblərində fəaliyyət göstərməli idilər.

Seminariyanın məşhur məzunları S.Vurğun, M.Vəkilov, İ.Şıxlı, M.Hüseyn və başqaları idi.

1999-cu ildə Seminariyanın 80 illik yubileyi qeyd olundu.

2019-cu il noyabrın 3-də prezident İ.Əliyev seminariyanın 100 illiyi haqqında Sərəncam imzalamışdır. Bu Sərəncam Azərbaycan Prezidentin təhsil siyasətinin davamıdır.

Açar sözlər: müəllimlər seminariyası, Qori, təhsil, milli, savadsızlıq, təlim və tərbiyə, ana dili, dərslərin təşkili, F.Köçərli

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin ədəbiyyat, mədəniyyət və incəsənət sahəsi ilə bağlı imzaladığı Sərəncamlar milli-mədəni irsimizə böyük diqqət və qayğının ifadəsidir. O cümlədən Prezidentin "Qazax Müəllimlər Seminariyasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" imzaladığı Sərəncam da bu istiqamətdə görülən işlərin davamıdır. Sərəncamda göstərilir : "2018-ci ilin noyabr ayında Qazax Müəllimlər Seminariyasının yaradılmasının 100 illiyi tamam olur. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarına əsasən, Qazax Müəllimlər Seminariyasının təşkili Azərbaycanın maarif salnaməsinin ən parlaq səhifələrindəndir. Qazax Müəllimlər Seminariyası müstəqil Azərbaycan Respublikasının təhsil işçilərinə gənc nəslin azərbaycançılıq məfkurəsi ruhunda yetişdirilməsi üçün zəngin irs qoymuşdur".

Azərbaycan xalqının maariflənməsi məsələsi Azərbaycan Demokratik Respublikasının qarşıya qoyduğu ən vacib istiqamətlərdən biri idi. XMN yeni məktəblər, kurslar açmaqla qısa müddət ərzində ölkədəki təhsilin səviyyəsini yüksəltməyə çalışırdı. Bu tədbirlər sırasında yaşlıların savadlandırılması da ön planda olmuşdur. Bu məqsədlə 1919-cu ilin 15 sentyabr tarixindən Bakı, Gəncə, Qazax, Şuşa, Şəki və Zaqatala ərazisində Azərbaycan dilini öyrədən xüsusi kurslar

təşkil edilmişdi. 1919-cu ildə artıq Azərbaycanda dövlət hesabına 23 orta ixtisas məktəbi və 617 ibtidai məktəb fəaliyyət göstərirdi.

Azərbaycan məktəbləri üçün müəllim hazırlanmasında 1876-cı ilin 12 sentyabrında Qori şəhərində açılmış Cənubi Qafqaz Müəllimlər Seminariyasının böyük rolu olmuşdur. İlk illərdə rus, erməni, gürcü şöbələrinin mövcudluğu və bir nəfər də olsun azərbaycanlının orada olmaması Azərbaycan ziyalılarını narahat edirdi.

1879-cu ildə Azərbaycan şöbəsinin də fəaliyyətə başladığı Seminariyaya azərbaycanlıların qəbul edilməsində Mirzə Fətəli Axundzadənin, Mirzə Hüseyn Qayıbzadənin xidmətləri böyükdür. Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin açılması isə Aleksandr Osipoviç Çernyayevskinin adı ilə bağlıdır. A.O. Çernyayevski Şamaxıda anadan olmuşdur. O, ilk təhsilini Şamaxı qəza məktəbində almış, Azərbaycan dilini mükəmməl bilmişdir. A.O Çernyayevski xristian olsa da, müsəlman dini görüşlərinə, adət-ənənələrinə yaxından bələd olmuşdur. Seminariyada təhsil müddəti 3 il idi. A.O.Çernyayevski əvvəlcə Naxçıvan və İrəvanda olmuş, sonra isə Gəncə, Şuşa, Şəki, Şamaxı, Bakı istiqamətləri ilə tələbə toplanması işində yorulmadan fəaliyyət göstərmişdir. Onun zəhmətinin nəticəsi idi ki, Şuşadan Firudin bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Baba bəy Səfərəlibəyov, Üzeyir Hacıbəyov, Naxçıvandan Cəlil Məmmədquluzadə, Şəkidən Rəşid bəy Əfəndiyev, Qazaxdan İsmayıl ağa Vəkilov, Məmmədağa Şıxlinski kimi ziyalılar yetişdilər. A.O. Çernyayevski qeyd edirdi ki, həqiqətən demək lazımdır ki, tatar (Azərbaycan) şöbəsinin məzunlarının çoxu avam xalq kütləsi içərisinə təhsil işığı gətirmiş və gətirir.

Azərbaycan ziyalıları uzun illər ərzində seminariyanın Azərbaycan şöbəsinin Azərbaycan şəhərlərinin birinə köçürülməsi və ya başqa bir seminariyanın açılması uğrunda mübarizə aparmışlar. 1914- cü ildə Gəncədə, 1916-cı ildə Bakıda müəllimlər seminariyası açılmışdır (3, 201). Dövlət dili olaraq dərslərin Azərbaycan dilində tədrisi, təhsil islahatlarının aparılması, məktəblərin milliləşdirilməsi, savadsızlığın aradan qaldırılması, Azərbaycan dilində dərs apara bilən müəllim kadrlarının artırılması və s. problemlərin həll olunması yolu kimi seminariyanın Azərbaycan şöbəsinin Qazaxa köçürülməsi vacib bilinirdi. Azərbaycan Xalq Cümhuriyyətinin yaşıdı olan Qazax Müəllimlər Seminariyasının "Zaqfqaziyanın intellektual mərkəzi" hesab edilən Tiflis şəhərinə yaxın olması baxımından da orada açılması planı uğurlu bir addım idi. Həmin dövrdə seminaristlərin böyük hissəsi Qazaxda cəmləşmişdi.

AXC dövründə 22 iyun 1918-ci ildə Qori Seminariyasının Azərbaycana köçürülməsi haqqında Qərardan sonra 10 noyabr 1918-ci ildə Qazax Müəllimlər Seminariyasının təntənəli açılışı oldu. Beləliklə, Azərbaycanda ibtidai məktəblər üçün müəllim hazırlayan ilk tədris ocağı - Qazax Müəllimlər Seminariyası fəaliyyətə başladı. Seminariyanın direktoru vəzifəsinə görkəmli ziyalı Firudin bəy Köçərli təyin edildi. Seminariyanın açılışında yerli komendant Səbri bəy, qarnizon rəisi Camal bəy, qəza rəisi Şıxlinski, xalq məktəbləri müfəttişi Qiyasbəyov, məmurlar, valideynlər iştirak etmişlər. Çıxış edənlər Qazax camaatını belə bir təhsil oçağının açılışı münasibətilə təbrik etmişlər. Dərslər xeyirxah insan Məşədi İbrahim Kosalının seminariyaya bağışladığı malikanədə keçirilirdi. Seminariyanın nəzdində pansion da fəaliyyət göstərirdi. Seminariyada bütün fənlərin Azərbaycan dilində tədrisi həyata keçirilirdi. Müəllim heyəti Əhmədağa Mustafayev, İbrahim Qayıbov, Mirzə Vəliyev, Mustafa Məmmədov, Yusif Qasımov, İsfəndiyar Vəkilov və başqalarından ibarət idi. Məşhur məzunlar sırasında Səməd Vurğun, Osman Sarıvəlli, Mehdixan Vəkilov, İsmayıl Şıxlı, Mehdi Hüseyn, Hacıbala Hacıyev, Mirqasım Əfəndiyev də var idi. Azərbaycanın xalq şairi Səməd Vurğun seminariyanı bitirdikdən sonra Qazaxda, Gəncədə və Qubada Azərbaycan dili və ədəbiyyatı tədris etmişdir.

Seminariyada ehtiyacı olan tələbələrə təqaüd verilirdi. Beləliklə də, kasıblar da təhsil ala bilirdilər. Təqaüd alan tələbələr 4 il kənd məktəbində fəaliyyət göstərmək məcburiyyətində idilər. Firidun bəy Köçərli Xalq Maarif Nazirliyinə ünvanladığı raportda 1918-ci il noyabrın 8-9

da keçirilmiş imtahanların nəticələrini açıqlayaraq bildirirdi ki, müraciət etmiş 42 şagirddən 35-i təhsil almaq hüququ qazanıb. Görkəmli maarifçi yazırdı: "Keçmişdə şan və qüvvət sahibi olan türk milləti öz məişətinə, ayin və adətinə aid yaratdığı qısım-qısım nağıl və hekayələr, hikmətamiz məsəllər, atalar sözləri, nazik mənalı müəmmavə tapmacalar, balalar qəlbi açan düzgülər və yanıltmaclar, heyvanlar qisminə məxsus sayaçı sözləri xatirələrdən çıxıbdır və bu halda unudulmaqdadır. O millət ki öz tarixini, dolanacağını, vətənini və dilini sevir - bu qism əsərləri kəmali şövq və diqqətlə cəm edib ziqiymət sərmayə kimi saxlayır və balalarının ilk təlim və tərbiyəsi onları öyrətməklə başlayır (2, 3).

Abbas Səhhət Firidun Köçərlinin Azərbaycan şairlərinə diqqətini ifadə etmişdir:

Birimiz mərsiyəgunluqda böyük şair idi,
Birimiz sağərə mayil, birimiz cananə.
Birimiz həcvdə yəğma kimi çox mahir idi,
Laübali keçinirdi günümüz rindanə.
O pərişan yuxudan sən bizi bidar etdin,
Doğru, düz yolda çalışmaqlığa vadar etdin (4, 5).

F.Köçərli Seminariyaya rəhbərlik etdiyi dövrlərdə dərsliklərə çox ciddi yanaşırdı. Ana dilinin və tarixin tədrisinə ciddi diqqət yetirirdi. Dərslərin maraqlı təşkili üçün ekskursiyalara aparılırdı. Bunun üçün komissiya da ayrılmışdı.

1920- ci ildə mayın 20-dən 30-dək davam edən Gəncə üsyanında elm və təhsil fədaisi Firidun bəy Köçərli "milli nifaq salmaqda" təqsirləndirilərək iyunun 4-də güllələndi.

Bu hadisə ilə bağlı M.Dilbazi də təəssüfünü belə çatdırır:

Başına tuşlanan düşmən xəncəri
Xalqının qəlbinə tuşlandı sənin.
Bu müdhiş ölümün acı xəbəri
Sağalmaz dərdidir bizim vətənin (, 112).

Seminariyaya Əhməd ağa Mustafayev rəhbərlik edirdi. Onun 1920-ci ildə Qazax Seminariyası yanında Qızlar şöbəsinin fəaliyyət göstərməsində, qızlarla oğlanların bitrgə təsil almaları məsələsində xidməti böyük olmuşdur. Seminariyaya qəbul edilən qızlar arasında Dilrubə Mustafayeva, Dürrə Mustafayeva, Validə Mustafayeva (Dürrənin bacısı), Həbibə Mustafayeva, Dişad Şıxlinskaya və Səlimə Mustafayeva vardı. Bu qızların bəziləri Əhməd ağa Mustafayevin qohumu idi. 1918-1935-ci illərdə seminariyanın 12 buraxılışı olmuşdur. Buranı 658 müəllim bitirmişdir. Onlardan 66 nəfəri qız idi. Qızlar şöbəsi qapalı şöbə idi. Onlar qadın müəllimlərin nəzarəti altında qalır və valideynlərinə təhfil verilirdi. Onların xüsusi geyim forması vardı. Burada təhsil almış qızların çoxu sonradan ali təhsil almış, ictimai xadim kimi yetişmişlər.

1923-1926 və 1929- cu illərdə Seminariyaya Mehdi Hüseynin atası Əli Hüseynov, 1930-1931-ci illərdə Əhməd Qurbanov, 1931-1936-cı illərdə Mirqasım Əfəndiyev, 1936-1940-cı illərdə Mirzə Bağırov, 1940-1942-ci illərdə Məcid Tağıyev, 1942-1947-ci illərdə Gülzar Əfəndiyeva, 1947-1950 və 1954-1959-cu illərdə Əhməd Cəlilov rəhbərlik etmişdir.

1925-ci il iyunun 29-da Azərbaycan üzrə Müəllimlər seminariyalarının müşavirəsi çağırıldı. Bu müşavirədə Qazax Müəllimlər Seminariyalarının adı dəyişdirilərək Qazax Pedoqoji Texnikumu adlandırıldı. Qeyd edək ki, 1930-1932-ci illərdə Azərbaycanda 23 pedoqoji texnikum yaranmışdı. Müəllim hazırlığına görə fəaliyyətdə Bakıdan sonra Qazax texnikumu fəallığı ilə seçilirdi. Bakıda 755 , Qzaxda 405 tələbə fərqi ilə bu müqayisəni müşahidə etmək mümkündür.

Qazax Müəllimlər Seminariyası sonralar Azərbaycan Pedoqoji Texnikumu kimi 40 il fəaliyyət göstərmişdir. 1999-cu ildə Qazax Müəllimlər Seminariyasının 80 illik yubileyi qeyd olunmuşdur. Ümummilli Lider Heydər Əliyev bu münasibətlə söyləmişdir: "Zəngin mədəniyyət və təhsil ənənələrinə malik olan Azərbaycan müsəlman Şərqində dünyəvi təhsilin gerçəkləşdiyi ölkələrdən biri olmuşdur. Qazax Müəllimlər Seminariyasının xalqımızın mədəni həyatında oynadığı rol danılmazdır. Onun təməli üzərində neçə-neçə təhsil ocaqları yaranıb inkişaf etmişdir. bu təhsil məbədi özündən sonra böyük mədəni irs qoymaqla adını Azərbaycan maarif tarixinə əbədi həkk etmişdir. Əminəm ki, müstəqil Azərbaycan Respublikasının təhsil işçilərinin neçə-neçə nəsli də bu zəngin irsdən bəhrələnəcəkdir".

Bu gün Qazax rayonunda BDU-nun Qazax filialının fəaliyyəti Azərbaycan Prezidentinin ardıcıl təhsil siyasətinin nəticəsidir. Bu böyük elm və təhsil ocağı Azərbaycan təhsil ənənəsinə sadiqdir.

1920-ci ildə aprel işğalı böyük planların gerçələşdirilməsini yarımçıq qoydu. AXC- nin cəmi 23 aylıq fəaliyyəti dövründə təhsil sahəsində görülən mühüm işlər sonrakı illərdə də Azərbaycanda təhsilin inkişafında öz müsbət izlərini göstərdi. Cənubi Qafqaz Müəllimlər Seminariyasının tatar (Azərbaycan) şöbəsinin Gürcüstanın Qori şəhərində açılmasına baxmayaraq Qazaxa köçürülüb müstəqil seminariya kimi fəaliyyət göstərməsi XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda müəllim kadrlarının hazırlığında xüsusi mərhələ təşkil edir. Bu zəngin təcrübənin yeni nəsil tərəfindən öyrənilməsi, bəhrələnməsi Azərbaycan elm və təhsil sisteminin inkişafında öz faydasını göstərəcəkdir. Çünki bu elm və təhsil məbədinin milli pedaqoji sistemin formalaşmasında müstəsna rol oynamışdır.

Ədəbiyyat

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild, Bakı, Lider, 2004, 440s. ; II cild, Bakı, Lider, 2005, 470 s.
2. Köçərli F. Balalara hədiyyə. Bakı, 2013
3. Mərdanov M. Azərbaycan təhsil tarixi. I cild, Bakı, Təhsil, 2014, 296 s.
4. Nəbiyev B. Görkəmli tənqidçi və ədəbiyyatşünas (F.Köçərlinin həyat və yaradıçılığı). Bakı, Qızıl Şərq, 1963, 161 s.

T.Alizadeh

The Role of Kazakh Teachers' Seminary in the Development of Azerbaijani Education

Summary

The issue of enlightenment of the Azerbaijani people was one of the most important issues posed by the Azerbaijan Democratic Republic. The Ministry of Public Education was trying to raise the level of education in the country as soon as it opened new schools and courses.

The Gori Seminary played an important role in preparing teachers for Azerbaijani schools. Opening of the Azerbaijani branch at the seminar is connected with the name of AO Chernyaevski. As a result of his work, such intellectuals as F. Kocharli, U. Hajibeyov, I. Vakilov, M. Shikhlinski were brought up. These intellectuals fought for the passage of the Azerbaijani section of the seminary. They finally managed to open it in Gazakh. The first director of the seminar was F. Kocharli. He paid particular attention to the subjects' teaching in the Azerbaijani language, the preparation and teaching of textbooks and the selection of teachers.

The activity of the seminar was the best education system of the time in terms of development of Azerbaijani language education and pedagogical knowledge.

The seminary provided scholarships to needy students. Those students had to work in rural schools for four years.

Famous alumni of the seminary were S. Vurgun, M. Vakilov, I. Shikhli, M. Huseyn and many others.

In 1999, the 80th anniversary of the Seminary was celebrated.

November 3, 2019 I.Aliyev signed the Order on the 100th Anniversary of the Seminar. This order is a continuation of the education policy of the President of Azerbaijan.

Key words: teachers' seminary, Gori, education, national, illiteracy, training and education, native language, lesson organization, F. Kocharli.

Т.Ализаде

Роль Казахской Учительской Семинарии в развитии Азербайджанского образования

Резюме

Вопрос просвещения Азербайджанского народа был одним из важнейших вопросов, поставленных Азербайджанской Демократической Республикой. Министерство народного образования пыталось поднять уровень образования в странеза короткое время открывая новые школы и курсы.

Семинария Гори сыграла важную роль в подготовке учителей для Азербайджанских школ. Открытие Азербайджанского отдела на Семинаре связано с именем А.О.Черняевского. В результате его усилий были воспитаны такие интеллектуалы, как Ф. Кочарли, У. Гаджибеков, И. Вакилов, М. Шихлинский. Интеллектуалы боролись за открытие отдела Азербайджанской семинарии. Наконец им удалось открыть его в Казахе. Первым директором Семинара был Ф.Кочарли. Он обратил особое внимание на преподавание предметов на Азербайджанском языке, разработку учебников и преподавания, а также подбор учителей.

Семинария предоставляла стипендии нуждающимся студентам. Студенты должны были работать в сельской школе в течение 4-х лет.

Известными выпускниками Семинара были С. Вургун, М. Вакилов, И. Шихли, М. Гусейн и многие другие.

В 1999 году исполнилось 80 лет семинарии. 3 ноября 2018 года Президент Ильхам Алиев издал указ о столетии Семинарии. Этот указ является продолжением образовательной политики Президента Азербайджана.

Ключевые слова: учительская семинария, Гори, образование, национальный, безграмотность, обучение и воспитание, родной язык, организация занятий, Ф. Кочарли.

Redaksiyaya daxil olma tarixi: 21.07.2019
Çapa qəbul olunma tarixi: 15.10.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Məfkurə Hüseynova
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLNUR AĞABƏYLİ
Azərbaycan Dillər Universiteti
nurel10@yandex.com

KURT VONNEQUTUN "SALLAQXANA №5" ƏSƏRİNDƏ "QARA YUMOR"

Xülasə

Məqalə Kurt Vonnequtun (1992-2007) əsərlərində "qara yumorun" araşdırılmasından bəhs edir. Məqalənin əsas məqsədi Kurt Vonnequt yaradıcılığında sosial mühit və insan probleminin qarşılıqlı əlaqələrini araşdırmaqdan ibarətdir. Təbii ki, bir məqalə həcmində Kurt Vonnequt yaradıcılığına ümumi şərh vermək mümkün olmasa da, yazıçının yaradıcılığına münasibət bildirməyə cəhd edəcəyik.

Qara yumora mədəniyyətin hər bir növündə rast gəlmək mümkündür, ədəbiyyatda, teatrda, hətta siyasi təbliğatda belə qara yumor elementləri aşkarlamaq mümkündür. Qara yumor müəyyən bir dövrdə baş verən həqiqətləri, real gerçəkliyi əks etdirirərək cəmiyyətə və insanlara çıxış yolu axtarır. "Sallaqxana №5 və ya uşaqların səlib yürüşü" əsərində tez-tez qara yumora müraciət etməkdə məqsədi Vonnequtun müharibəyə, zülmə, əzaba qarşı insanın həssas münasibətini, yaşadığı qorxu və stressi oxucuya rahatca çatdıra bilmək idi. Təbii ki, müharibə insanlarda qorxu yaradır. Vonnequtun özünün də müharibənin canlı iştirakçısı olduğunu nəzərə alsaq, bu qorxunun onu da sarsdığını görmək mümkündür və o, müharibə ilə əlaqəli olan bu qorxunu, dəhşətli vəziyyəti yumor pərdəsi altında təsvir edərək, əslində, ona cavab verməyə çalışır. "Sallaqxana №5" əsərində onun yalnızca qorxusu, zülmkarlığa olan nifrəti əks olunmur, həm də tam olaraq müharibə əleyhinə olan fikirləri oxucuya çatdırmaq istədiyi dərin mənalı mejalarda duyulur.

O, II Dünya müharibəsində Drezdenin bombalanmasını özü şəxsən yaşadığı üçün Billi Pliqrimin simasında özünün başınagələn hadisələri əhvatları, problemləri, yaşantıları canlandırır.

Açar sözlər: *qara yumor, müharibə, kinayə, cəmiyyət, ədəbiyyat, qorxu*

Kurt Vonnequt yaradıcılığı müasir dövrün problemlərini əks etdirməsinə baxmayaraq, indiyədək Azərbaycan ədəbiyyatşunaslığında müstəqil tədqiqat obyekti kimi öyrənilməmişdir. Amerika ədəbiyyatında "qara yumor" un banilərindən olan K. Vonnequt ədəbi yaradıcılığında özünəməxsus bədii üslublardan yararlanmış və bu üzdən roman janrına yeni xarakterik xüsusiyyətlər gətirmişdir .

Məlumdur ki, XX əsr Amerika ədəbiyyatında satira bir çox yazıçıların müraciət etdiyi gülüş növü idi. Bu üzdən həmin dövrün ədəbiyyatında satira və yumorun ifadə vasitələrini görmək olurdu. "Qara yumor" əsrlərdən bəri formalaşan klassik ənənələrlə, ədəbi-estetik meyarlarla nisbətən az bağlı olduğundan, yeni söz deməyə qadir idi. "Qara yumor" la yaranan əsərlərdə müasir dünya daha yığcam və çevik formalarda əks olunurdu. (1).

Ümumiyyətlə, "qara yumor" tarixi kateqoriya olduğu üçün onun ilkin istifadəsinə qədim yunan və Roma sənətkarlarının yaradıcılığında təsadüf edilir. "Qara yumor"un ilkin əlamətlərini qədim yunan ədəbiyyatının gülüş ustası Aristotelin yaradıcılığında görmək mümkündür. Bugünə qədər bir çox ədəbi tənqidçilər "qara yumor"a konkret qayda şəklində tərif verməyə çalışmış və onun xüsusiyyətlərinin araşdırılması yolunda bir çox tədqiqatlar aparmışlar. Britannika ensiklopediyasının redaktorları qara yumoru bu şəkildə təsvir etmişlər: *"Black humor, also called*

black comedy, writing that juxtaposes morbid or ghastly elements with comical ones that underscore the senselessness or futility of life" (2, s.84)

Ədəbi tənqiddə gülüşlə bağlı fərqli mülahizələrin olmasına baxmayaraq, hamı yalnız bir nöqtədə eynifikirdilər. Gülüşdə kinayə, ələsalma istehza sayı nə qədər çox olursa, onun təsiretmə gücü bir o qədər güclü olur və bu üzdən gülüşün ifadə vasitələri kimi qara yumor, satira, ironiya və d. görmək mümkündür.

Yumorun dərəcəsindən asılı olmayaraq, o dil və ədəbiyyatın xüsusi bədii vasitələri sayılan mübaliğə, ironiya və sözoyunu, parodiya, karikatura və s.vasitələrin köməkyi ilə təşkil olunaraq oxucuya mövcud reallığı acı gülüş şəklində çatdıra bilər. Məhz bu sadalanan bədii vasitələri dərindən öyrənməklə müxtəlif əsərlərdə "qara yumor"u aşkarlamaq daha asanlaşmış olar.

Qeyd etdiyimiz kimi, yumorun və eləcə də, "qara yumor"un tarixi qədim zamanlara söykənir. Aristotel, Siseron da daxil olmaqla həm antik dövr, həm də yeni dövr mütəfəkkirləri "qara yumor" haqqında öz fikirlərini müxtəlif şəkildə söyləmişlər. Amma bütün bu mülahizələrdən, fikirlərdən, ideyalardan ən vacibi Ziqmund Freydə məxsusdur. O gülüşə psixoanalitik yanaşmanı atası kimi qiymətləndirilir. O bildirirdi ki, gülüş maskalanmış aqressiyanın əsasında qurulur. Yumor hər kəsin arzuladığı məmnunluğu və ləzzəti ona verir. (3, s.234)

Qara yumora mədəniyyətin hər bir növündə rast gəlmək mümkündür, ədəbiyyatda, teatrda, hətta siyasi təbliğatda belə qara yumor elementləri aşkarlamaq mümkündür. Qara yumor müəyyən bir dövrdə baş verən həqiqətləri, real gerçəkliyi əks etdirirərək cəmiyyətə və insanlara çıxış yolu axtarır. Məsələnin, problemin iki aspektini özündə cəmləşdirən qara yumor, birinci, hadisənin ciddi-əsas tərəffini, ikinci isə gülüş doğuran, şişirdilmiş tərəfini göstərir.

Amerika ədəbiyyatında qara yumor ustadı hesab olunan Kurt Vonnequt da özündən sonra zəngin ədəbi irs qoyan müəlliflərdən hesab olunur. Yaradıcılığına hələ orta məktəb illərindən qəzet redaktorluğu ilə başlayan kurt Vonnequt da artıq gənclik illərindən hekayələr çap etdirir, daha sonra isə onun romanları ərsəyə gəlir. Onun əsərləri və fikirləri cəmiyyətin bütün aspektlərini əhatə edir. II Dünya müharibəsi qorxusu ilə yaşayan bir insanın müharibə əleyhinə olması heç də təəccüblü deyil. O, həmçinin din ilə də bağlı qeyri-adi fəlsəfəyə malik idi.

Kurt Vonnequtun ilk romanları "*Player Piano – Mexaniki piano, The Sirens of Titan - Titanın sirenaları, Mother Night – Qaranlıq ana, Cat's Cradle – Pişiyin beşiyi, God Bless You, Mr.Rosewater or Pearls before Swine – Sağlam olun Mister Rozuoter və ya donuzdan əvvəl mirvarilər, Slaughterhouse-Five or The Children's Crusade – Sallaqxana №5 və ya uşaqların səlib yürüşü* " hesab oolunur. Daha sonralar isə, Vonnequt fəal ədəbi yaradıcılığa davam edir. Beləliklə, bir-birinin ardınca "*Breakfast of Chanpions or Goodbye , Blue Monday – Çempionlar üçün səhər yeməyi, Jailbird – Residivist, Bluebeard – Göysaqqal, Hocus-Pocus – Fokus-mokus və Time quake – Zaman zəlzələsi"* romanları dövrün problemlərini özündə ehtiva edən ən təsirli əsərlər hesab olunur.

"Humanizmə yoluxmuş insan heç vaxt məmur olmaq, general olmaq, prezident olmaq istəməz", "Əgər sən bu qədər ağıllısansa niyə kasıbsan?", "İnsanların qeydinə qalmaq lazımdır, Tanrı öz başının çarəsinə baxa bilər" və s. ironiya dolu ifadələr məşhur Amerika yazıçısı, satiristi Kurt Vonnequtun romanlarındandır. (4, s.33, 37) Ən gözəl romanlardan biri hesab edilən "Sallqaxana 5 və ya uşaqların səlib yürüşü" əsəri ən səs-küylü roman olmaqla K.V.a dünya şöhrəti qazandırdı. Həmin roman dərc olunduğu zaman cəmiyyətdə siyasi, ictimai hadisələrdə qarışıqlıq var idi. Ümumilikdə bu roman bütün zamanların ingiliscə yazılmış ən yaxşı 100 romanından biri hesab edilir. Lakin kitabın çapındanm çox vaxt keçməmiş "Sallaqxana №5 " romanı zərərli kitablar siyahısına düşdü və bütün məktəb kitabxanalarından yığışdırıldı. Şimali Dakotada onun romanlarını tonqala a6tıb yandırdılar. Vonnequtun özünəməxsus ironiyası burda da işə düşdü: *"Mən yeniyetmə olanda insanları yandırırdılar, indi isə kitabları yandırırlar. Zərər yoxdur, bu da inkişafdır."* (5, s.43)

Əsərin mövzusu müharibə motivləri üzərində quqrulmuşdu. Əsas hadisələr 1945-ci ildə Amerika və ingilis hərbi qüvvələrinin Drezdeni bombalamasından götürülüb. Həmin hadisələrin canlı şahidi olan Vonnequt bu boyda ağır faciəvi hadisədə 135000 nəfər adamın öldürüldüyünü qeyd edir. Əsərdə Drezden şəhərinin xarabalıqlarını, minlərlə insanın adi şeylər üstündə güllələnməsini və bütün bu hadisələrin yazıçıda buraxdığı acı və dərin hissləri əks etdirir. Əsərin ilk cümləsi belədir: "All this happened, more or less. The war parts, anyway, are pretty much true. Demək olar ki, yazdıqlarımın hamısı həqiqətdir, ən azından müharibə ilə bağlı hissə". (6, s.1)

Romanın əsas qəhrəmanı Billi Pliqrim, demək olar ki, yazıçının özüdür. O, Billi Pliqrimin simasında özünün başınagələn hadisələri əhvatları, problemləri, yaşantıları canlandırır. Lakin romanda həqiqət və təxəyyül iç-içə keçirilib sanki, reallıq və uydurma arasındakı sərhədlər itirilib. Əsərdə adi bir bəhanə ilə insanları öldürdüklərini yazan Vonnequt insanların zalımlığını dilə gətirir: "One guy I knew really was shot in Dresden for taking a teapot that wasn't his." (6, s.1)

Yumoru və sərtliyi birləşdirərək, məşhur əsərlər yaradan XIX əsrin satira ustası Kurt Vonnequt demək olar ki, ömrünün 20 ilini məhz bu qeyd etdiyimiz "Sallaqxana №5" əsərinə həsr etmişdir. Lakin o özü hesab edirdi ki, bu əsər heç də gözlədiyi kimi uğurlu alınmayıb. Məhz qara yumor janrını seçməyi əslində ona belə imkan verib ki, o, bu əsərdə müharibə kimi ağır və qəliz mövzuya yanaşa bilib. " War is not an indicator of glory and heroism, but an uncontrolled catastrophe for all involved" yazan Vonnequt belə düşünür ki, "Müharibə dəhşətlidir, qorxuludur. Müharibə əzəmət və qəhrəmanlıq göstərici deyil, müharibə ona cəlb olunanlar üçün idarə olunması mümkün olmayan fəlakətdir." (6, s.25)

Bu əsərdə tez-tez qara yumora müraciət etməkdə məqsədi Vonnequtun müharibəyə, zülmə, əzaba qarşı insanın həssas münasibətini, yaşadığı qorxu və stressi oxucuya rahatca çatdıra bilmək idi. Təbii ki, müharibə insanlarda qorxu yaradır. Vonnequtun özünün də müharibənin canlı iştirakçısı olduğunu nəzərə alsaq, bu qorxunun onu da sarsdığını görmək mümkündür və o, müharibə ilə əlaqəli olan bu qorxunu, dəhşətli vəziyyəti yumor pərdəsi altında təsvir edərək, əslində, ona cavab verməyə çalışır. "Sallaqxana №5" əsərində onun yalnızca qorxusu, zülmkarlığa olan nifrəti əks olunmur, həm də tam olaraq müharibə əleyhinə olan fikirləri oxucuya çatdırmaq istədiyi dərin mənalı mejalarda duyulur.

Əsərdə qəhrəmanlar bədbəxt hadisələrlə qarşılaşır və başa düşürlər ki, talelərini dəyişmək mümkünsüz bir şeydir. Müharibə ilə yanaşı dini də sorğu-sual edən müəllif bəzə özü elə verdiyi sualları kinayəli formada cavablandırır. O, öz həyatında məna, qayda-qanun, nizam-intizam, səliqə-sahman axtaran insanlara da yumoristik hisslərlə yanaşır və insanların heç bir mənası olmayan, boş, nizam-intizamsız cəmiyyətdə yaşadığını vurğulayır. Məsələn, Vonnequt belə bir sual verir, "Sizin incəsənətiniz nə vaxt sizi razı salıb? O nə vaxt çərçivələnib və sərgidə göstərilib? O nəvaxt çap olunub və satılıb? O nə vaxt tərifləmib və tənqid olunub? Yalnız kinayəli insan belə suallar verə bilər və real mənasını gizlədə bilər" Başqa bir maraq doğuran sual isə belədir, "Əgər dünyanı Allah yaradıbsa, onda Allahı kim yaradıb?" (4, s.39, 47)

Kurt Vonnequtun bu əsərdə qara yumordan istifadə etməsi əsəri yüksək səviyyədə yaradıcı məhsula çevirir. Məhz o istifadə etdiyi qara yumor hesabına öz məqsədinə nail olaraq, oxucuya istədiyi mesajı ötürə bilir.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Abdullayeva Y. XX əsr ədəbiyyatında modernizm, B., Mütərcim, 2005, 107 s.
2. Uphaus, R.W. Expected Meaning in Vonnegut's Dead-End 168. Fiction. Novel, 1975, №2
3. Gournelos T. , Greene V. A decade of dark humor. The university press Mississippi, 2011, 248 p.

4. Sumner G.D. Unstuck in Time, A journey through Kurt Vonnegut's Life and Novels. Seven Stories Press, 2011, 290 p.
5. Шперлин К.А. О жанре романов Курта Воннегурта. В кн.: Проблемы теории романа и рассказа. Рига, 1972, с.118-133.
6. Vonnegut K. Slaughterhouse-Five or The Children's Crusade, Vintage, 2000, 480 p.
Internet:
7. www.spaceagecity.com/vonnegut
8. https://www.newyorker.com/books/page-turner/what-kurt-vonneguts-slaughterhouse-five-tells-us-now
9. https://www.sparknotes.com/lit/slaughter/

G.Aghabayli

The black humor in "Slaughterhouse-Five" by Kurt Vonnegut

Summary

The article deals with the research over the black humor in Kurt Vonnegut's plays. The main purpose of the article is to explore the relationship between the social environment and the human problem in Kurt Vonnegut's works. Of course, it is impossible to give a full overview of Kurt Vonnegut's works in one article, but we tried to analyse the core motives. Black humor can be found in every sphere of culture, in literature, theatre, and even in political views. Black humor is a way to search the solution of the problems of society and people, reflecting the realities that occurred over a period of time.

The purpose of his frequent reference to black humor in the work of "Slaughterhouse-Five or The Children's Crusade" was to indicate Vonnegut's sensitive attitude to war, cruelty of the world and through this way to share his fear and stress with the reader. Of course, war causes fear. Centring on the infamous fire-bombing of Dresden in the Second World War, Billy Pilgrim's , the main hero's odyssey through time reflects the journey of our own fractured lives as we search for meaning in what we are afraid to know.

The aim of this book, which is often addressed to black humor, was to enable Vonnequt's sensitive attitude to war, oppression, and suffering to relieve the reader of his fears and stress. Of course, war causes fear. Given that Vonnequt itself is a vibrant participant in the war, it can be seen that this fear has shaken him, and he has, in fact, portrayed this war-related fear, the horrific situation under the guise of humor, in fact. In his work, "No 5" does not only express his fear, his hatred for oppression, but also his deep sense of meaning that he wants to convey to his readers.

Key words: black humor, war, irony, society, literature, fear

Г.Агабейли

Черный юмор в «Бойня номер пять» Курта Воннегута.

Резюме

Данная статья посвящена исследованию черного юмора в пьесах Курта Воннегута. Основная цель статьи - исследовать взаимосвязь между социальной средой и человеческой проблемой в работах Курта Воннегута. Конечно, это невозможно дать полный обзор работ Курта Воннегута в одной статье, но мы попытались проанализировать основные мотивы. Черный юмор можно найти в любой сфере культуры, в литературе, театре и даже в политических взглядах. Черный юмор - это способ поиска решения проблем общества и людей, отражающий реалии, произошедшие за определенный период времени.

Целью его частого упоминания черного юмора в работе «Бойня номер пять, или Крестовый поход детей» было показать чуткое отношение Воннегута к войне, жестокость мира и таким образом поделиться своим страхом и стрессом с читателем. Конечно, война вызывает страх.

Сосредоточившись на печально известной бомбардировке Дрездена во время Второй мировой войны, «Билли Пилигрим», одиссея главного героя во времени, отражает путешествие наших раздробленных жизней, когда мы ищем смысл в том, чего боимся знать.

Целью этой книги, которая часто адресована черному юмору, было дать возможность чувствительному отношению Воннекута к войне, угнетению и страданиям избавить читателя от его страхов и стресса. Конечно, война вызывает страх. Учитывая, что сам Воннекут является активным участником войны, можно видеть, что этот страх потряс его, и он фактически изобразил этот связанный с войной страх, ужасающую ситуацию под маской юмора, фактически. В своей работе «№ 5» выражает не только свой страх, свою ненависть к притеснениям, но и глубокое чувство смысла, которое он хочет донести до своих читателей.

Ключевые слова: *черный юмор, война, ирония, общество, литература, страх*

Redaksiyaya daxil olma tarixi: 15.06.2019
Çapa qəbul olunma tarixi: 25.10.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Yeganə Abdullayeva tərəfindən tərəfindən çapa tövsiyə olunmuşdur

MÜNDƏRİCAT

DİLÇİLİK

МАФКЮРА ГУСЕЙНОВА
КАТЕГОРИЯ СКАЗУЕМОСТИ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ 3
ZƏRİFƏ AVİLOVA,
ZƏRİFƏ MƏMMƏDOVA
TİBB TƏMAYÜLLÜ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ AZƏRBAYCAN DİLİNDƏ BƏZİ FONETİK HADİSƏLƏRİN TƏDRİSİ PROSESİNDƏ QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI 8
VÜSALƏ AĞABƏYLİ
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ƏDƏB-NƏZAKƏT KATEQORİYA VƏ ANLAYIŞININ LEKSİK VAHİDLƏRLƏ İFADƏ İMKANLARI 13
ƏDALƏT ABBASOV
SİNTAKTİK SEMANTİKA BAXIMINDAN ADLIQ CÜMLƏLƏRİN DİGƏR SADƏ CÜMLƏ NÖVLƏRİ İLƏ MÜQAYISƏSİNƏ DAİR..... 19
ŞƏLALƏ ƏLİYEVA
FRANSIZ DİLİNDƏ ARTİKL NİTQ HİSSƏSİNƏ DAİR MƏNTİQ VƏ YA REFERENSİYA NƏZƏRİYYƏSİ 25
RAMİLƏ NƏSİROVA
MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ CİNS VƏ HAL KATEQORİYASI İLƏ BAĞLI ANOMALİYALAR..... 31
SUGURA MAHARRAMOVA
PRAGMATIC PRESUPPOSITIONS..... 40
MƏHƏRRƏM ORUCOV
FRANSIZ DİLİNİN TƏDRİSİNDƏ OYUNLARIN VƏ DİGƏR AKTİVİTƏLƏRİN ƏHƏMİYYƏTİ..... 45
KÖÇƏRLİ GÜLŞƏN
ONOMASTİK VAHİDLƏRİN DİLÇİLİKDƏ YERİ..... 50
NAİZƏ SALMANOVA,
MEHRİBAN ƏLİYEVA
MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SADƏ CÜMLƏ TƏRKİBİNDƏ FİTURE PERFESCT CONCİNİOUNS ZAMANININ MÜQAYİSƏLİ XARAKTERİSTİKASI VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ 55
AYNUR MİRİYEVA
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ AUTENTİK MATERİALLARDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ 60
AYNURƏ HÜMBƏTOVA
İNGİLİS DİLİNDƏ TƏRKİBİ FEİLLƏRİN SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ 66
AYTƏN KAZIMOVA
QEYRI-İXTİSAS FAKÜLTƏLƏRİNDƏ İŞGÜZAR İNGİLİS DİLİNİN TƏDRİSİNİN SƏMƏRƏLİLİYİNİ ŞƏRTLƏNDİRƏN DAXILİ VƏ XARICİ AMİLLƏR..... 72
MƏLAHƏT ƏHMƏDOVA
SÖZ YARADICILIĞINDA OMONİMLƏRİN YERİ..... 78

KÖNÜL QOCAYEVA
ZENFİRA NİFTƏLİYEVA
AVSTRALİYA İNGİLİSCƏSİNİN FONOSİSTEMİNİN ÖYRƏNİLMƏSİ VƏ YARANMASI TARİXİ 85
MƏLAHƏT ABDULLAYEVA
MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİİLLƏRİNDƏ ZAMAN KATEQORİYASININ MƏNASI İLƏ ƏLAQƏLI OLAN TEMPORAL LEKSİKA 90
ESMIİRA MƏMMƏDOVA
İNGİLİS DİLİ FRAZEOLOGİZMLƏRİNIN BAŞQA NÖV SƏRBƏST SÖZ BİRLƏŞMƏLƏRİNDƏN FƏRQLİ VƏ OXŞAR CƏHƏTLƏRİ,DİLÇİ ALİM VƏ TƏDQİQATÇILARIN FİKİR VƏ MÜLAHİZƏLƏRİ 95
RƏNA MUSTAFAYEVA
УРОВНИ ВЛАДЕНИЯ РУССКИМ ЯЗЫКОМ КАК ИНОСТРАННЫМ В СИСТЕМЕ ВУЗОВСКОГО ОБРАЗОВАНИЯ 100
ZÜMRÜD QAFARLI,
AYNUR ƏSGƏRZADƏ
ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN ROLU (ingilis dili materialları əsasında) 105
SEVİNC ƏLİYEVA
İNGİLİS DİLİNDƏ FEİLİ İDİOMLAR 110
SONAXANIM İMANOVA
SƏFƏVİLƏR DÖVLƏTİNDƏ AZƏRBAYCAN DİLİ 115
ЛЕЙЛА ЭМИНОВА
ИЗУЧЕНИЯ СЕМАНТИКИ ПОСЛОВИЦ И ПОГОВОРОК В СОВРЕМЕННОЙ АНГЛИЙСКОМ И РУССКОМ ЯЗЫКАХ 120
VÜSALƏ HƏSƏNOVA
KOREYA VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN MÜQAYİSƏLİ TƏDQİQİ 125
ELDOST İBRAHİMOV
URDU DİLİNDƏ İŞLƏNƏN FARS MƏNŞƏLİ SÖZLƏRİN CİNSİ 130
XATİRƏ NƏCƏFOVA
MÜASİR AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ SƏNƏT-PEŞƏ TERMINLƏRİNİN STRUKTUR-SEMANTIK XÜSUSİYYƏTLƏRİ 136
ŞAHİN YUSİFLİ
"شطرنج" KOMPONENTLİ LEKSİK VAHİDLƏRİN FARSDİLLİ ƏDƏBİYYATIN ZƏNGİNLƏŞMƏSİNDƏ ROLU 142
CƏMALƏ HÜSEYNOVA
EKSPRESSIV NITQ AKTLARI: EKSPRESSIVLƏR 149
ZAHİRƏ KAZIMOVA
XARİCİ DİLİN ÖYRƏDİLMƏSİNDƏ SİFAHİ NİTQ 156
SƏDAQƏT QASIMOVA
DİL VƏ NİTQ KOMPONENTLƏRİNİN PARALELİZMİ 161
HÜZURƏ AĞAYEVA
ORTA MƏKTƏBLƏRDƏ İBTİDAİ TƏHSİL SƏVİYYƏSİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİNİN SƏMƏRƏLİ YOLLARI (ingilis dili materialları əsasında) 166
FƏRİD İBRAHİMLİ
MORFOLOJİ STRUKTURDA ZAMAN 173
VƏFA PİRİYEVA
DOĞMA DİLİN TƏSİRİNDƏN İNGİLİS DİLİNDƏ TƏZAHÜR EDƏN PROSODİK VƏ İNTONASİYA SƏHVLƏRİ 179

SƏFURƏ ABDURAHMANOVA
ŞİFAHİ NİTQİN TƏDRİSİNDƏ TEXNİKİ VASİTƏLƏRİN ROLU 186
KÖNÜL ALLAHYAROVA
İNTONASİYA: FUNKSİYALARI VƏ NÖVLƏRİ 193
PƏRVİNƏ KƏRİMOVA
GÜNEL BAYRAMOVA MEHDİYEVA
ПРИМЕНЕНИЕ МОБИЛЬНЫХ УСТРОЙСТВ В ИЗУЧЕНИИ ЯЗЫКА 198
RƏNA ƏLİYEVA
İSPAN DİNİ FRAZEOLOGİZMLƏRİNDƏ VARİANTLILIQ 205
VÜSALƏ CƏFƏR-ZADƏ
AZƏRBAYCAN DİLÇİLİYİNDƏ MƏTN SİNTAKSİSİNİN PROBLEMLƏRİNƏ
DAİR BƏZİ QEYDLƏR 211
ELNARƏ NİFTƏLİYEVA
SİNTAKTİK YOLLA ƏMƏLƏ GƏLƏN ENONTİOSEMİYA HADİSƏSİ 216
KƏMALƏ ƏLİYEVA
CÜMLƏNİN FORMALAŞMASINDA KÖMƏKÇİ
NİTQ HİSSƏLƏRİNİN ROLU 221

ƏDƏBİYYATŞÜNASLIQ

SONA VƏLİYEVA
HÜSEYN CAVİD VƏ MÜASİRLƏRİ:
QURBANƏLİ ŞƏRİFZADƏ 229
ГЮЛЬМИРА КУРУОГЛУ
О ПЕРЕВОДЕ НА ТУРЕЦКИЙ ЯЗЫК ПОЭМЫ Н.В. ГОГОЛЯ
«МЁРТВЫЕ ДУШИ»: АНАЛИЗ ПЕРЕВОДА ПОСЛОВИЦ 236
BİLAL HÜSEYNOV,
AZƏRBAYCAN FOLKLORUNDA JANRDAXİLİ DƏYİŞMƏLƏR
(Muğan folklor örnəkləri əsasında) 246
QƏRƏNFİL RZAYEVA
XIX ƏSR AZƏRBAYCAN MAARİFÇİLİYİ VƏ MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN
AZƏRBAYCANIN İCTİMAİ-SİYASİ VƏ
MƏDƏNİ-FƏLSƏFİ FİKİR TARİXİNDƏ ROLU 257
ƏTRABƏ GÜL
KEÇƏN ƏSRİN 60-80-Cİ İLLƏR AZƏRBAYCAN BƏDİİ NƏSRİNDƏ
ARXETİPLƏRİN SİMVOLİK MƏZMUNU 264
QÖNÇƏ SƏFTƏROVA
AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATINDA
İLAN KULTUNUN MİFOLOJİ SƏCİYYƏSİ 270
VESİLE ŞEMŞEK
RUS EDEBİ SIMALARINDAN L.N.TOLSTOY VE
İSLAM PEYGAMBERINE DAİR GÖRÜŞLERİ 277
ŞÖHRƏT SƏLİMOV (SƏLİMBƏYLİ)
RUHİ BAĞDADİ POEZİYASINDA GÖZƏLLİK KONSEPSİYASI 283
AQŞİN DADAŞ-ZADƏ
XIX ƏSRİN SONU - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ
AZƏRBAYCAN DRAMATURGİYASINDA İCTİMAİ-FƏLSƏFİ
DÜŞÜNCƏNİN BƏDİİ TƏSVİRİ 291
АЙТАН ГУСЕЙНОВА
ТЕМА СЕМЬИ В РАССКАЗАХ Л. УЛИЦКОЙ 299

ELZA BABAYEVA
HİKMƏT ZİYA TƏMSİLLƏRİNİN İDEYA-MƏZMUNU VƏ
SPESİFİK XÜSUSİYYƏTLƏRİ 304
FAİQ XALIQOV
TƏHSİLDƏ ŞƏXSİYYƏTYÖNLÜ
TƏRBİYƏNİN METODİKASI 311
REYHANƏ CƏFƏROVA
TÜRK-AMERİKAN ƏDƏBİYYATININ FORMALAŞMASINDA HALİDE
EDİB VƏ SELMA EKREMİN ROLU 318
ÖZTÜRK ENVER FAZLIOĞLU
AHİSKA TÜRKLƏRİNİN SÜRGÜN ƏDƏBIYYATININ TARİXİ
GENEZİSİ VƏ ƏDƏBİ TİPOLOGİYASI 325
ASLAN AYGÜN
MƏHƏMMƏD İQBAL VƏ İSLAM CƏMİYYƏTİNİN NİZAMİ 334
VƏSİLƏ VƏLİYEVA ZİTA HÜSEYNOVA
TOMAS VULFUN HƏYAT VƏ YARADICILIĞI 339
NATELLA QULİYEVA
SƏRDAR ƏSƏD YARADICILIĞI EPOXAL-İDEOLOJİ
YANAŞMA MÜSTƏVİSİNDƏ 345
TAMARA ƏLİZADƏ
QAZAX MÜƏLLİMLƏR SEMİNARİYASININ AZƏRBAYCAN
TƏHSİLİNİN İNKIŞAFINDAKI ROLU 350
GÜLNUR AĞABƏYLİ
KURT VONNEQUTUN “SALLAQXANA №5” ƏSƏRİNDƏ “QARA YUMOR” 355

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***Filologiya elmləri doktoru, professor* Nadir MƏMMƏDLİ**

Dizayn: Kamran İbrahimov
Texniki redaktor: **Yadigar Mirbagırzadə**

Çapa imzalanmış 10. 12 2019.
Şərti çap vərəqi 45,5 Sifariş № 15
Kağız formatı 60x84 1/8. Tiraj 300.

Jurnal "Elm və təhsil nəşriyyat-poliqrafiya" müəssisəsində elektron nüsxə əsasında çap olunmuşdur.
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 055 426 -72-27
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.